SEYİD CƏFƏR PİŞƏVƏRİ

# XATİRƏLƏR
## (1941-1945)

**21 Azər hərəkatının 60 illiyinə həsr olunur**

**Azərbaycan Demokrat Firqəsinin nəşri**

**Bakı 2005**

Tərtib edən: **Yədulla Kənani (Nəminli)**

Komputer: **Jalə Nadir qızı**

Azərbaycan Milli Hökumətinin yaranmasında Mürsəl Hatəmzadə bir fədai başçısı kimi iştirak etmişdir. O, mühacirət illərində tibb sahəsində alimlik dərəcəsinə qədər yüksəlmişdir.

Mərhumun oğlu Elşən Hatəmzadə atasının 80 illiyi ilə əlaqədar bu kitabın nəşrinə yardım etmişdir.

**S.C.Pişəvəri.**
**Xatirələr. Bakı, ( ), 2005. 395 səh.**

**Tərtibatçıdan:**

Oxucuya təqdim olunan bu dəyərli əsər Seyid Cəfər Pişəvərinin Azərbaycan Respublikasının siyasi partiya və ictimai təşkilatlar arxivində saxlanılan əlyazmasından köçürülmüşdür.

Seyid Cəfər Pişəvərinin bu zəngin əsərində tamamilə onun yazı forması qorunmuş, yalnız bəzi sözlərin mənası müasir Azərbaycan dilinə uyğun və habelə aydın olmayan sözlərin yerinə mötərizə içində izah edilmişdir.

S.C.Pişəvəri öz xatirəsində Milli Hökumətdən qabaqki dövrü yəni ikinci dünya müharibəsi və müttəfiqlərin İrana daxil olmasını və həmçinin Milli Hökumət quruluşunu bütün təfərrüfatilə açıqlamışdır. O, bu əsərdə fədai başçıları Məcid Məhəmmədivənd, Aram Zadəgan, Məmiqulu Sadiqi və Mir Əbülfəzl Haşiminin fədai dəstələrinin fəaliyyəti haqqında yazdıqları xatirələri əks etmişdir.

Azərbaycan Demokrat Firqəsi rəhbərliyinin göstərişinə əsasən Azərbaycanın görkəmli şairi Haşım Tərlanın "21 Azər-Pişəvəri" poeması və "Firqə" adlı şerləri bu qimətli əsərin sonuna əlavə edilmişdir.

Qeyd etməliyik ki, bu əsər Azərbaycan xalqının gələcək milli azadlıq mübarizəsində təcrübə cəhətdən son dərəcə önəmli və zəngin bir əsərdir. Azərbaycan xalqının bütün mübariz oğul və qızlarına bu əsəri oxumağı tövsiyə edirik.

**Yədulla Kənani (Nəminli)**

1-2　　　13　　　(1)

بو نهضتدن ایره‌لی سیاسی فرقه و اجتماعی تشکیلاتلار (آذربایجاندا)

رضا خان حکومتی‌نین بو قدر ایراندا گوزه دگن سیاسی حرکت و اجتماعی تشکیلاتلاری اوزدن
اورتادان آپاریب مقابله برقرار اولدوغونو بیلیریک. حتی بو رژیمی میدانا چیخماسی‌نین بیرینجی ۱۹۱۴-۱۹۱۷ جهان
ساواشی‌ندان صونرا ایرانین شمال منطقه‌لرینده اکیلاندی. آذربایجاندان
خراساندا جبهه کسب ایدن انقلابی حرکتینی باسدیریلماسی و تهراندا گونده‌ی بیر آدلیم
... فقط ... عکس العمل
تغالار ایدن یالانچی فرقه‌لر
ایدیلر ... آرا دکلیدیر.

رضاخان دوره‌سی دیگر اولاراق سیاسی فرقه‌لرین سقوطی دوره‌سی اولموشدور. بو دوره‌ده
ایرانین هیچ بیر نقطه‌سی ملی یا ملی براجتماعی تشکیلات میدانا چیخا بیلمیشدیر. حتی مرحوم سلیمان
میرزا اسکندری ۱۹۲۱-۱۹۲۰ تاریخنده تاسیس ایتدیگی اجتماعیون عمومی تشکیلاتی ده
حلقه‌یا ... ... بیلمدیگی ... گیزلی بیر شکلده کلدیر
خصوصاً آذربایجان بو جهتدن داها دالی قالمیش حالده اولموشدور.
بو آراده مرحوم شیخ محمد خیابانی‌نین رهبرلیک ایتدیگی حرکت (قیام) بیر بیوک ایلد تقید اولونور
حزب یا دسته هیچ بیر جدی موسسه ... آذربایجان آدینا رسمی اولاراق سلیمان میرزانین
تهراندا ... قوردیقی ضعیف اجتماعیون عمومی فرقه‌سی بیلیم بورادا
علی اصغر ترتیب زاده‌نی خودلیله لگنی ... درشتغاله چیلیکی بیلیمه‌میشی
جامعه‌ده بیر ... میکدیر.
(داریلقه‌ده) ... تاریخده بعضی زحمتکش وردیش ... تشکیل تاپان
ایران کمونیست فرقه‌سینی ... آذربایجان تشکیلاتی جدا محدود ده
وثوق الدوله‌ گیزلی فعالیت گوسترمیشی یا ... اوزمان
تبریزده شهربانی‌نین رئیسی وظیفه‌سینی ایفا ایدن سرهنگ ... تهرانینی ایشی
ترتیب ایرمیش اللیه بو ... اودونی فعال عنصر لاری باشقه آزادلیق‌چیلار
ایله برلیکده قصر قجر حبسی‌نه گیله‌ده زندانه بکم دراید...یمیشدیر.
بیر سوزله دیمک اولاراق رضاخانین سقوطی و دموکراتیک قوه‌لرین ایرانه
دارد اولدوقلاری آذربایجان سیاست و تشکیلات ... هیچ بیر کیشی ...

## Ön söz

***Oxucuya təqdim olunan bu əsərdə S.C.Pişəvərinin 1320-1325 (1941-1946)-ci illər arasında Azərbaycanda baş verən hadisələrlə əlaqədar xatirə və mülahizələri bütün incəlikləri ilə öz əksini tapmışdır.***

Müttəfiqlərin İrana daxil olması ilə diktatorluq rejiminin dağılması ölkədə yeni vəziyyətin yaranmasına səbəb oldu. Azərbaycanda xalq hərəkatı canlanmağa başladı. Müxtəlif cəmiyyətlər və təşkilatlar yarandı. Bu geniş xalq hərəkatının əleyhdarları da sakit oturmadılar. S.C Pişəvəri Azərbaycanda başlanan azadlıq mübarizəsinin geniş miqyas almasından və buna qarşı çıxan dövlət məmurların fitnə və törətdikləri cinayətlərdən geniş söz açır. Eyni zamanda alman faşizminin avropada irəliləməsinə göz tikən mürtəce qüvvələr əleyhinə Azərbaycanın qabaqcıl şəxsiyyətləri və zəhmətkeş kutlələri onlara qarşı mübarizəyə qalxaraq, antifaşist təşkilatı yaratdılar.

S.C.Pişəvəri Azərbaycanda yaranan digər təşkilatlara öz xatirələrində geniş yer verir. Azərbaycan Zəhmətkeşlər Təşkilatının yaranmasını geniş surətdə izah edir və bu sahədə daha artıq fəaliyyət göstərən bir neçə nəfərin o cümlədən Israfil Gadiri, Hüseyn Rizvan, Əhməd İslamidən ad aparır. Bu təşkilatın təkcə Təbrizdə yox, Azərbaycanın başqa şəhərlərində şöbələrinin də yaranması haqqda məlumat verir. Azərbaycan Zəhmətkeşlər Təşkilatı əsasən aşağı təbəqəyə mənsub olduğundan Tehrana az əhəmiyyət verirdi. Bu təşkilatın rəhbərləri Azərbaycan dilinin yayılmasını və onun nə qədər əhəmiyyətə malik olduğunu dərk edirdilər.

Azərbaycan zəhmətkeşlərinin xüsusilə fəhlə sinfinin mənafeini müdafiə edən Həmkarlar Ittifaqı da fəaliyyətə başladı. Həmkarlar ittifaqının yaradıcılarından olan Qulam Adəmpəra və Məşədi Qüdrət kəlkətəçi fabrikində fəhlələ həmkarlar ittifaqiyaratdılar. Azərbaycan valisi Fəhimi yüksəlməkdə olan fəhlə

hərəkatına və azadlıq uğrunda aparılan mübarizəyə qarşı fitnələrə əl atsa da xalq hərəkatının qarşısını almaq mümkün olmadı. Xəlil Inqilab kimi avantüristlərdən istifadə edərək, yeni Həmkarlar İttifaqının yaradılması da baş tutmadı. Baxmayaraq ki, Xəlil Inqilab özünün avantürist hərəkətləri ilə polis və fəhlələr arasında toqquşma yaranmasına zəmin hazırladı və nəhayət məğlubiyyətə uğrayan Xəlil İnqilab Tehrana sürgün edildi.

Mötərizədə qeyd edək ki, Qulam Adəmpəra 21 Azər hərəkatının fəal iştirakçılarından biri olmuş. O, ailə və qardaşı Surxay ilə birlikdə 1946-ci ilin dekabrında Sovet Azərbaycanına mühacirət etmiş, və Ağdam şəhərində məskunlaşmış, uzun müddət ADF Ağdam şəhər komitəsinin sədri işləmişdir.

S.C Pişəvəri Azərbaycan Cəmiyyəti adı ilə fəaliyyət göstərən təşkilata da öz münasibətini bildirib. Ilk dəfə Azərbaycan və Fars dilində həmin cəmiyyətin orqanı olan "Azərbaycan" qəzetinin nəşr edilməsinədə geniş yer vermişdir.

S.C.Pişəvərinin xatirəsində "Azadlıq Cəbhəsi" adlanan təşkilata da geniş yer verilir. "Azadlıq Cəbhəsi" onun təşəbbüsü ilə yaranmışdır. 40-dan artıq Tehranda və Təbrizdə çıxan qəzetlər həmin cəbhə ətrafında birləşmişdir. "Azadlıq Cəbhəsində" qəzet redaktorlarından başqa, tanınmış milli şəxsiyyətlər də iştirak edirdilər.

S.C.Pişəvəri Hizbi-Tudeyi-İranın Azərbaycan təşkilatının fəaliyyəti ilə əlaqədar öz düşüncə və mülahizələrini geniş formada izah etmişdi. O, Hizbi-Tudənin nümayəndələrinin Azərbaycan mühitinə uyğun gəlməyən radikal çıxışlarını mənfi qiymətləndirir. Tehrandan Təbrizə gələn nümayəndələrin o cümlədən Ardaşes Ovanesyanın hərəkətləri, xüsusilə Liqvan hadisəsində Hacı Ehtişamın öldürülməsi, eyni zamanda bu hadisədə Hizb üzvlərinin həlak olması, günün tələbatına zidd olan sol radikal hərəkət adlandırır.

S.C.Pişəvəri 1944-cü ildə Təbriz əhalisinin böyük əksəriyyətinin azad seçki yolu ilə inamını qazandı. 14-cü məclisə nümayəndə seçildi. Lakin məclisin mürtəce nümayəndələri onun

etibarnaməsini ləğv etdilər. O, bununlada deputatlıq hüququndan məhrum edildi. Beləliklə S.C.Pişəvəri Təbriz əhalisinin tanınmış və inanılmış rəhbərlərindən biri idi.

S.C.Pişəvərinin 1945-ci ilin başlanqıcında Təbrizə gəlməsi və Azərbaycanın görkəmli ziyalıları ilə görüş keçirməsi, onun müasir Iran tarixində başladığı fəaliyyətin parlaq səhifələrini təşkil edir.

Yuxarıda qeyd olunan o günkü ictimai-siyasi şəraiti və orada olan bütün taşkilatların fəaliyyətini nəzərə aldıqda bir önəmli məsələni oxucuların diqqətinə çatdırmaq istardik. Azərbaycanda fəaliyyət göstərən bu təşkilatların heç birisi xalqın milli azadlıq mübarizəsinə rəhbərlik etmək məqamına nail ola bilmədi. Bunun səbəbi isə onların xalqı düzgün mübarizəyə səfərbər edə bilməməsi idi. Məhz belə olan yerdə S.C.Pişəvəri kimi bir təcrübəli mübariz şəxsiyyətin olması labüd və zəruridi ki, bu təşkilatları düzgün şuarlarla bir firqə ətrafında toplayıb, səfərbər etsin.

Belaliklə Azərbaycanda S.C.Pişəvərinin fəaliyyətinin yeni dövrü başlandı. Müttəfiqlərin Irandan çıxması ərəfəsində mürtəce qüvvələrin fəallaşmasına qarşı çıxaraq, yeni güclü və geniş xalq kütləsinə arxalanan partiyanın yaranması zərurətini dərk etdi, belə bir partiyanın əsasını qoydu. 12 Şəhrivər bəyannaməsi həmin partiyanın yaranmasını bütün dünyaya elan etdi. Bu bəyannamə təkcə Iranda deyil, bəlkə Qərb dünyasında da həyəcan siqnalı oldu.

S.C.Pişəvərinin xatirələrinin böyük hissəsi bu dövrə, yəni Şəhrivər 1324, Azər 1325-ci illərə (sentyabr 1945, dekabr 1946) təsadüf edir.

Oxucu S.C.Pişəvərinin xatirələrində bu illərdə Azərbaycanda baş verən milli demokratik azadlıqların həyata keçirilməsi, xalqın bu hərəkatı inamla müdafiə etməsi və bu yolda çoxlu qurbanlar verməsi ilə tanış olacaqlar. Oxucuya səbir və hövsələ ilə S.C.Pişəvərinin düşüncə və xatirələrində əks olunan

hadisələrin gedişini izləməyi, həmçinin belə bir əvəzsiz əsərdən bu günkü və gələcək mübarizədə dərs ala biləcəyini arzu edirik.

**Əmirəli Lahrudi**

**Təcümeyi-hal**
**S.C.Pişəvəri (Cavadzadə Xalxali)**

**1326-1272 (1893-1947)**

Azərbaycan xalqının sədaqətli və fədakar oğlu S.C.Pişəvəri (Xalxali) özunun bütün həyatını İran zəhmətkeş kütlələrinin nəcatı yolunda gedən böyük mübarizə işinə həsr etmiş, gorkəmli inqilaçı, İran kommonist firqəsinin banilərindən biri, Azərbaycan Demokrat Firqəsinin rəhbəri və Azərbaycan Milli Hökumətinin başçısı olmuşdur.

S.C.Pişəvərinin həyat və fəaliyyəti İran zəhmərkeş kütlələrinin irtica və imperializm əleyhinə mübarizəsi tarixi ilə,İran Kommunist Firqəsinin şanlı tarixi ilə sıx surətdə bağlı olmuşdur. O, İran zəhmətkeşləri ailəsinə mənsub olmuş, iranlı fəhlələr daxilində boya-başa çatıb yetginləşmiş, İran Kommunist Firqəsi sıralarında təmkinli inqilabi mübarizə məktəbi keçmiş, ölkənin azadlığı uğrunda gedən şiddətli döyüşlər cərəyanında mətinləşərək təcrübəli rəhbər, boyük firqə və dövlət xadimliyinə qədər yüksəlmişdir.

Seyid Cəfər Cavad oğlu Cavadzadə 1272 (1893)-ci ildə Azərbaycanın Xalxal mahalının Zevə kəndində Yoxsul kəndli ailəsində anadan olmuş və ilk təhsilini həmin kənddə almışdır. məlum olduğu kimi 19-ci əsrin sonu və 20-ci əsrin əvvəlarində yarım müstəmləkə vəziyyətinə salınmış İranın zəhmətkeş kütlələri çox ağır və dözülməz həyat şəraitinə məruz edilmışdi. Istibdad üsul idarəsinin soyğunçuluğuna, feodal istismarı və imperializm təzyiqinə dözə bilməyən yoxsul kəndlilər kutləvi surətdə dağılır, iş axtarmaq, çörək pulu qazanmaq məqsədilə şəhərlərə axışıb gəlirdilər. sənaye cəhətcə az-çox inkişaf etmiş ölkələr, xüsusilə özunun böyük neft sənayei və ucuz işçi qüvvəsinə olan ehtiyacı elə geniş şöhrət qazanmış Bakı həmin yoxsul kəndlilərin daha çox diqqətini cəlb edirdi. Kiçik Seyid Cəfərin mənsub olduğu ailədə məhz belə bir şəraitdə şahsevən

bəyləri tərəfindən talandıqdan sonra,1284 (1905)-ci ildə Bakıya mühacirət etmişdir. Həmin tarixdən başlayaraq 1292 (1913)-ci ilə dək Seyid Cəfər Abçaron yarımadasındaki "Bülbülə" kəndində ilk təhsilini davam etdirmiş və eyni halda, o məktəbdə əmək fəaliyyəti ilə məşğul olmuşdur. 1292 (1913)ci ilin ortalarında S.C.Pişəvəri Abşeron yarımadasınakı "Xırdalan" kəndində məktəb təşkil etmiş və 1296 (1917)-ci ilə dək orada tədris etmişdir. O, öz həyatının həmin dövründən bəhs edərkən belə yazmışdir: *"məktəbi bitirdikdən sonra müəllim oldum. Təhsil etməyə,kitab oxumağa olan həvəsim sayəsində iyirmi yaşa çatanadək bütün boş vaxtlarımı kitabxanalarda keçirərdim. Tarix, ədəbiyyat və fəlsəfə sahələrinə aid kitablara daha çox meyl göstərərdim. Belə bir mövqedə birinci dünya müharibəsi və onun ardınca böyük Rusiya inqilabı baş verdi."*

S.C.Pişəvərinin siyasi fəaliyyətidə məhz həmin dövrdən başlanmışdır.Öz sözü ilə desək, ictimai inqilab oqyausi (okyan) dövrün digər gəncləri kimi onu da yerindən tərpədərək siyasi mübarizə meydanına atmışdır. 1296-ci ilin əvvəllərinə "Açıq Söz" qazetində "Mir Cəfər Cavadzadə" imzasi ilə dərc olunmuş məlumatdan görünür ki, S.C.Pişəvəri 1917-ci ildə Rusiyada baş vermiş Burjua demokratik inqilabı dövründə kütləvi hərəkatda iştirak etmişdir.

O dövrdə O, İran Sosyal Demokrat Firqəsinin qafqazdaki təşkilatlarının iclaslarında iştirak edir və fəaliyyət göstərirdi. S.C.Pişəvəri həmin dövrdəki fəaliyyəti haqqında belə yazır: *"Mən Rusiyada yaşayan millətlərin azadlıq mübarizəsində yaxından iştirak etmiş İran gənclərindən idim. Məni bu böyük şərəfli işə cəlb edən amil azadixahlıq mübarizəsindən başqa, birdə mənsub olduğum millət haqqındakı düşüncələrim olmuşdur. Mən bilirdim ki, vətənin və millətin nicatı və səadəti Rusiya inqilabçılarının istəkləri qurluşun əldə edilməsinə bağlıdır. Mən bilirdim ki, əgər Rusiyada şanlı Lenin bayrağından başqa bir bayraq yüksələrsə İran xalqlarının istiqlaliyyəti və azadlığı həmişə təhlükə altında olacaqdır"*

1297-ci ilin dey ayında (yanvar 1918) S.C.Pişəvəri İran Demokrat Firqəsinin Bakı təşkilatının orqanı olan "Azərbaycan Coze - Layənfəkke- İran" qazetində fəaliyyətə başlayır. O, həmin qazetin səhifələrində İran demokratlarının çox yüksək siyasi mövqe tutduğunu nümayiş etdirir. Qazetin birinci nümrəsində S.C.Pişəvəri İranin mütərəqqi ictimai qüvvələrinin fəaliyyətindən, ölkədə tərəqqipərvər təşkilatların. Fəaliyyəti üçun yaranmış imkan və şəraitdən söz açır.

Məlumdur ki, "Azərbaycan Coze-Layənfəkke-İran" qazetinin darısqal mühiti S.C.Pişəvərini heç də uzun müddət təmin edə bilməzdi. O, özu üçün daha geniş fəaliyyət meydanı tapmalıydi. Buna görədə 1298-ci ilin ortalarında Məhəmməd Fətullazadə, Yusif Yəqub və Bəhram Ağazadənin zəmanəti əsasında İran Ədalət Firqəsinin Bakı təşkilatı sıralarına daxil olur. Bu dövrdə S.C.Pişəvəri tərəqqipərvər iranlılar tərəfindən. Bakıda açılmış "İttihad" məktəbində müəllimlik edir. Ədalət firqəsinin bayrağı altında İran xalqlarının azadlığı yolunda gərgin mübarizə aparır.

S.C.Pişəvərinin Rəsmən firqə sıralarına qəbul edilməsi ilə əlaqədar olaraq

İran Ədalət Firqəsinin Mrkəzi Komitəsi onu firqənin orqanı "Hürriyyət" qazetinin məsul redaktoru təyin edir. S.C.Pişəvərinin həmin vəzifədə çalışması Azərbaycanda sovet hakimiyyətinin qurulduğu günə dək (28 april 1920) davam etmişdir. O, qazetin nəşr edildiyi dovrdəki ağır siyasi şərait haqqında belə yazmışdır: "... *"Hürriyyət" nəşrə başlayanda vəziyyət elə müdhiş (dəhşətli), elə vəxim (pis) idi ki, İngiltərə komandanlığının təqibi qorxusundan idarəmizin ünvanını belə aşkar surətdə yaza bilmirdik. Lakin biz də tuduğumuz yolda mətanət göstərirdik. Lazım gəldikdə müanidlərimizə (inad edənlər) cavab verirdik."*

1298-1299 (1919-1920)-ci illərdə S.C.Pişəvəri "hürriyyət" qazetini nəşr etməklə yanaşı, İran Ədalət Firqəsinin mərkəzi xarici brosunda katib kimidə çalışmış və İranin müxtəlif yerlərində firqənin təşkilatlarını yaratmağa səy göstərmişdir.

Bu dövrdə S.C.Pişəvəri Azərbaycan dilində “kommunist” qazetinin nəşr olunmasına aktiv yardım göstərdikdən bilafasilə sonra vətənə qayıtmağa tələsir. Məlum olduğu kimi o vaxt İranın hər yerində, xüsusilə Azərbaycan, Gilan və Xorasan əyalətlərində demokratik hərəkat genişlənməkdə idi. Azadlıq yolunda mübarizə edən qüvvələrin təzyiqi nəticəsində işğalçı İngilis qoşunları Qəzvinə geri çəkilmiş və cəngəlilər Rəşt şəhərini tutmuşdular. Belə bir şəraitdə İran Ədalət Firqəsi ölkədə daxili irticaçılar və müdaxiləçi imperialistlər əleyhinə mənfur Vüsuqüd-dövlə qərardadının ləğv olunması yolunda vahid mübarizə cəbhəsi yaratmağa çalışırdı. Məhz həmin məqsədlə firqə cəngəlilər hərəkatının başçıları ilə əlaqə yaradır. 1299-ci il xordad ayının əvvəllərində (23 may 1920) Mirza Kicikxanla danışıq üçün S.C.Pişəvərinin başçılığı ilə Rəşt şəhərinə xüsusi nümayəndə heyəti göndərir.Heyətin apardığı danışıqlar müvəffəqiyyətlə nəticələnir və xordad ayının ortalarnda, Yəni 1920-ci il iyun ayının 4-də Gilan Cumhuri Hökumətinin təşkili elan olunur. S.C.Pişəvəri isə bu inqilabi hökumətin Xarici işlər naziri təyin edilir. O, həyatının həmin dövrlərindən bəhs edərəkyazmışdır*: “...vaxtı tələf etmədən oraya (Gilana) tələsdim. O günkü dostlarımdan bir çoxunun bildiyi kimi orada daima birinci sırada idim. Qazet çıxarır, nitq edir, milli məqsədləri irəlilətmək xatirinə ən çətin və məsuliyyətli işləri öhdəyə götürdüm. O vaxt mən gənc idim. İş ,fəaliyyət və inam məni irəliyə çəkir, tanıtdırır, öz istəyimdən asılı olmayaraq azadixahların sıralarında mənim üçün nüfuz və etibar qazandırırdı. Bu isə məni daha təşviq edirdi. Hazırda bir çoxları Hizbi-Tudeyi-İranin sıralarına daxil olmuş səmimi dostlarımla birlikdə o vaxt kənddə,şəhərdə,cəbhədə top atəşləri altında irəliləyir və döyüşürdük. Ruhumuzu qıdalandıran yalnız iman və əqidə idi. Ələ qələm aldıqda və yaxud hər hansı addımı atmaq istədikdə mənafeyi uğrunda mübarizə etdiyim sinif həmişə göz önündə canlanırdı.”*

Bu dövrdə bütün İranda, xüsusilə Azərbaycan, Gilan və Xorasan əyalətlərində kütləvi azadlıq hərəkatının güclənməsi, İran Ədalət Firqəsinin ölkə daxilində o vaxta dək gizli şəraitdə fəaliyyət göstərməyə məcbur qalmış təşkilatları üçün əlverişli şərait meydana gətirdi. Məlum olduğu kimi bu dövrdə ölkənin feodal, ruhani, burjua və xırda burjua təbəqələrinə mənsub bir sıra siyasi təşkilatları, o cümlədən: "Etidaliyun", "İttihadi-Tərəqqi", "İttihadi-İslam", "Demokrat Təşkili" və "Demokrat Ziddi-Təşkili" kimi firqə və cəmiyyətlər İranın siyasi və ictimai həyatında əsaslı dəyişikliklər yaratmaq işində aciz olduqlarını artıq göstərmişdilər.

Belə bir şəraitdə İrandaki mübariz qüvvələrin vahid mərkəzini yaratmaq, irtica və iperyalizm əleyhinə mübarizədə daha etibarlı və nüfuzlu qərargah əmələ gətirmək lazım idi. Bu məqsədlər isə yalnız İran Kommunist Firqəsinin yaradılması ilə əldə oluna bilərdi. Həmin zərurəti çox düzgün surətdə dərk etmiş İran Ədalət Firqəsinin rəhbərliyi 1299-ci ilin əvvəllərindən etibarən (may 1920) geniş hazırlıq tədbirlərinə başlayır. S.C.Pişəvəri bu işdə xüsusi böyük fəaliyyət göstərir. O, 23 nəfərlik heyətlə birlikdə Ənzəli şəhərinə gedərək İran Kommunist Firqəsinin birinci qurultayını keçirmək üçün hazırlıq görür. Nəhayət ordibehişt 1299-ci ildə (22 iyun 1920) Ənzəlidə İran Kommunist Firqəsinin birinci qurultayı açılır. Qurultayın nümayəndələri Ağazadə, Əlixanov, Sultanzadə, Mir Bəşır Qasımovla birlikdə S.C.Pəşəvərinidə qurultayın rəyasət heyəti üzvülüyünə seçilir. O, ədalət firqəsinin xarici burosunun fəaliyyəti haqqında məruzə edir. Firqənin rəhbər orqanlarına keçirilən seçkilər nəticəsində S.C.Pişəvəri İran Kommunist Firqəsi Mərkəzi Komitəsinin üzvü intixab olunur və təbliğat üzrə mərkəzi komitənin katibi təyin edilir.

1300-ci ilin tir ayında (iyun- iyul 1921). S.C.Pişəvəri İran Kommunist Firqəsinin Təbriz şəhər təşkilatının etibarnaməsi əsasında kommunist internasiyonalın 3-cü konqrəsində rəsmi nümayəndə sifəti ilə iştirak edir. Konqrə işini qurtardıqdan son-

ra o Tehran şəhərinə qayıdaraq, İran Kommunist Firqəsinin Mərkazi Komitəsinin rəyasət heyəti üzvü kimi fəliyyət göstərir və firqənin nəzdində təşkil edilmiş həmkarlar ittifaqinin mərkəzi orqanı olan "Həqiqət" qazetini nəşr edir. S.C,Pişəvəri öz ictimai fəaliyyətinin qeyd olunan dövrləri haqqına belə yazmışdır: *"Cəngəl nehzəti sona çatar-çatmaz biz Tehranda fəal siyasi təşkilatlardan əlavə, yeddi min nəfərdən artıq üzvü olan həmkarlar ittifaqinin mərkəzi şurası "Həqiqət" qazetindən ibarət öz orqanını yarada bilmişdi. O günkü azadixah yoldaşlar tərəfindən yazılmış bir neçə məqalə istisna edilmək şərti ilə qeyd olunan qazetin bütün baş məqalələri mənim qələmimlə yazılmışdır... Biz "Həqiqət" qazetini nəşr etdiyimiz zaman məqalə yazan, elmi mövzular haqqında rəy söyləyən adamlar olduqca az idi. Sıralarımızda elmilər doktoru, ali təhsili olan adamlar,diplom sahibləri yox idi."*

S.C Pişəvəri Rzaxanın diktatorluq təmayullərini hiss etdiyi ilk gqndən etibarən onun əleyhinə tam şücaətlə qiyam edir və həmin şərəfli mübarizəsini Rzaxan üsul idarəsinin məğlubiyyətinədək bir an belə dayandırmır. Rzaxanın təhlükəli işləri üzərindən pərdə götürülmədiyi və onun mənfur niyyətləri hələ zahir olmdığı dövrlərdə S.C.Pişəvəri çox düzgün olaraq dərk etmişdi ki, Rzaxan nə kimi məqsəd güdür. Öz məqampərəstlik və tamahkarlığı ilə ölkəni hansı girdaba (bataqlıq) sövq etmək niyyətindədir. S.C Pişəvəri həmin dövrdən bəhs edərək belə yazmışdır: *"O gün bizim vəziyyətimiz çətin və ağır idi. Lakin öz ehsasatımızın, habelə İran zəhmətkeş sinifinin adlı-sanlı nümayəndələrinin birliyi sayəsində keçmiş şah əleyhinə hücumlarımız günü-gündən daha şiddətli, daha dağıdıcı və daha möhkəm olurdu... Bu iftixarlı mübarizə 9 ilə qədər davam etmişdir. Rzaxanın bir-birinin ardınca qalib gəlib, qəzəblə işğal etdiyi bütün səngərlərdə öz sinəmizi qalxan etmişdik."*

1301 (1922)-ci ildə Tehranda polis təqibinin şiddətlənməsi və "Həqiqət" qazetinin toqif edilməsi (bağlamaq) ilə əlaqədar S.C.Pişəvəri İran Kommunist Firqəsi Mərkəzi Komitəsinin cə-

nub burosunun məsul katibi təyin edilir və 1302 (1923)-ci ilə dək İsfəhan şəhərində fəaliyyət göstərir. Lakin Rzaxan polisi orada Pişəvəriyə açıq fəaliyyət imkanı vermir. Güclü axtarış firqə üzvüləri kimi S. C. Pişəvərini də gizli şəraitə keçmək məcburiyyətində qoyur. O, həmin dövrü belə təsvir etmişdir: *"Rzaxanın meydana atılması ilə bizim döyüş cərəyanımız başqa yola düşdü.Rəhmsiz edamlar, həbs və sürgünlərin başlanması ilə əlaqədar olaraq biz taktikamızı dəyişmək məcburiyyətində qaldıq. Həbslər və basqınlar yolu ilə gizli fəaliyyət mərkəzimizi dörd dəfə dağıtdılar.Lakin azadlıq yolunun əsgərləri olan bizlər öz postlarımızı tərk etmədən beşinci mərkəzi təşkil etdik.Öz mətbuat fəaliyyətimizi Avropaya köçürtdük. Bu zaman müxtəlif yollarla qazet və jurnallarımızı Rzaxan polisinin İran sərhəddlərinə çəkdiyi Çin divarından keçərək ölkənin daxilinə atdırdıq... Həmin illərdə gizli surətdə nəşr olunmuş şəbnamələr, elamiyyələr, kitab və məcmuələr bizim ictimai həyatımızın və gizli fəaliyyətimizin ən parlaq nümunələrini təşkil edir."*

Nəhayət Rzaxan polisi 1309 il dey ayında (dekabr 1930) İran Kommunist Firqəsinin bir sıra qabaqcıl nümayəndələri ilə birlikdə S.C.Pişəvərini də həbsə almışdır. Həmin tarixdən etibarən tam 11 il müddətində onu həbsdə saxlamışlar. Lakin Qəsri-Qacar adlanan dəhşətli zindanın uca divarları və qalın qapıları mübariz S.C.Pişəvərinin iradəsini qırmağa qadir olmur. O, ən ağır polis təzyiqi və olmazın əzab-işgəncələri qarşısında öz polad iradəsilə müqavimət göstərir. Ən təhlükəli şəraitdə belə mübarizədən geri çəkilmir. S.C.Pişəvəri öz həyatının o dövrundən bəhs edərək belə yazmışdır: *"...Nəhayət 1309-ci ildə həbsə alındıq. İddəmiz (sayimiz) çox idi. Yoldaşlarımızın əksəri zindanda öyük müqavimət və mətanət göstərdilər.Biz dayandıq, vuruşduq, həftələrlə xorək (yemək) yemədik, haqq sözlərimizi dedik. Adi adamlardan sadə siyasi mövzular haqqında öz imzalarıla yazmağa cəsarət etmədikləri günlərdə bizim səsimiz həmişə ucalırdı. Rzaxan polisi bizimlə hesablaşırdı. Səkkiz il*

*müddətində qəsrdə(Qəsri-Qacar) bizlərdən başqa siyasi məhbus yox idi. Rzaxanın bütün cəlladlıq dəstgahı tam mənasında bizim əleyhimizə yönəlmişdi. Tədrici ölumlə bizi məhv etmək istəyirdilər. Ən yaxşı dostlarımızı itirdik. Özümüzdə fiziki cəhətdən ayaqdan düşdük. Lakin əhval-ruhiyyəmiz qüvvətli olduğu üçün mübarizəni davam etdirdik. Nəhayət 8 ildən sonra 53 nəfəri bizim yanımıza gətirdilər." Azərbaycan xalqının qəhrəman oğlu, İran Kommunist Firqəsinin görkəmli xadimi Tağı Əbülfət oğlu Ərani başda olmaqla 1316-ci ilin ordibehişt ayında (aprel 1937) 53 nəfərin zindana gətirilməsi S.C.Pişəvərini məyus etmir."*

O, bu hadisəni İran azadixahları daxilində mübarizə əhval-ruhiyyəsinin canlanması rəmzi kimi kütlələrin siyasi şüur səviyyəsinin yüksəlməsi və Rzaxan diktatorluğunun acizliyi əlaməti kimi qimətləndirir. O, gənc mübarizlərə öz təcrübələrini öyrədir. Polisin hiylələrindən danışır. Gizli dərs keçir, zindanda necə fəaliyyət etmək yolunu göstərir.

S.C.Pişəvəri həmin dövrü xatırlayaraq belə yazmışdır: "8, 9, hətta 10 il *zindanda qalmağımıza baxmayaraq, ruhdan tüşmədiyimizi görən bu gənclər*

*(53 nəfər) ruhlandılar, bizdən mənavi qıda aldılar. İran tarixində qızıl hərflərlə yazılması zəruri olan şəhamət və fədakarlıqlar göstərdilər. İran ziyalılarının gözü və çırağı hesab olunan doktorlar və professorlar yetgin siyasi mübarizlər kimi aclıq elan etdilər, döyüşdülər, döyüldülər, polisin təhqirlərini acı gülüş və istehza ilə qarşıladılar. Böyük qurbanlar onlari qorxutmayıb, daha həyəcanlandırırdı və cəsarətləndirirdi."*

1319-ci ildə (1940) S.C.Pişəvəri qəsr zindanından buraxılır. Lakin Rzaxan polisi dərhal onu Kaşan şəhərinə sürgün edir və orada qıssa müddət nəzarət altında saxladıqdan sonra yenidən həbsə alır.

Məlum olduğu kimi ikinci dünya müharibəsinin başlanması, Rzaxanın İranda alman faşistləri üçün geniş fəaliyyət meydanı yaratması və alman faşızminin ölkə daxilində ki,

təxribatçılığı 1320-ci ildə dözülməz vəziyyət törətmişdi. İranda yuva salmış alman faşistlərinin təhlükəsini ləğv etmək, ziddi-faşist ittifaqi üçün təxirə salınmaz zərurətə çevrilmişdi. Buna görədə 1320-ci il şəhrivər ayının 3-də (25 avqust 1941) Sovet ordusu hissələri 1921-ci ildə bağlanmış Sovet-İran müqaviləsinin 6-cı bəndinə əsasən İrana daxil oldu. İngilis qoşunlarıda ölkənin cənub məntəqələrini tutdu. Hitlerin əl altısına çevrilmiş Rzaxan İngiltərə müstəmləkəçilərinin yardımı ilə ölkədən qaçdı və 20 illik diktatorluğu sona çatdı. Belə bir şəraitdə bir sıra siyasi məhbuslar kimi S.C.Pişəvəri də 1320-ci il şəhrivər ayının 23-də (14 sentyabr 1941) Kaşan zindanından buraxılıb Tehrana gəldi. Lakin iyirmi illik terror və təzyiq artıq ölkənin bütün tərəqqipərvər təşkilatlarını dağıtmışdı. S.C.Pişəvərinin dediyi kimi onlar Süleyman Mirza Möhsün İskəndərinin evində qəbul olduqları vaxt İranda təşkilat, mətbuat, cəmiyyət adlanası heç bir vasitə yox idi. Hətta bir yerə toplanmaq belə azadixahlar üçün çox təhlükəlidi.

Qeyd olunan bütün çətinliklərə baxmayaraq S.C.Pişəvəri tükənməz enerjisi ilə yenidən öz məsləkdaşları və yoldaşları ilə birlikdə İran zəhmətkeşlərinin yeni qərargahını yaratmaq işində fəal iştirak edir. Digər tərəfdən O, jurnalistlik ixtisasın da unutmayıb, “Ajir” qazetinin nəşrə üçün müqəddəmə hazırlayır və 1322-ci il xordad ayının əvvəlində (23 may 1943) qazetin ilk nömrəsini İran ictimaiyyətinə təqdim edir. S.C.Pişəvəri həmin nümrədə ölkənin satqın hakim dairələrinin irənc və murdar təbiətini ifşa edərək tam şücaətlə açıq surətdə yazmışdır ki, Rza şahla əməkdaşlıq etmış təhlükəli təbəqələrə qarşı “Ajir” qazeti inadcıl mübarizə aparmaq yolunu zəhmətkeşlərə örətməyə çalışacaqdır. Qeyd etmək lazımdir ki, S.C.Pişəvəri həmin qazet vasitəsilə imperializm əleyhinə mübarizə etmiş,habelə faşizm ideologiyasına sarsıdıcı zərbə endirmişdir.

Məlum olduğu kimi bu dövrdə İran məclisinin 13-cü dövrəsinin sona çatması ilə əlaqədar olaraq S.C.Pişəvərinin 14-cü məclisdə keçiriləcək seçkilərdə iştirak etməyi, irtica və

imperyalizm əleyhinə mübarizədə parlament tribunasından da bir vasitə kimi istifadə olunmasını qərara alır.

S.C.Pişəvərinin Hizbi-tudeyi-İran tərəfindən seçkidə nümayəndə göstərilir. Bu hadisəni ictimai mübarizə meydanında daha bir səngər irəli çəkilmək kimi qiymətləndirən Pişəvəri həmin dövrdə belə yazmışdır: *"İctimai vəzifələr bimiz üçün məqsəd deyil, yalnız bir vasitədir...30 il bundan əvvəl başlayıb, şərəflə davam etdirdiyimiz məram və məqsədlərimizin ardıcıllarında bir iddəsi bu gün İran məclisinə nümayəndə seçilmişlər.Doktor Rza Radməniş və sayirləri məclisə gedəcəklər. Onlar bizim arzu və istəklərimizi məclis tribunasından xalqa çatdıracaqlar. Biz də müvəffəq olduğumuz təqdirdə şübhəsiz ki, öz vəzifəmizə əməl edəcəyik. Başqa adamlar məclis və onun nümayəndəliyini ayrı cür başa düşürlər. Bizim nəzərimizdə isə ora müəyyən cəbhədən başqa bir şey deyil. Oradada mübarizə, döyüş və fədakarlıq bizim intizarımızdadır."*

S.C.Pişəvərinin məclisə namizəd göstərilməsi İran irticasını təşvişə saldı. Suheylilər, Tədəyyunlər, general Müqəddəmlər, bir sözlə bütün irtica ünsürləri Təbriz seçki dairəsində onun əleyhinə fəaliyyətə başladılar. Səsləri parçalamaq məqsədilə iki yüz nəfərdən artıq adamın namizədliyi irəli sürüldü. Lakin bütün bu fırıldaqlara baxmayaraq, mübariz və sayiq zəhmətkeşləri 15780 səslə S.C.Pişəvərini İran məclisinə vəkil seçdi. İran irticası bu parlaq qələbə qarşısında yeni hiyləyə əl ataraq, Təbriz vəkillərinin etibarnamələrini təsdiq etmək işini süründürməyə salıb, vaxt qazanmaq hesabına parlamentdə S.C.Pişəvərinin əleyhinə satqın ünsürlərdən ibarət müxalif yaratdı. Beləliklə parlamanın 22 tir 1323-ci il (iyun 1944) tarixli iclasında Pişəvərinin vəkillik etibarnaməsi 47 müvafiq rəy qarşısında 50 müxalif rəy ilə rədd olundu.

S.C.Pişəvəribu hadisəni İran irticasının şüursuzluğunun yeni təzahürü kimi qimətləndirərək yazırdı: *"irticaçılar 50 qərəzli səslə on altı min sadə və pak təbrizlinin rəyini puça*

*çıxarmaqla şüursuzluğun üzündən özlərinin əleyhinə və bizim xeyimizə böyük bir addım atmışlar."*

Bu dövrdə O, qırx dörd gündəlik qazeti birləşdirən mətbuatın "Azadlıq Cəbhəsi" adlı leqal təşkilatında öz fəaliyyətini gücləndirərək kütlələri ayiltmaq, onları mənəvi cəhətdən silahləndırmaq yolunda var qüvvə ilə səy göstərir.

S.C.Pişəvəri Azərbaycanda doğulmuş inqilabi şəraiti dərk edən ilk şəxsiyyətlərdən olmuş və Azərbaycan Demokrat Firqəsi məhz onun rəhbərliyi altında yaranmışdır. Bu dövrü S.C.Pişəvərinin təşkilətçılıq fəaliyyəti və rəhbərlik istedadının qüdrətli mərhələsi adlandırmaq olar. Məhz zəngin inqilabi təcrübəyə malik olan S.C.Pişəvərinin təşkilatçılıq məharəti və müdrik rəhbərliyi sayəsində Azərbaycan Demokrat Firqəsi qissa müddət ərzində Azərbacanın bütün zəhmətkeş təbəqələrini və milli qüvvələrini öz bayrağı altında toplayıb tarixi xalq hərəkatı yarada bilmişdir.

Azərbaycan Demoktat Firqəsinin birinci konqrəsində bir səslə firqənin sədirliyi vəzifəsinə seçilmiş S.C.Pişəvəri tarixi "12 Şəhrivər" bəyannaməsinin həzırlanmasında, Azərbaycan ruznaməsinin nəşr edilməsində, Azərbaycan xalqının milli tələbatının irəli sürulməsi və müdafiəsi işində birinci dərəcəli rol oynaçışdır. O, Azərbaycan Demokrat Firqəsinin rəhbərliyi altında Azərbaycan xalqının 21 Azər nehzətini təşkil etmişdir. Bu nehzət qələbə çaldıqdan sonra Azərbaycanın Milli Məclisi S.C.Pişəvərini Azərbaycan Milli Hökumətinin baş vəziri təyyin etmişdir. Məhz həmin hökumət İran çərçivəsi daxilində Azərbaycan xalqının təyini-muqəddərat hüququnu bərpa edərək azərbaycanlıların öz ana dillərində danışmaları, yazib oxumaları üçün şərait yaratdı. Məktəblərdə ana dilində dərs keçirilməsini təmin etdi. Ümumi icbari təhsi üsulunu həyata keçirtdi. Savadsızlıqın kökünu kəsmək üçün qəti addımlar atdı. Azərbaycanda ilk dəfə olaraq darül-fünun təsis etdi. Fəhlələr üçün səkkiz saatlıq iş günü və mütərəqqi əmək qanunu hazırladı. Bütün İran miqyasında ilk dəfə olaraq qadınların kişilərlə bərabər

hüquqlu olmasını həyata keçirtdi. Təkcə İran deyil, bütün yaxın və orta şərq ölkələri üçün inqilabi əhəmiyyətə malik olan torpaq islahatını icra etdi. Azərbaycanın şəhər və kəndlərində tarixdə misli görünməmiş abadlıq işlərinə başladı. S.C.Pişəvərinin başçılıq etdiyi Azərbaycan Milli Hökumətinin bir il ərzində həyata keçirdiyi bu tədbirlər hətta Azərbaycan xalqının qati düşmənləri tərəfindəndə etiraf olunmuşdur. Qərbin irticaçı dairələrinə mənsub mətbuat dəfələrlə yazmışdır ki, S.C.Pişəvərinin rəhbərlik etdiyi milli hökumət bir il ərzində Azərbaycanda yarım əsrilik fəaliyyət göstərmişdir və bu islahat inkar edilməzdir.

Amerika imperializminin fəal yardımı ilə İran irticaçının Azərbaycana xəyanətkar basqını və şahpərəst cəlladlar tərəfindən axıdılan qanlar S.C.Pişəvərini həddən ziyadə kədərləndirsədə onu əsla məyus etmədi.

Bu hadisəni sonra O, mühacirət şəraitində təcrübəli təşkilatçılıq fəaliyyətini davam etdirməklə yanaşı öz geniş və hərtərəfli ədəbi irsinidə zənginləşdirməyə çalışmışdır.

1326-ci il Tir ayının 20-də (iyunun 11-i 1947) təsadüfi avtomobil qəzası mübariz inqilabçı S.C.Pişəvərinin İran və Azərbaycanın azadlığı və istiqlalı arzusu ilə çırpınan ürəyini dayandırdı. Lakin onun bütün ömür boyu şərəfnən daşıdığı inqilabi mübarizə bayrağı hal-hazırda Azərbaycan Demokrat Firqəsi tərəfindən əsas məqsədə döğru aparılmaqdadır...

**Məqalani tərtib edənlər:**
**Tağı Musəvi-Əhməd Əminzadə-Hüseyn Ciddi**

### *Milli Nehzətdən qabaq Azərbaycanda siyasi Firqə və ictimai təşkilatlar.*

Bütün İranda gözə dəyən siyasi hərəkatlar və ictimai təşkilatları əzib, ortadan aparmaqla bərqərar olan Pəhləvi səltənəti davam etdiyi iyirmi il müddətində 15 milyon nüfusa malik olan İran xalqları ölkənin heç bir nöqtəsində bəlli başlı ictimai bir təşkilat qurmağa müvəffəq olmamışdır. Rza xanın Azərbaycan xalqından və onun azadlığa olan əlaqəsindən həmişə nigaran olduğuna görə mərhum Şeyx Məhəmməd Xiyabaninin rəhbərlik etdiyi hərəkat (qiyam) basdırıldıqdan sonra orada firqə naminə heç bir ciddi müəssisənin yaradılamsına imkan verilməmişdir. Hətta Süleyman Mirzənin (1300-1308-ci illərdə) (1921-1929) qurduğu zəif ictimai firqəsi belə Azərbaycanda Rza xan məmurlarının Şədid təqibi və Ələsgər Sərtibzadənin xudpəsəndliyi (eqoistliyi) nəticəsində parlayıb, cəmiyyətdə mühüm yer tuta bilməmişdir. Həmin tarixdə bəzi zəhmətkeş və rovşan fikirlər vasitəsilə təşkil tapan İran Kommunist Firqəsinin Azərbaycanda təşkilatı daha çox məhdut dairədə və fövqəladə gizli fəaliyyət göstərməsinə baxmayaraq, Təbriz şəhrbani ədliyyə rəisi Sərhəng Asif ümum İran şəhrbani rəisi Sərtib Armin əlilə pozulmuş və onun fəal üzvləri isə başqa azadixahlarla birlikdə Gəsri-Qacar həbsxanasında zendebequr (diri-diri basdırmaq) edilmişdilər. Bir sözlə demək olar ki, Rza xanın süqutu və müttəfiq dövlətlərin hərbi qüvvələrinin İrana varid olduğu vaxt (1320-ci il 3 şəhrivərdə) 1941-ci il 25 avquvst Azərbaycanda siyasət və təşkilat naminə heç bir şey yox idi.

Acı təcrübələr nəticəsində Tehrana bədbinlik gözü ilə baxan Azərbaycan xalqı hətta orada Rza xan taxtdan düşəndən sonra təşkil tapan Tudə Firqəsini qəbul etməyə belə hazır olmaq istəmirdi. Cünki xalq üçün Rza xanın süqutu elə nagihanı bir surətdə qabağa gəlmişdir ki, mat və mütəhəyyir (heyran) qalıb hansı yol ilə gedəcəyini təyin edə bilmirdi.

O günə dək özlərini xalqa rəhbər kimi göstərməyə çalışanlara isə xalq çox pis gözlə baxırdı. Neçə gün qabaq Rza xanın məddahlığında ifrat edən yalançı pəhləvanların maskalarını dəyişib, azadixah olmaları camaatı iğfal (aldatmaq) edə bilmirdi.

Rzaxanın təcavüzkarlığını Azərbaycan xalqı naminə təbrik edən və bütün Azərbaycanda siyasi hərəkatları satıb kef həyatının təmininə çalışan Sərtibzadə - 20 il tamam istibdad və diktatorluq rejiminin məddahlığı ilə yaşayan Ağazadə həmçinin azadixahlıq namından sərvət və saman qazanan – bütün macəracular mövqedən istifadə edərək xalqa rəhnəma olmaq üçün təzahürə başladıqları camaatın xoşuna gələn işlərdən deyildi və xalq bu kimi yalançı azadixahlara bel bağlayıb, onların dalınca gedə bilmirdi.

Bu bədbəxtliyə bir də Alman casuslarının isə təbliğatını səbəb göstərmək olar. Hitlerin bərqasa (ildırım surətli) fütuhatı (qələbəsi) ilə xalqı qoruxudub, ona elə qandırmışdılar ki, Faşistlərin Şuralar İttifaqını yıxıb-dağıdıb İrana və oradan Hindistana qoşun yeritmələri günün məsələsidir.

20 il gözübağlı halda saxlanılmış xalq bu Hizbi-Tudənin təbliğatın mənasını təbiidir ki, anlaya bilmirdi. Xüsusilə Almanın mühum amilləri olan böyük bazar dəllalları vasitəsilə Berlin radiosunun yalan xəbərlərini yaymaqla milyonlar qazanmaq istədikləri üçün xalqı öz halına buraxmırdılar. Bunların intişar verdiyi şaiyələr xalqa göz açmağa imkan vermirdi. Bu səbəblərə görə Rza xan süqutunun birinci, ikinci hətta üçüncü aylarında Azərbaycanda firqə namına heç bir ciddi iş görülməyib, Hizbi-Tudənin oraya göndərdiyi nümayəndələr də heç bir müvəffəqiyyət qazana bilməmişlər. Misal üçün Hizbi-Tudə komitəsi tərəfindən azadixah şəhidlərin qəbri üzərinə gül sancmaq üçün təşkil olunan nümayişi göstərə bilərik. Qabaqda abü-tabi (hər tərəfli) ilə elan edilmiş bu nümayişdə Qəsri-Gəcr həbsxanasında təzə azad olan beş-üç nəfərdən artıq iştirak edən olmamışdı. Hətta nümayişi təşkil etməyi qərara alan əyalət komitəsi

üzvləri Sərtibzadə, Ağazadə Astarəyi də özlərini xalqa göstərməmişdilər.

1321-ci il mehr ayının axırlarında ittifaq düşən bu hadisə Azərbaycan xalqının ümumiyyətlə siyasisi, xüsusən onun başında durmaq istəyən yalançı adamlar pis gözü ilə baxdığını açıb aşkara çıxaran bir həqiqətdir. 20 il davam edən irticai siyasətin nəticəsi isə başqa cür ola bilməzdi. Lakin günahların hamısını da Pəhləvi rejiminə yapışdırmaq olmaz. Çünki xarici imperialistlərin azadixahları cürbəcür hiylələrlə tora salıb oynatdıqları və onların vasitəsilə xalqı azadlıqdan məhrum edib, öz yeritdikləri sinsetlərini xalq dəfələrlə görüb imtahan etmiş olduğdan onun siyasətlərini daha sınamaq istəmirdi.

O gün hizb və təşkilat namına təzahür edənlərin xalqdan uzaq olmaları da onların şüarının köhnəlməsi də kiçik maneə deyildi. 20 il ərzində təhəmmül edib, ictimadə geniş yer tutan yeni nəsl onları tanıyıb hesaba ala bilmirdi. Məşrutə hərəkatında tutuquşu kimi ağızdan-ağıza söylənilib gələn təntənəli kəlmələrin təkrarını xalq daha eşitmək istəmirdi. Mühitinin şəraitinə görə xalqın yeni arzuları, yeni amal və yeni istəkləri var idi. Köhnə siyasətçilər isə onları dərk edə bilmirdilər.

Bunların bədbəxtliklərinin biri də həsadət və xüdpəsəndlikləri idi. Onlar özlərindən savayi kimsəni pəsənd etməyib (bəyənməyib), xalqı qoyun sürüsü hesab edərək, istədikləri yerə çəkib, satmağa çalışırdırlar. Camaat içərisində gözə çarpan təzə ərsiyə çıxmış ləyaqətli adamlar onlar üçün taun və vəbadan daha mohlek (təhlükəli) idi. Ona görə birinci günlərdən Hizbi-Tudənin əyalət komitəsindən mühkəm yapışıb, onun qapılarını bilikli, bacarıqlı adamların üzlərinə açmaq istəmirdilər. Bunlara görə yazdığımız dövrdə Azərbaycanda mühüm bir siyasi firqə meydana çıxa bilməmişdi.

**Hizbi-Tudeyi-İranın Azərbaycan**
**təşkilatı niyə irəli getmirdi**

Uzun müddətdən bəri bu firqənin Azərbaycan təşkilatı böhranlı bir hal keçiriridi. Azərbaycan əyalət komitəsini Sərtibzadə başda olmaq üzrə mürtəcelər, monopolçular bir tərəfə, həbsxanalardan xilas olunmuş azadixahlarla işçilər, kəndlilər və sair zəhmətkeşlər digər tərəfə çəkməklə onsuz da sayı məhdud olan əfradın içərisində geniş keşməkeş, şiddətli intriqa vücudə gəlmişdi. Tehranın müdaxiləsi isə onu gündən-günə şiddətləndirməkdə idi.

Hər kəs hər nə deyir desin, Azərbaycanda milli təəssübün dərin rişəsi vardır. Bu təəssüb istər Azərbaycanda, istər də İranın sair şəhərlərində yaşayan azərbaycanlıların rəftar və əfkari ümumisinin qüvvətli bir amili olub, xalq mədəniləşdikcə genişlənməkdə və ciddiləşməkdədir.

Azərbaycanlılar doğrudan-doğruya Tehrana, hətta onun azadixahlarına daha ürəkdən inanmadıqlarını mükərrər (təkrar) surətdə sübuta yetirmişlər. Onların arasında milli təəssüb ciddi bir şəkil aldığından istər-istəməz qeyri Azərbaycanlıya onların ürəkləri qıza bilmirdi. Onlar xaricdən gələn adamları mənimsəyə bilmirdilər, hətta Hizbi-Tudənin Təbrizə göndərdiyi azərbaycanlı təbliğatçılara belə yerli camaat biganə kimi baxırdı. Bir ilin müddətində oraya Hizbi-Tudənin mərkəzi komitəsi 3 mühüm heyəti göndərdiyi halda daxili mübarizəyə xatəmə verib səlahiyyətdar əyalət komitəsi təşkil edə bilmədiyinin də səbəbi budur.

Xalq, xüsusən kəndlilər bir pənahgah (sığınacaq), bir mərkəzi-seql (simetriya mərkəzi), daha doğrusu rəhbərlikedici bir təşkilat tapmaq üçün hər bir fədakarlığa hazır olduğu halda, Tehran elə onları qorxudurdu. Bu da komitə üzvlərinin ruhiyəsində təsirsiz qala bilməzdi. Əyalət komitəsinin başında duranların əksəriyyəti Tehrandan gəldiklərinə və mərkəzdən müqayyəd (asılı) olduqlarına görə, hətta yalançı azadixahlar

Sərtibzadə, Ağazadə Astarayi və Əli Birəng firqədən uzaqlaşdırıldıqdan sonra da uzun müddət Tudə təşkilatı xalqın etimadını qazana bilməmiş və Azərbaycan xalqına rəhbər olmaq məqamını kəsb etməyə qadir olmamışdı. Əvəzində yalnız Azərbaycana dayanan zəhmətkeşlər Təşkilatı və Azərbaycan Cəmiyyəti çox tez bir surətdə parlayıb, kütləvi hal almaqla, xalqın təvəccühünü cəlb etmişdi.

### *Azərbaycan Zəhmətkeşlər Təşkilatı*

Azərbaycan Zəhmətkeşlər Təşkilatının xalq içərisində nüfuz tapmasının əsl səbəbi də onu təşkil edənlərin Azərbaycanda yaşayan zəhmətkeşlərdən ibarət olması idi. Müxtəlif adamlar məsələn, Suren–İsrafil Qadiri, Hüseyn Rizvan, Əhməd İslami və qeyrilərinin müstəqil surətdə topladıqları dəstələrin birləşməsindən əmələ gələn bu təşkilatın təkcə Təbrizdə on mindən ziyadə üzvü var idi. Şəhərin müxtəlif yerlərində cürbəcür ünvanlar altında təşkil tapan zəhmətkeş klubları gecə-gündüz dolu olub, orada danışılan sözlər, aparılan təbliğat xalqın illər boyu arzu etdiyi məqsəd ətrafında idi.

"İstibdad hökumətin yıxmaq, zülüm və şəqavətə (əzab) xatəmə vermək, ərbabların,qaniçənlərin əllərini ictimai işlərdən uzaqlaşdırıb, xain məmurlar, qaniçən jandarmlar, rüşvətxor tiryəkinin şərrin bir dəfəlik xalqın başından rəf etmək" sözləri həqiqətdə xalqın xoşuna gələn, onun ürəyindən çıxan sözlər olduğundan onları cəlb edib gündən-günə təşkilata yaxınlaşdırırdı.

Bu təşkilatın nüqsanı fəqət onun azsavadlı, məmuli adamlardan toplanmasında idi, onların arasında xalqa rəhbərlik edə bilən təcrübəli adamlar nəzərə çarpmırdı. Məsələn, Hüseyn Rizvan (çörəkçi), çox sol və hərarətli bir adam idi. Lakin savadlı olmadığından, xalqa təzə bir söz deyib, ona rəhbərlik edə bilmirdi. Israfil Qadirinin az-çox savadı olsa da, məhəlli adam deyildi, yerli şəraiti bilmirdi. Səlim Hacızadə isə çox

cavan olduğundan, xalqın etimadını qazana bilməyib, bərəks (əksinə) bəzi yüngül hərəkəti ilə üzvlərin ədəmi-etimadına (inamsızlıq) səbəb olurdu. Süren ancaq ermənilərdən bir iddəni öz ətrafına toplaya bilmişdi. Tazə onun özü də elə məlumatlı adamlardan deyildi. Ona görə çox tez parlayan bu cəmiyyət Fəhiminin hiyləkarlığı nəticəsində çox bir tez zamanda münhəll (ləğv) olub, aradan getdi və ondan Azərbaycan xalqı üçün müsbət bir xatirə belə qalmadı.

Fəhiminin bu təşkilatı pozması İran mürtəcelərinin ən çox işlətdiyi klassik tədbir ilə əncam tapdı. Uzun müddət dəstəbazlıq, firqəçilik və intriqa ilə ömür sürən bu köhnə qurd sabiqdən polis idarəsi ilə mərbut olub, qolçomaqlıq və oğurluqla məruf (məşhur) olan lotulardan məşhur Quliyevləri və qeyrilərini bu təşkilatın içərisinə daxil edib, onların vasitəsilə xalqı təhdid etmək, ev soymaq, adam öldürmək, pul almaq kimi işlərlə təşkilatı bədnam etdikdən sonra, həmin bəhanə ilə Israfil Qadiri və Səlim Hacısadəni toqif (tutub) edib, təşkilatı tamamilə pozub ortadan çıxartdı.

Bu iş məruf jandarm rəisi Canpoladın kəndlərdə başladığı vəhşiyana hərəkəti ilə yanaşı olaraq, əncam verildikdən sonra Azərbaycanın kənd və şəhərlərində yeni bir sakitlik dövrəsi başlandı.

### *Azərbaycan Cəmiyyəti*

Zəhmətkeşlər Cəmiyyəti ilə yanaşı olaraq meydana çıxan Azərbaycan Cəmiyyətini tanimaq dəxi (daha) xalqın o günkü ruhiyyəsini bilmək üçün əhəmiyyətli bir məsələdir.

Bu cəmiyyəti təşkil edənlər cümləsindən Şəbüstəri, Əli Maşınçı, Tahiri, Əkbəri, Hilal Nəsiri, Rəhimi Əli, İsmayıl Şəmsin adını qeyd etmək olar.

Cəmiyyət Tehran İrticasına qarşı bəslədiyi ədavət üzrə tək Azərbaycan namına işə başlayıb naşiri-əfkarı (fikri yayınlayan) olan "Azərbaycan" ruznaməsi yarı fars, yarı Azərbaycan

dilində intişar verilməklə milli mübarizə yolunda birinci qədəm götürmüş oldu.

Istər Azərbaycan Cəmiyyəti, istər Azərbaycan Zəhmətkeşlər Təşkilatının işləri tamamilə Azərbaycan azadlığı üzərində olmasa da, Azərbaycan adı onların arasında mühüm yer tutur.

Zəhmətkeşlər əksərən aşağı təbəqəyə mənsub olduqlarından Tehrana az əhəmiyyət verdilər. Azərbaycan Cəmiyyəti başçılarının içərisində ictimai təcrübəyə malik adamlar daha artıq idi. Onların başladıqları Azərbaycan dilinin intişarı böyük bir qədəm olduğu halda, təşkilatın başında onun əhəmiyyətini dərk edən rəhbərlikedici adamlar çox az idi. Bununla belə "Azərbaycan" ruznaməsi Azərbaycan dilində məqalə və şerlər çap etdiyinə görə xalq içərisində tez bir sürətdə intişar tapmağa başlamışdı. Azərbaycanda şöhrət qazanan şairlərdən: Biriyə, Etimad və qeyrilərinin bu ruznamə vasitəsilə Azərbaycan dilində şer yazmaqla siyasi mübarizəyə həsr etdikləri də ayrıca qeyd edilməlidir. Təəssüflə deməliyik ki, cəmiyyət hələ özünə layiq rəhbərlər tapıb onu irəli çəkə bilməmişdi. Başda duranların çoxusu, hətta onun sədri belə təşkilat üsuluna aşna deyildi. Xalqa gündəlik şüar verib cəmiyyətin xətti-hərəkətini təyin etmək işində başçılar çox naşı və mübtədi (sadə) idilər. Bunlar cəmiyyəti və xalqı hara aparacaqlarını özləri də dərk edə bilmirdilər. Bu cəmiyyətə daxil olmağa tələsən camaat ilə Zəhmətkeşler Cəmiyyətinə yanaşanlar təbəqatı və ictimai cəhətdən bir-birindən uzaq olsalar da Azərbaycanlılıq məsələsinə hər ikisi də əlaqə göstərməklə bir yol ilə gedirdilər. Azərbaycan təəssübü və demokratik ehsasatı bu təşkilatların hər ikisində nəzəri cəlb edə bilirdi.

Azərbaycan Cəmiyyəti demək olar ki, tək Təbrizdə yaşayan ortabab adamlara dayanırdı. Zəhmətkeşlər Təşkilatına geniş xalq kütləri ilə bərabər, əksəri aşağı təbəqədən olan mühacirlər toplanmışdılar.

Mühacirlər Rzaxan dövründə daha artıq fişar gördüklərindən, azadlıq yolunda daha ciddi qədəmlər götürərək, daha

qəti tədbirlər görmək tərəfdarları idilər. Ona görə zəhmətkeş kütlə onların şüarlarını daha çox qəbul edib, onların dalınca getməyə daha artıq rəğbət göstərirdilər. Azərbaycan Cəmiyyəti keçmiş firqələrin adab və rüsumu üzrə mülayim hərəkət edib, Hizbi-Tudə təşkilatı kimi ümumi cümlələr təkrar edilmiş, həmişəki sözlərdən kənara çıxa bilmirdi. Onun yeganə silahı "Azərbaycan" ruznaməsi idi.

Zəhmətkeşlər Təşkilatı və Azərbaycan Cəmiyyətinin Sazimanlarının pozulması və Hizbi-Tudənin birinci dövrdə müvəffəqiyyət qazana bilməməsinin səbəblərindən birisi də İranın beynəlxalq vəziyyəti idi. O günlərdə alman faşistlərinin ən qüdrətli günləri idi. Qızıl Orduya kömək yetirmək bütün demokratik millətlərin ciddi və qəti vəzifəsi hesab olunurdu. Bu köməyi yetirmək üçün İran və Azərbaycan yollarının böyük əhəmiyyəti olduğunu bilməyən yox idi. Bunların əhəmiyyətini təmin etmək və ümumiyyətlə İran xalqını faşist təmayülündən qurtarmaq üçün Sovet İttifaqı və İngiltərə dövləti ilə İran arasında bir üçlük müahidəsi (müqaviləsi) əmələ gəlmiş və bu vasitə ilə İran müttəfiqlər sırasına daxil olmuşdı. Bu İranın gələcəyi üçün aqilanə bir iş, daha doğrusu, gözlənilməyən müfid (faydalı) bir təsadüf idi. O vaxt əgər İranda qüdrətli bir demokratik firqə olsaydı, bu təsadüfdən böyük istifadələr edə bilərdi. Mütəəssifanə meydanda belə bir təşkilat olmadığına görə Rza xanın dəstpərvərdələrindən (tərbiyə olmuş) ibarət olan mürtəce dövlət məmurları qabağa düşüb ondan xalqın azadlığı əleyhinə istifadə etməyə müvəffəq oldular. Bu istifadələrdən birisi də demokratik təşkilatlar fişar altına alınıb və çoxlarının pozulması idi. Azərbaycan Zəhmətkeşlər Təşkilati Azərbaycan Cəmiyyəti, Azərbaycan namı ilə izhari-vücud (zühur) etdikləri üçün başqa Sazimanlardan daha şədid (möhkəm) sürətdə irticanın həmləsinə məruz olub meydandan həmişəlik olaraq çıxarılmağa məhkum edildilər.

Bu təşkilatlar Hizbi-Tudə təşkilatı kimi bizim milli nehzətimizin pionerləri adlanmağa layiq sazimanlardadır. Çün-

ki bu sazimanlar özləri ortadan getdikləri halda, bir iddə (qrup) əşxasin gözlərini açıb onları ictimai və siyasi məsələlər ilə məşğul olmağa cəlb etdi. Azərbaycan Cəmiyyəti Azərbaycan ruznaməsinin yarı Azərbaycan, yarı fars dilində nəşr etdiyinə görə onun milli xidmətin xüsusi qeyd etmək lazımdır. Azərbaycan Cəmiyyəti milli təəssübdə Hizbi-Tudədən və Zəhmətkeşlər təşkilatından çox irəli gəlmiş bir sazman hesab olunmalıdır. Hətta Təbriz xiyabanlarının adlarını dəyişdirib, Səttarxan və sair Azərbaycan milli qəhrəmanlarının adı ilə adlandırmaq, fəqət bu təşkilatın səi ilə ancam tapmışdır. Lakin bunların hamısı çox kiçik və çox əhəmiyyətsiz işlərdəndir. Xalq isə böyük islahat, dərin dəyişiklik tərəfdarı olduğundan bu kimi işlər onu qane etmirdi. Bu sazimanların tezbazar olmalarının başlıca səbəbi də bundan ibarətdir.

O vaxt söz xalqı qane etmir, iş isə qabağa getmədiyi üçün xalq ilə cəmiyyət arasında möhkəm rabitə vücudə gələ bilmirdi.

Bir də xalq başçılarından tələb etdiyi bilik və bacarığı onlarda görə bilmirdi. Məşrutə nehzətində Səttarxana güvvət verən onun şücaəti, və istiqaməti qiyamda Şeyx Məhəmməd Xiyabanini irəli çəkən onun biliyi, nitqi və düşüncəsi idi. Azərbaycan Cəmiyyəti və Zəhmətkeşlər təşkilatında belə adamlar gözə çarpmadığından onların dalınca gedənlər tez bir zamanda yorulub geri çəkilməyə məcbur oldular.

### *Hizbi-Tudeyi-Azərbaycan faşist*

Əsasən 3 Şəhrivər 1941-ci il hadisəsi Azərbaycan xalqına böyük təkan verdiyinə görə hər kəs ondan istifadə etmək fikrinə düşmüşdü. Tək azadixahlıq deyil, mürtəcelər də dala qalmamaq üçün üzvlərinə azadixahlıq maskası çəkib, ortalığa çıxıb, işə girmişdilər. Hətta bunların içərisində faşist əqidəli adamlar da az deyildi. Məxsusən faşist ünsürləri özlərinin cinayətlərinə pərdə çəkmək məqsədi ilə daha artıq fəaliyyət

göstərirdilər. Hacı xan Çələbi, Məmməd Əli xan Nurazər, (Daruğa), Əxbarı və qeyrilərinin təşkil etdikləri Hizbi-Tudei Azərbaycan bu məqsədlə qurulmuş bir təşkilat idi.

Vaxtında bütün siyasi dəstələrə əl tapmağa çalışan Fəhimi bu təşkilat ilə də Azərbaycan Zəhmətkeşləri kimi rəftar edib, onu özünün siyasətini icra etmək üçün alət qərar verməyə müvəffəq olmuş və istifadə etdikdən sonra qaba bir şəkildə dağıtmışdır.

Bunu qeyd etmək lazımdır ki, Əxbari və Hacı xan Çələbi almanların ciddi tərəfdarlarından olduqlarına görə Hizbi-Tudeyi-Azərbaycan pərdəli bir faşist müəssisəsi halına salmaq fikrində idilər. Mərhum Məmməd Əli Daruğa İngilis konsul-xanasına mənsub adamlardan olduğuna görə başqa mərmuz (şübhəli) bir məqsəd təqib edirdi. Bunların arasında Kaviyan kimi qeyri-faşist ünsürlər var idi sə, onlar təşkilatı təmizləyib, düzgün yola sala bilmirdilər.

Nəhayət mərkəzi hökumət Azərbaycanı tamamilə sakit halda saxlamaq üçün zahirdə azadxah, batində faşist təşkilatını orada görə bilmədi. Əsasən Tehran hökuməti Azərbaycanda təşkilat yaranmasına imkan vermək istəmirdi. Ona belə gəlirdi ki, yalançıların əqidəsindən asılı olmayaraq, xalq kütlələrinin təşkilata toplanmağı xətərlidir, xalq bir yerə yığışdıqda tez ya gec həqiqət aşkara çıxıb və cəmiyyət arasında xalqın qeydinə qalan adamlar tapıla bilər. Bu səbəbə görə özlərinin göstərişi Fəhimi özünün təşkil verdiyi Hizbi-Tudeyi-Azərbaycan cəmiyyətini daha davam etməyə qoymadı.

### *Irani-Bidar*

Azərbaycanda İngiltərə imperialistlərinin ajanları (polis-ləri) ilə həmkarlıq edən Alman nökərləri faşist ünsürləri Hizbi-Tudei-Azərbaycan, Azərbaycan zəhmətkeşləri və Azərbaycan Cəmiyyəti pozulduğu gündə (İrani-Bidar) adı ilə bir təşkilat vasitəsilə meydana çıxdılar.

"Fəryad" ruznaməsi bu Hizbin naşiri-əfkarı olaraq çox hərarətlə yazılıb, intişara başladı. Onun görkəmli üzvlərindən Hüseynqulu Katibini göstərmək olar.

Irani-Bidar İngiltərə və Alman mənbələrindən aldığı kömək əsərində və sair şəhərlərdə olan faşist və yarım faşist təşkilatlarla rabitələri var idi. Katibi bazarda Alman və Ingilis dəllallığı ilə məşğul olan tacirlərin hər ikisi tərəfindən müfəssəl (mükəmməl) surətdə himayət olunurdu. Məsələn, Heydərzadə ilə Nemsəçilər və başqaları ona bir göz ilə baxıb, zahirdə ruznaməyə kömək ya vəkalət işi rücu (müraciət) etmək, həqiqətdə isə demokratik dövlətlər, məxsusən Şuralar İttifaqının əleyhinə təbliğat aparmaq üçün onu mücəhhəs (amadə) etməyə çalışırdılar.

Bu təşkilat roşənfikir, cavanlar və sərvətməndlər içərisində dərin rişə salmağa başlamışdı.

Müharibənin sürəti almanların bərqasa bir sürətdə Şərqə doğru gəlmələri onları təşviq edərək özlərini çox tez bir sürətdə tanıtmağa vadar etdi. Ona görə tamam İranda faşist təşkilatları pozulub, faşist ünsürləri toqif edildi ki, bu təşkilatın başçıları da geri çəkildi. Beləliklə İrani-Bidar İranı iğfal edib, Alman və İngilis Cahangirlərinin qucağına atmağa müvəffəq olmadan pozulub ortadan getdi. Katibi yaxalandıqdan sonra "Fəryad" ruznaməsi tətil olundu (bağlandI).

### *Zidd-Faşist Cəmiyyəti*

Ziddi-Faşist Cəmiyyəti mühüt və zamanın icabı (qəbul etdiyi) üzrə meydana çıxan bir təşkilat idi. Iranın iri şəhərlərində müvəffəqiyyət qazana bilməyən bu təşkilat Azərbaycanda çox yaxşı işlədi. Azərbaycan Cəmiyyəti və Zəhmətkeşlər Təşkilatı pozulduqdan sonra Azərbaycanda yeni qurulan irticai dövrdə azadixah və demokratik qüvvələr fəqət bu cəmiyyətin adı altında fəaliyyət göstərə bilirdilər. Hizbi-Tudə və sair təşkilatların təşkil edə bilmədikləri mitinqlər, nümayişlər Ziddi-

Faşist Cəmiyyəti adı ilə təşkil olunurdu. Faşist ziddinə mübarizə aparan bir təşkilata dövlət və irticai ünsürlər curət edib, bir söz deyə bilmirdilər. Hətta mətbuat şədid surətdə qadağan edildiyi halda, təzə ərsiyə çıxıb siyasətə qoşulmuş Biriya, Mir Rəhim Vəlayi və qeyriləri azadixahların sözlərini bu cəmiyyətin tərəfindən nəşr olunan “Yumruq” ruznaməsi vasitəsilə intişar verirdilər. Polis Ziddi-Faşist Cəmiyyəti namına toplanan mitinqlərini dağıda bilmirdi. Hətta Ziddi-Faşist Cəmiyyətinin mərkəzi bir zaman Hizbi-Tudə tərəfindən çox geniş dairədə istifadə olunurdu.

Ziddi-Faşist Cəmiyyəti, Zəhmətkeşlər Təşkilatı Azərbaycan Cəmiyyəti və başqa demokratik cəmiyyətlər, bir sözlə demək olar ki, 12 Şəhrivərdə qabağa çıxan təşkilatların hərəsi bir növ ilə gələcək demokrat firqəsinin yaranması üçün zaminə hazırladıqları nöqteyi-nəzərdən faydalı və səmərəli işlər hesab olunmalıdır.

### *Həmkarlar İttifaqı.*

Azərbaycan Həmkarlar Ittifaqı da 1941-ci il 3 25 avqustdan şəhrivərdən sonra meydana çıxan sazimanlardır. Onun birinci müəssisləri Süren, Qulam karxanasının, Kərgəri və Fədavi İran karxanasının kargəri başqa təşkilatları ziru-ru (alt-üst) edən Fəhimi bu adamlardan məyus olub, Canpolad qəziyəsindən azadixahlara bütün hüsni-rəğbət (meyl) göstərməklə, nüfuz qazanan Xəlil Inqilab vasitəsilə onu tamamilə ələ keçirməyə iqdam etdi.

Yuxarıda dediyimiz səbəbə görə Tehrana təbid (sürgün) olunan Xəlil İnqilab orada Fəhimi ilə sazişə gəldikdən sonra Təbrizə müraciət edib, Fəhiminin köməyi ilə işə başlayıb, tezliklə geniş bir ittihadiyə yaratmağa təşəbbüs etdi. Fəhimi təşkilatın məxaricini təmin etmək məqsədi ilə böyük bir şəbneşinlik (tədbir) təşkil edərək, 21 min tümən pul toplayıb Xəlil inqilaba təhvil verdi. Inqilab möhkəm malı, qüvvət və dövlət köməyinə istinad edərək, ciddi işə başladı.

O zaman müharibə nəticəsində heyrətavər dərəcədə tərəqqi etməkdə olan sənaye məhsulu və yaşayış vəsailinin şədid bir surətdə bahalanması işçi sinfinə mübarizənin genişlənməsindən qorxub, çox yerdə kargərlərə güzəşt etməyə məcbur oldular. Dövlət mübarizənin müvəqqəti bir surətdə irəli getməsindən qorxub iqtisad naziri tərəfindən doktor Şeyxi Azərbaycana və İsfahana göndərməyə məcbur oldu.Doktor Şeyxi yerdə vəziyyəti mütaliə etdikdən sonra kargərlərlə karfərmanların (sahibkarların) ixtiyarat və haqqını müəyyən edən bir layihə yazıb, dövlətə qəbul etdirdi. Bu vəsilə ilə kargərlərin vəziyyəti yaxşılaşmağa başladı. Iş müzdü (maaş) yüzdə yüz, bəlkə yüzdə 50 % artırıldı. Karxana sahibləri kargərlərin hətta çörək və yanacaqlarını də öhdələrinə götürməyə məcbur oldular. Bu ittihadiyyənin müvəffəqiyyəti Xəlil İnqilabın adına tamam olduğuna görə onun nüfuzu yüksəlməklə, kargərlər onu həqiqi bir rəhbər kimi qəbul etməyə məcbur oldular. Arxasında böyük güc və qüdrət hiss edən bu cavan macəracu get-gedə öz vəziyyətini unudub, hətta ərbab və vəlineməti (sahibi) olan Fəhimiyə də etinasızlıq göstərməyə başladı. Onun hüzuruna getdikdə qabaqki təvazakarlığın əvəzi biədəbanə (ədəbsiz) bir surətdə qaba hərəkətlər biruzə verib, digər tərəfdən kargər təbəqəsindən təxti-təsirində vaqe olmaqla tez-gec əhd və pimanı unudub, vəli nemətinin göstərişlərinə əməl etməkdə səhlənkarlıq göstərdi. Fəhimi mahir bir diplomat, amma bir mürtəce olduğuna baxmayaraq öz məqam və şəxsiyyətinə artıq dərəcə əlaqəmənd özünü tapıb fəhlə təşkilatının başına gətirdiyi satqın bir adam mütəkkəbbir və ədəbsiz bir şəxsin hərəkətinə təhəmmül edən deyildi. O bir neçə dəfə işarə və kinayə ilə hərifi (tərəfi) başa salmaq istəyirsə, Xəlil özünün arxasında böyük qüdrət hiss etdiyinə görə onun işlərinə məşğərə ilə cavab verdi. Iş bu yerə gəldikdə Fəhiminin təklifi bəlli idi. O özünün tikdiyi binanı dağıtmağı da bacarırdı. Xəlilin qabaq hərəkətlərindən əlavə ittihadiyyələrin güclənmələri və bütün fəhlə sinfinin onların ətrafında

toplanması da fəhiminin xoşuna gələn işlərdən deyildi. O öz əli ilə öz başına bəla açdığını tez bir zamanda hiss etməyə başladı. Geridəki xətərdən qurtarmaq, onun üçün çox da çətin iş ola bilməzdi. Çünki o özü tamam ömrünü fitnə və fəsad və tiryəklə keçirmiş köhnə cavanlardan idi. Təbrizin ö günkü mühütü isə hər macəraya müsaid idi. Çünki hənuz əşxas özlərini layiqincə göstərməmişdilər. Hər kəs başına 5-3 nəfər toplaya bilsədi, istədyini edə bilərdi. Bunlardan əlavə Xəlil Inqilabın rəftar və hərəkəti azadixahlar üçün mərmuz şəkildə idi. Onun fəhlələr arasında gündən-günə artmaqda olan nüfuzundan irticai ünsürlərdən istifadə etmək imkanı az deyildi. Xəlilin pul işinə baxması da ağızdan-ağıza söylənilməkdə idi. Rəftarı daxi get-gedə lotuluq şəkli almışdır. Bu işdə Fəhiminin özü də dəxalətsiz deyil idi. Onun adamları, məsələn, Tağı Beytulla və Kərubi, Əbülqasım Cavan və qeyriləri cürbəcür ünvanlarla mühütü zəhərləyib, ortaya çıxan adamları bədnam etmək üçün çalışır və hiylələr düzəldirlər. Xəlil inqilabın şərrin başdan rəf etmək üçün aclıqdan gəlib, sərvət qazanmış. Təbrizdə ən birinci xalı karxanası sahibi olan Əbülqasım Cavan intixab olunmuş idi. O Xəlili rüşvət istəməkdə müttəhim edib, bir iddə pıçaqçılar vasitəsi ilə morede-həmlə qərar verərək, müfəssəl döydükdən sonra onun əlindən valiyə şikayət edir. Vali (Fəhimi) isə əmniyyəti xilaldar etmək ittihamı üzrə Xəlili saxlatdırıb, Tehrana təbid və ittihadiyyəsinin qapılarını bağlamaqla, komitənin birinci pərdəsinə xatəmə verdi.

Əlbətdə, kargərlər ittihadiyyəsini də bir tədbir ilə ortadan aparmaq çox da asan bir iş deyildi. Çünki bu təşkilat Pəhləvi dövrəsində doğub, müharibə zamanında tərəqqi etməkdə olan cavan senaeyə və sair bir surətdə inkişaf edən əl dəstgahlarına arxalanırdı.

Heyrətavər dərəcədə qazanc aparmaq, sərmaeyə və karxana sahibləri fəhlənin nazını çəkmək və onu əldə saxlamağa məcbur idilər. Fəhlə isə ittihadiyyə və birlik məzəsini dadıb və əldə indiki müvəffəqiyyətləri saxlamaq üçün bu vasitələri

saxlamalı olduğunu anlamışdılar. Ona görə Xəlil İnqilab Tehrana təbid olunduqdan sonra işini təqib etmək üçün Azərbaycana gəlib, Yusif İftixarı çox tez bir zamanda ittihadiyyəni yenidən dair etməyə müvəffəq oldu. Fəhimi məzul olub, onun yerinə sərləşkər Müqəddəmin göndərilməsi də bu işdə bitəsir qalmadı. Yusif İftixarı Xəlil İnqilabdan savad cəhətdən dalı olsa da, təcrübə cəhətdən irəli idi. Macaraçuluqda Xəlildən geri qalmazdı.

Hətta avamfəriblik inqilabi sözləri danışmağı Xəlil ondan öyrənmişdir. 11 il Pəhləvi zindanı və vaxtilə Cənub neft mədənlərində fəhlə arasında işləmək sabiqəsi daxi onun üçün böyük bir sərmayə idi. Bunlardan əlavə Iftixari ilə Xəlil İnqilab bir çox cəhətdən bir-birilə işləməyə məcbur idilər. Onlar Hizbi-Tudəi-İran və başqa azadixahları özlərinə yaxınlaşmağa imkan vermirdilər. Onların qabağında izhari-vücud etmək üçün bunlar bir çox qaranlıq və mərmuz (şübhəli) maqamat ilə mərbut olaraq, azadixah təşkilatlar arasında nifaq salmaqla özlərini camiətdə yol açmağa çalışırdılar. Bu işdə hər ikisinin yolu bir idi. Ona görə də Yusif İftixari Təbrizə gəldikdə İnqilabın xüsusi tövsiyəsi üzrə onun həmdəstləri tərəfindən çox hərarətli qəbul olunub, daha ciddiyyətlə işə başladı. Yusif Xəlildən aqil olduğuna görə fəhlə sinfi işi ilə məşqul olmayıb, meydanda olan bütün siyasi dəstələr və məruf siyasət adamları ilə də əlaqəyə girişdi. O gün Təbrizdə müəssir amillərdən hesab olunan sərləşkər Müqəddəm və Sərtibzadə ilə də yaxınlaşmaqda Hizbi-Tudə təşkilatın qabağına çıxdı. Onun əleyhinə gizli olaraq təbliğat aparmaqdan geri durmayıb, gözlənilməmiş işin asan bir surətdə irəli gedib, gözünü açaraq 10 min nəfərlik ciddi bir sinfin başında gördükdə onsuz da macəradan həzz alan avantüristin gözləri qamaşdı.

Əldə olan böyük imkanlardan daha böyük istifadə etmək fikrinə düşdü. O günlərdə 14-cü məclis intixabı üçün hazırlıq aparıldı. Sərləşkər Müqəddəm müəyyən adamlardan intixab komesiyonu dəvət etmişdi. O məmul (adət) olduğu üzrə bu

işdən böyük pullar qazanmaqda idi. Onlar müxalif adamlardan təşkil olduğunu hiss etməklə, Müqəddəmin şədid surətdə muxalifətinə girişmişdilər. Yusif özünün və yoldaşların intixab ola bilməyəcəklərinə yəgin etdiyi işin bu şəkildə meydana çıxmasından razı qalmayıb, daha ciddi surətdə əksül-əməl (reaksiya) göstərdi. Sərləşkər Müqəddəmin o günlərdə mərkəzi hökumət ilə arası yaxşı deyildi.

Azərbaycan da küllü miqdarda böyük pul qoparıb tək öz cibinə doldurmuşdur. Bu müamilədə (Alış-veriş) pay gözləyən Mehdi Fərrux hətta Söhilinin özü və məclis nümayəndələrindən bir neçəsinin payları yetişmədiyinə görə ounn əleyhinə mübarizə edirdilər. Yusif İftixarı mərbut (bağlı) olduğu irticai məqamlar vasitəsi ilə Müqəddəmin əleyhinə böyük nümayişlər təşkil edərək, işi ciddiləşdirmək istədi. Onsuzda dövlət məmurları təşkilatlardan nigaran olaraq fürsətdən istifadə edib, nümayişləri yatırmaq üçün silah işlətməyə təşəbbüs etdilər. Nəticədə kargərlərdən bir nəfər öldürülüb, neçə nəfər yaraladıqdan sonra Yusif də İnqilab kimi Təbrizi tərk etməyə məcbur oldu. Xəlil Inqilab ilə Yusif İftixarının Təbrizdə böyük və mühüm bir təşkilata rəhbərlik etmələri Hizbi-Tudənin başçılarının xoşuna gələn bir iş deyil idi. Ittihadiyyə başçılarının əksəri fabrika və sair müəssisələrdə Hizbi-Tudə əleyhinə ciddi surətdə mübarizə apardılar. Hizbi-Tudənin başçıları isə ittihadiyyəni dağıtmaq, yeni bir ittihadiyyə düzəltmək və ya onu tamamilə öz əllərinə keçirməyə çalışırdılar. Xəlil və Yusif Iftixari qələt hərəkət edib, kargərlərin qüdrətindən şəxsi istifadə fikrində olmamaları Hizb üçün bəzən müsaid (münasib) şəraiti gətirdi. Mütəəsifanə Tehranda Hizbin mərkəzi komitəsinin başında duranlar Azərbaycan zəhmətkeşlərinin və Təbrizdə olan Hizb rəhbərlərinin yaxşı hərəkətləri bu fürsətdən layiqincə istifadə etməyə imkan vermirdi. Ittihadiyyə kargərinə soxulan macəracular arasında Alman cəsusları və irticai məqamların möhkəm olmaqları da çox müəssər bir amil idi. Hizbi-Tudə içərisində yüzdə yüz azadlıq tərəfdarı olub, demokratizm yolu

ilə getdiyi halda ittihadiyyədə demokratizm, hətta Sovet dövlətinin dostluğuna müxalif olan ünsürlər də az deyildi. Gərək etiraf edək ki, Xəlil Inqilab ilə Yusif İftixari və başqalarının kargərlərinin nüfuz qazanmalarında onların azərbaycanlı olmaları artıq dərəcə müəssir olurdu. Yusifin Təbrizdən getməsi Hizbi-Tudə üçün qabağa çıxan fürsətlərin hamısından əlverişli idi. O günlərdə mövqeyini güdən sərləşkər Müqəddəm onları razı salmaqla Təbrizdə özünə arxa qazanmaq istəyirdi. O hətta batan azadixahları birləşdirmək üçün Əbülqasım Müsavi, Cəfər Said vasitəsilə onlara maddi şərait yaratmağa başlamışdı. Sərləşkər ittihadiyyəni Hizbi-Tudənin rəhbərliyi altına keçməsinə ürəkdən razı deyildisə, zahirdə bu işə görə onlara kömək etməkdən başqa çarəsi yox idi. Iş o vaxt Təbrizdə Hizbi-Tudəsinin başında duranlarından asılı idi. Onlar gərək əvvəl xaricdə nümayəndələrini bir-bir görüb danışıb, onların nəzərini cəlb etdikdən sonra təşkilat yolu ilə daxil olub, ittihadiyyə şurasının qərarı üzrə işi istədikləri əşxasın əlinə tapşıraydılar. Bunun əvəzinə ağayi Əmir Xizi ilə Ərdaşis Ovanesyan Müqəddəməsiz və hazırlıqsız olaraq, özləri ittihadiyə binasına gedib, oranı işğal etməklə işi bir dəfəlik öz əllərinə almaq istəyirdilər. Yusif Iftixarinin getməsilə acıqlanıb, şədid surətdə mübarizə etməyə hazırlanan kargərlər isə onların belə bir mövqedə gəlib binanı tutmaq istəmədiklərini gördükdə təhəmmül edə bilməyib, hər ikisini ciddi surətdə döydükdən sonra binanın pillələrindən yuvarlatmaqla, onları oradan tamah dişlərini çəkməyə məcbur etdilər.

Ondan sonra müəyyən bir vaxta dək Hizbi-Tudə başçıları ittihadiyyənin rəhbərliyindən sərfi-nəzər edib, Israfil Qadirinin rəhbərliyi ilə ayrı bir ittihaliyyə təşkil etməylə təşəbbüs etdilər.

Məlum olduğu üzrə kargərlər arasında nifaq və ikitirləlik yaratmaqdan başqa bir nəticə verə bilməz idi. Əmir Xizi ilə Ərdaşis Ovanesyan iftizahamız (biabırcasına) bir şəkildə ittihadiyyədə döyülüb, eşiyə salındıqdan sonra Yusif və Xəlil İnqilabın dəstəsindən Rəhim Həmdad və Əlizadə İbrahim Təbrizə

gəlib, ittihadiyyədə işlərini səhmana salırlar. Bunların hər ikisi nisbətən salim (sağlam) və mülayim adamlar olduğu üçün birinci növbədə 14-cü məclis intixabatı üzərində Hizbi-Tudə ilə ittihadiyyə arasında müvəqqəti bir etilaf (saziş) üçün danışıq başlandı. Nəticədə azadixahlarla kargərlər arasında müvəqqəti olaraq, zədixurd (vuruşma) azalıb, böyük təbliğatı və müsbət qədəmlər götürmək üçün imkan yaradıldı. Bu etilafın nəticəsində idi ki, Təbriz şəhərində və onun homələrində 16 min rəy aparmış oldular. Əgər maliklər və dövlət məmurlarının hoqqabazlıqları olmasaydı. Bu dövrdə Təbrizin vəkilinin hamısı azadixahlardan seçiləcəkdi. Xalqın ruhiyyəsini və azadixahların qüdrətini göstərən bu məsələ barəsində üzərində məlumat verildikdən, burada artıq məhzi-lüzum (hər ehtimala qarşı) fəqət biz istəyirik göstərək ki, ittihadiyyə əgər sağlam fikirli və düzgün düşüncəli, pak adamların əlində olmuş olsaydı. Vaxtında irticai hərəkatların qarşısı alınmaqla milli nehzətimiz daha tez meydana çıxardı. Ondan böyük nəticələr almaq üçün əldə kafi imkan ola bilərdi. Mütəəssifanə əvvəldən iş nalayiq və möğqez (qəzəli) əlinə düşündüyünə görə uzun müddət Azərbaycan zəhmətkeşlərini hədəfsiz bir şəkildə macəralara sövq etməklə azadixah kütlə içərisndə nifaq bir vasitə olub, qalmış, ondan müsbət bir nəticə əldə edə bilməmişdi. 14-cü məclis intixabatının intihasında (sonunda) macəra axtaran Xəlil İnqilab 1944-cü ilin fərvərdinin axırlarında Yusif İftixari ilə əlaqəsini pozur, Hizbi-Tudəyə yaxınlaşmağa zəminə düzəldib, üçüncü dəfə olaraq. Təbrizə gəldi. O vaxt ittihadiyyə təşkilatının başında Rəhim Həmdad dururdu. Həmdad Hizbi-Tudə ilə intixabat işində etilaf etdiyi halda ittihadiyyəni bitərəf saxlamağa çalışırdı. Xəlil İnqilab, Əlizadə Namiq Tehranda Yusif İftixari ilə bir yerdə olduqlarında Hizbi-Tudə ilə saziş edərək, Təbrizdə ittihadiyyələri birləşdirməyə gəlmişdir. O vaxt Təbrizdə İsrafil Qadiri və Kazım Haşiminin vasitəsilə yeni bir həmkarlar ittifaqı təşkil olunduğunu yuxarıda yazmışdıq. Bu həmkarlar

ittifaqı zəif olsa da Hizbi-Tudə tərəfindən təqviyət olunduğuna görə əhəmiyyətli idi. Xəlil İnqilab Tehranda Tudə başçılarına ittihadiyyələri onların istədiyi şəkildə birləşdirməyə söz verdiyinə baxmayaraq, Təbrizə gəldikdən sonra nümayəndələrin təhti-təsirində qalaraq, oyun oynamaq və ittihadiyyəni müstəqil saxlamaq, onun başında durmaq istəyirdi. Tudəyə verdiyi qəti vədənin xilafına olaraq cürbəcür bəhanələrlə Hizb-Tudə nümayəndələrinin ittihadiyyəyə nüfuz tapmasına yol vermirdi. 10 günə tamam etməli olduğu işi 3 aya dək qurtarıb, həmişə orada qalmaq üçün 22 Tir (ay) hadisəsini meydana çıxarıb. 22 Tir hadisəsi Rusiyada ittifaq düşən 9 yanvar hadisəsi xatırladan qanlı bir polis macarasıdır. Xəlil polis göstərişi ilə hazırlanmış nəqşəsini (planı) etmək üçün tirin onundan başlayaraq, inqilabi nitqlər söyləyib, böyük şüarlarla fəhlələri üsyana və qiyama dəvət etməkdə idi. Polis və istandar isə onun hərəkətinə kamal bitərəliklə baxıb, bəlkə yeri düşdükdə daha artıq ciddiyyət göstərməsinə imkan və şərait yaratmaqdaydılar. Nəhayət, həmin ayın 20-də ittihadiyyənin məkzi olan Tərbit xiyabanini özünün iddiasına qiyam mərkəzi qərar verib, minlərlə fəhləəri ora dəvət edib, hökuməti ələ götürmək şüarını meydana atmışdır.

Bu işə öz etibarnaməsini məclis tərəfindən qəbul edilməsi üçün cürbəcür təşəbbüslərə əl atan Fətəli İpəkçiyan da onu himayət edib, yol göstərməkdə israr etdiyini qeyd etmək lazımdır. Xəlilin saldığı hay-küy nəticəsində tamam gecə-gündüz tərbiyət xiyabanı cəmiyyət ilə dolu idi. Inqilabın ətrafını almış, yəni 3 nəfər mərmuz əşxas (şəxslər) isə yaxında aşna olanların iddiasına görə polis tərəfindən kəməri əsləhə (tapanca bel bağlayaraq) ilə müsəlləh olaraq binanın qapısında və xiyabanda keşik çəkməkdə idilər. Inqilab hər neçə saatdan bir balkona çıxıb, var qüvvəsi ilə bağıraraq, xalqı üsyana dəvət edirdi. O vaxt ki Azərbaycanın ustandarı bəzi əşxasa müraciət edib, fitnəni yatırmağı məsləhət gördükləri halda, o bu işdən imtina etmişdi. Qoşun rəisi də əl altında Tərbiyət xiyabanının

mühasirəsini qüvvətləndirərək, işarə və fürsət gözləyirdi. Tirin 22-ci günü günortadan qabaq böyük fabrika sahiblərinin müraciət etdiyi və onların gücü bir məbləğ rüşvə verib, işini onların istədiyi kimi qurtarmasın sevənlər də vardır. Hətta ............ özüdə Təbriz sənaye sahiblərinə çorabçı ki, o günkü molaqatda Xəlil inqilabın hərəkatına son qoymaq barəsində müzakirə edildiyini inkar etmir. O günlərdə Təbriz fərmandarlığından icra hakimiyyəti məzul olub (kənarlaşıdırılıb), Tehrana müraciət edən Mirzə Kərim xan bu işin əvvəldən axırına qədər Dadvərin polis tərəfindən qovulduğuna şəxsən mənim özümə isbat etməyə çalışdığı xatirimdədir. O deyirdi ki, "Mən müqərrər edim (qərara alım), mənə icazə verin şəxsən və ya polis vasitəsilə İnqilabı çağırım ona məsləhət edim və ya onu müvəqqəti toqif edib, Tehrana göndərim", Dadvər isə mənə qandırmaq istəyirdi ki, bu işdən onun müəyyən məqsədi vardı. Bu məqsəd isə nəzərimcə tacirlərdən pul qırxmaq, həqiqədə həm pul qırxmaq, həm kargərlər təşkilatını pozmaqdan ibarət idi. Xəlilin 22 tir macərası bilaxirə kargərlər üçün çox baha başa gəldi. Qabaqcadan hazırlanmış polis və nizami dəstələri nəqşə üzrə hərəkət edib, özünü (xəlil İnqilab) tutub səhih və salim meydandan çıxardıqları halda, ittihadiyyə binasını darmadağın edərək, kargərlərdən 9 nəfərini vəhşiyanə bir surətdə qətlə yetirib, 22 nəfəri də ağır surətdə yaralamaqla komediyaya xatəmə vermişdilər.

22 Tir hadisəsi ilə azərbaycan kargərləri təşkilatı tamamilə Xəlil İnqilabın və Yusif İftixari dəstəsinin çəngindən xilas olub, Tudə firqəsinin rəhbərliyi altına keçdi. Ümumiyyətlə azərbaycanda fəhlələr təşkilatı cavan bir təşkilat olduğuna görə hətta axır zamanlara qədər tamamilə sinfi əsas üzrə əsaslanmış bir illik nehzət müddətində firqə və Milli Hökumətin verdiyi xüsusi kömək və yaratdığı şəraitə baxmayaraq, yenə də təşkilat cəhətdən tamamilə ittihadiyyə mənasını qazana bilməmişdir. Məxsusən axır zamanlardda firqə və hökumətin köməklərinə dayandığına görə öz hüdudundan kənara çıxıb, onun başında

sadə kargərlər ittihadiyyəsi yerində sənətkarlar və xırda kasıbkarlar: faytonçu, ərəbçi, qəssab və qeyrilərini də əhatə etməklə siyasi ləşgər düzəldərək, keyfiyyətdən artıq kəmiyyət arxasında getməyə can atmaqda idi.

Necə ki, dedik. Azərbaycan ittihadiyyələri cavan bir təşkilat olduğuna görə təşkil olunan günündən nehzət xatəmə tapana dək bir neçə nəfər mənfəətçi ünsürlərin şəxsi nəzəri özrə tamamilə firqə rəhbərlərinə tabe olmaqdan bir növ boyun qaçırmış, təkcə iqtisadi, hətta siyasi məsələlərə də bəzən səhf və xatarlardan kənarda qalmamışdır. Xəlil İnqilabı, Yusif İftixarinin və hətta axır günlərdə tək-tək nümayəndələrin ittihadiyəni firqənin qarşısına fikri bu təşkilatın ən böyük nöqsanlarından hesab oluna bilərdi.

Bunların hamısı ilə belə etiraf etmək lazımdır ki, Azərbaycan kargərlər və zəhmətkeşlərinin ittihadiyyəsi istər milli, istərsə nehzətdən qabaq həmişə azadixah dəstələrin qabağında gedən bir cəmiyyət olub, və məxsusən nehzət zamanı firqəmizin möhkəm arxası hesab edilmişdir.

Nehzətimiz başlanan gündən isə birinci dəfə firqəmizin rəhbərliyi onun səri bir surətdə pişrəqtinə (inkişafına) imkan verəndə hamiə (himayətedici) təşkilat olmuşdur. Hənuz (hələ) firqə üzvlərinin sayı qırxa çatmadığını halda, ittihadiyə şurasının sədri Biriyanın müəssislər heyətinə göndərdiyi tarixi məktubun böyük ərzişi (dəyəri) vardır. Xatəmədə əlavə etməliyik: bütün nehzət müddətində görülən ciddi işlərdə istər ümumiyyətlə ittihadiyə sazimanı, istər onun tək-tək üzvləri həmişə xalqımızın qabaq səflərində getmişdir.

**Hizbi-Tudə və Kanuni-demokrasi.**

Yuxarıda göstərmişdik ki, Azərbaycan xalqı, məxsusən Təbriz camaatı Tehrana tabe olmaq, Tehranda qurulan cəmiyyətlərin ardınca istəmirdi. Onları Tehran dəfələrlə iğfal etdikdən, ona daha bel bağlaya bilməzdi. Həqiqətən Tehran

siyasətçilərinə inanmaq olmazdı. Onların çoxusunun siyasi amal və arzusunu təqib etməyib, xüsusi məqsəd və şəxsi mənafe üzlərinsə hərəkət edən adamlar olduğunu azərbaycanlılar çox yaxşı bilir.

Ona görə özlərinin {sərneveştini} bir daha onların əlinə tapşırmaq istəmirdilər. Yuxarıda dediyimiz kimi əhalinin qabaqcıl və münəvvər (ziyalı) hissəsi Hizbi-Tudəyə Tehran ilə mərbut olduğu üçün bağlanmaqdan göz yumub, ayrı və müstəqil surətdə mübarizə etməyə çalışırdılar. Bundan başqa Hizbi-Tudənin Təbrizdə işləmək üçün göndərdiyi işçilər dəxi şəxsiyyət etibarilə xalqın tanıyıb, bildiyi mübariz adamlar deyildilər. Əksəriyyəti azərbaycanlılardan olan məzhəbi bir ölkədə bir nəfər qeyri azərbaycanlı, məsələn, Ermənini bir azadixah təşkilata rəhbər təyin edən bir firqə üçün ümumun rəğbətini qana bilməmək təbii bir məsələ idi. Hətta o adam şəxsən layiq bir adam olsaysı belə və illi nehzətdən ucalmış bir xalq onun dalınca getməzdi. Hizbi-Tudənin mərkəzi isə xalqın ruhiyyə və ehsasatını hesaba almayıb, Azərbaycan təşkilatının başçılığına ardaşis Ovanesyan gətirmişdi. Bu adam şəxsən Azərbaycanlı olmadığı halda, əxlaqı dəxi mütəkkəbir (özündənrazı) və xudpəsənd olduğundan, xalqın xoşuna gələ bilməzdi. Təbriz camaatı nə qədər beynəlxalq dostluğa meyili olsa belə, tanıyıb, imtahandan keçirmədiyi başqa bir adamın rəhbərliyini qəbul etməzdi.

Hizbi-Tudənin fəal rəhbərlərindən olan Əhməd İspəhani də azərbaycanlıların xüsusən ortabab və şəhər camaatının xoşuna gəlmirdi. Tudə təşkilatı 14-cü məclis seçkilərində vəkil seçmək istəyən bu adam əsla təbrizli deyildi. O Istanbul İspəhani bir famildən anadan olmuşdur. Onun danışdığı osmanlı türkcəsi xalqın sevdiyi bir dil deyildi. Hizbi-Tudə bu adamı Azərbaycan təşkilatına rəhbər göndərməkdə böyük iştihab (səhv) etmişdir. Təbriz camaatı bu səbəblərə görə Tudə təşkilatına çox bədbinlik nəzəri ilə baxırdılar. Bunlardan əlavə Hizbi-Tudənin əyalət komitəsinin üzvləri əksəri təzə ərsiyə gəlmiş, təcrübəsiz

və məlumatsız adamlardan ibarət idi. Bunlar xalqın arzularını düşünüb, onu əncam verməklə firqəni xalqa yaxınlaşdırmağa müvəffəq ola bilmirdi. Ona görə Təbrizdə yeni müstəqil milli bir təşkilatın vücuduna ehtiyac hiss olunurdu. Kanuni-Demokrası bu ehtiyacın üzərində meydana çıxan bir təşkilat idi. Bu təşkilat əksərən məhəlli adamlardan toplandığı üçün Təbriz camaatına daha yaxın idi. Onu qurub düzəldənlər. Hilal Nasiri, Cəfər Əxkəri, Mir Mehdi Çavuşi, Xəlil Azərbaqdan, Hüseyn Rizvan xalqın tanıyıb, bildiyi adamlar olduğundan şəhərdə və yaxın kəndlərdə Hizbi-Tudədən daha geniş dairədə çalışmaq imkanına malik ola bilmişdilər.

Məxsusən Təbrizdə məclisdə ortabab ziyalılar Kanuni-Demokrasiya çox artıq rəğbət göstərirdilər. Halbuki, Hizbi-Tudənin ətrafına toplananların əksəri kəndli və fəhlə mühacir tiplərindən idi. Kanuni-Demokrasının böyük bir nöqsanı fəhlə sinfindən uzaq qalması idi. Bu cəhətdən kargərlər ittihadiyyəsindən sonra Hizbi-Tudə daha qüvvətli idi. Kanuni-Demokrası üsküdə və Təbriz şəhərinin ətrafında yaxşı işlədiyi halda, Azərbaycanın ayrı şəhərlərində nüfuz tapa bilməmişdi.

Hələ məşrutiyyət inqilabı zamanından bəri Təbriz azadixahları arasında qanlı bir sabiqə hökm sürməkdədi. Bu işə yerli və gəlmə cavanlarından ibarət idi. Vaxtilə işləmək məqsədilə ərbab zülmündən – Azərbaycandan Rusiyaya mühacirət edib, məşrutəxahlıq hərəkatı başlanmasında inqilabda şirkət etmək məqsədilə vətənə müraciət edənləri fəqət libaslarına (paltar) görə mühacir adlandırmışdılar. Bu mühacirlər Bakı kimi fəhlə mərkəzlərində yaşayıb, Rusiyanın 1905-ci il inqilabı hərəkatından aldıqları təcrübə üzrə ciddi inqilab yolunda daha möhkəm {iradə} ilə irəli gəlib, yerli azadixahların mülayim rəftarına etiraz etdiklərindən onların xoşlarına gəlmirdilər. Yerlilər isə onların bəzilərinin adabi-rüsumini, (adət-ənənə) təbliğ etdiklərini bəyənməyib, onları laməzhəb və dinsiz adlandırmaqla özlərindən (onlardan) uzaqlaşdırmağa çalışırdılar. Bu məsələ hətta Gilan və Tehran məşrutəçiləri arasında da

varmış. Təbriz {onlara güzəşt edib} və axırda çəkib, ortada bir neçə nəfəri öldürdükdən sonra oranın azadixahları tərəfindən islah edilmiş və tamamilə ortadan qaldırmış idi.

1941-ci il 3 Şəhrivərdən sonra həmin köhnə mühacir ünvanı altında daha geniş, daha dərin bir surətdə zahirə çıxıb, Azərbaycan xalqının Sərneveştində mühüm yer tutmaqdaydı. Mühacirlər ümumiyyətlə Sovet Azərbaycanında və Şuralar Ittifaqının başqa cumhuriyyətlərində bir müddət yaşayıb öz vətənlərinə müraciət edən azərbaycanlılar olduqları halda, yerli mürtəcelər və dövlət məmurları tərəfindən mühacir adlandırılıb, Azərbaycandan xaricə çıxdıqları ilə onların arasında şədid bir surətdə ikitirəlik yaratmışdılar.

Mühacirlərin çoxusu uzun müddət Şuralar İttifaqında yaşayıb siyasi məsələlərdə aşna olduqların məhəlli adamlara nisbətən ictimai mübarizədə daha ciddi rəftar edirlər. Bir də bu camaat Pəhləvi dövrəsində böyük azar və əziyyətlərə məruz qaldıqlarından o rejimin bir daha təkrarından həmişə vahimədə idilər. Çünki Rza xan dövründə onlar öz vətənlərində müharibədə əsir düşən sərbazlardan daha pis halda yaşamağa məcbur idilər. O vaxt mühacir adı daşıyan bu adama müəyyən kənara çıxmağa icazə verilmirdi. Onların dövlət idarəsində işləməyə haqqları yox idi. Hər gün gərək gəlib özlərini polis idarəsinə nişan verib, hazırqayıb dəftərini imza edirdilər. Bunların mal və can, hətta heysiyət və namusu daima polis və jandarmların təərrüzünə (təcavüzünə) məruz idi. Əksəri yaxşı tərbiyə və təhsil görmüş olan bu camaatın çoxusu İranın mərkəzi şəhərlərində və cənubun zəhərli ab-havası olan yerlərinə sürgün eləyib, orada ağır və dözülməz şərait altında saxlanırdılar. Kaşan şəhərində mən şəxsən təbid (sürgün) olduğum günlərdə elə famillərə təsadüf etdim ki, bir parça çörək üçün hər bir işə hazır olduqları halda, onlara işləmək imkanı vermirdilər. Mühacir ilə danışmaq, onlara kömək etmək cürm hesab olunurdu. Biçarələr hətta alt paltarlarını satıb, xərcləyib, qurtarmışdılar. Bunların içərisində olan ali məktəb

qurtarmış mühəndis və təbiblərə qara fəhləlik və topraq qazmaq imkanı vermirdilər.

Ümumiyyətlə Təbriz, Ərdəbil, Sarab, Gərmdud və sair Azərbaycan kəndlilərindən ibarət olan bu adamlar mühacir ünvanı olub, öz vətənində sadə yaşamaq vəsailindən məhrum olduqda sonra nagihani (təsadüfən) olaraq əldə etdiyi azadlığa təbiidir ki, xunsərdliklə (soyuqqanlıq) sakit dura bilməzdi. Ona görə də Hizbi-Tudə təşkil olan kimi onun ətrafına toplanan və onu qüvvətləndirən camaat, yəni mühacirlər olmuşdu.

Yerli camaat isə irticai dövrənin təlim etdiyi adət üzrə mühaciri bəyənib onunla bir Hizbdə çalışmaqda tənəffür (nifrət) etirdi. Orta ziyalıların Kanun-Demokrası ətrafına toplanmalarının səbəbi də bu idi.

Vəli firqə başçıları da onu elə açıq söyləməyə curət etmirdilər. Çünki, Kanun-Demokrası təşkilatın üzərində belə mühacir tipləri az deyidi. Məsələn Xəlil Azərbadkan, Hüseyn Rizvan, Şamil və qeyriləri mühacir adlanan azərbaycanlıların lap ciddilərindən sayılırdılar. Bu təşkilata girən adamların arasında Hizbi-Tudə ilə muxalifət edən qeyri-azadixah ünsürlərə də təsadüf edilirdi. Bunlar Kanun-Demokrası, üzvülərini Hizbi-Tudə əleyhinə qurub təqviyyat etməklə azadixahlıq cəbhəsinə ixtilaf salmaq istəyən adamlar idi. Xətib Şəhidi və Hacı xan Təlai və qeyrilərinin məqsədləri fəqət və fəqət bundan ibarət idi. Tamam mənfi və müsbət cəhətlərilə bərabər, Kanuni-Demokrasi Azərbaycan milli nehzətinə mütəmayil (meyilli) bir ocaq hesab etmək mümkündür.

Onun başçıları heç vəchlə Tehranı tanımaq istəməyib, onun üçün mərkəziyyət qail deyildilər. Bunlar özlərini müstəqil bir Azərbaycan təşkilatı hesab edib, mərkəzi komitələri isə Təbrizdə idi. Bu cəhətdən Kanun-Demokrası Hizbi-Tudə təşkilatından daha doğru xətti-hərəkət təqib edirdilər. Bildiyimizə görə Hizbi-Tudə əmələn və nəzərən öz məramnaməsinə kəndli təbəqəsini tamamilə kölgədə qoyub, ona bir şey verəməmişdi. Halbuki, Kanuni-Demokrasi öz məramnaməsində toprağı pul-

suz olaraq kəndliyə verməsini irəli sürmüşdü. Bununla belə xalq içərisində Kanuni-Demokrasi mötədil (liberal) və Hizbi-Tudə çox müfrət (ifratçı) və inqilabçılar təşkilatı tanınmışdı. Bunun səbəbi isə Hizbi-Tudə başçılarının təcrübəsizliyi və son dərəcədə sol ruhla ruhlanmış kargər və mühacir dəstələrinin təht-təsirində vaqe olmaları idi.

Əsasən Hizbi-Tudənin mətbuatı taktik və gündəlik iş cəhətdən həmişə geri gedir və yersiz şüarlar meydana atırdı. Bu isə yerli firqə komitələrini çaşdırır. Onları mühitə uyğun olmayan xətti-hərəkət təqib etməyə vadar edir. Biz çox yaxşı bilirdik ki, Hizbi-Tudə proqramı çox sadə milli bir Hizb üçün yazılmış proqramdı necə ki, yuxarıda dedik bu proqrama torpağın kəndliyə əvəzsiz olaraq verilməsi qeyd edilməlidi. Belə olduğu halda, onun son zamanlarda daha çox məqalə yazan üzvlərindən Xəlil Mülki bu təbəqəni kargər firqəsi daha doğrusu kommunist firqəsi olduğunun isbatına çalışırdı.

Bu tək Mülkinin nəzəri deyil, vaqiən Hizbi-Tudənin başçıları arasında vahid bir nəzər olmadığından qələm əlinə alıb, məqalə yazmaq istəyən rəhbərlərdən hər biri xalqı bir tərəfə çəkirdi və çox da firqəni təbəqatı (sinifi) bir firqə adlandırırdı. Həmin prisipsizlik və aydın nəzəriyyə və hədəf olmadığından rəhbərlər çox vaxt kütlənin tahti-təsirində vaqe olaraq, ona rəhbərlik edib, yol göstərəmək əvəzində onun dalınca sürünüb, onun xoşuna gələ bilən sol şüarlar ilə təzahür edərək, firqəni düzgün yoldan kənara çıxmağa vadar edirdilər.

Bu prinsipsizlik o firqənin Azərbaycan təşkilatının qabağında böyük əngərlər törədir, onun nüfuzuna böyük zərbələr vururdu. Bu təəssüflə Azərbaycan azadixahalar cərayanına böyük zərbə vurduğunu da inkar etmək olmaz. Məsələn bir gün Əli Əmir Xizi kəndlilərinin xoşuna gəlmək üçün yerlərin kəndli arasında bölünməsi şüarını meydana atmaqla müqəddəməsiz bir kəndli çıxışı meydana çıxarmağ olduğu halda, kəndlilərə heç bir kömək yetirmədiyindən biçarələrin çoxunun toqif olunmasına səbəb olmuşdur. Kanuni-Demokrası başçıları

isə bu sahədə daha ehtiyatlı olduqlarına görə ortabab şəhər camaatı arasında daha artıq etibar qazana bilmişdi.

Bununla belə Kanuni-Demokrası təşkilatının içərisindən çıxan ixtilaflar və 14-cü məclis seçkilərində şikəst (məğlub) edildiyinə onun başçılarının etibar və nüfuzlarını xalq içərisində itirdikdən sonra 1944-cü ilin əvvəllərində tamamilə Hizbi-Tudə təşkilatına mölhəq olmaq (qoşulmaq) məcburiyyətində qalmışdı.

**Cəbhəi – Azadi (Azadlıq Cəbhəsi)**

1941-ci ildən başlayıb, 45-ci islədək şədid keşməkeş və ağır nəticəsiz mübarizə Azərbaycan azadixahlarını yorduğu halda, onlara vahid bir təşkilatın lüzumunu hiss etdirmişdi. Bu ehtiyac üzrərində Cəbhəi-Azadi təşkilatı bütün İranda olduğu kimi Təbrizdə də təbii olaraq, meydana çıxmış və nüfuzunu itirməkdə idi.

Cəbhəi-Azadi 1943-cü ildə Tehranda məlum olduğu üzrə əvvəl mətbuatı bir təşkilat idi. Sonra siyasi dəstələr və ictimai bir saziman halına düşüb, bütün azadixahların adından danışmaq imkanına malik olmuşdur. Bədbəxtanə onun ƏdamÎ-müvəfəqiyyəti də bu imkandan doğulmağına başladı. Çünki cəbhəni vücuda gətirən ruznamə müdirləri sirf bir arxa güdən adamlar deyildilər. Bu səbəbən Seyid Ziya dəstəsi siyasət səhnəsində görünür ki, "Sitarə" ruznaməsinin müdüri Mülki, Sədri "İran" ruznaməsinin müdiri "Mühüt məccəlləsi" müdiri Mühit Təba-təbai və "Xorşidi-İran" müdiri Bazərkad və başqaları cəbhəni onun qucağına atmağa təşəbbüs etdilər. Təşəbbüsdə onları təşkilatdan ixrac etdilər. Bu isə cəbhəyə böyük zərbə idi. Digər tərəfdən Hizbi-Tudə ruznamələri fəqət Hizbi çərçivədə məhdud qalmağa çalışdıqları üçün cəbhəni təşkil etmək, onun dairəsini genişləndirmək əvəzində onu tamamilə Hizbi bir sazman halına salmağa başladılar.

Ortada (bitərəf) qalan ruznamə naşirləri (nəş edənlər) uzaqlaşdırıb, təşkilatı qüvvədən salmaqa səbəb oldular. Yeri gəlmişkə deмək lazımdır ki, istər hökumət başına keçmək üçün heç bir macəradan çəkinmək istəməyən Qəvamus-Səltənə öz mərkəzləri vasitəsilə Hizbi-Tudə Cəbhəi-Azadi təşkilatının öz təhti-nüfuzuna keçirmişdir. Bahar, Abbas Şahəndə, Zeynal Abdin, Firdovsi və Lənkaraniləri Qəvamın köhnə adamları olduqları üçün var qüvvələri ilə cəbhə təşkilatını onun qucağına atmağa çalışdılar. Əsla Qəvamus-Səltənənin səhnə siyasətinə soxulur Hizbi-Tudə və sair azadixahlar təşkilatına əl atması Hizbi-Tudə və azadixahlar cəbhəsinə böyük sədəmə (zərbə) və zərərlər yetirməkdə idi.

Xüsusən qeyd etmək lazımdır ki, əvvəl günlər azadixahlar və mütərəqqi ünsürlər bu sazimanların dalında Qəvamus-Səltənənin irticai {siyasətini hiss} edərək, ondan hürkür, özlərini kənara çəkdilər. Qəvam isə bacardıqca özünü azadixahlara yaxın göstərməyə çalışırdı. Tehranda cəbəhnin vəziyyəti bu şəkildə olduğu halda, Təbrizdən böyük ümüd gözləmək olmazdı. Idarədə təşkilatın sədarətinə keçirilən Ağai Şəbüstəri savad cəhətdən zəif və fəaliyyət cəhətdən (zəif idi). Qeyd olduğuna görə cəbhə ətrafına toplanan azadixahları razı salıb, onlara rəhbərlik edə bilmədi. O təşkilatı idarə edib, onu hədəfə doğru aparmaq əvəzində Ağazadə və başqaları kimi şarlatan üzvləri və müxtəsər muxalifət nəticəsində küsüb getmiş və cəbhəni onların əllərinə tapşıraraq, kənara çəkilmək fikrində olanlar isə məzrubi-iman adamlar olduqlarına görə təşkilatı zəiflədib və batil (pis) halında saxlayıb, {məhv} dərəcəsinə gətirməyə səbəb olmuşdular.

Hizbi-Tudə başçılarından Xəlil Mülki və doktor, Cövdət və Vartaşini azadixahları özlərinə {tabe} etmək kimi kiçik və məhdud düşüncələri də Təbriz azadlığ cəbhəsinin zəif düşməsində artıq təsir bağışlamışdır.

1945-ci il mordad ayında mən Şirazdan gəldikdə Azadlıq Çəbhəsi təqridən dağılmağa başlamışdır. Məxsusən Hizbi-Tudə

və ittihadiyyə başçılarını təqviyyət etmək əvəzində dağıtmağa çalışırdılar. Natavani, Rəhbər və qəhraman kimi savadsız, biliksiz tudəçilər cəbhədə çalışan əşxas hətta təhqir və tovhin etməkdən belə pərhiz etmək istəmirdilər. Bu isə tamamilə Hizbin və azadlığın zərərinə tamam olan bir hərəkət idi.

Əsla Hizbi-Tudədə də münəvvər (aydın fikir) təbəqə az və avamfərib adamlar çox idi. Bu təşkilat sırasında ədlı və məmulatlı üzvləri görməkdən qorxurdular. Çünki, yeni savadlı adamlar ortalığa çıxdığı vaxt savadsız təşkilat rəhbərliyindən kənara qalmaları məlum bir məsələ idi. Çünkü xalq bacarıqlı və məhbub adamları qoyub, bütün sərmayələri çığır-bağır salmaqdan ibarət olan demaqoqların dalınca gedə bilməzdi. Getsəydi bir nəticəyə verməzdi. Bu cəhətdən əyalət komitəsi firqə başçılarının dəvətləri ilə yaratmaq istədikləri şəraitə baxmayaraq, ziyalıları Hizbə çəkmək mümkün olmurdu.

Demək, o zaman Həzbi-Tudə başçısız və ofisersiz bir qoşun kimi zövq-təbii (öz-özünə) ilə irəli gedirdi. Başçıları çəkib dalınca aparırdı. Həmin zamandan onu solçuluq çərçivədə məhdud etməklə demokratik şəkli alıb, bütün xalqı öz dalınca aparmaq imkanından məhrum idilər.

Yuxarıdakı səbəblərə görə Azərbaycanda isə bir namə üzərində qurulan Cəbhəi-Azadi təşkilatı nehzət zamanında təzəlzül bir hala gəlmişdi. Bununla belə bütün Azərbaycanda başlanan ictimai işlərə rəğbət göstərən əşxas hamısı az-çox bu təşkilata bağlı hesab olunurdular. Firqəmiz təşkil olduğu zaman bütün siyasi sazimanlar kimi Cəbhəyi-Azadi da çox müfid vaqe oldu.

Həmin bu təşkilatın səbəbi ilə biz vaxtıkən bütün Azərbaycan şəhərlərində baş bilən adamlarla tanış ola bilmişdik. Mən özüm 1944-cü il isfənd ayında Təbriz, Xoy, Urmiyyə, Ərdəbil şəhərlərinə müsafirət edib, böyük konfranslar verdikdən sonra cəbhənin heyətini intixab etməklə, Azərbaycanın siyasət adamlarıla yaxından tanış və dost olmuşdum. Ona görə firqəmizin təşkilinə başladığımız vaxt

Cəbhəi-Azadi təşkilatı bizə hazır və amadə bir vəsilə olub, hər yerdə firqənin şöbəsini onların vasitəsilə qurmağa müvəffəq ola bildik.

**Nəticə**

Necə ki, yuxarıda dedik 12 şəhrivər 1945-ci ildən, yəni məruf (məşhur) elamiyəmizin intişarından qabaq Azərbaycan xalqını öz dalınca aparıb, bütün təbəqələrə rəhbərlik edən milli bir təşkilat yox idi. Zəhmətkeşlər, Tudə, Azərbaycan və sair ünvanlar altında parlayıb (aradan gedən) təşkilatlardan qalan mənfi və müsbət xatirələrə baxmayaraq, onlardan güclü bir əsər baqi (iz) qalmışdır. Hizbi-Tudeyi-İran, Kanuni-Demokrası, Ziddi-Faşist Cəmiyyəti və Ittihadiyyə isə, necə ki, şərh verdik. Fəqət zəhmətkeşlərin həssas bir qismini cəlb edə bilmişdilər. Bu təbəqə isə sazimanlardan gördükləri fəri işlərə qənaət etməyib, ciddi fəaliyyət və böyük qədəmlər gözlədiklərindən onlardan çox da razı deyildilər. Mitinqlər, nümayişlər, konfranslar dövlət məmurları barəsində yazılan acı tənqidlər artıq xalqı doyura bilməzdi. Təşkilatlara daxil olan fədakər insanlar onlardan ciddi və əsas qədəmlər götürmək intizarında idilər. Biz isə yuxarıda qeyd etdiyimiz səhvlərə görə olası deyildi. Hətta onların götürdüyü bəzi ciddi qədəmlər də nəqşəsiz, hədəfsiz olub, hissiyat üzərində qurulduğundan əks nəticələr verirdi. Nehzətimizdə müsbət və faydalı işlər görülüb nüfuz qazanan cavanlar isə başçılarının götürdükləri qələd (səhv) qədəmlər nəticəsində bədnam olub, öz fədakarlıqlarından xalqın nifrətini qazanmaqdan başqa bir nəticə ala bilməzdilər.

Misal üçün Liqvan hadisəsini götürə bilərik: 1945-ci il mehr ayının 11-də ittifaq düşən bu hadisə Hizbi-Tudənin Azərbaycan təşkilatını şədid surətdə bədnam edən əsl idi. O günlərdə Tehrandan Təbrizə gəlib, orada hay-küy salan Artaşis Ovanesyan Lahican vəkili doktor (radmaneşin) parlaman

nitqindən alıb, meydana atdığı “qana-qan, yumruqa-yumruq” şüarı Azərbaycan üçün olduqca yersiz və bimövqe (mövqesiz) bir şüar idi. Bu şüar Hizbi ağır və qaba vəziyyətinə ducar etmişdi. Elani-cəng (müharibəyə çağırmaq) mənasında olan belə şüar xalqı qorxudub, Hizbdən uzaqlaşdırmaq, dövlət və jandarm qüvvələrini ayıq salmaqdan başqa bir nəticə verə bilməzdi.

Düşmənlərinə Elani-Cəng edən bir Hizb əvvəldən onun vəsailini hazırlamalı idi. Mütəəssifanə o vaxt Hizbi-Tudə ixtiyarında belə bir vəsail yox idi. Onun ətrafina toplananlardan beş-üç nəfərin əlində olan sadə, kiçik əsləhə (silah), dişdən dırnağa qədər müsəlləh (silahlı) olan dövlət qüvvəsilə Elani-hərb dağılmağa məhkum olmaq deməkdir. Bütün İranda hay-küya səbəb olan Liqvan hadisəsi isə bu şüarın üzərində meydana çıxdığından Hizbi-Tudənin rəhbərliyi böyük zərbə və xətərə məruz qalmışdı.

Doğrudur, bu hadisə jandarm başçısı Şəqaqi və Əmir Pərviz və sairlərin {gördüyü} tədbirlərindən {büruz} etmişdi, çünkü onlar ehqaqi-haqq edib, Hizbi-Tudənin təqazalarına istəklərinə qulaq asmadıqlarına görə tudəcilər müstəqimən öz müxaliflərini əzməyə iqdam etmişdilər. Bununla belə xalq kütlərini işlərə hazırlaya bilən hər təşkilatın kiçik bir kəndə həmlə edib, orada silah gücü ilə məsələni həll etməsi, doğru bir siyasət ola bilməzdi. Bu məsələni həll etmirdi ki, bəlkə də Hizb üçün yeni macəranı müşkülat (çətinliklər) meydanına çıxarır. Onun zəif və bacarıqsızlığını açıb göstərirdi. Çəkib apara bilmədiyini isə şərh verdiyimiz vəziyyət aydın bir surətdə isbat etməkdədir. O günlərdə Azərbaycan xalqının müxtəlif təbəqələri isə müharibənin xatəməsi və demokratik qüvvələrin İranı tərk edib getməyə hazırlanması münasibətilə səxt (bərk) nigaran və müztərib (narahat) bir halda idi. 14-cü məclis özünün irtica simasını tamamilə aşkara çıxarmışdır. Bir-birinin dalınca iş başına keçən mürtəce dövlət başçıları azadlığı pozmaq və İranı tamamilə xarici istismarçıların nüfuzlarına

təslim etmək siyasəti üzərində çalışdıqlarını əmələn isbat etməkdə idilər. Bu cəhətdən Azərbaycan kəndli, fəhlə və sair zəhmətkeşləri irticanın qələbəsindən artıq dərəcə qorxuya düşmüşdülər. Azadixahlar isə daha artıq nigaranlıq çəkirdilər Tehranda və başqa şəhərlərdə azadixah ruznamələrin töqifi və demokratik sazimanların əzilib sıxıntı altına alınması məclisdə Hizbi-Tudə nümayəndələrinin danışıqından fəaliyyətindən qadağan olunmaları, həmçinin Azərbaycan şəhər və kəndlərində mürtəcelərin və dövlət məmurlarından jandarm və polislərin get-gedə xalqı daha artıq incitməyə başlamaları xalqın 2 yol ayrıcına gəlib çatdığını göstərirdi. Xalqı hidayət edib, azadlığa çıxarmağ istəyən azadixahlar bu iki yoldan birin intihab etməyə məcbur idilər. Bunlardan birisi mövcud vəziyyətlə razılaşmaq yəni şərti-qeydsiz (qeyd-şətsiz) olaraq irticaya təslim olmaq, digəri isə xalqın narazılığndan istifadə edərək, onu möhkəm bir təşkilat altina almaqla irticanı əzmək üçün şədid mübarizəyə başlamaqdan ibarət idi.

Azərbaycanda olan Hizbi-Tudə və sair siyasi cəmiyyətlər bu məsələni düşünə bilmədiklərində ya düşünsələrdə onu icra etməyə qadir olmadıqlarından yəni qüdrətli bir təşkilat qurulması lüzumu meydana çıxmışdır. Firqəmiz isə bu axırıncı yolu təqib etmək hədəfi üzrə təşkil olunan bu ehtiyac üzərində qurulan siyasi bir cəmiyyət idi.

Zəif və qüdrətini də bu cərəyan üzərində axtarmaq lazımdır. Bəşər tarixinin şayani-diqqət (diqqətə layiq) hadisələrindən olub 11 ay davam edən milli hərəkatımız və heyrətavər günlərində firqəmizin götürdüyü tarixi işləri tarixşünaslıq nöqteyi-nəzərindən tətbiq və tədqiq edərkən bu əsli həmişə nəzərdə tutmaq lazımdır.

Azərbaycan fəqət bir ibarət olmadığı kimi irtica isə 90 yaşlı Hacı Ehtisama arxalanmırdı. Liqvan hadisəsi ibrətavər bir hadisə idi. Bu vasitə ilə Tudə rəhbərliyini zəifliyini və hesabsız bir hərəkət etdiyini isbat edib, Hacı Ehtisamin evini dağıdıb və şeylarinin qarət edilməsi isə Hizbin içərisində intizam-dis-

siplinin olmadığını tamamilə aşkara çıxartmış oldu. Böyük iştibah hesab olunan bu hərəkətin təqibi daha iftizah (rusvayçı) hadisə nəticəsində öldürülmüs Hizb üzvlərini dəfn etmək üçün verilən böyük nümayəndə pul gücünə əşxası Hizb binasında toqif etmək fövqəladə xətərnaq yerlərə çəkilə bilərdi. Bununla belə biz Liqvan hadisəsində Hizbi-Tudəni nifrətləndirmək istəmirik, məqsədimiz bu məsələni tarixi bir hadisə kimi şərh vermək deyildi fəqət Hizbi-Tudə başçılarının o günkü xətti-hərəkət və şüarlarının həqiqətdən uzaq olmasını isbat edən bir dəlil olmaq üzrə bu məsələyə işarə edirik.

Hizbi-Tudə heç vaxt Azərbaycanda xalqa rəhbərlik etmək məqamına nail ola bilməmişdir. Hətta onun ən qüdrətli günlərində belə Azərbaycan xalqı onun başçılarına etimadsızlıqla baxıb, işlərin intiqat (tənqid) gözlə təqib etmişlər. Necə yuxarıda dedik. Onun ən mühüm səbəbi Hizbin Tehrana bağlı olması və oradan təbliğat və təşkilat üçün gələnlər Azərbaycan xalqına yanaşa bilməyib, camaatın ruhunu incidib, fikrini edən milli ehtiyacını düşünməmələri olmuşdur. Məxsusən bizim milli nehzətimiz yaxınlaşan günlərdə Xəlil Mülki, Doktor Cövdət, Əli Əmir Xeyzi, Artaşis Ovanesyan, Əhməd İspəhani və qeyrilərinin mərkəziyyət tərəfdarlığından göstərdikləri inad Hizbi tamamilə xalqın nəzərindən salmışdı. “Azərbaycan cozi-İran” (Azərbaycan İranın hissəsidir) şuarını meydana atan Xəlil Mülki hətta Hizbin içərisində belə şədid müxalifətə təsadüf edərək, Təbriz nümayəndəliyindən ümüdin kəsərək, vəzarəti tərk etdikdə ona qarşı təşkilat içərisində böyük tənqid olunurdu. Xəlil Mülki, Artaşis Hizbi-Tudənin başqa rəhbərləri o zaman fars ilə müxaləfət edən Sadıq Badigani Tehranda töhmətləndirib, onu firqə məhkəməsinə cəlb etmələri mərkəzin nə qədər səhv hərəkət etdiyini nəzərinizdə mücəssəm etməkdədir (canlandırmaq).

Beləliklə fikir edirik, oxucularımıza milli nehzətimiz başlanan günlərdə Azərbaycanın siyasi təşkilatlarının vəziyyətini az-çox göstərə bilmişik. O bu təşkilatların heç birinin müstəqil

olaraq xalqı.Öz firqə təşkili üçün götürülən birinci qədəm 12 Şəhrivər müraciətnaməsinin hazırlandığı şərait yuxarıda Azərbaycan xalqının böyük bir siyasi firqələr heyəti hiss etmək idi müstəqil bir firqə olub, Tehrana bağlanmaması üçün Azərbaycan azadixahları, xüsusən yeni nəslin 4 il tamam mübarizə apardıqlarını da qeyd etmişdir. Indi isə firqənin başlanğıcı və onun səhəri apastrof surətdə tərəqqi etməsinin səbəblərini araşdırıb, onun məram və şüarlarının ətrafında bəhs etməliyik. Firqəmizin təsisi günü 12 Şəhrivər 1324-cü il hesab olunmalıdır. (3 sentyabr 1945-ci il) bu tarixdə firqənin bütün fəaliyyətinin əsasını və məramnaməsinin təmsilini təşkil edən 12 maddədən ibarət olan müraciətnaməsi intişar tapmışdır. Bununla belə qeyd etmək lazımdır ki, firqəmizin mordad ayının 10-dan başlanmışdır. Mordadın 1-dən şəhrivərin 12-dək (təqribən 1 ay davam edən) bu müddətdə cürətlə deyə bilərəm ki, biz firqəmizin ciddi fəaliyyət göstərdiyi günlərdə daha artıq zəhmət çəkib, daha artıq əziyyət sərf etmişik.

Vaxtıdan qabaq polis jandarm məmurlarını ayiq salmaq çox xətərli olunduğundan gizli fəaliyyət dövrü hesab olunan bir ay müddətində biz fövqəladə ehtiyat ilə işləməli, müxalifətlərin əllərinə bəhanə verməməlidik. Ona görə hər kəsə asanlıqla yanaşıb mətləbi ona hali etmək (aydınlaşdırmaq) mümkün olmurdu. Qabaqcadan zəminə hazırlamadan təzahür müvəffəqiyyətsizliklə xatəmə tapa bilərdi.

Biz istəsəydik aşağı təbəqədən geniş dairədə istifadə edə bilərdik. Bunu iki cəhətdən zərərli hesab edirik, əvvəla birinci qədəmdə aşağı təbəqəni toplamaqla biz ortabab adamları və şəhər əhalisinin ümdə (əksəriyyət) qisməsini məxsusən camiyətdə müəssir amil hesab olunan ziyalıların suyi-zənnini cəlb etməklə Cəbhəyi-Azadi və Hizbi-Tudə təşkilatlarının iştibahatlarını təkrar etməkdən başqa bir nəticə əldə edə bilərdi. Digər tərəfdən Hizbi-Tudə və kagərlər ittihadiyyənin ətrafında olan adamları dağıdıb o təşkilat ilə yersiz rəqəbat yaratmağa səbəb olar ki, təzə işə başlayan bir təşkilat üçün belə rəqabət

çox xətərli nəticələr verməyə bilməzdi. Cəbhəi-Azadinin qarşısına çıxan çətinlikləri unutmadığımızdan bu vasitə ilə onun iştibahlarını təkrar edə bilməmişdik. Bu cəhətdən birinci qədəmdə adlı-sanlı, bəlli-başlı adamları özümüzlə həmrah etməli idik.

Bu çox mümkün bir iş idi. Çünki bizim intişar vermək istədiyimiz milli şüarların bu təbəqə üçün təzəliyi var idi. Onlar Azərbaycanların bir millət olduqlarını qəbul etdikləri halda bu millətin farslardan və tehranlılardan ayrı olaraq, yaşaya bilməsinə sui-zənn ilə baxırdılar. Bəziləri Azərbaycan xalqının mübarizəsinin şuralar ittifaqı və Sovet Azərbaycanı ilə əlaqədar hesab edərək, ondan yanlış nəzəriyyə çıxardmaqla nehzətimizi İranın istiqlal və təmamiyyətinə moğayir (zidd) bir nehzət zənn edirdilər. Məxsusən varlı təbəqə məznun (şübhəli) olaraq, milli nehzətimiz arxasında özləri üçün sosializm, kommunizm qorxusu icad edərək meydana girmək istəmirdilər. Hətta bacardıqca bizim fikirlərimizi dəyişdirməyə çalışırdılar. Bunların hamısı bizi məyus etməyə, qədər qüvvətli deyildi. Xalqın xüsusilə zəhmətkeş kəndli və şəhər camaatının bizim fikrimizə şərik olduğunu çox yaxşı bilirdik. Biz hiss edirdik ki, Azərbaycan xalqımın milli şüarı olmasza ciddi mübarizəyə qədəm qoymayacaqdır.

Öz sərvət və mövqelərindən haya düşənlər, belə üsula Azərbaycan xalqınım dilinə, xüsusiyyətinə və azadlığına olan əlaqəsinə etiraf etdikləri üçün onların fərı və cuzi iradələri bizi tutduğumuz yoldan qaytara bilən qədər qüvvətli deyildi. Ona görə biz xalqa yaxınlaşıb, öz prinsiplərimiz ətrafında bəhs və münaqisə etdikcə tutduğumuz yolun doğru olduğuna imanımız qüvvətlənir və onun icrası üçün himmətimiz artırdı.

Buna baxmayaraq, birinci qədəmlər olduqca müşkül və çətin bir surətdə götürülürdü. Bir tərəfdən elə ağır şərait altında köməkçi və yoldaşlar hazırlarkən digər tərəfdən firqənin elamiyyəsini mükərrər müzakirə edib, onu iki əsldən ibarət olan şüarlarımızı yazıb, kağız üstünə gətirib, onu o vaxt azadixahlıq

adı ilə məşhur olan bitərəf əşxasdan 46 nəfərinin imzasilə bitirməyə müvəffəq olduq. Polis idarəsinin ciddi müraqibətini nəticəsiz qoyub qabaqdan tutduğumuz təsmim üzrə bəyannaməmizi 12 Şəhrivərə dək çapdan çıxarıb, intişar verdik. Əvvəl günlərdə içərimizdə məlumatlı adamlar olmadığından bu siyasi bəyannaməni dəqiq yazılıb, çap edilməsi olduqca müşkül idi. Onu özüm iki dildə yazmağa məcbur olmuşdum. Təhtüləfz (kəlmə-kələmə) tərcümədən pərhiz etdiyimdən onun fars ilə azərbaycanca olan nüsxələrindən ibarət cəhətində cuzi ixtilaf daha imkan tapırdı. Bununla belə iddia edə bilərəm ki, bəyanamə həm fars, həm də Azərbaycanca çox roşan (aydın) yazılmışdır. Çap işi yuxarıda dediyim kimi müşkül idi. 12 Şəhrivərdən ibarət olan böyük müraciətnaməni bir gündə Təbriz mətbəələrində 15 min nüsxədə çap etmək təqribən qeyri-mümkün nəzərə gəlirdi. Bu cəhətdən 24 saat tamam şəxsən çapxanada qalmağa məcbur oldum. Hətta Elmiyyə çapxanasının sahbi öz çapxanasının adını qeyd etməyə hazır olmadığından firqəmizin ciddi müəssisələrindən olan Ittilaat çapxanasının müdiri Həzən Zəfəri məsuliyyəti boynuna alıb öz çapxanasının adı ilə intişar vermək şərti ilə ona razılaşdırdı. Mümkündür ki, bu cüziyyatı təfsil (mükəmməl) üzrə şərh vermək bəzi oxucuları maraqlandırmasın, lakin mənim zənnimcə bütün dünyaya səs salan böyük bir işin başlanğıc şəraitini {məxsusən cavan demokratlara} bilmək lazımdır təcrübə isbat etmişdir ki, kiçik bir iştibah nəticəsində böyük bir iş pozula bilər. Kiçik bir fədakarlığının böyük bir xətəri rəf edilməsi də təcrübədə az görülməmişdir.

11 şəhrivər gecəsi bəyannaməni çap edərkən mənim 3 gün yuxusuz qaldığıma görə taqət gətirməyib, işçilərin nahar mizi üstündə yatmağın onların ruhiyyəsində dərin təsir buraxmışdır. 2 saatdan artıq davam etməyəm bu istirahətdən sonra mürəttiblər (tərtibçi) və sair çapxana işçilərinin ruhiyyəsində böyük təğyirat hiss etməyə başladım. Onlar tamamilə başqa adamlar kimi nəzərə gəlirdilər. Çapxananın qaranlıq kif (basmış lam-

pası) sanki işıqlanıb, fəaliyyət ilə dolmuşdur. Yuxudan oyandığım zaman hənuz sadə tanışlığımız belə olmayan kargərlər məni təbəssümlə qarşılayıb, işi bir neçə saata qurtarmağa hazır olduqlarını söylədilər. 2 saat bundan qabaq böyük məbləğ müqavilində belə yuxusuz qalmağa razılaşmayan cavan işçılər isə kamali-meyl və rəğbətlə onlara tapşırdığları vəzifəni əncam (əməl) verməyə söz verdilər. Mətbəənin səhifəbəndi Hüseyn Ağa Səlimül-nəfs mən oyanar-oyanmaz 4 saat sonraya vəd etdiyi ikinci səhifəni ikinci təshih (düzəliş) üçün mizin (masanın) üstünə qoyub dedi: indi mən inanıram ki, sizin işiniz müvəfəqiyyətlə qabağa gedəcəkdir. Çünkü ona möhkəm inamla yapışdınız, maddiyyat və istirahər fikrində olmadığınızı miz üstündə yatmağınız mənə isbat etdi. Dediyimi isbat etmək üçün özümdə müraciətnaməni imza etdim. Bu tarixi müraciətnamənin axırıncı imzası həmin çapxana kargəri Səlimül-nəfs imzasıdır.

Onun sadə və birğərzanə (qərəzsiz) bir surətdə zəhmətə ürəkdən qiymət verməsi məni fövqəladə ümüdvar etdi. Ona görə də bütün nehzət zamanı da hər bir işdə zəhmətə qatlaşıb, işçilər üçün nümunə olmağı hərgiz (heç vaxt) yadımdan çıxarmadım.

Bu kiçik hadisə hesab edilsə də mənim əqidəmcə Azərbaycan tarixində qeyd edilməsi bir həqiqətdir. Necə ki, dedik kiçik hadisələr bəzən çox böyük hadisələrin müqəddəmə və səbəbi ola bilər. Mövzudan xaric olsa da, burada "Əmir Teymur Kurkani (Topal Teymurun) qarışqadan ibrət almasını qeyd etmək lazımdır. Böyük fateh güya birinci dəfə Süxtə məğlub olub, yəs və bicarə halda tək və tənha xaraba bir divara təkiyə etdiyi halda, bir qarışıqadan ağzında özündən belə yekə buğdanı divardan çıxarmaq üçün dəfələrlə çıxıb-düşdüyünü və nəhayət öz məqsədinə nail olduğunu görüb ibrət, alır. Min ümüd və himmətlə işə başlayıb, bildiyimiz kimi böyük nailiyyatlar əldə edərək, vaxtının ən məhşur, ən qüdrətli simalarını kəsb edir".

Isfəhanda əfqanlıların xalqını qətl etdikləri zamanda qoca bir arvadın bir iddə isfəhanlının edam üçün qoyun kimi qətlgaha göndərilmələrini sərzəniş etməsi xalqı ayağa qaldırıb, qəsbkarlarların oradan qovulmasına səbəb olduğu tarixdə görülən kiçik bir hadisədir ki, ondan böyük bir nəticə əldə edilmişdir.

Deməк bizim firqəni təşkil edərkən, tək-tək adamlarla görüşüb, imza toplayıb və müraciətnaməmizi yuxarıdakı şəraitdə çap etməyimiz, zahirdə kiçik bir iş olsa da, böyük bir işin müqəddəməsi olmaq üzrə tarixdə iri xətt ilə səbt edilməlidir.

Qoy gələcək nəsl bilsin ki, hər işin müqəddəməsi əvvəlcə kiçik və əhəmiyyətsiz nəzərə gələ bilər. Elə kiçik ki, hətta insan ona məşğul olmağı belə özünə tənəzzül hesab edər. Vəli himmət istiqamət iman və əqidə üzrə başlanan iş tez ya gec istənilən nəticələr ilə nəticələnib, arzu olunan məqsəd, gözlənilməyən vasitələrlə əldə edilə bilər.

Çətinliklərə baxmayaraq, müraciətnaməmizi müvəffəqiyyətlə yazılıb, çap olub, intişara quyulması firqə tarixində şərəfli və qiymətli bir iş hesab olunmalıdır. Bu birinci qədəmi müvəffəqiyyətlə götürməklə firqəmizin əsl fəaliyyət tarixi başlanır ki, oda 12 Şəhrivərdən ibarətdir.

**12 Şəhrivər Müraciətnaməsinin intişar tapması**

Bu müraciətnamə ilə firqə o vaxta dək apardığı müqəddəmatı işlərə xatəmə verib, rəsmi və əlani sürətdə fəaliyyətə başladığını ümum xalqa bildirmiş oldu. O günədək istər Azərbaycanda, istərsə Azərbaycanın xaricində Hizb, müraciyətnamə intişar (nəşr) vermək, dəstələr düzəldib, təzahür edərək, xalq namından adi bir hal aldığına görə firqə müəssisələrinin bəzisi bizim müraciətnamənin da səssiz-sədasız keçməsini həds (güman) vururdlar. Bəziləri də onun milli ruhda yazılıb, birinci dəfə olmaq, üzrə Azərbaycan xalqı

üçün azadlıq, muxtariyyət tələb etdiyini nəzərdə tutaraq böyük tufan qoparacağına (inamlı) idilər. Xoşbəxtanə əməldə axırıncı nəzər doğru çıxdı. Müəyyən bir gündə bütün Azərbaycanın şəhər və qəsəbələrində intişar tapan bu müraciətnamə xalq tərəfindən böyük əlaqə və rəğbətlə qarşılandı. Iş qabaqdan diqqət və əlaqə ilə təşkil olunduğundan demək olar ki, həmin 12 Şəhrivər günü bütün Azərbaycanda onu oxumayan savadlı bir Azərbaycanlı qalmadı. Xalqın (zehninə də) bizim gördüyümüz tədbirlər da çox dərin təsir bağışladı. Qabaqdan hazırlanmış nəqşə üzrə sayı çox məhdud olan firqə üzvlərinin haman gün bütün şəhər və qəsəbələrdə hazır olub, müraciətnaməni divarlara yapışdırdıqdan sonra onun ətrafında xalqa müfəssəl surətdə məlumat vermələri çox faydalı bir iş idi. Hətta Qəzvin, Tehran, Rəşt, Mazandaran camaatının əksəri həmən birinci rəsmi qədəmi çox mükəmməl surətdə icra edilib, fövqəladə yaxşı nəticə verdi.

12 Şəhrivər saat 2 günortadan sonra 15 min nüsxədən bir dənə də olsun baqi (qalıq) qalmadığından, onu ikinci dəfə cap etməyə məcbur qaldıq. Müraciətnamənin təsiri və xalqın ona nisbət göstərdiyi rəğbtəinin əndəzəsini bilmək üçün 2 gün sonra, yəni şəhrivərin 14-də müntəşər (nəşr) olan Azərbaycan ruznaməsi baş məqaləsində yazdığımız aşağıdakı, cümələlərə diqqət yetirmək lazımdır.

"Doşənbə (üçüncü gün Iran təqvimi ilə) gün firqəmizin müraciətnaməsi intişar tapdı. Bu müraciətnamə xalqımız tərəfindən geniş təvəccöh (diqqət) və böyük rəğbətlə qarşılandı. Minlərcə Azərbaycanlı Azərbaycan şəhərində müraciətnamə yapışdırılmış divarların qabağında toplanıb, ürək döyünən səsi ilə onu oxudu, düşündü, alqışladı....".

Bu vasitə ilə səadət və azadlıq üçün yol açıldığını hiss etdi.

Bu isti istiqbal və hərarətli təvəccöh göstərdi ki, tutduqumuz yol düz və intixab etdiyimiz hədəf doğrudur.

Yuxarıdakı müraciətnamənin cümlələrin xalq içərisində böyük maraq və həvəslə qarşılanıb diqqətlə oxunduğunu gös-

tərdiyi halda, onun intişarından sonra müxtəlif təbəqələr tərəfindən göndərilən təbrik teleqramları və firqə üzvünün dərxastları (istək) çox dərin bir surətdə təsir bağışladığını aşkara çıxartdı. Misal üçün firqənin ildönümü münasibətilə nəşr etdiyi 12 Şəhrivər kitabının bu xüsusda verdiyi izahatı burada dərc edirik:

"Müraciətnamənin intişarı Azərbaycanda böyük bir hadisə idi. Şəhrivərdən əvvəl onun özü ətrafa göndərildiyi üçün Azərbaycanın hər tərəfindən teleqraflar sel kimi axmağa başladı. Illər boyu azadlıq eşqilə yanıb-yaxılan kəndlilər bu teleqraflar vasitəsilə özlərinin demokrat firqəsinə ilhaqlarını (qatılmaq) elam etdilər. Bu teleqraflar fövqəladə maraqlı sənədlərdir. Onların bəzisində yüzdən ziyada imza vardır. Bütün şəhər, qəsəbə, hətta kəndlərimizdə belə şəhrivər günlərində böyük hərəkət vücudə gəldiyindən, müraciətnamənin intişarından 2 gün sonra müntəşər olan Azərbaycan ruznaməsinin səhifələri birinci nömrədən başlayaraq, təbrik teleqrafları ilə dolmağa başladı. Məsələn, bu ruznamənin ikinci şümarəsində fəqət Əhər, Culfa, Mərənddən göndərilən teleqrafda 87 imza var idi (həmin bu nömrədə Təbriz, Xoy, Mərənd, Maku, Şahpur (Səlmas), Solduz, Marağadan olmaq üzrə əhalinin müxtəlif təbəqələri məxsusən yazılmış səkkiz fəqərə ümum teleqraflar dərc edilmişdir)".

Ikinci nömrədə isə teleqrafları imzalayanların sayı 251, ikinci şümarədə (750)yə baliğ (yaxın) imza olmuşdur. Bu gediş ilə firqəni istiqbal (qarşılamaq) edənlərin sayı bir həftənin içərisində heyrətavər bir surətdə artıb, xalqın kütləvi bir şəkildə firqə sıralarına daxil olmaq həvəsi meydana çıxmışdı.

Haman ruznamənin üçüncü səhifəsində Tehran, Marağa, Azərşəhr, Şəbüstəri, Urmiyyə, Miyandab, Əhər, Əcəbşir və Qəzvindən olmaq üzrə 27 fəqərə teleqraf çap olunmuşdur. 12 Şəhrivər kitabcasında qeyd edildiyi kimi bu teleqraflarda 700-dən ziyadə sərşünas (tanınmış) azərbaycanli imzası nəzəri cəlb etməkdədir. Hələ imza edənlərin çoxusu böyük bir iddənin

nümyənləri hesab olunrdu. Məsələn nümunə üçün kürd camaatı tərəfindən yazılan təbrik teleqrafının surətini eynən burada nəql edirik.

***Azərbaycan Demokrat Firqəsi***
***Ağayi Pişəvəriyə***

*Sizin bütün kürd qardaşlarınız vətənpərvərlik eşqilə dolu olan bir ürəklə saat 9-da Mahabada xəbəri yetişən Azərbaycan Demokrat Firqəsinin təsis təşkilinin münasibətilə öz ehsasat və təbriklərini izhar (bəyan) edib, bu tarixdın özünə səadət qapılarının açılmağını müşahidə edərək bu vəsilə ilə nəhayət iftixar və pakiqəlb ilə o azadixah firqənin müqəddas məramını təbrik edirik və hazırıq, axırıncı qətrə qanımız qalanadək bütün azərbaycanlıların üzünə təzə dünya və azadlıq nəsimi əsən bu ideal və məfkurəni müdafiə edərək söz, əməl, mal və canımız ilə bu müqəddəs azadixahlığa şərik və həmrah olaq və bizi ona vəfadar dayaq olacağımızı əmin edib {söz} veririk. Bu sevincli xəbər yetişməsilə pəncşənbə gecəsi sabaha kimi Mahabad və onun ətrafında böyük mitinqlər və şadlıq mərasimi çırağanlıq olub, xalq öz ehsasatını birüzə verməklə bir-birindən sibqət etmişdir. Məqsədimiz teleqrafdan bir nümunə göstərmək olduğundan, onun {baqisini} {burada} vermək istəmədik. Imzaları teleqraf 20 min üzvə malik olan kürd Demokrat Firqəsi başçılarından 70 imza etmişdir.*

*Azərbaycan kürdlərinin firqəmizin təşkilinin belə hərarətlə istiqbal etmələrinin dərin siyası mənası var idi. Çünkü Azərbaycan azadlıq hərəkatında bu elin çox mühüm rolu olmuşdur. Azadixahların əməliyyatını {ləğv} etmək üçün irticai və dövlət başçıları bu milləti {kürdləri} qabağa çəkməklə azadlığa böyük zərbələr endirmişlər. Məxsusən məşrutə hərəkatında kürd ellərinin əksəriyyəti istibdad tərəfinə cəlb edildiyi üçün məşrutəçilər ağır müşkülat ilə {üz-üzə} olub, Tehran irticası ilə mübarizə apararkən arxadan şədid təərrüzə məruz qalmışdılar. Is-*

*mayıl {Simitko} və sair qəbilələr rəislərinin uzun illər boyu orada yaratdıqları namərdliyi azərbaycanlılar heç vaxt xatirələrindən çıxartmadıqları üçün orada kürd məsələsi və kürdlərlə əlaqə mövzusu ən ciddi mövzulardan hesab olmuşdur. Məxsusən firqə təşkil olunan günlərdə irtica ünsürlərin kürdlər arasında şədid fəaliyyəti hiss olunduğundan, onları bizim {ziddimizə} və ya əleymizə olmaları həyati bir məsələ idi. Ona görə müraciətnaməmizə nisbət Mahabat camaatının göstərdiyi səmimi ehsalat böyük müvəffəqiyyət hesab olunurdu.*

*Yuxarıda qeyd etdiyimiz təbrik teleqrafı məxsusən kürdlərə qonşu olan şəhər və kəndlər Urmiyyə, Xoy, Maku, Səlmasi, Uşnəviyyə və Solduz üçün böyük bir ümüd yolu idi. Onlar bu vasitə ilə qorxudan xilas və asudəliklə (rahatlıqla) öz kəsbkarlarına məşğul ola biləcəklərini hiss edirdilər.*

*Biz yeri gəldikdə Azərbaycan kürdləri və onların milli nehzətimizə olan əlaqə və münasibətləri haqqında daha müfəssəl məlumat verəcəyik.*

*Əsla Kürdüstan məsələsi ilə həqiqi surətdə mərbut olduğundan bunları tək-tək həll etmək olmaz. Doğrudur dil, adab, rüsum, məhzəb və təriqə (məram) cəhətdən Azərbaycan ilə kürdlər bir-birindən tamamilə ayrıdırlar. Bununla belə onları bir-birinə bağlayan cəhətlər də az deyildir. Bunların ən başlıcası torpaq birliyi gündən-günə möhkəmlənməkdə olan ticarəti və iqtisadi əlaqədir. Bunlardan başqa Tehran hökumətinin və iki təyfaya bir gözlə baxıb, onları soyub, əzib, qarət etməkdə vahid bir siyasət təqib etdiyi, bir-birinə bağlayan səbəblərdən hesab edilməlidir. Təəssüflə demək olar ki, firqəmiz təşkil olmadan əvvəl kürdlərlə azərbaycanlılar arasında elə də yaxınlıq hiss edilmirdi. Bəlkə bərəks (əksinə) Tehran hökuməti və xarici imperialist dövlətlər bu iki milləti bir-birinin əleyhinə qaldırıb, bu işdən özünü möhkəmləndirmək üçün sui-istifadə edir. Əsla kürd məsələsi Azərbaycan məsələsinin həlli ilə sıx surətdə əlaqədar olduğundan, bu xüsusda daha müfəssəl məlumat vermək lazım olduğunu nəzərə alıb, bu xüsusda müəyyən*

*bir bəxşdə (bölmədə) daha bəhs edəcəyik. Burada fəqət onların təbrik teleqraflarına qənaət etməliyik. Hər halda bir teleqraf bu torpaqda yaşayan iki millətin qardaşlasması və yaxınlaşmasının başlanğıcı hesab olduğundan, onu bir mötərizə cümlə kimi olsa da qeyd etməliyik.*

*Kürdüstan və Azərbaycanın bütün şəhər və kəndlərindən firqə təşkili münasibətilə axıb, gələn teleqraf selləri müraciətnaməmiz xalqın arzuları üzərində qurulduğunu isbat edən mühüm bir dəlildir.*

*Tək-tək və dəstə cəmi teleqraflardan əlavə cəmiyyət və dəstələrin müəyyən təbəqələrin göndərdikləri teleqraflarda müraciətnaməmizin təsirini göstərmək nöqteyi-nəzərindən əhəmiyyətli sənədlərdir.*

*Rühanilər, kəndlilər, maliklər, kargərlər, ziyalılar, ümumiyyətlə Azərbaycanın müxtəlif şəhərlərində yaşayan bütün təbəqələr teleqraf vasitəsilə özlərinin müraciətnaməmizə və firqəmizə mülhəq olmalarını məramımızın yolunda mal və can ilə çalışmaq istədiklərini izhar etməkləri böyük ümüdvarlığa səbəb olan bir hadisə idi.*

*Misal üçün təbrik teleqraflarından bir necəsini eynən burada nəql edirik.*

***Əhrdən***

*Təbriz Firdovsi Xiyabani, Azərbaycan Demokrat Firqəsi. Biz Ərəsbaran əkinçiləri səmim qəlbdən Demokrat Firqəsini təbrik deyib, bu millətin nicatı üçün o məramın binasının istehkamın (möhkəmlənməsini) arzu edirik.*

*Ərəsbaran zareləri (əkinçiləri)*
*tərəfindən 15 imza.*

***Makudan***

*Təbriz, Azərbaycan Demokrat Firqəsinə! Biz Maku rühani və üləması bəyaniyəni oxuyub, anladıqdan sonra səmim qəlbdən bu müəqəddəs məramə təbrik deyib, Azərbaycan Demokrat Firqəsinə öz məramına yetişmək üçün dua edəcəyik.*

*Maku ruhaniləri tərəfindən Hacı Möhsüm Müsəvi.*

***Xoydan***

*Təbriz, Ağayi Pişəvəri Demokrat Firqəsinə 11 fərəqə şüarlardan ibarət 12.6.1324 (3.9.1945) tarixi bəyaniyəsi ziyarət və vaqe oldu.*

*Kamal səmimyyətlə aşağıda imza edənlər mərkəzi müəssislər ilə həmsəda (həmrəy) olub, özümüzün müvəffəqiyyət və həmkarlığımızı bu vasitə ilə elan edirik. Könüllülər adları poçt ilə göndəriləcəkdir. Maliklər tənəfindən Nəvid Makui, Məhəmməd Qulu Şəhidi, Ataş Bilet tüccar (tacirlər) tərəfindən Qasiməli Zadəgan, Əli Axundzadə, Bəqqalar tərəfindən Miri Müsəvi, Qulam Turabi, qəssab sinfi tərəfindən Əli Əşrəf, İsmayıl Qaracadağı, simsazlar (qalayçılar) tərəfindən Cümşüd Həkimi, kargərlər tərəfindən Səlman Seydulla Fəthi, Murad Əli; roşənfikirlər tərəfindən Yəhya Ağayi, xanımlar tərəfindən Turan Fəthi, Zərintac Fəthi, davafruşlar (aptekçi) tərəfindən Əsədulla Şəmsi, Qasım Əli Zadakan, binəkdarlar tərəfindən Mirzə ağa Lütfi, Mahmud Mülki, Cəbhəyi-Azadi tərəfindən Həsən Əbdahi, Abbas Cümşüdi, Yədani, Abasqulu Sabbağı, doktor Ülyai, Cəbhəyi-Azadi rabiti, Əbdül-Həmid Haşimi.*

*Yuxarıdaki imzaları təsdiq edirəm şəhər əncümən rəisi Fəthi.*

*Müraciətnamə intişar tapdıqdan sonra gündə yüzdən ziyadə alınan teleqrafların əksəri bu yuxarıdaki teleqraf kimi şəhər və kəndlərin ümum əhalisi və ya müəyyən siniflər tərəfindən imza edilib, göndərilir. Bu vasitə ilə ümum Azərbaycan*

*xalqının biz ilə həmsəda olduğu aşkara çıxır və şüarlarımızın doğruluğu isbat edilirdi.*

*Müraciətnamənin xalq tərəfindən həvəslə qarşılanması öz-özlüyündə nüfuz və şöhrət qazanması üçün geniş təbliğat vasitəsi idi. Onun ən kiçik faydalarından birisi bu idi ki, biz məktublar, teleqraflar vasitəsilə bizə hüsni-rəğbət göstərən adamları foriyyətlə (tezliklə) firqə sıralarına cəlb edir. Bu vasitə ilə firqənin gələcək qanacaqlı kütləsini təmin etməyə imkan yaradır. Onun əsas faydası xalqın gələcək mübarizədə şirkət etmək üçün ümüd tapıb ayağa qalxmasından ibarət idi.*

**12 Şəhrivər Müraciətnaməsinin məzmunu**

Müraciətnamə firqəmizin {əsasını} təşkil edən tarixi bir həqiqət olduğundan onun barəsində bir qədər artıq bəhs edib, o vasitə ilə meydana atdığımız şüarların məna və əhəmiyyəti daha artıq aydınlatdırmaq lazım olduğundan, əvvəlcə onun diqqətlə mütaliə (oxumaq) edilməsini tövsiyə edirik. Bu məqsədlə eyni zamanda onu eynən (buraya) köçürmüşük ki, oxucular zəhmətsiz olaraq ondan müstəqimən istifadə etməyə imkanları olsun.

**Azərbaycan Demokrat Firqəsinin müraciətnaməsi.**

Aşkardır ki, dünya ölkələrində tarixi illət və səbəblərə görə vahid bir halda deyildilər. Hər bir məmləkətin sərhəddi çərçivəsində yaşayan qovm-qəbilə və millətlər dil, adət və ədab cəhətdən bir çox xüsusiyyətlərə malikdirlər. Əgər hər məmləkətin idarə quruluşunda bu xüsusiyyətlər nəzərdə tutulmazsa, orada həqiqi demokrası və milli hökumət imkanpəzir (mümkün) ola bilməz.

Əgər dünyanın böyük və mütərəqqi ölkələrini nəzərdə tutub, Milli Hökumətlərin nailiyyətlərinin səbəblərini axtarsaq, təsdiq etməliyik ki, bunların hamısı o əlaqə və təvəccöhə bağ-

lıdır ki, millətlərin və tayfaların xüsusiyyətləri əks edilmişdir. Bizim bu iddiamızın böyük və canlı şahidi Amerika Cumhuriyyətləri və birləşmiş Sovet Cumhuriyyəti və həmçinin səyir dövlətlərdə qurulmuşdur. Bu klassik demokrası ölkələrdə milli ixtiyara və federasiyon üsulunu gözləməyə millətlərin tamam fərdləri (şəxslər) məmləkətin müqəddəratını həll etmək və dövlət işlərində müdaxilə etməyə müvəffəq olmuşlar.

Puç fikir və çürük iddiadır ki, deyirlər: məhəlli ixtiyarət və federasiyon üsulu mərkəziyyəti xələldar (zərbə) edə bilər. Amma bunun əksinə olaraq, təcrübə sabit etmişdir ki, qəbilələr, millətlər və mərkəzdən xaricdə yaşayan əhalinin hər qədər müstəqil və sərbəst surətdə dövlət işlərinə müdaxilə və şirkətləri təmin edilirsə, o nisbətdə onların vətənə əlaqələri və məhəbbətləri artıb və möhkəm ola bilər. Bu mülahizə ilə {irəli sürünən} əslin üzərindədir ki, məşrutəxahlıq cərayanı vücuda gətirənlər və İran qanuni-əsasını yazanlar əyalət və vilayət əncumənlərini irəli çəkib çalışmışdılar ki, bu vasitə ilə ümum İran xalqının məmləkətin müqəddərtanı təyin etməkdə şərik etsinlər. Əyalət və vilayətlərin məxsus ehtiyaclarını onların əhalisi vasitəsilə rəf etməyə (aradan qaldırmağa) çalışsınlar. Əyalət və vilayət əncümənlərinin sükut keçirilməsi Iran millətlərinin ictimai hüquqdan məhrum deyilməsi deməkdir. Qətiyyən bürokrası rejimi və mənasız mütləq mərkəziyyət vasitəsilədir ki, İran məmləkəti bir ovüc fasid, oğru, istifadəçi ünsürlərin əllərində oyuncaq olmuş və bu səbəblə tərəqqi və təkəmül karvanından dalda qalmışdır. Qətiyyən büroqrası rejiminin səbəblərilədir ki, iranlıların əksəri ictimai hüquqdan məhrum olmuşlar. Məşrutiyyət və milli hökumətə bədbin olub, İranın gələcəyinə məyusluq və bədbinlik gözü ilə baxırlar.

Inkar etmək olmaz ki, bu gün bizim məmləkətimizdə milli hökumətdən məşrutədən əsər qalmamışdır. Iran dövləti əməldə iradəsiz və pozucu bir maşın halına düşmüdür ki, onun başında duranlar xalqı qarət etməkdən bir ayrı məqsəd təqib etmirdilər. Tamam fəsad, tamam bədbəxtliklər və fəlakəti ədbar (didərgin

olmaq) buradan rişələnmişdir. Dərəbəylik üsulunun qüvvətlənməsi, diktatorpərəstlərin tapılması bu {irənc} və faydasız üsulun nəticəsidir ki, dörd-beş nəfərə çürümüş və silah güc ilə İran camaatına təhəmil etmişlərdir.

Əgər İranda yaşayan ellər, millətlər, xalqlar məmləkətin ümumi istiqlalını gözləməklə bərabər, öz yerlərinə də və öz hüdudlarında azad və muxtar olsaydılar və bacarsaydılar məmləkətin ümumi və küllü qanunlarını gözləməklə bərabər, öz müqəddətralını özlərinin meyl və iradələri ilə təyin etsinlər. Əgər onların haqları olsaydı, özlərini mədəni, iqtisadi və siyasi cəhətdən tərəqqiləri uğrunda öz əlləri ilə namunasib, qeyd və şərtsiz çalışsaydılar, İranın vəziyyəti bu hala düşməzdi. Məşrutə və qanun əsası ki, hədsiz və saysız qurbanlar verməklə ələ gəlmişdir, əsərsiz qalmazdı. Buna görə əgər bu üsul min illər davam edərsə mümkün deyil İran xalqı fəgir və biçarəlik dəryasından nicat tapıb, tərəqqi və təkamül yoluna qədəm qoya bilsin. Müstəbid, xunxar (qaniçən) və biatifə (vəfasız) ünsürlərin əlindən nicat tapmağa müvəffəq olsun. Əgər bu məxsus üsul baqi qalarsa, siyasi firqələr və sair demokratik sazimanlardan hətta kiçik faydalar belə hasil (ələ gətirmək) olmayacaqdır. Ayrı bir çarə yoxdur. Çox tez bir surətdə gərək qanun əsasının icra və təkmili (mükəmməl) yolunda ciddi işə başlayıb, milli hökumətin əməli edilməsi aşağıdan, yəni xalq içərisindən və camaatın geniş kütlərinin ehtiyacı üzərindən əyalət və vilayətdə yaşayan xalqların xüsusiyyətlərinin payəsindən (kökündən) qurmaq. Məhəlli ixtiyarat və federasiyon üsulunun səthi və sadə şəkli olan əyalət və viləyət əncümənləri təzə bir fikir deyildir. Müasir və mütərəqqi ölkələrdən əlavə qədim tarixi və böyük məmləkətlərdə belə naçar olmuşlar ki, xalqın və millətlərin xüsusiyyətini nəzərdə tutub, əllərini öz daxili işlərində açıq qoysunlar.

Böyük Daruşun zamanı məmləkət təqsimatı (bölqüsü) fəqət və fəqət bu təbii ehtiyac üzərində vücuda gəlmişdi. Qədim İranın satrabnişinlikləri bugünkü federasyion və xudmux-

tariyyət {avtonom} üsulunun ibtidai şəklindən başqa bir şey deyildir. Hənuz İranda mərsum (rəsmiyyət) olan şahənşahlıq ünvanının bundan başqa bir təəbir və təfsiri (izhar-şərh) yox-dur.

Mərkəziyyəti əgər diktatorluq və xudsərlik (özbaşınalıq) və zorakılıqdan ötrü saxlamaq istəsək, başqa bir sözdür, və əgər istəsək onu məmləkətin mərkəziyyəti və demokratik hökumətin başda duranın tanıyaq. O vaxt məcburuq o əyalət və vilayət-lərin {özünə məxsus} milli və mədəni xüsusiyyətləri vardır ki, onlara icazə vermək öz daxili işlərində azad və muxtar ol-sunlar. Bu vəsilə ilə mərkəzlə mənəvi əlaqə qüvvətlənə bilsin.

Indiki, biz Azərbaycanın xüsusiyyətindən bəhs edirik. Bu geniş torpaqda dörd milyon yarım azərbaycanlı yaşayır və bu camaatın dil, adab rüsumu cəhətdən İranın başqa əyalətləri ilə böyük fərqi vardır, indiki, biz istəyirik bu xalq öz fərhəngi (mədəniyyət) işlərində və öz torpağının azadlığında gərək dəxalət etsin, hərgiz mərkəziyyətin əleyhinə olmayıb, onun qüvvətlənməsinə çalışmış oluruq.

Bəzi qısa fikirli adamlar xəyal edirlər ki, zorla od açmaq vəhşi cəngəl (meşə) qanunu gücü ilə bir xalqın dilini, xüsu-siyyətini, adab və rüsmunu aradan aparmaq mümkündür. Bu xam xəyal ilə onlar səy edirlər əşxası vadar və məcbur etsinlər ki, hətta Azərbaycanın uzaq kəndlərində belə öz ana dilindən başqa bir dil bilməyən kəndlilər fars dilində danışsınlar. Bunlar təsəvvür edirlər ki, İran xalqını aldatmaq üçün yaratdıqları milli vəhdət fəqət libasları və dilləri məsnui (süni) surətdə birləşdirmək vasitəsilə mümkün olacaqdır. Bunlar bilmirlər ki, dilin rişəsi anaların sinəsindən və xalqın adab və rüsumu olan ocaqlar başından qalxır. Nə qədər analar diri və ocaqlar yanmaqdadır, bir xalqın dilini və adab və rüsumunu əvəz etmək mümkün olan işlərdən deyildir. Milli birlik o vaxt müyəssər ola (yarana) bilər ki, xalqın hamısı öz xüsusiyyəttini xə daxili azadlığını saxlamaqla, tərəqqi edib, bir-biri ilə müsavi ola bilsin.

Azərbaycan xalqı mərkəzin çürümş və kəsif ricalının siyasəti sayəsində özünün istedad, qabiliyyət və zəkasına baxmayaraq hər qism azadlıq və ixtiyarından məhrum edilmişdir. Onun oğullarının öz ana dilində təhsil etmək imkanları olmamışdır. Onun ziyalıları xalqın fərhəng behdaşət (səhiyyə) və sair ehtiyaclarını rəf etmək üçün heç bir haqq və ixtiyara malik deyildir.

Onlar öz ana yurdlarından və özlərinin qızıl tolit (istehsal) edən torpaqlarında fəqir və biçarəlik halında yabançılar və əsirlər kimi yoxsul halda yaşamaqdadırlar. Onun şəxsiyyətini, dilini və millətini təhqir etməkdədirlər. Rza xanın siyasətinin misli və mərkəzi dövlətin rəsmi nümayəndəsi bəlkə Azərbaycan xalqının düşmənlərinin nümunəsi olan Abdulla Mustufinin təhqiredici sözləri bayquş səsi kimi hənuz Azərbaycan xalqının qulaqlarında təninəndazdır.

Bir müəyyən ədətdən başqa bütün Azərbaycan xalqı özlərinin, adına, şöhrətinə, milliyyətinə möhkəm bir surətdə əlaqəmənddirlər. Bunlar həmişə səy etmişlər ki, Azərbaycanın azadlığı və bununla bərabər bütün İranın azadlıq və səadəti uğrunda canfişanlıq etsinlər.

Biz mətləbin uzanmasını nəzərdə tutub Azərbaycanın tarixindən bəhs etmək istəmirik. Bu xalqın mənşəi və babalarının {qeyrətli müdirlərin} böyük bir dövlət təşkil edib uzun illərcə müstəqil siyasi həyat sürdüklərini də irəli çəkə bilirik. Səfəvi sultanlarının Azərbaycan oğullarından təşkil etdiyi qızılbaş ordusunun bugünkü İranın təşkilində gördükləri böyük qəhrəmanlıqlardan bəhs etmirik. Hətta İranın və Azərbaycanın məşrutə cərəyanından Səttar xanın bayrağı altında fədakarlıq göstərən Azərbaycan mühacidlərinin fəaliyyətlərini də ayrı mövqeyə saxlayırıq.

Şeyx Məhəmməd Xiyabaninin azadlıq uğrunda başladığı qiyami və bundan sonra meydana çıxan bütün qiyamlar və azadixahlıq hərəkatlarını da şəhr verə bilməyəcəyik. Biz deyirik: Azərbaycan torpağında dörd milyonluq bir xalq yaşayır ki,

onlar özlərinin komitələrini təşxis vermişlər. Özlərinə məxsus dilləri və ayrı bir adab və rüsumları vardır. Bu xalq deyir ki, biz istəyirik ki, İranın istiqlali və tamamiyyətini hifz etməklə bərabər, öz daxili işlərimizi idarə etməkdə muxtar və azad olaq, öz evimizi, öz meyl və iradəmizlə idarə edək və milli, məhəlli ehtiyaclarımıza öz gücümüzlə rəf edək. Azərbaycan deyirdi: Tehran bizim dərdimizə yetişmir və bizim ehtiyaclarımıza çarə, etməkdən acizdir. Bizim fərhəngimizin tərəqqisindən cilov-girlik (qarşısını alır) edir. Bizim ana dilimizi təhqir edib başqa vətəndaşlarımız kimi sərbəst yaşamağa yol vermir. Bununla belə biz oradan rabitəmizi kəsmək iddiyasında deyilik. Məmləkətimizin külli və adilanə qanunlarına itaət edəcəyik. Məclisi-Şürai-Millidə və mərkəzi hökümətdə dəxalət və şirkət etməliyik. Fars dilini dövlət dili olmaq şərtilə milli mədrəsələrimizdə öz dilimiz ilə bərabər tədris etməyə imkan verəcəyik. Amma bunalrın hamısı ilə bərabər özümüz üçün bu haqqı qailik ki, gərək öz evimizin sahibi və ixtiyardarı olub, onu öz səliqəmizlə idarə etmək imkanına malik olaq.

Necə ki, yuxarıda dedik biz təzə bir iş başlamışıq. Illərdən bəridir ki, minlərcə Azərbaycan azadixahları və mütəfəkkirləri münfərid (tək başına) dəstəcəmi (toplum) bir surətdə bu müqəddəs fikir və ali məqsəd yolunda ki, Azərbaycanın və İranın həqiqi azadlıq istiqlalının payəsi gərək onun üzərində qurulsun. Xudmuxtarlıq üçün mübarizəyə dəvət etmişlər.

Indiki demokrası məmləkətlərin qəhrəman cavanlarının mübarizəsi sayəsində faşizmin əsası yıxılmış və millətlərin başqa millətlər üzərində ağalıq nəzəriyyəsinin puç bir iddia olduğu isbata yetişmişdir. Bütün millətlərin sərbəst bir surətdə öz müqəddəratını təyin etmələri mənşurla (xartiya) və peymanlar (müqavilə) vasitəsilə elan olunmuşdur. Bu halda Azərbaycan xalqı və Azərbaycan azadixahları təbiidir ki, münfərid və mütəfərriqə halında azadlıq mübarizələrini edama verə bilməzdilər. Ona görə lazım gəlir ki, bu mübarizəyə rəhbərlik etmək üçün möhkəm və müntəzəm bir firqə təşkilatı

vücuda gəlsin. Azərbaycan Demokrat Firqəsi bu ehtiyacdan doğulmuş bir təşkilatdır. O təşkilat bütün demokratik və azadixah şəxsləri öz sırasına dəvət etməklə bir milli mərkəziseql vücudə gətirəcək. Azərbaycan xalqını azadlıq hədəfinə doğru sövq edəcəkdir. Bu vasitə ilə İran millətlərinin tərəqqi və təkəmül yolunu açacaqdır. Əlbətdə, bu firqənin proqram və əsasnaməsi çox çətinliklə konqrə tərəfindən təsbib (möhkəmlənmək) və xalq tərəfindən təsdiq intişar tapacaqdır. Bununla bərabər, müəssislər heyəti bu vasitə ilə firqənin əsas nəzərini ümum xalqa elan etməklə onları öz sıralarına çıxarmağa başlamışdır.

Əziz həmvətənlər! Budur böyük tarixi mübarizə dövrü başlanır. Azərbaycan Demokrat Firqəsi sizi təbəqə və sinif firqəsi nəzərdə tutmayaraq, öz təşkilatında üzv olmağa və müqəddəs milli mübarizədə şirkət etməyə çağırır.

Bu firqənin qapıları oğrular və xainlərdən başqa ümum Azərbaycan xalqının üzünə açıqdır. Hər kəs bizim şüarlarımızı və məqsədlərimizi qəbul edərsə, çox tezliklə özünü firqə təşkilatına üzv yazdırmalıdır, Azərbaycanın və ümum İranın azadlıq ələmdarının (bayraqdan) sırasına daxil olmalıdır.

***Bizim şüarlarımız bunlardır***

*1. Iranın istiqlal və tamimiyyətini saxlamaqla bərabər, Azərbaycan xalqına daxili azadlıq və mədəni muxtariyyət verilməlidir ki, edə bilsin özünün fərhəngi yolunda və Azərbaycanın abadlaşması və tərəqqisi üçün ümum adilanə qanunlarını gözləməklə bərabər, öz sərneveştini təyin etsin.*

*2. Bu mənzuri (nəzəri) həyata keşirmək üçün çox tezliklə əyalət və vilayət əncümənlərini intixab edib işə başlamalıdır.*

*Bu əncümənlər fərhəng, behdaşət və iqtisad sahəsində fəaliyyət göstərməklə bərabər, qanuni-əsası mocibincə tamam dövlət işçilərinin əməliyyatını təftiş edib, onların təğyir (dəyişmək) və təbdilində (əvəzləndirməsində) izhari-nəzər edəcəkdir.*

*3. Azərbaycanın ibtidai məktəblərində üç klasa qədər dərslər fəqət Azərbaycan dilində aparılmalı və üç klasdan yuxarı dövlət dili olmaq üzrə fars dili də Azərbaycan dili ilə yanaşı tədris edilməlidir.*

*Azərbaycanda milli darülfünün (universitetin) təşkili Demokrat Firqəsinin əsas məqsədlərindəndir.*

*4. Azərbaycan Demokrat Firqəsi sənaye və fabriklərin genişlənməsinə ciddi çalışacaq və səy edəcək ki, mövcud fabrikləri təkmil etməklə işzisliyi rəf etmək, əl və maşın sənayeni genişləndirmək üçün vəsilələr (vəsait) yaradıb, təzə fabriklər da vücudə gətirsin.*

*5. Ticarətin genişlənməsi Azərbaycan Demokrat Firqəsi çox lazımlı və ciddi məsələlərdən hesab edir. Bu günə qədər ticarət yollarının bağlı qalması çoxlu kəndçilərin, məxsusən bağdarların və xırda maliklərin sərvətlərinin əllərindən çıxmasına və onların dilənçiliyə düşməsinə səbəb olmuşdu. Bunun qabağını almaq məqsədilə Demokrat Firqəsi bazar tapmaq və Azərbaycan əmtəələrinin xaricə çıxarılması üçün tranzit yolların axtarmaq üçün ciddi iqdam etməyi və bu vəsilə ilə ümumi sərvətin nöqsanının qabağını almağı nəzərdə tutmuşdur.*

*6. Demokrat Firqəsinin əsas məqsədlərindən biri də Azərbaycan şəhərlərinin abadlaşmasıdır. Bu məqsədə çatmaq üçün səy edəcəkdir. Çox tezliklə şəhər əncümənlərinin qanuni təğyir tapıb, şəhər əhalisinin müstəqil bir surətdə şəhərin abadlığına çalışıb, onları abrumənd (mədəni) və müasir hala salmağa imkan verilsin. Məxsusən Təbriz şəhərinin sudan təmin edilməsi Azərbaycan Demokrat Firqəsinin qəti mühüm bir məsələlərindəndir.*

*7. Azərbaycan Demokrat Firqəsinin müəssisləri gözəl bilirlər ki, məmləkətin sərvət tolid yaratmaq edicisi və iqtisadi qüvvəsi kəndçıların qüvvətli qoludur. Ona görə bu firqə edə bilməz ki, kəndçılər arasında vücuda gələn hərəkatı nəzərə almasın. Buna görə də firqə səy edəcək ki, kəndçilərin ehtiyac-*

*ların təmin etmək üçün əsas qədəmlər götürülsün. Məxsusən kəndçi ilə ərbabların arasında müəyyən bir hüdud təyin etmək və bəzi ərbablar tərəfindən ixtar edilmiş qeyri qanuni vergilərin qabağını almaq Demokrat Firqəsinin vəzifələrindəndir. Firqə səy edəcək bu məsələ elə bir surətdə həll edilsin ki, həm kəndçılər razı qalsın və həm də maliklər özlərinin gələcəyindən itminan (inam) hasil edib, rəğbətlə kəndlərinin və öz məmləkətlərinin abadlığına çalışsınlar.*

*Xalisə (dövlət) yerlərin və Azərbaycanı tərk edib, qaçan və Azərbaycan xalqının zəhmətlərinin məhsulunu Tehran və sair şəhərlərdə sərf edən ərbabların yerləri əgər tezliklə Azərbaycana müraciət etməsələr, Demokrat Firqəsinin əqidəsində görə qeyd-şərtsiz olaraq kəndçilərin ixtiyarına verilməlidir. Biz özlərinin eyş və nüşindən (keyf çəkməkdən) ötrü Azərbaycanın sərvətini xaricə aparanları azərbaycanlı hesab etmirik. Əgər onlar Azərbaycana qayıtmaqdan imtina etsələr onlar üçün Azərbaycanda bir haqq qail deyilik.*

*Bundan əlavə firqə çalışacaq çox səhl və sadə bir surətdə Azərbaycan kəndçılərinin əksəriyyətini torpaq və əkin alətləri cəhətdən təmin etsin.*

*8. Demokrat Firqəsinin mühüm vəzifələrindən biri də işsizliklə mübarizə etməkdir. Indidən bu xətər çox ciddi bir surətdə özünü göstərməkdədir. Gələcəkdə bu məsələ gündən-günə qüvvətlənəcəkdir. Mərkəzi dövlət və məhəlli məmurlar tərəfindən bu xüsusda heç bir iş görülməmişdir. Əgər iş bu münvalda belə davam edərsə, Azərbaycan əhalisinin əksəri fəna bir hala düşməyə məhkumdur.*

*Firqə çalışacaq bu xətərin qabağını almaq üçün ciddi tədbirlər görülsün. Hələlik fabriklər təsisi, ticarət genişlənməsi əkinçi təşkilatlarının təsis edilməsi, dəmir və şosse yolları çəkmək kimi tədbirlər mümkündür bir qədər faydalı olsun.*

*9. İntixabat qanunda Azərbaycan haqqında böyük zülm edilmişdir. Dəqiq ittilaata (məlumata) görə bu ölkədə dörd milyondan yuxarı azərbaycanlı yaşamaqdadır. Bu qeyri-adi-*

*lanə qanun movcibincə Azərbaycana Məclisi-Şürai-Millidə 20 vəkil yeri verilmişdir. Bu qətiyyən mütənasib bir bölgü deyildir. Azərbaycan Demokrat Firqəsi səy edəcək Azərbaycan nüfusuna nisbət vəkil intixab etməyə haqqı olsun. Bu təqribən məclis nümayəndələrindən üçdə birini təşkil edə bilər.*

*Azərbaycan Demokrat Firqəsi məclis intixabatının mütləq azad olaması tərəfdarıdır. O dövlət işçilərin daxili və xarici ünsürlərin və həmçinin pulluları qorxutmaq və aldatmaq yolu ilə intixabat işinə qarışmalarına ciddi müxalifət edəcəkdir.*

*Intixabat gərək tamam İranda bir ani-vahidə (bir vaxtda) başlanıb, çox səri bir surətdə qurtarsın.*

*10.Azərbaycan Demokrat Firqəsi fasid və rüşvət alan şəxslərlə ki, dövlət idarələrinə soxulmuşlar, ciddi mübarizə edəcəkdir. Dövlət məmurları arasında saleh (təmiz) və dürüstkar (düzgün) şəxslərdən qədrdanlıq (qiymətləndirmək) edəcəkdir.*

*Məxsusən firqə çalışacaq onların maaşlarını və zindəqanlıq (məişət) şərtləri elə islah olsun ki, onlar üçün oğurluq və xəyanət etməyə bəhanə qalmasın və onlar eləyə bilsinlər ki, ozləri üçün ağıllı bir həyat vücuda gətirsinlər.*

*11. Demokrat Firqəsi səy edəcək Azərbaycanda alınan vergilərin yarısından çox Azərbaycanın öz ehtiyaclarına sərf edilsin və müstəqim vergilər ciddi surətdə azalsın.*

*12. Azərbaycan Demokrat Firqəsi bütün demokrat dövlətlər, məxsusən müttəfiqlərlə dostluq etmək tərafdarıdır. Bu dostluğu pozmaq istəyən xain ünsürlərin əllərini ictimai və siyasi və dövləti işlərdən kənar etsin.*

*Budur, Demokrat Firqəsinin yaradanların əsl məqsədləri.*

*Biz ümüdvarlıq hər bir vətənpərəst azərbaycanlı istər Azərbaycanın daxilində və ya istərsə Azərbaycandan xaricdə bu müqəddəs məqsədə çatmaq üçün bizimlə həmsəda və əlbir olacaqlar. Təbiidir ki, insan əvvəl öz evindən başlayır. Biz də əvvəl öz evimiz olan Azərbaycandan başlayırıq və inanırıq ki, Azərbaycanın islah və tərəqqisi təbən (ümumiyyətlə) İranın*

*tərəqqisinə səbəb olacaqdır. Vətənimiz bu vasitə ilə quldurların və mürtəcelərin çəngindən nicat tapacaqdır.*

***Yaşasın demokrat Azərbaycan! Yaşasın müstəqil İran!***
***Yaşasın İran və Azərbaycan azadlığının həqiqi məşəldarı olan Azərbaycan Demokrat Firqəsi.***

Məlum olduğu üzrə müraciətnamənin müqəddəməsi iki mühüm hissəyə ayrılır. Birinci hissə federasiyon üsulunun quru mərkəziyyət üsulundan daha əlverişli, daha demokratik, daha milli olmasını isbat etmək məqsədilə yazılmış külliyatdan, digəri isə Azərbaycan xalqının xüsusiyyəti və onun Azərbaycana aid olan hissədən ibarətdir. Zənn edirik, ümum məsələ olduğundan o xüsusda bəhs və izah etməyə ehtiyac yoxdur. Azərbaycanın dilini, xüsusiyyəti və milliyyətini isbat edib, onun azadlıq mübarizəsində haqlı olduğunu isbat etmək üçün o xüsusudə bir qədər izahata keçmək olar. Hamı bilir ki, o gün Azərbaycan milli azadlıq şüarının rəsmi surətdə bir firqə namından irəli çəkilməsini görülməmiş bir iş olduğu kimi, xalqı bu şüar vasitəsilə toplayıb, böyük bir qədəm götürmək istəyən cəmiyyət üçün öz-özlüyündə böyük bir əməl idi. Xoşbəxtxanə iş olduğu kimi qüdrətinə dayanıb, meydana atılan milli azadlıq şüarları düzgün və xalqın arzularına müvafiq şüarlarımız. Təbiidir ki, müraciətnamənin qızıl xətt ilə yazılması lazım gələn aşağıdakı cümlələri oxuyan bir azərbaycanlı onun ətrafında düşünməyə bilməzdi. Haqq və haqqaniyyət (haqqlı) üzrə ürəkdən yazılan bu səmimi cümlələr düşünən bir adam isə bitərəf qalamaz.

Bəzi qısa fikirli adamlar xəyal edirdilər ki, zorla od açmaq və cəngəl gücü ilə bir xalqın dilini, xüsusiyyətini, adab və rüsumunu ortadan aparmaq mümkündür bu xam xəyallılar səy edirdilər ki, əşxası vadar və məcbur etsinlər ki, hətta Azərbaycanın uzaq kəndlərində belə az ana dilindən başqa bir dil bilməyən kəndçilər üçün fars dilində danışsınlar. Bunlar

təsəvvür edirlər ki, İran xalqını aldatmaq üçün yaratdıqları milli vəhdət sözü fəqət libasları və dilləri surətdə birləşdirmək vasitəsilə mümkün olacaqdır.

Bunlar bilmirlər ki, dilin rişəsi anaların sinəsindən və xalqın adab və rüsumu olan olacaqlar başından qalxır. Nə qədər analar dili və ocaqlar yanmaqdadır, bir xalqın dilini və adab-rüsumunu əvəz etmək mümkün olan iş deyildir. Milli birlik o vaxt müyəssər ola bilər ki, xalqın hamısı öz xüsusiyyətini və daxili azadlığını saxlamaqla tərəqqi edib, bir-birilə musavi ola bilsin. Azərbaycan xalqı mərkəzin çürümüş və kəsif ricalının siyasəti sayəsində özünün istedad və qabiliyyətnə {bacarığına} baxmayaraq, hər azadlıq və ixtiyardan məhrum edilmişdir. Onun oğullarının öz ana dilində təhsil etmək imkanları olmamışdır.

Həqiqətlə dolu olan yuxarıdakı cümlələr daha möhkəm bir surətdə xalqa mənimsətmək məqsədilə Azərbaycan tarixində müxtəsər surətdə dəlillər gətirib, bu millətin öz azadlığı uğrunda uzun müddətdən bəri mübarizə apardığına işarə edilməklə irticai fikirlərə və azərbaycanlı bir millət olaraq, hesaba almayanlar möhkəm şapalaq və yumruq endirilmişdir.

Müraciətnamə vasitəsilə firqə bütün Azərbaycan azadixahların və Azərbaycanda qalxan böyük adamların varisi olduğunu irəli sürmüş bütün  nehzət dövründə bu hədəfi fəramuş etmədiyini (unutmadığını) Səttar Xan, Bağırxan, Şeyx Məhəmməd Xiyabanı, hətta Azərbaycanın iftixarı olan səfəvi silsiləsinin ordusunun adını, (qızıl baş) diriltmək, əbədiləşdirməyi fəramuş etməmişdir. Həqiqətdə firqəmizin ən böyük müvəffəqiyyətləri və onun yadigar qoyduğu dərin xatirələrin mühüm bir səbəbi də bizim müraciətnaməmizdə meydana atdığımız şüarlara sadiq qaldığımızdır. Bu kimi istiqamətə deyilən sözlərin üzərində durub müəyyən bir yol ilə irəli getmək, əsla İranda sabiqəsi (ənənə) olmamışdır. Orada məramnamə ilə əməl heç bir vaxt bir-birilə cür (rast) gəlməmiş, məqsəd ilə iddia mütabiqət etməmişdir (üst-üstə düşməmiş).

Misal üçün Qəvaməs-Səltənənin ideyalarını göstərə bilərik. O böyük mülkadar, qəddar bir mürtəce olduğu halda, intişar verdiyi məramnamədə hətta ifratçi və inqilabcı bir təşkilat adlandırıb, əzdiyi Hizbi-Tudədən daha sol, daha demokratik ideyalar ortaya sürmüşdür.

Tək Qəvaməs-Səltənə deyil, Məşrutə inqilabından bugünədək İranda yüzdən ziyada hizb təşkil olunub bir o qədər də məramnamə yazılmışsa da, bu Hizblərin heç birinin öz məramnaməsi üzərində hərəkət etdiyini isbat edəcək dəlil yoxdur. Hətta bir zaman geniş şöhrət və nüfuzə malik olan köhnə Demokrat Firqəsi də öz məramnamə üzərində ciddi qədəmlər götürə bilməmişdir. Onun ətrafına toplananların əksəri isə demokrat fikirə və əqidəyə malik olan adamlar deyildirlər. Ona görə də İran xalqı üçün onun təşkil və {yaratdıqlarından} belə bir xatirə də baqi qalmamışdır. Bizim müraciətnaməmizdə ortaya atdığımız şüarlara sadiq qalmağımızın səbəblərindən biri o şüarların xalq ehtiyacından doğulduğudur. Biz o əməliyyatımızda xalqın mənafeini görüb, onun arzu və amalını həyata keçirmək yolu ilə getdiyimiz üçündür ki, səfərimiz əvvəldən axıra bir prinsip, bir hədəf üstündə irəli getmişdir.

Necə ki, yuxarıda dedik, müraciətnamənin dili çox sadıə, {roşən} və çox səmimanə idi. O xalqın istəklərini açıq və aydın bir şivə (metod) ilə möhkəm ibarətlərlə xülasə edib, meydana qoymuş, daha doğrusu fikirləri ittiham bulutlarının arasından çəkib, aydınlığa çıxarmış və hər bir {maddə ayrı-ayrı} olaraq çıl-çıplaq xalqın gözünün qabağında mücəssəm etmişdir (gətirmişdir).

Bütün fəaliyyətimizin əsası olan bu cümlələr qətiyyən o gün xalq arasında təsirsiz qalmazdı. Çünkü xalq onu illər boyu demək istəmiş, lakin vəsilə tapa bilməmişdi. Demək biz müraciətnaməmiz vasitəsilə xalqın tərcümən imkanları olmaq kimi böyük müvəffəqiyyət da əldə edə bilməzdik.

Bəhs etdiyimiz şayani-diqqət cümlə bunlardır.

Biz deyirik: Azərbaycan torpağında dörd milyonluq bir xalq yaşayır ki, onları özlərinin komitələrini təşkil vermişlər. Özlərinə məxsus dilləri, ayrı adab və rüsumları vardır. Bu xalq deyir ki, biz istəyirik ki, İranın istiqlalı və tamamiyyətini hifz etməklə bərabər, öz daxili işlərimizi idarə etməkdə muxtar və azad olaq, edə bilək ki, öz evimizi, öz milli iradəmizlə idarə edək və milli məhəlli ehtiyaclarımızı öz gücümüzlə rəf edək.

Azərbaycan deyir: Tehran bizim dərdimizə yetişmir və bizim ehtiyaclarımıza çarə etməkdən acizdir. Bizim fərhəngimizin tərəqqisindən cilovgirlik edir. Bizim ana dilimizi təhqir edib, başqa vətəndaşlarımız kimi sərbəst yaşamağa yol vermir. Bununla belə biz oradan rabitəmizi kəsmək iddiasında deyilik. Məmləkətimizin küllü və ümumi adilanə qanunlarına itaət edəcəyik. Məclisi-Şurayi-Milli də və mərkəzi hökumətdə dəxalət və şirkət etməliyik. Fars dilini dövlət dili olmaq şərtilə milli mədrəsələrimizdə öz dilimiz ilə bərabər, tədris etməyə imkan verəcəyik. Amma bunların hamısı ilə bərabər, özümüz üçün bu haqqı qailik ki, gərək öz evimizin sahibi və ixtiyardarı olub, onu öz səliqəmizlə idarə etmək imkanına malik olaq, necə ki, yuxarıda dedik. Biz təzə bir iş başlamamışıq. Illərdən bəridir ki, minlərcə Azərbaycan azadixah, (roşən fikir) və mütəfəkkirləri münfərid (fərdi) və dəstəcəmi bir surətdə bu müqəddəs fikir və ali məqsəd yolunda ki, Azərbaycanın və İranın həqiqi azadlıq və istiqlalının payəsi gərək onun üzərində qurulsun. Mübarizə etmiş gizli və açıq surətdə azərbaycanlılar fərhəng azadlığı və xudmuxtarlıq üçün mübarizəyə dəvət etmişlər. Burada ümumiyyətdə İrandan ayrılmayıb, mərkəzi hökumətdə və Məclisi-Şürayi Millidə şirkət məsələsi ortalığa atılmışdır. Çünkü azadlıq düşmənlərinin əleyhimizə apardıqları xainanə təbliğat fəqət təçrübəçilik töhmətinə əsaslana bilirdi. Bunu isə hadisələrin gedişi isbat etməkdədir.

Hələ indi də xalqımızın rəhbərlərini birəhmanə (rəhmsiz) bir surətdə (qətiam) edən cəlladların bundan başqa bəhanələri yoxdur. Biz o gün düşmənlərimizin {fitnələrini ifşa} etmək

üçün İranın istiqlal və tamamiyyətinə əlaqəmənd (bağlı) olduğumuzu məxsusən qeyd edirik və gələcəkdə onu təkrar etməkdən çəkinməzdik. Sonralar Tehran ilə aparılan danışıqlarda mükərrər ortaya çəkilən aşağıdakı cümlələri ilə müraciətnaməmizin intişarından bir həftə sonra Təbriz şəhərinin baş bilənlərindən təşkil tapmış, min nəfərlik konfransda İran xəritəsini havada rəsm etdikdən sonra deməyimlə düşmənlərimizin ehtimalı töhmətlərinin qabağını almağa iqdam etmişdim.

Iran istiqlalı hətmi (mütləq) və qeyri-qabili-bəhs (bəhs edilməyən) mövzulardandır. Mən bu məsələni məxsusən irəli çəkdim ki, firqəmizin aydın və aşkar olan şüarları moğrezlər tərəfindən sui-təəbir (sui-istifadə) olunmasını Mən açıq deyirəm bizim sözümüz (İran daxili) tələbatımız o nəqşədən xaricdə deyildir. Biz İran sərhəddi daxilində danışırıq. Bir dəfə bunu hamı nəzərdə tutarsa, danışıb, anlaşmaq asan olacaqdır.

“Azərbaycan” ruznaməsinin 4-cü şumarəsindən 10 sentiyabr 1945-cü il Şiri-Xurşid salonunda söylədiyim nitqdən). Mən bu cümləni müraciətnamənin qeyd etdiyimiz cümləsini təkid etmək üçün söyləmişdim. İranın istiqlal və tamamiyyətini pozmaq töhməti bizim meydana atdığımız muxtariyət şüarının əleyhinə çıxan bir şüar idi. Buna baxmayaraq müraciətnamə intişar tapan kimi Tehran mürtəceləri bizi bu ünvan ilə müttəhim etməyə başlamışdılar. Məxsusən Azərbaycan mürtəceləri və onların başçıları hesab olunan Azərbaycan nümayəndələri məsələn Sərtibzadə və qeyriləri bu nasazgar (kobud) nəğmə ilə bizi xalqın nəzərindən salmaq üçün yavaş-yavaş səsləri ucaldırdılar. Yadımızdan çıxmamaq üçün burada qeyd etməliyik ki, Azərbaycanda böyük hay-küy qoparan birinci dövrdə Tehran mətbuatı tərəfindən çox ciddi həmlə idi. Bu ona görə idi ki, Tehran siyasətmədarları hənuz bizim fikirlərimizin xalq içərisində olan rişəsini dərk edə bilməmişdir.

Fəqət rəhbər ruznaməsi müraciətnamədən bir qisminin təqribi tərcüməsin dərc etmiş, bir-iki müxalif ruznamə muxtariy-

yət və federasion ətrafında bəhs edən şüarlarımızı etiqad etməyə başlamışdır. Bu isə işin əvvəli idi. Biz həds vururduq ki, firqəmiz qüvvətlənib, əməliyyatımız genişləndikcə, müxaliflərimizin səs-sədası yüksələcəkdir. Onların töhmət və iftiralarının qabağını almağ üçün biz istər müraciətnaməmizdə, istər konrfanslarımızda, istərsə də ruznaməmizdə İran istiqlaliyyət və təmamiyyətini təmin etmək məsələsinin təkrarına imkan verməklə onu şədid surətdə izah edirdi. Ona görə də "12 Şəhrivər" Müraciətnaməsində Azərbaycanın muxtariyyət şüarını İran istiqlaliyyət və tamamiyyətilə müqqəyyəd etməyi lazım görmüşdük.

Şüarımızın birinci maddəsində nəzəri cəlb edən sözlərdən biri daxili azadlıq və mədəni muxtariyyətdən ibarət idi. O vaxt bəzi qorxudan və biittila (məlumatsız) yoldaşlarımız fəqət mədəni muxtariyyət şüarını irəli sürmüşlər. Bunun qeyri mümkün bir iş olduğu bizə məlum idi. Biz bilirdik əlimizdə dövlət təşkilatı, siyasi qüdrət və ixtiyar olmazsa, fars mütəəsibləri bizə mədəni muxtariyyət verməyəcəklər. Mütəəssifanə bizim yoldaşlarımızın içərisində mədəni muxtariyət mənasını bilənlər çox az idi. Hətta bu zaman firqəyə soxulmuş "Fəryad" ruznaməsinin müdiri Katibi və "Şahin" ruznaməsinin müdiri Ağazadə kimi yalançı azadixahlar muxtariyət kəlməsini istemalını belə caiz (lazım) görməyib, onun yerində ixtiyar kəlməsi işlətmək üstündə bizim ilə ciddi surətdə mübahisə edirdilər. Orada ixtilaf çıxmasına yol verməmək üçün biz ibarəti elə düzəltdik ki, vaxtilə istədiyimiz mənanı ondan çıxarmaq mümkün olsun.

Mədəni muxtariyət ibarəti məhdud olduğu və siyasi iqtisadi və mali muxtariyət uğrunda apardığımız mübarizənin (qeyd) etmədiyi üçün daxili azadlıq ümum məmləkətin adilanə qanunlarını gözləməklə bərabər, o sərneveştini özü təyin etsin kəlməsilə onu vüsətləndirməklə ondan və istədiyimiz nəticəyə müvəffəq olduq. Müraciətnamənin quru təbliğatdan ibarət olub qalmamasını təmin etmək üçün əməli və aydın vasitələr olmaq

üzrə əyalət və vilayət əncümənlərini irəli sürdük. Biz eləyə bilərdik həman əvvəl qədəmdə məclisi-milli və hökumət milli şüarını meydana ataq, bu isə əvvəl qədəmdə çox müşkül vəzifə idi. Irtica bizi haman günlərdə təcziyəçi deyib, boğa bilərdi. Bundan əlavə biz həqiqətdə muxtariyət və daxili azadlığın əyalət və əncümənləri vasitəsilə təmin olunmasına inanmırdıq. əncümənləri irəli çəkməklə bir iş qanuni yol ilə başlamaq fikrində idik. Iran qanuni-əsasının ən mühüm əsllərindən olan əncümən əyaləti xalqın təbii və qanuni haqqı idi. Bu şüar təkcə Azərbaycan deyil, bütün İran üçün də təzəliyi yox idi. Bir zaman Azərbaycan əyalət əncümənlərinin İran xalqının azadlıq mübarizəsində böyük rol oynadığı üçün o xalq arasında Məşrutə tarixində hörmətli xatirələr qoymuşdu.

Doğrudur əyalət əncümənləri quruluş cəhətdən demokratik əsaslar üzərində ola bilməz. Xalqımızın ehtiyaclarını tənin etməzdi. Vəli o xalqı ayağa qaldırmaq üçün böyük bir qədəm və hesab ola bilərdi. Hələ Məşrutə inqilabında Azərbaycan əyalət əncüməni Tehran irticasına böyük zərbələr endirmiş, məşrutəni hifz etmək yolunda uzun müddət mübarizə aparıb, Məhəmmədəli şahın taxtdan salması şüarını o meydana atmış, Azərbaycanda əmniyyət və azadlığı təmin etmək üçün müstəqimən işə başlayıb, Tehran məclisi-millisini ciddi surətdə (heyrətə) qoymuşdu. Ona görə də onu istəməklə Azərbaycanın tarixi qüdrəti də Ehya (bərpa) edib, meydana çıxarmış oluruq.

Dil məsələsi barəsində şüarımız olduqca əməli və sadə idi. Firqə bu vasitə ilə Azərbaycan dilinin rəsmi surətdə qəbul edilməsi tələbi isə iftixar kəsb edə bilmişdi. Dilimiz yeni bir dil deyildir. Onun {qədim} keçmişi olduğunu kimsə inkar edə bilməz. Bu dildən Dədə-Qorqud hekayələrindən başlayaraq, zəmanəmizədək yazılıb, intişar verilən qiymətli əsərlər o dilin geniş və mədəni bir dil olub, qərinələr boyu davam etməsini isbat etmişdir. Xalq isə neçə qərinə fars istilasına məruz olduğu halda, öz dilini hifz etdiyindən ona ürəkdən bağlı olduğunu göstərmişdilər.

Farslar Azərbaycan dilini inkar etməklə, bizim milliyətimizi da rəd edirdilər. Onların içərisində elə həyasız adamlar var idi ki, azərbaycanlıların danışdıqları dili fars dilinin bir şöbəsi olduğunu belə meydana atmağdan çəkinmirdilər. Əslan Azərbaycanda fars dili dövləti bir dil olduğundan fəqət sinfi surətdə məktəblərdə tədris edilir, zorla idarələrdə işlənirdi. Həqiqi azərbaycanlılar isə o dili təhsil etməkdən sonra belə dürüst tələffüz edə bilməzlər. Xalqın əksərini təşkil edən zəhmətkeş kütlə isə öz ana dilindən başqa bir dil, məsələn, fars dili ilə öz fikirlərini söyləməyə qadir deyildilər.

Əslan azərbaycanlılar həmişə öz ana dillərinə nisbət çox mütəəssib olub, o dili təhqir edənlərə qarşı bəslədikləri nifrəti gizlədə bilməz və gizlətmək də istəməzlər

Farslar azərbaycanlıları sadə (təmiz) düzgün və şüca tanıdıqlarına görə azadixahlıq meydanında onlara çata bilməyəcəklərini də heç vaxt unutmaz. Yeri gəldikdə onu söyləməkdən belə xuddarlıq etmirlər (çəkinmirlər). Azərbaycanlı özünü iranlı adlandırdığı halda hərgiz fars adlandırmazdır. Bu səbəblərə görə bizim dil azadlığı şüarmız xalq içərisində daha artıq təsir bağışladığı kimi düşmənlərimizin daha şədid etirazına səbəb oldu. Rza şahın Azərbaycanı qaranlıqda saxlamaq üçün onun apardığı xainanə siyasət nəticəsində vaxtilə İranın abadan, mütərəqqi şəhərləri hesab olunan Təbriz, Ərdəbil, Urmiyyə, Xoy sənae cəhətdən fövqəladə bir surətdə geri qalmış, nəticədə minlərcə azərbaycanlı öz ana yurdunu tərk edərək, Mazandaran, Xuzestan və sair məntəqələrdə iş aparmağa məcbur olmuşdu.

Bir tərəfdən orada nüfuzun ciddi surətdə azalmasına səbəb olduğu kimi, ictimai həyatın bütün sahələrində durğunluq vücudə gətirmişdi. Ona görə bizim şüarlarımızın dördüncü maddəsində sənayenin tərəqqisi və işsizliklə mübarizə məsələsi barəsində meydana sürdüyümüz tələbat xalqımızın ürəyinin ən dərin yerindən qopan bir arzunun təbliği və bəyanı hesab olunurdu.

Öz yerində bu şüarın daha dərin siyası mənası var idi. O vaxtadək Hizbi-Tudə və sair firqələrin mövqesiz olaraq, atdıqları (sinifi) şüar vasitəsilə tüccar və sənaye sahibləri azadlıq cərəyanından uzaqlaşıb, milli demokratik nehzətə yabancılıq, bəlkə müxalif gözü ilə baxırdılar. Biz 4-cü və 5-ci şüar vasitəsilə onların (mənfi fikirlərini) ortadan aparmaqla müxaliflər cəbhəsini zəif salmağa müvəffəq olduq. Şəhərlərin abadlanması, maarif və mədəniyyət və səhiyyə işlərinin yoluna qoyulması üçün müraciətnamədə göstərdiyimiz sadə əməli və ciddi yollar xalqın müayyən təbəqəsinin istəkləri üzərində yazıldığı üçün çox müfid (fayda) vaqe oldu. Xüsusən ərbab ilə kəndli arasında şiddətlənməkdə olan ixtilafın sülh və saziş yolu ilə həll edilməsi şüarının isə Azərbaycanda yeniliyi var idi. O vaxta dək siyasi mübarizənin oyun-oyuncaq hesab edən macəraculların bəzisi bu xüsusda heç bir iş görməyib, heç bir əməli qədəm götürmədikləri halda, xalqı boş ad və gurultulu sözlərlə qorxudub, azadlıq cəbhəsinin ziddinə çalışmağa vadar etmişlər. Bizim şüarımızın 7-ci maddəsində bu xüsusda geniş məlumat vermək, kəndli ilə ərbab arasında adilanə bir qərarın mümkün ola bilməsini ortalığa atdıq. Beləliklə əhalinin mühüm bir qisminin naümüd edən şaiyənin qabağını almaqla müxaliflərimizi xırdamalik və orta ərbablar hesabına əskiltmiş olduq. Bizim cəlbedici və düzgün şüarlarımızdan birisi də Azərbaycan nümayəndələrinin iddəsini artırmaq lüzumunu irəli çəkməyimiz idi. Biz bu vasitə ilə xalqımızın təbii haqqını vermək yolunda mübarizə etdiyimizi bilirdik. O vaxtadək Azərbaycan Məclisi-Şürayi-Milliyə fəqət 21 nəfər vəkil göndərirdi. Bizim isbat etdiyimiz hesab üzrə Azərbaycan 45 vəkil göndərilməli idi. Xalqımızın bu şüarı azərbaycanlının milli qururunu yüksəldən, milli ehsasatını təqviyət edən bir şüar idi. Onu nə tək aşağı təbəqə belə kamali-məmnuniyyət (məmnunluq hissilə) ilə qəbul edərək, həyata keçirməyə hazır olduqlarını bildirdilər.

Doğrudur biz firqəmizin nüfuz və şöhrət qazanmasının yolunda heyrətavər bir surətdə fəaliyyət göstərib, möhkəm nəqşə və səhih təşkilat üzrə rəftar etmişdik. Vəli işimizin bərqəsa bir şəkildə irəli getməsində müraciətnamə və şüarlarımızın doğruluğu və xalq ruhuna müvafiq gəlməsinin təsiri daha artıq olmuşdu.

12 maddədən artıq olmayan şüarlarımızda biz ictimai həyatımızın və siyasi vəziyyətimizin təqribən bütün sahələrinə aid öz nəzərimizi söyləməyə müvəffəq olmuşduq. Maliyə mövzudakı şüarımız olduqca təbii və adilanə idi. Tehran hökumətinin Azərbaycanı soyub Tehrana çəkdiyini görüb və Tehran məmurlarının oğurluq, xəyanət və sui-istifadələrindən yorulan xalq bizim bu şüarımız nə üçün gərək ayei-asimani (quran ayəsi) kimi qəbul etməyəyidi.

Demokrat Firqəsi səy edəcək Azərbaycandan alınan vergilərin yarısından yuxarısı Azərbaycanın öz ehtiyaclarına sərf edilsin, qeyri müstəqim (gəlir) isə ciddi azalsın.

Bu şüar ilə necə ki, dedik çox mühüm bir məsələ meydana sürmüşdük. Bəziləri Azərbaycanın dövlət aidatını fəqət müstəqim vergilərdən hesab etdiklərinə görə bizə irad edərək, deyirdilər: "Azərbaycanın gəliri o qədər azdır ki, bizə onun hamısını versələr belə bizim məxaricimizə (xərclərimizə) kifayət etməz". Bunlar isə mali məsələlərdə ümumiyyətlə dövlət gəliri və məxarici işlərinə aşna olmayan adamlar idi.

Azərbaycanın müstəqim və qeyri-müstəqim gəlirinin 50 % tamamilə bizə versəydilər, biz Azərbaycanı bir neçə ilin ərzində gözəl və mütərəqqi bir ölkə halına sala bilərdik.

Bu xüsusda mən şəhrivər ayının 9-da Şiri-Xurşud salonunda həmin müraciətnaməmizi islah edərkən aşağıdakı məlumatı verdikdən sonra müxaliflərimiz susmağa məcbur oldular. Dediyim kimi içərimizdə farsların məsəli mocebincə (aşdan daha isti kasa) (kaseyi-daqtər əz aş) adamlar az deyildirlər.

Dünən onlardan biri mənə irad edib deyirdi ki, yenə yazırsınız Azərbaycana dövlət tərəfindən əhəmiyyət verilmir. Yenə deyirsiniz ki, Azərbaycandan alınan vergilər oraya sərəf olunan budcədən azdır. Azərbaycan Tehrana elə böyük vergi vermir, biz gərək Tehrandan təşəkkür edək ki, bizə çox yaxşı baxır. Əgər Tehran olmazsa, biz acımızdan ölərik. Bu sözləri deyən adamın ağıl və şüuruna mənim şübhəm yoxdur. Lakin hoqqabazlıq və yalan söhbət ilə özünün moğrezanə qərəzli sözlərini xalq təhlil etmək fikrində olduğundan bu iddia ilə özünə xalqı güldürdüyün bilmir. Mən buna dedim, aya sən bilirmisən ki, iyirmi il tamam Rza xan azərbaycanlıya batmanı (çək vahidi) 4 qrana (pul vahidi – riyal) aldığı qəndi 8 qrana yedirtmişdir. Aya anlamaq istəyirsən ki, Azərbaycanın zəhmətkeş və dul arvadları bir qutu kibrit aldıqda bir riyalın üçdə iki hissəsini dövlətə maliyyat verirdilər.

Həqiqət acıdır, lakin onu söyləməliyik. Mən məclisdə açıq surətdə dedim ki, (bunu mən dəqiq hesab ilə isbat edə bilərəm) Azərbaycan xalqına maarif büdcəsindən verilən pul adam başına təqsim edilərsə bölünərsə, onu göstərən bir vahid tapılmaz. Mən onu kibritə təbdil etdim. Nəticədə bu çıxdı ki, hər bir nəfərə bu kibrit çöpündən az pay düşür.

O gün Təbriz camaatı qarşısında söylədiyim bu sözləri mən və mənim yoldaşlarım heç vaxt unutmamışdır. Biz bir il hökumət əlimizdə olduğu müddətdə gördüyümüz böyük işlər, məsələn şəhərlərimizin abadlanması, iqtisadiyyaıtımızın yüksəlməsi, maarif və mədəniyyətimizin heyrətavər bir tərzdə irəli getməsi ilə isbat etdik. Şüarlarımız əfsanə və müvhum iddialardan ibarət deyildir.

Müraciətnamədə vəd etdiyimiz islahat da xalqı iğfal etmək nəzərilə yazılmamışdır. Iftixarla deyə bilərəm firqəmizin təşkilinin başlanğıcı olan 12 Şəhrivər Müraciətnaməsi nehzətimizin əvvəlindən axırına qədər icra etməkdə olduğumuz, gördüyümüz işlərin ciddi payəsini təşkil edib, qalmışdır. Işin

cərəyanında onun bəzi maddələrini zərurət qarşısında atlayıb, getmiş olsaq da onu pozub ortadan çıxartmağa çalışmamışıq.

Müraciətnamə firqəmizin məramnaməsinin əsasını təşkil etdiyi kimi mübarizə nəticəsində meydana çıxan milli hökumətimizin məramnaməsi və iş planı da onun üzərində qurulmuşdur. Doğrudur, müraciətnamədə bir milli muxtariyyət hüdudundan təcavüz etməyib, onun əyalət və vilayət əncümənləri vasitəsilə əməli olmasını irəli sürdüyümüz halda, iki aydan sonra ad çəkilməyib, işarə belə olmayan Milli Məclis və Milli Hökumət kimi dövlət təşkilatı vücudə gətirmişdik. Bununla belə onun milli mübarizə də və milli azadlıq yolunda düşündüyümüz tədbirlərində böyük təsiri olmuşdur. Biz firqəmizin qəti hədəfini müstəqil bir milli hökumət yaratmaq olduğun heç də inkar etmək istəmirik. Bu hədəfə getmək üçün İranın hazırki vəziyyəti və beynəlxalq siyasətinin icabının (dikdə etdiyin) da hərgiz unutmaq olmazdı. Bu nöqteyinəzərdən 12 Şəhrivər Müraciətnaməsi çox tərəqqi və cəsuranə bir iş idi ki, mənim zənnimcə biz onu şərəflə əncam verib, ondan intizar edildikdən daha artıq böyük nəticələr əldə etməyə müvəffəq olduq.

**Firqə quruluşu yolunda şüarlar və fəaliyyətimizin təsiri**

1324-cü il 12 Şəhrivər (1945-ci il 3 sentyabr) müraciətnaməsinin xalq arasında icad (yaratdığı) etdiyi dərin təsir və konfranslarımızdan aldığımız gözəl nəticələr təbliğat sahəsində böyük müvəffəqqiyyət hesab olunursa da, bunlar hələ sözdən ibarət idi. Halbuki, xalq bizdən əməl gözləyib, meydana atdığımız 12 şüarın həyata keçirilməsini arzu edirdi. Müvəffəqiyyətlə götürdüyümüz birinci qədəm ancaq əməli qədəm götürmüş üçün zəminə hazırlamaq dairəsində məhdud olub qala bilmirdi. O zaman qarşımızda duran ən mühüm vəzifə firqəmizin rəhbərliyi altında milli azadlıq mübarizəsinə hazır olduğunu isbat edən xalq kütlələrini təşkil etməkdən ibarət idi.

Bu da ancaq möhkəm intizam və ciddi təşkilata malik ola bilən bir firqənin rəhbərliyi sayəsində mümkün ola bilərdi, firqə isə hənuz meydanda yox idi. 12 Şəhrivər müraciətnaməsini imza edən müəssislər isə hələ ciddi bir iş görməmişlər. Çünkü onların vücudundan istifadə etmək üçün təşkilatı imkanlar yaradılmamışdır. Doğrudur, biz təbliğat işinə başladıqda təşkilatı da nəzərdə tutmuşduq. Ciddi qədəmlər götürmək lazım gəldiyi təcrübədə daha tez meydana çıxmışdı.

Baxmayaraq ki, haman 12 şəhrivər günlərində biz təşkilatımıza üzv qəbul etməyə başlamışdıq. Xalqın firqəyə nisbət rəğbəti o qədər çox idi ki, üzvlük üçün müraciət edənləri dəftərə qeyd edib, qurtara bilmirdik. Şəhərvərin 13-14-15-ci günlərində fəqəd mərkəzi şöbədə gündə mindən ziyada üzv qəbul etməyə məcbur olurduq. Bu cərəyandan tamamilə istifadə etmək üçün güclü bir firqə aparatına ehtiyac hiss olunurdu. Işimiz olduqca ağır idi, lazımi qədər rəhbərlik edici kadr və təcrübəli idarə işçimiz yox idi. Hətta çox vaxt hər işi özümüz görməyə məcbur olurduq. Bir tərəfdən yüzlərcə yeni üzvlər qəbul etdiyimiz halda, komitə və homə (məntəqə) təşkilatları yaratmağa çalışırdıq. Eyni zamanda firqənin rəsmi naşiri-əfkarı (fikrini yayan) olan rüznaməni yazıb, çap edərək, intişar verirdik. Digər tərəfdən əleyhimizə şiddətli surətdə mübarizəyə başlayan mürtəce qüvvələri ilə mübarizə aparırdıq. Bununla belə iş fövqəlada maraqlı olduğundan yorulmaq bilmirdik. Çalışıb fəaliyyətdə olmaq özü həvəs və zövq tolid edirdi.

Mən özüm şəxsən neçə metrdan artıq olmayan kiçik bir otaqda müəyyən bir vaxtda neçə iş əncam verməyə məcbur olurdum. Bir tərəfdən məqalə yazır, digər tərəfdən konfranslar üçün qərarlar hazırlayır, başqa tərəfdən şəhərlərə təbliqat və təşkilatçılar göndərir, eyni zamanda təbrik üçün gələn şəhərin baş bilən adamlarını təşkilatların nümayəndələrini qəbul edərək, firqənin məram və şüarları haqqında onlara izahat verir, bəzən ittifaq düşürdü ki, həmin işləri görərkən ruznamənin mətbəədə hazırlanmış məqalələrinidə təshih edirdim. (Müra-

ciətnamə intişar tapan) kimi hər an şiddətlənməkdə olan təbliğat əsərində sel kimi axıb, gələn camaatı bu cəhətdən təşkilat altına almaq öz-özlüyündə asan bir iş deyildi. Hüviyyət vərəqəsi üzvlük kartı və lazımı dəftər və mətbuatı bir neçə saatda təhiyyə etmək Təbrizin o günkü şəraitində xariqüladə (ağlasığmaz) fəaliyyət tələb edirdi. Lakin biz xalq gücünə camaatın rəğbət və təmayülünə dayandığımız üçün bu kimi müşkül işləri əncam verməkdə bir növ ləzzət duyub, ondan zövq alırdıq. Üç-beş nəfərdən ziyada olmayan idarə işçilərimizin hər biri qəhrəmana dönmüşdü. Bu fəaliyyət nəticəsində idi ki, iki kiçik daxmadan artıq olmayan "Xəbər" ruznaməsinin sabiq (keçmiş) idarəsi beş milyonluq bir xalqa rəhbərlik edən böyük bir firqənin təsisinə kifayət etmirdi. Bu inanılmaz bir iş olsa da, həqiqətdir. Bu heyrətavər bir fəaliyyət bizə az bir zamanda Azərbaycanın bütün kənd və şəhərlərində firqənin komitə şöbələrini yaratmağa imkan verdi. Onu da qeyd etmək lazımdır ki, çox yerdə bizim nümayəndələrimiz ayaq basmadan daha əvvəl xalqın öz təşəbbüsü ilə firqə təşkilatları meydana çıxıb, həman 12 Şəhrivər şüarı üzərində fəaliyyətə başlamışdı. Hətta bəzi kəndlrdə kəndlilərin hamısı istisnasız olaraq, firqə sıralarına keçmək üçün nümayəndələr seçib Təbirzə göndərməyə başlamışdılar.

Iran və Azərbaycan tarixində belə bir hadisəni soraq verən yoxdur. O günlərdə iş doğrudan-doğruya firqə çərçivəsindən kənara çıxıb, ellik cənbəsi (xalq səviyyə) tapmışdı. Elə bil azərbaycanlı olmağın şərti demokrat olmaq imiş?

Xalqın o günkü ruhiyyəsini göstərmək üçün "Azərbaycan" ruznaməsinin ikinci nömrəsində yazdığımız "Firqəmiz irəli gedir" sərhövləli məqaləni eynən burada nəql edirik.

### Firqəmiz irəli gedir

*"Müraciətnaməmiz intişar tapdıqdan sonra, xalqda firqəmizə qarşı nisbət böyük rəğbət irəli çıxmışdı. Hər gün şəhərin*

*müxətlif təbəqələrindən dəstə-dəstə axıb, təşkilatlarımızın müvəqqəti mərkəzinə gəlib üzv yazılmağa çalışırdılar. Qədim azadixahlar və imtahan vermiş demokratlar istər yazı vasitəsilə, istər şəxsən bizim başladığımız böyük işi təbrik etməyə çalışırdılar.*

*Eşitdiyimizə görə bəzi gözü açıq və düşüncəli ruhanilər minbərlərdə xalqı bu müqəddəs təşkilata yazılmağa təşviq edirlər. Get-gedə bədbinlik, sui-zənn tərdid (şübhə) və iki üzlülük azalmağda, xoşbinlik və inam artmaqdadır.*

*Roşənfikir və cavan nəsl təşkilatımıza artıq əlaqə və məhəbbətlə yanaşmaqdadır. Şüarlarımız əməli və doğru olduğu üçün xalqın ruhunda böyük iman və etimad vücudə (gətirmiş) sakitlik və əmniyyət tərəfdarı olduğumuz və bunu əmələn isbat etməyə çalışdığımız üçündür ki, istər kənd də, istər şəhərlərdə firqəmiz çox səri qədəmlərlə irəli getməyə başlamışdı. Firqəmizə yazılmaq istəyən şəhər və kəndlərin görkəmli və sağlam adamlarından olduğunu göstərməkdədir.*

*Çox yerdə təbii birhttpI..üüüşever-clearşcom.MSN-9ş0plusşexe check out MSN 9ş0 Plus I*

*surətdə konfranslar və mitinqlər və yığıncaqlar təşkil edilib, müraciətnaməmizin ətrafında xalqa izahat verilmişdir.*

*Azərbaycan xalqı bu təşkilata çox uzun müddətdir ki, ehtiyac hiss edirdi. Ona görə müraciətnaməmiz çox tez anlaşılıb, qəbul edilməkdədir. Dilimiz sadə, yolumuz düz və məqsədimiz aydın olduğu üçün bizi tanıyıb, anlamaqda çətinlik çəkmir.*

*Dil məsələsi, ixtiyar məsələsi, kəndlilərlə ərbablar arasında ixtilafların sülh və saziş yolu ilə həll edilməsi sənaye və ticarətin tərəqqi və (inkişafı) Azərbaycan xalqının fikrini işğal edib, onu daima düşünməyə vadar edən məsələdir. Firqəmiz bu məsələri çox sadə bir yol ilə həll etməyi meydana sürdüyü üçündür ki, xalq ona yaxınlaşmaq, onun müəssisələrini tanıyıb, öyrənməklə bərabər, göstərdiyi yolu təqib etməyə başlamışıq"*

Bu məqalə şəhrivərin 16-da sentyabrın 7-də yazılıb, 17-də müraciətnaməmizin intişarından 5 gün sonra müntəşir olmuşdur. Təbiidir şiddətli hərəkətin intizama düşməsini taxirə salmaq olmazdı. Xariqüladə sürətlə qabağa çıxan ciddi və böyük işlərə rəhbərlik etmək üçün səlahiyyətli bir komitə təşkil etmək lazım idi. Həm də bu iş çox səri surətdə əncam tapmalı idi. Müraciətnamədən sonra minlərcə yeni üzvlərin sıralarımıza gəldiyini yuxarıda göstərmişik. Vəli bu yeni həvəskarlardan rəsmi üzv kimi istifadə edib, onların iştiraki ilə bir komitə təşkil etmək, əsas etibarilə doğru ola bilməzdi. Ona görə ancaq müraciətnaməmizi imza edənlərin vasitəsilə bu işi görməyə məcbur idik. Bu onların qanuni haqları idi. Çünkü firqə onların təşəbbüsü ilə qurulmağa başlamışdı.

Doğrusu, müəssislər arasında Ağazadə Şahin, Hüseynqulu Katibi, Tağı Beytulla kimi yaramaz adamlar da var idi. Vəli biz özümüz çox gözəl bilirdik ki, onların vücudu işin gedişinə təsir edə bilməzdi. Firqə içərisində onlar əksəriyyət qazana bilməyəcəklər. Ona görə işin xatiri üçün müvəqqəti olmuş olsa da, müəssislər tərəfindən bir komitə yaratmaq məqsədilə şəhrivər ayının 22-də (sentiyabr 13-də) axşam saat 6-da pəncşənbə (cümə axşamı) günü 1324-cü şəmsi 1945-ci ilin də Təbrizin Şişgilan məhəlləsində Nizamül-dövlə Rəfinin ev müəssislərinin birinci konfransın dəvət etdik. Iclas çox səmimiyyətlə təşkil olunub, müvəffəqiyyətlə xatəmə tapdı. Konfransda müraciətnaməni imza edən 46 nəfərdən 41 nəfər iştirak edirdi. Bu yığınacaq müvəqqəti heyəti rəisənin fəaliyyətini təqdir etdikdən sonra 9 nəfərlik müvəqqəti bir komitə intixab etdi. Bu komitəyə firqənin birinci konqresini dəvət etmək üçün 20 gün vaxt verildi. Beləliklə firqənin təşkilat işi yoluna qoyulub, komitə işə başladı. Birinci işimiz konqresi istənilən vaxtda dəvət edib, firqənin məram və nizamnaməsini təhiyyə edərək, firqə təşkilatını üsul üzrə qurub mübarizəsini təşkilatlı surətdə aparmaq üçün imkan yaratmaqdan ibarət idi.

Müəssislər yığıncağının qərarı üzrə birinci konqresin mehr ayının 10-da (oktyabrın1-də) toplamalı olduğunu yuxarıda qeyd etmişdik. O günkü şəraitdə bu olduqca ağır bir vəzifə idi. Biz gərək 20 gündən artıq olmayan bir müddətdə Azərbaycanın bütün şəhər və böyük kəndlərində firqə konfransları təşkil edib, yerli komitələri seçdikdən sonra konqrə üçün nümayəndə intixab etdik. Eyni zamanda hozələrdən başlayıb, nahiyə və vilayət komitələrinədək Hizbi-Tudə təşkilatı ilə yeni firqə təşkilatlarının birləşməsini də yığıncaqlar vasitəsilə icra edəcəyik. Nəqliyyə vəsailinin olmaması lazımı kadr (olmaması) eyni zamanda hökümət məmurlarının cürbəcür əngəllər qabağa çıxartmaları işimizi daha da çətinləşdirməkdə idi. Yalnız firqə quruluşu və daxili işlərlə məşğul olsaydıq, iş elə də müşkül nəzərə gəlməzdi. Bu işlərin hamısı ilə bərabər, şüarlarımızı xalqa yetirmək məqsəd və məramimizi camaata anlatmaq kimi ağır və çətin vəzifəni də unuda bilməzdik. Hizbi-Tudə kadrları içərisində bizim şüarlarımızı anlamaq istəməyənlər də az deyildi. Onlardan bir parası dörd il tamam çalışıb qurduqları təşkilatı qeyd-şərtsiz olaraq bizə təslim etməyə razı ola bilmirdilər. Dörd il Hizbi-Tudənin sol sözləri ilə özlərini məşğul edib, qeyri əməli xəyallar qazanında qaynayıb, bişmiş adamları bir gündə demokrat halına salqmaq mümkün olmurdu. Bir sözlə demək olar ki, müəssislər konfransından sonra qabağımızda duran vəzifələr ağıla sığmayan dərəcədə ağır və cətin idi. Buna baxmayaraq qabaqdan düşünüb, danışıb, təyin etdiyimiz nəqşəni icra etməyə başlayıb, nizam və intizam üzrə irəli gedirdik.

Təbiidir ki, müvəqqəti komitə düzəldikdən sonra götürüləsi lazımı qədəm, birinci tudə təşkilatının təklifini müəyyən etməkdən ibarət idi. Bu xüsusda biz irəlidən o təşkilatın baş bilən üzvlərini hazırlamışdıq. Onlar bizim pişnəhadımızı qəbul edib, tudə təşkilatının firqəmizə ilhaq (birləşmək) ediləcəyini təmin etmək üçün çalışmağa söz vermişlər. Bu məqsədlə irəlidə hazırladığımız plan üzrə onlar şəhrivərin 15-16-da çağır-

dıqları geniş ümumi iclasda aşağıdaki qərarı qəbul edib, aşağıdaki məktubla bərabər, bizim müvəqqəti Mərkəzi Komitəmizə göndərməklə işin formal tərəfini əncam verməyə müvəffəq oldular. Xatırladan (mövzu) məhv olub, getməmək üçün bu tarixi vəsiqəni burada nəql edirik.

Hizbi-Tudeyi-İran Azərbaycan Əyalət Komitəsi Məktubunun eyni.

***Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsinə***

*Göndərilir Hizbi-Tudeyi-İranın Azərbaycan əyaləti təşkilatının şəhrivər ayının 15-də və 16-da (sentiyabrın 6 və 7-də) olan konfransin qətnaməsi barəsində olan nəzəriyyəsini tezliklə bu komitəyə məlum edəsiniz. Ehtiramati-Faiqə ilə. (dərin hörmətlə)*

***Hizbi-Tudeyi-İranın Azərbaycan əyalət Komitəs***

***Qətnamə***

*Cümə 16 şəhrivər 1324-cü il (7 sentuyabr 1945-ci) Hizbi-Tudeyi-İranın Azərbaycan təşkilatının geniş əyaləti konfransında Azərbaycan Demokrat Firqəsinin 12 şəhrivər haman il tarixli müraciətnaməsini oxuyub və onun ətrafında bəhs və mütaliə etdikdən sonra konfrans bu qərara gəldi, Azərbaycan Demokrat Firqəsi Azərbaycan xalqının ehtiyaclarını doğru və düzgün düşünüb, ona yaxınlaşmışdır. Azərbaycan xalqı qırx il əvvəldən məşrutiyyət və azadlıq, qanuni-əsası və milli hökumət quruluşu üçün İran daxilində yaşayan millətlərin hamısından artıq fədakarlıqlar edib, qurbanlar verib və xəsarətə mütəhəmil (təhəmmül) olmuşdur. Buna qırx il tarix boyu yazılan bütün ruznamələr hətta mürtəce ruznamələrin səhifələri də belə şahiddir. Bununla belə istər Rza xan diktaturasından qabaq, istər Rza xan dövrü istər isə şəhrivər 1941-dən bu tərəfə Azərbaycan xalqı hər gün, hər saat və hər dəqiqə iqtisad-*

*maarif, səhiyyə və zindəganlıqda olan bütün sahələrdə geri gedib və öz fəqr və fəlakətini artırmışdır. Azərbaycan kəndləri və şəhərləri gördüyümüz ikmi xarabazarlığa dönmüşdür. Azərbaycan xalqı ona baxmayaraq ki, İranın Mərkəzi Hökuməti üçün bütün əyalət xalqlarından artıq ərzaq və maliyyat verir, bütün əyalət xalqlarından dalıda qalmışdır. Mərkəzi Hökumət nəzərində təhqir və tohinə məruzdur: Azərbaycan xalqının üçdə bir hissəsini isteshal nəticəsində Tehran və digər əyalət şəhərlərində səfil və sərgərdən (avara) bir halda yaşayırlar. Azərbaycan və onun xalqı Mərkəzi Hokumət nəzərində imperialist məmləkətlərin müstəmləkələrindən heç də fərqli deyildir. Təbiidir ki, hər hizb millətin səadəti, azadlığı, öz məmləkətinin ümran (abadlıq) və abadlığı onun əsas məqsədini təşkil edir. Azərbaycan xalqının digər əyalətlərdə yaşayan xalqlar kimi olan ümum ehtiyaclarından savay bir sıra xüsusi ehtiyacları da vardır ki, onu Hizbi-Tudeyi-İran və onun mərkəzi komitəsi və götürdyü siyasi xətdi təmin edə bilmir. Bu xüsusi ehtiyacları Tehranda yaşayan Azərbaycan mühitindən uzaq olan bu mərkəz təmin etməkdən acizdir. Bu ehtiyacları birinci növbədə Azərbaycanın daxilində olub və onun mənafeini yaxından düşünüb və hifz etməyi öhdəsinə alan bir mərkəz təmin edə bilər. Azərbaycan xalqı söz, yox iş və əməl adamıdır. Azərbaycan xalqı heç bir vaxt illər boyu məclis nümayəndələrinə intixab olacaq şəxslərə alət olub, öz qiymətli vaxtını tələf edə bilməz. Bu xalqı bu yola sövq etmək xəyanətdir. Azərbaycan xalqı nə qədər tez öz sərneveştini müəyyən edib və öz müqəddəratını əlinə alarsa, daha doğrusu, Azərbaycanın daxili xudmuxtarlığını təsbit və təhkim edərsə, milləti bir o qədər xoşbəxt və məmləkəti bir o qədər abad olacaqdır.*

*Çağırılmış olan Hizbi-Tudeyi-İranın Azərbaycan təşkilatının əyaləti plenum Təbriz şəhər komitəsi. Əyalət və şəhrstan təftiş komisiyonu və bütün Azərbaycan vilayət və məhəlli komitələrindən intixab olunmuş nümayəndələrinin geniş kon-*

*fransı qəti etdi. Azərbaycan xalqının tərəqqi, təali (inkişafı) və səadəti və Azərbaycanın ümran və abadlığının təmini yolunda Hizbi-Tudəyi-İranın Azərbaycan təşkilatı istər rəhbərlik nöqteyi-nəzərincə hizbin mərkəzi komitəsindən qət rabitə edərək, (əlaqə kəsmək) bütün təşkilat ilə birlikdə Azərbaycan Demokrat Firqəsinə ilhaq olmağı qərara alır və birləşmənin vəsailini fərahəm (hazır) etmək üçün Ağayi Sadıq Badigan – 84, Zeynalabidin Qiyami – 80, Məmməd Hüseyn Burhani – 61, Yədulla Kəlantəri – 59, Əbülhəsən Vaqif – 56 ray ilə (5) nəfərdən ibarət olan komisiyon intixab olundu. Əyaləti komitəyə qəti ixtiyarət verilir ki, intixab olunmuş komisiyonun nəzətiyyatını həyata tətbiq edib və lazım elamiyə versin.*

***Yaşasın Azərbaycan xalqının gələcək hoşbəxt həyatı!***
***Yaşasın onu təmin edəcək Azərbaycan Demokrat Firqəsi!***

Hizbi-Tudənin firqəmizə mülhəq olması öz-özlüyündə çox böyük bir məsələ idi. Onun içərisində bizim şüarımıza tərəfdar olmayan adamlar az olmadığından, ilhaq tərəfdarı olanlar çox ağır müşkülat ilə ruberu (üz-üzə) olmuşdular. Bunlardan bəzisi bizim milli şüarlarımızın mənasını düşünə bilmirdilər. Məsələn, Mir Qasım Çeşmazər bu iş də şəxsi bir qərəzi ola bilməzdi. O fəqət Hizbi-Tudədən əl çəkib, müxtəlif təbəqələrdən təşkil tapmış demokrat firqəsinə mülhəq olub milli azadlıq şüarı altında mübarizə aparmağa razı ola bilmirdi. Çünki təbəqati mübarizəni yaxşı başa düşə bilmədiyi kimi, milli məsələnin əhəmiyyətini anlaya bilməmişdi. Kazım Haşimiyə və Əli Qəhrəmaninin müxalifəti isə adət üzərində idi. Şayət Kazım Hakimiyə dayısı Əli Əmir Xeyzini müdafiə etmək üçün Azərbaycanda Hizbi-Tudənin ortadan getməsinə rizayət verə bilməzdi. Əhməd İsfahani ilə Səlim Əmir Xizinin müxalifəti isə quru təəssüb, bir az da iş qorxusundan irəli gəlmişdi. Bunlar Hizbi-Tudənin ilhaqı nəticəsində işdən düşəcəklərindən qorxurdular. Bu üç-beş nəfər cavan və təçrübəsiz firqə işçilərindən

başqa ümum tudə əfradi çox meyl və rəğbət ilə firqəmizə yapışmaq istəyirdilər.

Əgər Tudə təşkilatı yuxarıdaki qərarı çıxarmasaydı, əməldə bizim üçün o qədər də təfavüt etməzdi, çünki Hizbi-Tudədən dörd tamam mitinq, nümayiş və hərarətli sözdən başqa nəticə görməyən üzvlər tez və ya gec əvvəllinci gündən ciddi iş göstərməkdə olan təşkilatımıza mülhəq olub, o təşkilatın pozulmasına səbəb olacaq idi.

O günlərdə Hizbi-Tudə üzvləri dəstə-dəstə bizə müraciət edib, firqəmizə üzv yazılmaq istədikləri halda biz başçılarla apardığımız danışıqlara görə onların xahişlərin rədd edib öz təşkilatlarında çalışmağa məsləhət görürdük. Hətta bu səbəbə görə onlar bizdən artıq dərəcədə narazı qalıb cürbəcür bəhanələrlə nahiyələrdə üzv yazılmağa başlamışdılar.

Mən Hizbi-Tudənin bizə mülhəq olmasın mənasını azaltmaq fikrində deyiləm, bu tək Azərbaycanda yox, bəlkə bütün İranda siyasi bir hadisə idi.

Hizbi-Tudənin mərkəzi komitəsi Azərbaycan təşkilatına arxalandığına görə o təşkilatın tamamilə mülhəq olması münasibətilə bizdən fövqəladə bir surətdə rəncidə olmuşdu (incimişdi). Mürtəcelər isə bizi Həzb-Tudəyə rəqib hesab etdiklərinə görə təşkilatımıza böyük ümid bağladıqları halda tudə təşkilatının bizim ixtiyarımıza keçməsindən xoşları gəlmirdi. Onlar qorxurdu ki, bu vasitə ilə biz dəxi Hizbi-Tudənin sol və təbəqatı şüarları üzrə hərəkət etməyə başlayaq.

Hizbi-Tudə təşkilatının ilhaqı firqəmiz üçün böyük müvəffəqiyyət idi. Biz bu vasitə təşkilatın yaratdığı kadr və təşkil etdiyi məhəlli komitələr və onların iş vəsilələrindən, həmçinin kəndlərdə hazırladığı siyasi düşüncədən istifadə edək.

Təşkilatımızı daha səri surəsdə qurmağa müvəffəq olacağımıza inanırdıq. Bu faydalı vəli ağır işi icra etməyə təyin edilən 20 gün çox az idi. Bununla belə müvəffəqiyyətlərin bizdə yaratdığı ruh o qədər yüksək idi ki, heç bir iş nəzərimizə

ağır və qeyri mümkün gəlmirdi. Madam ki, iş gərək 20 günün müddətində xatəmə tapsın, onu əncam verməli idik.

Təşkilat və təbəqələmizi vaxtında əncam vermək üçün bütün vəsilələrdən istifadə etdiyimizi Hizbi-Tudənin ilhaqdan sonra onun iş kadrosunu alıb, öz kadrlarımız ilə birlikdə bütün Azərbaycan kənd və şəhərləri arasında təqsim etdik. Onlar müəyyən nəqşə üzrə hərəkət edib, müəyyən günlərdə işlərinə xatəmə verməli idilər. Bu da çox müfit vaqe oldu. Onlara verdiyimiz tapşırıq çox sadə idi. Hizbi-Tudə və demokrat təşkilatlarının üzvlərini toplayıb, onların arasından iddə nisbətilə nümayəndə seçməli və bu vasitə ilə məhəl və vilayət konfranslarını təşkil edərək, orada komitələr intixab etdikdən sonra ümumi konqrəyə nümayəndələr seçib, özləri ilə bərabər, mehr ayının 9-cu günü axşam Təbrizdə hazır etməli idilər. Böyük qudrət, şiddətli intizam və ağır iş tələb edən konqrə quruluşu fəqət təşkilat yolu ilə başa gəlmirdi. Konqrənin gündəlik məsələlərini hazırlamaqla bərabər gələcəkdə firqə fəaliyyətinin əsasını təşkil edam məramnamə və nizamnaməmizin yazılıb hazırlanması da kiçik iş deyil idi. Bunlardan əlavə mühit, zaman və məkan bizə fəqət daxili iş əsaslı təzə və geniş miqyasda olduğundan, ətrafımızı tamamilə nəzərdə tutmalı və dostlarımızı qorumalı, düşmənlərimizi isə mübarizə meydanından qaçıb çıxartmağa məcbur idik.

Biz bu işlərlə məşğul olduğumuz zaman Tehran mətbuatı get-gedə fəaliyyətini artırıb, əleyhimizə başladığı təbliğatı gücləndirməkdə idi. Özlərinin məğlubiyyətlərini hiss edən məclis nümayəndələri isə rahat oturmayıb, məclis kürsülərindən əleyhimizə geniş dairədə istifadə etməyə başlamışdılar.

Doğrudur, şüarlarımız xalqın xoşuna gələn şüar idi. Lakin onu çox tez unuda bilərdilər. Ona görə biz yeri gəldikdə onları təkrar etməli və onun ziddinə olaraq, meydana çıxan anlaşılmaz fikirləri və yersiz töhmətləri rədd etməli, bir sözlə qazandıqlarımızı saxlamalı, cəlb etdiklərimizi qorumalı və firqəmizi düşmənlərin təcavüzündən müdafiə və mühafizə etməli idik.

Təşkilatımıza daxil olmağa tələsən adamların içərisində çox istifadəçi adamlar da var idi. Firqəyə girməklə, onu içəridən dağıtmaq istəyən adamlar da az deyildi. Hizbi-Tudə təşkilatında da yabancı ünsürlərin olduğunu bilirdik. Təşkilatı bu fasid cərgənin şərindən xilas etmək özü də asan bir iş deyildi. O günlərdə bizim ən kəskin silahımız “Azərbaycan” ruznaməsindən ibarət idi. Qabağa çıxan bütün müşkülatı onun səhifələrində münəkis (əks) etməklə, xalqı və firqə üzvlərini təchiz edir və onların köməyilə çətinlikləri ortadan qaldırıb, nəvaqisi (nöqsanları) bərtərəf etməyə (aradan qaldırmağa) müvəffəq olurduq. “Azərbaycan” ruznaməsi olduqca sadə bir dildə yazıldığına görə, xalq tərəfindən böyük rəğbətlə oxunur, onun sözləri firqənin rəsmi tapşırığı kimi qəbul edilirdi. Baş məqalələrin çoxusunu şəxsən özüm gündəlik firqə siyasəti üzərində yazdığıma görə, firqə üzvləri və bitəraflər vasitəsilə bizim gündəlik xətti-hərəkətimizdən xəbərdar olub, o xətt üzrə hərəkət edirlər. Firqə işçilərinə konqrənin quruluşuna aid ruznamə vasitəsilə hər gün tapşırıq verilir və gələn xəbərdən yeni tədbirlər üçün istifadə olunurdu.

“Firqəmiz işə başladı”, “Firqəmiz irəli gedir”, “Ayrı bir yol yoxdur”, “Siyasi firqələrin afəti”, “Güc birlikdədir”, “Firqəmizin tarixi işi” ünvanı altında yazdığımız məqalələri vaxtilə oxuduqda firqəmizin bu iyirmi gün müddətində nə kimi işlərlə məşqul olub və nə kimi müşkülat ilə üz-üzə gəldiyini canlı bir surətdə nəzərdə mücəssəm ola bilər.

Məsələn, “Ayı dostluğu” ünvanı altında yazdığımız məqalədə aşağıdakı cümlələrin tamamilə ehtiyacdan irəli gəldiyini oxucu çox asanlıqla hiss edə bilər.

Firqənin əsas səngərləri gərək düzgün düşüncəli və sağlam fikirli adamların əlinə tapşırılsın.

Cahil adamlar bilib, anlamadan firqəyə böyük zərər vura bilər.

Məxsusən kəndlərdə firqə sözü çox pis təəbir edilir. Onun başında duranlar çox yerdə dövlət idarələrini mənimsəyib, hətta

bəzi yerdə firqə məsulları öz vəzifələrini unudub, dehdar (kənd sahibi) kəndxudalar məhkəmələr kimi və qanuni idarələrin işlərinə qarışmaq, firqə rəhbərlərinə yaraşan işlərdən deyildir. Biz şəhər və ya kəndlərdə firqə ünvanı daşıyan təzə kəndxudalar, təzə jandarmlar, boynu yoğun qolçolamaqlar meydana çıxarmaq fikrində deyilik. Bunların dostluğu, ayı dostluğundan daha xətərnakdır.

Kəndlərdə və şəhərlərdə məsləkdaşlarımız fəqət birinci nüvbdə təbliğatçı, ikinci növbədə təşkilatçı olub, xalqı firqənin ətrafına toplamaqla böyük məqsədimizi israr etməyə çalışmalıdır.

Bəzi kəndlərdə bu məqalə Hizbi-Tudə təşkilatına soxulmuş qolçomaqların əleyhinə yazılmışdır. Firqəmiz bu təşkilatı qəbul edərkən bu xırda və orta maliklər qorxub qaçır, qolçomaq, macaraçı və fitnəəngiz ünsürlərin yol verilməsi uğrunda şədid surətdə mübarizə aparmağa məcbur idi. Bu məqalə isə onların əleyhinə yazılmışdır. Hizbi-Tudə təşkilatının bədnamlığını meydana çıxaran səbəblərdən birisi də həmin qərəzli adamların asanlıqla onun sıralarına yol tapmaları olmuşdu. "Şəriki-dozd yari-qafilə" ("Oğrunun şəriki – karvanın köməkçisidir") olan bu adamları xalq təşkilat işində gördükdə əlindən gəldiyi qədər onun əleyhinə çalışmağa məcbur olurdu. Ona görə istər bu məqalə, istər ondan iki şümarə qabaq yazdığımız "Siyasi firqələrin afəti" ünvanlı məqalələrin hədəfi bu pis və zərərli adamların firqədən uzaqlaşdırmaları idi.

Bu yolda aparılan təbliğat xalq içərisində çox əmiq (dərin) təsir bağışlayıb, müxaliflərin bəhanələrinin qabağını alır və düşmənlərimizi əxlaqən xəli-silah edirdi (silahı əldən alırdı).

Həqiqətdə Azərbaycan ruznaməsinin məqalələri kadr və xalq tərəfindən firqə nümayişi kimi qəbul olunurdu. Ona görə istər adi, istər məsul işçilər öz əməliyyatlarında onları nəzərdən uzaq tuta bilmirdilər. Haman ayı dostluğu ünvanlı məqalədə aşağıdakı sözlər doğrudan-doğruya bir göstəriş kimi qəbul

olunmuşdu. Onlar gərək bilsinlər ki, firqə başçısı qədim imam cümələrinin işini görməli deyildilər.

Kəndlərdə bir daha Rzaxan olmayacaqdır.

Kəndliyə zor demək öz şəxsi dost və düşmənliyini firqə sıralarına yeritmək işini istifadəçi ünsürlərlə firqəmiz amansız bir surətdə mübarizə edəcəkdir. Kəndlərdə və şəhərlərdə firqə təşkilatı qurub, Tudə təşkilatını islah edib, firqəmizə ilhaq etməyə məmur edilən firqə işçiləri bu məsələni daima nəzərdə tutmalıdırlar. Firqə şəxslər deyil, ümumiyyətin səadəti üçün çalışır, ümumi zəhmətkeşlərə nicat vermək istəyi. Beş dənə yumurta, iki batman (çəki vahidi (6 kilo ya 3 kilo)) soğan ilə kəndliyə nicat vermək istəyən və bu vasitə ilə kəndlərdə nifaq salanlar kəndlilərə ayılar kimi nifaq edirlər.

Məqalənin bu ləhndə (metodda) yazılması günün tələbi üzrə irəli gəlmişdi.

Hizbi-Tudə ətrafında sol hərəkatının qabağını almaqla biz milli şüarımızın daha tez yazılmasına sol hərəkatının qabağını almaqla biz milli şüarımızın daha tez yazılmasına imkan yaradırdıq. Belə olmasaydı, camaat və xırda maliklər firqəmizə yaxın düşməz. Bu vasitə ilə düşmənlərimizin töhmətlərini xalq içərisində kök salmasına imkan verilmiş olardı. Bu vasitə ilə biz solluq və avam fəriblik zərbəsilə firqəni əlində alət edən adamların qarşısını alıb, eyni zamanda xalqın firqəyə hüsn-rəğbət göstərməsini təmin etmiş olduq.

Bu düzgün siyasətin nəticəsində idi ki, camaatın ümum təbəqatı, hətta ruhanilər və ortabab kəndlilərlə xırda maliklər də bizim şüarımızı qəbul edib, onu intişar verirdilər. Nəticədə nehzətimiz birinci qədəmdən ümumxalq nehzəti şəkli alıb, bütün xalq firqəmizə nicat verici bir vasitə kimi baxmağa başladı. Bu da təşkilatımızın inkişafını təmin edir.

Yuxarıda şəhr etdiyimiz dəlil və səbəblərə görə deyə bilərik ki, firqə təşkilinin birinci qədəmləri eyni zamanda milli nehzətimizin müqəddəməsini təşkil edən siyasi qədəm idi.

Işin surətlə pişrəfti xalqın ümumiyyətlə meydana atdığımız şüarları mənimsəməsi yalnız bizim fəaliyyətimizə, bacarmağımıza aid deyildir. Bunun əsl səbəbi şüarlarımızın xalq ehtiyacından doğub, onun arzularını bəyan etməsidi.

Xalq doğrudan-doğruya Tehran irticai hökumətinin pis və yaramaz siyasətindən stuhə gəldiyi (bezməsi) kimi, yeni mütərəqqi və demokratik həyatın ləzzətini və mənasını anlamışdı. Həm də o gündə külliyyət üzərində bəhs edib, sözdən əmələ keçə bilməyən firqələrə nisbət bədbin olub yeni bir vasitə, həqiqi bir xalq təşkilatının vücuduna ehtiyac hiss edirdi. Firqəmiz isə xalqa təzə nəfəs, doğru vasitə ilə yanaşıb, onu inandırmağa müvəffəq olmuşdu.

Hətta meydana atdığı xəyanət və təcrübəsizlik söhbəti qorxudub, meydandan çıxara bilmədi. Bəlkə bunun əksinə olaraq mərkəzdən ayrılıb, müstəqil surətdə yaşamaq islətəyənlərin sayı günü-gündən artmağa başladı. Xalq içərisində siyasi sahədə böyük roşd və nomov (inkişaf) əmələ gəldi. Biz mərkəziyyət deyil, ədəmi-mərkəziyyətdən (mərkəziyyətdən uzaqlaşma) danışdıqda xalq içərisində daha şədid milli hərəkatda müşahidə edirik. Məqalələrimizin və ya danışıqlarımızın hər hansında Tehran hökuməti ilə saziş etmək (siyasətini) çox üstüörtülü bir surətdə işarə etdiyimiz zaman o məqalə və ya nitq xalqın təvəccöhünü cəlb etmirdi. Camaat tərəfindən çox pis tərzdə istiqbal olunurdu. Bunun əksinə olaraq, qəti azadlıq və müstəqil hökumət fikrinə yaxın söz və şüarlarımız isə böyük hərarət və şədid ehsasata səbəb olub, xalqı daha ciddi surətdə hərəkətə gətirdi. Misal üçün xalqın bəyəndiyi məqalələrdən aşağıdakı bir neçə cümləni burada nəql edirik.

*"İndi Azərbaycan xalqının əlinə böyük fürsət düşmüşdür. Bundan istifadə etməmək xəyanətdir".*

*Bu kimi fürsətləri Azərbaycan azadixahları mühüm sözlərə inanıb, mükərrər surətdə əldən vermişlər. Əgər Sərdari-Milli Tehrana inanmasaydı, əgər Şeyx Məhəmməd Xiyabani xain,*

*yalançı və minüzlü müşavirlərinin sözlərinə əhəmiyyət verməsəydi, Azərbaycan nə tək İranın, bəlkə dünyanın ən mütərəqqi ölkələrindən biri olmuşdu. Bu səhvləri daima nəzərdə tutaraq, müzəbzəb (axmaq) və murdar adamların xainanə təlqinlərinə qulaq asmayıb, öz gücümüzə bel bağlamalıyıq.*

**"Azərbaycan"nın 3-cü nömrəsi, cəharşənbə, 21 şəhrivəri**

*20 cümləli doqquz gündən artıq tarixə malik olmayan bir firqə üçün böyük iddia hesab oluna bilərdi. Lakin xalqın etimadı, xalqın göstərdiyi rəğbət, xalqın sel kimi axıb gəlməsi, bizə ondan daha möhkəm danışmağa imkan verirdi.*

*Bir də xalq bu sözləri sevir, onu eşitmək istəyir və bu vasitə ilə o günə dək yuxu və uzaq amal hesab etdiyi fikirlərinin əmri-vaqiə olacağına (ittifaqa düşməyə) inanmağa başlayır və fikirləri açıq surətdə edilməsinə özünü xoşbəxt sayırdı.*

Azərbaycanın ikinci nömrəsində çap etdiyimiz "İki yol ayrıcında bizim axır sözümüz" ünvanlı məqaləni tamamilə əzbərliyib, xalq içərisində intişar verənlər olduğunu bizə söyləyənlər az deyildir. Bu məqaləni mən bu cümlələrlə qurtarmışam:

*"Azərbaycan özü öz işlərini idarə etməyə qadirdir. Əgər Tehran hoqqabazları Londondan aldıqları ilham üzrə azadlığı məhv etməkdə davam edərlərsə, biz bir qədəm irəli qoyub, tamamilə oradan qəti-rabitə etməyə məcbur olacayıq. Qoy mürtəcelər azadlıq və demokrası üsulu əleyhinə çalışanlar öz hesablarını düşünsünlər və öz təkliflərini bir dəfə qəti surətdə anlasınlar. Tehran hökuməti gərək bilsin ki, o iki yol ayrıcında dayanmışdır. Azərbaycan öz yolunu intixab etmiş, o azadlıq və demokrası üsuluna doğru gedəcəkdir. Əgər Tehran irtica yolunu intixab edərsə, xudahafiz, Azərbaycansız bu yola davam etsin". Budur bizim axır sözümüz.*

*“Azərbaycan”şümarə iki şəhrivərin 17-ci 1324 (Sentyabrın 7-si 1945)*

Bu kimi təhdidlərdən xalqın fövqüladə xoşu gəlir və onu meyl və rəğbətlə oxuyub bir-birinə xəbər verirdilər. Əsla Azərbaycanda xalq özünün milli xüsusiyyətinə dayanıb, Tehranı təhdid etməsinin təzəliyi yoxdur. Hələ məşrutə nehzətində Kəsrəvinin “Tarixi- Məşruteyi-İran” adlı kitabında qeyd etdiyi, Azərbaycan xalqı Məhəmmədəli Mirzanın taxtından salınmasını tələb edərkən, bunu irəli sürmüşdü. Bu teleqrafda deyilir ki, məclis bizim təlabatımızı qəbul edib, Məhəmmədəli Mirzanın səltənətinə xatəmə verməzsə, Azərbaycan tamamilə İrandan ayrılıb, müstəqil surətdə özünü idarə edəcəkdir. Bundan əlavə mərhum Şeyx Məhəmməd Xiyabani hərəkatında da Azərbaycanın xüsusiyyəti aşkara çıxmışdı. Mütəəssifanə Şeyxin özü mühütün təsirində vaqe olub bu, şüzrı meydana sürməkdən qorxurdu.

Tehran irticası Şeyxin mühafizəkaranə surətdə rəftar etməsinə baxmayaraq, onun rəhbərlik etdiyi qiyama təcrübə gözü ilə baxdığı üçün onun qanlı mücazat (cəza) etmək əvəzinə məclis üzvlüyünə intixab etdi.

Xalq özünü bir millət tanıyaraq, Teharana etimad etməməsinə və bu etimadsızlığı yeri gəldikdə zahirə çıxarmasına biz hər bir qədəmdə təsadüf etdiyimizi danışıb, yazılarımızda bu ehsasata müğayır (zidd) rəftar etməyi heç vaxt nəzərdən uzaq tutmurduq. Xalqı təşviq etmək istəyən zaman bu mövzuya işarə edirik. O da xalq içərisində bizim daha tez nüfuz qazanmağımıza səbəb olurdu. Məsələni daha artıq işıqlandırmaq üçün “Azərbaycan” ruznaməsinin 29-cu şümarəsində çap etdiyimiz aşağıdakı cümlələri burada qeyd edirik.

*“Tarix bizim öhdəmizə böyük bir vəzifə qoymuşdur. Biz Azərbaycanda sarsılmaz bir azadlıq qalası vücudə gətirməliydik. Tehranda və İranın ayrı əyalətlərində əcnəbi dəsturilə (əmrlə) əzilən demokrat və azadixah şəxslər bizə pənah*

*gətirəcək, azad və demokrat vətənimizin şanlı bayrağı altında müqəddəs vəzifələri olan azadlıq mübarizəsini davam etdirəcəklər. Azərbaycan Tehran ilə bir yerdə əsir Hindistan olmaqdansa özü üçün, azad olmağı tərcih verir (bəyənir)".*

Bu cümlələr xalqa təkan verən, onu ayağa qaldıran cümlələr olduğundan tarixdə yazılıb, gələcək nəsl üçün baqi qalmalıdır.

Doğrudur, bu camaata təşəbbüs etdikləri nehzəti tarix səhifələrində cavanlarımızın qanı ilə yazılmışdır. Onu heç xain əl silib, poza bilməz. Bununla belə öz qızıl qanlarını axırncı qətrəyə qədər müzayiqə etməyən (əsirgəməyən) vətən qəhrəmanlarının dərin yuxudan oyadıb, mübarizə meydanına çəkən cümlələrin də qanları qədər daha artıq dərəcədə qiymət və mənası olmuşdur.

Ölümə hazır olmayıb, qurban verməyən bir millət yaşamaz və ona yaşamaq imkanı verilmir. Millətimiz bilib, düşünərək, qurban vermiş və o başladığı böyük qədəmi götürərək, qurbanlıqlar verməyə hazır olduğunu heç vaxt unutmamışdır.

Xalqı təşkilata cəlb etmək yolunda dil məsələsi də olduqca dərin təsir buraxırdı. Yarı fars və yarı azərbaycança yazmağa başladığımız "Azərbaycan" ruznaməsi çox tez bir zamanda farscadan xilas olub, yalnız azərbaycança yazılmağa xalqın hörmət və məhəbbətini cəlb etdi. Xalq özü müstəqimən ana dilini işlətməyə başladığı fövqüladə maraqlı bir iş idi. Məsələn, şüarlarımız intişar tapan gündən məhəbbəti cəlb etdi. Nəziri görülməmiş və kimsənin ağlına belə gəlməmiş bir məsələ gözə çarpmağa başladı. O da teleqrafın Azərbaycan dilində yazılması idi. Hənuz bütün idarələrdə rəsmi dil fars dili olduğu və hökumət məmurları heyəti məxsus təşkil etdiyi halda, "Azərbaycan" ruznaməsinə məxsus firqəyə göndərilən teleqrafların azərbaycança yazılması xalqın dil azadlığı olduğunu isbat edirdi. Marağada mərhum general Kəbirinin Azərbaycan dilində göndərdiyi birinci teleqrafı oxuduqda təsir şiddətindən ixtiyarsız olaraq, bir-birimizi təbrik etməyə başladıq.

Ondan sonra ayrı şəhərlərdə bu imkandan istifadə edilməyə başladı. Beləliklə hər bir idarə daha əvvəl post və teleqraf idarəsi milli dilə keçmiş oldu. Sonra da ayrı idarələrdə işləyən Azərbaycanlılar işə girişməklə hökumət əlimizə keçmədən əvvəl dilimiz bütün Azərbaycanda geniş dairədə yol açıb, o həqiqi məqamını işğal etdi. Həqiqətdə firqə işlərinin yalnız Azərbaycan dilində aparılıb, müraciət edənlərin fəqət bu dildə mükatibə etmələri (yazışmaları) təsmimizdən daha qabaq əməli olmuşdu. Bu isə yeni təəssüb icad etmək, təşkilat işimizin surətində dərin təsir buraxmaqda idi. Hələ firqəmiz işə başlamadan əvvəl Azərbaycanda şer yazan şairlərimizin cəmiətdə özlərinə yol açmağa imkan tapmışdılar. O zaman Azərbaycan dilində vahid nəşriyə olan "Vətən yolunda" ruznaməsi bu şerlərin intişarı ilə Azərbaycanda ədəbiyyət aləminə təzə bir hərəkət meydana çıxmasına kömək etmiş idi. Azərbaycança yazan cavan şairlərdən Biriya, Azər oğlu, Əli Tudə Çavuşi, Mədinə Gülgün kimi təzə ərsiyə qədəm qoymuş təzə şairlərlə bərabər, Əli Fitrət, Etimad, Nəcm Məhzun və Kamil kimi o vaxtadək yarı fars və yarı Azərbaycança yazan sabiqəli şairlər də milli dilimizdə hərarətli şerlər yazmaqda ədəbiyyatımızda maraqlı bir rövnəq (inkişaf) müşahidə olunurdu. Firqə işə başlayan kimi bu qüvvə tamamilə bizim tərəfimizə keçib, müraciətnaməmizdən aldıqları ilham üzrə hərarətli şerləri meydana çıxarmaqla milli hərəkatımızda yer tutmağa başlamışdı. "Azərbaycan" ruznaməsi isə çox mühüm və siyasi məsələləri ilə məşqul olduğu halda, şairlər nehzətimizi qüvvətləndirmək üçün xalqı ruhlandıran şerlərini çap və müntəşir etməkdən heç də xuddarlıq etməyib (utanmayıb), bəlkə onları daha artıq təşviq etmək üçün əlindən gələn köməyi müzayiqə etmirdi.

Həqiqi şairlərin səsi xalq səsi olduğuna görə nümunə olmaq üzrə "Azərbaycan" ruznaməsində o zaman yazılan şerlərdən bir neçəsini burada nəql etmək, məncə xalqın ruhiyyəsini və əfkari-ümumini göstərmək üçün müfid ola bilər.

**Birinci şümarədə**

***Etimad***

***<u>Doğma Azərbaycan</u>***

*Ey dağ-daşı, gül bağçası, torpağı mərcan,*
*Ey ay kimi ulduzlar içində üzü tapan..*
*Ey xalqımızın şövkəti sənsən bizə zinət,*
*Sənsən verən övladuva dünya boyu nemət.*
*Yurdum-yuvam, ellər gülü, doğma vətənimsən,*
*Dünya hamısı bir tərəfə, sən də mənimsən.*
*Azadlığı çox sərv ağacı səndən alıbdır,*
*Dan ulduzu tək baş çəkib yerdə ucalıbdır.*
*Səndən alır ilhamı o dağ-daşdakı tufan,*
*Sən tərbiyə versən daş olur ləli-bədxəşan,*
*Bu qəlblərin coşğun olan pak qanı sənsən,*
*Oğlanlarıvın izzəti sənsən, canı sənsən.*
*Tarix o uzun keçmişüvü yaxşı yazıbdır,*
*Şanlı aduvu parlaq ölkələrdə qazıbdır.*
*Heç qüvvə cahanda ayırmaz səni məndən,*
*Mümkündür ayırmaq o bir ruhu bədəndən?*
*Eşq olsun o aşıqlara ki, bağladı peyman,*
*Öz canlarını elədilər eşqüvə qurban.*
*Oğlanlarıvın fikri, məramı budur ancaq.*
*Daim yaşa ey izzətim, ey ana torpaq.*

**"Azərbaycan" 4-cü şumarəsi**

***<u>Əli Fitrət</u>***

*Yurdumuz şanlı Azərsatandır*
*Bizə bu ölkə bağ rizvandır*
*Dilimi hifz edərəm hər an*
*Qoymaram bu dilə edə nöqsan.*
*Qoymaram millətim zəlil olsun*

*Əcnəbilər bizə dəlil olsun*
*Hədəf əslini edək mənzur*
*Qoymayaq güclü güc edə sizə zor,*
*Toprağın müzkün verməm hərgiz*
*Bu məram üstündə mərd-mərdanə*
*Bataram şövq ilə qızıl qana*
*Çalışın olmaya nifaq bu gün*
*Cəhd edək biz mərama nail olaq,*
*Üç qəzetdə bədr kamil olaq.*

**"Azərbaycan" 7-ci şümarəsi**

***Seyid Həsən Müsəvi***
***haqq və azadlıq***

*Sevgili vətənim xoş iqbal ana*
*Qəlbdən diləyim istiqbal sana*
*Məhəllin, mərkəzin tamam insana*
*Ruh verir, mən də qailəm ona*

*****

*Qəhrəman yurdumun mərd oğulları*
*Qəhrəman doğmuşdu ana onları*
*Azadlığ uğrunda axan qanları*
*Qurbanlar vermişik Azərbaycana*

*****

*Azəri mülkünün qızıldır daşı*
*Çiçəkli tarlası, aldır qumaşı*
*Uca dağları var, qarlıdır başı*
*Bac verməz çiskinə, çənə, dumana.*

*****

*Böyük əcdadımızın şanlı məskəni*
*Sevirik qəlbdən ey vətən səni*
*Ana yurdumun dili mədəni*
*Işləyən gözəldir çıxma meydana*

*****

*Azəri ölkəsi möhkəm bir qala*
*Namuslu, şərəfli ehsan bu hala*
*Tapılmaz bir nəfər azəri ola*
*Öz yurduna düşmən Azərbaycana*

*****

*Adın dillər üstə əzbərdir nədən*
*Azəri ölkəsi ey əziz vətən*
*Böyük saadətlə yaşa, var ol sən*
*Hörmətin ayılsın gəl cahana.*

*****

*Adın solətdidir, elin qəhrəman*
*Çağrılır qudrətli adın hər zaman*
*Yağı diz çökdürən yurdun həmivan*
*İftixar elə sən bütün İrana.*

*****

*Seyid Həsən şerivi yetir tamamə*
*Vaxt yetişər gələr ali məqama*
*Istədiyin yazılacaqdı namə*
*Tamam eləyən bütün xəlqin onaAaz'rbaycan*

***“Azərbaycan” (......) şumarəsi***

***Aşıq Hüseyn Cavan***

## ***<u>Gül Azərbaycan</u>***

*Bir səs düşüb tamam ellərə oyanıb,*
*Oyan bu qəflətdən bil Azərbaycan*
*Yatanları oyat*
*Ürəkdən bir şad ol gül Azərbaycan*
*Bu azadlıq bir səs ilə istənir,*
*Baxan bu qorxuya çox həvəslənir.*
*Təzə bahar gəlib bülbül səslənir*
*Açıb ölkəmizdə gül Azərbaycan.*
*Qəhrəmanlar bu məqsəddə dayansın.*
*Yatan varsa bidar olsun oyansın.*
*Bütün dünya al qumaşa boyansın Azərbaycan.*
*Ucalsın pərçəmin, ucalsın başın*
*Dayanıb arxanda hər vətəndaşın*
*Gələr köməyinə elin qardaşın.*
*Zülmü yer üzündən sil Azərbaycan.*
*Bütün Iran səndən gözlər nicatı*
*Səndən asılıdır xalqın həyatı.*
*Gəl getmə yuxuya bu xoş saatı.*
*Nurunu hər yana sal Azərbaycan.*
*Səttar xan, Bağır xan ruhu osun şad*
*Bu gözəl günləri etmişdilər yad.*
*Indi Azərbaycan olubdur azad*
*Xoş gəlib üzümüzə il Azərbaycan.*

**“Azərbaycan” 12-ci şümarəsi**

***Nəcm Təbrizi***

***<u>Həmişəlik yaşa Azərbaycan.</u>***

*Ana yurdumsan ey şanlı vətən*
*Həmişəlik yaşa ey Azərbaycan*
*Gülüm, bülbülüm, gülşənim, çəmənim*
*Həmişəlik yaşa ey Azərbaycan*

*****

*Qumların ləəldir, daşların mərcan*
*Suların (sərin) güllərin reyhan*
*Şərafətli adındır Azərbaycan*
*Həmişəlik yaşa ey Azərbaycan*

*****

*Yüz də sənsən gözəl bir gəlir*
*Səndə saçıbdır intiqam pərçəmin*
*Yerlərin məskəni sənsən yəgin*
*Həmişəlik yaşa ey Azərbaycan*

*****

*Yolunda ölməkdir eyni səadət*
*Alıbdır üstüvə sayə ədalət*
*Qəhrəmanlar anasısan həqiqət*
*Həmişəlik yaşa ey Azərbaycan*

*****

*Axıbdır su kimi üstündə qanlar*
*Bu yolda can qoyub çoxlu nu cavanlar*
*Qanları alacaq qəhrəmanlar*
*Həmişəlik yaşa ey Azərbaycan*

*****

*Atıbdır baş-başa uca dağların*
*Cənnət kimi bəzənibdir bağların*
*Inədən az qalır gedə dağları*
*Həmişəlik yaşa ey Azərbaycan*

*****

*Dərya kimi mövca gəlib, köllərin*
*Aslan kimi azad yaşar, ellərin*
*Açılıbdır çiçəklərin, güllərin*
*Həmişəlik yaşa ey Azərbaycan*

Bu şerlər sonralar fədailər və bütün xalq sevib, hər yerdə hər zamanda söylədiyi o olmuşdu. Təzə dil açmağa başlayan uşaqların birinci dəfə danışığı yaşa Azərbaycan sözilə başlanırdı.

**"Azərbaycan" 18-ci şumarəsi**

***Balaş Azər oğlu***

***<u>Gəlin a dostlar, gəlin</u>***
***<u>(Iki firqənin birləşməsi)</u>***

*Gəlin arkadaşlar, gəlin a dostlar*
*Gəlib istədiyimiz zamanlar gəlsin*
*Yenə də sizinlə bir söhbətim var*
*Gəl yapış ananın indi əlindən*
*Çoxdan da gəlməsə gur səsim mənim*
*Onunla bağlıdır çün əzəlindən*
*Bil ki, sönməmişdir həvəsim mənim.*
*Həyatın, varlığın bu aşkarıdır.*
*Tanır bu ellər əzəldən məni*
*Əgər o vardısa, bu ellər vardır.*
*Çünki ayırmamış bu eldən məni.*

*Bəlkə insanlıq da bağlıdır ona*
*Nə sözüm, nə şerim, nə də sənətim*
*Onun o mehriban ana qoynuna*
*Onun arzusudur hər məhəbbətim*
*Dünyalar sığınır görürsən bəzən*
*Qəlbimiz ayırsa sinəmiz birdir*
*Səni o saxladı körpəliyindən.*
*zamandır Mən bu ellərdənəm,*
*ellər mənimdir.*
*Pasibanın oldu hər axşam, səhər*
*Gəl uzaqda durma, yaxın gəl sən də*
*Qışda şaxta çəkdi, ayda küləklər*
*Malik də, tacir də, əkin əkən də*
*Çıxartdı həyatın firtınasından*
*Əsnaf da, baqqal da, de kim var gəlsin*
*Indi o girdabda boğulan zaman*
*Vətənin qədrini duyanlar gəlsin.*
*Mehriban qolların açaraq sənə*
*Gəlsin o gözləri yolda qalanlar*
*Deyir: dat günümdür, oğul gəlsənə*
*Səttar xan yurduna arxalananlar*
*Gəl bu pəncələrdən, gəl qurtar məni*
*Zülm oduna yanan da gəlsin*
*Soydu qudur məni, hökmdar məni.*
*Gəlsin taleini duyan da gəlsin.*
*Gözəllərim əllərdə qaldı*
*Qoy gəlib yaxından eşitsin o da,*
*Sönən çırağımı əlinlə yandır.*
*Bilsin bir əskərdir bizim orduda*
*Bəlkə bu zülümdən qurtaraq bizi də*
*Gəlin vətən deyən cavanlar, gəlin.*
*Bir də qul olmayaq öz ölkəmizdə.*

Azər oğlunun 18-ci şümarədə yazdığı "İki firqənin birləşməsi" şerində xalqın firqə ətrafına toplanması və milli şüur və milli birlik, milli azadlığın mənasının xalq tərəfindən anlaşılmasını andıran şerlərdən sayılmalıdır.

"Gəlin dostlar" nehzat dövrəsində dil-ədəbiyyat və umumiyyətlə incəsənət sahəsində görülən işləri haqqında bir daha bəhs edəcəyimizə görə burada müfəssəl şərh verməkdən sərfinəzər etməliyik (vaz keçməliyik).

Bu kimi təşkilati və mənəvi fəaliyyət əsərində biz istər mərkəzdə, istərsə ətrafda müəssislər konfransının tapşırığını əncam verməyə müvəffəq olduq.

20 günün müddətində bütün Azərbaycanda hozələrdən başlayıb, vilayətlərədək ümumi iclaslar və konfranslar dəvət edərək, firqənin qarşısında duran məsələləri 12 Şəhrivər elamiyyəsinin şüarlarını müzakirə etdikdən sonra iki təşkilatı birləşdirdik. Onların komitələrini yaratdıqdan sonra firqəmizin birinci konqrəsinə nümayəndələr intixab edib, mehr ayının 9-da (29 Sentyabr) Təbrizə yetirdik. Bu nümayəndələrin şəxsiyyəti və onların intixab üçün göstərilən səmərəli fəaliyyətinin əndazəsini konqrədə danışılan sözlər və orada çıxarılan qərarlardan daha yaxşı anlamaq olar.

Biz burada özümüzü öymək və tərifləmək istəmirik. Məqsədimiz görülən işlərin əqəllən (ən azı) bir hissəsini əbədiləşdirmək və tarix səhifələrinə keçirməkdən ibarətdir. Biz deyə bilərdik müəssislər konfransından 20 gün sonra firqənin konqrəsi dəvət olunub, Mərkəzi Komitəmizi intixab etdi. Bu oxucuya işin cərayanını göstərməzdi, mən bunu bir hərəkatın başında durduğum üçün onun quruluşu haqqında görülən işlərdən yadımda qalanlarını unutmamaqdan ötrü yazıb, sübut etməyə çalışdığımdan bəzən qələm çəkib mövzudan kənara çıxmağın heç zərəri də yoxdur. Məqsud oxucuya vəziyyəti təsvir etməkdir. Ona görə təkrarlar da xırda yeniliklər olduğunu nəzərdə tutub, ondan pəhriz etmirəm.

## Firqənin birinci konqrəsi və onun qərarları

Yuxarıda müəssislər konfransı qərarı üzrə firqənin birinci konqrəsinin 20 gündən gec olmamaq şərtilə təşkil olunacağını və bu yolda aparılan işlərin mühüm qismətini yazmışdıq. Burada isə onun tərkibi, onda danışılan sözlər və onun qəbul etdiyi qərarlar barəsində bir qədər müfəssəl (geniş) məlumat verməliyik.

Mehr ayının 9-da bütün Azərbaycanın şəhər və kəndlərində aparılan firqə yığıncaqları xatəmə tapıb, konqresdə iştirak etmək üçün intixab olunan nümayəndələr Təbrizdə hazır olmuş, müəssislər konfransının təyin etdiyi mehrin 10-nu saat 10 günortadan qabaq gözlənilməyən bir intizam və intizar edilməyən elə böyük yığıncaq iftitah edilmişdi.

Konqrənin tərkibində kargər, əkinçi, ziyalı və kasıblarla ticarət adamları da nəzərə çarpırdı. Nümayəndələrin arasında hətta Azərbaycanın adlı-sanlı əşrafzadə və maliklərdən də var idi. Öz canını azadlıq yolunda fəda edən Rəbi Kəbiri Marağanın məruf malik və əşrafzadələrindən hesab olunurdu. Konqrənin gedişində və sonra da milli hərəkatımızda ciddi surətdə iştirak edən Muradəli xan Teymuri Ataş Bəyat Maku xanlarının ən baş bilənlərindən idilər. Qəvamüs-Səltənə hökumətinin xəyanətkarlığı nəticəsində fəciəli bir surətdə şəhid edilən Haşimi Sarab maliklərindən böyük qurbanlar verən Həbib İlahi Ərdəbilin məşhur ziyalı mülkədarlarından idi.

Etibarnamə komisiyonunun verdiyi raporta görə konqresdə şirkət edənlərin sayı aşağıdakı

qərar üzrə idi:

| | |
|---|---|
| Ümüm nümayəndələr | 237 nəfər |
| Məşruti rəy ilə şirəkət edənlər | 4 nəfər |
| Qonaqlar | 17 nəfər. |

Müxtəlif təbəqələrdən təşkil olunmasına baxmayaraq, konqrə artıq dərəcədə hərarətli və fəaliyyətli keçdi. Ziyalı cavanlar qabağa çıxan bütün məsələlərdə ciddi surətdə iştirak edərək, öz fikirlərini söyləməklə hərarət və əlaqə göstərdilər.

Konqrənin birinci, ikinci iclası göstərdi ki, şüarlarımız xalq tərəfindən ciddi surətdə qəbul edilmiş və camaatın geniş kütlələri onların mənasını layiqincə anlamağa başlamışdır.

Müxtəlif təbəqələrdən təşkil olunmuş bu böyük cələsədə tam mənasilə qardaşlıq, milli vəhdət ruhi hökm sürməkdə idi. Bizim məqsədimizi anladıqları üçün idi ki, bir ay qabaq bir-birinin qanını içməyə teşnə olan müxtəlif təbəqələrin nümayəndələri bir yerdə, bir sırada oturub, ciddi məsələlər ətrafında səmimanə bir surətdə müzakirə etməyə özlərini xoşbəxt hesab edirdilər. Yerlərdən gələn nümayəndələrin təbrik çıxışlarını fövqüladə həvəs və zövq ilə istiqbal olunmasının bundan başqa təəbiri ola bilməzdi. Zənnimcə konqrənin ruhiyyəsini göstərmək üçün “Azərbaycan” ruznaməsində “Firqə konqrəsi xalqımızın ləyaqətini isbat etdi”. Ünvanı altında yazılan baş məqalədən bir neçə cümləni burada nəql edilməsi daha faydalı ola bilərdi.

Birinci cələsədə konqrənin içəri üzü tamamilə aşkara çıxdı. Ağayi Mükərrəm Türabi, Həsən Cövlət, Ağayi Haşiminin mənalı nitqləri göstərdi ki, konqrə müraciətnaməmizi iman və əqidə üzrə qəbul edənlərdən təşkil olunmuşdur. Biz İran və Azərbaycanın nicatını bu firqənin bayrağı altında görürük, onun müqəddəs şüarlarını həyata keçirmək üçün canımız, malımız və namusumuz ilə mübarizə edəcəyik. Bu idi şəhərlərimizdən gələn nümayəndələrin axır sözü. Məxsusən Ağayi Mükərrəmül-mülk dil məsələsi haqqında söylədiyi məntiqi və mətin sözləri xalqın ana dilimizə olan təvəccüh və əlaqəsini çox gözəl surədə çıxırdı.

*Ağayi Mükərrəmül-mülk dedi: “Azərbaycanlılara monqolların güclə öz dilini təhmil etdiklərini iddia edənlər çox nadan adamlardır. Moğollar yüz ildən artıq Azərbaycanda hökumət*

*edə bilmədikləri halda, öz dillərini bizə təhmil etmişsə, əcəba 6 yüz ildən ziyadə hökumət edən farslar nə üçün bu dili dəyişməyə müvəffəq olmamışlar. Bu isbat edir ki, dili zorla və ya ayrı vasitələrlə dəyişdirmək olmaz. Müxaliflərimiz fəqət bu puç iddiaları ilə Azərbaycanın fərhəngini boğmaq bu vasitə ilə xalqımızı cəhalətdə saxlamağa can atırdılar"*

Bu ruznamə iddiasını isbat etmək üçün Mükərrəm Turabinin konqrədə söylədiyi məntiqi, dəlili təkrar edərək yazır:

Ağayi Mükərrəm bu sözləri ürəkdən dediyi üçün onun nitqi konqrəmizin təvəccühünü cəlb etdi. Gurultulu alqışlarla konqrə göstərdi ki, natiq onun əfkarının müfəssiri (şərhiçi) olmuşdur.

Yazıçı Mükərrəmin nitqindən sonra gedişini göstərmək üçün ona qiymət vermək üçün gündəlik cərəyanın təsiri altında aşağıdakı cümlələri əlavə etmişdi.

*"Iranın istiqlaliyyəti və tamamiyyti məhfuz olmaqla Azərbaycanın öz daxili işlərini azad bir surətdə idarə etməyə qadir olması və buna əməl etmək üçün bilatəxir əyalət və vilayət əncümənlərininn çağırılması ətrafdan gələn nümayəndələrimizin konqrədən tələb etdikləri ən əsaslı məsələdir."*

Konqrə götürdüyü qədəm və başladığı işin qiymətini və məsuliyyətini çox gözəl bir surətdə anlamışdır. Ona görə nümayəndələrin hamısı istər nitqlərində, istərsə də pişnəhadlarında çox diqqət və mətanətlə izhari-əqidə edirdilər (fikir söyləyirdilər). Bu vaxta qədər Azərbaycanda (böyük) bir ictima (yığıncaq) olduğuna baxmayaraq, konqrə tam mənasilə müasir və münəzzəm bir yığıncaqdır. Bunun özü isbat etdi ki, xalqımız özünü idarə edir. Xalqımız özünü idarə etməyə layiq və qadir bir xalqdır.

Konqrəmizin içərisi şoq və şəəfilə (sevinc və fərəhlə) dolduğu halda, eşikdə yəni xalq içərisində də onun təşkili münasibətilə böyük həyəcan tolid olmuşdu (vücudə gəlmişdi).

Bütün xalq məxsusən siyasət ilə məşqul olanları danışıqlarımızın gedişi ilə aşna olmaq üçün şəhərin baş bilən adamları

və idarə başçılarını qonaq sifətilə konqrəyə dəvət etmişdik. O zaman ustandarlıq vəzifəsinə kəfil olaraq, imza edən Nikcu şəhrdari rəisi İlhami, maarif idaərləri kəfili Səlimi, fəlahət rəisi Bazargani və qeyriləri dəvətimizi qəbul edib, konqrəmizdə hazır olub, böyük nehzətimizin nə qədər əsaslı olduğunu dərk etməyə imkan tapmışdılar. Təsadüfən bu adamların əksəri mururi-zaman ilə (zaman keçdikcə) nehzətimizdə iştirak edərək, firqəmizə daxil olmaqla istər firqədə, istər hökumət işlərində ciddi surətdə fəaliyyət göstərməyə başlamışdılar. Konqrə davam edərkən şəhər içərisində olan ehsasat get-gedə böyük nümayiş şəkli alıb, konqrənin ikinci iclası təşkil olunduqda Səttar xan xiyabanı camaatla dolmağa başlamışdı. Nümayəndələr isə təbrikə gələnləri qəbul etmək üçün cələsini tərk edib, xiyabana çıxmağa məcbur oldular. Bu nümayiş böyük milli bayramları xatırlamaq, əzəmətli və gurultulu bir izdiham olduğu halda, fövqüladə münəzzəm və mürəttəb idi. On mindən ziyadə kəndli və bir o qədər fəhlə nümayəndələri əldə sinfi bayraqlar olmaqla intizam ilə qəlib konqrə nümayəndələrin qarşısında dəfilə verib keçirdilər. Konqrə sədarətinin iftixarı mənə nəsib olduğu üçün kargərlər nümayəndəsi. Ciddi kəndlilər nümyəndəsi Iftixarı və sair əsnaf vəzifələrin nümayəndələrinin təbrik üçün irad etdikləri sözlərinə müxtəsər surətdə sual verməklə iki saatdan ziyada davam edən dəfilənin xatəməsini elan etdim.

Bu təntəənəli təbriklərdən əlavə təbrik teleqraflarını və məktubları imza edənlərin sayı on mindən ziyadə idi. Bu hərarətli təbriklər xalqın konqrəyə böyük və dərin ümüd bağladığını isbat edən sənətlərdir ki, o vaxt onlar firqə fəaliyyətinin aynası olan “Azərbaycan” ruznaməsində çap edilirdi. Bunların təbliğat və siyasi cəhətdən əhəmiyyəti fövqüladə artıq idi. Bu göstərdi ki, camaat firqəmizi tanıyıb, onu böyük bir qüdrət saymağa başlamışdı.

Doğrudan-doğruya o günlərdə istər mətbuat, istər camaat bilaxirə (axırda) az-çox aşna olan əşxasın hamısı konqrənin

gedişi ilə maraqlanır. Əlindən gəldiyi vasitə ilə onun məqsədini tapmağa çalışırdı.

Xalq ehsasatından bir nümunə olmaq üzrə xalq içərisindən sadə şairlərdən aşıq Hüseyn Cavan və zəhmətkeş təbəqəyə mənsub olan Azər oğlunun o günlərdə yazdığı şerlərdən bir neçə bənd burada nəql edirik:

*Millətin birlikdə böyük səsi var*
*Bir belə günlərin çox həvəsi var*
*Çoşğun ürəklərin təmənnası var.*
*Deyib, daşında güllər açılır.*
*Bu ali məqsədi çıxaraq başa*
*Yetişər xoş günlər hər vətəndaşa*
*Düşünər can deyir qardaş-qardaş*
*Təzə aləm, təzə illər açılar*
*Söyləndi təbriklər, ucaldı səslər*
*Danışdı natiqlər coşdu həvəslər.*
*Ətraflardan gələn istəkli dostlar*
*Danışdığı xoş misallar açılar*
*Xiyabani Səttar xan ayaqdan başa*
*Neçə min əhali etdi tamaşa*
*Şerlərdə baxıb gəldilər coşa.*
*Yəgin xalqımıza yollar açılar.*

Xalq aşıqının bu sadə sözlərindən o günkü xalqın firqəyə bağladığı ümüdü açıq surətdə ehsas olunmaqda idi. Azər oğlu isə çox təbii olaraq konqrənin tərkibindən aldığı ilhamı tərənnüm etmişdir. Onun şerində tarixi bir müqayisə də vardır. O bir zaman gələndə “Xan gətirmişdim, indi mühəndis, doktorum da var” sözü ilə bir neçə ay qabaq Təbrizdə təşkil tapan Hizbi-Tudənin əyalət konfransı ilə konqrəni müqayisə etmişdir.

Konfrans məlum olduğu üzrə fəqət zəhmətkeş təbəqə ilə yalnız Hizbi-Tudənin firqə işilə məşqul olan adamlara təşkil

olunmuş idi. Orada xalqın başqa təbəqələrindən təsadüfi olaraq Astaranın xırda maliklərindən hesab olunan Sadıq xan Zəmanini görmək olurdu ki, cavan şair rişxənd (istihza) ilə işarə edərək “Xan gətirmişəm” demişdi.

Bizim konqrəmizi isə bildiyimiz üzrə milli şüarlar altında təşkil olunduğundan orada camaatın ümum təbəqatına mənsub olan nümayəndələr iştirak edirdi. Cavan şairin dəqiq gözləri konqrənin vəziyyətini bərəndaz etdikdən (yoxladıqdan) sonra çox yerli olaraq, onun milli və ümumi cənbəsini alqışlamış bəzi əvamfərib söz və yalançı azadxahların xilafına olaraq, onu millətin azadlığı üçün daha faydalı hesab edərək, öz şerlərində tərənnüm etmişdir. Eyni zamanda Azər oğlunun şeirləri o gün və o gündən sonra demaqoqluq, sol söz danışmaqla xalqı başqa təbəqələrini təhqir edib, ictimai və siyasi cərəyanların əleyhinə çalışmağa vadar edən macəraculərın ziddinə yazılmışdır.

Bir vaxt bu macəracular doğrudan-doğruya bizim başımıza bəla kəsilmişlər idi. Onların çoxusu ömürlərində bir gün fiziki zəhmətlərdə işləmədikləri halda, xalqı qorxutmaq, özlərini pəhləvan göstərmək üçün fəhlə və zəhmətkeş sözünü özlərinə hərbə və alət qərar vermişdilər. Ürzə (bacarıqı) və ləyaqətləri olmadığı üçün böyük məqamlara yetişə bilməyən bu adamların firqənin milli siyasətini tənqid etməkdən başqa sanki bir vəzifələri yox imiş. Azər oğlu öz şerlərini yazarkən qətiyyən bu adamları nəzərdə tutmuş, lakin təbii olaraq, şer bizim milli siyasətimizi alqışlamaq, onu anlamaq istəməyənlərin əleyhinə verilmişdir. Şer eynən burada nəql olunur.

Azərbaycan Demokrat Firqəsinin birinci konqrəsi münasibətilə:

***<u>Indi nəyim var</u>***

*Bir zaman gələndə xan gətirmişdim*
*Yadında varmıdır o halın Təbriz*
*İndi malikim də, tacirim də var.*

*Bir qüdrət duyuram mən öz sinəsində.*
*Sinəmi qızdıran gur nəfəsimdə*
*Vardır doktorum da, mühəndisim də.*
*Silinmiş həsrətim, məlalım Təbriz.*
*O günki sinəmi süpər elədin*
*Qaranlıq gecəni səhər elədin.*
*Bizə azadlığı xəbər elədin*
*Səsinə səs verdi mühakim Təbriz.*
*Mən əzəldən vermişəm sənə qəlbimi,*
*Istəsən al yenə sına qəlbimi*
*Qoyma yad ellərdə sına qəlbimi,*
*Birdə qayıtmasın zavalım Təbriz.*
*Bizdə də müqəddəsdir ananın adı*
*Onu indiyədək qanan olmadı*
*Yadlar yurdumuzu çapdı-taladı*
*Artdı gündən-günə xəyalım Təbriz*
*Əgər yaxıldısa odlara yurdum*
*Dözdü min çətinə, min dara yurdum*
*Hər yanda baş verdi cəlalın Təbriz*
*Mən odlardan doğuldum, Azər atam da*
*Sinəmdə sönməyən bir ocaq vardır.*
*Bizə böhtan deyən yağını qandır.*
*Cavabsız qalmayıb, sualın Təbriz.*
*Bu ellər önündə and içrəm mən*
*Xalqın arzusudur qəlbimdən keçən*
*Məni ayırmayıb, ayırmaz səndən*
*Düşüncəm, iradəm, kəmalım Təbriz.*

Cavan şairin odlu sözlərinin konqrənin gedişinə aid olmayacağını irad edənlər tapıla bilərdi. Eybi yoxdur, olsun. Biz yalnız hadisələrin tarixini yazmaq fikrində deyilik. Məncə ancaq nehtəmizin xalq tərəfindən nə cür qarşılandığını təsvir etmək əhəmiyyətlidir. Maddi vaqiə (ittifaq) və hadisələr hər kəsin xatırında qala bilər. Ehsasat isə zaman keçdikcə

unudular-gedər. Onu bir daha təkrar etmək olmaz. El aşıqları və xalq şairlərinin sözlərinin bu nöqteyi-nəzərdən böyük dəyəri vardır. Hətta xırda məqalələr və sadə gələn teleqrafların inşa məzmununun da sənədiyyəti ola bilər. Şairlərimiz cavan olduqlarından öz dilimizdə azad şer yazmağa təzə şüru (başlanğıc) etmişdilər, ona görə onların yazılarında sənət cəhətdən zəifliyi ola bilər. Buna baxmayaraq, bu dövrdə onlar şədid ehsasatı mühitin qüdrətli ilham və təlqinin əsərində yazdıqına görə onların o günkü şerləri fövqüladə müəssir (təsir edici) və fövqüladə həyacanavər (həyəcan törədən) əsərlərdir.

Bu qismətdə məqsudumuz şer barəsində məlumat vermək olmadığından, yaxşı olar, bu bəhsi ayrı mövqeyə qoyub, mövzu bəhsimiz olan birinci konqrədən danışaq. Yuxarıda yazıb, qeyd etdik ki, konqrə firqəyə aid olduğuna baxmayaraq, ümum xalqın ümüd və arzusunun mərkəzi-seqli olmuşdur. Firqə üzvlərindən ziyada bitərəflər məxsusən kəndli və şəhərli zəhmətkeşləri ona ümüd gözü ilə baxmaqda idilər. Təbriz şəhəri və onun ətrafında toplanıb təbrik üçün gələnlər barəsində yuxarıda işarə vermişdik. Nümunə üçün ətrafdan gələn teleqraflardan bir neçəsini burada nəql etməliyəm.

***Ərdəbildən***

*Azərbaycan Demokrat Firqəsi özü "Xavərno"(Yeni Şərq) və "Azərbaycan" ruznaməsinə Ərədəbil vilayətinin əkinçilərin ittihadiyyəsi (bütün Ərdəbil kəndliləri) tərəfindən Azərbaycan Demokrat Firqəsinin azadlıq düşmənləri mənhus (lənətlənmiş) və irtica rejimini yıxmaq yolunda pişqədəm olan birinci konqrəsini təbrik deyib, o müqəddəs firqənin müvəffəqiyyətini arzu edirik.*

***Ərdəbil zarelər ittihadiyyəsinin məsuli – Türkpur "Azərbaycan", nömrə 22***

***Urmiyədən.***

*(Azərbaycanlını səadət) və xoşbəxtliyə doğru aparan Azərbaycan Demokrat Firqəsinin birinci konqrəsini səmimi qəlb ilə təbrik edirik.*

***Ürmiyə cavanlar təşkilatı – Burhani. "Azərbaycan" nömrə 1-23***

***Makudan.***

*Azərbaycan Demokrat Firqəsinə! Azərbaycan Demokrat Firqəsinin birinci konqrəsini təbrik etməklə ümüdvarıq, böyük əzəmətli iclas Azərbaycan xoşbəxtliyi üçün ən mühüm qərarlar çıxarıb, onları icra etməklə, Azərbaycan millətinin səadətini fərahəm edəcəkdir.*

*Yaşasın Azərbaycan və onun Demokrat Firqəsi.*

***Maku tacirləri tərəfindən - Hacı Məmmədzadə, Hacı Əsədulla, Məşədi Əzizxani, Hacızadə. "Azərbaycan" nömrə 23***

.

Birinci konqramız təşkilat sahəsində firqəmizin gördüyü ən mühüm tarixi işlərdəndir. Bu vasitə ilə biz əvvəla rəsmən təşkilatımıza mülhəq olan Hizbi-Tudeyi-İran və sair sazimanları tamamilə mənimsəyib, bütün Azərbaycanda vahid və siyasi bir firqə vücudə gətirdik. Ikinci şəhrivər elamiyəsi üzrə başladığımız təbliğat və intişaratdan ibarət olan söz və şüarlarımıza rəsmi və qanuni şəkil verib, bu vasitə ilə firqənin məramnaməsini vücudə gətirdik. Üçüncü bu vaxtadək yarı müstəqil, yarı siyasi firqələrin rəhbərliyi altında çalışan kargərlər ittihadiyyələri cavanlar və xanımlar təşkilatını tamamilə firqə rəhbərliyi altına çəkməyə bütün Azərbaycanda vahid bir milli cəbhə yaratmağa müvəffəq olduq.

Konqrənin qiymətli işlərindən birisi bütün yaşlı bəlli azadixahları bu vasitə ilə bir-birilə tanış olmalı, vahid bir şüar altında çalışmağa söz vermələri idi. O vaxtadək Azərbaycanda

konqres və yığıncaqlar çox olmuşdu. Bəli onların hamısı əyalət namına təşkil olduqlarından ciddi təsmimlər tutmamağa məcbur olmuşdular. Çünki əsas və prinsipial məsələləri həll etmək əyalət konfranslarının səlahiyyətindən xaric idi. Ha bu ki, bizim konqrəmiz tamamilə müstəqil, sərbəst və əsas məsələləri müzakirə və həll etmək üçün ən ali bir mərkəz hesab olunurdu.

Konqrəmizin gördüyü işlər əsasən Azərbaycanda təzə idi. Çünki bu konqrə vasitəsilə birinci dəfə olaraq, azərbaycanlı bir millət kimi izhari-vücud edib, siyasi bir vahid kimi işə başlamış bu vasitə ilə bütün xalqın tək-təki bir el, bir ailə təşkil etdiyi meydana çıxmışdı. Konqrənin qərarlarının başlıca, əlbəttə, firqəmizin proqramından ibarət idi. Onu müzakirə və təsvib edərkən, cələsə fövqüladə aktiv, fövqüladə hərarət kəsb etmişdi. Xüsusən torpaq məsələsi üzərində davam edən mübahisələr nümayəndələrin boyunlarına götürdükləri ağır vəzifəni və layihəni düşündüklərini aşkara çıxartdı. Xalisə yerləninin və belə də Azərbaycan xalqının milli azadlığına müxalifət göstərən mülkədarların yerlərini əvəzsiz olaraq əhali arasında bölünməsi məsələsi şiddətli danışıq və ciddi müzakirəyə səbəb oldu.

Bu məsələdə əsas etibarilə müxalifət yox idi. Məsələnin məramnaməmizdə yazıldığı şəkildə qeyd edilməsinə müxaləfət göstərənlər ancaq onun qeyri-adilanə olub, kəndli arasında nifaq saxlamasına irad edirdilər. Bunlar deyirdilər, əgər bölmək lazımsa, hamı yerlərə aid olmalıdır. Əgər lazım gəlsə, xalisə və xalq düşmənlərinin yerlərini kəndlilərə ucuz qiymətlə satmaq lazımdır ki, kəndlinin biri müftə (pulsuz) yer aldığı halda, digəri əli boş qalmasın. Biz əvvəla yeri kəndliyə satmaq sözünü konqrədə qəbul edə bilmirdik. Çünki kəndlinin belə müamiləni (alış-verişi) əncam verməyə pulu yox idi. Ikincisi beləliklə (o kənara) qoyulmuş olurdu. Bundan sonra kəndli heç vaxt eləyə bilməzdi. Məccani (pulsuz) olaraq, (torpağı)  öz əlinə keçirsin, bütün kəndlilərin yeri əvəzsiz bölmək şüarı isə ortabab kəndli və xırda maliki bizim əleyhimizə təhrik edə bilərdi. Bu vasitə

ilə bizi şəxsi malikiyyətə müxalif olmaqda ittihamçıların əlinə bəhanə verərdi.

Onsuz da düşmənlərimiz bizi kommunist adlandırmaqla əksəriyyət xırda burjuadan ibarət olan xalqımızı qorxudub, əleyhimizə təhrik edirdilər. Biz o gün torpaqların hamısını kəndli arasında əvəzsiz bölmək şüarı ilə xətəri təqviyət etmiş olacaq idik.

Həqiqət halda bizim firqəmiz Kommunist firqəsi deyildi. Biz Azərbaycanda olan şərait daxilində xüsusi mülkiyyəti ləvğ edə bilməzdik. Hizbi-Tudənin böyük iştibahını təkrar etmək bizə yaramazdı. Biz eləyə bilməzdik milli bir firqə olduğumuz halda birinci qədəmdə təbəqati mübarizəni alovlandıraq. Bizim o günkü hədəfimiz Azərbaycanda fəqət milli demokratik bir rejim vücudu gətirmək və dərəbəylik rejiminin rişəsini ortadan qaldırmmaq, xalqı müasir mütərəqqi yola çəkməkdən ibarət idi. Ona görə Kommunist və ya sosyalist adını üstümüzə qoya bilməzdik. Bu bir növ hoqqabazlıq olardı. Mütəəssifanə İranda bu kimi hoqqabazlıqlar adət şəkil aldığına görə xalq ad və ünvana heç də əhəmiyyət vermirdi.

Böyük adları ləkkədar etməkdənsə, təşkilatımız olduğu kimi adlandırmaq daha faydalı idi. Biz bilib, düşünərək, demokrat adını qəbul etmişdik. Çünki bizim fəaliyyətimiz və şüarlarımız fəqət milli demokratik çərçivəsində olduqda, müvəffəqiyyət qazana bilərdik.

Yer bölgüsü və malikiyyəti ləğv etmək məsələsi Azərbaycan və İranın o günkü şəraitində mümkün olan işlərdən deyildi. Bundan ötrü xalq məxsusən kəndli hənuz layiqincə hazırlanmamışdı. Doğrudur, Azərbaycanda torpağın ən mühüm hissəsi maliklərin ixtiyarındadır. Bununla belə yüz minlərə yaxın xırda malik və öz torpağlı kəndliləri də (narahat) eləmək olmazdı. Yeganə yaşayış vəsiləsi olan torpaqdan məhrum etmək ona görə biz məramnaməmizdə məxsusən xüsusi malikiyyəti pozmayıb ona saxlamağı qeyd etmişdik və ona konqrədə müzakirə etməyə çalışırdıq.

Xalisə yerlərinin təqsimi (bölmək) təzə bir mövzu deyildir. Bu mövzuda İran mətbuatında vaxtilə uzun-uzadı mübahisə olunmuş Rza xan dövründə məclis üzvləri və nüfuzlu dövlət məmurları bu bəhanə ilə dövlət yerlərinin mühum bir hissəsini öz əllərinə keçirmişdilər.

Misal üçün hələ milli nehzətimizdən əvvəl "Ajar" ruznaməsinin iyun ayının 14-ü 1943-cü il 19-cu nömrəsində yazdığımız məqaləni burada nəql edirik.

***Çapğınçılığa son qoyun***

*"Azadixah dəstələr və milli Hizblərin proqramlarının maddələrindən xalisə yerlər mövzuun həll etməsi idi.*

*Bəzilərinin əqidəsinə bu mülklər əvəzsiz olaraq əkinçilərin ixtiyarında qoyulması idi ki, bu vəsilə ilə mali qüdrətin ən əsaslı payələrindən biri olan ölkənin azadlığı və əkinçiliyin tərəqqisi uğrunda ciddi və böyük addımlar gütörölsön.*

*Bəziləri də deyirlər yaxşısı budur ki, fəlahət bankı vasitəsilə kəndlilərə borc verilsin və onlar alınmış mülkü bankında girov qoyub, tədric ilə (yavaş-yavaş) öz borclarını təsviyə etsinlər (ödəsinlər).*

*Alınan xəbərlərə görə diktatorluq dövrünün çapğınçıları bu çətin mövzunu çox asan və sadə yol ilə həll edərək, əkinçilərə kömək etmək adı altında bir qanun keçirib və təqribən hamısını öz aralarında bölmüşlər.*

*Ağayi İslamın iki gün əvvəl dediyi sözlərdə və habelə ruznamələrdə nəşr olunan elanlardan məlum olur ki, hələ də keçmiş siyasəti təqib edərək böyük və neçə milyon reallıq olan mülkləri müzaidəyə qoyaraq satırlar.*

*Neçə gün əvvəl Ağayi Behmamın imzası ilə Savcila, Qızıl hasar kəndini və Ramin Təğan Xalisəsini cəmiən 28.830.000 riyal məbləğinə müzaidəyə (satışa) qoyulmuşdur. Ağayi Bilit isə son dərəcə qane idi."*

Yuxarıdakı tövzihata nəzərən konqrəmizin yer mövzuunda qəbul etdiyi qərarını bir məsələnin meydana atılması deyildi. Ona görə düşmənlərimiz onu əleyhmizə bəhanə düzəldə bilməyəcəkdilər.

Xalq düşmənlərinin yerlərinin kəndli arasında bölünməsi də elə mühüm nəzərə gəlmirdi. Çünki maliklər bunun siyasi bir tədbir olduğunu və bu vasitəilə siyasi müxaliflərimizin qarşısını almaq istədiyimizi hiss edirdilər. Əsasən ona görə də Azərbaycanı tərk edib, xalq arasında gedənlər əleyhinə şədid bir nifrət hissi oyanmışdır. Xalq onların Azərbaycanı soyub, aparıb, Tehranda xərcləmələrinə yaxşı baxmırdı. Ona görə bizim onların yerlərini əvəzsiz olaraq kəndli arasında bölmək şüarımızla xalqın çoxdan arzuladığı işlərdən biri idi. Topraq məsələsi kəndli və ərbab arasından olan ixtilafatın saziş yolu ilə həll edilməsi şəhər camaatın kənd ilə əlaqəsi olan qiməti üçün həyati bir məsələ olsa da, məramnaməmizin əsas hədəfi bundan ibarət deyildi.. o isə azərbaycanlıların bir millət olaraq, tanınması və muxtariyyət məsələsi hesab olunur.

Istər Azərbaycanın daxilində, istərsə bu məsələnin hay-küyə səbəb olacağını əvvəldən bilirdik. Çünki Azərbaycan xüsusiyyəti, dili və adab və rüsumu çoxdan bəri mərkəzi hökumət başında duran mürtəceləri və fars mütəəsib millətçilərini qorxuya salmışdı. Yalan nəzakətməablıqla (nəzakət üzündən) örtülüb, bastırılan milli məsələni siyasi firqə məramında bir arzu, bir hədəf kimi göstərilməsi təbiidir ki, məmləkəti idarə etməkdən aciz olan müstəbidləri vəhşətə salıb, onları bizim əleyhimizə fəaliyyətə girişməyə vadar etməli idi. Bunu biz əvvəldən anlayıb, onun əhəmiyyətini layiqincə dərk etmişdik. Məclisdə demişdilər ki, xalisədən daha bir zad (şey) qalmamışdı. Onların özlərinin yerlər xüsusunda xüsusi nəzərləri vardır. Onların nəzərilə bizim işimiz yoxdur. Bir müddət əvvəl məclisə bir layihə gətirib dedilər biz bir iş görmək istəyirik ki, ərbablıq yerlərinin əkinçiləri mürur ilə (zaman keçdikcə) kiçik bir mülk əldə edib bu vəsilə ilə ölkənin abadlığından onlar da

bir nəfər malik olsunlar. Lakin bu layihənin isə başqa layihələr kimi komisiyon rəisinin mizinin kəşovindən (siyirtmədən) nə vaxt və hansı şəkil ilə eşiyə gələcəyi məlum olmadı.

Əgər dövlətin ürəyi ölkənin rəiyyətlərinin halına yanarsa, nə üçün xalisə yerlər küllən və cüzən şəhərli ünsürlərin ixtiyarına qoyulub, bu vəsilə ilə yeni böyük ərbablarin ortaya çıxmasına səbəb olmuşdu. Bugün və Sabah (Emruz Fərda) ruznaməsi 20-ci nömrəsindən 29-cu nömrəsinə qədər bir para heyrət gətirən nəcumi rəqəmlər intişar vermişdi ki, bizim əqidəmizcə ölkənin başçıları onu diqqətlə oxumalı və əsaslı tədbirlərin fikrində olmalı və bu böyük günahı məntiqi və kəskin tədbirlərlə cübran etməli (əvəzinə ödəməli) idilər.

O böyük cədvəldən qiymətinin hamısını bir necə milyondan artıq olan bir neçə rəqəm burada qeyd edirik

| **Kəndin adı** | **Mülkün adı** | **Alanın adı** | **Qiyməti riyal** | **Qeyd** |
|---|---|---|---|---|
| Əşrəfəviyə | Gəlin kəndisi | Doktor Hadı Atabay | 19995000 | Rza şahın qızı-nın əri. |
| Əşrəfiyyə | Xanlıq | Əşrəf Pəhləvi | 1999660 | Rza şahın qızı |
| Əşrəfiyyə | Qəlanu | Əli Qəvam | 87000 | Məşhur Qəvamül-mülk Şirazı Rza xanın qızının əri. |
| Şəhriyar | Hesar Təhmasib | Banumülük Xudayar | | |
| Şəhriyar | | Məhin Xudayar | 493200 | Məşhur sərləş-kər Xudayarın familindəndir |
| Şəhriyar | Mərdabad | Mələkə Pəhləvi | 2626347 | |

| | | | |
|---|---|---|---|
| Sərcilaf | | | 832290 |
| Sərcilaf | Firuzabad Gərciyan | Loğman Nəfisi və Hüseyn Amili | 3700870 |
| Sərcilaf | Qasımabad | Hüseyn Nəfisi | |
| Sərcilaf | Kazımabad | Doktor Müəddəb Nəfisi | 466666 |
| Sərcilaf | Abbasabad | Əbdülhüseyn | 135135995 |
| Sərcilaf | | Hüseynəli Kazımi | 411111 |

Aya burada nümunə üçün xərvardan qeyd etdiyimiz bir (sığma ovuc) böyük çapğınçılıq

deyilmi? Istibdad süqutu ilə bu ev yıxan siyasətə son qoymaq lazım deyildimi? Aya, məclisdəkilər kabinəbazlıq və düstürdan əvvəlki inciliklərinin yerinə bu kimi mühüm və ictimai işlərə təvəccüh edib, diktatorluq dövrünün nüfuzlu adamlarının çapqınçılıqlarının, qarətkarlarının qarşısını almaqla yaxşı olmazdı? Doğrudan bu yüksək məqamə malik olan xanımlar fəlahət işlərinə nə üçün dəxalət edirdilər. Bunların yer, toxum, rəiyyətlə nə işləri vardır. Doktor Müəddəb Nəfisi nə vaxtdan bəri rəiyyət və əkinçi olmuşdur. Əla həzrət Məhəmmədrza Pəhləvinin Mərdabadda nə işi var və Banu Əşrəf Pəhləvi xanlığı neyləyəcəkdir.

Banu Məhin Xudayar, Məlik Xudayar, Banu (Bətul) Ədl, Banu Əfsər Züheyri İslami, Banu Nasir və başqaları hörmətli banuları kim əkinçilər sırasında hesaba gətirib, dövlət mülklərini onlara satmışdır.

Doktor Hadı Atabay birdən-birə nə cür rəiyyət oldu. Məmməd Həsən Bəyatın Qavi-Ahənlə (xişlə) nə münasibəti vardır. Əhməd Ədl Diba, Əhməd Müctəhid və başqa şəhərli ağalar özlərin nəcür əkinçilərin yerinə hesaba qoymuşduıar.

Doğrudan da qeyd olunan rəqəmlər və adlar çox utandırıcıdır. Yaxşısı bu idi ki, dövlət bu qələt (səhv) üsula idamə vermək əvəzinə onun səbəblərini mühakiməmizin qarşısında çəkib şəhər və kəndli çarəsiz bədbəxtlərinin intiqamını onlardan alardı. Tezliklə dövlət işçilərini nəzarət və təftiş etmək qanununu yerinə yetirəydi. Beləliklə bu yolların haradan və hansı vəsilə ilə bu adamların əlinə düşüb, onlarda toplanması və habelə ümum mülk və yerlərin əkinçilərə verilmək əvəzində bu şəhərli adamların əlinə verilməsinə səbəb olan adamları zahirə çıxartdı.

Yox, bunlar dözülməzdi. Dövlət lap tez bir zamanda məclisə yeni bir layihə gətirib və qabaqki dövrdə güc və hiylə ilə dövlətin çəngindən çıxarılmış mülklərin ona varid olan xəsarətlərlə bərabər, geri almalıdır.

Iranın abad kəndlərindən ibarət olan bu yerləri təqribən əlli-altmış nəfərin arasında bölündüyünü isbat etmək üçün "Emruz Fərda" ruznaməsi rəsmi sənəd və mədrək (sənəd) toplayıb, intişar verməyə müvəffəq olmuşdu. Qəzetin intişar verdiyi adların arasında Rzaxanın arvadları, qızları və uşaqlarının adı birinci yer tutur. Ondan sonra Şüpəhbud (general mayor) Əhmədi sərləşkər Xudayarxan kimi ərşəd əfsərlər (yüksək dərəcəli zabitlər) sonra da adı sırada qeyd edilirdi. Deməк, Rzaxandan qabaq İranda nəzəri cəlb edə bilən dövlət yerləri onun səltənətinin axır dövrlərində çox məhdud bir vəziyyətə düşüb ortadan getməkdə idi. Yerlərin çoxusu şahın şəxsən öz ixtiyarına keçmişdi. Onu çox açıq hoqqabazlıq (fırıldaqçılıq) yolu ilə əldə etmişdilər. Rzaxan yerlərdə olan böyük feodal və malikləri siyasi ittihamla töhmətləndirib, onların yerlərini çox ucuz qiymətlə almış, əvəzində onlara başqa vilayətlərdə dövlət yerlərindən verməklə bütün İranın münbüt yerlərini ələ keçirmişdi. Məsələn, Xəlic Fars (fars körfəzi) sahilində yaşayan Çag qutahirələrə Azərbaycanın alan Biraşuq nahisində Qəvam Şiraziya Təbrizin yaxınlığında olan (torpaq) və sair xalisə mülklərində yer vermişdir.

Konqrənin işi xatəma tapdıqdan sonra mərkəzi komitənin birinci ümumi yığıncağı toplanıb cari şəkildə idarə etmək üçün 9 nəfərlik bir heyət intixab etdi. Müəssislər konfransında olduğu kimi firqənin sədaəti konqrə tərəfindən mənə mühəvvəl oldu. Beləliklə hər zaman iftixar etdiyim böyük və məsuliyyətli vəzifəni ifa edərək, konqrənin tapşırıqlarını həyata keçirmək üçün hərəkata başçılıq etməyi başladım.

Iş fövqüladə ağır, vəzifə fövqüladə böyük idi. Bunula xalqın ruhundan xalqa şədid mübarizə hissi məndə başqa firqə üzvləri kimi, hər növ fədakarlığa hazır olmağa vadar edir. Arxada böyük qüdrət duyaraq hətta özüm iftixar etdiyim firqənin fədakar üzvləri ilə əl-ələ verib çalışmağa başladım. (Sərhəng (polkovnik) Vərəhram, sərhəng Zəngənə və qeyriləri) də dərk edirlər. Lakin işin sürəti o qədər şədid və xalqın ehsasatı o qədər qüvvətli və firqə rəhbərliyi o qədər mətin və bordbaranə (səbirli) idi ki, onlar öz başlarını itirib, nə edəcəklərini və hansı yoldan varid ola biləcəklərini təyin etməyə imkan tapa bilmirdilər. Liqvan hadisəsi və nəticəsiz mitinqlər və yersiz gurultulu şüarlala xalqı vahiməyə salmış Tudə təşkilatının meydandan çıxarılıb, onun əvəzində bütün təbəqələri özünün milli bayrağı altına dəvət edən bir firqəyə nisbət xətti-hərəkət təyin etmək elə də asan bir iş deyildi. Əgər bizim milli şüarımız olmasaydı, şayəd onlar bu tezliklə bizimlə mübarizə etmək xiyalına düşməzdilər. Necə ki, yuxarıda dedik iş çox səri və diqqətlə irəli gedirdi. Irticanın bizim milli muxtariyyət şüarlarımızdan başğa əleyhimizə təbliğ edilməsindən başqa bir bəhanəsi yox idi. Biz Hizbi-Tudə metodundan əl çəkib, tamamilə mitinqlər və çıxışlar əvəzində təşkilata və işə əhəmiyyət verdiyimiz üçün onların bəhanələrinin yolunu kəsməyə müvəffəq olmuşduq. Konqrənin təşkili və onun müzakirəsinin intişarı özü-özülüyündə böyük təbliğat vəsiləsi idi ki, xalq onun iradəsində əmniyyət dava edən konqrə böyük müvəffəqiyyətlə xatəmə tapıb, hiss etdikdən daha artıq təhti-təsirə düşür və ondan tərəfdarlıq

edirdi. Nəhayət üç gün fərax (geniş) bir dəfəlik mərkəzi komitə intixab edərək, nehzəti idarə etməyi ona mühəvvəl etdi. Özlərinin mövcüdiyyətlərini siyasi və ictimai cəhətdən irəli getdiklərini sübuta yetirdilər.

Bunu da etiraf etmək lazımdır ki, proqramımızın layihəsi çox təcil ilə yazılıb, təhiyyə edilmişdi.

Biz onu konqrəyə təqdim edərkən, çox dərin mütaliə edə bilmişdik. Bununla belə xalqı təşkil etmək onun arzu və əməllərini müəyyən şüarlar içərisində hallandırıb, meydana atmaq məqsədilə yazılan bu proqram demək olar ki, çox dərin fikirlər, mənalı sözlər və həyatı məsələlərlə dolduruduğu nəzəri cəlb etmək idi.

Kəndli məsələsi, fəhlələrlə, ərbablar arasında çıxan ixtilaf maarif-mədəniyyət, səhiyyə, bilaxirə ictimai və siyasi məsələlərin hamısını qeyd etməklə xalq siyasətinin hər sahəsinə aid əməli və ciddi tədbirlər və tapşırıqlar irəli sürməklə iddia edə bilərik, camiədə bir proqram yarada bilmişdik.

Layihəmiz ətrafında konqrəyə məlumat verirkən nümayəndələrin fövqüladə maraqlandığı Firdovsi mədrəsəsinin salonunu bürümüş sükutdan nümayəndələr danışarkən, onların ləhnindən dərk edilirdi. Istər konqrənin riyasət heyəti istərsə salonu dolduran nümayəndələr məsələlərə çox ciddi yanaşıb, onların müzakirəsində çox diqqətlə iştirak edirdilər. Konqrəni seyr edən bitərəf əşxas, onun həqiqətən millətin sərneveştini, mülkiyyətin müqəddəratını təyin etmək kimi böyük bir vəzifə ilə məşqul olduğunu təsdiq edirdilər.

Konqrə həqiqi bir iş ilə məşqul idi. Bunu bütün xalq dərk etməyə başlamışdı. O günlərdə daha ciddiyyətlə azadlıq əleyhinə hazırlaşan irticai jandarm rəisləri, polis başçıları və qoşun dəstgahı azadlığı boğmaq işində müdaxilə etməyə çalışan qoşun əfsərlərin gedişinin mühüm təsiri oldu.

Müstəbidlər və faşizm əfkarını təbliğ edən mürtəcelər bu nemətdən məhrum edilməlidirlər.

Bu cümlələrlə mühafizəkarlıq, ikiüzlülük və ucuz qiymətlə nüfuz qazanıb, yalan şöhərət kəsb etmək istəyən şəxslərin yolu rüsva edilib, həm demokrat, həm də müstəbid olmaq imkanı ortadan qaldırılmaqla, riyakarlıq və hiyləgərliyə bir dəfəlik son qoyuldu.

Konqramizin ən mühüm, ən inqilabi qədəmlərindən birisi də cins, milliyyət nəzərə almadan bütün Azərbaycanda yaşayanların ictimai və siyasi hüquqdan müsavi (bərabər) olaraq, istifadə etmələri məsələsi idi.

Xüsusən arvadların kişilərlə müsavi olaraq, seçilib və seçə bilmək haqqına malik olmaları cəsur və eyni zamanda mütərəqqi bir qədəm idi.

Konqrəmiz bu məsələni meydana atmaqla uzun müddətdən bəri azadlıq yolunda mübarizə edən iranlı xanımların arzusunu təmin etməklə böyük və ciddi bir işə iqdam etdi. Ayrı mövqedə və ayrı şəraitdə olsaydı, məsələnin bu şəkildə qoyulması ruhanilər arasında böyük hay-küyə səbəb ola bilərdi. Lakin firaəmizin sədaqət və doğruluğuna inanan xalq və ruhanilərimiz bu məsələyə çox sadə yanaşıb, onu təbii bir iş hesab edərək, qəbul etdi. Bu əməldə sabit oldu ki, düzgünlük və qərəzsizlik üzərində bina olan iş heç vaxt sui-fahmə (bədbinlik) səbəb olmaz.

Biz konqrəmizin tapşırdığı bu məsələni Milli Məclis və şəhrdarlıq (bələdiyyə) seçkilərində həyata keçərkən heç bir müşkülata təsadüf etmədik. Minlərcə azərbaycanlı xanımlar seçkilərdə iştirak etməklə, fərd və cəmiyyətin keyfi istədiyi kimi hərəkət edib. Bu isə adət üzrə təbii və adi bir məsələdir ki, öz növbəsində camiət (ictimaiyyət) tərəfindən nüfuz, qüdrət və bacarıq sayılır, kimsə də ona etiraz edə bilməz.

Buna görə fərd azadlığını meydana atmaqla biz məzlum xalqın ürəyini sıxıb ruhuna əzab verən bir cərahətə niştər vurmuş olduq.

İranda irtica namına geniş dairə və gürultulu bir şəkildə danışıq meydana çıxdığı halda, əmələn bir iş görülmədiyi

hamıya məlum idi. Hər bir sahədə olduğu kimi ictimaiyyət də bir iddə macəracu, yalançı və xudpəsənd adamların inhisarında (monopol) bağlı olmaqda idi. Bunu nəzərə alaraq, firqə konfrənsi işə əməli cəhətdən yanaşıb, xalqa həqiqi rəhbərlik etmək məqsədi ilə bu məsələni yenidən ciddi surətdə qabağa çəkib, proqramımızın əsasına daxil edib beşinci maddədə:

"Xalqa söz azadlığı, vicdan azadlığı, mətbuat azadlığı, ictima və təşkilat azadlığı verilməlidir tələbini irəli sürürdü".

Bunların demokratlıq iddiasında olan bütün siyasi firqələrin məramnamələrində təkrar edilməsinə baxmayaraq, o gün ciddi surətdə dedikləri mövqeyi icrayə qoyan bir firqə məramnaməsində hərarətli qeyd edilməsi, nehzətimizin tam mənasilə demokratik əsaslara dayandığını isbat edən dəlillərdən ən möhkəmi hesab olunmalıdır.

Həmin demokratik şüarları əmələn təmin etmək üçün konqrə bir qədəm daha irəli qoyaraq irticai əfkar və faşizm təfəkkurun ciddi surətdə cilovgirlik olunması, firqənin siyasətini aydınlaşdırmadı. Həmin beşinci maddəyə əlavə olunan bu cümlələrin nehzətimizin pişrəftinə məramnamə-mizdə çox mühüm demokratik əsasları da pişbinlik (qabaq görənlik) olunmuşdu. Biz milli azadlıq mübarizəsinə qədəm qoyduğumuz halda, insaniyyət pərvərlik, istər dostluq vəzifələrini bir an belə fəramuş etməmişdik. Belə demokratlıq, tərəqqipərvərlik, bəşər dostluğu yolunda milli mübarizə uğrunda apardığımız mübarizədən az mübarizə etmək fikrində olmadığımızı bu mövzuda məramnamədən qeyd etdiyimiz maddələrdən aydın surətdə görmək olar. Məramnaməmizin üçüncü maddəsində belə yazılmışdır.

"Firqəmiz fərd şəxs azadlığının təmin edilməsi insanlıq və həmvətənlik hüququnun müqəddəs əsaslarından sayır. Onun yolunda mübarizə edir.

Nəzərə sadə və təbii gələn yuxarıdakı cümlələr İranda təzə bir məsələnin araya qoyulması idi. Burada fərd azadlığı namına istər məşrutiyyətdən qabaq, istər isə əsrimizdə heç bir ciddi

qədəm götürülməmişdir. Insanların həyatı bir iddə zalım və qaniçənlərin, kefçəkən adamların əlinə tapşırılmışdı. Hələ İranda indi də məhdud bir dəstədən başqa heç bir fərd üçün azadlıq yoxdur. Haqq qəvinin (güclü) sözüdür, burada tam mənasilə hökm sürməkdədir. Hər kəs özündən aşağı və özündən daha zəif azadixahlıq adını ləkkədar edən (ləkələyən) adamlar idi. Azərbaycan fəqət milli xüsusiyyətləri hifz etdiyi vaxt İran xalqının səngəri ola bilərdi.

Hər halda biz məramnaməmizin birinci, ikinci maddəsini milli xüsusiyyətimizə, milli azadlığımıza, təxsis (ixtisas) verməklə böyük və cəsuranə (cəsarətli) bir qədəm götürmüş olduq. Konqrəmizdə bu maddələri çox şədid ehsalata qəbul etməklə Azərbaycanda milli həyatın, milli arzuların nə qədər dərin bir rişəli olduğunu meydana çıxartdı. Məramnaməmizi tamamilə bu qismətə zəminə edəcəyimizə baxmayaraq oxucularımız zehnlərini rövşən etmək məqsədilə onun birinci və ikinci maddəsini burada dərc edirik.

*1. "Azərbaycan Demokrat Firqəsi İranın tamamiyyət və istiqlalını müdafiə etməklə bərabər, Azərbaycanın milli və yerli xüsusiyyətlərini nəzərə alaraq onun iqtisadi-siyasi və milli-mədəni tərəqqisini sürətləndirmək məqsədilə bilatəxir əyalət və şəhər əncümənlərinin intixabına başlanmasını tələb edir".*

*2. "Azərbaycan İran daxilində mədəni-iqtisadi, ticarət-dil və fərhəng cəhətindən məhəlli muxtariyyət və öz həyatını istədiyi kimi qurmaq üçün geniş hüquqlar təhsil etmək firqəmizin ən əsasi vəzifələrindəndir. Yuxarıdakı maddələr bir dəfəlik həqiqətin üstünü örtmüş mühüm pərdəni yırtdı".*

Tez ya gec, bir gün bu məsələnin üstü açılmalı, ortalığa qoyulmalı idi. Tehran mürtəceləri onsuz da Azərbaycanlıya yabançı gözlə baxıb, onun dilini ortadan aparmaq, onun millətini məhv etmək, onun iqtisad və ticarət yollarını bağlayıb, onu tərəqqi karvanından geri qoymaqdan əl çəkməyəcəkdilər. Onsuz da onlar bir gün azərbaycanlının ayılıb, öz haqqını tələb edəcəyini onun qarşısını almaq üçün ümdə olaraq namərdanə

hərəkətlərində davam edir. Maddi və mənəvi vasitələrlə öz siyasətlərini icra etməkdən geri dönmürdülər. Azərbaycan məktəblərində azərbaycanca danışmağın qadağan ediməsi, Azərbaycan dilində teatr nümayişlərə yol verilməməsi, Azərbaycan şəhərlərini və coğrafi mahallarını, çaylar və dağların adlarının farslaşdırılması və qeyriləri onların mübarizəni başladıqlarını aydın surətdə isbat etməkdə idi. Açı çay Təlxərud, Qizıl Üzün Sorxrud, Qaflankühun Savücbulaqın Mahabad, Urmiyənin Rizayi, Səlmasın Şahpur adlanması təsadüfi deyildir. Rza xanın Azərbaycanı 3-cü Üstan və 4-cü Üstan adilə iki əyalətə bölməsi də havavü-həvəs üzərindən irəli gəlməmişdi. Bunların altında şeytani bir nəqşə gizlənmişdi, ki o da azərbaycanlının dilini dəyişdirib, birliyi və millətini ortadan aparmaqdan ibarət idi. Tehran və irticai dövlət başçıları ciddiyyətlə işə girşdikləri halda, biz məsələni əşkar surətdə meydana qoymamağımız böyük və tarixi bir iştibah ola bilərdi. Azərbaycanın İran azadlığı tarixində oynadığı mühüm rolu hətta mütəəssib farslarda inkar etmirdilər. Bu rolu həmişə ifa etməyə qadir omaq üçün Azərbaycanın pozulması, onun dilinin dəyişdirib, millətinin məh edilməsini irəli sürənlər və ya onun azadixahlıq adını ləkkədar edən adamlar idI. Azərbaycan fəqəd milli xüsusiyyətlərini hifz etdiyi vaxt İran xalqının azadlıq səngəri ola bilərdi. Hər halda biz məramnaməmizin birinci, ikinci maddəsini milli xüsusiyyəttimizə, milli azadlığımız, milli muxtariyyatımıza təxsis verməklə, böyük və cəsuranə bir qədəm götürmüş olduq. Konqrəmiz bu maddələri çox şədid ehsasat ilə qəbul etməklə Azərbaycanda milli hissiyatın, milli arzuların nə qədər dərin və nə əndazədə rişəli olduğunu meydana çıxartdı. Məramnaməmizi tamamilə bu qismətə zəmimə edəcəyimizə baxmayaraq oxucularımızın zehnlərini rövşən etmək məqsədilə onun birinci ikinci maddəsini burada dərc edirik.

*1. Azərbaycan Demokrat Firqəsi İranın tamamiyyət və istiqlalını müdafiə etməklə bərabər, Azərbaycanın milli və yerli*

*xüsusiyyyətlərini nəzərə alaraq, onun iqtisadi siyasi-milli və mədəni tərəqqisini sürətləndirmək məqsədilə bilatəxir əyalət və şəhər əncümənlərinin intixabına başlanmasını tələb edir.*

*2. Azərbaycana İran daxilində mədəni iqtisadi ticarət dil və fərhəng cəhətdən milli muxtariyyət və öz həyatını istədiyi kimi qurmaq üçün geniş hüquqlar təhsil etmək firqəmizin ən əsaslı vəzifələrindəndir.*

Yuxarıdakı maddələr bir dəfəlik həqiqətin üstünü örtümüş mühüm pərdəni yırtdı. Azərbaycan xalqı firqəmizin şəxsində özünün həqiqi başçısı və mərkəzi-səqlini tapmış oldu. Tehranın səssiz-sədasız apardığı mürtəceyanə siyasət tamamilə aşkara çıxdı. və Onun şədid bir əksül-əmələ təsadüf etdiyi dünyaya elam edildi. Nəticədə 12 Şəhrivər Müraciətnaməsi daha möhkəm zəminə üzərində qərar tutub, milli hədəf şəkli aldı. Azərbaycanlı öz milli firqəsi vasitəsilə milli azadlıq yoluna qədəm qoyub, işə başladı.

Məramnaməmizdə çox mühüm demokratik əsaslar da peşbinlik olunmuş idi. Biz milli azadlıq mübarizəsinə qədəm qoyduğumuz halda, insaniyyətpərvərlik və bəşər dostluğu vəzifələrini bir an fəramuş etməmişdik. Belə demokratlıq tərəqqipərvərlik bəşər dostluğu yolunda milli mübarizə uğrunda apardığımız mübarizədən az mübarizə etmək fikrində olmadığımızı bu mövzuda məramnaməzizdə qeyd etdiyimiz maddələrdə aydın surətdə görmək olar. Məramnaməmizin üçüncü maddəsində belə yazılmışdır.

"Firqəmiz fərd azadlığının təmin edilməsini insanlıq və həmvətənlik hüququnun müqəddəs əsaslarından sayır və onun yolunda mübarizə edir".

Nəzərə sadə və təbii gələn yuxarıdakı cümlələr İranda təzə bir məsələnin araya qoyulması idi. Burada fərgli azadlığı namına istər məşrutədən qabaq, istərsə əsrimizdə heç bir ciddi qədəm götürülməmiş insanların həyata bir iddə zalım və qaniçənlərin keyf mayişəsinə tapşırılmışdı. Hələ indi də məhdud bir dəstədən başqa heç bir fərd üçün azadlıq yoxdur.

Haqq Qəvinin sözüdür burada tam mənasilə hökm sürməkdədir. Hər kəs aşağı və özündən daha zəif {adamın haqqını tapdalamaq istəyir}.

**Azərbaycan Demokrat Firqəsi**

Əsrimizdə vücudə gələn cahanşümül böyük siyasi və ictimai hadisələr göstərdi ki, xalqları əsarət altına alıb onların zəhmətindən sui-istifadə etmədən keçinə bilməyən köhnəlmiş və çürümüş ictimai vəziyyətin məhv olması dövrü gəlib çatmışdır.

Bügün dünyanın xalqları açıqdan-açığa zülüm və fişar zəncirlərini əbədi olaraq qırıb bəşəriyyətin böyük qurbanlar bahasına qazandığı azadlığı hər qiymətə olursa-olsun istəyirlər, ona görə hər yerdə demokratlıq tərəfdarı ilə irtica arasında və o hakimiyyəti saxlamağa can atan bir ovuc zalımlarla, azadlıq istəyən xalqlar arasında qızğın mübarizə gündən-günə şiddətlənir. Bügün ictimai iqtisadi və fərhəng cəhətdən ibtidai halda yaşayan tayfalar və qəbilələr belə hər cür fişar və təzyiqin əleyhinə çıxıb öz həyatlarını müstəqil və azad tərzdə qurmaq istəyirlər.

Müttəfiqlərin və demokratik qüvvələrin beynəlmiləl (beynəlxalq) irtica mərkəzi olan faşist Alman cahangirliyi (dünyanı tutmaq) üzərində qələbə çalması nəinki Avropanın irəlidə gedən xalqları vəhşət və iztirabdan xilas etdi, bəlkə bütün dünyanı, və o cümlədən Şərqin sənaye cəhətdən dalda qalmış zəif ölkələrində yaşayan xalqlarının azad olmaq və demokratik dövlət yaratmaq ümüdünü gücləndirdi. Azərbaycan öz gələcəyinə böyük ümüdlə baxan azad və demokratik həyat yaratmaq üçün hər çür fədakarlığa hazır olan olkələrdən birisidir.

Yüz illərlə xalqımızı əsarət altında saxlamaq siyasətini təqib edən daxili və xarici cinayətkarlar milyonlarca azərbaycanlıların qan tərilə vücuda gətirdikləri sərvətini çəkib,

aparmaqla kifayətlənməyib, onun böyük tarixini qədim mədəniyyətini, ahəngdar dilini, bir sözlə milli varlığını inkar edir. Onu əsarət halında saxlamağa çalışırlar. Lakin xalqımız heç bir zaman düşmənlərinə baş əyməmişdir. O ağır mübarizələrdə öz torpağının şərəfini saxlamağa müvəffəq olub, öz tarixini, dilini və mədəniyyətini hifz etmişdir.

Səttarxan və Şeyx Məhəmməd Xiyabani kimi böyük simalar Azərbaycan xalqının azadlığı uğrunda apardıqları mübarizədə böyük fədakarlıqlar göstərmiş və dünyanı heyrətə salmışdı. Istibdad və irtica əleyhinə mübarizədə Azərbaycan xalqın bütün öz həmvətənlərinə köməklər etmişdir, indi də İranda həqiqi azadlıq, istiqlal və demokrasi üsul-idarə yaratmaq Azərbaycan xalqının ali hədəfidir. O İranda əqəlliyyət (azlıq) təşkil edən bütün xalqların əzcümlə (o cümlədən) kürdlər və ermənilər və qeyrilərinin apardıqları azadlıq hərəkatının pişvalarından sayılır. Iranlıların hamısını birləşdirən və dost edən də bu arzu və amaldır, çünki Rza xan istibdadın zülmü bu xalqların hamısını ayaqdan salmışdır. Bu macəra bir də təkrar olursa, yenə hamı İran xalqını istisnasınasız bir surətdə fəlakətə sövq edəcəkdir.

Rza xan istibdadı Hitlerin faşist əfkar və amalını vətənimizə keçirərək zülm və əsarəti gücləndirdi. Iran daxilində yaşayan azərbaycanlı, kürd, asuri və başqaları doğma ana dilində yazıb oxumaq, yerli idarə və məhkəmələrdən ana dilində istifadə etmək imkanını və qadağan etdi. Nəticədə xalqlar arasında böyük nifaq vücuda gətirdi. Bu istibdad heykəlinin yıxılmasından 4 il keçdiyinə baxmayaraq mürtəce ünsürlər get-gedə həyasızlaşaraq xalqa hücuma keçib, onun demokratik hərəkatını boğmaqdadırlar.

Irtica məmləkətimizin sənaye cəhətdən tərəqqi edib, güclü və qüdrətli olmasını istəmir, onu Nuh əyamından qalma vəziyyətdə saxlamağa cəhd edir. Xüsusən xalqımızın tərəqqi çarxına geri dönmək istəyən bu mürtəceanə siyasət əleyhinə ciddən qiyam etməlidir.

Bütün İran xalqlarının ümumi arzularından başqa Azərbaycanın bir çox yerli xüsusiyyətləri də vardır ki, xalqımızı böyük siyasi iqtisadi və mədəni xüsusiyyətlərə malikdir. Biz var qüvvətimizlə isbat etməliyik ki, vətənimizin taleyi və müqəddəratını güc və iradəmizlə təyin etməliyik. Dünya vəziyyətinin yaratdığı fürsətdən istifadə edib, həyatımızı isə dediyimiz kimi, yəni həqiqi demokrasi üsulu daxilində azad yaşamaq əsası üzrə qurmalıyıq və bu fürsətdən istifadə etmək üçün təbəqə və sinif ayrılığı nəzərdə tutmayıb, hər bir azadixah azərbaycanlının çalışması lazımdır. Bütün Azərbaycanda yaşayan camaat, milliyyət və dil ayrılığını nəzərə almayıb əl-ələ verib, səy və təlaş göstərməlidir. Demokratik və azadlıq idealı yolunda bütün vətəndaşlar vahid bir təbəqə kimi birləşməli və hər cür mübarizəyə hazır olmalıdır.

Azərbaycan İranın ayrı yerləri kimi müasir və mədəni məmləkətlərdən yüz illərlə dalı qalmışdır. əsrimiz maşın, elektrik, elm əsri və böyük sənaye və maşınlarla təhciz olumnmuş sənət və fəlahət əsridir. Biz iftixarla dolu tariximizə layiq olmaq əcdadımızın əzəmət və şöhrətini yenidən canlandırmaq fikrindəyik. Vətənimizi mütərəqqi sənaye və həqiqi bir demokratik öləkəyə çevirməliyik. Yoxsa güclərin əsarəti altından qurtara bilməyib, çox tez bir zamanda məhv ola bilərik.

Siyasi-iqtisadi və mədəni həyatını zamanın təqazasına (istəyinə) görə qura bilməyən və çürümüş köhnə ictimai vəziyyətin məngənəsində əsir qalan bir millət öz istiqlal və azadlığını saxlamağa müvəffəq olub, imperialist dövlətlərin əsarətindən xilas ola bilməz. Bu ictimai və təbiətin pozulmaz qanunlarındandır. Ona görə Azərbaycan Demokrat Firqəsi Azərbaycan sənaye və ticarət və elmi fəlahət cəhətdən tərəqisini həqiqi xalq hakimiyyəti və milli demokratlıq üsulunun qələbəsini zəruri şərtlərdən sayır. Firqəmiz elə bir zamanda işə başlayır ki, bütün dünyada demokratlıq cəbhə

qələbə çaldığı kimi zəif və gücsüz millətlər Atlantik mənşuri (xartiya) əsası üzərində öz həyatlarını istədikləri kimi qurmaq hüququnu əldə etməyə müvəffəq olmuşlar. Milli demokratik bir təşkilat olan Azərbaycan Demokrat Firqəsi İranın və biləxəss (xüsusilə) Azərbaycanın xüsusiyyətlərinə görə özünün ən yaxın vəzifələrini aşağıdakı şəkildə təyin edir.

***Ümumi və siyasi məsələlər***

*1. Azərbaycan Demokrat Firqəsi İranın tamamiyyət və istiqlalını müdafiə etməklə bərabər, Azərbaycan milli və yerli xüsusiyyətlərini nəzərə alaraq, onun iqtisadi, siyasi və milli mədəni tərəqisini surətləndirmək məqsədilə bilatəxir əyalət və şəhər əncumənlərinin intixabına başlanmasını tələb edir.*

*2. Azərbaycan İran daxilində mədəni-iqtisadi-ticarət dil və fərhəng cəhətdən milli muxtariyyat və öz həyatını istədiyi kimi qurmaq üxün geniş hüquqlar təhsil etmək firəqmizin ən əsas vəzifələrindəndir.*

*3. Firqəmiz fərd azadlığının təmin edilməsi və həmvətənlik hüququnun müqəddəs əsaslarından sayır və onun yolunda mübarizə edir.*

*4. Məmləkəti fəlakətə sövq etmiş onun iqtisadi, ictimai və siyasi tənəzzülünə səbəb olub xalqı zülmət və cəhalətdə saxlayan müstəbidlər hakimiyyəti ciddi surətdə məhv edilməlidir.*

*5. Xalqa söz azadlığı, vicdan azadlığı, mətbuat azadlığı və təşkilat azadlığı verilməlidir. Müstəbidlər və faşizm əfkarını təbliğ edən mürtəcelər bu böyük nemətlərdən məhrum edilməlidir.*

*6. Xalqın ümumi rəy verməsi yolu ilə məmləkətin dərdlərini qanan və onun yaralarını sağaltmaq istəyən və buna qadir olan həqiqi xalq demokratik dövləti yaradılmalıdır.*

*7. İstisnasız olmaq, üzrə iyirmi yaşına çatmış bütün kişi və arvadlar intixab etməyə 27-dən 80 yaşına çatanlara intixab*

*olmaq, ixtiyarı verilməlidir. Intixabda təhdid və tənbih kimi xainanə hərəkətlərin qəti surətdə qabağı alınmalıdır. Xalq müstəqil, mütənasib məxfi bir surətdə öz qanuni rəyini bildirmək imkanına malik olmalıdır. Ancaq bu yol ilə həqiqi xalq nümayəndəsi olan millət xadimlərini intixab etmək mümkün ola bilər.*

*Intixabat bütün məmləkətdə təxirsiz olaraq müəyyən və qısa müddətdə əncam tapmalıdır.*

*8. Bütün müttəfiq və demokratik millətlər və xüsusən yaxın qonşumuz olan Şura Cümhuriyyətləri İttifaqı ilə olan səmimi və dostluğumuzu saxlamaq xarici siyasətimizin əsasını təşkil etməlidir.*

*9. Dövlət təşkilatı istibdad və diktatorluq tərəfdarlarından və faşist fikirli adamlardan təmizlənməlidir. Dövlət qulluqçuları, məsələn jandarm və polis məmurlarının qanunsuz və təcavüzkaranə hərəkətlərinə heç vəchilə yol verilməməlidir. Ixtilas (karrupsiya) və rüşvətxorluq tamamilə aradan qaldırılmalıdır.*

***İqtisadi və Ticarət məsələləri haqqında***

*Azərbaycan Demokrat Firqəsi məmləkəti tərəqqi yoluna çıxartmaq və xalqın azadlığını xarici və daxili irticaın təərrüzündən qorumaq üçün vətənimizin iqitisadiyyatının əsaslı surətdə dəyişilməsini və aşağıdakı iqtisadi tədbirlərlə həyata keçirilməsini lazım və vacib bilir.*

*10. Dövrünü keçirib çürümüş iqtisadi üsul ali və müasir iqtisadi ictimai şərt ilə əvəz olunmalıdır. Xalqımız öz milli və ağır sənayeni vücudə gətirib, onu müasir bir hala salmalıdır. Elə tədbir görməlidir ki, çox tez bir zamada ölkəmiz sənaye məhsuluna olan ehtiyacını öz karxanaları vasitəsilə təmin etmək mümkün olsun. Məmləkət düçar olduğu fəqr və fəlakətdən qurtarıb, mütərəqqi və sərvətmənd məmləkətlər rədifinə (sırasına) keçə bilsin.*

*11. Istibdad dövründə aparılan xainanə siyasət nəticəsində Azərbaycanın sərvətləri çəkilib aparılmış və orada nə bir görkəmli karxana, nə bir fabrik, nə də ayrı bir mühüm sənət ocağı vücudə gəlməmişdi. Bunu nəzərə alaraq Azərbaycan Demokrat Firqəsi Azərbaycanda milli sənaye yaradılmasını, fabrik, məktəb və mərizxana (xəstəxana) vücudə gətirib və yollar çəkilməsi üçün vəsilələr vücudə gəlməsini ciddən tələb edir, əyalət və vilayət əncümənələri vasitəislə nail olacağına inanır. Azərbaycanın gəlirinin böyük qismi bu yuxarıdakı tədbirlərlə Azərbaycanın abadlığına sərf edilməlidir.*

*12. Ticarəti hər cür vasitələrlə genişləndirmək və xalqın maddi həyatını yaxşılaşdırmaq üçün işsizlik əleyhinə qəti tədbirlər görülməlidir.*

*Iqtisadi həyatın və ticarət işlərini elə aparmaq lazımdır ki, ümumən tüccar, xüsusən xırda və orta alverçi və əsnaf iqtisadi çətinliyə rast gəlməsin. Bütün məmləkətdə iqtisadi dirlik (inkişaf) canlansın, bütün xalqın maddı həyat şəraiti yaxşılaşsın.*

*13. Pulun qiymətdən düşməsinin qabağını almaq üçün tədbirlər görülməlidir.*

*14. Zəhmətkeş və yoxsulların iştirakı liə (fabriklər) şirkətlər və xırda karxanalar yaratmaq və mövcud dəstgahlar və əl karxanalarına kömək edib onların iflasdan qurtulmalarına himmət sərf etməlidir.*

*15. Sənayein tərəqqisi və təkamülünü surətləndirmək, kargərlərin vəziyyətini yaxşılaşdırmaq məqsədilə aşağıdakı maddələri qanun şəklinə salmaq lazımdır:*

*a) Bütün ölkədə 8 saatlıq iş günü təyin edilməli və əsnafı (sinifləri) işə mütənasib əlavə müzd verilməlidir.*

*b) Fəhlə, qulluqçu və mütəxəssislər üçün ictimai bimə qanunu yaradıb, həyata keçirməlidir.*

*c) 14 yaşına qədər uşaqların işlədiləməsi qadağan edilməlidir. 14 yaşından 18 yaşına qədər olan uşaqlar üçün iş müddəti 7 saatdan artıq olmamalıdır.*

*d) Yetim və ehtiyacı olan işdən çıxarılıb, küçələrdə qalmaması üçün dövlət hesabına xüsusi yetimxanalar açmaq və məktəblərdə yoxsul uşaqlara təhsili davam etdirmək üçün onlara pulsuz paltar və yemək verilməlidir.*

*e) 14 yaşından 18 yaşına qədər olan xüsusi uşaqlar xüsusi sənət məktəbləri açılmalıdır. Burada uşaqlar gündə 4 saat işləməklə, sənət öyrənməli və 4 saat da oxumalıdır.*

*f) Tezliklə xüsusi zəhmət qanunu vəz (təsdiq) edilməlidir.*

*g) Bütün kargərlər və müstəxdimlərin (kadr) hüquqları məhfuz olmaq şərtilə həftədə bir dəfə istirahət günü, azadlıq günləri, milli və dini bayramlarda istirahət və mürəxxəslik (məzuniyyət) verilməli.*

*h) Hamilə arvadalar vəzi-həmlə (doğuş) 1 həftə qalmış vəzi-həmldən 1 həftə sonraya qədər mürəxxəslik verilməlidir. Bütün hüquqları məhfuz olmaq şərtilə.*

*16. Xalqın mənafeini nəzərə almaq şərtilə vergi üsuluna yenidən baxmalı və hər vətəndaşın iqtisadi vəziyyəti və gəlirinə görə vergi təyin edilməsi, qeyri müstəqim vergilər bacardıqca azalmalıdır.*

*17. Göstərilən iqtisadi tədbirləri həyata keçirmək üçün sərmayə ilə Azərbaycan milli bankı təşkil edilməlidir.*

***Fəlahət Haqqında***

*Azərbaycan Demokrat Firqəsi Azərbaycanın kəndlisinin ac, yoxsul hala düşməsinin günahını indiyə qədər kəndlərdə olan feodal (dərəbəylik) üsulunda görür və buna görə firqə hesab edir ki,*

*18. Tez bir zamanda kəndli ilə ərbab münasibətini müəyyən etməkdən ötrü xüsusi qanun vəz edilməlidir. Dövlət yerlərini kəndlilərlə pulsuz olmaq şərtilə paylamaq lazımdır. Həmçinin istibdad dövrünün tərəfdarı olan və Azərbaycanı qoyub, qaçmış iri mülkədarların əmlakı müsadirə olunub, kənlilərin ixtiyarına verilməlidir.*

*19. Kəndlilər fəlahəti canlandırmaq, əkinəcəyi artırmaq məqsədilə uzun müddətli və təzə tənzil ilə borc vermək üçün bank sistemi və şəraitini dəyişdirib, onu ehtiyacı təmin etməyə qadir bir hala salmaq lazımdır.*

*20. Bəzi ərbablar tərəfindən təhmil edilən iş birəhmanə vergilər və götürülməlidir elə şərait yaratmalıdır ki, kəndli öz məhsulu ilə ailəsini idarə edib, insana layiq olan həyatı qura bilsin.*

*21. Fəlahət işini nizama salmaq, zəhmətkeş kəndlinin vəziyyətini yaxşılaşdırmaq üçün kəndlərdə kəndli cəmiyyəti yaratmalıdır. Bu cəmiyyətləri kəndlilərin özləri idarə etməlidir.*

*22. Kəndxudalar kəndlilərin arasından seçilməlidir.*

*23. Fəlahəti müasir elm və sənətin böyük müvəffəqiyyətləri əsasında qurmaq üçün dövlət kəndlilərə traktor və sair fəlahət maşınları ilə kömək etməlidir.*

*24. Jandarm və dövlət qulluqçularının öz məqamlarından sui-istifadə edib, kəndlilərin var-yoxlarını əllərindən almalarına yol verilməməlidir.*

*25. Azərbaycan kəndlisini quraqlıq və suzuluq qorxusundan qurtarmaq üçün dövlət hesabına çeşmələr vücudə gətirib, artezian quyuları qazdırmaq və onlara çaylar və göllərin suyundan lazımınca istifadə etmək imkanı verilməli, bu yollarla fəlahət məhsulunu artırmalı və kəndlinin vəziyyətini yaxşılaşdırmalıdır.*

### *Maarif Haqqında*

*Azərbaycan Demokrat Firqəsi savadsızlıq və cəhalətlə mübarizə etmək üçün xalq maarifi haqqında aşağıdakı vəzifələri irəli sürür:*

*26. Məclisi-Şurayi-Milli tərəfindən təsvib edilən təlimat məccani (pulsuz) və icbarinin (məcburi) səri bir surətdə icrasını tələb edirik.*

*27. Ana dili, milli mədəniyyətin tərəqqisi üçün qüdrətli bir vasitədir. Ona görə də balalarımız bilatəxir istər dövləti və istərsə xüsusi mədrəsələrdə öz ana dilimizdə tədris etməlidir. Bunun üçün bilatəxir dərs kitabları və sair tədris ləvazimatı hazırlamaq lazımdır. Azərbaycanda yaşayan başqa millətlər kürdlər və asurilərin də öz ana dilində mədrəsə açmaq haqq və ixtiyar ilə firqəmiz kamilən müvafiqdir.*

*28. Yaşlıları savadlandırmaq və onlara müəyyən və xüsusi bilik vermək üçün bütün şəhər və kəndlərdə ayrıca məktəblər və sənət evləri açılmışdır. Bu məktəblərdə maddi səhulət və təhsil şəraiti yaratmaq və onları müəllim cəhətdən təmin etmək üçün xüsusi tədbirlər görmək lazımdır.*

*29. Ibtidai məktəbdən tutmuş ali məktəbə qədər bütün dərs kitabları və (tədris) bərnamələrinə (proqramlarına) yenidən baxmalı, istibdad, və zülm təbliğ edən sözlər nə varsa onlardan çıxarılıb, atılması və təzə nəsli demokrası və azadixah ruhda tərbiyə etmək üçün təzə dərs kitabları və bərnamələr yaradılmalıdır.*

*30. Şəhərlərdə və kəndlərdə maarif və elm təşkilatlarının sayı artırılmalı, kitabxanalar, qraətxanalar (oxu zalı) təşkil edilməli. əhali üçün müntəzəm surətdə və pulsuz konfranslar verilməli, elm və fərhəng vasitəsilə xalqımızın ictimai nöqsanlarını aradan aparmaqdan ötrü mübarizəyə cəlb etməlidir. Yeni nəslimizi məhv eləyən tiryəkxanalar, əxlaqsızlıq evləri və qumarxanalar aradan götürülməlidir.bütün bu işlərdən məqsəd xalqın gözünü açmaq, əxlaq və mənəviyyəti yüksəltməyə, onu vətənin istiqlalı və azadlığını saxlamaq və qorumaq üçün ciddi mübarizələrə hazırlamaqdan ibarətdir.*

### *Xalq Səhiyyəsi*

*Xalqın sağlamlığı, onun həyat mübarizəsi üçün mühüm şərtlərdəndir. Buna görə də ümumun səhiyyə qeydinə qalmağı*

*Azərbaycan Demokrat Firqəsi böyük məsələlərdən bilir. O xüsusda aşağıdakı tədbirlərin həyata keçirilməsini tələb edir.*

*31. Mövcud naxoşluqları sağaltmaq kafi deyil. Əmrazın qabağını almaq üçün ciddi tədbirlər görmək lazımdır.*

*32. Küçələrdə, bazarlarda, evlərdə natəmizliyə, cirkaba, pintiliyə yol verilməmək üçün tədbirlər görülməlidir.*

*33. Qızdırma-titrətmə (maleriya) əleyhinə ciddi mübarizə aparmalıdır. Bu kimi mərəzləri törədən səbəblər aradan qaldırılmalıdır. Bataqlıqlar qurudulmalı, bağlar və ağacların sayı artırılmalı.*

*34. Keçəllik, traxoma və sair müri naxoşluqları aradan qaldırmaq üçün dövlət ciddi tədbirlər görməli və bu işə maddi və mənəvi köməklik yetirməlidir.*

*35. Əhaliyə gündəlik həyatında lazım olan məlumatı vermək üçün konfranslar təşkil etməli, radio vasitəsilə xalqı başa salmalı və bu məqsədlə kitabçalar nəşr olunmalıdır.*

*36. Gələcək nəslin tərbiyəsi üçün şəhərlərdə və kəndlərdə körpələr və yaşlı uşaqlara məxsus cəmiyyətlər və dövlət hesabına tərbiyə evləri açılmalıdır.*

***Ədəbiyyat, Incəsənət, Mətbuat***

*37. Xalqın mənəvi, ruhi qidası olan ədəbiyyat və sənaye zərifənin tərəqqisi üçün hər bir şəraiti yaratmaq lazımdır. Bu məqsədlə Təbrizdə Azərbaycan yazıçıları və hünərvərlər cəmiyyəti təşkil olunmalıdır. Bu cəmiyyətlərin Azərbaycanın başqa şəhərlərində və kəndlərində şöbələri olmalıdır.*

*38. Yazıçı və hünər sahiblərinin zəhmət və nizama salan yaradıcılıq hüququnu təmin etmək üçün dövlət büdcəsindən kafi miqdarda kömək təxsis edilməli, hünərvərlərin vücuda gətirdiyi əsərlərdə padaş verilməlidir.*

*39. Nəqqaşlıq, mücəssəməsazlıq və musiqi sahəsində Azərbaycan xalq yaradıcılarının əbədi sənətlərini saxlamaq məqsədilə dövlət tərəfindən müəssisələr və (otelyə) kargahlar*

*vücudə gətirməli və ustadların əlinin altında istedadlı cavanlar sənət öyrənməlidir.*

*40.Azərbaycan dilində kitab nəşrinə mane olan adamlar vətən xaini və xalq düşməni kimi məsuliyyətə alınmalıdır.*

*41.Müəllimlərin, dövlət idarələrində işləyən xırda məmurların maaşını təmin etməlidir.*

*42.Teatrın böyük ictimai tərbiyə ocağı olduğunu nəzərə alaraq, Təbriz və başqa Azərbaycan şəhərlərində olan teatrların məxarici (xərcləri) dövlət tərəfindən təmin edilməlidir.*

***Milli məsələ***

*43. İran məmləkətinin daxilində yaşayan hər bir millətin daxili muxtariyyət və öz müqəddəratı təyin etmək hüququ əyalət və vilayət əncümənləri vasitəsi ilə təmin edilməlidir.*

*44. Azərbaycanlılar kimi xüsusiyyətə malik olan İran xalqları ictimai təşkilatlar və dövlət idarələrində milli dillər manesiz olaraq işlədilməlidir.*

***Mühakimə işləri***

*45. Rza şah dövründə hoqqabazlıq və zorla keçirilmiş bütün irticai qanunlar ləğv edilib, onun əvəzində azadlıq və demokratlığa uyğun qanunlar vəz edilməli, qazilərin istiqlalı qəti surətdə təmin olunmalıdır. Şəhrbani və jandarm məmurlarının ictimai işlərə qarışmalarına ciddi son qoyulmalıdır.*

*46. Məhkəmələr hər cür təziqdən azad olamalı və ancaq ədalət və haqqa arxalanmalı, siyasi və mətbuat məhkəməsi heyyət (münsifə) hüzuru ilə icra ediməlidir. Məhkəmələrdə işlər çox səri bir surətdə əncam verilib, müttəhimləri bilatəklif saxlamaq cürm məhsub olunmalıdır. Məhkəmə və müddəiyül-ümunun rəsmi əmri olmadan hec bir kəsin evinə girib, təftiş*

*etmək olmaz. Şəhrbani və jandarm məznun olduğu əşxas inzibat təriqilə 24 saatdan artıq tovqifdə saxlaya bilməz. Günahsız həbs və toqiflər cərəm hesab olunub, ona mürtəkib olanlar cəzalanmalıdır.*

*47. Keçən cinayyətkarları məhkəməyə cəlb edib və onların 24 illik hesablarına yetişib, cürmləri isbat edilərsə, Forən cəzalanmalıdır.*

***Ərteş (ordu) haqqında***

*48. Ərtəşen islahı və onun demokratik ölkəyə layiq bir ərteş kimi idarə olunan münasib bir vəzə salınması, həmçinin nizam vəzifə qanunu xalq nəfinə dəyişilməsi lazımdır.*

*49. Azərbaycanın tarixi yadigarlarını hefz etmək üçün milli bir muze vücuda gətirmək lazımdır.*

**Irtica Cəbhəsində Fəaliyyət**

Konqrəmizin müvəffəqiyyətlə qurtarıb, firqəmizin münzəm surətdə ikihökümətlik dövrəsi xalqı təşkil etməkdən irəli getməsini görən mürtəcelər sakit oturmayıb istər Azərbaycanda, istərsə Tehranda əleyhimizə ciddi surətdə fəaliyyət göstərməyə başlamışdılar. Bu cərəyanın başında təbii olaraq, Azərbaycan namından hiylə və güclə parlaman kürsülərini işğal edən yalançı nümayəndələr dururdu. Bunlar 15-ci məclis intixabatının yaxınlaşdığını hiss etdiklərinə görə firqəmizin səri surətdə irəli getməsindən bərk vahiməyə düşmüşdülər. Bunlar hiss edirdilər ki, iş belə getsə, heç birisi gələcək dövrdə nümayəndə olaraq Azərbaycana təhmil ola bilməyəcəklər. Azərbaycan xalqının icərisində özlərinə nisbət şiddətlənməkdə olan nifrət və bədbinliyin çox ciddi surətdə hiss etməkdə idilər. Artıq müntəzəm bir firqə möhkəm bir təşkilata malik olan böyük kütləni iğfal edə bilməyəcəkləri onlara aydın idi. Ona görə çalışırdılar ki, iş möhkəmlənib, firqə

kök salmadan əvvəl bizim fəaliyyətimizə xatəmə verib, vəziyyəti qabaqkı şəklə salmaqla, özlərinin gələcək nümayəndəlik yerlərini təmin etsinlər.

Bundan əlavə bütün İran nümayəndələri kimi Azərbaycan nümayəndələri də təba irticai vəziyyəti hifz etməyə əlaqəmənd idilər. Demək olar ki, bunların hamısı böyük malik sinfinə mənsub olduqları üçün özlərini əşraf və əyan hesab edib, xalq üçün haqq həyat qail olmayan adamlar idi. Hətta nümayyəndələrin hamısından lat-lüt olan Sərtibzadə belə demokratlıq sosialistmaablığ iddiası ilə bərabər ürəkdən mürtəce bir adam idi. Əbülhəsən Səqətül-İslami həm rühani və həm də malik olduğu halda, böyük dövlət məmurlarından hesab olunurdu. Bu adam Rzaxan dövründə azərbaycanlılıq namindən və qardaşını azadixahlıq şöhrətindən böyük istifadələr edib həmişə vəkalət və sair dövləti məqamlardan böyük uğur qazanmış bu adam əxlaq və əqidə cəhətdən çox fasid və kəsif ünsürlərdən hesab olunurdu. Onun pul qazanmaq və fırıldaqcılıqdan başqa bir məqsədi olmadığı hamıya məlum idi. Azərbaycan məsələsi isə bu adamların bir tərəfdən zərərinə olduğu halda, digər tərəfdən xeyrinə idi. Çünki bizim nehzətimizin ziddinə onların əlləri Azərbaycandan kəsilir. Onlar üçün azərbaycanlı naminə sui-istifadə imkanını artırırdı. Bu iş onlar üçün o cəhətdən mənfəətli idi ki, nehzət səbəbilə qorxuya düşən Tehran irticası onların köməyilə bizim əleyhimizə fəallıq göstərə bilmək ümüdü ilə onları hesaba alır və bu vasitə ilə onlar üçün yeni sui-istifadələr imkanı yaradılmış olur.

Seqətül-İslaminin Seyid Ziya partiyası (İradeyi-Milli) böyük mövqe qazanmasının bir səbəbi də bundan ibarət idi. Böyük macəraculuq və fırıldaqçılıq təcrübəsinə malik olan Seid Ziya Seqətül-Islami kimi adamlara talib idi. O əvvələ mərhumə Seqətül-Islaminin şöhrətini, saniyən Əbulhəsən Seqətül-islaminin azərbaycançılılıq və azadxahlıq ünvanını çox baha qiymətə satmağa çalışırdı. Bütün sərmayəsi avamfəriblik

və fırıldaqçılıqdan ibarət olan zirəng bir adam üçün bu az sərmaye deyildi.

Hələ Azərbaycan milli demokratik nehzəti başlanmadan əvvəl bu iki kəsif ünsür müşrik fırıldıqaqçılıq əsasi üzrə bir-birinə yaxınlaşmış və İranın iqtisadi və ticarət idarələrindən böyük istifadələr etməyə başlamışdı. Nehzət isə onları qəti surətdə bir-birinə bağlamaqla Seqətül-Islaminin qiymətini irtica bazarında qaldırılmış oldu.

Əmir Nüsrət İsgəndəri isə Fituhi Bahaduri, doktor Müctehidi, Camal İmami isə həqiqi mürtəcelərdən olub, bizim demokratik nehzətimizə əqidə və prinsip üzrə müxalifət edirdi.

Əmir Nüsrət İsgəndəri böyük mülkədarlardan olduğu halda, feodalizm və dərəbəylik nüfuzuna dəxi malik idi. O hələ Rza xan zamanı böyük dövləti qulluqlara dəxi nail olub İsfahan kimi mühüm bir ustanda ustandarlıq etmiş və özünü qolçomaq dövlət məmurlarından tanımışdı Əmir Nüsrət istər Azərbaycanda, istərsə İranda quldur yolunmamış qatırçı tiplərinin ən qabaqlarından sayılan bir adam olub, xalq və millət əfradını heç adam hesab etməzdi. Onun nəzərində siyasi haqq və ictimai ixtiyara fəqəd torpaqdan asılı olan bir məsələ idi. 14-cü məclis seçkilərini keçirirkən mən bu adam ilə yaxından tanışlığım olduğuna görə onu çox yaxçı tanır və qani bir müstəbid olduğunu əməldə görmüşdüm. 14-cü məclisdə tərəqqi fraksionunda nümayəndələrdən birisi havayı məsələsini bu fraksionun bərnaməsinə daxil etməyi pişnəhad etdi. əksəriyyəti Azərbaycan nümayyəndələrindən olan fraksionda bu sadə pişnəhad böyük gürürtuya səbəb oldu. Bu gurultunu qoparanların başında isə Əmir Nüsrət İsgəndəri qərar tutmuşdu. Demokratik qüvvələrin ümid bağladığı tərəqqi fraksionun dağılmasını, demək olar ki, mühüm səbəblərdən birisi bu məsələ idi.

Havayi məsələsi vaqiyən böyük bir iş deyildi. Azərbaycanın çox yerində bu məsələ kəndlinin nəfinə həll edilib, yaddan çıxmış məsələlərdən hesab olunurdu. Hətta

Əmir Nüsrətin öz kəndində belə havayi məsələsi bitib qurtarmışdı. Bununla belə Fərman Fərmaiyən başda olmaq üzrə bütün nümayəndələr bu sadə məsələni malikiyyət üsuluna muğayır bir əməl hesab edərək, şədid surətdə onu rədd etməyə çalışırdılar. Hər halda tpraq sözü Azərbaycan nümayəndələri üçün ölüm-dirim sözü idi. Onların malik təbəqəsinə mənsub olmayanlardan birisinin gətirdikləri ən böyük dəlil və göstərdikləri böyük irad onun bir qarış yerdən İsa Liqvaninin intixab edilməsinə müxalifət edərkən Əmir Nüsrət deyirdi: “Onun bir dənə də olsun qarğa tutanı qalmamışdır. Biz onu hansı mülkünə etimad edib məclisə intixab edə bilərik”. Halbuki, İsa Liqvaninin Tehranda çoxlu kirayə gətirən evləri və mağazaları olduğu Əmir Nüsrətə gizli deyildi. O ev hətta fabrikanı və sərvəti də etibar hesab edə bilmirdi. Onun nəzərində intixab olmaq haqqına malik olmaq üçün topraq sahibi olmaq lazım idi. Topraq aristokratları hətta tacirlər də yaxşı gözülə baxmırdılar. Onlar Təbrizin miliyoner fabrika-çılarından Hacı Zeynalabdin Rəhimzadə Xoinin etibarnaməsini rədd etməklə, onu açıb meydana qoymaqdan çəkinmədilər. Tacirlərə məhsub olan Fətəli İpəkçiyana isə fəqət dəllallıq istifadəsi etdiklərinə görə müxalifət göstərmirdilər. Əgər bizim azadixah və zəhmətkeşdən təşkil etdiyimiz ətilaf olmasaydı, hətta onu də məclisə keçməyə imkan verməyəcəkdilər.

Fərman Fərmaiyən, Bahduri Fituhi və qeyriləri isə bizim milli hərəkətimizə zahirən ciddi müxalifət göstərmədikləri halda, bitərəf də qalmaq istəyirdilər. Onlar Azərbaycanda olan yerlərini əldə saxlamaq üçün gah nala, gah mıxa vurmaqla vaxt qazanır, ilanı Seyid Həmzə əlilə tutmağa çalışırdılar. Həm malik, həm böyük rühani təbəqəsində mənsub olan İmami isə müxaliflərin birinci sırasında gedir, həm o təbəqələrə mənsub olan doktor Yusif Müctəhidini də çəkib özü ilə aparırdı. (Müftəxorlardan) olan Əsğər Pənahi isə ortada yeyib, kənarda duran belə bir şəxs istifadə yollarını təmin etməyə çalışırdı.

Əbülhəsən Sadiqi, Mehdi Adil isə çox ustadlıqla suyu bulandırıb balıq tutmaq yolu ilə gedirdi. Yeri gəldikdə hər iki tərəfin börkünü götürməyə çalışırdı. Adi mövqedə müxtəlif yol ilə gedib, müxtəlif şəkildə təzahür edən bu tiplərin hamısı nehzətimizə müxalifət etmək nöqtəsində birləşməyə məcbur olmuşdular.

Neçə ki yuxarıda qeyd etdik, bunun əsl səbəbi də xalqın birləşib öz hüququnu əldə etməyə çalışması və firqəmizin xalqa rəhbərlik etmək imkanına malik olması idi.

Adətən İran Məclisi-Millisində Azərbaycan nümayəndələri özlərinin istlahında vəznə rolu (çəkisi olduğu) həqiqət olduğu halda, müxtəlif dəstələrin əlində alət olurdular. Məsələn, bir hökümətin düşüb, digər hökumətin iş başına keçməsində bu vəznənin böyük təsiri ola bilərdi. Bunun əsl səbəbi isə onların ləyaqəti deyil. Azərbaycanın coğrafi vəziyyəti və Azərbaycan xalqının azadixahlığa olan əlaqəsi idi. Azərbaycanlı Məşrutə nehzətində özünün qüdrətini büruzə vermiş sonrakı cərəyanlarda isə, öz varlığını kamilən isbat etmişdi. Tehran camaatı Azərbaycan xalqından və onun mərdliyindən həmişə hesab aparırdı. Özlərini Azərbaycana bağlayan mürtəce nümayəndələr isə özləri bilmədən bu məsələdən istifadə edir, vəli nalayiq olduqlarına görə istifadələri alətlik dərəcəsindən irəli getmirdi. Həmin bu səbəbə görə bizim milli nehzətimizin başlanması ilə onların bazarı yenidən rəvac tapıb, kabinələrin iş başına gətirilməsində müəssir rol oynamağa başlamışdılar.

Sədrül-Əşraf kabinəsi demək olar ki, bu nümayəndələrin təmayülü üzərində iş başına gəlib, onların xahişi üzrə azadixah qüvvələri əzməyə başlamışdı. Konfrəmizin xatəmə tapıb, təşkilatımızın müntəzəm surətdə fəaliyyətə girişməsi münasibətilə Tehranda və Azərbaycanda təzahürə başlayan irticai və ziddi-demokratik odu da bu camaatın közündən qalxırdı.

Onların göstərdikləri tədbir nehzətimizə nisbət zəif olsa da, tarixi nöqteyi-nəzərdən mülahizə edilməli və nəzərdə tutmalı bir məsələdir. Təbiidir ki, müxaliflərin gördüyü işləri

göstərdiyimiz təqdirdə öz işlərimizin həqiqi mənа və əhəmiyyətini açıb aşkara çıxarmağa mümkün olmaz. Onların gördükləri işlər cümləsindən birisi milli nehzətimizə şədid surətdə müxalifət göstərən Sistan nümayəndəsi Fəruxun Azərbaycan ustandarlığına təyin edilib, geniş ixtiyarat, çoxlu vasitələrlə üzərimizə göndərilməsidir. Əmir Nüsrət və başqalarının pişnəhadilə görülən bu tədbir bir çox qələt və narəva bir tədbir idi. Bu vasitəilə Mərkəzi Hökumətin ovçu açılıb, onun zəif və ədəmi-layəqəti tamamilə aşkara çıxmış oldu.

Bu səbəbdən hamı hətta bitərəf adamlar da anladılar ki, töhmət və iftiradan məyus olan Tehran irticası qəhr və qələbə yolu ilə işə başlamaq fikrinə düşsə də ciddi bir iş görməyə qadir deyildir.

Tehran həmişə istibdad fikrində qəhrəmanlıq göstərən Sədrül-Əşraf kimi mürtəcedən bundan başqa bir intizar ola bilməzdi. Neft və Amerika müstəşarları məsələsində şekəst tapan Tehran mürtəcelərin həqiqi simasını tamamilə aşkara çıxaran Məhəmməd Saidin yerinə bu köhnə qurdu gətirməklə mühafizəkarlığı kənara qoyub ciddi bir surətdə azadlıq əleyhinə təərrüzə keçdiklərnini büruzə verdilər.

Sədrül-Əşraf kimi köhnə müstəbid və mənfur bir adamın iş başına gəlməsi Rza Pəhləvinin süqutundan sonra nozuhur bir iş idi. O vaxtadək iş başına keçən dövlət adamlarının iş üstə gəldikləri zaman zahiri sadə olsa da, sabiqələri o qədər zənəndə deyildi. Füruği, Sohcili, hətta Said də iş üstə gəldikləri zaman özlərini tamamilə mürtəce göstərməkdən pərhiz edən adamlardan hesab olunurdular. Qəvamüs-səltənə isə Rza xan dövründə dövlət işindən kənarda qaldığı özü üçün demokratlıq və azadixahlıq nişanəsi qələmdad edib (göstərib), azadixah və demokrat qüvvələrini etimadını cəlb etmək yolu ilə işə başlamışdı. Sədrül-Əşraf isə bunların mürtəce və hamısından mənfur bir adam idi. Məmmədəli Mirzə Bağşahda azadixah və məşrutəçiləri mühakimə və mücazat edərkən (cəzalandırarkən)

bu adamın cəllad rol oynadığını azadixahların yadından çıxmamışdı. Belə müstəbid adamı tapıb iş başına gətirmək 14-cü məclis (ələni) surətdə azadlığı pozmağa başladığını elan etmişdi.

Sədrül-Əşrafa məclis xaricində tərəfdar olan bir dəstə və ya bir cəmiyyət tapılmadığı halda, məclis əksəriyyəti ondan müdafiə etməsi azadixah qüvvələri səxt (möhkəm) əsəbani edir, onları ciddi surətdə düşündürürdü. Bizim əleyhimizə ittixaz etdiyi tədbir isə xalqın dövlətə və məclisə olan etimadını tamamilə ortadan aparmaqla, azadlıq cəbhəsində geniş fəaliyyət meydanı vücudə gətirməyə səbəb oldu.

Iran xalqı xüsusən azadixahlar Azərbaycanda başlanan azadlıq hərəkatına böyük ümüd bəsləyirdi. Ona görə Sədrin qəhr ilə basdırmağa iqdəm etməsinə şədid əksəməl nişan verdilər.

O günlərdə azadixahlar cəbəhəsində geniş nüfuzə malik olan “Rəhbər”, “İran ma”, “Dad” və başqa ruznamələrin bu xüsusda yazdıqları məqalələrdə xalqın intizarını və dövlətin azadlıq əleyhinə apardığı xainanə siyasətin üstü açılıb, meydana qoyulub, nəticədə bizim götürdüyümüz xətti-hərəkətin doğru-düzgünlüyü meydana çıxırdı. Mürtəcelər üç yol ilə bizim əleyhimizə iqdəm edirdilər. Birincisi yuxarıda dediyimiz qəhr yolu ilə, yəni Fərruxun böyük ixtiyarət ilə ustandar təyin edilməsi, ikincisi, Tehranda İran mühitinin zəhərlənməsi və ölkənin xaricində dünya əfkarını bizim əleyhimizə təhrik edilməsi, üçüncü isə Azərbaycanın daxilində fitnətamiz hərəkətlərdən ibarət idi.

Mürtəcelərin birinci tədbirləri Azərbaycan xalqı məxsusən nehzətimizə ürəkdən əlaqə bağlayan camaat içərisində şədid əksül-əməl tolid edirdi. Necə ki, yuxarıda göstərdik Fərruxu Azərbaycan xalqı çox əclaf və alçaq bir adam tanıyırdı. O Rza xan Turkiyəyə müsafirət edərkən Urmiyyədə fərmandar imiş, o vaxt özünün mürtəcianə hərəkətləri ilə xalq arasında böyük nifrət qazandığı halda, Xarbar vəziri (ərzaq naziri) təyin olduğu

zaman öz qohumlarından Hacı Müəyyədin əlilə əncam verdiyi küllü miqdarda yağ muamiləsində etdiyi sui-istifadə vasitəsilə onun həddi əlayə yetirilməsinə səbəb olmuşdu. Fərruxun 14-cü məclisdə şəxsən mənim vəkalətimə ziddiyət göstərməsi də Azərbaycan azadixahlarının hənuz xatırından çıxmamışdı. Belə bir adamı Azərbaycana göndərmək, o günkü şəraitdə orada böyük bir şureş (aksiya) tolid etməkdən başqa bir nəticə verə bilməzdi.

Fərruxun şəxsiyyətini və onun Azərbaycana təyin olması ilə orada xalqın ibraz (bəyan) etdiyi etiraz hərəkətini göstərmək üçün vaxtilə ruznamələrimizdə intişar tapmış məqalələrdən bir neçəsini burada dərc etməliyik.

***Fərrux Əmir Şövkətül-Mülkün (varlıq) Bəzminin nümayəndəsi***

*Fərrux adı fəgət 1324-cü ilin qorxulu və qaranlıq günlərində mənim qulaqlarımda təninəndaz (əks-səda) oldu. Bu ağa o vaxt Qəvamüs səltənə hökumətinin xarbar (ərzaq) vəziri idi. Onun hay-küy salıb, rəcəzxanlıq etməsinə (meydan oxumağına) baxmayaraq, o günlərdə Tehran camaatı kamilən məzəllət (zillətdə yaşamaq), fəgir və biçarəlik halında idi. Başqa 50 milyon riyallarla xarbar vəzarətində batıb gedən birinci 50 milyon riyal bu adamın əlilə məclisə pişnəhad olunmuşdu. Bu uzun buğlu və uzun daban başmaq geyən vəkilin vəzirliyində idi ki, Tehran əhalisi çörək dükanlarının qarşısında xəzəl kimi tökülüb tələf olurdular. Onun bacarıqsızlığının əsərində idi ki, Iranlılar çörək əvəzində pişmiş kərpic və xurma çərdəyi yeməyə hazır olduqları halda, onu da tapa bilmirdilər. Həmin ağanın ləyaqətsizliyi təsirindən idi ki, Tehranın bigunah əhalisi (çörək istəyərək) fəryadı ilə məclisə hücum gətirdilər və bu səbəblə 17 azərin qanlı hadisəsi meydana çıxdı və o gündən işləri mənim nəzərimi cəlb etməyə başladı. Sonra onun Zabülüstandan çox səri və gözlənilməyən*

*bir surətdə intixab olması mənim konckavlıq (axtarış) hissimi təhrik etdi. Naçar onun keçmişini aramağa başladım. Məlum oldu ki, bu adamın hoqqabzalıqda uzun-uzadı sabiqəsi vardır. Hələ bir dəfə də hiylə ilə öz yaşını gizlədib, Türbətdən vəkil çıxmış və məclis kürsüsünü hənuz vikalət başına çatmadan əvvəl işğal etmişdir. Onun bu qanunsuz işdə göstərdiyi bu imiş ki, "mənim yaşımı atam quranın dalında yaddaş etmiş və mən özüm şahidəm ki, yaddaş onun, yəni atamın öz xəttidir". Bu şayət elə də mühüm hoqqa deyildir. Ondan sonra da ayrı məlumat ələ gəldi. Məlum oldu ki, uzun bığlı ağa mərhum kolonel Məhəmməd Tağı xanın qətlində də qeyri-müstəqim surətdə iştirak etmişdir. Eşitdiyimizə görə həmin Fərrux Məşhəddə karguzar olduğu zaman jandarm üsyanı təşkil etmiş, sonra isə gördüyü bəzi işlərində biçarə kolonel Məhəmməd Tağı xan fəcih (dəhşətli) tərzdə qətlə yetirlmişdir. Bu səbəbə görə dördüncü dövrdə onun nümayəndəlik etibarnaməsi (Qəvamüs səltənə) adlanıb, məclis tərəfindən rədd edilmişdir.*

*Bu ağa indi Sistan nümayəndəsidir. Bəli təəcüb bundadır ki, bu dövrdə bununla belə ağa indi də öz macəraculıqdan əl çəkməmişdir. Halbuki keçmiş dövrdə xəbərçilik, casusluq və başqa hiylələrlə özünü diktatorluq mühitində yerləşdirib, baş sənət müdirliyi, maarif vəzarəti müavinliyi – "Ostandarlıq, fərmandarlıq və qeyri dövlət məqamlarını ələ keçirib, irtica amillərinin, xoş rəqslərindən və keçmiş şahın ən vəfadar nökərlərindən olmuşdur.*

*Bu adamların xodxahlıq və macəraculuğunu göstərmək üçün onun xarbar vəzəratını göstərməkdədir. Gör nə tərdəstliklə (göz bağçılıqla) özünü ən qəddar düşməni olan Qəvamüs səltənəyə yaxınlaşdırıb, onunla düzəlişdikdən sonra onun təşkil etdiyi kabinədə üzviyyət tapmışdır. Soheyli kabinəsində isə yenə də həmin yol ilə üzviyyət tapmış Vəli Qəvam kabinəsindəki rəftarın xilafına olaraq, kabinə pozulduqdan sonra onunla düşmənligə başlayıb, şəxsi qərəz*

*üzərində ondan intiqam çəkmək üçün məclisi özünün əlində alət qərar verib, onun əleyhinə elani-cürm etmişdir.*

*Bizim bu macəracu adamla şəxsi düşmənliyimiz yoxdur. Bunları fəgət ondan ötrü yazdıq ki, xalqın mənafei hifz olmuş olsun 14-cü məclisi təşkil edən fasid ünsürlər təcziyə edilsin. Nəhayət gərək Iranlılar nümayəndəlik məqamını güc və pul ilə işğal edib, onların müqəddəratı ilə oynayanları tanısın.*

**Tehran Ajir nömrə 171 əvvəl mordad 1323**

Məqalə milli hərəkatımızdan qabaq yazıldığına baxmayaraq tarix nöqteyi-nəzərindən şayəni-vaxt bir mədrəkdir. Agər bu məqalə ayrı ruznamələrdə çap edilmiş olsaydı, şayəd o qədər əhəmiyyətli hesab olunmazdı. Vəli “Ajir” (“Uca səs”) ruznaməsi şəxsən məninm müdiriyyətimdə müntəşər olduğunu nəzərə aldıqda məsələninn əhəmiyyəti tamamilə meydana çıxmış olur. “Ajirdə” yazılan məqaləni Azərbaycan Demokrat Firqəsi sədri tərəfindən təsdiq edilmiş bir sənəd kimi tanınması təbii bir məsələ idi.

Bundan Əmir Nüsrət İskəndəri, Camal İmami və sair Azərbaycan nümayəndələrinin kamilən xəbərləri var idi. Onlar bilirdilər ki, mən şəxsən Fərruxu pis bir adam bilirəm və onun Azərbaycana vali olması ilə ciddi surətdə mübarizə edənlərdən biri də mən olacağam. Onlar çox yaxşı anlamışdılar ki, mənim Azərbaycan Demokrat Fİrqəsi içərisində olan nüfuzum tamamilə Fərruxun əleyhinə xərc edilməyəcək. Agər nüfuzum olmasa da, mənim üçün onu Azərbaycan azadixahlarına tanıtdırmaq müşkül olmayacaqdır.

Onlar ilanı Seyid Əhməd əli ilə tutmaq istəyirdilər. Fərruxun qələbə və məğlubiyyəti onlar üçün xeyirli idi. Fərrux isə axmaq bir adam olduğundan bu cümləni anlaya bilmirdi.

Hər halda firqəmiz Tehranda görülən işlərin hamısına bədbinlik nəzərilə baxdığına görə bu məsələyə də çox şədid müqavimət göstərdi. O zaman müstəqil olaraq nəşr edilən

"Xavərno" ruznaməsi bir dəfəliklə pərdəni yırtaraq şədid ləhnilə Tehrana etiraz edib, ( Əgər Fərrux Azərbaycana gələrsə, onun avtomobili Tehrana boş qayıdacaqdır) kimi cümlələrlə xalqın ehsasatını bəyan etdi.

"Azərbaycan" ruznaməsi isə məsələnin üstünü açıb, meydana qoymaqla onu şəxsi cəhətdən deyil, ümumiyyətlə Tehran ilə Azərbaycan münasibəti nöqteyi-nəzərindən izah etdi. Ruznamənin misal üçün bu mövzuda yazdığı məqalələrindən bəzi parçaları burada nəql edirik.

***Seyid Mehdi Fərruxi nəyə gəlir***

*Ünvanlı məqalədən Aman Tehran mühitini zəhərləyən qullabi (qəlp) nümayənlər unutmuşdular ki, bu kimi məsxərəbazlıq (ələ salmaq) və macəraculuqların vaxtı keçmişdir. Azərbaycan özünün müqəddəratı ilə oynayan məsxərəbazların hərəkətinə soyuq qanlılıqla baxa bilməz. Fərrux olmasın Fərruxun babası olsun, biz irtica sinfinə atılıb, düşən yalançı pəhləvanlara öz ixtiyarımızı tapşıra bilməzdik.*

*Iki şümarə ondan sonra 27-ci şümarədə yazılan "Azərbaycan yatmamışdır" sərlovhəli məqalədə məsələ daha da aydın olaraq meydana qoyulmuşdur.*

*Indi isə pərdə qaldırılmış, həmlə başlanmışdı. Belə bir mövqedə firqəmiz bitərəf dura bilməz. Azərbaycan hökuməti azərbaycanlıların öz əllərində olmalıdır. Biz var qüvvəmizlə həmvətənlərimizin hüququndan difa gedəcəyik (müdafiə edəcəyik). Azərbaycan xalqının mərkəzi-seqli olan firqəmizin gözü açıqdır. Bu xalqı iğfal etmək olmaz.*

Yuxarıdakı cümlələr münəzzəm bir firqənin rəhbərliyi və siyasi düşüncə ilə irəli gedən bir cəmiyyətin nəzəridir. Xalqın və əfkari-ümuminin cərəyanını göstərmək üçün xalq içində yanaşıb və zəhmətkeş təbəqəyə mənsub olub, öz ehsasatını bəyan etmək üçün gah-gah (hərdən) şer yazan Məmməd Niknamın yazdığı şerindən bir neçə beyt burada nəql edirik:

***Get-Get***

*Get-get ana yurdumda mənim Fərruxi olmaz,
Aslanların ətrafına get, tülki dolanmaz,
Alçaq kişi qorx sən bu işin fırtınasından
Istər baxasan bu qoca Təbriz bacasından.
Qurtarmayacaqsan dəxi ey bambacasından
Yoxdur yeyəsən burada rüşvət kasasından,
Get-get ana yurdumda mənim Fərruxi olmaz.
Aslanların ətrafına get, tülki dolanmaz.
Dünya səni çoxdan tanıyır, ey papaq insan
Biz də veririk dünyaya bundan sonra elan
Sən Təbrizə gəlsən qopacaq ölkədə tufan
Istər ola yer-göy qorxulu neyran
Get-get ana yurdumda mənim Fərruxi olmaz
Aslanların ətrafına get, tülki dolanmaz.*

***Qətnam***

*Azərbaycan xalqının itmami-höccəti (son xəbərdarlıq), 500 nəfərlik böyük bir ictimanın Fərruxun qərarına etiraz etdi.*

*Seyid Mehdi Fərruxini tanıyanlar və ya "Ruznameyi-Azərbaycanın" axır nömrələrini oxuyanlar onun keçmişini yaxşı anlaya bilərlər. Belə bir adamı Azərbaycan ustandarlığa təyin etməkdən məqsud bir böyük inqilab və fəsad yaratmaqdır. Mürtəcelər Fərruxu bu iş üçün Azərbaycana göndərirlər, əgər ustandar intixab etməkdən sui-niyyət yoxdursa məgər Azərbaycanda ustandarlıq vəzifəsini çox yaxşı idarə etməyə adam yoxdur ki, belə pis sabiqəli və məşhur mürtəce məclis vəkilləri arasında tapıb, qanuna riayət etməyərək, Azərbaycana göndərib şiddətli həvadis (hadisələr) və inqilaba səbəb olur.*

*Bu onların sui-niyyət və sui-qəsdini isbat edir. Çünki biz Azərbaycan əhalisi rahat yaşamağa nəzmo-tərtibə əlaqəməndik və hər qism, hərcümərcdən (qarışılıqdan) qəti surətdə münzəcir olub uzaq dururuq. Bu qətnamə mocebincə ümumə elan edirik ki, əgər Fərruxi Azərbaycana gəlsə, onun pis əxlaqı və şum siyasəti onun qanun əsası xilafına olaraq diktatorluq ixtiyaratı ilə Azərbaycanın aram vəziyyətini pozub, oranı bir parça atəşə çevirib və çoxlu qanlar tökülməsinə səbəb olaraq, bu səbəblərdən vəziyyətin məsuliyyəti onu Azərbaycana göndərənlərin öhdəsindədir. Biz həqiqəti aşkar eləməkdən ötrü və tarixin məsuliyyətinə şahid olmaq üçün Təbrizdə yaşayan ümum xaricə konsullarını dəvət edirik. Bu işdə şahid olub bilsinlər ki, Azərbaycan xalqı lazım olan təzəkkürləri verib, namətlub vəqayenin qabağını almağa var qüvvəsilə çalışmalıdır.*

***Əli Maşınçı Mükərrəm Türabi***

Bizim şədid etirazımıza və Tehranın qəti təsminin bəlli olmasına baxmayaraq, Təbrizdə mürtəcelərlə dövlət idarələrinin başında duranların çoxusu onu istiqbal etməyə (qarşılamağa) hazırlanırdı. Hətta bir neçə gün bir-birinin ardınca bələdiyyə salonunda onun üçün nahar dəxi təhiyyə etmişdilər. Bununla belə mənə şəxsən belə gəlir ki, Fərrux Təbrizə gəlməyə cəhd etməyəcəkdir. Hələ bəlli də deyildi. Vaqiən O getdiyi halda, Tehranın irticai nəqşəsini asanlıqla icra edə biləcək yoxsa-yox.

Bununla belə məhəlli mürtəcelər onun Təbrizə varid olmasına böyük ümüdlər bağlamış və əl altından fitnə və fəsad hazırlamağa çalışırdılar. Bilaxırə Tehran irticası zahirdə kiçik nəzərə gələn bu mühüm məsələdə şikəst yeyib geri oturdu. Fərruxun Təbrizə gəlməyi olmadı. Onun özündən qabaq göndərdiyi dövlət idarələri başçıları da izhari-vücud edə bimlədilər. Nəhayət gürultu-haləti ilə başlanan bu hücum çox əhəmiyyətsiz və kiçik bir xəbərlə xatəmə tapdı.

Azərbaycan xalqı isə "Aras" ruznaməsində dərc edilən aşağıdakı xəbərin laqeydliklə yazılmış olduğuna baxmayaraq, onu əhəmiyyətlə oxuyub, özünün güc və qüdrətini dərk etdi. Bu müvəffəqiyyəti fəqət Demokrat Firqəsi rəhbərliy ilə əldə edilməsinə etiraf edərək, ona nisbət etimad və inamı qüvvətləndi, xəbəri eynən burada dərc edirik.

***Fərruxi Azərbaycana getmir***

*Təbriz Demokrat Firqəsinin bəyaniyyəsinin təsiri olaraq, Fərruxun Azərbaycan ustandarlığına təyin edilməsində qanlı hadisələr düşə bilməsi ehtimalı ilə yetişən xəbərə görə Fərrux qorxmuş və dövlət isə onu göndərməkdən sərfi-nəzər etmişdi. Ağayi Sədr məclisdə xahiş etmişdir, ona mərbut (onla əlaqədar) olan layihəni mətrəh (bəyan) etməsin.*

***Tehran "Aras" ruznaməsi***

*"Azərbaycan" ruznaməsi bu xəbəri "Aras" ruznaməsindən alıb, ruznamənin 34-cü şümarəsində eynən farsca dərc etmişdi. Xəbərdən aşkar surətdə məlum olur ki, Fərruxun məmuriyyəti adi ustandarlıqdan ibarıt deyilmiş, çünki məmura (ümumiyyətlə) ustandarlar daxilə vəzarəti (daxili işlər naziri) tərəfindən göndərilmiş və ona görə ona geniş ixtiyarat vermək üçün xüsusi layihə təsvib edilməlimişdir. Bu isə dövlətin və məclisin mövzuya dərindən yanaşıb, böyük və ciddi qədəmlər götürmək fikrində olduğunu isbat edirdi.*

*Ona görə Fərruxun süqutu tək ona aid olmayıb, bizim ciddi müqavitəmiz nəticəsində dövlət siyasətinin dəyişilməsinə və sındırılmasına dəlil göstərmək olmaz. O Fərruxun göndərilməsindən sərfi-nəzər etdiyi günlər belə açıqdan-açığa bizim şüarımızın əleyhinə çıxıb, qırx il məşrutə dövründə məclis tərəfindən qəbul olunan qanunlar vasitəsilə ləğv edildiyi Azərbaycan əyalət əncumənin tələbatı üzərində qanunın nəqz*

*edildiyini elan etmiş bu yol ilə bizim şüarlarımızın əsasilə müxalifət etdiyini göstərmişdi."*

Onun bu vasitə ilə tək bizim demokratik hərəkatımız deyil, ümumiyyətlə İran qanuni- əsasının bərpa edilməsinə qiyam etdiyi aşkara çıxmaqla məşrutə və azadlığa əlaqəmənd olan təbəqələrin nigaranlığını cəlb etmişdi. Bu birinci dəfə idi ki, hökumət başçısı curət edib, qanun əsasının mühüm və əsas maddələrindən birinin ortadan aparılıb, ləğv edilməsini irəli sürürdü.

Bu vaxtadək əncümənlərin intixab olub işə salınması məsələsini irəli sürdükdə mürtəcelər və mümtaz (yüksək) təbəqələr Səna (şah tərəfindən təyin olunan nümayəndələr) məclisi dəvət etmək şüarı ilə onun qarşısına əngəl (maniə) çıxarırdılar. Indi isə Sədr ələnən (açıq) rəsmən baltanı rişədən vurub, bir dəfəlik millətin arzu etdiyi haqq və ixtiyarın bəhsinə belə xatəmə verməyi irəli sürmüşdü.

Əgər ayrı vaxt və ayrı şəraitdə məsələ bu şəkildə meydana çıxmış olsaydı, şayəd başqa irticai tədbirlər kimi bu da mürtəcelərin nəfinə qurtara bilərdi. Lakin o günkü şəraitdə bu işi asanlıqla əncam verə bilməzdilər. O günlərdə bizim əlimizdə böyük qüdrət var idi. Mətbuat, ictimaiyyət və firqəmizin ətrafına toplanan xalq kütləri dayanan geniş milli nehzətimizin belə iddialarla qabağına çıxmaq müsbət bir nəticə verə bilməzdi.

Hələ Azərbaycanda olan geniş vəsilədərdən əlavə o gün bütün İran xalqları məxsusən Tehranın ziyalı və gözü açıq təbəqəsi ümumiyyətlə bizim arxamızda idi. Ona görə Sədrin əncümənlər əleyhinə intişar verdiyi. Irticai elamiyyə ümumun nifrətini qazanmaqdan başqa, ona bir nəticə vermədi. Məsələni daha aydınlaşdırmaqdan ötrü o günlərdə "Azərbaycan" ruznaməsinin bu xüsusda yazdığı məqalələrdən bəzi parçasını burada dərc edirik.

***Biz də bunu deyirdik***

*Axır vaxtlarda, yəni bizim təkan verici müraciətnaməmizə cavab olmaq məqsədilə vəzarəti-keşvər (daxili işlər naziri) uzun müddət götür-qoydan sonra əncumən əyaləti və vilayəti barəsində gülünc bir bəxşnamə (qərar) sadir (təsdiq) etdi.*

*Bu bəxşnamədə deyilir ki, 1328-ci hicrdən (1949) bu tərəfə çoxlu qanunlar vəz edilmişdir ki, onların bəzi məvaddi (maddələr) əncümən əyalət və vilayət qanunlarının xilafınadır. Məsələn yol çəkmək və fərhəng üçün çoxlu pullar, ayri qanunlar muraat etmək (gözləmək) yolu ilə sərf edilmişdir. Əsasən təzə qanunlar əncümən qanunun icrasını çox müşkül hala salmışdır. Ona görə əncümən təşkili fayda əvəzinə zərər verir və işi müşkülləşdirir. Dövlət çox istər bu qanunu islah etsin. Əncüməni istəyənlər deməlidir ki, onun icrasına məhzur (müraciət) və irca edilə bilməz. Buna görə Ağayi Sədrül-Əşrafın hökumətinin əncümən əyaləti və vilayəti istəyən azadixahlara cavabı.*

*Ağayi Sədrül-Əşraf və onun vəziri-keşvəri gərək bilsinlər ki, əncümən əyaləti və vilayəti millətin haqqıdır. O məşrutə və demokrasi rejiminin əsaslarındandır. Məclisi-Şuradan diktatorluq zamanında imtahan üçün keçirilən qələd və ziddi-azadi qanunlar və həmçinin qanuni-əsasiyə müğayır olan qanunların vəz və icra edənlər qanun movcibincə mücrüm (günahkar) hesab olunub cəzalanmalıdır. Pəhləvi dövrünün vəkilləri və ondan irəli dövrdə təhdid və tətmi ilə (həvəsləndirməklə) vəkili olan nümayəndələr azadlığa xəyanət edib, 1328-ci hicridən bəri müruri-zaman ilə məşrutə qanunlarını əmələn ləğv etməyə çalışmışlar, halbuki, qanuni-əsası cəza tətilbərdar (istirahət götürəsi) deyildir.*

*Vəzarəti-keşvər öz bəxşnaməsində buna etiraf edir, əmələn məclis tərəfindən elə qanunlar vücudə gətirilmişdir ki, onların*

*icrası əyalət və vilayət əncümənlərinin icrasına maneə törədir. Demək irticai məclisdən elə qanunlar keçirmiş ki, onlar qanuni-əsasilə müğayırdır.*

*Bu qanunların əsası mən (qadağan) edilmək əvəzində qanuni-əsasında dəyişdirməyə can ata (sədr) hökuməti bilməlidir ki, xalq öz haqq məşruundan sərfi-nəzər edə bilməz.*

*Sədr deyir: "Qırx ildən bəri müruri-zaman ilə qanuni-əsası və xalqların ixtiyaratı nəqz edilmişdir. Indi onu iddia etmək istəyənlər gərək gözləsinlər O bir təzə layihə düzəltsin. Ondan sonra əgər Məclisi-Şuranı özlərinə dükan qayıran lotular səlah görsələr, istədikləri kimi onu qəbul edər. Ondan sonra millət öz haqqına malik olar. Əgər səlah görməzlərsə heç, müraciətnaməmiz intişar tapdıqdan sonra Tehran mətbuatında qopan gürultudan nəzərə çatanı fəqəd bu bəxşnamə idi ki, o xoşbəxtanə gördüyünüz kimi çox zəif, çox naqis, çox qeyri-məntiqi və çox ahməqanə bir tərzdə inşa edilmişdi.*

*Bu göstərir ki, mərkəzin xalqa deyəcək hesabı bir sözü yoxdur. Ona görə fohş (söyüş) dad və qal və töhmət verməklə xalqı bizim əleyhimizə təhrik etməyə çalışırlar. Vəzarərəti-keşvərin bəxşnaməsini oxuyanlara məsələmizi layiqincə anlamaq üçün müraciətnaməmizin əyalət və viləyət əncümənləri haqqında yazılmış hissəsini oxumağı tövsiyə edirik.*

*Orada biz əncümənlərin barəsində geniş bir surətdə bəhs edib və əmli dəlillərlə isbat etmişik ki, əncümənlər əməli olmasa demokrasi üsulu əməli ola bilməz. Sədrül-Əşraf deyir: "Qırx ildir xalqın bu məşru haqqı qullabi nümayəndələrin vəz etdiyi qanunlar möcibincə nəqz edilmişdir, onu vermək olmaz".*

*Biz də bunu deyirik, amma bir fərq ilə biz deyirik: "Qırx ildir Sədrül-Əşraflar, Davərlər məclisdə oturan xainlər xalqın haqqını paymal etmişlər. Bugün Azərbaycan öz haqqını almağa təsmim tutmuşdur. Biz onu Sədrül-Əşrafdan tələb edirik. Çünki onun hökuməti qeyri-qanuni hökumətdir. O həmişə azadlıq əleyhinə mübarizə etmişdir. Biz öz xalqımızın köməyilə*

*haqqımızı almağa çalışırıq və çox gözəl bilirik ki, müstəbidlər xalqın haqqını bu sadəliklə verməzlər".*

*Xalq o haqqı alacaqdır və ona görə də çalışır, vəzarəti-keşvər buna cavab verməlidir. Biz də bunu bilirik, Müstəbidlər və xalq azadlığını boğanalar qanuni-əsasını pozub, xalqın haqqı olan əncümən əyaləti və vilayətinin ziddinə qanunlar çıxarmışlar".*

*Mübarizəmizin aynası olan "Azərbaycan" ruznaməsini diqqətlə təqib edənlər nehzətimiz irəli gedib, gücləndikcə Tehran mürtəcelərinin əleyhimizə cürbəcür hiylələrlə çıxdıqları açıqcasına dərk etməyə müvəffəq ola biləcəyik. Yuxarıdakı məqalələr əncümənlərin, yəni əsas təlabatımızın üzərində yazılıb, Tehranın bu yerdə gördüyü tədbiri aşkara çıxardığı kimi ondan bir gün sonra yazılan məqalə isə mürtəcelərin ikinci böyük irticai işini ifşa etməkdədir."*

*Tehran mürtəceləri müttəfiqlərin İrandan çıxmasını istəmirlər*

*"Keçən pəncşənbə günü məclis şədid mübarizədən sonra qanununi-əsasının xilafına olaraq, müttəfiqlərin İrandan çıxana qədər intixabatını təxirə salmağı qərara aldı. Bu qərar 3 yaydan bəri hazırlanmış 80 nəfər müstəbid vəkillər tərəfindən imza edilmişdi. Tudə vəkillərindən Ağayi doktor Keşavərz özünün möhkəm nitqi ilə bu pişnəhadın əleyhinə danışarkən əksəriyyət onun sözlərini kəsmiş və nitqin idamə verməyə yol verməmişdi.*

*Quçan nümayəndəsi Ağayi Rəhimi ki, bu dövrənin ciddi və ən demokratik vəkillərindəndir. Öz sadə və müxtəsər nitqində 14-cü məclisin əksərini qullabi vəkillərindən təşkil edildiyini isbat etməyə pişnəhad etmişdir ki, gələcək dövrdə onlar intixab olmaq haqqından məhrum edilsin. Bu haqq söz xain vəkillər tərəfindən rədd edilmişdir. Ərdəbil nümayəndəsi Ağayi Lənkarani Azərbaycan mövzuunu irəli çəkmiş mürtəcelərin ləcacətini (müxalifətini) təbih dərk edərək, demişdir ki, Siz*

*ləcbazlıq (əleyhinə çıxmaq) səmacətlə (israrla) İrana cinayət edirsiniz. Siz Azərbaycanlıların istədiklərini vermək və haqq sözlərini eşitmək əvəzində ora top və tüfəng göndərirsiniz. Məclis bu kimi məntiqi etirazlara qulaq asmayıb, xainanə layihəsini zorla təsvib etmişdir. Məclis tətil müddətində dövlət işlərinə nəzarət etmək üçün 6 nəfərədən ibarət bir heyət intihab olunacaqdır.*

*Bunlar İran dövləti Hitler yoluna rəsmi surətdə ayaq qoymuşdur.*

*Faşist peyğəmbəri də əvvəl iş başına gələrkən qocalıb, işdən düşmüş Hind Binorğun nüfuzundan istifadə etmişdi. Biganələrin siyasətini İran xaqlına təhmil edən doktor Tahiri, Əli dəşti, Seyid Ziya və onların dəstəsi (doktor Müsəddiq Bəhaül-mülk və Motəmədül-mülk kimi) işdən düşmüş vəcihül-milələrin (milli çöhrə) adından istifadə etməyə başlamışdı. Fransa milləti tərəfindən edama məhkum olan Marşal Pitni də Almanlılar hoqqabazlıqla işə çəkib, abrusunu apardılar. Bunların hamısı isbat edir ki, İran məclisini qan çanağına döndərmək istəyir. Biz onları kor və divanə hesab etmirik. Bizim artıq şübhəmiz yoxudr ki, onlar bu bəhanə ilə müttəfiqlərin bəzilərini İranda saxlamaq fikrindədirlər.*

*Onun bu qanunlarla qeyri-müstəqim surətdə ərbabların hiləkar siyasətinə yol açırlar. Bu cələsadə diktatorluq və onun qarşısını almaq barəsində sözlər çox danışılmış. Məsələn, Seyid Ziya bir daha kudeta (çevriliş) etməyəcəyini isbat etməyə çalışmışdır. Bununla belə xoruzun quyruğu görünməkdədir.*

*Seyid Mehdi Fərruxu böyük ixtiyaratla qanuni-əsasının xilafina olaraq Azərbaycana göndərirlər. Bütün Azərbaycan idarələrinin məmurlarının dəyişdirilmək məqsədilə ona (on nəfərdən) ziyadə köməkçi vermiş və hər birini bir idarə başçısı təyin etmişlər.*

*Bu xoruzun quyruğu deyil bəs nədir? Hənuz Tudə firqəsinin klublarını dağıdan və kargərlərin ictimasına təcavüz edən boynu yoğun diktatorlar Tehranın xiyabanlarında*

*sinələrini qabağa verib, özləri kimi hərzə və hərcayi (küçə) arvadlara şücaət (cəsarət) göstərməyə çalışdılar.*

*Jandarmlar tərəfindən evləri dağılıb, xanımanları (yaşayışı) bərbad edilən kəndli dəstələri Təbriz küçələrinə dolmaqdadır. Bunu tudəllərə jandarm rəisləri diktatorluğun başlanmasını göstərən xoruz quyruğu deyil, bəs nədir?*

*Hələ indiyədək azadixah ruznamələrinin biri də azad edilməmişdir. Əvəzində azadlıq əleyhinə şədid təbliğat aparan kəsif ruznamələrə 500 min riyal bığ yağı verirlər. Xoruzun quyruğu daha nə cür ola bilər.*

*Iran azadixahları Tehranın cənub dərvazalarından xaric ola bilməz. İsfəhan, Yəzd, Kirman, Şiraz və Xuzistanda azadlıq adını belə dilə gətirmək mümkün deyildir.*

*Bizdə diktatorluq olmayacaq deyən xain nümayəndələr özləri yalan danışdıqlarını çox gözəl bilirlər.Isfəhan artıq İran şəhərinə bənzəmir. Şirazda tamamilə hökumət Seyid Ziya yəni biganələrin əlindədir.*

*Yəzdə, Kirmanda tam mənasilə birtərəfli və xainanə bir siyasət təqib olunur.*

*Bəndər (liman) Abbas, Bəndər buşəhr və sair cənub bəndərlərindəkilərin hətta Tehran ruznamələrində cürət edib, yazanlar yoxdur və onu yazmaq belə mümkün deyildir.*

*Diktatorluğun buynuzu ki, olmaz. Bəli, bunların hamısı xoruzun quyruğudur. Mürtəce nümayəndələr bu quyruğu olmaz bilməmiş (olsunlar). Onlar məmurdurlar tutuquşu kimi öyrəndiklərini təkrar edib, bu vasitə ilə ərbablarını İranda saxlamağa imkan versinlər. Bunun günahını Hizbi-Tudə və Azərbaycan Demokrat Firqəsi ilə azadixah ünsürlərin boynuna salsınlar. Bu məqalənin də bizcə tarixi əhəmiyyəti olduöundan burada nəql edilməsi lazımdır."*

Bu məqalələrin eynən təkrar edilməsi iki cəhətdən xeyirlidir. Əvvəla bu vasitə ilə irticanın gördüyü işlər ifşa olunur və tarixdə səbt (dərc) edilir. Digər tərəfdən nehzətimizə və ümumiyyətlə İran demokratik hərəkatına rəhbərlik edən

firqəmizin onların müqabilində nə şüarla çıxıb və onlara nə dil ilə cavab verdiyi xatırlanır. Bu məqalələr vasitəsilə eyni zamanda İranın o günkü vəziyyəti oxucunun gözünün qabağında atəş yağdıran cümlələr vasitəsilə təsvir olunub, tarixin səhifələrinə tapşırılır.

*“...Iran azadixahları Tehranın cənub dərvazalarından xaric ola bilməzlər. İsfəhan, Yəzd, Kirman, Şiraz və Xuzistanda azadlıq adını dilə gətirmək olmaz. Bizdə diktatorluq olmayacaq deyən xain nümayəndələr özləri yalan danışdıqlarını çox gözəl bilirlər.”*

Bu cümlələr vaxtilə qan və ehsasatla dolu qələmlərdən təravüş (süzmək) etmişdir. Bunları adi mövqedə ehsasat üzərində yazmaq olmaz. Gələcək nəslimiz nehzətimizdə qəhrəmanlığla mübarizə edənlərin istiqlala nə qədər ümüd bağlayıb, üz tutduqları yolda nə qədər səmimi və fədakar olduğlarını bilməli və azadlığa laqeydliklə baxmaqdan çəkinməlidir.

*“...16 ay mübarizə, 16 ay dil, qələm, qol və tamam varlığımızla təqib etdiyimiz böyük hədəfin məqaləsini də yazıldığı ləhni, danışdığı ləhçə və dili də tarix hifz edib, saxlamalıdır.*”

Yuxarıdakı məqalə ilə biz irtica cəbhəsinin xain simasını tamamilə açıb, xalqa göstərməyə müvəffəq olmuşduq. Halbuki, Tehran qəzetləri bu xüsusda curət edib, ciddi fikir meydana sürə bilməmişdilər.

Sədrül-Əşraf hökuməti əncümən əyaləti və vilayəti qanunlarını ləğv etmək kimi xəyanətkarlığa iqdam etdiyi halda, səsini çıxarmayan irtica məclisi bir gün ondan sonra irtica yolunda daha irəli gedib, İran məşrutə və İran qanuni-əsasının daha mühüm maddəsini pozmağı qərara almışdı.

O isə məclisin tətil edilməsindən ibarət idi. Iran qanuni məşrutə və məclisin bir vaxt tətilibərdar (fasilə veriləsi) olmadığını sərahətlə qeyd etmişdir. Məclis isə bu qərarı şum

bir sabiqə qoyub İran xalqının azadlığını əmələn ortadan aparmağa başlamışdı.

Məclisi tətil etmək üçün müttəfiqlərin İranda olması olduqca zəif bir bəhanə idi. Çünki haman 14-cü məclis müttəfiqlərin İranda daha qüdrətli olduğu günlərdə intixab olunmuş bir məclis idi.

Hamı bilirdi ki, bu çox sadə bir bəhanədir. Bu işdən mürtəce nümayəndələrin məqsədi bizim milli nehzətimiz və milli təlabatımızın qabağını almaqdan ibarətdir.

Əncümənlərin ləğvi və məclisin tətil edilməsi müstəqimən bizim əleyhimizə görülən tədbirlər, olduğunu bildiyimiz üçün idi ki, mətbuatda onlara qarşı şədid əksüləməl göstərilirdi. Tehranda iş yuxarıdakı kimi göstərdiyizim məcra (istiqamət) ilə getdiyi zaman Azərbaycan mürtəceləri də rahat durmayıb, Tehranın barmaqıla əleyihimizə cürbəcür fırldaqlar tərpənməkdən bir an qəflət etmirdilər.

Onların xainanə hərəkətlərindən birisi də bazar dəllalları vasitəsilə cahil və siyasətdən uzaq olan kasıbkar adamları vədivəidlə (vədə verməklə) iğfal edərək, imzalatdılqarı teleqrafın London konfransına müxabirə etmələrindən ibarət idi. Bunlar neçə gün çalışıb küllü miqdarda pul və zəhmət sərf etdikdən sonra 300-dən artıq imza toplaya bilməməkləri onların xalq içərisində heç cür nüfuzə və ehtirama malik olmadıqlarını sübut etməklə, xalqın firqəmizə olan böyük və dərin etimadı möhkəm dəlil və mədrək hesab oluna bilər. Hələ teleqrafı imza edənlər cümləsində ailədən bir neçə nəfərin imza etməsi də az deyildi. Məsələn, Hacı Məmməd Əli Heydərzadənin oğlanlarından üçü Hacı Ələkbər Sədəqiyani familindən 4-ü, Xoilər familindən də dördünün imzası o teleqrafda səri surətdə nəzəri cəlb etməkdədir. Doğrudur, bunların Tehranda və Iranın xaricində hay-küy salan irtica cəbhəsinin Azərbaycanda fövqüladə bir surətdə zəif və natəvan (gücsüz) olduğunu bildirirdi. Lakin burada dəxi mübarizənin davam etdiyi bu vasitə ilə meydana çıxmış mürtəcelərin rahat oturmayıb,

nehzətimiz əleyhinə ciddi surətdə çalışdıqları və bu onların fəaliyyəti imperialistlərə dayanaraq, aparılan siyasətlə bağlı olduğu isbat edilmiş olurdu.

Adi vaxtlarda istiqlal və vətənpərəstlik iddiasını göylərə yüksəldən sərmayədar və maliklər mənfəətləri xətərə düşdükdə millət və məmləkəti biganələrə satıb, onların İran işlərinə dəxalət verməsinə zəminə hazırlamağadək tənəzzül etdiklərinə bu özü böyük bir dəlil hesab oluna bilərdi.

Teleqrafda nehzətimizin əleyhinə şədid ləhndə iftira yazıb, firqəmizi və ümumiyyətlə mübarizəyə girişən xalq kütlələrini 3-5 nəfər macəracu və huveyyəti (kimliyi) məlum olmayan adamlar adlandırmışdılar.

Onlar 15-ci məclis intixabatını dala salmaq və Azərbaycan daxilində bizim əleyhimizə, narazılıq yaratmaqla nehzətin qabağını almağı çox asan bir iş sayırdılar. Məxsusən 15-ci məclisi təxirə salmaları tamamilə bizim əleyhimizə, bizim adressimizə Londona göndərilən teleqraf tarix nöqteyi-nəzərindən fövqüladə əhəmiyyətli bir teleqrafdır. Bu vasitə ilə İran höküməti və o hökumətin poştibani (arxası) olan mürtəcelərin zəif və gücsüzlüyü meydana çıxırdı.

Bütün millət adından danışan 300 nəfər mürtəce bu hərəkatı bizim dəvətimiz üzrə 29 şəhrivərdə Təbrizin Şir Xurşud salonunda şəhərin baş bilənlərindən toplanıb, Fərruxun Azərbaycana göndərilməsi əleyhinə qətnamə sadir edən 1500 nəfərin sözünü lovs etməkdən (gözdən salmaqdan) ötrü idi.

Xoşbaxtanə Tehran mürtəce ruznamələrindən başqa o teleqraflara daxildə və xaricdə əhəmiyyət verən olmadığı üçün “Azərbaycan” ruznaməsinin şədid məqaləsinin intişarından sonra imza edənlərdən bir neçəsi bizə müraciət edib, öz imzalalarının geri götürdüklərini bildirdilər.

Bu vasitə ilə Tehrandan gəlib, Azərbaycanda Ingilis və Amerika imperialistləri üçün mədrək və vəsiqə toplayanların çoxusu xalqın ehsasatından qorxaraq, Azərbaycanı tərk edib, Tehrana və oradan xaricə qaçmağa məcbur oldular.

“Azərbaycan” ruznaməsi isə (“Huveyyət hücrə və dükan ilə təyin edilməz”) sərlovhəsi altında bu məsələni açıb, xalqa göstərməklə, böyük rol oynadı.

***Huveyyət hücrə və dükan ilə təyin edilməz***

*“Dünən gizli bir surətdə bağlanan naməşru (qanunsuz) nöqtə aşkar bir surətdə doğrulub, dunyaya qədəm qoydu. Bir aydan bəri Haçı Seyid Hüseyn karvansarası və başqa qaranlıq hücrələrdə çalışan mərmuz əlləri tapıb düzəldib, imza etdiklərini iftiraamiz teleqrafın surəti Tehranın irtica ruznamələri vasitəsilə gəlib, Təbrizdə intişar tapdı.*

*Biz demokrası üsulunun ciddi tərəfdarı olduğumuz üçün bu kimi işlərdən mütəəsir olmayaraq, əlbəttə, hər kəs öz fikrini, öz əqidəsini intişar verməkdə azaddır. Bu şərait ki, onun intişar verdiyi sənəd və mətləb özgələrin haqqını paymal (ayaq altına salmaq) etməsin.*

*Azadlıq əleylhinə yazılan bu teleqrafda bu əsl əbədən gözlənilməmişdi. Teleqrafları yazanlar 10 min nüsxələrdə çap və nəşr edilmiş rəsmi bir sənədi təhrif, təfsir etmək kimi bu kudəkanə (uşaqlıq) yola qədəm qoymuşlar.*

*Şəhrivərin 29-da (sentyabrın 19-da) Şirxuşrud salonunda ictima etmiş min beş yüz nəfərlik cəmiyyəti təhqir etmək kişilərə, şərafətli adamlara yaramaz.*

*London konfransına bu 500 nəfəlik cəmiyyət tərəfindən müxabərə edilən teleqrafda hər kəs Azərbaycanın təfkiki və təcziyəsi (ayırmaq) məsələsi barəsində teleqraf yoxdur. Iran üsul-idarəsində bəhs edilmiş məşrutə və demokrasi əsaslarının ortadan qaldırılması göstərilmişdi. Bunun əleyhinə olaraq, teleqrafı düşünmədən imza edən həmvətənlərimizə və xüsusən Ağayi Tağızadənin Londondan götürdüyü teleqrafları oxumağı tövsiyə edirik.*

*Azərbaycan xalqının teleqrafında Azərbaycanın bərbadlığı təsvib olunub, əncümən əyaləti və vilayəti vasitəsilə xalqımızın daxili muxtariyyatının təmin edilməsi irəli çəkilmişdir.*

*Bu haqq və ixtiyaratı Azərbaycan xalqı silah gücü ilə almışdır və bu haqqı var qüvvəsilə diriltməyə çalışacaqdır. Teleqramızın ziddini imza etdirən ağalar bunu Azərbaycan xalqına ayrı rəngdə göstərməyə və azadlığa böyük zərbələr endirməyə iqdam etmişdilər.*

*Dil məsələsi bizim həyat və məmat məsələmizdir. Biz ciddi bir məhkəmə olsa isbat edərik ki, müxaliflərimizin yüzdə onu belə fars dilinlə danışa bilməzlər və danışdıqları halda, xalqı göndərməkdən məsun qalmazlar.*

*Dili bəhanə edib xalqı azadlıq əleyhinə təhrik etməkdən namərdanə bir iş ola bilməz. Bundan əlavə ağalar gərək bilsinlər ki, Təbriz 5-3 bazar karvansarasından ibarət deyildir. Azərbaycanlı deyəndə tək 15 nəfər Təbriz bazarının əllərində alət qərar verən istifadəçi möhtəkirlər nəzərdə tutulmurlar. Azərbaycanda 5 milyon nüfus yaşayır. Bunların hamısı bu torpağın sahibi olduğu üçün onun gələcəyi barəsində danışıq haqqına malikdir.*

*Demokrat ölkələrdə rəy hücrə və dukan ilə təyin edilməz. Şəxsiyyət, mülk və əmlaka bağlı deyildir. Hüviyyət təşxisi (tanımaq) üçün banklarda etibar axtarmazlar. Azərbaycanda doğulub, orada nəşvu-nüma (inkişaf) edib, yaşayan bütün insanlar oranın övladı hesab olunur və onun barəsində danışmağa haqlıdırlar.*

*Qaranlıq hücrələrdə xalqın cibini soymaqdan başqa məqsəd təqib etməyən 5-3 möhtəkir 5 milyonluq xalqı məchullül-huviyyə adlandıra bilməz və onun dilindən danışmaqla dünyanı aldatmağa müvəffəq olmazlar.*

*Bundan əlavə firqəmizin bəzi karxana sahiblərinin tamahı nəticəsində meydana çıxan təbəqatı yatırmaq, bu yolda mübarizə edib, aramış və əmtiyyəni təmin etdiyi bir halda, evlərinin pişiklərinə qədər teleqraf imza edən bəzi macəracu*

*sərmayadarların bu işi azadlıq səfində çalışan qüvvələrə daldan xəncər vurmaqdadır.*

*Ağalar bu vasitə ilə təbaqati ixtilafi şiddətləndirir. Sönməkdə olan həriqi (od) təzədən genişləndirirlər. Biz çox gözəl bilirik, bu kimi yaramaz işlər bir neçə nəfər mərmuz adamların nahiyyəsində (tərəfindən) xalqı məsmum etmək üçün intişar tapmaqdadır, yəni bazar adamlarının belə onların əsli məqsətdən xəbərləri yoxdur. Bu teleqrafları imza edənlərin çoxu gəlib idarəmizdə özlərinin imza etdiyi teleqrafı anlamadıqlarını etiraz edirlər.*

*Azadlıq əleyhinə fitnə və fəsad törədən ünsürlərin azadixahlar əlinə verdikləri bu mədrək barəsində bizim deyəcək sözümüz çoxdur və firqəmiz isə bu xüsusda öz təsmimini elan edəcəkdir. Biz bu sözləri fəgət ruznaməvisizlik vəzifəsi olaraq, yazdıq əqidəmizə görə müxaliflərin diş sındıran cavabı firqə səflərini möhkəmləndirmək və xalqımızın sağlam və fədakar əfradını onun başına toplamaqdır.*

*Bizim sözümüz haqqdır, haqq ölmaz batil isə məhv olmağa məhkumdur. Əleyhimizə vurulan teleqraflar isə dürüst Məhəmmədəli Mirzənin tərəfdarlarının ləhnini xatirə gətirir və eynən islamiyyədən çıxan ziddi azadi teleqraflara bənzəyir.*

*Tarix təkrar olunur, hətta bu teleqraflarda islamiyyə teleqrafını imza edənlərin övladının adı nəzərə gəlir. O famillər aşkar bir surətdə meydana çıxır. Qoy olsun Azərbaycan azadixahları bir gün bu pərdələri yırtıb, bu xain simaları xalqa göstərməlidilər. Nə qədər tez olursa, o qədər xalqın xeyrinədir."*

Firqə konqrəsindən sonra bu kimi məqalələri yazıdıb intişar verilməsi göstərir ki, firqə xalqı böyük və ciddi mübarizə üçün təşkil edərək, onun milli arzusunu və amalını özünün gündəlik şüarları vasitəsi ilə aydınlaşdırıb əməli bir hədəf halına salarkən düşmənlərin işlərinə və hiylələrinə dəxi laqeyd qalmayıb. Onların istər Azərbaycanın daxilində istər xaricdəki oyunlara gözünü yummamışdır.

Bunu da qeyd etmək lazımdır ki, iki müvazi xətt ilə aparılan bu mübarizə mühid və zamanın yaratdığı şərait üzrə gözəl nəticələr verməklə xalqı daha artıq təşviq edərək işin daha səri bir surətdə irəli getməsinə səbəb olurdu.

Konqrə zamanı və ondan sonra irtica əleyhinə aparılan mübarizə meydanlarında məxsusən yuxarıda dediyimiz üç mövzunun hamısından firqəmiz müvəffəqiyyət qazanmağa nail olmuşdu.

Təkrar edirik. Bu müvəffəqiyyətlərdən birisi Fərruxun Azərbaycana gəlməkdən vaz keçməsi, ikincisi, Tehran və Təbirzdə mürtəce nümayəndələr və macəracu ünsürlərin əleyhimizə düzəltdikləri kağızlar və imzabazlıqların əsərsiz qalması, üçüncü Sədr hökumətin süqutu, onun elamiyyəsinin puç və mənasız tələqqi edilməsi (səslənməsi) idi

Azərbaycan xalqı isə bu müvəffəqiyyətlərin hamısını görür, hiss edir, onların məna və əhəmiyyətini anlayırdı. 20 il tamam istibdad rejimi altında bütün haqq və ixtiyardan məhrum olan bir camaatın ruhiyyəsində bu kimi işlərin böyük təsiri və əhəmiyyəti var idi. Bu 5 milyonluq xalq bu mübarizədə öz iradəsinə təsir bağışlayıb, mübarizənin müsbət nəticəsini hiss edir. Ona görə böyük bir qüdrətə malik olduğunu anlayırdı. Neçə ay bundan əvvəl heç yerdə, hətta öz yanında satılıb hesaba alınmadığı halda, az bir müddətdə özünü tam mənasilə bir millət olaraq tanıyıb, bir xalq kimi də yaşamaq şəraiti törətmək üçün daha böyük fədakarlığa hazırlanırdı.

Sədrin süqutu necə ki, dedik. Müstəqimən bizim zərbəmizin nəticəsi idi. Bəli bütün dövlət təşkilatını qapsayıb, qərinələr boyu hakimiyyət sürən böyük feodallardan və insanlığın fəxredici şərafət və vicdan və sair hisslərini itirib, camid (donmuş) avtomatik maşın kimi irticai ünsürlərin amal və arzularını təmin etmək yolunda çalışan böyük dövlət adamları bu sadəliklə meydanı azadlıq qüvvələrin xeyrinə tərk etməyə hazır olmazdılar. Bizim onlardan belə bir intizarımız

yox idi. Biz bilirdik ki, məclis və hökumətin əsas təşkilatı mürtəcelərin ixtiyarında qaldığı halda vəzirlər və dövlət başçılarının dəyişdirilməsi işin mahiyyətində müəssir ola bilməz. Eyni zamanda gözəl surətdə anlamışdıq ki, əsla feodalizm və böyük torpaq inhisarına arxalanan dövlət aparatının yıxılıb, sındırılıb, yerində xalqın azadlıq və yaşayışını təmin etməyə uyğun həqiqi xalq hakimiyyəti qurulmazsa, baş aldatmaqdan başqa nəticə verməz. Ona görə Sədrin dəyişilməsi və onun yerinə keçmək üçün kandid olunan əşxas zahiri görünüşü bizi iğfal edə bilmirdi. O günlərdə Sədrin yerinə iki kandid göstərilirdi. Bu kandidlər Qəvamüs-səltənə ilə Həkimül-mülkdən ibarət idi. Qəvamüs-səltənəni biz həmişə mürtəce bir adam tanıdığımızdan onun azadixahlara məxsusən Tudə partiyasına özünü bağlamasını şeytənət və hiylə hesab edirdik. Onun keçmişdə oynadığı irticai rolları biz unuda bilməzdik. Azərbaycanın qeyrətli azadixah ofiserlərindən Kolonel Məhəmməd Tağı xan Pesiyanın hiylə ilə başını kəsdirib, onun cəsədini belə qəbirdən çıxardan, Səttar xanı Atabək parkında mühasirə edib, onun ölümünün müqəddiməsini hazırlayan, nəhayət 1323-cü il Azərin 17-də (1944-cü il dekabrın 9-da) törətdiyi qanlı hadisələrlə bərabər, onun şəxsən böyük mülkədarlardan olub, həmişə irticanı saxlamaq üçün çalışdığını biz bilməmiş deyilik.

Həkimül-mülk isə qocalıb mühafizəkarlaşımış Azərbaycan əşraflarından (aristokrat) idi. Bunu işə çəkməkdə (İrəc) İskəndəri və onun dayısı Abbas İskəndəri məclisdə Tudə partiyasında və xalq içərisində ciddi fəaliyyət göstərirdilər. Bu adamların azadixahlar sinfində olması onun iş başına keçməsinə daha artıq kömək verməkdə idi. Halbuki, Həkimül-mülk də Qəvamüs-səltənə kimi irticaı cənbənin mühüm amillərindən birisi aidi. Onun Framason (Fəramüşxana) təşkilatında böyük məqam sahibi olduğunu nəzərdə tutmuş olsaq, onda cürətlə deyə bilərik, Sədrül-Əşraf tamam cinayətlərilə belə ondan az zərər verə bilərdi.

Iranda fəramüşxana təşkilatı İngilis imperializminin anlaqlı, düşüncəli, bacarıqlı, inanılmış və zahirən özlərini düzgün göstərən casuslardan toplanmış bir təşkilatdır. Bu təşkilata mənsub olan dövlət adamları xalqı iğfal edərək, özlərini vətənpərəst göstərmiş adamlar olduqlarından onların xəyanətlələrini açıb xalqa göstərəmək Sədrül-Əşrafı tanımaqdan daha müşkül idi.

Həkiminin bu mövqedə iş başına gəlməsi onun azərbaycanlı olub məşrutə nehzətindən azərbaycanllıların namına birinci məclisdə nümayəndə sifətilə iştirak etməsi nəticədə məşrutəçi tanımayandan irəli gəlmişdi.

Bu işdə Əmir Nüsrət İskəndərinin dəxi barmağı var idi. O vaxtı Tehranda Azərbaycan ilə sazişgaranə (sülh sevərlik) bir surətdə rəftar edib, iş qəlizləşdirmək (mürəkkəbləşdirmək) fikri şiddət tapmışdı. Ona görə azadixah və demokratik qüvvələr bizə təmayül göstərən Müstəşərül-Dövləni iş üstündə gətirmək istəyirdi. Əmir Nüsrət isə Müstəşarül-Dövləyə müxalif olduğundan Həkimü-mülki tapıb irəli sürmüşdü. Həkimü-mülklə Müstəşarül-Dövlə ikisi də məşrutə nehzətində bir rədifdə olduğlarına görə onun nəqşə və hiyləsi çox asanlıqla əməli ola bilməmişdi.

Biz Müstəşarül-Dövləyə qəti hökm verə bilmərik. Lakin onun nehzətimiz dövründə biz nisbət yaxşı rəftar etdiyini də inkar etmək olmaz. Həkimü-mülk isə birinci qədəmdən müxalifət fikrində olduğun zahirə çıxarıb jandarmların zülm və cəfaralarından stuhə gəlib mərkəzə şikayət edən Azərbaycan kəndlilərinin teleqrafları barəsində (yüz teleqraf olmasın min teleqraf olsun belə işlərə biz qulaq asmalı deyilik) demişdi. Qəvamüs-səltənə 17 Azər hadisəsində öz nüfuzunu itirdiyi üçün onun məclis xaricində şansı yox idi. Həmin hadisədə şahın şəxsən dəxaləti olduğundan Dərbarda hələ Qəvam üçün müənasib şərait yaradılmamışdır. Məclis isə onun rəqibi olan Süheyli tərəfindən intixab olduğuna görə əksəriyyət toplamaq üçün elə də asan işlərdən deyildi.

Necə ki, yuxarıda dedik, Azərbaycanla sazişə girişmək və nehzəti sülh yolu ilə yatırmaq istəyənlərin də bu işdə öz təsiri olmamışdı. Lakin bu işin zahiri tərəfi idi., həqiqətdə İngilis və Amerika diplomatların nəzəri Qəvamı müəyyən bir günə zəxirə (sülh sevərlik) edib, Həkimül-mülkdən bir mühəllil (həledici) kimi istifadə etmək üzərində dolanırdı. Ona görə məclis əksəriyyətlə ona etimad edə bilməmişdi.

Həkiminin və Qəvamın iş başına gəlməsinə necə ki, dedim, bizim açıq gözlə baxıb, onun mənasını xalqımıza düşündürməkdən ğəflət etməmişdik. Misal üçün, bu münasibətlə "Azərbaycan" ruznaməsində yazdığımız məqalənin əsas cümlələrini burada nəql edirik.

***Sədr düşdü***

*"Sədr kabinəsinin süqutunu radiolar xəbər verdi. Bu köhnə qurd axır ömründə böyük bir gorbagorluq qoyub getdi.*

*Şəhrivərdən sonra gələn köhnə və çürümüş kabinə rəislərinin hamısı bu yol ilə getmişlər. Onların hər birisi azadlığı məhv etmək üçün özlərindən bir yadigar qoyub tarixi ləkələyən bir iş tarixi iftixar edə bilərlər.*

*Indi Tehran mətbuatı baş vəzirliyə iki kandid göstərir. Bunlardan qocalıb işdən düşmüş, qulağı kar olmuş Həkimül-mülk, digəri isə ondan bir neçə il kiçik olan Qəvamüs-səltənədən ibarətdir.*

*Söz, rəisül-vüzəraların (baş nazirin) şəxsiyyətində deyildi, bizim nəzərimizdə Sədrül-Əşrəf, Həkimül-Mülk, Qəvamüs-səltənə əsasda bir sərçeşmədən su içən, bir tipə mənsub olan adamlardandır. Biz bu köhnə simaların keçmişlərini yaxşı tanıyırıq. Bunlar İran dövlətinin səadəti yolunda heç bir vaxt bir qədəm belə götürmək fikrində olmamışlar və hər birisinin tarixi həyatında böyük qanlı ləkələr vardır.*

*Indi Qəvamüs-səltənə ya Hakimül-Mülkü ondan ötrü iş başına gətirirlər ki, nəqşəsini çəkməkdə olduqları xainanə siyasətin üstünü örtüb-basdırmaqla azadixahları iğfal etsinlər.*

*Bunların neyrəngləri (hiylələri) fövqüladə dəqiq və ustadanədir. Əvvəl irticaya doğru böyük bir qədəm götürüb, sonra tənəffüs olmaq üçün zahirdə xırda bir güzəştə gedirlər.*

*Ta neft mövzusunu məclisdə o tərzdə keçirməyə müvəffəq olmamışdılar Saidi var qüvvələri ilə müdafiə edib, saxlamağa çalışırdılar. Məsələn, bildiyimiz şəkildə qurtaran kimi foran bihal və mohmel (süst) və süst ünsürlüyü ilə məruf olan Hesamül-Sultan Bəyatı iş üstünə gətirdilər və onun vasitəsilə tutduqları birtərəfli siyasəti ört-bastır etməyə müvəffəq oldular. Sədrin iş başına gəlməyi də Saidin gəlməsi kimi idi. Müttəfiqlər getmədən əvvəl aşıqı (dizdəki sümüyü) qurğuşunlamaq və irticanın qabağına çıxa bilən əngəlləri ortadan qaldırmaq lazım idi. Müharibə zamanında müvəqqəti azadlıqlığdan istifadə edib, gündən-günə qüvvətlənməkdə olan siyasi firqələr və milli cəmiyyətlərin vücudu onları lərzəyə salmışdı. Müttəfiqlərin vücudilə bu xətərin qarşısını almaq onlara müyəssər ola bilməzdi.*

*Onlar çox gözəl bilirdi ki, indiki şərait altında intixabat başlanırsa, azadixahlar məclisdə böyük mövqe tuta biləcəklər. 8 nəfərdən artıq Tudə fraksionunun rəşadət və zərbi-səstini görmüşdülər. Ona görə var qüvvələrini sərf edib, Sədrə rəsmiyyət verdilər və onun məclis xaricində yaratdığı vəhşətdən istifadə edib intixabatı istədikləri vaxtadək təxirə salırlar. Indi isə asudəliklə mühəllil (həlledici) bir kabinə yaratmaq fikrinə düşmülər. Bu kabinə kimlərdən təşkil olunursa-olsun, Bəyatın kabinəsindən artıq bir iş görə bilməyəcəkdir. Bir də İran siyasətində firqəmizin vücudu və təqib etməkdə olduğumuz ciddi və əməli şuarlar böyük və qüvvətli amillərdən hesab olunmağa başlamışdı.*

*Atalar demişkən "Ayının doqquz oyunu bir qozdan ötrüdür".*

*Tehran Qəvamüs səltənə və Həkimül-mülk kimi namizədləri meydana çəkməklə bizim qarşımıza doqquz çıxarmağa çalışır.*

*Eşitdiyimizə görə kabinəyə bəzi rus dili bilən adamlar dəvət etmək fikrindədirlər. Bu vasitə ilə şura diploması dairələrin gözündən əski asıb, özlərini orta bir siyasət tərədarı göstərmək fikrindədirlər. Lakin xoruzun quyruğunu gizlətməyə qadir deyildirlər.*

*Seyid Ziya rəsmi məclisdə Hitler və Mussolininin deməyə curəti çatmadığı sözləri dediyi halda, məclisin əksəriyyəti ona kiçik bir etiraz vermək işarəsi etmədi. Bir məclis ki, onun lideri açıq surətdə deyir: "Mən şura rejimini məhv etmək üçün Rusiya ilə qərardad bağladım". O məclisin tərəf etimadı olan bir dövlət rəisi kim olur-olsun bitərəfanə bir siyasət apara bilməz.*

*Bunların hamısı oyun və fırıldaqdır. İranda milli bir hökumət o vaxt vücudə gələ bilər ki, əyalət və vilayət əncümənləri vücudə gəlsin. Xalq Tehrana müntəzəm olmadan öz nümayəndələrini intixab edib, qanuni müddətdə məclisi aça bilsin.*

*Biz açıq danışmağı sevirik. Ölüm qarşısında belə alnı açıq bir surətdə həqiqəti söyləmək Azərbaycan azadixahlarının adətidir. Bu yolda imtahanlar da vermişik. Indi İranda milli bir hökumıt yoxdur. Məclis, Şurada milli deyildir. Cənubi əyalətlər hamısı biganələrə qul kimi itaət edən müstəbidlər əlindədir. Tehran isə zahirdə şahın yolu ilə firlanır. Həqiqəti-əmridə O da biganələrin oyuncaqı olmuşdu. Qızıl Ordu ayağını sərhəddən kənara qoyan gün şimali əyalətlərinidə silah gücilə o hala salacaqsız. Indidən Azərbaycan kəndlərində jandarmların qopardığı məhşər (qiyamət) bunu isbata yetirməyə kafidir. Iş belə gedərsə, məmləkətin gələcəyi qaranlıq və qorxuludur.*

*Irtica həyasızlamış və birəhmanə bir surətdə həmləyə girişmişdir. Tağızadə ilə Ahəninin teleqrafları göstərir ki,*

*böyük müttəfiqlərimizin paytaxtlarından belə bu qorxu aşkara çıxmışdı. Lakin bu dərdə çarə etməlidir. Qəvamüs-səltənələr, Həkimül-Mülklər imtəhanlarını vermişlər. Onlardan ümüd gözəyib qiymətli vaxtı tələf etmək olmaz.*

*Tarix təkrar edilməkdədir. Tehran irticası Gilan inqilabını pozmaqdan ötrü Müşirül-Dövlə mərhumun milli vichə və nüfuzundan istifadə etdi. Böyük azadixahımız Şeyx Məhəmməd Xiyabaninin özünün demokrat və azadixah adlandıran Hacı Müxbirül-səltənənin əli ilə şəhid etdilər. Xalqımız siyasətdə Sərdari-millinin Tehrana getməkdən qabağ təqib etdiyi yol ilə getməli və ona təqlid etməlidir. Təslim məhv olmaq deməkdir. Biz öz haqqımızı öz millətimizin gücü ilə əldə etməliyik. Bazar dəllaları vasitəsilə düzələn xainanə teleqraflar bizi tutduğumuz yoldan qaytara bilməz. Jandarmların kəndlərdə yandırdığları odlar kəndlilərin intiqam hissini təhrik etməkdən başqa xainlərə hasil verməz. Xalqın səbri tükənmişdir.*

*Azadlıq məşəlimizə tərəf uzanan xain əllər kəsiləcək. Xalq azadlıq əleyhinə daldan bomba çıxaran yalançı pəhləvanları birəhmanə surətdə cəzalandıracaqdır. Düşmənlərimiz özlərini alçaqlara yaraşan rəftarları ilə millətin intiqam gününü yaxınlaşdırırlar. Biz intiqam eşqilə yaşadığımızı inkar etmirik.*

*Iştibah olunmasın, söz şəxsi intiqam üstündə deyildi. Bizlər şəxsi ədavət, şəxsi düşmənliyə yol vermirdik. Bu yolda əfv və amana tərəfdarıyıq. Lakin xalqın intiqamından sərfi-nəzər etmək olmaz. Biz keçmiş nömrələrimizin birində demişdik, əgər Tehran irtica yolunu tutarsa, xudahafiz, biz azadlığa doğru gedəcəyik. Bu günkü nömrəmizdə onu təkmil edirik.*

*Əgər Tehran və Təbrizin xalqını əsarətdə saxlamağa çalışan müstəbidlər əsarət yolunu intixab edib, xalqı və o yola çəkməyə iqdam etsələr, xalq onlardan intiqam almalıdır. Bu intiqam çox şədid olacaq. Xainlər qırx il tamam bizim azadlığımızı satmış, xalqımızın müqəddəratı ilə oynamışlar. Qırx il müddətinə tökülən qanlar, dağılan xanımanlar, ac və*

*yalavac qalan kənd və şəhər zəhmətkeşlərinin intiqamı xainlərdən çəkilməlidir.*

*"Mən bütün sərvətimi azadlığı məhv etmək yolunda sərf edəcəyəm" deyən yalançı mənfəətpərəst xain və yalançı ünsürlər bilsinlər ki, Azərbaycan xalqı qanı bir qətrə qalanadək öz tutduğu yoldan qaçmayacaq və onların sərvətini qurğuşuna döndərib onların xain başlarına vuracaqdır. Biz Xiyabani mərhumun iştibahını (səhvini) təkrar etməyəcəyik. Xainlərə ölümdən başqa cavabımız ola bilməz. Xalq öz haqqını almaq üçün qurban verməkdən qorxmaz. Qurban verməyə hazır olmayan bir millət azad yaşamağa haqlı deyildir.*

*Tehran isə ürəyini beş-üç satılmış xainlərin teleqrafına xoş etməsin, biz öz məramımızın həyata keçirmək yolunda kabinələrin dəyişməsi kimi xırda mövzulara əhəmiyyət verməyib, xainlərin sözlərini hesaba almayacayıq.*

*Yuxarıda sözə diqqət yetirdikdə bizim hələ Qəvam iş başına gəlməkdən qabaq xalqımızın başına gələn fəlakətləri düşünüb, vaxtilə onları açıq surətdə xalqa söylədiyimiz meydana çıxır. Bu isə Qəvamüs-səltənənin xainliyinə və azadixah qüvvələri iğfal edərək, onların vasitəsilə bizim xalqımızın sədaqət, əmanət və mərdliyindən sui-istifadə edilməsinə böyük dəlildir. Bu məqalə, bu yazılar, bu nitqləri oxuduqca onun vicdansız, şərəfsiz, əclaf xaricin bir nökəri olduğunu isbat etmək üçün başqa bir dəlilə ehtiyac qalmır."*

### *21 Azərdən qabaq aparılan diploması mübarizə*

Həkiminin kim olduğu barəsində keçmiş hissədə müxtəsər də olsa məlumat vermişdik. Onun hələ Məşrutə Nehzəti zamanı oynadığı ikiüzlü o vaxt azadlıq cərəyanında şirkət edənlərin yadlarından çıxmamışdır. Hətta Məşrutə Nehzətini özünün nöqteyi-nəzərilə təcziyə və təhlil (tədqiq) edən Kəsrəvi belə bu adamın azadlığa nisbət ikiüzlü, mühafizəkaranə bir surətdə rəftar etdiyini inkar edə bilməmişdir.

Kəsrəvinin əqidəsinə görə o vaxtı Məhəmmədəli Mirzani Bağşah dəstgahı qurub, azadixahları asdırıb, kəsdirilməsinin səbəblərindən birisi də həmin Həkimül-mülk ilə Tağızadə və başqa Azərbaycan nümayəndələrinin azadlığa nisbət laqeydliyi və xainanə rəftarları olmuşdur. Kəsrəvi, məxsusən Tağızadəni o zaman Tezar Rusiyası səfirinin dilindən yalan söyləməkdə də müttəhim edir. Məhəmmədəli Mirza üçün məşrutəni pozmağa imkan yaratmağa sübuta çalışır. Kəsrəvinin yazılarından hiss olunur ki, Tağızadə bağlı olduğu ingilis sifarətinin işarəsi ilə məclisi tərk edib, qaçmış, Məmmədəli Mirza ilə azadixahların müqavimətini sındırmışdı. Həkimi isə Tağızadə ilə bir rədifdə hərəkət etmiş, bəzən rəsmən azadlıq meydanında özünü ondan daha mühafizəkar bir adam göstərmişdir. Ona görə məşrutə dövrünün bəlli başlı dövlət adamları sırasına keçməyə müvəffəq olmuşdur.

Bildiyimiz üzrə Məşrutə Nehzətində İran xalqı lazımınca istifadə etməmişdir. Istibdad mütləqiyyətindən xilas olan xalq həmişə haman məşrutə donu geyib özünü demokrat adlandıran köhnə müstəbid və mürtəce siyasətmədarların səfil və bədbaxt bir halda yaşamağa məcbur olmuşdur. Həkimi son dəfə iş başına keçərkən çürümüş, əprimiş istibdad mücəssəməsindən (heykəlindən) ibarət bir adam idi. O necə ki, dedik, müəyyən bir nəqşəni icra etməklə Qəvamüs-səltənə və ya başqa müqtədir (qüdrətli) ictimai bir şəxsə körpü olaraq iş başına gətirlmişdi. Ona görə onun siyasəti bizə nisbət çox aydın deyildi.

O bizimlə həm şədid mübarizə edir, həm zahirdə özünü saziş tərəfdarı göstərirdi. Bunundan illəti məlum idi, çünki xalqın saziş barəsində olan pişnəhadının qarşısına bir dəlil çıxarmaqla günahı bizim boynumuza atmağa məcbur idi. Ona görə Fərrux kimi qaba və Azərbaycana nehzətinə ciddən müxalif tanınan adamlar Bəyati intixab edib, Azərbaycana ustandar təyin etmişdi. Bayat axır vaxtlarda dövlət rəisi olub, doktor Milispu və sayir Amerika müstəşarlarının üzrlərini (ölkədən çıxmasını) istəyib, onları İrandan getməyə vadar

etdiyi üçün bəzi milli dairələrdə özünə yol aça bilmişdi. Bundan əlavə məclis rəisi Seyid Məmməd Sadıq Təbatəbai ilə məclisdə mühüm rol oynayan doktor Müsəddiqin yaxşı qohumlarından olduğuna görə məclisdə gözdən tənəzzül etməyəcəyini iddia edən bu adam artıq daşı ətəyindən töküb, Bayata bizimlə çox tez bir zamanda danışığa girişmək üçün tapşırıq vermişdi.

Bayatın ustandar ünvanilə Təbrizə göndərilməsi xalqımızın milli ehsasatının cuşa gəlməsinə (dalğalanmasına) və firqəmizin şədid fəaliyyət dövrünə təsadüf etdiyindən onun gəlişi əhali tərəfindən təqribən laqeydliklə qarşılandı. Beş-üç nəfər tacir və böyük maliklərlə bəzi Tehrandan gələn dövlət məmurlarından başqa ona müraciət edən olmadı. Nehzətimizin qarşısını almaq iddiasına baxmayaraq, Bəyat Təbrizə vürudundan daxil olmasından sonra Vaqiən heç bir iş görə bilmədi. Hətta uzun müddət təmirsiz və nəzarətsiz qalıb, xarabazara təbdil olan Aliqapı imarətində başladığı təmiratı təmin etmək üçün Tehrandan ona kifayət qədr pul verməmişdilər. Halbuki eşitdiyimizə görə şəxsən özünə adi ustandarlardan daha artıq hüquq və məxaric təyin olunmuş idi. Bununla belə demək olar ki, o Azərbaycanda pis dolamadı əslən onun pislik etmək imkanı yox idi, çünki xalq o günlərdə özünü öz sərniveştinə hakim bilir, qabağa çıxan hər bir kiçik və böyük işlərdən ötrü öz milli firqəsinə müraciət edirdi.

Kəndlərdə isə vali bir iş görə bilməzdi. Çünki müstəqimən Tehrandan və Ərkani-hərbidən əmr alan jandarm rəisinin hökmunu yerli jandarm başçıları oxumurdular. Müstəqimən Tehran ilə bağlı olan xırda jandarm vahidləri öz olduqları məhəldə özlərini hakim mütləq hesab edir. Qanun hökumət və ya başqa bir qüvvəni və ya başqa qüvvəni hesaba almağ fikrini belə yaxın qoymurdular. Belə şəraitdə Bayatın iddiasında işə başlanması, təbiidir ki, gülünc bir iş idi. Buna baxmayaraq onun Təbrizə vürudilə qüşə və kənarda əl altından fəaliyyət ilə

məşöul olanlar cürət tapıb bir para ələni iqdaman tez təşəbbüs etməyə başlamışdı.

O cümlədən Səttar xanın qardaşı Qəvamüs-səltənə xəyanətinin nəticəsində Hacı Əzim xan xadimi-millini iğfal edib, onun adından istifadə edərək, Seqətül-Islamın evində çağırılan cələsəni göstərmək olar. Bu vasitə ilə bazar dəllalları və nehzətimizə gizli surətdə müxalifət edənlər rühanilərin xalqın içində nüfuzundan istifadə etmək, onları təşkil edib, bizim ziddimizə qaytarmaq fikrində idilər. Onların etdikləri pişnəhad olduqca özünü haqlı bilirdi. Onlar kəndlərdə baş qaldıran kəndli hərəkatını edəmi-əmniyyət adlandırmaq, bu bəhanə ilə Tehrandan yeni silahlı qüvvələr cəlb etmək istəyirdilər. Bu məclis bizim milli nehzətimiz tərəfindən nümayəndə göndərib əvvələn onların məqsədlərindən xəbərdar olmaq, saniyən onlara nehzət nümayəndələrimiz Ağayi Şəbüstəri, Biriya və doktor Caviddən ibarət idi. Məclisdə bizim nümayəndələrimizdən başqa Dövlətşahı, Təbatəbai, Noyani, Məmmədəli Səffət, Tağı Beytulla, Kələtəçi Sadıq Müstufi, Sədəqiyani, Şərbitzadə, Xəlil xan Ərk Rzaqulu Rüşdiyyə, Ələkbər xan Ətayi, Fiyuzat Şahin Ağazadə, Heydərzadə də şəhərin baş bilən adamları cümləsindən olmuşdular. Burada Islam ilə Biriyanın danışıqları iki tərəfin nəzərini aşkara çıxarmaq üçün kifayət etdikdən başqalarının danışıqlarını təkrar etməyə ehtiyac görmədik. Bir dəfə Heydərzadə ilə Rəfinin münaqişəsi dil məsələsinə aid olduğu üçün maraqlı olduğundan onu eynən "Azərbaycan" ruznaməsinin 67-ci şümarəsindən (nömrəsindən) buraya köçürürük.

*Burada Ağayi Heydərzadə istədi Ağayi Dövlətşahı ilə farsi danışsın, Rəfii səsləndi, Ağayi Heydərzadə: "Öz dilimizdə danış Heydərzadə"-dedi.*

*Ağayi Rəfii: "Istədim bir giriz (baş) vuram. Ağayi Rəfii dedi: "Lazım deyildir".*

Azərbaycan məruf əşraflarından hesab olub, necə dövrə məclis vəkiliyinə intixab olunan Rəfii kimi məruf bir şəxsin dil

xüsusunda bu qədər şədid mübahisəyə girişməsi o günlərdə firqəmizin şüarlarının xalq tərəfindən dərin surətdə anlaşılıb, qəbul olduğuna moheqq (haqqlı) dəlilərdən hesab olunmalıdır.

Siqətübul-Islamın çıxışı isə qabaqdan hazırlanmış nəqşə üzrə olduğundan o gün Tehran hökümətinin bu yığıncağa böyük ümüd bağladığı aşkara çıxır. Bir də nəzərdə tutmaq lazımdır ki, yuxarıda adlarını yazdığımız adamları milli demokratik nehzətdən qabaq demək olar ki, Azərbaycanın nüfuz sahiblərinin ən əhəmiyyətli şəxsləri hesab olunurdular. Dövlətşahı maliyyə rəisi ustandarlardan sonra ən ali dövlət məqamı, Təbatəbai, məmurlardan başqa şəxsən İranda adlı-sanlı və nüfuzlu adamlardan idi. Noyani və başqa dövlət idarə başçıları da adi mövqelərdə və mühüm adamlar cərgəsində hesab olunmaqda idilər. Bir sözlə demək olar ki, onların nöqteyi-nəzərindən cələsə olduqca mühüm bir cələsəni (iclası) toplamaq özü bu sadəliklə başa gəlməzdi. Çünki Azərbaycanın bütün şəhər və kəndlərində fədailər baş qaldırıb, böyük xalq yığıncaqları vasitəsilə camaat milli məclis seçkilərini Tehrana müntəzir olmadan milli azadlıq və milli muxtariyyət şüarının icrasını tələb edidilər.

Belə bir zamanda vali bir yerə bağlı olmayıb, dövlət tərəfindən və xarici məqamlardan xəbərsiz olaraq bu işi görməyə Siqətül-İslam kimi ehtiyatkar bir adam qətiyyən iqdam etməzdi.

Siqətül-Islamın bəyanatı:

*"Ağalar, zəhmət verib, dəvət etməkdən məqsəd arada bir hüsni-təfahüm (hüsni-niyyət) icad edib, əmniyyət və aramişi bərqərar etməkdədir. Ətrafda olan əməliyyət camaatın vəhşət və iztirabına səbəb olur.*

*Niyyət budur ki, hər iki tərəfdən təşrif gətirən aqalar Feli vəziyyəti nəzərdə tutub, ya burada bir heyət müəyyən buyursunlar ki, Tehrana təşrif aparıb, Dövləti-mətbuat ilə vəziyyət müzakirə olsun. Mərkəzdən dövlət tərəfindən bir iddə*

*aqalardan təşrif gətirib, bizim dediklərimizə rəsidəlik edib, adilanə bir surətdə nəzarət etsinlər.*

*Bunu nəzərdə tutmaq lazımdır ki, burada biqanələrin qoşunu var. Elə əməl baş verməsin ki, dünya Pişvaləri (rəhbərləri) Tehrana təşrif gətirdiyi zaman müsəlmanlar üçün baisi-nəng olsun (müsəlmanlara irad tutması).*

*Xüsusən hamıya məlumdur ki, dünya Pişvaləri Tehrana təşrif gətirdikləri zaman İranın istiqlaliyyəti təsvib və təsminini buyurdular. Ümüdvaram bu məsələlərin haqqında qəti bir nəticəyə gələcəkdir."*

Siqətül-Islamın nitqi ilə təqribən müxalif dəstənin sözlərinin əsası ortalığa qoyulmuşdu. Bununla belə başqalarının ortaya atılan məsələlərini genişləndirməklə iki tərəfin və heç bir dil ilə anlaşa bilməyəcəklərini aşkara çıxmışdı.

Bizim tərəfdən Ağayi Rəfii, Ağayi Şəbüstəri və qeyriləri kinayə, işarə və üstörtülü cümlələrlə onlara hali etmişdilər (aydınlaşdırmışdılar) ki, məsələ bu sadəliklə həll oluna bilməz. Ağalar cələsəni toplamaqla fəqət Tehran irticai hökümətinin mənzurunu əncam verməkdən başqa Azərbaycan xalqına heç növ kömək edə bilməyəcəklər. Biriya isə məsələni daha açıq, daha aydın bir surətdə ortalığa atmaqla məclisin nəticəsiz qurtarmasını təmin etmişdi.

## Ağayi Siqətül-Islamın mənzilində olan xüsusi müzakirənin cərəyanı

Ağayi Siqətül-Islam və möhtərəm ağalar, mən firqəmiz tərəfindən çox iftixar edirdim ki, bıçaq bəndə (dayanan) gün siz bizi bu məclisə dəvət etmisiniz. Neçə ki, ağalar bilirlər, biz Azərbaycan xalqı İranın istiqlaliyyətini bugünkü günə qədər zəmanət etmişik. Yenə edəcəyik. Biz firqəmiz tərəfindən verilən dəsturlara (əmrlərə) həmişə itaət edib dönməz bir iradə ilə qabayımızda duran məsələlərin həllinə əyaləti və vilayyəti

əncümənlərin qurulub, muxtariyyatın alınmasına qəti surətdə əqdam edəcəyik. Biz tarix boyunca ki sabit etmişik və yenə də lazım olsa sabət edəcəyik ki, Azərbaycanlılar vətənimizə və məmləkətimizin istiqlalına əlaqəməndik. əgər icab eləsə bir sərbaz kimi məmləkətin cənubundan sərhədddimizi müdafiə etmək üçün bia qarış torpağımızdan əcnəbilərə verməyib bir sərbaz kimi sinəmizi gerib mücahit və fədakarlıqlan çəkinməyəcəyik. Qaldı əmniyyət və onun pozulması haqqında demək istəyirəm ki, buna bais rəhimsiz və ləyaqətsiz qan içən dövlət məmurlarının sui-rəftarı olmuşdur. Xüsusilə mərkəzi hökümətin axırıncı ərmağını olan Səddər kabinəsi ki, Tehranda azadxahlıq cərəyanını boğub təşkilatları bağlatdırıb məhrəmanə dəsturlar vasitəsilə jandarmeri dəstgahın məzlum və bicarə kəndlilərin əleyhinə təhrik etdirdi.

Həmin bu müaməlenin nəticəsində dodaqları kəsilən şallaqları altında vücuda qaralan arvadın örz və namusu taptalanan kəndci daha səbr edə bilməyib yetişdiyimiz kimi əmniyyələrin qollarını bağlayıb silahlarını əllərindən aldılar. Ağayi Siqqətül-Islam, sizdən xəbər alıram, əmniyyənin (polisin) nə haqqı var biçarə kəndçinin namusuna təcavüz eləsin. əmniyyənin nə haqqı var kəndlinin dodaqlarını kəsib və ya balaca uşaqların sərnizədən keçirsin.

Qaldı şəhərdə əmniyyət məsələsinə gəlincə və xalqda olan iztirab və heysiyyətin baisini məndən xəbər alsalar deyərəm Sərtib Dirəxşanidir.

Sərtib nə səbəb və nə illətə görə şəhrdarı idarəsini ki, milli bir müəssisədir, işğal edib, ora sərbaz gətirib və müsəlsəl qoyubdur. Ağayi Sərtib Dirəxşani verdiyi elamiyədə nə demək istəyirdi, mütəmərrid kimlərə deyirdi. Bir fərd mütəmərrid ola bilər, amma bir təşkilat ki, qanun əsası mövcəbincə onun qurulasına imkan verilir, heç bir vaxt ona mütəmərrid adı verə bilməz. Ağayi sərtəb Dəraxşani nəşr etdiyi elamiyyədə güya deyirdi ki, vurram-öldürərəm kimi öldürmək istəyir. Nə haqq ilə öldürmək istəyir kimə qarşı dayanmaq fikrindədir. Qoy

ağayi Sərtib Dirəxşani bilsin ki, millətin iradəsi müqabilində o heç bir vaxt məğruriyyət (özünəqüvənmə) göstərə bilməz.

Biz, necə ki, dedim Şəhrivər hadisəsindən sonra Tehrana minlərlə ərizələr, şikayətlər, teleqraflar vurmuşuq, bəli bu günkü günə qədər çox təəssüflər olsun ki, bir nəticə ala bilməmişik, ona görə də mən açıq deyirəm. Biz mərkəzi hökumətdən məyus olmuşuq və Tehrana heyət göndərməyə lüzum yoxdur. Əgər mərkəzi hökumətin bizə fərmayişi (buyruq) varsa, buyursun təşrif gətirsin bizə. Siqqətül-Islamın mənzilində təşkil olunan cələsə demək olar ki, Hakimül-Mülk hökumətinin birinci manevri idi. Nehzətimizi silah gücü ilə boğmaq üçün hazırlanmaqda olduğu qəhr və qələbə nəqşəsinin üstünü örtmək üçün Dövlətşahı və sair idarə başçılarının köməyilə bu oyunu düzəltmiş, yazıq Hacı Əzəm xanın adından istifadə etmişdi. Eyni zamanda bu vasitə ilə bizim fikrimizi bilmək və əlimizi dəxi oxumaq istəmişdilər. Nəticəsiz qurtaran bu təşəbbüsdən sonra bəzilərini iğfal etmək üçün ciddi bir qədər götürüb, rəsmən danışığa girişməyə təşəbbüs etdi. Bu isə zahirdə təqribən bizim xalq konqrəsinin çıxardığı qərar və dövlətə etdiyi müraciətnamənin cavabı idi. Vəli çox gec olmuşdu. O vaxt biz dövlətin oynadığı oyunlar nəticəsində biz çox irəli gedib, bizə cavab vermək əvəzində bir tərəfdən Tağızadə vasitəsilə Londonda və sair xarici ölkələrdə bizim əleyhimizə apardığı fitnətamiz fəaliyyəti artırıb, özünün xətti-hərəkətini təqib etdiyini açıb meydana qoymuşdu. Digər tərəfdən əleyhimizə müsəlləh qüvvə hazırlayıb, məhəlli qüvvələri təqviyət etməklə iş qəhr və qələbə yolu ilə getməyə, hazırlanırdı, bunu da biz ehsas edirdik.

Həqiqətən jandarmların vəhşiyanə hərəkəti azadlığı bir an əvvəl əldə etmək üçün şədid bir surətdə fəaliyyət göstərməkdə idi. Biz bilirdik Həkimi oyun oynamaq istəyir və Bayat bizim istədiyimizi təmin etmək üçün heç günə ixtiyarata malik deyildir. Bununla belə onun bəhanəsini kəsib söhbət etmək və

xalqı mürtəcelərin həqiqi məqsədini anlamaq üçün belə bir danışıq başlanmasına müxalifət göstərəmədik.

Milli heyət tərəfindən şəxsən mənim məsuliyyətim ilə Şəbüstəri, Biriya və Firudin İbrahimidən mürəkkəb bir heyət Bəyat və Dövlətşahdan ibarət olan nümayəndələri ilə danışığ aparmağa intixab olunduq. Danışıq o zaman bitərəf tanınan Sərrac Mirzənin evində təşkil olundu. Çünki Bəyat rəsmi dövlət nümayəndəsi olduğunu nəzərdə tutub bizim firqə və ya milli təşkilatımızın binasına gəlmək istəmirdi. Bizim də əleyhimizə ciddi surətdə mübarizə aparan dövlət nümayəndəsinin hüzuruna getməyi xalqımız üçün tuhin hesab edirdik. Ona görə bizim təklifimiz üzrə Sərrac Mirzənin evi bu iş üçün məsləhət görüldü. Bu görüşün tarixi əhəmiyyətini nəzərdə tutub, vaxtında o xüsusda intişar verdiyimiz rəsmi xəbərləri eynən buraya nəql etməliyik. Bizcə, hətta bu xüsusda “Azərbaycan” ruznaməsinin yazdığı baş məqalənin də əhəmiyyəti az deyildi. Azər ayının 17-də Ağayi Sərrac Mirzənin mənzilində heyət milli nümayəndələri və Ağayi Bəyat arasında mülaqət əmələ gəlmişdi. Bu mülaqatın zəminində heyət-milli nümayəndələri ilə mərkəzi hökumət nümayəndəsi Ağayi Bəyat arasında bir silsilə rəsmi müzakirə olmuşdu ki, bu müzakirə günortadan bir saat sonraya kimi idamə (davam) tapmamışdır.

Aban ayının 29 və 30-da Azərbaycan müəssisən məxlisinin təsvib etdiyi Azərbaycan millətinin təqazasını (istəyini) heyət milli nümayəndələri mərkəzi hökumət nümayəndəsi Ağayi Bəyata yetirib, ona təzəkkür vermişlər ki, əgər mərkəz bu əsası təqaza ila müvafiqət göstərsə cuzi məsələlər ətrafında müvaffiqət hasil etmək, sonra əsas məsələlərə keçmək. Biz bu müzakiratın təfsilini gələcəkdə oxucularımızın nəzəri-diqqətinə yetirəcəyik.

**Mərkəzi hökumət nümayəndəsi ilə aparılan danışıqlar haqqında**

Tehran hökuməti əcib bir mövcuddur. Bir tərəfdən məsələni yerində həll etmək məqsədilə şəhərimizə ali rütbə məmur göndərib, milli heyətimiz ilə rəsmən müzakirəyə girir. O biri tərəfdən məcalis və mətbuatda bizim milli hərəkatımızın əleyhinə şədid həyahu qaldırıb, başımızın üstündə xarici ölkələrə əl uzadır, biganələrdən istimdad etməklə İran camaatının haqq və hakimiyyətini ixlal edir.

Biz mərkəzi hökumət nümayəndəsi Ağayi Bəyata çox açıq surətdə millətimizin əzm və iradəsi sayəsində milli məclis müəssisamızın xiləlnapəzir qərarını və onun bütün dünyaya elan etdiyi elamiyyəsini şərh verib dedik. Ancaq bizim milli muxtariyyatımızı təmin etdiyi halda. Dövlət nümayədəsi ilə danışığa girişib, mərkəzlə irtibatımızın hüdudunu təyin edə bilirik. Bu əsası qəbul etmədən əvvəl danışılan sözlər və edilən müzakirələrin qaydası ola bilməz.

Ağayi Bəyat şəxsən bizim haqqımıza etiraf edib, əsl fikrimizin və prinsiplərimizin səhih olduğunu qeyd etdiyi halda, onun ətrafında aydın və açıq bir söz deyə bilmirdi. O istəyiridi söz ilə bizim əsl məqsədimizi yuyub, təmizləyib, milli muxtariyyat ünvanını aradan aparsın. Onun danışıqları qətiyyən öz vicdanın sədası deyidli. Ixtiyaratı məhdud. əl və ayağı bağlı bir adam kimi çabalıyıb, durduğu yerdə qalır. Vaxtı tələf etmək üçün cuziyyat üzərində uzun-uzadı mübarizəyə girişirdi.

Nəhayət nümayəndələrimiz ona vəziyyəti olduğu kimi təsvir edib, aydın bir lisan (dil) ilə haqqını almağa qadir olduğunu və bu haqqı almaq yolunda tamam varlığı ilə mübarizəyə girişdiyini ona anladaraq dedilər. Vahid bir şəxs kimi ayağa qalxıb, öz milli hökumətini qurmuş və öz müqəddəratını əlinə almışdır. Bütün milli konqrə (məclisi müəssisan) tərəfindən intixab olunan milli hökumətin (heyət millinin) arxasındadır. Bugün-sabah Milli Məclisimiz açılacaq, qanuni və rəsmi hökumətimiz təşkil tapacaq. Irandan ayrılmamaq şərtilə Azərbaycanın daxili işlərini idarə etməyə

şuru edəcəkdir (başlayacaqdır). Tehrana vaxtında ittila (xəbər) verilmişdi. O gün vaxt ətələf etməklə işi ört-basdır etmək fikrindədir. Bu isə çox səhifəhanə (ağılsız) bir siyasətdir. Mərkəzi hökumət bu gün bizim uzatdığımız əli dala qaytarmaq istərsə, artıq o əl bir daha uzanmaz, bu da mərkəzi hökumətin böyük və əsas xəyanətlərindən olub, qalar.

Azərbaycanlı özünün istedad və ləyaqətini birüzə vermiş, az bir zamanda böyük və arxalı bir hökumət vücudə gətirmişdir. Onu da saxlamağa qadirdir.

Bilaxirə müzakirat müəyyən bir nəticəyə müntəhi ola bilmədən xatəmə tapdı və sabit oldu ki, həqiqəti-əmrdə dövlət ağayi Bəyatı işi həll etmək üçün deyil, onu tarixləşdirmək, bu vasitə ilə xalqın gözündən pərdə asmaq üçün Azərbaycana ezam etmişdi. Ağayi Bəyatın hüsni-niyyəti və meyli bu işlərə onun özü üçün acı bir təəssüfdən başqa nəticə verməzdi. Çünki su sərçeşmədən bulanıq idi. Fəhimi və onun əmsalı həmişə oynadıqları şətrənc oyunun onun əlilə qazanmaq istəyirdilər. Bəyat oyunda məharətsiz bir adam deyildir. Lakin tərəfin oyun başlamadan əvvəl elan etdiyi şəxs onun meydanını təngləşdirib, mat deməklə yaxasını mat olmaqdan xilas etməyə vadar etdi. Oyunçu bilir ki, şətrəncdə mat baş tulamaq deməkdir.

Mərkəzi hökumət oyunu uduzdu.

Yuxarıdakı məqalədə göstərdiyimiz kimi bizim ustandarla birinci görüşümüz təarif ilə başlandı. Bəyati mən şəxsən çox yaxşı tanırdım. O baş vəzir olduğu vaxt mən Cəbhi- azadı təşkilatının tərəfindən çox ciddi mövzularla onunla danışıq apardıqda (onun ruhiyyəsinə kamilən aşna olmuşdum). Ona görə biz elə bilirdik öz fikrimizi açıq surətdə deyək.

Cələsədə iştirak edən rəis Dövlətşahı isə birinci növbədə bizim fikrimizi bilməyə çalışırdı. Bunu hiss etdiyimizə görə biz də baltanı dibdən vurub, danışığa hazır olmadığımızı söyləməkdən sonra 12 şəhrivər elamiyyəsi o vaxt intişar verdiyimiz rəsmi şüarlarımızı irəli sürdük. Azaldıgımızı saxlamaq üçün təmin (qarantiya) istədik. Onlar isə qanun

əsasıyə dayanaraq hər cümlədə onun saxlanılması lüzuymunu təkrar edir və bu qanunun milli muxtariyyətə müxalif olduğunu isbata çalışırdılar. Bəyatla uzun müzakirədən sonra biz onları əncumən əyaləti dil məsəəlsi və bizim aidatımızın yüzdə 75-ni öz daxili işlərimizə sərf edilməsi kimi məsələlərdə güzəşt etməyəcəyimizi bilirdik. Bunu nəzərdə tutmaqla hər cür muvafiqətnamə yazmağa hazır olduğumuzu elan etdik Bəyat isə şəxsən Azərbaycanın milli xüsusiyyətlərinə malik olduğunu irəli sürməklə mərkəzdən məxsusən onun nümayəndaşı Bəyatdan heç qünə qarardad yazıb imza edə bilməyəcəyini, fəqət bizim fikrimizi öyrənib, və ya bizim kətbi pişnəhadımızı alıb, Tehrana yetirməyə məmur olduğunu bildirdi. Bu isə sadə vaxt qazanmaq üçün bizim başımızı qatmaq niyyətində olduqlarını göstərdi. Danışıq mülayim və eyni zamanda çox ciddi bir şəkildə davam edirdi. Nəhayət Riştəni bir dəfəlik qırmaq məqsədilə qərar qoyduq, ikinci dəfə haman məhəldə mülaqat etdik.

Bir neçə gündən sonra təşkil olunan görüşdə o vaxtadək firqə tərəfindən intişar tapan sitad və mədrəkləri onlara verməklə qənaətləndik. Danışıq isə aşağıdakı təfsil üzrə idi.

**Bu qismətdə çox müfəssəl olaraq,Izah edilməlidir**

Bu zaman milli heyətin rəisi Ağayi Şəbüstəri danışığa başlayaraq, dedilər ki, 1320-ci ilin şəhrivər ayından bəri Azərbaycan milləti dəfələrlə mərkəzi hökumətə müraciət edərək qanun əsasının unudulmuş maddələrinin icra edilməsini tələb etmişdir. Lakin mərkəzi hökumət bu tələbləri heç vaxt təvəccüh etməyibdir. Indi millət öz hüququndan müdafiə etmək üçün şəxsən qiyam edərək, Azərbaycan Milli Hökuməti və Milli Məclisi təşkil verməklə öz daxili işlərini demokratik üsullar üzrə idarə etmək istəyir.

Ağayi Dövlətşahi dəstgahının fəsadi onun islah olunmasnın qəti lüzumu xüsusunda danışaraq dedilər ki, siz qanun əsasilə

qeyd olunmuş həmin əyaləti və vilayəti əncumənlər vasitəsilə dövlət məmurlarının işlərini kontrol edə bilərsiniz.

Ağayi Pişəvəri cavab verdilər ki, qanun əsasının maddələrindən bir çoxu bu axırıncı 25 ilin içərisində dəyişilmişdir. Məsələn, Rza şah Qacar ailəsinin şahlığına aid olan maddəni ləğv edərək, onun yerinə öz padşahlığını yerləşdirmişdir. Ya qanun əsasının mövcibincə İranın mələkəsi (şah arvadı) Iranlı olmalı idi. Halbuki indiki mələksi qanun əsasının əksinə olaraq misirlidir.

Bu müddət içərisində qanun əsasinin üsulu ayaq altında tapdalanmış və ondan bir zad qalmamışdır. Əyaləti əncumənin müqəddəratı mərkəzi təsmimlərə bağlıdır, indiki şəraitdə əyalətlərdə dövlət işlərini kontrol edə bilən elə qüdrətli bir qaranti ola bilməz.

Lakin Azərbaycan Müəssisan-Məclisini əyaləti əncumən təşkilatını biraz genişləndirib, mərkəzi hökumətin təcavüzlərinin qarşısını almaq və yerli ehtiyacları milli tələblərə əsasən rəf etmək üçün onu bir daxili milli məclis şəklində saxlamağı səlah gördü. Ağayi Bəyat isə yersiz sizin muxtariyyatınız hansı hüdudda olsun, deyə sual etdilər. Ağayi Pişəvəri cavab verdilər ki, biz heç vaxt ayrılmaq fikrində deyilik. Biz İran sərhədləri içərisində İran bayrağı və ümumi adilanə qanunların altında öz daxili işlərimizdə ixtiyarlı olmağımızı istəyirik. Bizim pulumuz haman İran puludur. Məclisi-Şurayi-Milliyə nümayəndə göndərəcəyik və malımızdan bir hissəsini qoşun saxlamaq, ya xaricdə olan siyasi nümayəndələr və sair ümumi məxaric üçün mərkəzi dövlətə verəcəyik. Lakin biz istəyirik ki, öz məsuliyyət daşıyan daxili hökumətimizin əlilə maliyyətin qalmasını maarif-səhiyyə və başqa ictimai və iqtisadi işlərimizin inkişafı üçün məsrəf etməyə haqlı olaq.

**Azərbaycan nümayəndə heyətinin ağayi Bəyat ilə apardıqları danışıqlar**

Keçən səhşənbə günü saat 10-da əvvəlcədən açılan qərara görə ağayi Pişəvəri, Şəbütəri, Biriya və İbrahimidən ibarət olan Azərbaycan milli heyətinin nümayəndələri ilə Tehran Mərkəzi hökumətin nümayəndələri ağayi Bəyat və Dövlətşahı arasında ağayi Sərrac Milar (Zəkaül-dövlənin) mənzilində bir para rəsmi danışıqlar əmələ gəldi ki, tarixi cəhətdən əhəmiyyətə malik olduğuna görə onun rəsmi hissəsinin burada qeyd olunur. əvvəlcə ağayi Bəyat bir neçə gün əvvəl ağayi Pişəvəri ilə onların arasında gedən danışıqların ətrafında müxtəsərcəsinə danışıb, öz məmurlarının haqqından mərkəzi hökumətin və əla həzrət humayunun tərəfindən nümayəndə olduqlarını və bu məmuriyyətin Azərbaycana qarşı son dərəcədə əlaqədar olduqlarına görə öz öhdələrinə aldıqları xüsusilə qeyd etdilər.

Sonra Azərbaycan Demokrat Firqəsinin rəhbərliyi altında bütün Azərbaycan üzərində əmələ gəlmiş milli hərəkatın əhəmiyyəti və bu nehzətin nəticəsində təşkil edilmiş milli konqrə (Azərbaycan Milli Məclisi) və Azərbaycan milli heyəti iş üstə gəlməsi haqqında danışıb, axırda qeyd etdilər ki, bir neçə gün əvvəl Ağayi Pişəvəri ilə danışıq apardıqda belə qərar gəlmişdik. Ağayi Pişəvəri Azərbaycan millətinin tələblərinin siyahısını mərkəzi hökümətə xəbər vermək üçün onlara göstərsinlər. Bu zaman Ağayi Pişəvəri milli Müəssisan Məclisi tərəfindən milli heyətə verilmiş ixtiyaratın hüdudu və məmuriyyətlərinin barəsində tozih verib, habelə milli konqrənin təsvibinə yetişmiş və əlahəzrət hümayuni, rəis məclis, baş vəzir və demokrat dövlətlərin siyasi nümayəndələrinə müxabirə (teleqraf) olunmuş elamiyə (deklarasion) dan və habelə 14 (təqsimat çahadəhganə) hissədən ibarət olan təsmimlərdə və Müəssisani-Məclisinin təsvibinə yetişmiş bəyaniyədən bir nüxsə Ağayi Bayata göstərdilər. Xüsusilə qeyd etdilər ki, bizim əsas tələblərimiz Azərbaycan milli konqrənin tutduğu təsmim mövcibincə təyin olub və bu elamiyələrdə qeyd edilmişdir.

Ağayi Pişəvəri yenə əlavə olaraq, dedilər ki, milli heyət konqrə tərəfindən tapşırılmış vəzifələri son dərəcədə ciddiyyətlə yerinə yetirib, seçki işini müvəffəqiyyətlə əncam verib və bir neçə günə qədər də Azərbaycan milli məclisi təşkil tapacaq. Öz tərəfindən bir dövlət heyəti intixab edib Azərbaycanın daxili işlərinin idarə etməsinin öhdəsinə alacaqlar.

Ağayi Bayat elamiyəni mütaliyə etdikdən (oxuduqdan) sonra muxtariyyatdən məqsud nədir, deyə sual etdilər. Insan bu kələmədən qorxur. Başqa bir zad onun yerinə qoyulması yaxşıdır dedilər. Ağayi Pişəvəri milli muxtariyyət sözünü izah etmək və mövzunun aydınlaşması üçün Amerika Birləşmiş Ştatlarını misal olaraq deməklə bərabər, Azərbaycan xalqı üçün milli muxtariyyatın nə kimi əhəmiyyətə malik olduğu haqqında danışırdılar. Xüsusilə qeyd etdilər ki, bizim millətimiz adab və ənənələrimizə məfkurə və şüarlarımız, dil-maarif, mədəniyyətimiz, bir sözlə, ölkəmizin bütün təbii və iqtisadi şəraitini bizə milli muxtariyyətimizdən istifadə etmək icazəsi verir. Milli muxtariyyət Azərbaycan millətinin tələblərinin qarantisinin icra zaminidir. Bundan ötrüdür ki, Azərbaycan millətinin etdiyi demokratik hərəkatı mərkəzi hökümətin iğfal və aldadıcı siyasəti nəticəsində məşrutiyyət inqilabi dövrəsi Xiyabaninin Qiyami kimi ortadan getməsin. Ağayi Bayat sual etdilər ki, məsələn, mərkəzi hökumətə nə miqdarda maliyat vermək istəyirsiz?

Ağayi Pişəvəri cavab verdilər ki, onun miqdarını təyin etmək çətin bir iş də deyildir. Siz bizim tələblərimizin əsaslarını qəbul edin. Sonra cüztiyyatın təmin etmək üçün asanlıqla iqdam edə bilərik.

Ağayi Bayat dedilər ki, xeyir. Gəlin əvvəlcə həmin cüziyyatda razılaşaq, razılaşmaqdan sonra əsas qismətlərdə bir ad tapılacaqdır.

Ağayi Dövlətşah da Ağayi Bayatın köməyə çataraq əlavə etdilər ki, məsələn, sizin Milli Məclsinin qoyulmuş

qanunlarının əsərinin Məclis-Şurayi-Milli qanunlarının hansı hüduda qədər Azərbaycanda icra olunacağını əvvəlcə biləк. Bu sualata cavab verildi ki, əlbəttə, qanunları vəz etdikdə Azərbaycanın daxili xüsusiyyətləri nəzərə alınmalıdır. Ağayi Bayatın işin cüziyyatı haqqında razılaşma əmələ gəldikdən sonra əsaslı qismətlər də Azərbaycan milli heyətinin bizim əsas tələblərimiz qəbul olunduqdan sonra cuzi məsələlər və onların hüdudunu təyin etmək barəsində danışıq əmələ gəlməsi ətrafında olan nəzəriyyələr xüsusunda mübahisələr oldu.

Mərkəzi Hökumət nümayəndələrinin nəzərini qəbul etdirmək üçün etdikləri təkidlər, mərkəzin heç vəchlə Azərbaycan millətinin əsas tələbləri ilə razılaşma fikrində olmadığının və yenə də vədə və vəid və iğfal siyasəti ilə Xiyabani, Qiyami və mşrutiyyət inqilabının ozaini (vəziyyətini) təkrar etmək üçün fürsət əldə etməyi aydıncasına göstərirdi.

Lakin bu kimi fikirlərin qarşısında lap aşgarcasına cavab verildi ki, keçmiş iştibahlar bir daha təkrar olmayacaq və Azərbaycan milləti konqrənin təsmimlərini yerinə yetirəcəkdir. Mərkəz müvafiqdə belə buyurub, zor və islah ilə öz arzusuna yetişmək uğrunda xalqı öldürsün.

Mərkəz nümayəndələrindən milli muxtariyyət və milli konqrənin təsmimlərini kənara qoymaq xusunda öz nəzərlərini belə dedi və təzədən müfəssəl bəhs olundu. Ağayi Biriya cavab verdi ki, milli konqrənin təsmimlərini də genişləndirməyə bizim haqqımız yoxdur və bu iş bizim səlahiyyətimizdən xaricdir. Biz nə qiymətə olursa-olsun öz milli muxtariyyatımızı əldə etməyəcəyik. Lakin mərkəzi nümayəndələr bizim konqrəmizə və Azərbaycan millətinin əsas tələblərinə əlaqədar olduqlarını deməklə bərabər hazırda öz nəzəriyyələrindən əl çəkməyi bildilər. Buna görə bu xüsusda müfəssəl danışıqlar getdi və razılaşmanın çətin və çox bir iş olduğundan sonra Ağayi Bəyat dedilər ki, mən şəxsən Tehrana gedib, ağaların nəzərlərini əlahəzrət humüuyni və dövlətə itlaa

verəcəyəm. Milli heyət nümayəndələri ilə mərkəzi hökumət nümayəndələrinin danışığı təqribən bir saat günortadan sonra bir nəticə alınmadan sonra çatdı. 20 azər 1324 il tarix. Bu müzakirədən sonra Ağayi Bayatın Təbrizdə ustandar sifətilə qalmasının heç bir mənası yox idi. Əgərçi (baxmayaraq ki,) onun vücudu qəti mərhələyə yetişmiş nehzətin pişrəftinə mane ola bilməzdi. Lakin onu ləkədar edə bilərdi. Biz istəyirdik ki, qansız nehzət başa gəlsin, ölkənin əmniyyəti xəlaldar edilməsin. Bayatın Təbrizdə rəsmən hökumət olaraq, qalması ilə əmniyyət pozula bilər və iş qanlı mübarizəyə dəxi müntəhi ola (sona çata) bilərdi. Bir də Milli Məclis, Milli Hökumət, milli muxtariyyətlə düz gəlməyəcək idi. Onsuz da bu iş Azərbaycanda iki ay tamam idi ki, iki hökumətlik dövrəsi keçirirdi. Artıq bu vəz davam edə bilməzdi. Ona görə Azərbaycanda milli heyətin qərarı üzrə ağayi Bayatın yanına rəsmi bir heyət göndərib, onun Azərbaycanı tərk edib, getməsi lüzumunu bildirdik. O isə heç bir qüdrət və köməyə dayana bilmədiyi halda özünün orada qalması üçün israr etməsini zərərli hesab etməsinə görə bizim pişnəhadımızı qəbul etdiyini bilirdik.

Bayat əgərçi bizim ilə aparılan danışıqları özünün məsələnin həlli üçün Tehrana getməyi hazırlandığını bildirmişdi. Lakin bu getmək rəsmən bizim pişnəhadımızın hesabına yazılan bir iş idi.

Aşağıdakı tozihatı milli azadlığımız yolunda faciəli bir surətdə edam edilən Firidun İbrahiminin qələmilə farsca yazıdıb "Azərbaycan" ruznaməsinin 76 şumarəsində dərc edilmişdir.

Biz bu məqalənin tərcüməsini tamamilə burada dərc etməklə o gün bizim öz şüarlarımıza olan əlaqəmiz və Tehran hökumət nümayəndəsinin bizim nehzətimizə nə gözlə baxdığını oxucu şəxsən biqərəzlik göstərdiyinə görə Azərbaycanda istər nehzətdə şirkət edənlər, istərsə, xalq tərəfindən məhrəmanə (gizli) bir surətdə qəbul edilib, kamali-

nəzakət və ehtiram ilə yola salındı. Biz kamilən (küllü) biqərəz (qərəzsiz) olduğumuzu isbat etmək üçün onu təyyarə meydanınadək müsaiyət etdik. Mən şəxsən təyyarə meydanında ona tələbatımızı qəbul etmək şərtilə Tehran hökuməti ilə hər gün müzakirəyə hazır olduğumuzu bildirdim. Ona dövlətin silah gücü ilə Azərbaycan nehzətini yaratmağının zərərlərini sayıb, göstərdim.

Əlbəttə, o gün Tehran hökumətində belə bir qüdrət yox idi. "Fərz mahal – mahal deyil" məsələsi mövcibincə mən ona dedim: "Əgər Tehran xarici imperialistlərin göstərişi və köməyi ilə bizim nehzətimizi üzməyə müvəffəq olsa belə xalqımızın haqqını əbədi olaraq ğəsb edə bilməyəcəkdir. Tez ya gec azərbaycanlı öz istədiyini alacaq, öz müqəddəratını özü təyin edəcəkdir. Tehran əgər sülh və saziş yolu ilə irəliyə gələrsə, ortada pərdə yırtılmaz və faydasız qanlar tökülməyəcəkdi, düşmənlik yaradmaz, Tehran və nə qədər əhəmiyyətsiz hesab etsə belə, bu məsələ Tehran ilə Təbriz arasında bir cığır hadisəsinin açılmasına səbəb olmuşdur. Sabah təzahür edilmiş qanlı bir hadisə qabağa çıxarsa, bu cığır dərinləşib, keçilməz bir vəziyyət kəsb edə bilər. Tehranın səlahı millətini və dilini rəsmi tanımaqdadır".

O mənə bu sözlərin rəsmi məqama yetirəcəyinə söz verdi.

Istədiyimizə görə Bayat Tehrana müraciət etdikdə Azərbaycanda həqiqətən böyük bir nehzətin başlandığı barəsində rəsmi məqamlarda və xüsusən Məclisi-Millidə etdiyi bəyanatında olduğca bitərəf bir ləhnlə izhəri-əqidə etmişdir.

Əksəri mürtəcelərdən olan məclsin nümayəndələri xarici imperialistlərin oynayan Həkimül-mülk və ümumiyyətlə İngilis və Amerika sərmayədarlığının quyruğunda Tehran heyəti-hakiməsi isə öz tutduğunu buraxmaq fikrində olmadığından onun nisbətən bitərəf sözlərinin belə xalq içərisində intişar tapmasına mane oldular.

Bu bəyanatdan sonra Tehranın mürtəce ruznamələri məxsusən Seyid Ziya və onun əvvan və ənsari tərəfindən

qaldırılan hay-küy daha da şiddətlənməklə danışıq emidinə xatimə verildi. Azərbaycanda iş gözlənilmiş surətlə yox nehzət çərçivəsindən qırağa çıxıb qüvvətlə hərbi şəkil aldı. Gələcək qismətdə göstərəcəyimiz təfsil üzrə Azərbaycanda iki hökumətlik dövrəsi xatəmə tapıb, iş xalqın intixab etdiyi Milli Hökumət əlinə keçməklə nə tək Azərbaycan, bəlkə bütün İranda yeni bir dövr başlandı.

**Kəndli 21 Azər günlərində**

Azərbaycan kəndlisinin qərzlər boyu ağır və taqət fərsa zülüm və əsarətə məruz qalıb, qullar və əsirlər kimi maliklərin keyf mayəşalərinə qurban olduğlurını qeyd etmişdik. Xalqın əksəriyyətini təşkil edən bu zəhmətkeş camaatın cahan müharibəsi başlanmasının süqutu ilə dil, mətbuat və ictimayyətin müvəqqəti olaraq, azad elan edilməsi nəticəsində ağır yuxudan oyanıb, özünün insanlıq haqqını tələb etməyə yoluna qədəm qoymuşdu. Hələ müttəfiqlərin vürudilə 1941 və 1942-ci illərdə Azərbaycanın bəzi kəndlərində təbii olaraq və təşkilatsız bir şəkildə kəndli üsyanlarının baş qaldırmağını yazmışıq. Onların müsbət bir nəticəyə yetişmədiklərinin illət və səbəblərini göstərmişdik. Firqəmiz təşkil tapdıqdan sonra nə tək Azərbaycanda, bəlkə bütün İranda demək olar ki, şərait dəyişmişdi. Kəndli istər-istəməz özünün arxasında böyük bir qüdrət hiss etməkdə idi. Doğru, biz öz məramnaməmizdə malikiyyət haqqına etiraf etmiş (xalisən və xalq düşmənləri sırasına keçən böyük mülkədarlar olmaq üzrə) yerlərin maliklər əlində qalmasını təsdiq edib, fəqəd kəndli ilə ərbab arsında adilanə bir qərar düzəldilməsini lazım görmüşdük. Buna baxmayaraq, kəndli bizim nehzətimizdən böyük ümüdlər gözləyir. Tez ya gec ərbabın şərrini öz başlarından qəti və əbədi olaraq rədd etmək ümidində idi.

Bununla belə günün şəraitini nəzərdə tutmayıb, sabiqki, kimi vəhşiyanə hərəkatında davam edən ərbablar kəndlinin

şədid müqavimətinə təsadüf edərək bir həyacana dönmüş öz istədiklərini zorla almağa çalışırdılar. Hətta bu səbəb nehzətimizin başlandığı günlərdən kəndli ilə ərbab məsələsinin həlli firqəmizin qarşısında duran ən mühüm məsələlərdən biri hesab olunmağa başlamışdı. Bu məsələnin adilanə bir surətdə həll etmək üçün hələ Bayat Azərbaycanda olduğu vaxt firqə tərəfindən malik ilə kəndli nümayəndələrindən ibarət bir heyat intixab edilib hər iki tərəfin pişnəhadlarını kağız üzərinə gətirib firqənin mərkəzi komitəsinə təqdim etmişdi.

Müfəssəl müzakirədən sonra qəbul edilən və nədə bir nüfuza malik idi. Eyni zamanda özü böyük maliklərdən, maliklərin və şahın tərəfi-etimadı (inamlı) hesab olunurdu.

Onun Təbrizə göndərilməsi çox hiylə və şeytənətamiz bir məsələ idi. Hakimül-Mülki, yuxarıda tanıdığımız adamı bu işə təyin etməklə, əvvəla ciddi bir rəqibi mərkəzdən uzaqlaşdırır. Saniyən (ani) onun tərəfdarlarının ağızlarına sümük atmış, üçüncü isə onun bizimlə saziş edə bilməyəcəyinə inandıqlarından biri və onu ləkələndirmək üçün zəminə hazırlanmışdı.

Işin gedişi bizim bu iddiamızı tamamilə isbat etdi. Bəyat onunla apardığımız danışıqlarda özünün heç bir ixtiyara malik olmadığını isbat etməklə istər-istəməz həkiminin siyasətini bizim nəzərimizdə aşkara çıxarmaqdan özünü saxlamağa müvəffəq olmadı.

Həkiminin bizi hiylə yolu ilə əzmək tədbirlərindən birisi də onun əyalət və vilayyət əncümənləri barəsindəki tədbirlərdən ibarət idi. O Sədrül-Əşraf kimi bu əncümənlərin qabağını almaq üçün gülünc dəlil və sübutlar gətirməyib sadə bir surətdə onların dəvət və təşkil edilməsi lüzumunu elan etdi. O bu vasitə ilə öz yanında bizim təbliğat bəhanələrimizi əlimizdən almış olduğunu düşünürdü.

O fikir edirdi ki, Məclisi-Şurayi-Milli kimi əncümənləri də elə təşkil etmək olar ki, xalq hakimiyyətinin əsasını təşkil etmək əvəzində xalqın azadlıq hüququnu tapdalamaq üçün

qauuni bir vasitə ola bilsin. Onun niyyəti bu idi. Sadə bir surətdə bir ox ilə iki nişan vurmaq istəyirdi. Həkiminin tədbirlərindən birisi də bizimlə saziş danışıqlarına başlanmaqdan ibarət idi. Qısa bir müddət minlərcə teleqraflara cavab verməyə bir mütəqabil (qarşılıqlı) müvafiqətnamə ərbabların maliyat haqqı təsdiq edilməklə bərabər, vergi müəyyən bir hüdudla məhdud olar. Ərbabların o günədək kəndlilərdən aldıqları izafi vergilər və bədətləri götürməklə kəndlilər hər bir qərara görə o günədək vergidən əlavə alınan xərmənçilik, döşək pulu, yağ, yumurta və sair qeyri-rəsmi vergilər tamamilə ləğv edilmiş sulu yerlərdən yetişdirib bir və dəmi yerlərdən isə doqquzda iki maliyyət haqqı verilməsi qərara alınmış, bu yol ilə məsələ sadələşdirilib hər iki tərəfin təklifi aydınlaşdırılmışdır Yerli firqə təşkilatlarında kəndli ilə malik arasında çıxan ixtilafların bu qərar üzrə həll edilməsi tapşırılmışdı.

Hətta vaxtında ağayi Nikcu vali vəzifəsindən yox olaraq, izah edərkən o bizim təşkil etdiyimiz komisyonun qərarını rəsmi olaraq bəxşdar və Şəhridara belə elan etmişdi. Bu işin zahiri tərəfi idi, həm də aqilanə bir surətdə düzülmüş bir iş idi. Lakin əməldə kəndli də, ərbab da onu icra etmək istəmirdilər. Bir tərəfdən ərbabların əksəri məxsusən müharibə nəticəsində varlanıb, maliklər sırasın keçən bazar dəllalları kənd məhsulunun baha qiymətə getməyi hesaba alıb bir qədəm də olsa dala çəkilmək istəmirdilər. Onların fikri-zikri kəndlinin dərisini soyub, qanını içərək sərvət toplamaq və yeni kəndlər ələ keçirmək olduğundan gözlərini açıb, mühiti və gündən-günə şiddətlənməkdə olan xalq hərəkatını görə bilmirdilər. Ona görə bacardıqları yerlərdə müstəqimən öz qollarının gücü ilə bacarmadıqları yerlərdə jandarmlar və ədliyyə məmurları kənd xuda, dəhdarlar və baxşdarlar köməyi ilə hər il aldıqları vergilərdən daha artıq vergi almaq, daha yeni bədədlər ixtira etməyə çalışırdılar.

Digər tərəfdən özünün arxasını möhkəm hiss edib firqəmizin qüdrətinin artmasına görə kəndlilər isə baltanı dibdən vurub ərbabı yaxına qoymaq belə istəmirdilər. Yüzlərcə Azərbaycan kəndlərində yaşayan kəndlilərin böyüklü kiçikli, arvadlı-kişili, ümumiyyətlə firqəmizə yazıldıqlarının bir böyük səbəbi də bu idi. Firqə isə milli demokratik hərəkat etdiyindən, malik və rəiyyətin hər ikisinin əməliyyatını yumşatmağa çalışırdı. Daxili, milli mübarizə və vətəndaş müharibəsinə dönmək istəmirdi.

O gün bizim üçün ərbabı əzib ortadan çıxarmaq şüarilə çalışmaq nehzətin irəli gəlməsindən sərfi-nəzər etmək demək olduğundan kəndli və ərbab münasibəti mövzusunda çox ehtiyatlı bir surətdə hərəkat etmək lazım idi.

Kəndliyə ehtiyacımız var idi. Çünki firqəmizin arxası və qolunun qüvvəsi ondan ibarət idi. Onu məyus edib, yerində oturmaq olmazdı. Ərbabların mütərəqqi qismi isə bizimlə həmkarlıq edib, milli şüarlarımızın icrasında fədakarlıq göstərdiklərinə görə onların nehzətindən uzaq qalmağı dəxi düzgün ola bilməzdi.

Əgərçi bizim əqidəmizcə nehzətin eyni zamanda təbəqati cənbəsi var idi. Vəli onu bir şüar olaraq meydana atmaqla Azərbaycanda əksəriyyəti təşkil edən xırda malikləri özümüzdən uzaqlaşdırmış olurduq. Məsələ olduqca incə idi. Hətta firqəmizin içərisində bu xüsusda narazılıq hiss olunurdu. Dövlət idarələrində ədliyyə dairələrindən qəti bir cavab görməmiş kəndlilər dəstə-dəstə firqə komitəsinə gəlib oradan öz dərdlərinə əlac tələb edirdilər. Onların dərdlərinin əlacı o gün bizim imkanlarımızdan xaric idi.

Gündəlik cari işə başımızı qarışdırsaydıq, qitən 21 Azər nehzətini vaxtında təşkil edə bilməzdik. Ona görə qəti surətdə bəzi yerlərdə kəndli hərəkatının qabağını almağa məcbur olurduq.

O günlərdə bəzi Hizbi-Tudə üzvləri sadiq Tudə namına Tudəni irəli çəkib, mitinq, nümayiş vermək və tək-tək

ittifaqlarda dövlət məmurlarının yerində oturmağı təklif edirdilər. Bu isə bizi təqib etdiyimiz yoldan çıxarıb, xırda macəralarla vaxtımızı əlimizdən ala bilərdi. Ona görə o gün bu kimi şüarlarla təzahür edən sabiq Tudə firqəsi başçıları ilə də üz-üzə gəlib onların solçuluqlarının qabağını almağa məcbur olurduq.

Yuxarıda göstərdiyimiz əsas səbəblərə görə kəndlinin maliki kənddən qaçırıb, torpağı əlinə keçirməsi malikin keçmiş əsarət və dərəbəylik üsulunu saxlamağa çalışmasına görə kəndlərdə mübarizə get-gedə şiddətlənir. Tehrandan müstəqim surətdə nehzəti boğub demokrat firqəsi üzvlüyünə yazılan kəndləri əzmək yolu ilə firqənin inkişafına və kəndlərdə nüfuz salmasına manelər törətmək üçün dəstur alan jandarmlar isə özlərinin vəhşiyanə hərəkətləri ilə bu mübarizənin daha şədid bir hal almasına bais olurdular.

Jandarmların və dövlət məmurlarının himayət etdiyi ərbablar isə daha həyasızlaşıb kəndlilər üzərində fişar və əzablarını daha artırmağa çalışırdılar. Ona görə nehzətimiz qəti mərhələyə varid olduğu günlərdə bütün Azərbaycan kəndliləri jandarmların zülm və əsarətindən cana doyub, səslərini ucaltmaqda idilər. Jandarmlar ərbabların köməyilə kəndliləri tutur, evləri yıxır-dağıdır, bərbad edir. Bir parası kiçik etiraz etdikləri halda jandarmlar dəstə-dəstə gətirib öldürüb, nəfəslərini kəsməyə çalışırdılar.

Bu işdə Tehran çox şeytənətamiz hiylələr işlədirdi.

Həkimi bizim maliklərlə raiyyət arasında qurub, düzəltdiyimiz müvəfiqətnaməni qeyri-qanuni adlandırıb, jandarmlara tapşırmışdı. Ərbabların kəndi istədiyi vergiləri vüsül etmək (almaq) üçün müstəqil surətdə rəftar etsinlər. Halbuki, qanun mövcibincə jandarm məmurlarının hüquqi işlərə müdaxilə etmək ixtiyarı yox idi. ərbab fəqət məhkəmə vasitəsilə istədiyini vüsul etməli idi. Bədbaxtlıq bundadır ki, İranda heç vaxt qanun müraat olunmamış məxsusən kənd, məşrutə və ədliyyədən bəhrə aparmışdır. Məsələn, nehzət

başlamadan əvvəl ağayi Əziman Azərbaycanda müddəyiül-ümumluq vəzifəsini ifa edərkən bu məsələni irəli sürüb, jandarm başçılarını və ümumiyyətlə jandarm və polis məmurlarının hüquqi işlərə qarışmasına etiraz etdiyinə görə onu işdən ixrac edərək Tehrana aparmış, orada uzun müddət işsiz qalmağa məcbur etmişdilər. Məşrutəxahlıq iddiasına baxmayaraq Həkimi Azərbaycanda əmniyyəti pozub şureş etmək üçün açıq surətdə qanunu ayaq altına alıb, maliklərin vergi məsələsini jandarm məmurlarına kif mayəşayanə tapşırmaqla qanun məşrutə üsuluna böyük və şiddətli zərəbələr endirməkdə idi. Bu isə Azərbaycanın mürtəce maliklərindən olan məclis nümayəndələrinin göstərişi ilə əmələ gəlmişdi.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, İranda hələ indiyanədək kəndli ilə ərbabın münasibətini təyin etmək üçün heç bir qanun qoyulmamışdı. ərbab istədiyi vaxt özündən yeni vergi ixtira edir və onu vüsul etmək üçün heç bir mümanetə təsadüf etmir. Bununla belə bənabərin əgər, haman qələd İran qanunu əsası nöqteyi-nəzərindən belə yazılsa, dövlətin jandarm vasitəsilə ərbab üçün vergi toplamağa ixtiyarı ola bilməzdi.

Iki vətəndaşın bir-birindən olan iddialarını təyin etmək ədliyəyə və məhkəməyə aid olan məsələdir. Onu başqa bir yol ilə həll etmək fəqət müəyyən məqsəd üzərində idi. Əslən məhkəmənin rəsmi qərarı və müddəyül-ümumun əmri olmadan İran qanun əsası mövcibincə kimsənin azadlığını məhdud etmək, evinə daxil olmaq olmaz. Buna baxmayaraq, o günlərdə Həkiminin əmri mövcibincə Azərbaycan kəndlilərinin özləri qarət olunub, jandarmlar tərəfindən öldürülmüşdü.

Iş bununla qurtarmış olsaydı dərd yarı idi. Bədbəxtanə dövlətin təmayül və başda duranların işarəsini görən jandarmlar həbs, rüşvət almaq, qonaqlıq və cürbəcür yollarla qarətkarlıqlarına idamə verməklə bərabər, axır zamanlarda onları döyüb öldürmək və ya namus və heysiyyətlərinə təcavüz etməkdən belə geri durmurdular.

Onlar dəxi bəzi yerlərdə ərbabların xəbəri olmadan özləri müstəqimən kəndə gedib, ərbabın bəhrəsini artırmaqla vüsul edərək, öz ciblərinə tökür, eyni zamandan ərbabdan dəxi iş xərci almağa çalışırdılar.

Misal üçün "Azərbaycan" ruznaməsinin 56-cı nömrəsində yazılan baş məqalə ilə orada dərc edilən xəbərlərin bəzisini burada nəql edirik.

***Cinayətlərin mənşəi***

*"Əmniyyətdən danışdıqda nəzərə dərin və xəlvət yollar və dərin dərələr, uzaq dağlar gəlir və oxucu elə xiyal edir ki, əmniyyətsizlik fəqət bu yerlərdə yol kəsənlər vasitəsilə ola bilər. Müruri-zaman ilə çox ibarətlər həqiqi mənasını itirdiyi kimi, bu ibarətdə indi öz mənasını verə bilməz. Əminyyətsizlik uca dağlar, xəlvət dərələrdən kəndlərə və şəhərlərə çəkib ac, çılpaq, yoxsul və binəva xalqın verdiyi ağır maliyatlarla saxlanılan dövlət məmurları həramilər və yol kəsənlərin işini öz öhdələrinə götürmüşlər.*

*Indi ölkəmizdə heç kəs üçün əmniyyət yoxdur. Dövlət silahı ilə mücəhhəz olan jandarm özünü kəndlərdə hakim mütləq bilir.*

*Kəndlinin çörəyini, toyuğunu, yumurtasını, yağını zəhri-mar elədikdən sonra onun namusuna və canınına təcavüz etməkdən çəkinmir. Bir vaxt babi adı xalqı soymaq üçün bir bəhanə idi. Hər kəsin bir parça çörəyi var idi, onun üstünə bir ad qoyub, ayaqdan salırdılar. Indi də azadixahlıq və firqə üzvlüyünü cənab vəkil baş babilik kimi töhmət vasitəsi qərar verib, bu ünvan ilə göz çıxarır, baş kəsir, gön soyur, dodaq kəsdirir, ev qarət edir, öküz və inək aparılır. Indinin əmniyyətsizliyinə bir qədər diqqət olunursa, bərbəriyyət (quldarlıq) dövrəsində nəzəri olmadığı gözə çarpar. Səədi demişkən: "Xalqın əl-ayağını bağlayaraq, boynuyoğun oğru, qatil və yolkəsəni "Berno" tüfəngi ilə silahlandıraraq belə*

*göstəriş vermişdilər: vurun, döyün, nəfəsi gələn bütün adamların atasını yandırın". Ədliyyə məmurları isə dəstpərvər (tərbiyyə olunmuş) də simurq olduqlarından jandarmlardan ayaq dalı qoymurlar. Bunların biürzəliyi (yaramaz) və cinayətkarlığı səbəb ilə canilər, qatillər öz məqamından sui-istifadə edən dövlət məmurlarının cinayətlərinə baxan yoxdur. Onun əvəzində yüzlərcə kəndliləri əsir kimi dəstə-dəstə gətirib, məhkəməsiz, zindanlara doldurub, xalqın rişəsini kəsməkdə davam edirlər.*

*Qoy açıq deyək, indi əmniyyətsizlik sərçeşməsi ədliyədir. Ədliyyə məmurları öz vəzifələrini əncam vermək əvəzində şərik dozd yari-qafilə (oğrunun şəriki karvanın köməkçisidir) rolu oynayıb, əmniyyəti xələldar edirlər. Onların pul və nüfuz vasitəsilə cinayətkarları azad qoyub, bigünah kəndliləri toqifdə saxlayırlar.*

*Əmniyyələrin cinayətlərindən göz yumub, onların hüquqi işlərə müdaxələ etmələrinə açıq bir surətdə yol verirlər.*

*Məzlumların göz yaşları ilə yazdıqları ərizə və şikayətləri cavabsız qoyub, haradan mənfəət gözlənirsə, ora qaçırlar. Bunların bu kəsif hərəkətlərinin nəticəsində oğurluq, rüşvətxorluq, sui-istifadə, adi və təbii bir iş olmuşdur. Dövlət mizlərinin başında oturanların yuxarıdan aşağıya, yəni vəzirdən pişxidmətə (qulluqçu) qədər xalqı soymağı özləri üçün məşru haqqı-hesab edirdilər. Ajan və jandarm isə müstəqimən xalqla mərbut olduğu üçün bu kəsafətkarılğın məzhəri (nümunə) hesab olunur.*

*Bu günün əmniyyətsizliyi, bu günün yüksəlliyinin şəkli budur.*

*Artıq heç bir qaçaq yer və heç bir pənah yoxdur. Firqə işçilərimiz zülm və cinayətlərdən qaçıb firqə qapısına pənahəndə olan, məzlumların ah və naləsindən sühutə gəlmişdilər. Artıq çarə və əlac yolu qalmamışdır. Jandarm və ədliyyə baçşıları görünür, qəsdən və ümdə bu atəşə ətək vururlar, bundan sonra xalq öz başına çarə etməlidir. Qoy*

*dünya bilsin ki, 5-3 nəfər cinayətkarın əlində xalq nə günə qalmışdı. Qış gəlib qapını aldığı halda minlərcə kəndlilər ev və zindaganlıqlarını tərk edib, dağlarda yaşamağa məcbur olmuşdular. Dilənçiliyə məcbur olan ortabab əkinçilər naçar kəndliləri tərk edib şəhərlərə pənah gətirirlər. Bu cinayətrlərə gec-tez axır qoymaq lazımdır."*

***"Azərbaycan" ruznaməsinin***
***möhtərəm müdirinə.***

*"Biz kəndlilər sizdən xahiş edirik ki, bizim dərdlərimizi, münasibətlərimizi ruznamədə yazasınız. Qoy bütün camaat bilsin ki, bizim başımıza bu canilər nə oyunlar gətirir və bu mürtəce zalım jandarmların və bir əldə xain nökərlərin zülmündən ahu-naləmiz göyə dayanmışdı.*

*Hər gün bir bəhanə ilə biz günahsız kəndliləri qarət edib, arvad-uşaqlarımızı əsir edirlər. Bu soyğunçuların zülmündən cana gəlmişik. Biz kəndlilərin əllərini əkindən cütdən çıxarmışlar. Bizləri öz yerlərimizdən çöllərə, dağlara didərgin salmışlar.*

*Aman Qasım xanın və onun nökərlərinin əlindən.*

*Aman Abdulla xanın atlılarının zülmündən.*

*Allah aman, bizim bir xahişimiz var, o da budur ki, təvəqqö (intizar) edirik bu cinayətkarların, əşrarların (soyqunçuların) və bu qaniçən əmniyyələrin şərrlərini bizim başımızdan rədd edin.!"*

***Irtica ünsürləri kəndlərdə günahsız ünsürləri vəhşi bir surətdə qarət edib öldürürlər***

*Vayğanlı Həsən xan, Kəramnavlı Rzaqulu xan, Əli Bulağlı, Əli Mahmud, Kəlali Qasım xan, Luməli Ərsəlan bəy, Teymurbəyli Teymurbəy, Nuruş kəndxuda və Ozanlu Hüseyn öz*

*atlılar ilə və bir tərəfdən də mürtəce jandarm qüvvələri vasitəsilə kəndlərdə qarət etməyə başlamışlar.*

*28 şəhrivər 1324-cü tarixdə bu qansoranlar Mincivan mahalının Sütvan kəndində kəndli Həbib Əli oğlunu öldürmüşlər. Hatəm adlı bir nəfər kəndlini döydükdən sonra onum bığlarını yolub, diri-diri torpağa basdırmışlar. Qalan kəndlilər canlarının qorxusundan arvad-uşaqları ilə çöllərə və dağlara pərakəndə olmuşlar.*

*Aşuqlu kəndində Seyid İskəndərin xırmanını evinə yığıb, od vurmuşlar. Cəlal və İsmayıl adlı kəndlilərin evlərini qarət edib, özlərini də vəhşi surətdə döymüşlər. Həsən xan və Rzaqulu xan öz silahlı qüvvələri ilə Əhmədli kəndinə həmlə edib kənd əhalisinin bir çoxunu kənddən qaçırmışlar və Məhərrəm adlı kəndlinin taxılının böyük qismini yandırmışlar. Kəndlilər öz mal davarları ilə meşələrə qaçmışlar.*

*Aban ayının 3-də Sərənd qəriyəsində jandarm məmuru Xacə Qurbanəli haman kəndin ağsaqqalı Izzət adlı kəndlinin azadlıq üstündə əllərini baslamış (əzmiş) üzünü və saqqallarını yandırmışlar.*

***"Azərbaycan" ruznaməsi müxbirinin yaralanmış kəndli Zülfəli ilə müsahibəsi***

*"Sual: - Adın nədir?*

*Cavab: - Məşədi Zülfəli.*

*S: Hansı yerlisən?*

*C: Həştərudun Əcəm kəndlisi.*

*S: Ərbabınız kimdir?*

*C: Məmməd Sadıq xan Müctəhidi.*

*S: Səni kim yaralamışdır.*

*C: Mənim qolumu Məmməd Sadıq xanın nökəri Əbülhəsən Sasani öz nağanı ilə yaralamışdır.*

*S: Nə üçün səni güllə ilə vurdular?*

*C: Mənə əmniyyə gəlib dedi ki, səni ərbab çağırır.*

*S: Siz getdinizmi?*

*C: Bəli. Məndən başqa da ərbabın evində 8 nəfər rəiyyət hazır idilər.*

*S: Ərbab sizi nə məqsəd üçün çağırmışdı?*

*C: Ərbab dedi buğda və arpa bəhrəsinə nə deyirsiniz və necə verəcəksiz.*

*S: Siz nə dediniz?*

*C: Bizim bəhrəyə sösümüz yoxdur dedik. Hər il nə cürdür, o cür də olacaqdır.*

*S: Ərbab daha nə istəyirdi?*

*C: Otlarımızdan də bəhrə çıxacağam dedi.*

*S: Siz nə dediniz?*

*C: Bizim sözümüz yoxdur.*

*S: Siz ərbabla harada danışırdınız?*

*C: Biz 9 nəfər rəiyyət ərbabın evində idik.*

*S: Ərbabın yanında kimləri var idi?*

*C: Ərbabın yanında bir nəfər baş qulaqlı Mirzə Qulam, iki nəfər əmniyə, bir nəfər hökumət məmur Əbülhəsən, iki nəfərdə öz nökərləri olan Əbdülhüseyn Sasani və ərbabın mehtəri Orucəli idi.*

*S: Ərbab sizə daha nə dedi?*

*C: Ərbab dedi ki, köpək uşaqları arvadları yox necə ki, indiyə qədər mənim üçün müftə biyara (pulsuz işləmisiniz) getmişsiniz, gərək bu gündən etibarən mənim nökərlərim üçün də biyarə gedəsiz.*

*S: Siz nə dediniz?*

*C: Biz dedik: "Başınıza dönüm ərbab, bizim taqətimiz yoxdur, biz sizin üçün biyara gedirik. Sizin nökərlərinizə müftə işləmirik".*

*S: Ərbab nə elədi?*

*C: Ərbab o dəqiqə nökəri Əbdülhüseynə əmr etdi ki, vur bu köpək oğlanlarını.*

*S: Sizlərdən kimi vurdular?*

*C: Əvvəl ərbabın nökəri Əbdülhüseyn öz nağanı ilə mənim çiynimdən güllə ilə vurdu. Mən də yıxıldım.*

*S: Sonra nə cür oldu.*

*C: Sonra ərbab öz əlindəki tüfənglə qardaşım Qulamı da vurub orada, öldürdü.*

*S: O biri kəndlilər nə elədilər?*

*C: Onların birisi Xanəli oğlu əmniyyənin tüfəngindən yapışmışdı ki, onu öldürməsin.*

*S: Bəs o vaxt nə oldu?*

*C: Ərbab Xanəliyə qışqırdı ki, köpək oğlu əmniyyənin tüfəngini boşla.*

*S: Xanəli nə deyirdi?*

*C: Xanəli deyirdi, axı ərbab əmniyyə məni öldürür.*

*S: Bu mövqedə ərbab nə etdi?*

*C: Ərbab Xanəlinin əmniyyənin tüfəngini boşlamaq üçün tüfənginin gülləsini açdı.*

*S: Güllə kimə dəydi?*

*C: Güllə Xanəliyə dəyməyib əmniyyə Orduxana dəydi və orada öldü.*

*S: Bəs, qalan kəndlilər nə etdilər?*

*C: Bu vaxt o biri kəndlilər evdən qaçaraq çıxdılar. Onlar canlarını qurtarmaq istəyiridi, lakin həyat qapısını basdırmışdılar. Onlar qaça bilmədilər.*

*S: Onlar necə oldu7*

*C: Ərbab, əmniyyə, nökəri Əbdülhüseyn və Hüseynqulu o kəndliləri tira-baran etdilər və onlarda iki nəfəri öldürdülər.*

*S: Onlar kimlərdir?*

*C: Həsənağa, Yusif Əli, Fətəli Mirzəli oğlu.*

*S: Qalanları necə oldu?*

*C: Yaralanmış surətdə yıxılıb, qaldılar.*

*S: Bəs ərbab və onun nökərləri hara getdilər?*

*C: Onlar qapını açıb atlarına minib getdilər.*

*S: Yaralılar necə oldu?*

*C: Hər kəsin adamları gəlib onları evlərinə apardılar.*

*S: Yaralılardan kimlər öldü?*

*C: Yaralılardan Məşədi Abdulla Nemət oğlu, Fətəli Mirzəli oğlu, yaraları bərk olduqları üçün öldülər.*

*S: O biri yaralılar haradadırlar və adları nədir?*

*C: Onların yaraları çox olduqdan indi Əcəmi kəndində evlərində yatırlar. Birinci İsmayıl Məmmədəli oğlu, ikinci Heydər oğlu, üçüncü Orucəli Məşədi Əmir oğlu, dördüncü Məşədi Bağır Zeynalabdin oğlu.*

*S: Bu ölənlərə kimlər gəlib, baxdı və dəfn etdi?*

*C: Sərvan dəbiri 18 əmniyyə və hökumət baxşdarı ilə xalqdan şallaq gücü ilə tozihat (izahat) aldılar.*

*S: Onlar daha nə etdilər?*

*C: Kəndlərdən Əjdər Əli və Həsənəli Əli oğlunu tutub apardılar, hal-hazırdada zindandadır.*

*S: İndi əsl qatillər haradadır?*

*C: Qatillərimiz azad surətdə şəhərdə gəzirlər."*

***Mürtəce jandarmlar Rzaqulunu necə öldürdülər***

*"Yoldaşlarımızdan biri mənzilimizə gəlib məni çağırdı və dedi ki, cənazəni gətirdilər. Mən onunla bərabər getdim. Cənazəni qaraja gətirmişdilər. Marağanın fərmandarı Dadistan baziraş (yoxlama) rəisi nəzmiyyə və kələntəri rəis jandarmeri orada bir iddə ayrı adamlarla durmuşdular. Ağayi Doktor Astani cənazəni müayinə edirdi. Orada ruhsuz cavan bir cəsəd görsənirdi. Onu loxt etmişdilər. Mən ona baxanda ürək yandırıcı bir mənzərə gördüm. Bədəni qaralmışdı. Başında böyük bir yara görünürdü. Onun bədənini sərnizə ilə surax-surax etmişdilər. Tüfəng qondaqlarının zərbələrinin əsəri bilinirdi.*

*Rzaqulu xan Iydəli kəndinin komitəsinin üzvü, Marağada mitinqdə şirkət etməkdən ötrü bir iddə ilə kəndlərindən çıxardılar. Hava soyuq olduğu üçün gecə Qulu kəndində*

*qəhvəxanada (çayxanada) qalırdılar. Gecə yarısı Əziz Mükri binanın rəis jandarmeri bir iddə əmniyyə ilə ki, onların 3 nəfərinə də kürd libası geydirmişdilər, oranı mühasirə edirlər. Bir iddə qaçır və 13 nəfərinin tutub Marağaya gətirirlər, Rzaqulu xanı da orada tutub qolların bağlayırlar. Sonra karvansaranın divarının dibində onun tüfəng sərnizə və at noxtəsinin zənciri ilə vurmağa başlayırlar. O qədər vururlar ki, ölür. Ondan sonra onu soyundururlar. Sərnizə ilə başından bir zərbə vururlar. Parçalanır. Zəncirin halqalarının yeri eynən onun bədənində qalırdı. Qabırğaları əzilmişdi. Bədəni surax-surax olmuşdu.*

*Bu faciəli mənzərəni tərif etmək mümkün deyil. Onun əksləri jandarmların etdikləri cinayətinin tərzini bizə güstərir. Murad əmniyyə indiyə kimi 20 nəfərdən artıq adam öldürübdür. Yenə də bu biçarə cavanı bu cür birəhmanə öldürüb. Indiyə kimi dövləti məqamatə Murad əmniyyənin indiki işlərin güzarişini veriblər və o cinayətkarı öz qanuni cəzasına yetirməyib və mövzunu rakid qoyublar.*

*Sərvan Abdini Marağanın jandarmeri rəisi istəyridi. Orada Rzaqulunun ölməyi bir ayrı cür cilvə versin. O xiyal edirdi ki, marağa xalqı onu binabdan Əziz Mükrini çağırıb və xüsusi bir dəstur ilə Qulu kəndinə yollamağın bilmirlər. Əziz Mükri nahardan qabaq motosikletlə Marağaya gəlib və Sərvan Abdinidən dəstur alandan sonra oraya getmişlər. Jandarmlar tamam kəndərdə öz vəhşi hərəkətlərinə və əmllərinə idamə verirlər. Biçarə kəndlilər indi bu soyuq havada evlərində yata bilmirlər. Jandarmlar edən cinayətlərin daha həddi-hesabı yoxdur. Heç bir məmləkətə indiyə kimi bu cür cinayətlərin sabiqəsi olmamışdı. Aya, harada indiyə kimi zəncir zərbəsilə adam öldürüblər? Faşizmin Rusiya ölkələrində etdikləri cinayətlər eynən jandarm vasitəsilə Azərbaycanda təkrar və təqlid olunur. Bu gün Azərbaycan xalqı hər cür tədiyyata bir dünyada ki, xalqlar sülh və demokrasi bayraqlarının altında yaşayırlar və bir dünyada ki, bəşəriyyət faşizm xətərini ləğv*

*etmişdi. Düzdür onların əziz və istəkli cavanların gözləri baxa-baxa jandarmlar bu cür ürəkyandırıcı bir vəziyyətlə öldürürlər.”*

Eynabad kəndində Sarvan Dəbiri bir iddə jandarm və ərbabların nökəri ilə kəndliləri tutub, səhərə kimi vurandan sonra onların qabağına arpa tökürlər və şallaq zərbəsilə onları arpa yeməyə məcbur edirlər. Kəndlilərin arvadlarını səhərə kimi öz otaqlarında saxlayırlar. Kəndli bu əhvalatı mənə deyəndə ağlayırdı. Boğz boğazının yolunu tutmuşdu. Bu qeyrətdən xəfələnmək istəyirdi.

Minlərcə bu cür cərəyanlar azərbaycanda vardır.

Ancaq məlum deyir ki, hansı qanun kəndliləri və ümumiyyətdə Azərbaycan xalqının bu vəziyyətlə ölməyə və gözləri baxa-baxa namusları aradan getməyə məhkum etmişdi. Burada azadlıq heç bir vəchlə yoxdur. Burada faşist üsulu hökmfərmadır (hakimdir). Möntəha faşistlərin rollarını sarı paltarlı jandarmlar ifa edirlər. Ancaq tamam dünya bilmədir ki, bugünkü dünyadakı, azadlıq milyonlarca cavanların qanlarının müqabilində faşizmin təhlükəsindən xilas olublar. Bu gün hansı bir cavan kəndli taparsınız ki, jandarmlar onu arxadan toqif etmək dərindən bir acı xatirə olmasın.

Azərbaycan xalqının azadlığı tamamilə qəsb olunmuşdur. Jandarmların etdikləri cinayətlər günbəgün artır, onların etdikləri cinayətlərə biz bütün dünyanı şahid tuturuq. Tamam dünyaya elan edirik ki, Azərbaycanda azadlıq yoxdur və gələckdə həyata keçən azadlıq bizim əziz cavanlarımızın qanının qiymətinə tamam olmuşdur.

Rzaqulu öldü. Amma biz onu həmişə xatırlayacağıq, o bizim nəzərimizdə həmişə diridir, onun əksini biz həmişə hifz edərək və gələcəkdə Azərbaycanın qəhrəmanlarının fədakarlarını və məzlumiyyətlərini Azərbaycan xalqına göstərəcəyik.

Öldü, amma onun cənazəsinin onun qardaşı dediy söz:

“Əziz qardaşım, mən sənin yerinə mübarizəmizi aparacağam”.

Belədir, bizim mübarizəmiz tətil olmayaraq qəti müvəffəqiyyət ələ gətirənə qədər idamə verərik.

Yuxarıda ümumiyyətlə Azərbaycan kəndlilərinin hərəkatını qeyd etmişdik. 12 şəhrivər, yəni firqə təşkil tapan günündə isə xüsusən kəndlərdə böyük narazılıq var idi. Kəndli ərbab mübarizəsi gününün ən mühüm məsələrindən hesab olunurdu. Liqvan hadisəsi daha bir mübarizənin əsərində irəli gəlmişdi. Hizbi-Tudənin Təbriz və sair şəhərlərində olan komitələr isə bu mübarizənin içərisində itib qalmış və kəndli cərəyanı onları çəkib ardınca aparmaqda idi.

Kəndlinin dərdlərini dövlət özlərinə yetirib ədliyyə və məhkəmələrdə onların hüququndan difa etmək üçün Hizbi-Tudənin əyalət komitəsi ədliyyə vəkili Ravəndi və ağayi Qiyaminin iştirakı ilə bir komisyon dəxi intixab etmişsə də firqə işçilərinin başı bu işə qarışmıdı ki, heç bir ayrı iş görə bilmirdilər.

Bunun yaxşı və pis tərəfləri var idi. Yaxşılığı onda idi ki, kəndli firqəyə yanaşır, onu tanıyır, ondan ümüd gözləyirdi. Pis o idi ki, firqə ümumi hədəfi əldən verib gündəlik nəsələlər batıb qalır. Siyasi qədəmlər götürməyə imkan tapa bilmirdi və firqə rəhbərləri isə bu səbəbdən əvamfəribiyə nüfuz qazanmağa çalışırdılar.

Buna baxmayaraq, kəndlinin dərdinə kiçik bir əlac ola bilərdi. Çünki götürülən yol qələt, zəif idi, xətti-hərəkət yad idi. Jandarm idarəsinə ərizə yazmaq, məhkəmə iclasında danışmaqla kəndliyə kömək etmək onun yükünü daima əziyyət və fişar altında saxlayan ərbabların və jandarmalrın qabağını almaq olmazdı.

Bunu bildiyimizə görə biz kəndlilərin məhkəmələrdə və idarələrdə olan işlərini firqənin əsas işindən ayırıb, müəyyən bir adama tapşırmışdıq. Biz eyni zamanda bilirdik ki, bu işdən bir nəticə çıxmayacaqdır. Lakin kəndliləri də firqənin

qapısından cavabsız qaytarmaq olmazdı. Jandarmların və ərbabların vəhşilikləri o yerə gəlib çıxmışdı ki, artıq bu işə mane olan adam vəzifədən imtina edib, ciddi çarə etmək lüzumunu irəli sürmüşdü. Firqə isə üsyan ruhu ilə ruhlanmış kəndlinin qabağını saxlamaqda böyük müşkülata təsadüf etmişdi. Ya bir dəfəlik onu əzib, onu öz başına buraxmalı, ya onun başladığı ciddi hərəkətə rəhbərlik edib, özünün milli şüarları uğrunda ondan istifadə etməli idi. Təbiidir ki, dərin səbəblər və əsas illələtlərindən irəli gəlib istimdad edən bir tudədən sərfi-nəzər etmək siyasi bir firqəyə yaramayan işlərdən deyildi.

Aqil və mücərrib (təcrübəli) adamlardan təşkil tapıb böyük milli şüarlarla irəli getmək işi bir təşkilat üçün belə bir fərqi unutmaq olmazdı. Hər bir firqə və hər kəs olsaydı, öz ayaqı ilə qabağa gəlmiş müsaid (münasib) şəraitdən istifadə edərdi. Biz də bu işi görməli idik.

Bu xüsusda "Azərbycan" ruznaməsinin 53-cü nömrəsinin baş məqaləsini burada dərc edirik.

***Karlar eşitsin, korlar da görsüm***

*"Bir ayın içərisində firqəmizin dəftərinə və ruznaməmizin idarəsinə mindən artıq şikayət ərizələri gəlmişdir. Bu ərizələrdə dövlət məmurlarının və onların təchiz etdikləri əşrar və cəllad dəstələrinin Azərbaycan xalqı ilə etdikləri vəhşiyanə rəftar çox diri və canlı bir surətdə tənzim edilib, xalqımızın göz yaşları ilə ziynətlənmişdir. Siz əgər bir və iki gün idarələrimizə gəlib, bu ərizələri gətirən azərbaycanlıların qiyafələrinə baxsanız, onda bizim qəlbimizin yandığı, vicdanımızın üsyan etdiyi səbəblərini anlarsınız.*

*Azərbaycan xalqının dilini bağlayıb, onun zülm və fişar nəticəsində məhv etmək fikrində idilər. Demokrat dünya və onun şəhərimizdə olan nümayəndələri bu faciədən və bu vəhşilikləri əgər görə bilməzlərsə, onda öz azadixah və*

*demokrat xalqlarının onlara tapşırdıqları vəzifəni layiqincə əncam verdikləri üçün vicdana və əxlaqa bəşəriyyət müqabilində məsuldurlar. Əgər görüb, eşidirsə, bəs nə üçün onu öz millətlərinin və öz rüznaməsilərinin nəzərinə yetirmək istəmirlər. Xalq məhv olunur, insanların varlığı və heysiyyəti ayaqlar altında taptalanır və bu indiki əfv üçün təngdir. Bu əsrdə mütəməddin millətlərin aliməqam nümayəndələrinin yaşadığı bir ölkədə xalqın dodaqlarını kəsir, dərilərini soyurlar. Keçən nömrədə üç ya dörd yaşlı bir qızın jandarm sərnizəsi ilə öldürülmüş cəsədini ənyani şəkildə intişar verdik. O biri gün jandarm məmurunun bir kəndlinin altında əzib həyatına xatəmə verdiyi xəbəri yazdıq. Üç nəfəri öldürüb, 9 nəfəri ağır surətdə yaralanan, Sadıq Müctəhidi azad bir surətdə Təbrizin gücə və xiyabanlarında gəzib, sinəsini daha da qabağa verməkdədir. Ədliyyə pul alıb böyük cinayətkarı oturtmuş, Dadistan isə mizin dalında kağızlar və pərvəndələr (sənədlər) içərisində qərq olub, qalmışdır.*

*Sərdrudda bərbəriyyət dövrəsinin ağır vəhşətini andıran cavan uşaqların budlarına dağ basmaq əfsanə deyil həqiqətdir. Bu həqiqəti örtüb, basdırmaq üçün Tehran dövləti "Azərbaycan" ruznaməsinin Tehranda intişarını qadağan edir. Xalq gözünü bağlayıb və qulağını kar saxlamaq istəyir. Qoy bütün dünya bilsin və Azərbaycanın mərkəzində yaşayan mütəməddin dövlətlərin nümayəndələri gözlərini açıb görsünlər ki, Tehran dövləti Azərbaycan xalqından intiqam çəkir, ona azadlıq əvəzində cəlladlardan qatillərdən himayət edən, onların cinayətlərinin üstünü örtən xain ədliyyə məmurları cani, jandarm rəisləri vəhşi və qaniçən bəxşdar və dehdarlar verməkdədir. Biz bu gündən etibarən cinayət qurbanlarını mütəməddin (mədəni) ölkələrin nümayəndələrinin qapılarına göndərməyə məcburuq, qoy bütün dünya bilsin ki, Azərbaycanda qanun və ədalətdən bir əsər yoxdur. Tehran hökuməti və azadlığı məhv etməyə çalışan mürtəcelər xalqımızı ayaqlar altında məhv və nabud etmək fikrindədirlər.*

*Qoy hamı bilsin ki, Azərbaycan xalqı özünün daxili işlərini idarə etməyə bəşəriyyət müqabilində məsuldur.*

*Qoy mənşur Atlantik kimi millətlər azadlığın əsasını təqib edən sənədlərdə bu cinayətləri təbriə etmək üçün maddələr və dəlillər tapıb, göstərsinlər. Azərbaycan xalqı bu vəhşiliklərə baxmayıb yaşayacaq, özünün rəhbəri olan Demokrat Firqəsinin bayrağı altında zülm və əsarətə xatəmə verəcəkdir. Bununla belə tarixin məsuliyyətini boynumuzdan atmaq üçün kəndliyə haqqini öz gücünlə almalısan deməkdən əlavə onun sözlərini dövlətin qulağına və buna möhkəm şəhid tutmaq üçün aşığadakı məktubu təyinə edib, Azərbaycanda olan xarici konsulxanalara göndərdik. Məktubda kəndlilərin firqəmiz təvəsssütü ilə dövlət idarələrinə, məxsusən ədliyyəyə yazdıqları şikayət məktubların nömrələrindən bir sırasını qeyd edirik. Bu məktubların tamamilə təsirsiz və cavabsız qalmağını göstərdik."*

**"Azərbaycan" ruznaməsinin 56-cı şumarəsində**

Dövlət məmurlarının kəndlərdə yaratdıqları fəcayei ifşa etmək üçün Azərbaycan Demokrat Firqəsi tərəfindən Azərbaycanda demokrat dövlətlərin diploması məmurlarına və Iranın səlahiyyətdar məqamatına göndərilən açıq məktub.

"Dövlət məmurlarının gündən-günə artmaqda olan yaratdıqları vəhşiyanə faciələr və səlahiyyətli məqamatın biçarələrin şikayətinə təvəccüh etməməsi, Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsinin Azərbaycanda olan demokrat dövlətlərin siyasi nümayəndələrini xalqımızın yazıq və ürəkyandırıcı vəziyyətindən müttəle (agah) etmək üçün bu vəsilə ilə xalqın dilsuz fəryad və naləsinin mütəməddin dünyanın qulağına hansı ki, zülm və vəhşigərliyi kökündən qazmaq üçün xalqın mübarizə, fədakarlıq və canbazlıqları yetirməyə vadar etdi.

Böyük dövlətləri məmləkətimizdə yandırılan od və alovdan müstəhzər (xəbərdar) etmək üçün Azərbaycan Demokrat Firqəsinin əlində olan bir çox əsnad və mədarik üzündən bir neçəsini mütəzəkkir olur (təzəkkür verir).

Azərbaycan Demokrat Firqəsi çarəsiz bu təəssüfavər iqdami ondan ötrü edir ki, Mərkəzi hökumət heç vaxt öz mütəcaviz məmurlarının ichafatından (zülmkarlığından) cilogirlik etməyə hazır olmur. Bərəks hər gün öz şiddətinə artırır və baş verən fəcaye göstərir ki, onlar bu vəsilə ilə Azərbaycan xalqını aradan aparmaq və ya onu orta əsrlərdə olan qul kimi saxlamaq istəyirlər. Dodaq kəsmək, dağ qoymaq, qarın yırtmaq və bu dəhşət ilə qətliqarət etmək orta əsrlərdə də belə az sabiqəsi vardır. Ağalar siz mütəməddin dünyanın nümayəndələri və demokrat xalqlarının göndərmələri bu qəzayanın şahidi olun. Intizar varımızdır, Azərbaycanın məzlum millətinin səsini demokratı dünyanın azad mətbuatında intişar verəsiz.

Tehran Mərkəzi Hökumətinin Asiyayı despotizmin ən şədid curəsini (formasını) idamə verməkdədir. Bizim ruznamələrimiz ki, nalə və fəryadlarımızı əks etdirir, ayrı şəhərlərdə olan həmvətənlərimizin əlinə yetişməyə mane olur. Bizim namə və teleqraflarımızın Tehran ruznamələrində çap olmasını qadağan edir. Əgər bir nəfər bu məzlum və sitəmdidələrin bir neçə nəfəri ilə söhbət edə və bunların haqqında məmul olan faciələrin yüzdə birinə pey aparansan (agah olarsan), hətmən mütəəssir olub və şəkksiz öz demokrat millətinə yetirəcəksən ki, hələ dünyada elə bir dövlət vardır ki, onun məmurları məmləkətin qanunlarını ayaq altına alıb. Öz milləti ilə dünyada olan bütün insaniyyət qanunlarının xilafinə rəftar edir və orada qanun, məhkəmə, Dadistan, bir ovuc müstəbid xodsər (özbaşına) və istifadəçi əşxasın əlində alətdir.

Iranın indiki vəziyyəti dünya demokrasisinə nəngdir (ləkədir). Qoy dünya bilsin bir iddə məzlumu ki, çarəsizlikdən öz məzlumiyyətin onlara izhar edir, cavab versin. Budur bir

qismət dövlət məmurlarının kəndlərdə yaratdığı faciədən və onların qanunsuzluqları və zülmləri haqqında ədliyyə və sair səlahiyyətdar idarələrə yazılan şikayətlərdən ki, vaqeatdə xarvardan bir ovucdur. Indiyə qədər də tərtib-əsər verilməyibdir, yadəvar olur.

*1. 09/07/1324-də (1 oktyabr 1945) Həşrud mahalının Əcəmi kəndində Malik Məhəmmədsadiq Mücdəhidi və Mübaşir Əbdülhüseyn Sasani bir iddə müsəlləh (silahlı) jandarm ilə kəndlərə hücum edir. Jandarmlardan biri Zülfəli adlı bir kəndlini qolundan yaralayır, Həsənağa, Qulam, Fətəli və Məşədi Ibadulla adlı 4 nəfər kəndlini günahsız güllə ilə öldürülüb və beş nəfər kəndlini ağır surətdə yaralayır. Belə ki, indi də bəstəridirlər (xəstəxanadadırlar). Bununla belə qatillər təqib olunmamışdır. Lakin günahsız kəndlilərdən tutulub, zindani olunmuşdur.*

*2. Kağazkunan mahalında Qoşabulaq və Yanbulaq kəndindən 07/07/1324-də (29 sentyabr 1945) Məhərrəm və Qəmbər adlı iki nəfər kəndli Aslan Humayun və ustuvar İbrahiminin əli ilə azadixahlıq cürmü ilə (günahıla) öldürür və jandarmların müsəlləhanə həmləsi nəticəsində kəndlilər öz ailələri ilə biyabanlara qaçırlar.*

*3. Sarabın Şərəbyan kəndində bir iddə jandarm qruhban Müqəddəsin başçılığı ilə kəndlilərinin ev anbarını qarət edib və özlərini döyüb, həbs edirlər. Bir kəndli ölür və neçə arvad-uşaq əlil edilir.*

*4. Tikmədaşda jandarmlar azadixahların evlərini qarət edirlər və 200 nəfərə qədər kəndlilər öz arvad-uşaqları ilə çöllərə qaçırlar.*

*5. Əmmənd kəndində 22 nəfər jandarm sərvan Libanın başçılığı ilə kəndlilərin mal və canlarına təcavüz edirlər. 150 nəfər kəndli onların zülmündən sərasima olaraq, öz nicatları üçün Təbrizdə Azərbaycan Demokrat Firqəsiyə pənahəndə olurlar.*

*6. Sultanabad kəndində Həsən jandarm və Əli adlı bir nəfər arvadı tüfəng qundağı ilə o qədər döyür ki, ölüm halına düşür və həmin arvadın iki yaşlı uşağı tüfəngqundağının zərbəsi nəticəsində ölür.*

*7. Kültəpə kəndində Sərvan Abidin bir böyük iddə jandarm ilə azadixahları ağaca bağlayıb və onların bərcəsdələrini (yanlarına) şallaqla zərbə vurub, həbs edib və qaradağda Mərdanqəyyum kəndində mürtəce xanlar jandarmın köməyi ilə bütün azadixahların evlərinə hücum edir və onların əsasiyyəsini qarət etdikdən sonra o qədər fişar gətirilər ki, bir böyük iddə kəndlərdən çöl və meşələrə qaçırlar. Onların döymələri nəticəsində əhalidən 36 nəfər ağır yaralanır ki, indi də bəstəridilər (yatıblar).*

Budur jandarmların və bəzi məhəlli mürtəcelərin yartdıqları faceədən dadisarə (ədliyyə) və sair qanuni müraciə olunan şikayət və elani-cürmlərinin (şikayətlərin) surəti ki, mütəzəkkir oluruq.

**<u>Şikayət sənədlərinin cədvəli</u>**

| Nömrə | Tarix | Nömrə | Tarix | Nömrə | Tarix | Nömrə | Tarix |
|---|---|---|---|---|---|---|---|
| 180 | 14.07.24 | 119 | 14.06.24 | 81 | 27.06.24 | 38 | 19.06.24 |
| 238 | 17.07.24 | 237 | 17.07.24 | 232 | 16.06.24 | 215 | 14.06.24 |
| 270 | 18.07.24 | 268 | 18.07.24 | 264 | 17.07.24 | 239 | 07.07.24 |
| 288 | 02.08.24 | 283 | 02.08.24 | 275 | 18.07.24 | 274 | 18.07.24 |
| 292 | 19.07.24 | 291 | 19.07.24 | 290 | 19.07.24 | 289 | 19.07.24 |
| 233 | 21.07.24 | 332 | 21.07.24 | 314 | 19.07.24 | 292 | 02.08.24 |
| 424 | 25.07.24 | 356 | 22.07.24 | 341 | 22.07.24 | 336 | 21.07.24 |
| 452 | 28.07.24 | 451 | 28.07.24 | 440 | 28.07.24 | 439 | 30.07.24 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 481 | 30.07.24 | 461 | 28.07.24 | 460 | 28.07.24 | 454 | 28.07.24 |
| 536 | 02.08.24 | 524 | 01.08.24 | 521 | 02.08.24 | 495 | 30.07.24 |
| 529 | 02.08.24 | 527 | 02.08.24 | 286 | 02.08.24 | 528 | 02.08.24 |
| 556 | 04.08.24 | 554 | 02.08.24 | 550 | 02.08.24 | 548 | 03.08.24 |
| 562 | 03.08.24 | 563 | 04.08.24 | 564 | 04.07.24 | 565 | 04.08.24 |
| 587 | 05.08.24 | 586 | 05.08.24 | 581 | 07.08.24 | 578 | 08.08.24 |
| 737 | 07.07.24 | 716 | 16.08.24 | 596 | 16.08.24 | 591 | 07.08.24 |
| 622 | 07.08.24 | 612 | 07.08.24 | 602 | 07.08.24 | 597 | 16.08.24 |
| 624 | 08.08.24 | 623 | 09.08.24 | 622 | 09.08.24 | 621 | 08.07.24 |
| 646 | 10.08.24 | 641 | 12.08.24 | 636 | 09.08.24 | 629 | 09.08.24 |
| 676 | 14.08.24 | 667 | 12.08.24 | 666 | 13.08.24 | 665 | 14.08.24 |
| 685 | 24.08.24 | 684 | 15.08.24 | 682 | 13.08.24 | 681 | 13.08.24 |
| 714 | 14.08.24 | 703 | 15.08.24 | 770 | 15.07.24 | 698 | 15.08.24 |
| 527 | 02.08.24 | 732 | 26.08.24 | 728 | 16.08.24 | 720 | 16.08.24 |
| 532 | 09.08.24 | 535 | 16.08.24 | 529 | 02.08.24 | 528 | 08.08.24 |
| 540 | 09.08.24 | 534 | 08.08.24 | 539 | 08.08.24 | 544 | 08.08.24 |

Bütün bu moredlərdə (sənədlər) xalqın məsul məqamatından təğazəsi mürtəkibləri (cinayətkarları) qanun əsası hüdudunda və cəzai məhkəmələrin üsulu ilə təqib etmək, jandarm və məmurlarının qeyri-qanuni olaraq hüquqi işlərə müdaxilə etmələrindən cilovgirlik olunması qarşılanması olmuşdur. Məhkəmə qüvvəsinin təfkik olması (ayrılması) ki, məhkəmənin 3536 11-5-24 nömrəli tarix bəxşinamə mocibincə jandarm idarəsinin hüquq işlərinə müdaxilə etməsi üçün jandarm idarəsinə yazılmışdır. Onun icrası təğaza olunmuşdur

ki, o idarənin məmurları xalqın asayişini təmin etmək əvəzində onlar qətl-qarət edilib, asayişinin pozulmasına səbəb olmuşdular. Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitə ictimai işlərinin Azərbaycanda nə vəziyyətdə olduğu halda mərkəzə yazdığı bu məktubu ancaq əxlaqa tarixi cəhətdən əhəmiyyəti olduğunu və ona İran dövləti tərəfindən heç qunə tərtib əsər verilməmişdir. Tərtib əsər verilməyəcəyini biz bilirdik.

O günədək bir kəndlinin qabağını almış onu tək-tək kəndlərdə üsyan etməyə qoymamışdı. O hətta bizdən naumid olmağa başlamışdı. Məktub ilə biz keçmiş xətti-hərəkatımızı dəyişdiyimizi göstərdik. O gündən sonra biz firqə təşkilatlarımızın qapılarında toplanıb kömək tələb edən kəndlilərə gedib, öz hüququndan bacardığınız vasitə ilə müdafiə edin deməklə, kəndli hərəkatının qəti şəkildə olmasına imkan verdik.

Həftələr ilə şəhərdə və mərkəzi komitə binasında sürünüb təklif istəyən kəndlilər bizim bu təklifimizi eşitdikdə qulaqlarına belə inanmaq istəmirdilər. Çünki O, həmişə "Qanun yolu ilə mübarizə etmək lazımdır"-sözünü bizdən eşitmişdir. Indi ona qəhr və qələbə ilə işə girişmək imkanı verildi. Bu isə onun illər boyu arzu etdiyi bir iş idi. Çox tez bir zamanda bizim kəndlilərə azad bir surətdə öz haqqlarından difa etməyə ixtiyar verdiyimizin nəticəsi aşkara çıxdı. Bu isə milli nehzət və 21 Azər hərəkatı amillərindən biri olduğu üçün o qismətdə şərh edilməlidir.

## 21 Azər yolunda

### 1. Iki hökumətlik dövrəsinin xatəməsi

Xatıratımızın yuxarıda yazdığımız bölmələrində firqə və xalqın irtica əleyhinə apardığı mübarizənin əsası üzərində bəhs etmişdik. Məlumdur ki, iş tək irtica əleyhinə aparılan müstəqil mübarizə ilə xatəmə tapa bilməz. Mübarizəni məqsəd və hədəfə

yetirmək üçün xalqı toplayıb, onun qüdrətindən istifadə etmək (əsas) şərtdir. Həmçinin irticai ünsürlərin gördükləri işləri mətbuat vasitəsi və ictimaiyyət yolu ilə tənqid edib, onun xalqın azadlığı və səadəti üçün zərərli olduğunu göstərmək kifayət etməz. Əsl iş silahda da deyil, silahı işlədə bilən işçidədir.

Hizbi-Tudənin ədəmi-müvəfəqiyyətinin əsas səbəbi də bundan ibarət idi. Onlar irticanın mahiyyətini açıb, mürtəcelərin xəyanətlərini göstərmək də çox hərarətli surətdə mübarizə aparıb, demokratizm və azadlığın yaxşılığını sübut etməkdə ifrat edirdilər. Bu iki sahədə məhdud olan xətti-məyşi aparmaq üçün firqəvi bir təşkilat da durmağa müvəffəq ola bilmişdilər. Mütəəsifanə bu fəgət işin yarısı idi. Əsas iş, yəni xalqı cəlb edərək, onu mübarizədə ciddi surətdə dəxalət verməkliyin əhəmiyyətini onlar dərk edə bilmirdilər.

Bizim firqəmiz isə özünün ümumi şüarları sayəsində bu sahədə böyük müvəffəqiyyət əldə etməyə müvəffəq olmuşdur. Milli muxtariyyət, dil azadlığı, kəndli ilə ərbablar, kargər ilə sahibkarlar əlaqələrinin düzgün yola qoyulması xalq hakimiyyətini təmin etmək kimi ümumun anlayıb, bildiyi şüarların inad və səmimiyyət ilə təbiqi vasitəsi ilə idi ki, biz xalqı inandırıb, ayağa qaldırmağa imkan tapdıq.

Bu şüarları özümüzə hədəf qərar verib gündəlik mübarizəmizdə onların üzərində irəli getdiyimiz taktik cəhətindən özü-özülüyündə böyük müvəffəqiyyət idi.

Iranda o vaxtdan meydana çıxan siyasi təşkilatlar bundan daha ciddi, daha xalqın xoşuna gələn şüarlar meydana atmışdılar. Lakin onlar şüarları fəqət xalqı cəlb etmək qəsdi ilə irəli sürülüb, özləri onları əməl və işdə yaddan çıxarması onların iddialarının sözdən ibarət olub, qalmasına səbəb olmuşdur.

Biz onların əksinə olaraq şüarları həyata keçirmək üçün onları bir dəqiqə belə fəramuş etməyib, zaman və məkanın şəraiti üzrə onları təkrar etməkdən belə pərhiz etmirdik.

Əsas etibarı ilə Fərruxun Azərbaycana böyük ixtiyarat ilə vali göndərilməsi, mürtəce məclis nümayəndələrinin bizim ziddimizə imza etdikləri layihələr, yerli mürtəcelərin gördükləri işlər barəsində apardığımız mübarizədə işlətdiyimiz şüarlar həman 12 Şəhrivər şüarlarından başqası deyildi. Necə ki, yuxarıda dedik iş şüar ilə bitib qurtarmır.

Şüari icra etmək üçün xalqı nə cür təşkil etdiyimizi və xalq nə əndazadə bizi başa düşdüyünün əhəmiyyəti vardır. Ona görə biz bacardıqca birinci növbədə milli qüdrət və milli hökumətinin nə cür xalq hərəkatından doğduğunu anlatmalı və şüarların nə yollar ilə həyata keçirildiyini bəyan etməli idik.

Oxucu əgər diqqət etmiş olsa biləcək ki, əvvəl gündən yəni 12 Şəhrivərdə fəgət əncuməni-əyaləti və vilayəti tələb edərək, milli muxtariyyəti onların vasitəsilə təmin etmək yolunda çalışdığımızı elan etdiyimiz halda, 21 Azərdə milli məclis və milli hökumət quruluşu ilə yəni müstəqil bir hökumət qurmağa müvəffəq olmuşduq.

Məlumdur ki, milli muxtariyyət, milli azadlıq, milli yaşayış əsaslı və payəli təzminə arxalanmazsa əməldə boş sözdən ibatə olub qalar. Bizi milli hökumət qurmağa vadar edən də bu idi! Xalqlar üzərində mütləq hakimiyyət və intihasız ixtiyarata malik olan mürtəce bir dövlət təbiidir ki, silahsız təzminsiz kiçik bir xalqa öz haqqını saxlamağa imkan verməz. O bəzi şərait və təzadlar nəticəsində xırda güzəştlərə getsə də fürsət tapan kimi verdiklərini geri almaqdan əlavə o xalqın müqavimət imkanlarını də silib ortadan aparar.

Biz bunu çox gözəl surətdə hiss etdiyimiz üçün Tehrana və onun namında danışan adamların sözlərinə əhəmiyyət verə bilməzdik. Xalqın əlini kəsib sadə bir surətdə dala çəkilə bilmirdik. Istər-istəməz daxil olduğumuz yolda irəli getməli idik. Tehranın heç vəch ilə ləcacət altından düşmək istəmədiyi Bəyat ilə apardığımız danışıqlar və Tehran mətbuatının ləhni bizə isbat etdiyimiz Təqizadə və dövlətin xaricdə olan başqa nümayəndələrinin gördüyü işlər də onu əsas etibarı ilə təsdiq

eləmişdir. O gün bizim üçün ayrı bir yol qalmamışdı. Ya gərək Tehran hökuməti bizə geniş məhəlli müxtariyyat verib, onu əyalət əncuməni və məxsus yerli qoşun və jandarm hissələrini o əncumənin kontrolu altında olması ilə təzmin edəydi və ya gərək özümüz öz gücümüzə dayanıb, xalqın sərniveştini təyin etmək üçün milli bir dövlət təşkilatı yaradıb, işə başlamaq ilə mübarizəni dərinləşdirəydik.

Demək 12 Şəhrivər elaniyyəsi vasitəsilə intişar verdiyimiz şüarların 21 Azər şüarları ilə əvəz edilməsinin əsas səbəbi bundan ibarət idi. Biz hətta 12 Şəhrivərdə belə Tehranın bu azadlıq ilə bizə muxtariyyat verib, milli dil və sair xüsusiyyətimizi qəbul etməyəcəyini bilirdik. Nə edək ki, başqa çarəmiz yox idi. Xalq o hökümət idarə edənlərin irticai simasını hələ yaxşı tanımamışdı. Biz əvvəl gündən milli hökumət milli məclis şüarı ilə işə başlamış olsaydıq, böyük müqavimətə təsadüf edə bilərdik. 3 aylıq siyasi mübarizə, məxsusən Bəyat ilə aparılan danışıq məsələni tamamilə aydınlaşdırıb, hər iki tərəfin məqsədini açıb, meydana qoydu. Xalq isə əməldə öz dost və düşmənini tanıyıb öz təklifini anlamaqla gələcək mübarizənin yolunu təyin elədi. Əgər biz 12 Şəhrivərdə milli hokumət şüarı ilə işə başlamış olsaydıq. Ola bilsin xalq onu 21 Azər günlərindəki, hərarət ilə istiqbal eləməyəydi. Bu 3 ayda həqiqətən camaat çox irəli getmişdi. Ona görə milli hökumət və milli məclis sözü onu əbədən təəcübləndirməyib, əksinə O, özü təbii olaraq bu nəticəyə gəldiyini əmələ isbat etməyə başlamışdı.

Məlum olduğu üzrə Bayat ilə aparılan danışıqlardan sonra xalqı çox uzun müddət təklifsiz qoymaq olmazdı. Şəhrivər elamiyyəsi ilə başlanan iki hökumətlik vəziyyəti get-gedə qəti mərhələyə daxil olub, iş o yerə gəlmişdir ki, Azərbaycanda ya gərək Demokrat Firqəsi məsuliyyəti öz üzərinə götürüb xalqı idarə edəydi, ya mərkəzi hökumət nümayəndələri bu firqəni ləğv edib, əvvəlki kimi mütləq ixtiyarat ilə hökm sürməyə başlayardılar.

Tehran hökuməti ləc bazlıq ilə işi hər an çətinləşməkdə idi. O Iranın daxili işi olan bu hərəkata beynəlxalq rəng vermək üçün heçqunə alçaqlıqdan pərhiz etirdi. Çox zəbun (çarəsiz) və eyni zamanda aciz şəxs olan dövlət başçıları bizi xariclərə bağlamaq ilə çox namərdanə və nanəcibanə hərəkət edirdilər. Onlar Ingilis və Amerika İmperializmini Şərqdə məxsusən İranda hərqunə azadlıq hərəkatına zidd olduğunu bildikləri halda bizim üstümüzə şura siyasəti ilə rabitə töhməti atmaqla şuralar ittifaqını da bizim nehzətimizə nisbət bədbin olub, bizdən uzaqlaşmağa vadar etməyə çalışırdılar. Bundan əlavə onlar nehzətimizi şuralar ittifaqı ilə əlaqədar etməklə özlərinin zəəf və natavanlıqlarını və xalqın onlara nisbət səslənməkdə olan qəzəbini ört-basdır edirdilər.

Iş bu yerə gəldikdə biz əllərimizi əlimizin üstünə qoyub sakit dura bilməzdik. Xalq özü belə nehzəti hərəkətsiz halda qalmağa qoymazdı. Əslən nehzət özü sabiq bir halda qalan bir hadisə deyildir. O, ya gərək təkamülə doğru gedərkən hər an şiddətini artırıb özünü intihai kamala yetirəydi. Ya nagahani olaraq xamuş olub, Şeyxin (Xiyabani) hərəkatı kimi bir neçə saatlıq ərzində şədid bir irticaın meydana çıxması ilə tarixin səhifələrinə tapşırılardı.

Işin gedişi də bunu göstərməkdə idi. Firqə isə işə başladığı zaman bu ittifaqların hamısını nəzərdə tutduğuna görə heç bir hadisənin onun üçün təzəliyi yox idi.

Milli hərəkətin milli ehtiyaclardan doğulduğu mükərrər yazdığımızdan onu bir daha yazıb şərh verməyə ehtiyac yoxdur. Xalq isə hiss etdiyi qüdrətə dayanaraq ehtiyaclarının təmin edilməsini istəyirdi. Milli hökumət, milli məclis şüarı isə xalqın bu təlabatının təsirində meydana çıxmış idi. Burada başqa bir dəlil axtarmaya heç də ehtiyac yoxdur.

Biz 15-ci məclis intixabatının vaxtında başlanmasını nəzərdə tutub Azərbaycan xalqının sayına nisbət vəkillərimizin 22-dən 50-yə qədər artırılmasını tələb edirdik. Bu isə bizim şüarlarımızın sülh və parlaman yolu ilə əldə etmək fikirində

olduğumuza böyük bir dəlil idi. Əyalət və vilayət əncumənlərinin Tehrana müntəzir olmadan intixab olunması şüarı da məşrutə qanuni-əsası çərçivəsində əncam tapa bilən bir iş idi.

Tehran isə yuxarıda göstərdiyimiz təfsil (izah) üzrə əncumənlərin intixabatını rədd edərək məclis seçkilərini da müttəfiqlərin Irandan çıxmasına qədər təxirə saldı. Bu isə açıqdan-açığa bizim əleyhimizə bəhanə gətirməyə böyük həyasızlıq göstərirdilər. Çünki həmin 14-cü məclis müttəfiqlər İranda olduğu zaman və həm də onların İran işlərinə müdaxilə etmək üçün qüdrət və dəlil göstərdiyi bir zamanda intixab olunmuşdur. Buna baxmayaraq onlar şərafətsizcəsinə bir hərəkət ilə intixabatı təxirə salıb bizim qabağımıza əngərlər çıxarıb, öz əqidələricə bizim və İranın ayrı şəhərlərində böyük qüdrət və nüfuza malik olan azadixah təşkilatların ümidlərini kəsib onların məmləkət işlərinə dəxalət etmək imkanını ortadan aparmaq fikrində olduqlarını sübuta yetirdilər.

Məlumdur böyük qüdrət və nüfuza malik olub, 5 milyonluq qəhrəman bir xalqa (Azərbaycan) rəhbərlik edən siyasi bir firqə 5-3 nəfər bürokrat və qan içən malik və dövlət məmurlarının bu deyimi (kobud) xainanə hərəkətini birtərəflik və biqeydlik ilə istiqbal edə (qarşılaya) bilməzdi.

Mənasız danışıqlar ilə vaxt qazanan daxildə və xaricdə namərdanə və nəngavər (biabırçı) yolları ilə azadlığın rişəsini kəsməyə çalışan bir dövlətdən söz və danışıq vasitəsilə azadlıq və ixtiyar almağın qeyri-mümkün olduğunu teoriyada, bildiyimiz halda, əməldə onu isbat edib, aydın surətdə bizə anlatdığına görə birdən sözdən işə keçib istədiklərimizi qəhr və qələbə yolu ilə almağa qiyam etməli idik. Beləliklə iki hökumətlilik dövrəsinə birdəfəlik xatəmə verib, hökumət və qüdrəti xalqın ixtiyarına keçirtmək üçün əməli surətdə işə girişdik.

**2. Mərkəzi Komitənin geniş ümumi iclası**

Istibdadın hiylə və neyrəngini duyub, sözdən, mitinqdən, ictimayyətdən bizar olmuş camaat isə bu xətti-hərəkəti daha artıq bəyəndiyini əməldə görüb, anlamışdı. Ona görə yerlərdə firqənin şöbə və komitələrini təşkil edib, abrumənd hala saldıqdan sonra yəni xətti-hərəkatəmizi təyin edərək qouldan felə keçmək (sözdən əmələ) keçmək üçün yerli təşkilatların rəhbərləri ilə birlikdə Aban ayının 17-də 1324-ci ildə Mərkəzi Komitənin ümumi iclasını dəvət etdik. Bu iclas və onun qərarları nehzət və firqə tarixində mühüm yer tutur. Çünki bu məclisdə idi ki, biz firqəmizin 12 şəhrivər şüarlarının həyata keçirtmək üçün ciddi surətdə işə başlayıb, fəaliyyət meydanını firqə hüdudndan hökumət quruluşu dairəsinə qədər genişləndirdik.

Iki hökumətlik firqəmizin təsiri ilə başlanmış isə də hələ o günlərdə o qədər şədid deyildi. Bu iclasdan sonra demək olar ki, bu iş tamamilə zahirə hətta siyasət işlərindən uzaq olanların nəzərini cəlb etməyə başladı. O günlərdə firqəmizin 3 ay sonra təşkil olunan bu iclasın çıxardığı qərarları əməli etmək üçün şərait də vücudə gətirə bilmişdik. Marağada Kəbiri, Sarabda Qulamrza Cavidan, Miyanada Qulamyahyə, Ərdəbildə Məhəmmədivənd, Mərənddə Seyidkazım, Xoyda Yekani, Urmiyədə Azadvətən, Zəncanda Doktor Cahanşahlu və Qulamhüseynxan Osanlu və sairlərinin fədai dəstələri özlərini göstərmək ilə jandarmların zülm və sitəmindən cana doymuş kəndliləri özbaşlarına toplamaqla firqənin arxasına müsəlləh kütləvi təşkilatları vücudə gətirmişdilər.

Iclasda iştirak edən Mərkəzi Komitə üzvlərindən Kəbiri, Qulamyəhya və qeyriləri o gün müstəqil əməliyyət sahəsində gizli surətdə özlərini şəhərə yetirmişdilər. Onların fədai dəstələri isə orada-burada jandarmlar və mürtəcelər ilə tasadum etməklə, adları dillərdə dillənməyə başlanıb və Tehran mətbuatı onları yağı dəstələri adlandırmaq da idi. Mərhum Kəbirinin bu iclasda tarixi çıxışı nehzətimizin dərin bir surətdə kök saldığını isbat edən çıxışlardan idi. Onun özünün bu

çıxışında dediyi sözlərini əmələn isbat etdiyi üçün sözləri təkrar etməyə və qızıl xətt ilə tarixə keçirtmək lazımdır “Mən anamın südünə və namusuna and içirəm azadlığımızı, muxtariyyətimizi tamamilə təmin etmədikdə silahı yerə qoymayam bir qətrə qanım qalana dək mübarizəni idamə verək”.

Ümumi iclasda mən şəxsən 3 ay müddətində gördüyümüz işləri və ölkənin vəziyyətini tamamilə sərh verdikdən sonra firqənin yeni bir dövr qarşısında olduğunu, mərkəzi komitə və məsul firqəçilərin nəzərinə yetirdim. Iclasda iştirak edənlər çox dəqiq bir surətdə danışılan sözləri eşidib, onların barəsində izhari-əqidə edirdilər. Ümumi iclasın gedişi və onun çıxardığı qətnamələri eynən buraya izafə edirik (artırırıq).

“Azərbaycan” qəzetinin 54 və 55-vi şümarələrindən oxuculara lazım gəldikdə özləri onlardan istifadə edə bilsinlər.

### Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsinin ümumi iclasının çıxartdığı qərarlar

Pənşənbə günü Aban ayının 17-də Mərkəzi Komitənin ümumi iclası bütün Mərkəzi Komitə üzvlərinin və vilayət əncumənlərinin təşkilat başçıları və şəhər təşkilatılarının nümayəndələrinin iştirakı ilə cələsə təşkil və ağayi Pişəvərinin təvəsütü ilə iftitah olundu. Ağayi Pişəvəri bir saat dünya ümumi vəziyyətinə dair və Demokratik nehzətlərin tosiəsi ətrafında və həmçinin İranda olan irticai vəziyyətə və mərmuz (şöbhəli) ünsürlərin Iran millətinə xəyanət etməyə və intixabatın təxtin və məclisin tətil etməsinə dair söhbət etdilər. Bütün ətrafdan gələn nümayəndələr Ağayi Pişəvərinin məruzəsi ətrafında danışdılar. Onlardan ağayi Burhani, Qulamyəhya Danişian, Pənbə, Purçalı, Azadvətən, doktor Axundzadə, Atəşbəyat Maku, Doktor Cahanşahlu, Kəbiri və başqaları söhbət edib, öz danışıqlarında ağayi Pişəvərinin sözlərini təyid etdilər.

Ağayi Pişəvərinin nitqi və nümayəndələrin bəhsi qurtardıqdan sonra ümumi cələsədə əksəriyyətlə aşağıdakı qərar qəbul edildi.

Azərbaycan Demokrat Firqəsinin ikinci dövrəsinin birinci iclası Pəncşənbə günü sübh ağayi Pişəvərinin ümumi siyasi vəziyyət və firqənin gündəliy şüarları haqqında verdiyi qozarişləri (raportları) eşidib, aşağıdakı qeyd olunan qərarları qəbul etdi.

1. *Firqənin məşhur bəyənnaməsi və birnci konqrəsinin elan etdiyi şüarlar ümumiyyətlə Iranda xüsusən Azərbaycanda dərin təsir bağışlayır, azadlığ və demokratlıq cərəyanın qüvvətləndirmişdir. Bunu ümumi iclas çox şadlıq ilə qeyd edib, şüarların əməli surətdə başlanmasını qərara alır. Buşüarlar Azərbaycan xalqının milli muxtariyyətinin əyalət və vilayət əncumənlərinin təşkili və məclisi şura initixabatının təxirsiz bir surətdə başlanılması vasitəsilə ola bilər.*

2. *Firqə quruluş dövrəsini xatəmə verdiyi üçün indi geniş təbliğatı işlərə başlayıb. Xalqı firqənin başına toplamağ üçün böyük yığıncaqlar və mitinqlər təşkil verə bilər və bu mitinqləri idarə etmək üçün hazırlanan ciddi firqə fəallarının fəaliyyətə girşmələrini təmin edə bilər.*

3. *Əyalət və vilayət əncumənlərinin intixabatını xalqın öz gücü ilə başlamaq lüzumunu qeyd edib, komitə yaxın bir zamanda bütün Azərbaycan xalqı arasından intixab olunan xalq nümayəndələrindən böyük bir konfrans təşkil etməlidir.*

4. *Firqəyə yazılanları tamamilə təşkilata bağlamaq üçün üzviyyət vərəqələrin çox tez bir surətdə yayınlanmalı və Mərkəzi Komitə tərəfindən təhiyyə edilən təmbr (marka) vasitəsilə həqqi-üzviyyətləri (üzvlik haqqı) yığmağa iqdam etməlidir.*

5. *Cavanlar arasında işləri möhkəmləndirmək üçün bəzi məsul şaxslər təyin etmək, ta cavanlar arasında ciddi iş aparıb, onları gələcək üçün hazırlasınlar.*

*6. Kəndlərdə qanunsuz olaraq kəndlilərə hücum edən jandarmların ümum camaat quvvəsi ilə qabağı alınsın.*

Ikinci cələsədə ağayi Zeynəlabidin Qiyami əncuməni vilayəti – xüsusundə geniş tozihat verib, ətraf nümayəndələri də əncuməni-vilayəti intixabının başlanması xüsusunda hərarətli nitqlər etdilər. Mərkəzi Komitə ağayi Qiyaminin nitqini eşitdikdən sonra aşağıdaki qərar nəzərə alındı.

Firgəmiz xalqın bütün ehtiyacların döşündüyü və onu mürtəfe etməyə (aradan qaldırmağa) hər çür fədakarliq gösdərdiyi kimi xalqımızın əncüməni-əlayəti-vilayətiyl olan ehtiyacı da düşünür, bu feeli vəziyyətdə olan hərcü-mərclik bəzi dövlət məmurlaının təəddi və ichafatını dövlət idarələrinin qanunsuzluqları xalqın narazılığı və məmləkətimizdə səhih (düzgün) bir intizamatın yaradılmasını fəqət və fəqət əncüməni-əlayəti və vilayətlərin vasitəsilə birinci konqrəsi hər şeydən əvvəl düşünüb və bu barədə tapşırıq vermişdir.

Bundan başqa bütün məhəllərdə və firqə hozələrində minlərcə bitərəf xalqlardan və azadixah, həqq deyən ruznamələr tərəfindən bu barədə dərxast və təqaza olunur (istənilir). Əlbətlə firqəmiz artıq vaxt sərf etdiyinə görə bu müqəddəs vəzifəni əncam verməyə indiyə qədər müvəffəq olmamışsa da bundan sərfi-nəzər etmək olmaz ona görə də mərkəzi komitəni başçıları ilə olan müştərək cələsəni qərara alır.

Ona görə ki, qanuni-əsasının 26-ci əsli (Quvaye məmləkətdən nəqqaşıdır) 7-ci əsli (əsasi məşrutiyyət küllən və cüzən tətil oluna bilməz) 26-ci əsl (hər əyalət və vilayətin xüsusi mənafei əncüməni-əlayəti və vilayətlərin təsvibi ilə ola bilər) və eyni halda mütəmmimi qanuni-əsasının 90, 91, 92, 93-cü əsliləri sərahət ilə (aydın) əncüməni əyaləti və vilayətlərin vücudunu ərkani (əsas) məşrutiyyətdən hesab edir. Əqlən və məntiqəndə bu müqəddəs məqamatın təşkil olunması ilə milli və demokratik höküməti qurmaq mümkündür və eyni zamanda bu əncümənlərin Azərbaycan xalqı yəni əqəllən onun 90%-ni

tələb edir. Ona görə ki, Azərbaycan demokrat firqəsi Azərbaycan xalqınıın iradəsinin məzhəri (bəyan) və onun həqiqi və vaqeyi rəhbəridir.

Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsinin başçılarının ümumi cələsəsi ozünü müfəzzət bilir. Azərbaycan xalqının amam və arzusu və onun milli hökümətinin acarları olan əncüməni-əyalət və vilayətlərin qurulmasi üçün rəhbərlik etmiş, heyəti amiləsinə tapşırır ki, səlah (məsləhət) bildiyi kimi bu vəzifəni səri bir surətdə əncam versin.

Ağayi Badiqan məruzəsindən, danışıqlarından sonra mərkəzi komitənin ümumi iclası ittifagi ara ilə aşağıda qeyd olunan qərari qəbul etdi. (məclisin yalançı və təhmil olunmuş nümayəndələri Mehr ayında məşrutə qanunun birinci maddəsini "Məşrutiyyətin əsası tətil olmaz" (fasilə verilməz) qanunsauz və məşrutənin əsasına zidd olaraq, rədd etdilər).

Azadlıq və məşrutiyyətlə əlaqəsi olan milyonlarca xalqlar 15-ci dövrənin intixabatını özləri üçün bir həyati mövzu diyə tələb edirlər. Yüzlərcə yetişən teleqraf, qətnamə və azadixah ruznamələrin yazdıqları atəşin məqalələr bunu isbat edfir. Bu vəkillər biganə quvasının (xarici qüvvələrin) Iranda olamsını bəhanə tuturlar. Hansı ki, özləri həmin biganə qüvvələr Iran daxilində olarkən intixab olmuşlar milli şura məclisində təsvib olan bütün qanun və qətnamələr qanuni-əsasını mutabiqi olmalıdır. Əgər bir qanun qətnamə ki, qanuni-əsasının xilafına olsa Iran milləti üçün heç bir əsəri qanunisi (rəsmiyyət) təsiri yoxdur və qabili icra deyildir.

Belə ki, qanuni-əsasının 7-ci əsli (əsas məşrutiyyət küllən və cüzən tətil ola bilməz) sözünü sərahətlə göstərir və qanuni əsasının 5-ci əsli (müntəxəbin əzbariayi intixab vişəman və ibtiodainin müddət əzruzi əst ki müntəğəbini vilayət tamamən və tehrasn hazir tamam həsas enqezaye möddəti bayəyt nümayəndəkant və mərdun muxtarən hər sabiq rakle beghakand ve razi başənd, dobare intixab (secilənlər iki il müddətinə secilir və bu günün başlanğıcı o gündən dirki

vilayətlərdən seçilən nümayəndələr Tehranda hazir olsunlar. Iki il başa çatdıqda nümayəndələr yenidən seçilsinlər və əhali azaddır ki, yenə də kecmiş nümayəndələri razı olan surətdə yenidən seçsinlər) və intixabatın qanunun 53-cü maddəsi sərahətlə deyir: "5 ay intixabat dövrəsinin axırına qalmış qərək müqəddəmnatı fərahəm olsun və 3 ay intixabad dövrəsinin axırına qalmış təzə dövrənin intixabına şüru olsun tain ki, bir gün də olursa məşrutiyyət tətil olmasın".

Belə ki, müttəmimi qanuni əsasını 7-ci əsli bunu təyid edir. Bu əslilərə görə hər bir vaqeyi (həqiqi) və təmin olunmuş nümayəndə öz vikalət müddətini 21 müsbət Isfənd 1324-də xatəmə vermiş olur. 53-cü əslin mədluluna (səbəbinə) görə 21 Azərdən etibarən intixabata başlanmağı və 21 mehrdən etibarən intixabatın müqəddimatı işlərinə başlanmalı idi.

Doğrudur qanuni intixabatın 53-cü maddəsi möcibincə intixabat işlərinə başlamaq üçün şah tərəfindən fərman sabir olasayıdı. Müttəəsifanə İranda məşrutə qanularının bir çox qismi ayaqlar altında salındığı kimi, bu qanunda pozulmuş və millətin həqqi-müsəlləmi olan qanuni-əsasının bu əsilləri də tapdalanmış, qanuni əsasının nəssi-sərihinə (izahatına) görə qanuni-əsasi və höküməti millinin əleyhinə hər cür iqdam edənlər hüquqi ictimaidən məhrumdurlar və ona görə də bunların qoyduqları qanun və qəbul etdikləri qətnamə Iran millətinə əsəri qanunisi yoxdur. Mütəmmimi qanuni əsasının 26-ci əsli (məmləkətdə ali güc millətdir) cümləsi intixabat fərmanını verməyə hər bir məqamda səlayihətlidir. Əvvəla məşrutə və qanuni-əsası İran millətinin xüsüsi ilə Azərbaycan xalqının qanı bahasına alındığı üçün Azərbaycan xalqı 15-ci dövrənin məclis nümayəndələrini intixab etməyə məşrutənin əsasını hifz və qanuni-əsasının əsilərini icra edir. Ona görə də Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsinin və təşkilat başçılarının müştərək işlası qət edir. Mərkəzi Komitənin heyəti amiləsi xalqın həyati arzusu olan və məşrutənin payəsi və qanuni-əsasını əsli olan məclisi-şürayi

millinin 15-ci dövrəsinin nümayəndə intixabatı işlərinə rəhbərlik edib və xalqın istədiyi kimi onu icra etsin.

Qanuni-əsasının 4-cü əslinə görə bütün Iran millətinə 162 nəfər nümayəndə intixab üçün haqq verilmişdir. Indi bu 200 nıəfərə qədər artırmaqa həmin əsl mocibincə haqqları vardır.

Ona görə ki, İran milləti ümimən cəmiyyətcə 15 milyondan yuxarı təxmin edilməmişdir. "Yəqin ki, 12 milyondan artıq deyil" Azərbaycan xalqı bunun həddi əqəl 3.1 hissəsini təşkil edir. Ona görə Azərbaycan xalqı Iran məclisinə 54 nəfər nümayəndə intixab etmək, onun qanuni haqqdır.

Əgər indiyə qədər Azərbaycan xalqına 21 nəfər nümayəndə intixab haqqı verilməmişsə Azərbaycan xalqların haqqnı minlərcə ayaqlar altına almışlar, bu da onlardan birisidir. Bu maddələrə görə həmin cələsə qət edir Azərbaycanın məhşur haqqı olan 54 nəfər intixab etməsi aşağıdakı mövqei icraya qoyulsun.

Sonra ağayi Badigan 54 nəfər bütün Azərbaycan nümayəndələrinin surətin və tedadını hər məhəllin cəmiyyətinə nisbət oxuyub və şəhr verdi. Bu qərar ilə 4 milyon yarım cəmiyyəti nəzərə alaraq, bütün Azərbaycan üçün 54 vəkil intixab olunması qərara alındı. Bu qərar hərarətli və şürəngiz ura səsləri ilə Mərkəzi Komitənin ümum iclas tərəfindən təsdiq olundu.

Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin ümumi iclasının ikinci dovrəsinin üçüncü iclası cümə günü mehr ayının 18-də səhər saat 9 tamamda təşkil olundu. Ağayi Pişəvəri cələsəni iftitah etdi. Vilayət və ətraf nümayəndələrinin qozarişləri eşidirdi.

Urmiyyə nümayəndəsi aqayi Azadvətən urmiyyədə kənd və şəhərlərdə demokrat firqəsinə olan səmimiyyətini və hərarətli ehsasatını bildirib firqəmizin pak və müqəddəs məramı yolunda can və mal ilə hazır olduqlarını qeyd etdik.

Ağayi Pişəvəri komitə tərəfindən Urmiyyə təşkilatının daha da möhkəmlənməsi üçün bir neçə müfit (xeyirli) təkliflər etdi. Bu təklif umum cələsə tərəfindən qəbul edildi.

Ərdəbil nümayəndəsi ağayi Covdət Tehran mürtəce məmurlarının təhriklərinə dair söhbət edib, Tehranın mürtəce ünsürlərinin Azərbaycanda əmniyyəti pozmağından və cinayətlərindən bir neçə nümunələr zikr(qeyd) edib. Ərdəbil əhalisinin məxsusən bütün təbəqələrin əlaqəsini firqəmizin şüarlarına və Azərbaycanın daxili muxtariyyətin və öz ana dilinə dair danışıb, firqənin süarlarını həyata kecirməkdən ötrü bütün Ərdəbil Azərbaycan Demokrat Firqəsinə camaatının sədaqətli olduqlarını bildirib və Ərdəbil homəsinin irtica qüvvələrinin qarət və maniəsinə baxmayaraq gündən-günə vüsətlənməsini şərh(izah) verdilər.

Zəncan nümayəndəsi ağayi Cahanşahlu Zəncanda olan siyasi şərait və feodalizmin ağır vəziyyətindən danışaraq, Tehran hökumətinin qeyri qanuni təhrikati ətrafında mükəmməl surətdə bəhs etdilər. Zəncan əhalisinin Azərbaycan Demokrat Firqəsinin alicənab şüarnarına hərarətli əlaqə göstərmələrini geyd etdilər. Ağayi Cahanşahlu muxtəsər surətdə Zəncanda məhəlli dərəbəyliklərin azadlıq əleyhinə olan təhrikatından danışdı.

Xoy numayəndələrindən ağayi Atəş Bəyat və ağayi Zoqi Xoy təşkilatı vəziyyətinə dair və orada oilanmüxtəlif cərəyanlar haqqında izhar etdilər ki, tehrandan göndərilən bəzi mürtəce məurlar azadlıq əleyhinə gizli surətdə əməliyyatlalar(iş) aparmaqdadırlar. Lakin bizim firqənin qüdrəti xalq içərisində ehtirəm vəşiunatıHörməti) o qədər yüksəkdir ki, bu gün bütün xalq firqənin müqəddəs şuarlarını həyata keçirməyə canlarıla hazırdılar.

Maraqa numayəndəsi ağayi Kəbiri otuz min marağa və ətraf firqə üzvləri tərəfindən Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsinin ümumi iclasına atəşin salamlarını yetirib və onlarin iman və əqidələrini firqə göstərən yola və o iradə

elan hədəflərə elan edib. Müxtəsər surətdə Marağada olan dərəbəyliklərin irticai hərəkatıla əlaqədar və mürtəceünsürlərin fəcaye və törətdikləri cinayətlər barəsində danışıdı. Sonra and içdi ki, Marağa əhalisi öz axırıncı qətrə(damla) qanına qədər Azarbaycanın azadlığı və Azərbaycan xalqınn səadəti uğrunda hər curfədakarlıq etməyə hazirdirlar.

Xalqımız tamamilə irticanın boynumuza vurduğları zəncirlər iqırıb,Azərbaycanin səadəti yolunda çalişacaqdır.

Sonra əhər, ərasbaran, Maku və bir cox mühüm təşkilat nümayəndələri öz yerlərinin vəziyyəti barəsində müfəssəl (mükammal) sürətdə qozarişlərərini(raport) verdilər.

Ümumiyyətlə cələsədə olan bütün nümayəndələr və təşkilat başçıları belə nəticə aldilar ki, bu gün Azərbaycan xalqı hər təbəqə və sinifdən olursa-olsun Azərbaycan Demokrat Firqəsininrəhbərliyi Altında var qüvvəsilə Azərbaycan xalqının azadlığını və daxili müxtariyyətin alalmağa və əyaləti-vilayəti əncümənləri təşkil etməyə qanuni-əsasinin müqəddəs maddələrini həyata tətbiq etməklə bərabər, Tehran mürtəce hökumətin qeyriqanuni əməliyyatlarına son qoymağa hazır və amadədillər. Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsinin ümumi üçuncu cələsi böyük bir şadlıq və ruh yuksəkliyi ilə tutuqlari təsmim və qərarları şəhər və kəndlərdə həyata kecirmək üçün söz verdilər.

Cələsə yaşasın Azərbaycan Demokrat Firqəsi! Yaşasın Azərbaycanın istiqlalı! Yaşasın Iranın! süarları ilə xatəmə tapdi.

Bununda qeyd etməliyəm ki, o günlərdəbizim fəaliyyətimizdən vəhşətə (qorxuya) düşən hökümət məmurlrı, qoşun başcıları, jandarm təşlkilatı, polis və qeyriləri var qüvvələri ilə bizi əzib ortadan aparmağa hazırlanırdılar. Bizi terror vasitəsilə oldürüb, işiləri vəhşət tolid etməklə, qiyqmi yatırmaq üçün tehrandan terror dəstələridə göndərilmişdi. Cələsənintəşkil olduğu hökumət binası qeyri-rəsmi və gizli surətdə polis və dövlət adamlari ilə mühasirə olunduğunu mən

şəxsən bilirdim. Ona görə tapşırmışdıq kəməri əsləhə ilə müsəlləh olan şəhər fədailəri özlərini bildirmədən müdafiə etsinlər. Binanın qapılarında gizli müsəlləh adamlar qoymaqla gəlib – gedənlərin rəftar və hərəkatına muvazibət edilirdi.

Ümumi iclas davam edərkıən Sufiyan, Mərənd və sair şəhər və kəndlıərdə fədailərin tüfənglərinin gurultusu eşidilirdi. Lakin onlar hələ müstəqil bir dəstə kimi zahirə (aşkara) cixmamişdılar.

Dövlətin təbrizdə olan hərbi qüvvələri isə təşviş və iztirabə döşərək, bir tərəfdən bizi qorxudmaq və digər tərəfdən özlərini gözləmək məqsədilə Şəhrdarlıq binasını və Ali Qapını səngərbəndlik edərək, onların dərvazalarında ağır avtomat və müsəlləh nizami qüvvələr qoymuşdular.

O günlərdə fədai dəstələri ilə müstəqimən özüm rabitə saxlayırdım hətta Mərkəzi Komitədə caliaşan müavinlərimdə onlarin harada və nacür təşkil olunub, kimlərin rəhbbərliyində işə başladıqlarını bilmirdilər.İntizam fövqüladə şədid idi.Firqə üzvüləri onlara verilən tapşırıqları danişiqsız və sual-cavabsız olaraq mərdanə bir surətdə icra edər, olümə getməyəağla gəlməyən ehsasat ilə hazır olduqlarını bildirdilər.

Hətta Mərkəzi Komitənini ümumi iclasının əksəriyyəti də fədai dəstələri təşkilinə məmur etdiyimiz qəhrəman firqə üzvlərindən idi. Işin möhkəm intizam və şədid konsprasyon şəraitində aparılması müvəffəqiyyətimizi təyin edirdi.

Cələsənin təfsilində (izahına) göstərildiyi kimi iclası açaraq vəziyyəti tamamilə təşrih(izah) etdikdən sonra yerlərdən gələn məsul firqə işçilərinə danışmaq üçün söz verildi. Burhani, Qulamyəhya Danışyan, Rəbi Kəbiri, Abbasəli Pənbə, Tağı Purçalı, Azadvətən, Atəşbəyat Maku, doktor Cahanşahlu və başqaları özlərinin hərarətli çıxışlarında mənim sözlərimi təsdiq edərək, sözdən əmələ keçmək lüzumunu irəli sürdülər. Iclasda ruhiyyə olduqca yüksək idi. Mən onlara bu vaxta dək sülh və müsalimat yolu ilə getdiyimizin illət və səbəbəri göstərib, bu vasitə ilə böyük hərəkatın müqəddəməsinin

hazırlanmasını anlatmağa müvəffəq oldum. Nəticədə firqə rəhbərinə nisbət dərin etimad göstərməyə başladılar.

O günədək biz firqə üzvlərini kəndliləri səbr və mətanət və saziş yolu ilə rəftar etməyə çalışmışdıq. Hətta mitinq və küçənümayişlərinə belə icazə verməmişdik. Bu isə firqə fəaliyyətini fəqət nitq edib, nümayiş verməkdən ibarət bilən bəzi sabiq (keçmiş) Hizbi-Tudə işçilərini razı salmırdı. Bizcə hər bir nümayiş, hər bir iclas bir məqsəd, bir hədəf mühüm bir məsələni xalqa yetirmək üçün təşkil edildiyi halda, faydalı ola bilərdi. Əgər mitinq, küçə nümayişindən məqsəd təzahür və özünü göstərmək olursa o Nümayişdən böyük zərər gələ bilər. Ona görə mən şəxsən nümayişlərə icazə verməyib, Mərkəzi komitədən xəbərsiz mitinq çağırmağı qadağan vələğv etdiyimi söylədim.

*"Bu günədək biz dağa doğru çıxırdıq. Dağın arxasını görmədiyimiz üçün özümüzü yora bilməzdik. Çünki çıxdığımız dağın arxasında möhlik bir uçurum və ya yüksək bir dağ dəxi ola bilərdi. Indi isə biz dağın qülləsinə çıxmağa müvəffəq olmuşuq. Onun arxası isə gözümüzün qarşısında, onu sürətlə enmək üçün qarşıda olan müşkülatı daha rəf etməyə qüdrətimiz vardır. Artıq dayanmaq olmaz. Xalqı mitinqlər və nümayişlər vasitəsilə başa salıb, həyəcana gətirməliyik".*

Mənim bu sözlərim mübarizədən ötrü ölümə hazır olduqları halda təzahüldən və nümayiş təşkilindən xoddarlıq etməyə məcbur qalan işçilər arasında şiddətli bir ruh yüksəkliyinə səbəb olub, gurultulu alqışlar, ura səsləri ilə salon titrəməyə başladı. Bu sözləri eşidərkən müqəddəs bir cahad elanı kimi hamının gözlərində ildırım çaxdığını xatırladan əcəb (qəribə) işıqlar parladı. Bu ehsasat içərisində bir iddə üzvilər tərəfindən təhiyyə edilib, hazırlanmış qərarların layihəsi müttəhid (birgə) rəy ilə qəbul edildi.

Firqə həyatının ümum sahələri ilə əlaqədar olan bu qərarda siyasi sahədə sözdən işə keçmək üçün ciddi tədbirlər göstərilmişdir. Birinci maddədə 12 Şəhrivər şüarlarını icra

etmək üçün əncumənləri məclisi-şurayi-milli intixabatının Tehrana müntəzir olmadan başlanması idi. Bunu həyata keçirib, qanun şəklinə salmaq üçün xalq yığıncaqları təşkil etmək lazım idi. Üçüncü maddədə qeyd edilən ümumxalq konqrəsi və nəhayət 5-ci maddədə göstərilən kəndlərdə ərbabların göndən-günə şiddətləndirdiyi vəhşiyanə hərəkətin qabağını almaq üçün camaat qüvvəsinin işə çəkilməsi kimi tədbirlər ilə doğrudan-doğruya gələcək nehzət planını cızmağa müvəffəq olmuşdıq.

Firqənin ümumi isiyasəti və xətti-hərəkətini təyin eləyən bu qərarın küllüyat üzərində olduğu məlumdur. Lakin dövləti işlərdən təcrübəvi məlumata malik olmayıb, 20 il siyasi və ictimai işdən məhrum olan bir cəmiyyət küllüyatı lazımıncə anlayıb, onun üzərində irəli getmək müşkül bir iş idi. Bunu bildiyimizə görə həmişə qərarlarımızı sadələşdirərək bəzi mövzuları təkrar etməyə məcbur olurduq.

Bu cəhətdən yuxarıda bəhs etdiyimiz cələsədə əyalət əncuməni və məclis seçkiləri mövzusunu irəli olaraq (əvvəldə) müzakirə etdik. Bu məsələrin birincisi barəsində Ağayi Qiyami, ikincisinin barəsində Ağayi Badigan izahat verdilər. Bu məruzələr barəsində çıxarılan qərarlar iclasın ümumi qərarını təyid edərək onun icrası üçün mükəmməl sürətdə əməli tapşırıqlar verildi.

Beləliklə Mərkəzi Komitənin İcraiyyə Heyətinin fəaliyyət sahəsi genişlənərək bütün firqə təşkilatı məsuliyyətin ağırlığını hiss etməklə çox ciddi diqqət və etina ilə yeni yolda getməyə başladı. Həmin qərar çıxarılan gün “Azərbaycan” qəzeti firqənin yeni xətti-hərəkəti barəsində Azərbaycan və Fars dillərində yazdığı məqalələrdə hərəkatımızın milli qüdrət (hökumət) təşkili yolunda irəli getdiyini açıq və aydın sürətdə bəyan etdi. Tarixi vəsiqələrdən ibarət olan bu məqallərdən ikisinin bəzi parçalarını burada nəql edirik:

**Ikinci dövrənin şüarları**

Bugünki şüarlarımız əncümənlərin təşkili və 15-ci məclis seçkilərinin səri bir sürətdə başlanmasıdır. Bu iş böyük siyasi bir işdir. O firqəni xalq ilə yaxınlaşdırıb, onu həqiqi rəhbərlik məqamına yetirən bir işdir. Heç bir siyasi firqə tək öz üszvlərinin əli ilə istədiyinə nail ola bilməz. Daha artıq xalq işlərinə qarışıb, xalq öz işlərini daha geniş bir dairədə anlayıb. Onların əməli olmasına çalışarsa, o firqə xalqa daha artıq yaxınlaşıb onun bitməz və tükənməz qüdrətindən daha artıq istifadə edə bilər. Ikinci dövrədə firqə işçilərindən bunu tələb edirik:

*"Sözün qısası daha yaxşı olan, bizim ikinci dövrədə əncam verəcəyimiz vəzifələrin birincisi, yerlərdə aşağıdakı təşkilatı yəni hozə və homə komitələrini möhkəmləndirmək. Ikinci böyük mitinqlər, geniş konfranslar vasitəsilə əncumənlər və məclis intixabatının mənasını xalqa anladıb, onları bu yolda mübarizəyə hazırlamaqdan ibarətdir. Bir sözlə quruluş dövrəsi xatəmə tapıb, geniş təbliğat və əməl dövrəsi başlamışdır. Bu gündən etibarən firqə siyasi qüdrət kəsb etmək yolunda mübarizə edir. Siyasi qüdrət əncumənlər və məclis nümayənədələrinin azadixah və demokrat şəxslərdən intixab olması sayəsində kəsb edilə bilər. Bunu heç bir firqə üzvü unuda bilməz".*

***Praktik (əməl) mərhələsində***

*"Dünən günortadan sonra saat 4-ə qədər firqəmiz öz keçid dövrünü keçirirdi. Amma bu gündən etibarən əməl mərhələsinə qədəm qoyub, şəhrivər ayının 12-dən bu günə dək vətən xainləri bizim səbr və hövsələmizdən maksimal istifadə etmiş. Hər cür vəsaitdən firqəmiz arasında nifaq salmaq üçün istifadə etdilər. Lakin onların zəhmətləri nəticəsiz qaldı və bizim əsas məsələmizi zərrə qədər də olsun sarsıda bilmədilər. Dünən meydan onların idi. Hər nə istəyirdilər yazıb, rəiyyətlərin və*

*əlsiz-ayaqsız adamların başına gətirirdilər. Amma bu gün onlara bu işlərində fürsət verilməyəcəkdir.*

*Mərkəzi hökumət ki, onun yüksək nümayəndəsi Milli Şura Məclisində Azərbaycandan gələn teleqrafa təhgir və istehza ilə baxaraq: "Belə teleqraflara əhəmiyyət vermirəm"- deməklə Fərruxu Azərbaycana vali göndərməklə Azərbaycan xalqını ağrıdırdı. Amma o bu gün gərək bilsin ki, millət qanuni əsasını ki, onun həyat varlığı deməkdir qorusun.*

*Biz Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsinin qərarına əsasən yaxın gələcəkdə Azərbaycanda əyalət və vilayət əncumənlərində seçkilər keçirəcəyik. Əməldə sübut edəcəyik ki, sədr (mərkəzi hökumətin baş naziri) kimilərin verdiyi əmrlər eləyə bilməz millətin tərəqqi və inkişaf yoluna mane olsun və qanuni əsasını ayaq altına salsın. Əyalət və vilayət əncumənlərinin seçkilərindən sonra firqənin məramnaməsinə əsasən parlament seçkilərini keçirib, Milli Şura Məclisinə nümayəndə seçib, göndərəcəyik.*

*Artıq sifariş, teleqraf və xahiş dövrü bitmişdir. Bu dəfə əməl etmək dövrü başlanmışdır. O hökumət ki, azadixahların teleqrafın istehza edib, bilməlidir ki, bir neçə nəfər öz mənafei namına xalqı boğur, bilməlidir ki, onun qüdrətindən daha da güclü və qüdərtli millətin gücüdür. Bu dəfə xalqın qəzəb dənizinin dalğası coşaraq xainləri cəzalandırıb və boğacaqdır.*

*Əyalət və vilayət əncümənlərinin seçkiləri qanunudur. Həmçinin məşrutə qanuni-əsasının maddəsinə əsasən heç vaxt bu qanunun qarşısı alınmayacaq. Onlar ki, bu qanunun qarşısını almaq istəyirlər bilsinlər ki, qanunu müdafiə edənlər neçə nəfər xain adamlardan güclüdür və onlar ayıqdırlar. Azərbaycan bu yaxınlarda bir kiçik güc nümunəsi göstərəcəkdir. Sonda bu məsəli demək yerinə düşər. Eyib və iradı olanlar üzü qara çıxacaqlar."*

### Böyük xalq konqrəsi necə təşkil tapdı

Mərkəzi Komitənin rəyasət heyəti ümumi iclasdan sonra bilavasitə onun qərarlarını həyata keçirməyə başlayıb, yerlərdə ümumi mitinqlər və xalq yığıncaqlarının təşkilinə icazə verdi.

Iki ay yarım mitinq və təzahüratdan mane edilən firqəçilər və siyasi işçilər üçün bu icazə böyük müjdə idi. Bir neçə günün ərzində kəndlərdən və kargərlərin çalışdıqları xırda müəssisələrdən tutub, böyük şəhərlərə qədər hər yerdə geniş iclaslar gürultulu nümayiş və mitinqlər təşkil olunaraq, firqəmizin qərarını həyata keçirmək üçün əyalət əncümənin təşkilini və məclis intixabatının başlanmasını tələb edən bu qərarların çoxusu 3-4, hətta 5 metr ağ parçalar üzərində yazılan istəklər minlərcə əhali tərəfindən imza edilib, mərkəzi komitəyə göndərildi. Beləliklə əmələn bir referendom əmələ gəldi (keçirildi).

Mitinqlər və yığıncaqların qərarı sözdən ibarət olub, qalmamaq üçün ortada hazır olanlar öz aralarından bir iddə nümayəndə intixab edərək, böyük xalq konqrəsinə ezam edir. Onlara muxtariyyət və milli azadlığımızın təmin edilməsi üçün var qüvvələri ilə çalışmalarını tapşırdı. Bir həftə müddətində davam edən bu mitinq və yığıncaqlar fövqüladə gürultulu və geniş idi. Demək olar ki, Azərbaycanda çox az adam tapıpla bilərdiki, bu yığıncaqlar da iştirak etməsin. Hətta bizim müxaliflərimiz belə eldən. Kənarda qalmamaq üçün həmrəngi camaat olaraq, onlarda şirkət edir və camaatın imzaladığı qətinamələri imza etməkdə xalqdan geri durmaq istəmirdilər.

O günlərdə işin səri surətdə irəli getməsini görüb, el doğrudan-doğruya həyəcana gəlib təkan yemişdi. Təbrizin özündə 12 yerdə böyük mitinq dəvət olunmuşdur. Onların ən əhəmiyyətlisi Şəhridarı qabağında ki, {yığıncaq idi}. O vaxtadək Təbrizdə belə bir ictimani sorağ verən yox idi.

Bu 30 min nəfərlik yığıncaq mərkəzi hükumətin Təbriz hərbi Səxlusı (hərbi bölmə) tərəfindən hərbi istehkamat və nizami qalaya təbdil edilmiş, Alı Qapı ilə şəhridari binası

qarşısında təşkil tapdığından xalqı curət və qəhrəmanlıq hissi ilə ruhlandıran bir hadisə idi.

Sərhənq Vərəhram və Sərtib Dirəhşanın müsəlsəl, topları iki tərəfdən şəhridarı binasının pəncərə evanları ilə Alı Qapı sarayının eyvan və dərvazalarından camaatı hədəf qərar vermiş. Eyni zamanda nəzmiyə və hökuməti-nizaminin savar məmurları camaatı üzük qaşı kimi əhatə etmişdir. Hava olduqca tufan idi aban ayının (noyabr) 27-si demək Təbrizin ən boranlı günlərindən idi. Şiddətli külək, dondurucu qar və yağış amansız düşmən kimi mitinqə toplasanların üz-başların qamçılayırdı. Buna baxmayaraq xalq bizim sözlərimizi eşidib, məqsədimizi anlamaq üçün uzun zamanlar belə davam etsə idi də dağılıb evlərinə getməyəcəkdilər. Mürtəcelər və bazar adamları cür-bəcür (müxtəlif) şaiyələr ilə xalqı qorxudub, həyacana gətirmişdilər. Şəhərdə böyük şuluqluq və ədəmi-əmniyyət gözlənilirdi. Mərkəzi Hökumət tərəfindən yerli məmurlara demokrat firqəsi rəhbərlərini toqif etmək (tutmaq) əmri verilmişdir. Bunu biz bilirdik. Hətta Tehrandan (göndərilən) əmniyyə təbrizə yetişəndən əvvəl orada olan azadixahlar bu xəbəri bizə yetirmişdilər. Lakin iş onlardan keçmişdir. Yerlərdə fədai təşkilatları və kəndli hərəkatı özünü göstərməyə başlayıb, yerli hokumət məmurlarının fəna vəziyyətinə dücar olduğu aşkara çıxmışdır. Ona görə onlar curət edib bizə əl uzada bilmirdilər. Şəhər və əhalinin təmayülü (meyli) tamamilə bizim tərəfəimizdə idi. Belə bir halda, bizi toqif etmək onların məhv və nabud olmaları demək idi. Tazə bizi toqif etmək üçün onların kifayət qədər gücləri yox idi. Onlar bizim firqədə olan qüdrətdə fədai qüvvətimizin tedadını (sayını) və qüdrətini öz aralarında şişirdib, böyüdüklərinə görə qorxularından öz evlərində belə rahat yata bilmirdilər.

Bunların hamısı ilə belə bizlərdən bir neçə nəfəri terror etmək ya ictimanı dağıtmaq üçün başqa növ fitnəamiz hərəkətlərə əl vurmaq onlardan baş verə bilərdi. Biz bu ehtimalların hamısını nəzərdə tutub, onların qarşısını almaq

üçün qabaqdan tədbirlər görmüşdük. Intizamı saxlayıb, əmniyyəti bərqərar etmək üçün firqənin baş bilənlərindən xüsusi bir heyət intixab edib, vaxtdan qabaq şəhridari meydanına göndərmişdik. Kəməri əsləhələri ilə mücəhhəz etdiyimiz fədailər tribunu və ictimanın ətrafın dəqiq surətdə müdafiə edirdilər. Qara külək və yağışa baxmayıb, camaatın meydanda hazır olması özü-özliyində hərəkatın ciddi mərhələyə qədəm qoymasına böyük bir dəlil hesab olunurdu.

Biz bu yığıncaqda firqənin xətti-hərəkətinin və milli şüarlarımızın həyata keçirilməsini səsləndirməkdən sonra camaatı qorxudan çıxartmaq üçün firqəmizin əmniyyəti hifz etmək vəzifəsini boynuna götürdüyünü elan etdik. Bu isə fövgüladə bir surətdə müəssir vaqe oldu (təsir qoydu).

Mən öz nitqimdə əmniyyət barəsində "Azərbaycan demokratları bazarın və dükanların qapılarında yatmağa məcbur olsalar da  sizin mal və canınızı hifz edəcəklər" dedikdə, xalqın üzündə böyük şadlıq əsəri müşahidə edirdim. Onların əlləri ixtiyarsız olaraq hərəkətə gəlib, mitinqi alqışlamağa başladığı sözlərimin təsirini aşkara çıxartmağda idi. Çox sadə və təbii olaraq söylənilən bu cümləni eşitməklə böyük vəhşət və təşviş içində yaşayan xalq qorxudan çıxıb, siyasi sözlərimi məmnuniyyətlə eşidib, onların icrasına baş və can ilə hazır olduğunu bildirdi. Iş belədir. "Bəzən insan kiçik bir vahimə ilə özünü böyük zəhmətlərə düçar edir. Həmən adam başqa bir vaxt kiçik bir güzəşt nəticəsində böyük fədakarlıqlara hazır olub ən çətin, ən müşkül xətərlər ilə üz-üzə gəlməkdən çəkinmir".

Azərbaycan xalqı pak, saf və hesabi bir xalqdır. Onda mərdlik və pakniyyətlik vardır. Mohil (hiyləgər) şeytan və ikiüzlü deyildir. Sədaqət və mərdlik gördükdə ölümə hazır olaraq heç bir xətər dən qorxmayıb, sözündən dönməz lakin kiçik bir namərdlik görməyə təhəmmül etməz. Ona görə hiyləgərlər, hoqqabazlar, yalançılar, xüsusi istifadəçilər Azərbaycanda izhari-vücud edə bilməzlər.bu xalq çox həssas

və konckaf (diqqətli) bir xalqdır. Yalançı pəhləvanları, həyasızları, sui-istifadəçiləri çox tez tanıyır və onları xalqa tanıtdırmaqdan çəkinməyib, onları rusva etmək üçün əlində olan bütün vasitələrdən istifadə edər. Azərbaycanlını söz ilə aldatmaq olmaz. Çünki onun ruhu təmiz və ehsasatı qəvidir. Kiçik bir xəyanət hiss edərsə onun iynədən pak və saf olan könlü sınar. Bu vasitə ilə üzünü döndərər. Bir daha insana yaxın düşməz. Bu cəhətli xasiyyət üzündən idi ki, bizim böyük tarixi yığıncaqda əmniyyət barəsində dediyimiz səmimi sözlər onu tutub, ruhuna təsir etmişdir. O gün biz onun evini, dükanını və ailəsinin həyatını hifz etmək üçün mərdanə söz vermişdik. O da bizim sözümüzü sədaqətlə qəbul etmişdir, demək yoldaşlaşmışdıq. Ondan sonra hamımız əl birliyi ilə hər bir şeyimizi fəda edə bilərdik. Onun buna etirazı yox idi.

Mən iki böyük yığıncaqda Azərbaycan xalqında böyük ehsasatı hiss etmişdim. Biri həmin tufani mitinqdə, digəri isə Ərk bağında Azər ayının 8-də axşam saat 4-də şəhər təşkilatının dəvəti üzrə milli məclis seçkiləri məqsədi ilə böyük yığıncaqda idi.

O gün mən danışmaq istəmirdim. Bilmirəm nə cür oldu. Xalq israr ilə mənə də öz fikrimi deməyi təklif etdi. Məndən qabaq bir neçə natiq danışmışdı. Qərar üzrə Ilhami danışacaq idi. Mən istər-istəməz tribuna keçdim və öz fikrimi çox sadə və təbii ləhn ilə əvvəl çox mülayim bir surətdə bəyan etməyə başladım. Xalqın diqqəti məni həvəsləndirdi. Bütün ürəyimin sözləri ilə düşüncə və ehsasatımı açıb, ortalığa qoydum. Mən danışdıqca xalqın sükutu artırdı. 10-15 dəqiqə üçün başladığım söz bir saat yarım davam etdi. 10 min nəfərə malik olan camaat içərisində kiçik bir təkan belə görmədim. Danışılan sözlərdən bir kəlməsi belə eşidilməmiş, anlanılmamış buraxmamaq üçün xalq hər bir şeyi unudub, diqqətlə dinləməkdə idi. Hətta əl çalmaq, alqışmaq belə onların xatirlərinə gəlmirdi. Deyə bilərəm bu 10 min nəfərin hamısı vahid bir ruh ilə ruhlanmışdır. Danışarkən mən öz börkümü qabağıma qoyub,

öz-özü ilə danışıb, qəzavət edən bir adam kimi hiss edirdim. Biz biriydik: “Mən və camaat”. Bir söz danışıb, bir fikir edirdik. Ona görə mən xalqın üzündə böyük razılıq müşahidə etməklə onun bizə ürəkdən inandığını və inam üzrəində bizim müvəffəqiyyətimizin yüzdə yüz təyid edə biləcəyini yəqin etdim. Xalqı sevmək və etimadının məzhəri olmağın və onun birinci dəfə olaraq bu iclasda dərk etdim.

O günə dək əgər siyasi mübarizə və firqəvi bir iş ilə məşğul olmağı özümə vəzifə bilirdimsə, ondan sonra xalq dostluğunu, xalq xanəvadəsinin (ailəsinin) məsuliyyətli bir üzvü kimi ağır vəzifə daşıdığımı hiss etdim. Ona görə xalq sözü, xalq işi, xalq səadəti mənim üçün yüksək və ali bir hədəf şəklində təzahür etdi. O gündən etibarən şüarlar, məramnamələr, iclaslar və konqrələrdə çıxarılan qərarların doğruluğu üçün həmin xalq səadətini bir vahid, bir ölçü olaraq təqib edərək pişnəhadatları bu əsl üstündə qurub düzəltməkə çalışdım. Bu ölçü üzərində gördüyümüz işlər də həmişə yüzdə-yüz müvəffəqiyyətimizin təmin olunduğu da əməldə mənə sabit oldu. Bir sözlə o gündən etibarən gücümüz və hədəfimiz və zəəfimizin xalqda olduğunu tam mənası ilə dərk etdim. Bu həqiqəti nəzərdə tutmayan zaman yoldan azır və xalqdan uzaqlaşmaqla, işlərimizin nəticəsiz qaldığını hiss etməyə başladım.

Tək Təbrizdə deyil, bütün Azərbaycanda təşkil olunan yığıncaqların hamısında böyük ruh yüksəkliyi və şiddətli ehsasat hiss olunur. Onların çıxartdıqları qərar hamısı bizim arzularımız ilə rast gəlirdi. Yığıncaqlar farsların dediyi kimi “Nişəstənd, qoftənd və bərxastənd” (“Oturdular, dedilər və qalxdılar”) – deyil, müsbət təkliflər ilə toplanıb, onları əməli etmək üçün başlı bəlli inanıb, tanınmış, xalq qeydinə qalan adamları nümayəndə seçib. Milli konqrəyə göndərməklə nəticələnirdi.

Bir həftədən artıq sürməyən bu müddət də bütün Azərbaycan ayağa qalxmışdı. Böyük şəhərlər və qəsəbələrdə toplanan iclasların xalq tərəfindən imzalanıb, firqəmizin

Mərkəzi Komitəsinə göndərildiyi ağ parçalar üzərində yazılmış qərar və qətnamələr yüzlərdən mütəcaviz (artıq) idi. Beləliklə həqiqi xalq konqrəsinin payəsini qurmağa müvəffəq olduq. Misəl üçün ətrafdan gələn teleqraflardan və şəhərlərdə təşkil tapan mitinqlər barəsində azərbaycan ruznaməsində dərc edilən xəbərlrdən bir neçəsini buraya dərc edirik.

***10 min nəfərlik mitinq***

*"Azərbaycan Demokrat Firqəsinə və "Azərbaycan" qəzetinə Runeveşt pənşənbə günü aban ayının 24-də (noyabrın 15-də) Makuda 10 min nəfərlik əzəmətli bir mitinq əyalət və vilayət əncümənlərinin təşkili üçün verildi. Əhali əncümənlərin təşkil olunmasını səmim qəlb ilə tələb edib, öz nümayəndələrinin konqrədə şirkət etməkdən ötrü intixab etdilər."*

***Muradəli Teymuri Bəyat***

***Marağadan teleqraf***

*"Azərbaycan Demokrat Firqəsini aban ayının 22-də (noyabrın 13-də) 4 min nəfərdən artıq mitinq və Bunabda 3 min nəfərlik əzəmətli bir mitinq təşkil olundu. Xalq konqrəsinə əksəriyyət rəy ilə nümayəndələr intixab edildi."*

***Vilayəti komitə tərəfimndən Purrəsul 13.11.1945***

***Təbrizin şəhridari meydanın***
***30 min nəfərlik mitinqi***

*"Yekşənbə (bazar) abanın 27-də (noyabrın 18-də) günortadan sonra müxtəlif karxana fəhlələri və kargərlər mərkəzlərindən, ətrafdan gələn kəndli kütlələrininin, fiqə üzvlərinin, bazar adamlarının və əhalinin müxtəlif siniflərindən millətin arzu etdiyi istəklərin həyəcanlı şüarlarla və həmçinin*

*yaşasın "Azərbaycan milləti" və "Yaşasın Azərbaycanın milli muxtariyyəti", "Qurulsun vilayət və əyalət" əncümənləri "Yaşasın qanuni-əsası". Şəhərin böyük xiyabanlarından keçərək, böyük şəhridari meydanına dək hərəkət edirdilər. Havanın soyuqluğuna baxmayaraq, saat 4 yarım hüdudunda 30 min nəfərdən artıq Şəhridari meydanına toplanmışdılar."*

Yuxarıda izah etdiyimiz böyük mitinqdə aldığı ehsasat üzrə Biriya aşağıdakı şerləri yazıb, "Azərbaycan" ruznaməsi vasitəsilə intişar vermişdi. Xalqın o günkü ruhiyyəsindən bir nümunə olmaq üçün onun şerini buraya köçürürük.

***Oğlan bura bax.***
***(Bir mürtəcenin dilindən)***

*Pah atovnan nə qiyamətdir ay oğlan, bura bax*
*Doğurdan-doğruya lap qorxuri insan bura bax.*

******

*Bu soyuqda bu sazaq gündə sərasər xiyaban*
*Nə olubdur ki, camaatla dolub ağzınacan.*
*Qarışıb bir-birinə arvad-uşaq piro-cavan*
*Dəyişib iş daha namərdir bu gün asta qaçan.*
*Üz qoyub, sanki xarab, olmağa dövran bura bax*
*Pah atovnan nə qiyamətdir ay oğlan bura bax.*

******

*Son zamanlar gedələr bağlayıb üstən qəməni*
*Az qalıb ki, adamın lərziyə düşsün bədəni.*
*Qorxudan evdə tutur hər gecə titrətmə məni*
*Belə getsə quracaq bunlar əncüməni.*
*Yəqin işdən düşəcək köhnə dəyirman bura bax*
*Pah atovnan nə qiyamətdir ay oğlan bura bax.*

******

*Əldə bayraq ucadan bir söz uçurdur hərəsi*
*Qışqırır, bir sürü bir yerdə kəsilmir nəfəsi*
*Mato-məbhud ilə eləyibdir görürəm, cümlə kəsi*
*Hər tərəfdən yaşasın konqreyi-milli səsi.*
*Görünür ki, qopacaq bir təzə tufan bura bax*
*Pah atovnan nə qiyamətdir ay oğlan bura bax.*

******

*Yıxdı vallah kişilər bəy bazarı demokratın*
*Bərkidir cin kimi hər yanda yerin yeddi qatın.*
*Odu sürətlə çapır mərəkədə sürətlə atın*
*Mən hələ heç a balam birdən əgər öz bəsatın*
*Neyləyün sonra yığışdırsa "Diraxşan" bura bax*
*Pah atovnan nə qiyamətdir ay oğlan bura bax.*

Yuxarıda göstərdyimiz kimi "Azərbaycan" qəzeti firqəmizin dili və nehzətimizin atəşin silahı olduğu üçün onun qızıl səhifələri mübarizələrimizin şanlı tablolarını təşkil etməkdədir. O günün mübarizəsini qiymətləndirmək üçün biz bu məqalədə yaxşı izahat verə bilmirik.

Nəhayət mərkəzi komitəmizin aban ayının 18-də (noyabrın 7-də) çıxartdığı qərar həmin ayın 29-da dürüst (düz) 10 gündən sonra müvəffəqiyyətlə icra olur Böyük xalq konqrəsi ümum xalq tərəfindən azad bir sürətdə demokratik əsaslar üzərində seçilən 750 nəfər nümayəndənin şirkəti ilə Təbriz şəhərində təşkil olundu.

**Xalq konqrəsinin gedişi və ondan çıxarılan qətnamələr**

Istər konqrə üzvləri istərsə də camaat bu konqrəyə böyük ümid bağlayırdı. Burada Azərbaycan xalqının müqəddəratı və gələcəyi təyin olunduğunu xalq gözəl düşünürdü. Baxmayaraq ki, nümayəndələr içərisində Azərbaycan xalqının bütün

təbəqələrindən gözə çarpırdı. Lakin əksəriyyət kəndli və zəhmətkeşlərdən ibarət idi.

Konqrənin gedişi barəsində lazımı məlumat almaq üçün Azərbaycan ruznaməsinin yazdıqlarını eynən burada dərc edirik. Bu tarixi mədrək (sənəd) zənn edirik oxucularımıza məsələnin nə yerdə olduğunu və nehzətin idarə edənləri nə yol ilə təşkil etdiklərini tamamilə dərc etməyə imkan verəcəkdir.

**Azərbaycan xalq konqrəsinin birinci cələsinin qozarişi (raportu)**

Azərbaycan xalq konqrəsinin birinci cələsəsi dünən aban ayının 29-da (noyabrın 17-də) səhər saat 10 tamamda Şiri-Xurşud salonunda təşkil olaraq 750 nəfərdən ibarət müxtəlif təbəqələrin, şəhər və ətraf nümayəndələri iştirak edirdilər.

*1. Ibtida məclisi ağayi Hacı Əzimxan mərhum Səttarxan sərdari-millinin qardaşı təntənəli sürətdə iftitah (açılış) etdi. Sonra heyəti-rəisə və münşilər (katiblər) intixab olub, öz yerlərində qərar tutdular. Əvvəlinci dəfə Azərbaycanın qədim mücahidlərindən olan ağayi Səid Divan konqrəni təbrik etdilər.*

*2. Xoy nümayəndəsi ağayi Şeyx Musa Xoy ruhaniləri tərəfindən Azərbaycan xalq konqrəsini səmimi qəlb ilə təbrik edib, onun müvəffəqiyyətini arzu etdilər.*

*3. Salmas nümayəndəsi ağayi Mükərrəmmül-mülk konqrəni Salmas əhalisi tərəfindən təbrik edərək dedi: "Möhtərəm ağalar bu təbriklər gərək əməldə belə nəticələnsin tamam ağaların təsdiqi ilə bizim azadlığımız fədakarlığından asılıdır. Bizim tələb etdiyimiz haqdır. Haqq üstündə ölənlər həmişə paydar qalacaqlar. Və onların övladları onların fədakarlığlarını tarix boyu yad edəcəklər".*

*4.Urmiyyə nümayəndəsi ağayi Dilmuğani konqrəni təbrik edərək, dedi: "Ümüdvarıq bu konqrə xalqımız üçün səadət qapılarını açıb, onu xoşbəxtliyə doğru sövq edəcəkdir. Bu*

*konqrə düşmənlərimizin qəlbinə ox olub, dostlarımıza müjdə olacaqdır".*

*5.Maku nümayəndəsi ağayi Camalxan Bəyat Maku. Maku əhalisi tərəfindən Azərbaycan xalq konqrəsini təbrik etdilər.*

*6.Üskü nümayəndəsi ağayi Əli Şəmkiri kəndlilər tərəfindən konqrəni təbrik edərək, dedi: "Mən Üskü nümayəndələri tərəfindən konqərəyə söz verirəm ki, Azərbaycan daxili muxtariyyətini ələ gətirmək uğrunda var qüvvəmizlə karigar, kəndli parçabafları (toxucuları) mübarizə edib, bu yolda bir qətrə qanımız qalana dək canfişanlıq edəcəyik."*

*Mərənd nümayəndəsi ağayi Bürhaninin təbrik teleqrafı qiraət olundu (oxundu).*

*7.Zəncan nümayəndəsi Vüsuqi Zəncanın Azərbaycan Demokrat Firqəsi və azadixahları tərəfindən konqrəni təbrik edib, dedi: "Qanuni-əsası Azərbaycan millətinin qanı ilə vücudə gəlib, yenə də onun fədakarlığı ilə ehya olunmalıdır. Biz Zəncan əhalisi tərəfindən qol (söz) veririk ki, bu yolda var qüvvəmiz ilə mübarizə edəcəyik. Azərbaycan İranın başı olduğu üçün onun azadlığını və məşrutiyyətini saxlayacaqdır".*

*8. Ağayi Hüseyn Nobəri Təbriz əsnafları (tacirlər) tərəfindən dedi: "Bu konrə əyalət və vilayəti əncümənlərin qurulmasının vəsailini fərahəm etməyi (hazırlamağı) və tezliklə onu təşkil edib, işə başlamalıdır".*

*9. Ağayi Hacı Zeynalabidin Rəhimzadə Təbriz nümayəndələri tərəfindən konqrəni təbrik etdilər.*

*Azərbaycanın qədim mücahidlərindən olan ağayi Hinqami konqrəni səmimiyyətlə təbrik edib, dedi: "Mən azadlıq yolunda tökülən qanların səadətli istiqlalın təbrik edirəm".*

*10. Məşrutiyyətin əvvəlindən qurulan Azərbaycan əyaləti əncümənin üzvü və Azərbaycanın ən qədim azadixah və demokrat siması və şəhərimizin mötəbər (etibarlı) əyan və əşrafından olan ağayi Rəfii (Nizamül-Dövlə) Azərbaycan Demokrat Firqəsi tərəfindən konqrəni səmimi qəlbdən təbrik edib, dedi: "Allah-təaladan bu xalqların səadəti arzu edirəm".*

*11. Azərbaycanın Fəhlə Həmkarlar ittifaqının Sədri ağayi Biriya konqrəni 25 min kargərlər tərəfindən təbrik edib, dedi: "şəhrivər hadisəsindən sonra Azərbaycan xalqı dəfələrlə öz şikayətlərini Tehran hökumətinə və məclisinə yetirdi. Lakin bu xalqın fəryadlarına və ahu-nalələrinə bir kimsə qulaq asmadı. Bunun nəticəsində Azərbaycan Demokrat Firqəsi millətin iradəsi ilə təşkil olunub, Azərbaycanın mərd və mücahid oğlu ağayi Pişəvəri bu firqə və xalqımımza rəhbərlik göstərdilər. Bizim 25 mindən artıq kargərlərimiz var qüvvələri ilə bir qətrə qanları qalınca bu müqəddəs yolda öz mübarizələrinə davam verəcəklər".*

*12.Alanbraguş nümayəndəsi ağayi Həmid Saəti konqrəni təbrik etdilər.*

*13.Onu (konqrəni) millətin nümayəndəsi ağayi Davud Qriqoryan konqrəyə erməni xalqı tərəfindən təbrik deyib və erməni millətinin səadəti və azadlığı Azərbaycan xalqı ilə birlikdə olduğunu qeyd etdi.*

Xanımlar tərəfindən Suğra Qadiri, Sərdsəhra tərəfindən ağayi Əzimi, dəmir yol kargərləri tərəfindən ağayi Əli Əkbər Cukani, Şəbüstər əhalisai tərəfindən Allahverdi Cəfəri Azərbaycan xalq konrəsin öz atəşin sözləri ilə təbrik etdilər.

Teleqraflar oxunduğdan sonra Xoy nümayəndələrindən ağayi Yekani, Xoy əhalisi tərəfindən konqrəni təbrik edib, dedi: "Mən indi öz arzuma çatıram və bu konqrə mənə təzə həyat və təzə ruh verdi. Əkdiyimiz azadlıq ağacı göyərir. Biz (Azərbaycan xalqı) natamam və tətil edilmiş məşrutəni ehya edəcəyik".

Cələsə saat 12 tamamda xatəmə tapıb, ikinci cələsə günortadan sonra saat 3 tamama mokul (təyin) oldu.

**Xalq konqrəsini ikinci cələsəsi**

Xalq konqrəsinin ikinci cələsəsi aban ayının 29-da günortadan sonra saat 3-30-da ağayi Rəfiinin riyasəti ilə təntənəli sürətdə iftitah edildi.

Qadınlar tərəfindən xanım Mədinə birinci konqrə nümayəndələrinə öz salamın və təbrikin deyib, "Vətən" adlı şerini oxudu

**Pişəvərinin nitqi**

*Xalqımız bu gün 4 il tamam dünyanı qan dəryasına döndərən müharibənin axır dəqiqələrində öz haqqını almaq xüsusunda ictima edibdir (toplanmışlar).*

*Keçmiş dünya müharibəsi zülmün payəsini titrətdi. Iranda da böyük azadixah nehzətlər baş qaldırdı. Məxsusən Gilanda, Azərbaycanda xalq azadlığını almağa qiyam etmişdir. Lakin o müharibənin nəticəsi fəgət Rusiya xalqına səadət və azadlıq bəxş etdi.*

*Birinci cahan müharibəsindən titrəmiş təzədən öz yarasını sağaltdı. Birinci növbədə bizim məmləkətimizdə qəddar və şədid bir irtica qüdrəti vücudə gətirdi. Mən onun beynəlmiləl illətlərindən bəhs etsəm, sizi yormuş olaram. Lakin Iran xalqı, İran camaatı və Azərbaycan xalqı hər şeydən məhrum edildi. Böyük bir istibdad mücəssəməsi (heykəl) vücudə gətirildi. Məmələkətimiz fəlakətə düşdü. Dünya irticası bunu tələb edirdi.*

*Məxsusən Azərbaycana xüsusi bir siyasət işlətdilər. Azərbaycanı bölmək onu aradan aparmaq üçün dilini əvəz etməkdən ötrü bu xalqın başına saysız-hesabsız müsibətlər gətirdilər.*

*Həmin bu qara siyasətin nəticəsində o tərəqqi və təkamül ki, millətlər onunla səadətə çatmalı idilər, onu heç bir dövləti (rəsmi) işə dəxalət etməyə qoymadılar. Onlar elə bir nəsil vücudə gətirmək istəyirdilər ki, öz mənhus (lənətlənmiş)*

*siyasətləri nəticəsində xalqı qorxu və zor ilə özlərinə tabe edib və ağalıqlarını saxlasınlar. Həmin bu işi Azərbaycanda daha artıq əməli etdilər.*

*O zamanlarda zindanlara və təbidgahlara (sürgün yerlər) yolları düşənlər bilirlər ki, zindanilərin hamısı və əksəri Azərbaycanlı və tək-tək Gilanlılar idilər. Onlar Azərbaycan xalqını zülm və fişar altında saxlamağa can atmışlar. Hətta Təbrizdə belə iki nəfəri bir-biri ilə danışmağa qoymurdular.*

*Rza şah demişdi ki, Tehranı gərək elə bir hala gətirəm ki, xalq Parisə getməsin. Bununla Tehran üçün bütün şəhərləri qarət etdikdən sonra hələ də indiyə qədər orada su kəmərləri, lüləkeşliyi yoxdur. Irticanın qayəsi hadisei-şəhrivərə qədər davam etdi. Əgər biraz da davam etsəydi, Azərbaycanın daha şiddətli bir günləri qabaqda görünəcək idi.*

*Sabiqdə (əvvəllər) Azərbaycan İranın ən mühüm ticarət mərkəzi olmuşdur. Bu 20 il müddətində isə o mənhus siyasətin nəticəsində Azərbaycanın şəhərləri kənd halına düşmüşdür. Azərbaycan xalqını irtica bilə-bilə aradan aparmağa çalışırdı. Azərbaycan Iranın azadlıq və məşrutə mənbəyi olmuşdur.*

*Bir gün qalxıb, öz milli hüququnu almaqdan qorxan irtica Azərbaycanı xarabazara döndərmək siyasətini 20 il tamam təkrar etdi. Bu barədə də əlimizdə çoxlu mədrək vardır.*

*Hətta Azərbaycanda tiryəki genişləndirmək üçün çox tiryək satanlara ənam (hədiyyə) verdilər. Bununla da xalqın şücaət və milli hisslərini ortadan aparmaq üçün hər cür kəsif işlərə əl atıb və onları xalq içərisində rəvac verdilər.*

*Indi o istibdad və mənfur (murdar) mücəssəmə yıxılıb, dünya siyasətini idarə edənlər və dünyada xalqların səadətin yaratmaq üçün millətlərə öz müqəddəratı həll etmək üçün ixtiyar vermək iddiasındadırlar.*

*Həqiqətdə əgər xalqın özünə ixtiyar verilərsə xalq öz ehtiyacını bilər və onun üzərində arzularını qurar. Biz Azərbaycanın İrlənd və İsveçrə kimi olmağını da istəmirik. Biz*

*deyirik ki, Azərbaycan xalqı İran sərhədində yaşamalıdır. Bu o demək deyil ki, onun adab və rüsumu, dili və ixtiyarı olmasın.*

*Biz Məclisi-Şurayi-Milliyə nümayəndələrimizi göndərəcəyik. Iranda yaşayan başqa millətlərdə bizim qardaşlarımızdır. Lakin bizə ixtiyar verilməlidir ki, öz evimizin sahibi olub, onu istədiyimiz kimi idarə etməliyik. Biz əvvəl milli hökümət vücudə gətirəcəyik, biz xalqa öz yaşamaq şəraitini başa salıb və görəcəyimiz tədbirləri ona deyəcəyik. Xalq hansını yaxşı görsə onu icra edəcəyik. Hansını pis görsə onu pozacayıq. (Gürultulu alqışlar).*

*Bizim xalqımız azadlıq yolunda qurbanlar vermiş, lakin ondan istifadə edə bilməmişdir. Biz indi öz xodmuxtarlığımızı almalı bununla da öz səadətimizi təmin, məmələkətimizi abad etməliyik. Iranın başqa əyalətləri də bizim bu yaxşı işimizdən dərs alacaqlar. Bunun üçün bizim milli qüdrət və milli qüvvəmiz olmalıdır ki, Hacı Müxbirül-səltənələr bizim azadlığımızı boğa bilməsinlər. Biz axmaqların və irticai ünsürlərin tehrandan aldıqları dəsturları Azərbaycanda icra etməyə imkan verməyəcəyik.*

*Tehran hökuməti tülkü kimi məğlub olanada yalvarır. Amma elə ki, qalib gəldi, vaxtdan istifadə edib, öz zəhərli dişin batırır və öldürür. Tehran hökuməti istəyir bizim nehzətimiz barəsində ayrı dövlətlər ilə danışığa girsin. Bir dövlət ki, öz xalqının dərdlərinə cavab vermək istəmir, öz etirafına görə Iranın ən fədakar xalqlarından olan azərbaycanlıların haqq sözlərini nəzərə almağa tənəzzül etmir (enmir) o dövlətin yaşamağa haqqı yoxdur.*

*Azərbaycan məsələsi Azərbaycanda yəni onun Təbriz şəhərində həll olunmalıdır. Xalq öz hüququndan var qüvvəsi ilə müdafiə edəcəkdir. (gurultulu alqışlar).*

*Mən bu sözlərlə gilayə etmirəm və biz ağlamırıq. Biz İranın istiqlalına və sərhəddinə əlaqəməndik.*

*Biz Iran bayrağını da dəyişməyirik. Lakin biz öz milli muxtariyyətimizi tələb edirik. Milli muxtariyyət mill istiqlal ilə*

*fərqlidir. Məsələn İrlənd neçə yüz il mübarizə etdi, nəhayət İngilistandan ayrıldı və özü üçün müstəqil bir dövlət oldu. Biz bunu demək istəmirik.*

*Amerika 46 cumhuriyyətdən təşkil olunmuşdur. Isveçrə eləyə bildi öz istiqlalın hifz etsin. Bu müharibədə o millətlərə ehtiram qoydular ki, onun hər bir vilayəti özü ücün muxtardır.*

*Bizim qonşumuz, Şuralar Ittifaqı da bu cürdür. Oraya daxil olan hökumətlərin hamısı bir nəfər kimi alman faşistlərinin əleyhinə qalxdılar, vuruşdular və qalib gəldilər. Həsb bu vətənfuruşluq (satqınlıq) və xainlik deyil, vətənpərəstlik deməkdir. Pəs buna görə də, o adamlar ki, bizim bu şüarımızdan sui-istifadə edib. Azərbaycanın İrandan ayrılmasını bizə töhmət və iftira edirlər. Onlar müfəttim (fitnəkar) və xəyanatkar adamlardır. Biz Azərbaycanın daxili muxtariyyətini əməli edəcəyik.*

*Qoy onlar bilsin ki, bütün Iran istiqlalı Azərbaycanın gücü ilə təmin olacaqdır. Bu silah vasitəsi ilə olmayacaqdır. Biz inqilab etmək istəmirik. Biz öz muxtariyyətimizi aldıqdan sonra Azərbaycanı o hala gətirəcəyik ki, bütün Iran üçün nümunə olsun. Qoy desinlər ki, Azərbaycanda məmləkət abad olub, ali mədrəsələr açılıb, Azərbaycanın milli muxtariyyəti kəndli ilə ərbabın arasında aqilanə bir qanun qoyubdur. Bu isə bütün İran üçün böyük bir dərs olacaqdır. Biz bu işi qan tökmədən əməli edəcəyik. Əgər bizi məcbur etsələr biz özümüzdən müdafiə edəcəyik. Necə ki, kəndçiləri məcbur etdilər onları qarət etdilər, evlərini yandırdılar. Indi isə özləri də o od-alov atəşində yanırlar. Lakin biz vətəndaş qırğını və ölümü yaratmırıq. Onlar bilsinlər ki, əgər Azərbaycan xalqının səbri tükənər daha ölümə, zülmə davam gətirməz və dözməz. Biz qan tökülməkdə də müqəssir deyilik. Biz əmniyyət yolu ilə öz haqqımızı alacayıq. Bu konqrə təsmim tutmalıdır. Bir iddə intihab etməli və bütün dünyaya bildirməlidir ki, biz öz haqqımızı istəyirik. Bizim bu irticai hökumətdən xeyrimiz yoxdur. Bu hökumət bizim hökumət deyildir. O zor ilə iş başına*

*gəlmişdir. Azərbaycan xalqı da milyonlarla haqqlarını payimal edən bu irtica hökuməti öz xəyanətlərini davam etdirməyə qoymayacaqdır. Çünki biz demokrasi üsulu ilə hərəkət edirik. Gərək Azərbaycanda və İranda elə bir hökümət iş başına gəlsin ki, orada xalqın və millətin dəxaləti olsun. Azərbaycan milləti bütün kasıbkarlarına qədər maliyyat verirlər. Buna görədir ki, hər bir nəfərin xüsusi və ümumi ehtiyacı ödənilməlidir.*

*Ümumi ehtiyaclardan məsələn, Darülfunun məktəbi göstərmək olar. Hər kəs öz qazandığından bir miqdar ümumi dövlət sandığına qoyur ki, o pul ilə millətin balaları oxusunlar, təhsil etsinlər. Digər tərədən güclülər gücsüzləri əzməmək üçün mərkəzi tərəfindən qorunsun.*

*Millətin verdiyi maliyyat ilə jandarm və polis tutulur ki, onların vasitəsi ilə xalqın əmniyyəti hifz olunsun. Maliyyat yəni dövlətə borc verməkdir. Göstərin görək indiyə qədər maliyyatın bu fəlsəfəsi harada əməli olmuşdur. Bəlkə indiyə qədər kasıb hüququndan belə müdafiə edilməmişdir. Jandarmlar, polislər güclülərdən pul alıb, fağırları (kasıbları) əzməkdədirlər. Milli muxtariyyati biz buna görə istəyirik ki, zor deyənlərin qarşısını alaq. Yəni məmurlar xalqımızın şərafətli ünsürlərindən olsun və millətimizin intixab etdiyi heyətə tabe olsun.*

*Azərbaycan xalqına bir kibrit çöpü qədər də hər bir adama behdaş (səhiyyə) xərci verilmir. Amma indi kəndçilərin jandarmlar ilə dəsti-pəncəsi (vuruşması) nəticəsində bu hökumət 5 milyon pul Azərbaycan millətinin nehzətini yatırmaqdan ötrü etibar vermişdir. Siz kəndlini öldürməyin, ona behdaş, əmniyyət verin. Onun canından əl çəkin. O pulu da xərcləməyin. Xalqımız öz işlərini idarə etməyə ləyaqəti var. 700 nəfərdən artıq Azərbaycanın bütün vilayətlərindən gəlmiş nümayəndələrimiz bu böyük milli konqrəni təşkil verdilər. Bəli bizim xalqımızda nizam-intizam, bacarıq və istedad vardır.*

*Azərbaycan xalqının və İran azadixah mücahidlərinin qanları bahası ilə qurulan məclisdə indi ən kəsif sözlər danışılır. Orada lastik (təkər) davasıdır və pul yemək məsələsi*

*var. Mühəndis Pənahının vəkilliyi fəgət dəmir yol idarəsindən üçüncü, dördüncü dəfə aldığı milyonlarla pul üçündür.*

*Məclisdə qanuni-əsasıdan bir xəbər yoxdur. Məclisdə haqq danışan bir neçə millət vəkillərin danışmağa belə qoymurlar. Biz isə bir dəfə öz saqqallarımızı o əşxasın əllərinə verə bilmərik. 4 ədəd lastik üçün Məclisi-Şurayi Millidə millətin həqiqi (müdafiə edən) nümayəndələrinin yerlərini zor, pul və sərnizə (süngü) ilə işğal edən vəkillər ADF-nin üzvlərini məchulül-hüviyyə (naməlum) adlandırırlar. Tehranda milyonlarla cinayət, oğurluq tosiyələri (genişlənmə) vardır. Onlara yetişən yoxdu.*

*Bu pərvəndələrdə (sənədlərdə) məclis nümayəndələrinin iştirakını asan bir sürətdə görə bilərsiniz.*

*Azərbaycanın və İranın fəlahəti elmi üsulda olmalıdır. Indi bu mədəni dövrdə kəndçilərimiz köhnə üsul ilə yeri şumlayırlar. Millət tərəfindən verilən milyonlarla pullar xalqın behdaş və maarifinə sərf edilməlidir.*

*Azərbaycan Hindustan deyil, bura Azərbaycandır. Onun müşəşə (çeşidli) tarixi vardır. Bu millət diridir. Azərbaycan milləti tarixə Səttar xan, Bağır xan, Şeyx Məhəmməd Xiyabanilər vermişdi. Millətimiz diridir. Onun iftixarlı tarixi vardır. Biz milli muxtariyyət və milli azadlığa ləyaqətimiz vardır. Ticarətimizi, behdaştımızı, maarifimizi, post və teleqrafımızı və bütün işləri xalqımız idarə etməlidir.*

*Əgər bizim xalqın qabağına silah ilə çıxsalar qoy bu milli konqrənini intixab edəcəyi milli heyət xalqımızın haqqından difa etmək üçün cavanlarımızı silahlandırıb, milli qüvvə yaratsın. (Bu sözləri deyərkən bütün salon ayağa qalxır arası kəsilmədən gurultulu şürəngiz ura səsləri neçə dəqiqə davam edir)*

**Xalq konqrəsinin üçüncü cələsəsi**

Azərbaycan milli konqrəsinin üçüncü iclası aban ayının 30-da səhər saat 9-da ağayi Pişəvərinin vəsiləsi ilə iftitah olundu. Xülasəsini (keçmiş iclasın) təkrar etdikdən sonra natiqlərə söz verildi.

*Ağayi Ilhami: "Məşrutə məmləkəti məclis və əncümənlərdən təşkil tapar və bunları əsaslandıran müəssislər məclisidir. Bizim bu konqrəmizin intixab olub və təşkil tapması ümum Azərbaycan millətinin tərəfindəndir, Müəssislər məclisinin vəzifəsini daşıya bilər. Bizim burada hazır olan möhtərəm nümayəndələrimiz öz mühüm və ağır vəzifələrinə vaqif olmalıdır. Necə ki, bizim möhtərəm rəhbərimiz ağayi Pişəvəri öz nitqində dedilər, hər bir Azərbaycanlı ayrı bir iranlılardan artıq Iran istiqlalına və bayraqlarına əlaqəmanddir. Mən sözümü xülasə edib deyirəm ki, bu konqrədə bizlər elə təsmimlər gərək tutaq ki, gələcək nəslimiz bizə nifrət etməsinlər. Bizə rəhmət oxusunlar".*

***Yaşasın İranın istiqlalı, yaşasın Azərbaycanın haqq-mütalibatı. (alqışlar)***

***Sonra ADF-nin Mərkəzi Komitəsinin üzvü ağayi Şəbüstəriyə söz verildi.***

*Ağayi Şəbüstəri: "İran kimi sahəsi və yeri böyük olan bir məmləkətdə 200 milyona qədər nüfus yaşaya bilər. Iranda ədalətsizliyin nəticəsində 10 və ya 15 milyondan artıq nüfus yoxdur. 40 il qabaq Iranda Azərbaycan milləti qiyam edib və İranın milləti üçün azadlıq aldı. O mövqeyə cən azadlığın mərkəzi Azərbaycan idi. Ondan alınan azadlıq və məşrutiyyət bir əndazə (biraz) diri olub, xalqımız ondan bir əndazə istifadə etməyi bilirdilər. Ondan sonrakı, məşrutə mərkəzi Tehrana intiqal tapdı. Məşrutə və azadlığın elə rəngi dəyişildi ki, istibdad dövrəsindən daha artıq xalq zülm və fişar altında oldu. Şəhrivərə qədər millətimiz Pəhləvi kimiləri və onun dövrəsində yığılan cücə diktatorların nəhayət fişarı altında yaşayırdılar. Şəhrivərdən bu tərəfə Pəhləvi tərəfdarları məmləkəti viran və*

*millәti әsarәtә çevirib, әmniyyәtimizi görürsüz ki, nә fәlakәt halına saldılar. Demokrat vә azadixah xalqımız 4 il şәhrivәrdәn sonra intizar halında yaşayıb vә bir nәticә almadıqlarına görә o birinci demokrat firqәsinin bәyannamәsini verdilәr. Bu günkü gündә öz haqqlarını tәlәb etmәkdәn ötrü xalq konqrәsi tәşkil olub, vә xalqımızın arzularını әmәli edәcәkdir". (gurultulu alqışlar).*

*Ağayi Iftixari Sәrdrud nümayәndәsi: "Möhtәrәm ağalar 48 kәndin 36 min nәfәr әhalisi tәrәfindәn sizә salam yetirib, bu xalq konqrәsini tәbrik edirәm. Iran intixabatının әvvәli ğalәt (sәhv) olmuşdur. Millәt mәclisindә qәnd, şәkәr, yumurta, yeralma, lastik alverişi olmaz. Mәclisdә millәt qayğısı çәkәn әşxas lazımdır. Bunlar özlәri dә bilirlәr ki, ğalәt işlәyirlәr. Hәmin nümayәndәlәrin әmәliyyatı nәticәsindәdir ki, jandarmların tüfәng qundağları bizim başımıza yağır. Biz irticanın bu zülmkar hökumәtin cinayәtlәrinә son qoyub, öz әyalәt vә vilayәt әncümәnlәrimizi vücudә gәtirәcәyik".*

*Xәlil Azәr Mәlik kәndi tәrәfindәn: "Mәlik kәnd vә onun homәsi tәrәfindәn bu konqrәyә atәşin salam әrz edirәm. Biz qanuni-әsasının icra olunmasını istәyirik. Irticai dövlәt Azәrbaycan millәtinin yaxasından әlini çәksin. Bu fәcaye vә zülmlәrin rәfini (oradan qaldırılması), bu xalqın konqrәdә çıxartdığı qәrarlarından gözlәyirik. Mәlik kәndindә neçә gün qabaq öldürülәn 20 yaşında bir cavanın intiqamın vә onun qatillәrinin milli mәhkәmәyә verilmәsin biz bu konqrәdәn istәyirik."*

***"Yaşasın İranın istiqlalı, yaşasın Azәrbaycan millәtinin gәlәcәk sәadәti vә xoşbәxtliyi."***

*Ağayi Yәzdani Xoy nümayәndәsi bir qoca arvadın ağayi Pişәvәriyә göndәrdiyi bir cüt corab barәsindә söhbәt edib. O, qoca arvadın tapşırıqlarını izhar etdi: "O qoca arvad demişdi ki, sizin rәhbәrinizdәn xahiş edirik bu jandarmların zülmündәn*

*bizi və bizim balalarımızı xilas etsin. Xatəmədə yaşasın Azərbaycan xalqının milli muxtariyyəti.*

*Ağayi Pişəvəri corab göndərməsini təzakkür verib dedi: "Mən iftixar edirəm bu corabı Azərbaycanın gələcək muzeyinə göndərib və Azərbaycanda ana bacılarımızın ehsasatını dirildək. Qoy gələcək qızlarımız mühəndis və doktor qadınlarımızın töhfəsini görüb və onun ehsastından sərməşq alsınlar".*

*Ərdəbil nümayəndələrindən ağayi Covdət söhbət etdilər: "Səfəvilərin amangahı olan bu şəhər barəsində ki dedilər: gədikdə 3000 il bundan qabaq düzəlibdir. Bu şəhər bədbaxt, viran halına qalmasına işarə etdilər. 3 gün Gədikdə qalmaların dedilər: "Azərbaycan milləti tamam öz dərdlərini bilirlər və bu konqrədən fəqət əməl gözləyirlər. Mən axırda deyirəm yaşasın İran və Azərbaycan"*

*Ağayi Fəttahi Meşkin nümayəndəsi dedilər: "Səmimi qəlb ilə bu konqrəni təbrik edirəm. Bizim Azərbaycanın namuslu oğlu mərhum doktor Tağı Ərani deyir: "Bir millət yaşamağına görə öz ictimai mühitini islah etməyə məcburdur". Bizə maarif, behdaş lazımdır. Bizə bir firqə lazımdır ki, millətimizin ehtiyacını təmin etsin. Mən belə xəyal edirəm ki, Azərbaycan millətinə indi məclisi-milli və əncüməni əyaləti və vilayətlərdən gələn əfsəl (yaxşı adamlar) lazımdır. Mən deyirəm: "Yaşasın Azərbaycanın igid cavanları ki, öz millətini istəyir fəlakətdən nəcat versin".*

*Ağayi İshaq Maku nümayəndəsi: "Salam yoldaşlarım. (Alqışlar). Xoşbəxtəm ki, Azərbaycan azadixahları ilə bir cələsədə şirkət edirəm. Beqoli Sədi (Sədi şairin sözünə əsasən) o baş ki, dostlar yolunda getməzsə boyun üstə ağır yükdür. Şerini oxudu".*

*Milli hökümət barəsində geniş danışdı. Həzrəti Əlinin kəlamlarından deyib, nəticə aldılar ki, adam öz pəncəsi sayəsində ucala bilər."*

*Vaxt qurtarmasına görə ağayi İshaqın sözlərinə xatəmə verildi.*

*Ağayi Xurrəmdil kibritsazi nümayəndəsi: "Əncüməni əyaləti və vilayəti mərkəzdən ayrılmaq deyil. Biz Məclisi-Şurayada nümayəndə göndərəcəyik və qəti-rəvabitdə məclisdən etmirik (məclisdən əlaqəni kəsmirik). Vəli mənim nəzərimə əncüməni əyaləti və vilayəti bizim dərdlərimizə çarə edə bilməz. Axırda deyirəm: Yaşasın Azərbaycanın Milli Məclisi. Biz öz milli məclisimizi açmalıyıq".*

*Ağayi Xurşidi: "Mənim düşmənlərimizə xətabdır (aiddir). Biz Irandan ayrılmayacayıq. İran bizimdir və biz də İranın. Vəli əncümənlər qaununi-əsasıda yazılan maddələrdəndir. Dövlətin millətə təkiyyəsi (söykənmək) olması lazımdır. Bizim dövlətimiz əbəda millətə təkiyyəsi yoxdur. Yaşasın Iran istiqlalı və Azərbaycanın Demokrat Firqəsi".*

*Ağayi Pişəvəri: "Bu cələsə millət konqrəsidir. Bu cələsədə fəqət qərar və təsmim alınmalıdır (qəbul olunmalıdır). Bu konqrədə jandarm sərnizəsindən məzlum olanlar iştirak edirlər. Türkiyə radioların töhmətlərinə baxmayıb, bu konqrə Azərbaycan millətinin azadlığını almaq istəyir. Biz görək bizim şüarlarımız düzdür, ya yox. Görək bizə muxtariyyət lazımdır, ya yox. Burada kargərlər və kəndli öz sözlərin deyə bilərlər. Vəli məclisdə (İran məclisi) bizim vəkillərimiz qoyun kimidirlər. Bizim kadrmız var və bu cələsə onu isbat edir. Xahiş edirəm mənə rəhbər adı verməyəsiniz. Cərəyan öz rəhbərlərini yaradar".*

*Ağayi Zəmani: "Həşrud mahalı tərifindən təbrik ərz edirəm. Əncümən əyaləti və vilayəti əvəzinə məclisi-milli lazımdır. Yaşasın Azərbaycan və İran (alqışlar).*

*Ağayi Pənbei Şəmsi-Təbrizinin şerini oxudu və pişnəhad elədi ki, bu istibdad mücəssəməsini (Rza şah heykəli) gülüstan bağından götürsünlər. Bizə muxtariyyət lazımdır. Biz onu ala bilərik. Və bizə mane törətmək olmaz.*

*Ağayi Səidi Urmiyyə nümayəndəsi təbrik və salam ərz eləyib, muxtariyyətə race danışdılar və dedilər: "Biz öz evimizi özgələrdən yaxşı idarə edə bilərik. Bizə töhmət və iftira deyənlərin nəzərləri fəqət Azərbaycan millətini boğmaqdır. Mən özüm Əfşar tayfasındanam. Sonra Azərbaycan dilinə race söhbət elədilər. Mən bu əqidədəyəm ki, Azərbaycan özünü islah edəndən sonra İranı da islah eləsin və İranı bir abrumənd (möhtəşəm) məmləkət eləsin. Azərbaycan Iranın başıdır. Yaşasın Azərbaycan və muxtariyyətimiz".*

*Ağayi Biriya: "Möhtərəm nümayəndələr və kargərlər Ərəsbaran tərəfindən mənə sifariş ediblər ki. Bu konqrəni təbrik edəm. Səfəvi kimi fərmandar və doktor Qasımxan kimi kəsif ünsürlərin zalım pəncələri altında aradan gedən ərəsbaran zəhmətkeşləri tərəfindən sizin bu əzəmətli konqrəni təbrik edirəm".*

*Biriya ağayi Pənbeinin pişnəhadına görə də qədim bir şeri olan "Şah qaçır ha" şerini oxuyub. Dedi: "Düzdür ölü dalınca danışmazlar amma o mərhum (Rza şah) bizim başımıza elə bir oyun gətirib ki, qiyamətə dək yadımızdan çıxmaz.*

*Hilal Nasiri: "Məclisi-müəssisan bizim əsas məşrutəmizdir. Siz ona əhəmiyyət verin. Burada məclisi-müəssisan kimi cələsədir. Və siz 5 milyon nüfusun nümayəndəsisiniz. Mən pişnəhad edirəm bu məclisi-müəssisan əncüməni əyaləti və vilayəti əvəzinə məclisi-millini təşkil versinlər. Bizə azadlıq verməyiblər ona görə onda muxtariyyətdə var. Biz burada gərək qəti qərara alaq kəndli ilə bəzzazın məsələsini deyib, camaat güldülər. Yaşasın konqrəmiz, müsəlləh qoşunlarımız. Kürdlərdən bizdə nümayəndə varid (daxil) olub. Vəli mütəssifanə məriz olub, mərizxanada yatıblar. O nümayəndə ağayi Davududur ki, Nobərinin vəsiləsi ilə təbrik deyirlər."*

*Ağayi Nobəri: "Ağayi Hacı mustafa Davudi kürdlər tərəfindən bizə nümayəndə gəlib və bizə söz verirlər ki, tamam şərafətlə hər dəqiqə Azərbaycana hər hadisə üz verirsə, hər*

*pişamədə bizlərdə hazırıq (onun qarşısını almağa hazırıq)" (Uzun alqışlar).*

*Çeşmazər: "29 il əvvəl əncüməni əyaləti və vilayəti iranda təşkil olubdur. Biz bu məclisi "Milli Məclis" adlandıraraq, Azərbaycanın muxtariyətin tamamlamaq üçün Azərbaycanın milli silahlı qüvvəsi olsun (alqışlar). Yaşasın Azərbaycanın muxtariyyəti və milli dilimiz" (Alqışlar).*

*Ağayi Davudi varid oldular (uzun alqışlar). Ağayi Davudi öz milli dilində, kürd dilində danışmaq istəyib və ağayi Pişəvəri dedilər: "Çox xoşbəxtlik, Buyurun! Öz dilinizdə danışın!" Ağayi Davudi danışmağa başladılar (Uzun alqışlar).*

*Ağayi Nobəri ağayi Davudinin danışıqların tərcümə etdilər.*

*Ağayi Nobəri: "Ağayi Davudinin fərmayişatını (buyurduqlarını) tərcümə edirəm. Özünü və yoldaşı Mirzə Manaf Kərimxanini müərriflik etdilər. Biz dövlət məmurlarının zülmündən və pis rəftarından məcbur olub, millətimizi azad etmək üçün Kürdüstan Demokrat Firqəsi Azərbaycan Demokrat Firqəsi ilə təşriki-məsai (məsləhətləşmə) etmək üçün həmişə həmfikir olacayıq.*

*Ağayi Pişəvəri: "Tehran hökuməti vəziyyəti elə bir hala salıb ki, konqrəmiz gərək bir ciddi işə iqdam eləsin. Tehran hökuməti əvəzi-inki Azərbaycan millətinə rücu (müraciət) eləsin, xarici məqamlara mütəvəssil olub (əl uzadıb). Azərbaycan məsələsi Təbrizdə həll olunmalıdır. Bir millət öz haqqını diriltməyə gərək qadir olsun. Londonda, Türkiyədə Azərbaycan müqəddəratını həll etmək olmaz. Fəqət bizim işimiz Azərbaycanda və böyük konqrədə həll oluna bilər. Biz Ingilis, Amerika, Türkiyə, Şura dövlətləri ilə dostuq. Vəli necə ki, onlar öz işlərinə dair heç kəsə dəxalət ixtiyarı verməzlər. Bizdə heç kəsə ixtiyar vermirik ki, bizim işlərimizə dəxalət eləsinlər (Azərbaycan dilinə aid söhbət elədilər). Bizim ehtiyacımız tək dil deyil. Bizim iqtisadiyyatımız, maarifimiz və*

*sənayemiz və ayrı ehtiyacımız var. Biz bir Azərbaycan adı daşıyan millətin muxtariyyəti ki, Zəncan və Həmada da ona şamildir istəyirik. Biz Qaşqai və Məşəddə yaşayan Azərbaycan dili danışanlara aid söhbət etmirik. Mənim öz evimə əlaqəm var və o evində idarə etməsi, qızdırması, ağartması və pencərəsinin düzəlməsi öz işimizdir. Biz istəyirik bizim atalarımızın qəbirləri üstündə xaricilər gəzib və bizə hökumət etsinlər. Siz hər ad qoyursunuz qoyun, biz elə bir məclis düzəltməliyik ki, azərbaycanlıdan olsun. Mürtəcelərin tank və topları gərək bizim cənazələrimizin üstündən keçib və bizim azadlığımızı pozsun. Indi pişnəhad var ki, 5 nəfərlik bir komisyon intixab olunub, konqrənin qərarların layihəsini yazıb, günortadan sonra konqrəyə versinlər. Mənim fikrimcə üç qərar olmalıdır.*

*1. Məclisə müraciət etmək.*

*2. Dünya dövlətlərinə və İran xalqlarına məxsusən, Azərbaycan xalqına istədiyimizi xəbər vermək.*

*3. Gələcək məclisin ya ancümənin nizamnaməsinə və necə intixab olunmasına, haradan və nə qədər vəkil olması lazımdır. Bura müəssisan məclisidir. Müstəqimən (birbaşa) 1 milyon yarım xalq bu konqrədə şirkət edibdi. Bizim bu konqrəmiz Azərbaycan xalqının iradəsidir. Burada çıxarılan qərarlar Azərbaycan xalqının qərarlarıdır. Gərək onlara nəhayət diqqət olunsun. Bizim gərək bir milli komitəmiz ya heyətimiz olsun.*

*4.Qərarları yazmaq üçün 5 nəfərlik komesiyon intixab olundu. Sonra ağayi Pişəvəri Kürd nümayəndələrinin təbrik cavabını verib, dedilər: "Kürdlər Azərbaycanımızın bir ailəsidir. Biz ilə onların arasında nifaq salmasınlar. Ağayi Qazimähəmməd və Kürd millətinə bizim salamımızı yetirin".*

**Üçüncü cələsə aban ayının 30-da saat 12 tamamda qurtardı**.

Məncə konqrədə qabağa çıxan məsələlər və onun qəbul etdiyi qərarlardan ən mühümi onun özünü müəssislər məclisi adlandırması idi. Bu qərarı çıxartmaqla konqrə bizim əl qolumuzu bağlayan mövhum (mənasız) mərkəziyyət zəncirini qırmış oldu.

O günə dək xalq elə fikir edirdi ki, hər bir qədəmdə Tehrana müntəzir olub, oranın, mürtəce və fasid hökumətindən izn və icazə almaq lazımdır. Konqrə isə bu mövhum və mənasız fikri kökündən qazıb, ataraq Azərbaycan xalqı ümumxalqlar kimi öz müqəddəratını öz istədiyi kimi qurmaq haqqına malikdir, dedi: "Konqrənin bu işi olduqca cəsuranə idi. Vəli bütün xalq kütlələrinin nə istinad edən böyük bir təşkilat qarşısına çıxan puç və əsassız müşkülatdan qorxub, təqib etdiyi hədəfdən sərfi-nəzər edə bilməzdi. Ancaq haqq və haqqaniyyət üzrə hərəkət edib, öz qüdrət və inamına dayanan bir xalqı tutduğu yoldan qaytarmaq olmazdı. O konqrədə öz fikrini açıq söyləməklə təbii haqqını ələ almaq üçün yol açdı. Doğurdan-doğruya müqəddəratını təyin etmək istəyən bir xalq üçün buradan səlahiyyətdar bir yer, mərkəz ola bilməzdi. Konqrənin ikinci mühüm qərarı "Heyəti-Milli" təsisindən ibarət idi. Tehrana müntəzir olmadan öz milli muxtariyətimizin təmini yolundan varid olduqda belə bir heyətin təşkili təbii və məntiqi bir iş idi. Konqrə bu işi görməklə xalqın intizar və təşvişinə xatəmə verdi. Milli Heyət müvəqqəti olaraq, Milli Məclis qurulana dək Azərbaycan xalqının milli işlərində məşğul olub, milli məclis intixabatını rəsmən idarə edəcək idi. Bu heyət firqəmizin baş bilənlərindən və adlı sanlı adamlardan olmaq üzrə 39 nəfərdən ibarət idi. "Milli Heyətin" vəzifələri və ümumiyyətlə milli muxtariyyətimizin təmini üçün konqrənin təsvim etdiyi qərarın üzərindən artıq məlumat verməyə ehtiyac yoxdur. Çünki bu qərarda bu məsələlər xalqın anlayıb, dərk edə biləcəyi sadə bir dildə yazılıb, intişar verilmiş, xoşbəxtanə bir mədrək olaraq qanlı hadisələrdən məhvuz qalmışdır. Bu

mədrəkin diqqətlə mütaliə edilməsinin işimizin gedişini dərindən öyrənmək nöqteyi nəzərindən xüsusi tosiyə edib".

**Azərbaycan Məclisi - Millisinin qərarları**

Seşənbə günü aban ayınını 29-da (noyabrın 20-də) Azərbaycan xalqının böyük milli konqərisi ağayi Pişəvərinin ümumi oza (vəziyyət) haqqında verdiyi məlumatı müzakirə etdikdən sonra aşağıdakı qərarı ittifaqi-ara (yedilliklə) ilə qəbul edirik.

*1. Böyük demokratik millətlərin fədakarlığı nəticəsində diktatorluq, zorakılıq və nəjat (irqçilik) üstünlüyü təbliğ edən qüvvələrin əbədi olaraq yıxıldığı bütün millətlərə özünü idarə etmək, öz müqəddəratına hakim olmaq imkanı vücudə gəldiyi halda, Azərbaycan xalqı tam mənası ilə bir millət kimi ayağa qalxıb, öz təbii və qanuni haqqına öz gücü ilə malik olmaq istəyir.*

*2. Xalqımız sui-təfahum və töhmətlərə yol verməmək üçün öz müqəddaratını ələ aldığı halda, ölkəmizin Irandan ayrılmamasını elan edir. Və bütün Iran xalqları ilə qardaşlığı hifz etməyi özünə vəzifə bilir.*

*3. Milli konqrə azadlıq düşmənlərinin iftira və töhmətlərinin indidən qabağını almaq üçün açıq və aydın surətdə Azərbaycanın Irandan ayrılması və ya onun ayrı məmləkətə ilhaqı (birləşməsi) intişaratını ciddi surətdə təkzib edir.*

*4. Azərbaycan xalqı məşrutə üsuluna sadiq qalıb qauni-əsasının demokratik əsillərini (maddələrini) icra etməyə çalışacaqdır.*

*5. Ümumi məşrutə qaunlarını müraat etməklə bərabər, Azərbaycan xalqı özünün daxili işlərini idarə və milli müxtariyyətini təşkil etmək üçün qanuni-əsasıdan istifadə edib, əncüməni əyaləti təşkilatını bir qədər genişləndirib, ona Məclisi-Milli şəkli verir. Iran daxilində Iranın tamamiyyət və*

*istiqlalini heç vəc ilə xələldar etmədən özünün milli hökümətini vücudə gətirir.*

*6. Böyük xalq konqrəsi xalq mitinqlərinin qərarına görə xalq konqrəsi ADF-nin təşəbbüsü və rəhbərliyi ilə Məclisi-Milli və vilayət əncümənləri və Məclisi-Şurayi-Milli intixabatının foriyyətlə başlamağını qərar alır.*

*7. Hər bir millətin öz müqəddəratına hakim olması o vaxt imkanpəzir ola bilər ki, o millət yaşadığı ölkəni idarə etmək üçün əsası qanunlara malik ola bilsin. Biz çox yaxşı bilirik ki, Tehranda təmərküz tapmış, mürtəcelər xalqımıza bu ixtiyarı verməyəcək. Bəlkə özlərinin xain iradələrini bütün məmləkətə təhmin etmək üçün bizim qabağımıza əngəllərdə çıxarmaqdan göz yummaq istəməyəcəklər. Ona görə böyük konqrə xalqımızın arzu və təlabatını əməli etmək üçün ciddi qədəm götürüb, özünü müəssislər məclisi elan edir. Milli muxtariyyətimizi möhkəm payə üstündə qurmaq üçün Məclisi-Milli vücudə gətirir.*

*8. Təbiidir ki, siyasi, milli, iqtisadi və fərhəngi (mədəni) muxtariyyətinə malik olmadan milli muxtariyyət boş sözdən ibarət olub qalar. Bu nöqteyi-nəzərdən milli müəssislər məclisi bir hökumət yaradılması və müstəqimən daxili işlərimizi bu hökümət vasitəsilə idarə edilməsini təxirsiz surətdə lazım görür.*

*9. Milli məclis intixabatı qurtarıb. Milli hökümət rəsmiyyət tapan gündən konqrə öz nümayəndələrindən 39 nəfərlik Milli Heyət namı ilə bir heyət intixabat edir. Qəbul etdiyi qərarların icrasını bu müvəqqəti heyətə tapşırır.*

*10.Bu Milli Heyət təşkil tapan günə dək Azərbaycan xalqının milli işlərini idarə edəcək milli məclis təşkil olan kimi onun vəzifəsi xatəmə tapmış olcaqdır.*

*11.Mərkəzdə və şəhrstanlarda başlanan intixabatı təmin etmək Milli Heyətin əmniyyətini hifz etmək üçün konqrə Milli Heyətə hər növ tədbir görməyə geniş ixtiyar verib.*

*12.Milli konqrə dövlət idarələrinin başında duran məmurlardan Milli Heyətə tabe olub, onun göstərişlərinə və nəzarətinə itaət etməyi tələb edir və bunun xilafına rəftar edib, özünü hakimi-mütləq göstərmək istəyənlərin tezliklə dövlət idarələrindən ixracını lazım görür.*

*13.Milli konqrə bütün milli, dövləti mədrəsələrdə Azərbaycan dilinin məcburi surətdə tədris edilməsini Milli Heyətə tapşırır və bu milli vəzifəni əncam verməyə mane olanları Azərbaycan xalqının düşməni hesab edib, onların irticai fikir və xainanə hərəkətlərinə mane olmaq üçün ciddi tədbirlər görsün.*

*14.Konqrə polis, jandarm və arteş tərkibini pozmaq fikrində deyildir. Onlar öz rəsmi libas və dərəcələrini hifz və vəzifələrini əncam verməkdə davam edirlər. Lakin əgər onları idarə edənlərdən bizim muxtariyyətimizin əleyhinə bir iş baş versə Milli Heyətə ixtiyar verilir onların xəyanətlərinin qabağını almaq üçün ciddi tədbirlər görsün.*

Konqrənin ən mühüm qərarlarından birisi də şaha, məclisə və xarici dövlətlər nümayəndələrinə göndərilən deklarasiyon elamiyələrdən ibarət idi. (Misal üçün) Iran şahına, Milli Şura Məclisinin sədri cənab Seyid Məhəmməd Sadiq Təbatəbai və baş nazir cənab Ibrahim Həkimiyə.

Bu il aban ayının 29-30-cü günlərində Təbriz şəhərinin Şiri-Xurşid salonunda 150 min nəfərin imzası ilə ümum Azərbaycan şəhər və homələrindən toplanan ümumi mitinqlər tərəfindən seçilmiş 700 nəfər nümayəndənin iştirakı ilə təşkil tapan böyük xalq konqrəsi özünün 4-cü iclasında ittifaqi-ara ilə (bir səslə) öz tələblərinin əsas məsələlərini aşağıdakı maddələrdə qeyd olunan elamiyyə vasitəsilə İran mərkəzi hökumətinə bildirməyi qərara aldı.

*1. Azərbaycan xalqı burada yazılmasına yer olmayan saysız hesabsız tarixi səbəblərə və hadisələrə görə özünə məxsus milliyət, dil, adab və rüsum və sair xüsusiyyata malikdir. Bu xüsusiyyat ona haqq verir. Iranın istiqlal və*

*tamamiyyətini müraat etməklə bərabər, bütün dünya millətləri kimi Atlantik elamiyyəsi mocibincə öz müqəddəratını təyin etmək üçün (ayağa qalxmışdır).*

*2. Konqrə Azərbaycan xalqının İranın başqa əyalət və vilayətləri ilə olan mədəni, iqtisadi və siyasi rabitəsini nəzərə almaq ilə bərabər, bu xalqın indiki İran dövlətinin təsisi haqqında göstərdiyi fədakarlığları (vaqən indiki İran dövləti Azərbaycanlılar vasitəsilə təsis olunmuşdur) nəzərə alıb, heç vəch ilə hazır deyil onun məşru və qauni təqazalarını ki, milli muxtariyyatdan ibarətdir İranın mərzlərinə xələl varid gətirib, onun təziyyəsi üzərində qərar versin.*

*3. Azərbaycan xalqı var qüvvəsi ilə İranda məşrutə şəkli almış, demokrasi üsulunun tərəfdarıdır. Azərbaycan milləti Iranın tamam əyalət və vilayətləri kimi İranın milli şura məclisinə nümayəndə göndərəcək və adilanə maliyyat verməkdə şirkət edəcəkdir.*

*4. Azərbaycan xalqı rəsmən və ələnən (açıq) elan edir ki, bütün dünyanın diri millətləri kimi (Iranın tamamiyyət və istiqlaliyyətini gözləməklə özünün daxili işlərini idarə etməkdən ötrü milli hökumət yaratmağa haqlıdır və O, bacarıb Iranın istiqlal və tamamiyyətini müraat etməklə Azərbaycanı demokrası və milli hakimiyyət üsulu ilə idarə edə bilsin.*

*5. Azərbaycan xalqı azadlıq və demokrası yolunda böyük zəhmətlər çəkib və çoxlu qurbanlar verməyinə görə istəyir özünün muxtar hökumətini həqiqi demokratlıq əsası üstündə qursun. Buna görə konqrə tərəfindən təsvib olunmuş daxili nizamnamə üstündə özünün milli məclisini intixab edib, lazım görür Azərbaycanın milli və daxili hökuməti bu məclisin nümayəndələrinin arasından_intixab olub, onun qarşında məsuldur.*

*6. Azərbaycan xalqının öz milli və ana dilinə məxsus əlaqəsi vardır. Özgə dilinin təhmili onu tərəqqi və təməddün (mədəniyyət) karvanından geri salmış və onun milli mədəniyyət və maarifinin yolunu bağlamışdır. Bu narəva təhmilin qabağını*

*almaq və Azərbaycanın tərəqqisinə lazım gələn bütün vəsilələri vücudə gətirmək üçün Azərbaycan xalqının milli konqrəsi. Milli Heyətə dəstur (əmr) verir, çox tez bir zamanda Azərbaycan dilini bütün dövlət idarələrində mərsum (rəsmi) və onun tədrisini tamam mədrəsələrdə (dövləti və milli) əməli etsin.*

*7. 150 min nəfərin imzası ilə 700 nəfər nümayəndənin iştirakı ilə təşkil tapan böyük xalq konqrəsi Azərbaycan millətinin iradəsi ilə özünü müəssislər məclisi elan edib, Azərbaycanın daxili işlərini idarə etmək üçün 39 nəfərdən ibarət bir Milli Heyət intixab edib, onlara ixtiyar verir millətin milli istəklərini əməli etmək üçün lazımı tədbirlər görüb, səlahiyyətdar məqamat ilə müzakirəyə girsinlər. Eyni zamanda Azərbaycan Milli Məclisinin və həmçinin Milli Şura Məclisinin intixabatını icra etsinlər.*

Axırda konqrə Iran dövlətinin və dünyanın böyük demokratik dövlətlərin nəzərini yuxarıda yazılanlara cəlb edib, izhar edirlər ki, bu mətalibin (istəklərin) icrası üçün fəqət təbliğ və təşkil vasitəsi ilə iqdam edib, nizai-daxili (daxili çəkişmə) və qardaş qanı tökməyə icazə verməyəcək. Vəli əgər mərkəzi dövlət istərsə onun qanuni haqqını silah gücü ilə ortadan aparsın, onlar naçar hər qiymətə olursa-olsun öz hüququndan müdafiə edəcək və bir nəfər azərbaycanlı qalana dək öz milli muxtariyyəti yolunda mübarizə edəcəkdir.

Müəssislər məclisi (milli konqrə) Milli Heyətə ixtiyar verir, Azərbaycanın muxtariyyətin təmin etmək üçün səlahiyyətli məqamlarla əlaqəyə girsin, məsələni sülh və müsalimat yolu ilə həll etsin. Vəli Milli Heyət heç vəch ilə Azərbaycanın muxtariyyətini və milli hökuməti haqqından sərfi-nəzər etmək və Iranın tamamiyyət və istiqlalını pozmaq ixtiyarına malik deyildir.

Biz arzu edirik bütün demokratik aləm bilsin ki, dünyada bir dövlət vardır ki, hazır olub, var qüvvəsi ilə öz hüququndan müdafiə etsin, Asiyanın bir qüşəsində azadlıq və demokratik

bayrağını qalxızıb, istəyir fəqət öz köməyi ilə özünün azadlığını təmin etsin.

Ümid edirik İranın səlahiyyətli məqamları və böyük demokratik dövlətlər bizim milli mənzurumuzun (istəyimizin) icrası üçün növpərvaranə (insani) köməklərdən ki, Atlantik mənşuri onun əsası üzərində qurulmuşdur müzayiqə etməyəcəklər. (Boyun qaçırtmaq).

***Ehtiramati fayiqə (dərin hörmətlə)***
***Milli Müəssislər Məclisinin riyasət heyəti***

Bu elamiyyədə çox dəqiq bir surətdə milli nehzətin səbəbləri göstərilib, Milli Heyətin Irandan ayrılmamaq şərti ilə nə cür əməli etməyimizi izah verilmişdir.

Elamiyyəni konqrənin riyasət heyəti imza etmişdir. Riyasət heyəti aşağıdakı təfsil (izah) üzrə.

Pişəvəri, Rəfii, Doktor Cavid, Qiyami, Şəbüstəri, Codət, Mükərrəm Turabi, Biriya, Hacı Mustafa Davudi (kürd nümayəndəsi), Seyid Musa, Hacı Əzimxan Xadimi-Milli, Şeyx Musa Keyvani və ağayi dilmuğanidən ibarət idi. Istər bu elamiyyə istərsə o gönə dək intişar verdiyimiz elamiyyələr və sair vərəqələr bizim milli nehzətimizi dünyaya olduğu kimi olmasa da kifayət qədər də tanıtdıra bilmişdir. Hələ indi də bu özü-özlüyündə ən mühüm məsələlərdən biridir.

Mütəəssifanə o vaxta dək dünya bu məsələ ilə maraqlanmamış, İran farsçılıq mütəssibləri isə əmdən (bilərəkdən) bu məsələni ört-basdır etməklə bizim bir xalaq, bir millət olaraq tanınmağımıza imkan verməmişdir.

Ona görə nehzət başlanarkən təkcə dünyada deyil, bəlkə Azərbaycanın özündə belə bizim iddialarımızı ciddi hesab etmiş adamlar çox idi.

Xalq isə fars olmadığını və Tehran hökuməti onunla yabancı bir millət kimi rəftar etdiyini və özünün xüsusi bir vəhdət və təəssüb hüsnünə malik olduğunu bildirirdisə də bundan müstəqil dövləti bir quruluşa malik olmaq üçün nəticə

ala bilməmiş. Bu xüsusda açıq-aydın bir şüar meydana qoymamışdır. Ona görə dünya bizi yaxşı tanımırdı. Müstəşriqlər (şərqsünaslar) isə fars təəssübü altından çıxa bilməyib, bizim milliyyət və xüsusiyyətimizə göz yumub, ona lazımı qiymət vermək istəmirdilər.

Onlar dili, adab və rüsumu müəyyən çoğrafi vəziyyəti ilə müstəqil olaraq, vacib olduğu şəraitin hamısına malik olan bir xalqı fars millətinin bir hissəsi hesab edib, onun keçmiş və gələcəyi ilə məşğul olmaq istəmirdilər.

Firqəmizin təşkilindən sonra meydana çıxan hadisələr isə istər-istəməz hadisənin üstünü açıb, dünyanın təvəccühünü (diqqətinə) bizim ölkəmizə cəlb etməyə bilməzdi.

Şayət ayrı şərait və ayrı movqedə bu iş qabağa çıxsaydı, dünya yenə də onunla çox maraqlanmazdı. Lakin yaddan çıxmamalıdır ki, milli hərəkatımız cahan müharibəsi və onun nəticəsi ilə əlaqədar idi.

Hənuz böyük dövlətlərin silahlı qüvvələri İranı tərk etməmişdir. Hənuz fateh dövlətlər dünyanın gələcəyi haqqında öz axırıncı sözlərini deməmişdilər.

Belə bir mövqedə Azərbaycan məsələsinin bu şiddətlə meydana sürülməsi məxsusən Yaxın Şərqdə ən mühüm, ən dərin məsələlərdən biri hesab olunmalı idi.

Bundan əlavə böyük dövlətlərin müstəmləkə siyasəti dünyanın sərvətmən (sərvətli) neft mənbələrindən hesab olunan Orta Şərq nefti rümuzatı (rəmzləri) hətta Iranın Şimal və Cənub neft mədənləri uğrunda aparılan şədid mübarizə bizim iradəmizin dəxaləti olmadan təqib etdiyimiz milli mübarizə ilə əlaqədar idi.

Buna baxmayaraq özümüzü xarici məsələlərə nisbət bitərəf saxlamaqda çox ciddiyət edirdik. Vəli iş tək bizdə və bizim ciddiyətimizdə deyildir. Özgələr məsələn İngilis, Amerika dövlətləri bizdən ötrü öz siyasətlərini dəyişməzdilər.

Bir sözlə bizdən asılı olmayaraq milli nehzətimizdə böyük millətlərin məşğul olduqları siyasi məsələlər ilə bağlanaraq, ən

aydın çətinliklər sırasına keçmiş, ona görə dünya mətbuatında böyük yer tutmağa başlamışdır.

Hələ milli nehzət başlanmadan əvvəl Türkiyə radiosu Azərbaycanda milli hərəkatı intişar verərkən Tehran mətbuatı böyük gurultu qoparıb, belə bir fikirdə olan şəxsləri Azərbaycanlıların özləri məhv nabud edəcəkdir deyərək, aləmi hay-küy ilə doldurmuşdular.

Nehzət irəli getdikcə xalqın ehsasatını görüb, ləhnin dəyişməyə məcbur olan bu mətbuat özü də Azərbaycan məsələsinin dünyaya bildirməsində kiçik rol oynamamışdır.

Konqrəmiz qurtardığı vaxt dünya ümumi-əfkarı (ictimaiyyətin nəzəri) bizim işimiz ilə çox təbii bir surətdə əlaqədar idi. O gün bizim dünya ilə rabitə saxlayıb, öz fikrimizi intişar vermək üçün radio və sair vəsailimiz yox idi. Düşmənlərimiz isə var qüvvəsi ilə əllərində olan vəsailindən bizim əleyhimizə istifadə edir, dünyanı üstümüzə qaldırmağa çalışırdılar.

Misal üçün "Azərbaycan" qəzetində bu mövzuda yazılan məqaləni burada nəql edirik.

**Azərbaycan Demokrat Firqəsinin həyata keçirtdiyi Tədbirlərin dünya ictimaiyyətində təsiri**

Azərbaycan azadlıq hərəkatı demək olar ki, dünyada olan keçən həftənin mühüm xəbərlərin zirvəsində qərar tutmuş hadisə hesab olunur.

Bu hərəkat firqənin rəhbərliyi ilə Azərbaycan xalqının haqlarının bərpası uğrunda gedən mübarizədir. Bu nehzətin istəyi azadlıq və demokratiyadır. Dünya imperialist mərkəzləri heç vaxt bu azadlıq hərəkatların baş verməsində bitərəf qala bilməzlər. Ona görə Azərbaycan milli azadlıq hərəkatının xəbərini eşidən an qorxuya düşmüşlər. Onlar Azərbaycan Demokrat Firqəsinin tədbirlərini dünya ictimaiyyəti arasında gözdən salmaq məqsədi ilə bir sıra əsassız şaiyələrə əl atmışlar.

Amma hələ bu şayədən 24 saat keçməmiş, onun yalan oludğu dünya ictimaiyyətinə aydın olmuşdur. Onlar özləri də bu yalançı xəbəri yaymaqdan təklənərək, artıq təbliğat metodlarını dəyişmişlər.

Birinci dövlət ki, Azərbaycan məsələsi üçün canfəşanlıq edirdi, Türkiyə dövləti idi. Ankara radiosu bu cümləəri "Təbriz küçələrində qanlı mübarizələr davam edir və ya Azərbaycan nehzətini bir qrup avantürist qaldırır" yaymaqla özünün qərəzli olduğunu sübuta yetirirdi. London radiosu Azərbaycanda olan hərəkatı İran dövləti əleyhinə qiyam adlandıraraq onu demokratiya üsuluna zidd bir hərəkat göstərib. Vaşinqtonda ağayi Əəla (İranın Amerikada səfiri) həyəcanla Amerika dövlətinin xarici işlər naziri Berensin hüzuruna gedərək, Azərbaycan Demokrat Firqəsinin əlaqəsini xariclərə bağlayıb. Amma ağayi Berens bu məsələdən xəbərsiz olduğunu elan etməkdə Əəlani məyus etmişdir. Ağayi Tağızadə də öz həmkarından təqlid edərək, eləcə bu hadisə ilə əlaqədar ağayi Buin ilə görüşmüşdür.

Bir sıra imperialistlərin zurnası bu azadlıq hərəkatını Şuralar hökumətinin göstərişi hesab edərək güya ki, bu nehzətin vücudə gəlməsində Şura hökumətinin əli vardır.

Amma Moskva radiosu Şura hökumətini bu nehzətlərdən özünü qoruyaraq, demişdir ki, onda demək Cava və Fələstin qiyamlarında da Şura hökumətinin əli vardır. Halbuki, Şura hökuməti bu nehzətlərin heç birisindən xəbəri yoxdur. Bəlkə millət özü şəxsən Atlantik və San-Fransisko müqaviləsinə söykənərək belə qiyamlarda iştirak edir. Gərək Atlantik və San-Fransisko müqaviləsni bu hərəkatların başlanmasında səbəb kimi göstərmək olar nə Sovet İttifaqını. Bu məsələdən sonra imperialist zurnaları işə düşərək, bu ləhn danışıqlarını dəyişmişdir. Hətta London radiosu da iki gün bundan qabaq Azərbaycan hərəkatını bir demokratik hərəkat adlandırdı.

Türkiyə dövlətinin radiosu öldürməkdən və yandırmaq sözlərindən əl götürməklə Azərbaycan Milli Heyətinin

vəzifələrini izah etməyə başlamışdır. Demək olar ki, özünü Azərbaycan muxtariyyətinin tərəfdarı göstərmişdir. İran daxilində xüsusilə Tehranda Azərbaycan hadisələrinin xəbəri bir bomb partlayışı kimi hamını qorxuya salmışdır. Məmurlar ki, dünənə qədər Azərbaycan xalqının istəyinə barmaqarası və istehza ilə baxırdılar, onlar yuxudan oyanıb Azərbaycanın maddi vəziyyətinin pisləşməsi haqqda danışmağa başladılar.

O cümlədən keçmiş Azərbaycanlı azadixahlardan olan doktor Rza Şəfəq özündən razı halda İran məclisdə Azərbaycan nehzətindən söhbət açdı. Lakin jandarmların törətdiyi faciə, şəhər və kəndlərin xarabazara çevrilməsindən, idarələrin və Azərbaycan mədəniyyətinin pisləşməsindən bir dəfə də olsun danışmadı. Yalnız Azərbaycandan göndərilən yağ və yumurtanın qarşısının alınmasından söhbət edərək, təəsüf etdi ki, "Nə üçün Azərbaycanlılar bədbəxtlikdən və əsarətdən xilas olmağa çalışırlar. Niyə? Məşhur sərkərdə Atropat övladları yağ və yumurta göndərməkdən boyun qaçırılar?".

Tehran radiosu ki, hər 6 aydan bir Azərbaycan adını istəmədən çəkirdi, indi hər gün bərnamə və proqramlarında Azərbaycanın qəhrəmanlıqlarından ağız dolu danışır. İndiyə qədər 5 dəfə Rza Şəfəqin danışığını fars dilində yaymışdır. Amma bütün azərbaycanlıların 99 % fars dilin bilmədiyinə görə onun danııqlarından istifadə edə bilmədilər.

Təbrizdə də sərtib Xusrəvani öz ləqəblərinin sayını artırmaqla (o ləqəbləri ancaq şənliklərdə, tədbirlərdə istifadə edrdi) "Azərbaycanın intizamat rəisi" ləqəbində verdiyi bəyanatın imza yerində qoydu. O bəyanat ki, başdan ayağa "Kəsərəm", "Basaram" sözləri ilə dolu idi. Ondan məqsəd camaatı qorxutmaq. Bu bəyanat dövlət məmurunun ovcunu açan bir sənətdir. Və ondan aydın olurdu ki, bu şəxs hətta bu yaxınlarda şah tərəfindən göndərilən medala belə layiq deyil.

Dəqiq məlumata görə sərtib Dirəxşanin bəyannaməsi camaata əks təsir buraxmaqdan başqa Xusrəvani tərəfindən

Dirəxşanin arxasında onun əleyhinə danışılan söhbətlər ümumiyyətlə pis təsir buraxmışdır.

Tehran da alman faşistlərinin son günləri ki, addım-addım məğlubiyyətə uğrayaraq tez-tez əskərlərin ruhiyyəsini qaldırmaq üçün Azərbaycan ordusuna bu vasitə ilə fərman verərək sübut edirdi. Beləliklə onlar bir alay əskəri lal və hər tərəfdən xəbərsiz qoymuşlar.

Iranın Amerikada səlahiyyətli səfiri olan ağayi Əlanın israrı nəticəsində Amerika dövləti Sovet və Ingiltərə dövlətinə dostluq məktubu yazaraq qeyd etmişdi ki, "Amerika dövlətinin müharibə qurtarmadan qabaq İranda 24 min əskəri var idi. Müharibədən sonra isə onlardan 20 min nəfəri Iranı tərk etmişdir. Indi yalnız 4 min nəfər əskər qalır ki, onları da Yanvarın əvvəllərində geri çağırılacaqdır. Ona görə xahiş edir İngilis və Sovet dövlətləri də təyin olunmuş vaxta dək öz qüvvələrini İrandan çıxarsın".

Amma Amerika dövləti bu məktubda qeyd etməmişdi ki, hansı qərar üzrə bizim ölkəyə 24 min nəfərlik ordu göndərmişdir. Hələ bu məktuba indiyə qədər bu məktuba nə Sovet və nə də ingilis dövlətləri cavb verməmişdilər.

Iran parlamentində qərara alındı ki, heç bir nümayəndə Azərbaycan haqqında danışmasın. "Ona görə ki, dövlət bu məsələni diplomatik yol ilə həll etmək istəyir.

Məclisdə Ağayi Doktor Şəfəqin istəyi ilə qərara alındı ki, Həkiminin rəhbərliyi ilə bir heyət Moskvaya ezam olunsun və orada Azərbaycan məsələsini həll etsin. Amma Moskva ciddİ surətdə nümayəndələrin oraya getməsini təkzib etdi.

Beləliklə İran dövləti bu əməli ilə sabit etdi ki, qəsdən çalışır ki, Azərbaycan məsələsini həll etmək üçün Təbrizə bir heyət göndərmək əvəzinə özünün daxili işini başqa dövlətlərin paytaxtına çəksin.

Dövlət gərək Azərbaycanın qanuni istəklərinə cavab versin. O istəyir ki, İranın daxili məsələsinə başqalarının ayağını çəksin. Dövlət bu fikirdən daşınmalıdır. Deyəsən

Moskvaya ezam olmaq məqsədi ilə seçilən heyətin oraya getməsindən bir xəbər olmadı. Xarici Radiolar İran dövləti Azərbaycanın məsələsinə və ordunun qarşısını almaq barədə Sovet Dövlətinə bir məktub təqdim etməsinin xəbərini verdilər. Tehrandan əvvəl London mətbuatı bu məktubun məzmunu nəşr etdilər. Sovet Dövləti bu məktubun cavabında qeyd etdi ki, İran ordusunun azərbaycana ezam olmasının qarşısını almaq fikrində deyil. Lakin ordunun ezam olmasından sonra Azərbaycanda şədid qan töküləcəkdir. Belə olan halda, Sovet Dövləti məcburdur öz alaylarının təhalükəsizliyini qorumaq üçün Qızıl Ordu əskərlərinin sayını artırsın. Lakin Sovet Dövlətin iranda əskərlərin sayını artırmaq istəmir. Ona görə idi ki, Iran ordusunun Azərbaycana getməyinin qarşısını alınırdı.

Beyrut və Şahamat radioları Azərbaycan milli hərəkatını milli azadlıq hərəkatı adlandıraraq qeyd etdilər ki, bu hərəkatda Azərbaycanın İrandan ayrılmasına aid heç bir sənəd tapmaq olmaz. Və ona görə bu barədə hər növ şaiyə ki, yayılmışdır kökündən əsassızdır.

Isveç radioları ümumiyyətlə bu hərəkatı alqışladılar. Həkimi dövləti deyilən Moşirul-dövlə höküməti rolunu oynayırdı. Mütərəqqi mətbuatın qarışısını o səbəbə görə almayacaq ki, bir kəlmə də olsun Azərbaycan mücahidlərinin əməllərindən yazılmasın. "İrani-ma" ruznaməsi ("Bizim İran" ruznaməsi) ağayi Sədrin mühakimə olmasını İran dövlətindən istəmişdir və yazmışdır ki, Sədr kabinəsinin səhv siyasəti işi bu yerə çatdırıb. Bu yazının müəllifinə qeyd etmək lazımdır ki, sənin fəryadın bir yerə çatmayacaq və sənin deməyinlə Sədr mühakimə edilməyəcək. Əks tədbirdə gərək Müstofini (Azərbaycanın valisi) də Təbrizin cahanşahlığından (4 yolunda) dardan asılsın. Nəhayət Azərbaycanın demokratiya istəyi yuxarıdakı sözlərdən ibarət idi.

Gələn nömrəmizdə bu məsələnin ardını tutacayıq.

Milli konqrə bu vəziyyəti nəzərə alaraq, itmani-höcətə (son xəbərdarlıq) üçün Tehrana göndərdiyi elamiyyənin üzünü

xarici dövlətlərin nümayəndələrinə və dünyanın səlahiyyətli şəxslərinə göndərməyə məcbur oldu.

Elamiyyədə göstərildiyi həqiqətlərə baxmayaraq dünya imperialistləri rahat durmayıb, bizim əleyhimizə cürbəcür töhmət və iftira yağdırmaqdan geri qalmayıb. Hətta Iranın daxili işi hesab olunan bu işə ciddi surətdə müxalifət edərək, rəsmi yaddaşlar vasitəsilə Şuralar Ittifaqının ayağını ortaya çəkməyə çalışırdılar. Xarici siyasətdə ehtiyadkaranə surətdə xətti-hərəkətimizdən nümunə olaraq "Azərbaycan" ruznaməsində yazdığımız məqaləni buraya nəql edirik.

**Istemarcların təhdidi bizi tutuduğumuz haqq yolundan qaytara bilməz. Ya ölüm, ya azadlıq, üçüncü yol yoxdur**

Biz heç bir qoum və heç bir millət və heç bir camaata düşmən deyilik. Özümüzə rəva gördüyümüz yaşamaq və tərəqqi etmək vəsilələrini özgələr üçün də rəva görüb, bu günə dək kimsənin tərəqqi və təalısınə müxalifət etməmişik. Hətta Tehran irticai hökümətinin azadlığımız əleyhinə işlətməkdə olduğu xainanə tədbirlərində fars millətinin hesabına yazmaq istəmirik. Milli əsarət və qaba istibdad üsulunun məzəsini (dadını) anladığımıza görə əsir millətlərə ürəyiz yanır, onların əsarət və istemar boyunduğu altından xilas olmaqlarını səmimi cqəlbdən arzu etdiyimiz halda zülfi-yarə toxunmaq qorxusundan onların azadlıq hərəkatı haqqında nəhayət dərəcədə ehtiyat ilə danışmağa adət etmişik. Asiya, Avstraliya və Afrika qitələrində istemar halında yaşayan bədbəxt və biçarə insanların fəlakətli halı bizi mütəəssir edir. Bir ovuc qaniçən mühafizəkarların tamahının qurbanı olan bəşəriyyətin sızıltısı bizi ağladır. Amma nə etməli ki, məlum (lənətlənmiş) diplomatik mübahisələr bizi susdurub, ruhumuzdan qopan etiraz səslərimizi dodaqlarımızda qurudub, fəzayə çıxmağa imkan vermir. Biz əsiri Hindustan, biçarə ərəb dünyası, məzlum Yunan camaatı və vaxtilə böyük mədəniyyətə malik

olan yazıq Misir əhalisi barəsində deməli sözləriz çoxdur. Nə etməli ki, qonşumuz mülahizəsi ilə vicdanımızın verdiyi əzaba mütəhəmül olub, səsimizi çıxartmırıq. Farsların gözəl bir məsəli vardır. Deyir: "Əgər borcluya bir söz deməsən qayıdıb səni borclu çıxarar". Bu tamamilə doğrudur. Biz dünyanı əsarət altında saxlayan istemarçıların qonşuluğunu mülahizə edib, sakit olduğumuzdan onlar sui-istifadə edib, bizim sadə və təbii haqqımızı tarü-mar (tapdalamaq) etmək üçün insanları təhqir edən və ədəbli adamlara yaraşmayan vasitələrə təşəbbüs etməkdədirlər.

Biz Hindustanı, Ərəb dünyasını, Misri və bilaxirə öz vətənimizin əsas sərvətini təşkil edən neft mənbələrini azad etmək şüarı ilə işə başlamışıq. Istemarçı və xalqların qanlarını soran mühafizəkarlar dövlətlərin daxili və xüsusi işləri ilə də işimiz yoxdur. Sadə bir surətdə öz evimizi istədiyiniz kimi idarə etmək istəyirik. Bunu isə istemar dünyası təhəmmül etmək (dözmək) istəmir.

Nə etməli? Millətimiz qərinələr (əsrlər) boyu təhəmül etdiyi zülm və əsarət və hərcümərcdən yorulmuşdur. Indi istəyir o da bütün azad millətlər kimi öz sadəsini təmin etmək imkanına malik olsun. Bu arzu heç bir millətin düşmənliyi üzərində əsaslanmamalıdır. Biz min dəfə təkrar etmişik. Istədiklərimiz məmləkətimizin sərhəddi dairəsində olmuşdur. Irandan heç vəch ilə ayrılmaq istəmirik. Və məşrutə üsuluna da səmimi qəlbdən sədaqətimiz vardır. Bununla belə istemar heykəlləri dünyanın o başından bizə qan tutmuş gözlərini bərəldib, deyir: "Yox sizdə Iranın bütün əhalisi kimi əsarət halında qalmalısınız. Bizim müstəmərəmizin hifz və hərasəti (qorunması) bunu tələb edir. Bizim səltənət və qüdrətimiz millətlərin göz yaşları üzərində əsaslanmışdır. Bunu nəzərə almayan millət məhv və nabud olmağa məhkumdur". Amma biz öz növbəmizdə yaşamaq istədiyimiz üçün istemarçıların təhdidinə qulaq asmayıb, azadlığımızın təmini üçün mübarizəni axıra qədər davam etdirməyə and içmişik.

Konqrənin gördüyü mühüm işlərdən birisi də məclisin intixabat qanunu təsdiq etməkdən ibarət idi. Bu nizamnamə əsas etibarilə İran intixabat nizamnaməsindən götürlüdüyü halda, seçkilərin tamamilə demokratik bir tərzdə icra etmək üçün onun bəzi maddələri dəyişdirilmişdir.

Məxsusən qadınların intixab edib, intixab olmaq haqqı, həmçinin cavanların intixab etmək haqqının 20 (yaş olması) və intixab olmaq haqqının 27 yaşa tənəzzül (endirilməsi) verilməsi intixabat məntəqələrinin çoxalması, vəkillərin sayının 100 dək artırılması, şəhərlər ilə kəndin isə seçkilərinin təfkiki (ayrılması) həm də seçki müddətinin 20 gündən 5 günə endirilməsi, intixabatın demokratik surətdə aparılmasını tənim etmək üçün görülən əsas tədbirlərdən hesab olunurdu.

Bu konqrə istər müzakirə etdiyi məsələlər, istərsə çıxardığı qərarlara görə həqiqətən çox böyük tarixi bir məclis idi. Ora toplanan nümayəndələr vaxtın və məsələnin əhəmiyyətini nəzərdə tutaraq, xalqın müqəddəratını təmin etmək üçün böyük ləyaqət və istedad göstərirdilər. Milli məclis, “Milli hökumət şüarı doğrudur” şüarı firqəmizin geniş ümumi iclasında irəli sürmüş idi. Lakin ondan 10 gün sonra toplanan böyük konqrə ona rəsmiyyət verib, onun ciddi siyasi bir vəzifə kimi icra edilməsinə əməli yollar göstərdi.

Konqrə təkcə Azərbaycanda deyil, bəlkə bütün Iranda nəziri görünməyən bir yığıncaq idi. Hətta məşrutə nehzətinin tarixində də belə bir mühüm və ciddi yığıncaqa təsadüf edilməz. Məşrutə nehzətinin yolu tamamilə təsadüfi və nəqşəsiz hadisələr və qabağa çıxan gündəlik məsələlərin həlli ilə qabağa keçmişdir. Hətta səttarxan sərdari-millinin silahlı mübarizəsi də demək olar ki. Gündəlik qabağa çıxan hadisələr cümləsindəndir. Halbuki, bizim milli demokratik nehzətimizn gedişində siyasi rüşt (inkişaf) və ictimai fəhm və düşüncə nəzəri cəlb etməkdədir.

Biz müəssislər məclisi adlandırdığımız böyük milli konqrədə nə etmək istədiyimizi layiqincə dərk edə bilmişdik.

Biz Milli Heyət təsis edərkən onun məna və əhəmiyyətini dərk etmiş, ona görə də onu Milli Heyət adlandırmışdıq. Halbuki, milli məclis tərəfindən intixab etdiyimiz heyətə milli hökumət namı verməkdən çəkinmirdik (çəkinirdik). Çünki milli heyət konqrədən müvəqqəti olaraq, milli məclis qurmaq üçün seçilən müvəqqəti bir heyət idi. Milli hökumət isə xalqın rəsmi surətdə seçdiyi parlamentin rəsmən təşkil etdiyi qanuni bir dövlət təşkilatı idi.

Bunlar sübut edirdi ki, nehzəti idarə edən firqə rəhbərliyi tarix, hüquq və siyasətlə aşına (tanış) olamayan adamlar deyilmişlər.

Bu fikri aydınlaşdırmaq üçün oxucularımıza konqrənin xalqımıza xətadan intişar verdiyi (müraciət etdiyi) rəsmi elamiyyəni bu bölməyə zəminə edirik.

**Azərbaycan millətinə və ümum Iran xalqına**
**Azərbaycan Milli Müəssislər Məclisinin bəyanniyyəsi. (Bəyanatı)**

"Həmvətənlər! Bu gün biz iftixarlı millətimizin xələl tapmayan iradəsi belə qərar tutmuşdur ki, bu günkü çətin şəraitdə möhkəm bir əzm ilə özünü unudulmaz keçmişinə və qədim mədəniyyətinə və azadlıq nehzətindən götürdüyü qədəmlərə layiq olan parlaq tarixi vəzifəsini əncam verməklə bərabər, hər cür maneəni öz qarşısından qaldırsın.

Azərbaycanın keçmiş əzəmətinə layiq olan böyük məmuriyyətə xalqımız iftixar edir.

Azadlıq və demokratiya uğrunda hansı ki, onu difa etməkdən ötrü azadixah dövlətlərin rəşid oğulları mərdliklə canlarını bu yolda qurban ediblər. Xalqımız bu əziz məqsədlər üçün mübarizə aparmağa yenə də iftixar edir.

Bizim millətin tarixi dami iftixarat ilə doludur. Bizim böyük əcdadımız (babalarımız) mad (Midiya) dövründən Şah İsmayıl Səfəvi əsrinə qədər və (həmçinin) məşrutə inqilabının

başlanğıcına qədər azadlığı ələ gətirmək üçün xarici işğalçılar əleyhinə qəhrəmanlıq ilə mübarizə aparmışdılar. Bu qəhrəmanlıqlar xalqımızın tarixi səhifələrinin zinətidir.

Azərbaycanın qeyrətli müchid və rəşid oğulları misilsiz fədakarların nəticəsində məşrutə inqilabında istibdad hökumətinin əsasını və irticanın sültəsini kökündən qazaraq, İran milləti üçün azadlıq və demokratiya aldılar. Qanuni-əsası Azərbaycanın şərafətli oğulların qanları bahasına alınmışdır. (Məşrutə qanunu təsdiq olunmuşdur).

40 il qabaq bizim babalarımız cəng (hərb) meydanlarında mərdliklə azadlıq və demokratiyanı ələ gətirməyə nail olmuşlar. Bu əziz meyvəni dəfələrlə azadlıq düşmənlərindən hifz etmişlər.

Amma Azərbaycan milləti hansı ki, bu qədər məşrutə inqilabının yaranması üçün onu himayət və müdafiə etmək yolunda fədakarlıq etmişdir, heç vaxt öz sonsuz mücahidətlərinin (fədakarlıqlarının) nəticələrindən istifadə etməyib, azadlıqdan nəsibsiz qalıb (məhrum olub) və həqiqi demokratiyadan əsər belə görməyibdir.

Nə üçün? Buna görə ki, mərkəzin mürtəce hökumətləri Azərbaycana həmişə alçaq və həqarət (təhqir) nəzərilə baxmış və hər vaxt bu torpağa müstəmərə gözü ilə baxıb, heç vaxt Azərbaycanı istemar etmək fikrindən və bu torpağın zəhmətkeş millətinin istemar etməklərindən başa arzuları olmamışdır. Tehranın azadlıq öldürən hökuməti hədəfi həmişə bu olmuşdur ki, Azərbaycanı əbədi dalı qalmış şəraitdə saxlasın. Cəhalət və mövhumatı bu məmləkətlə genişləndirsin, irtica amillərini və fəlakəti təhiyyə edib, elm, mədəniyyət qapılarını bu yerlərin azadixah xalqının üzünə bağlasın.

Parlaq keçmiş tarixi, iftixarlı mədəniyyəti olan bir milləti ki. Onun milliyyətin, milli adab və rüsumu dağ kimi möhkəmdir. Onun mədəniyyət çırağı illər boyu qədim dünyanı işıqlandırsa da, mərkəzi mürtəcelər xalqımızı mədəniyyətindən və tarixindən və müstəqil şəxsiyyətindən məhrum olan bir

millət kimi qələmdad edib (göstərib), onu hər cür ictimai ehtiyaclardan məhrum göstərib, ona pis əhanətdən və yenə alçaq nisbət verməkdən çəkinməyiblər.

Tarix boyu dünyanın ən abad və cəmiyyətli yerlərindən olan və dünyanın sərəvət mənbəyi sayılan vətənimizi xarabazara döndərib, fəqr (yoxsulluq) və fəlakətə düçar ediblər.

Azadlığa zidd olan Tehran hökuməti bu topraqda azadlığın hər növ asarını ortadan aparıb, onun inkişaf və tərəqqi ocağını söndürübdür. Öz ləyaqətsiz və alçaq məmurlarını hüdudsuz ixtiyarat ilə Azərbaycanı xaraba etməyə, Azərbaycan millətin təhqir edib, onun ana dilini adab və rüsumunu ortadan aparmağa göndərmişdir.

Onların məqsədləri ana dilini aradan aparmaqdan milliyyət və mədəniyyətimizin əsasını mütəzəlzil (sarsıltmaq) etməkdərdir. Ona görə ki, bu vasitə ilə azərbaycanlı öz parlaq tarixini xatırlamasın.

Bu xətərli nəqşənin icrasında mərkəzin məmurları hər cür faciə yaratmaqdan hələ çəkinmədilər.

Azərbaycanın oğulları zindan qüşələrində və ya tunel altında və ya Iranın cənub məntəqələrinin pis havalarında tələt olub, ortadan getdilər.

Rzaxanın quldur hökuməti, polis Muxtari vasitəsilə Azərbaycanda istədiyini etdi. Və bir çox azərbaycanlı Rzaxanın zülm çəkməsi və Muxtarinin əsarət zənciri altında məhv oldular. Işgəncə və məhrumiyyət fişarı həddən aşdı.

Rzaxanlar və Muxtakrilər ortadan götürüldülər. Amma azərbaycanlı ruhu ölməyib azadlıq işığı Azərbaycanda sönmədi. 1320 (1941)-ci il 3 Şəhrivər hadisəsi yetişdi. Beynəlxalq vəziyyət Iranın daxilində yaşayan millətlərə də azadlıq və demokratiyadan istifadə etmək şəraiti yaratdı. 4 ildən artıqdır ki, hadisədən keçir.

Bu müddət içərisində Azərbaycan xalqı dəfələrlə öz azadlığının bərpası və qanuni-əsasının icrası üçün mərkəzi

hökumətə müraciət edirdi. Lakin hər dəfə ya xuşunət (acıqlı) və çoxlu etinasızlıqla üzləşib və ya qovulublar.

Bu müddət içərisində azərbaycanlı mərkəzi hökumətdən sərnizə (süngü), zor demək, qanuni əsasının tapdalanması azadlıq və demokratiya üsulunun məhv olması və faşistlik əməliyyatından başqa bir şey görməmişdi.

Tehranın mürtəceləri Azərbaycanı xarab etməklə və bu torpağın zəhmətkeş xalqını iflasa salmaqla Tehranın zahiri gözəlliyinə günbəgün təvəccüh edib, bizim qanuni təqazalarımızı (istəklərimizi) istehza və etinasızlıqla qarşılamışlar. Azərbaycan xalqı qanun icazə vermiş həddə kimi öz qanuni təqazalarını təqib edib, lakin mərkəzi hökumətinin mənfi cavabına rast gəldi. Aydındır ki, 5 milyonluq bir millətin müqəddəratına bu qədər etinasızlıq və əhanət göstərmək bu günkü dünyada ki, Azərbaycandan da kiçik millətlər istiqlal ya xudmuxtarlıq və ya demokratik hökumətə malik olublar, dözülməz bir işdir.

Buna görə də 150 minə nəfər Azərbaycan xalqı tərəfindən intixab olmuş nümayəndələrə aban ayının 29-da Təbriz şəhərində yığışıb Azərbaycan millətinin böyük konqrəsini təşkil verdilər. Bu böyük konqrənin polad təmimləri təqibində Azərbaycan kişiləri və mərdanə qadınlarının səslərini eşidirsiniz ki, onlar tamam qüvvələri ilə azadlığı və demokrasının bərpası və millətin əsasının möhkəmlənməsi və muxtariyyətin ələ alması uğrunda qiyam etmişdilər.

Azərbaycan Milli Məclisi istəyir. Bu müqəddəs qiyamın hədəfi elə bir üsulun təqviyyəti və möhkəmləşməsidir ki, onun mocibincə demokratik şəraitdə Azərbaycan muxtar və azad yaşamalıdır.

Bu məqsədə çatmaq üçün Azərbaycan Milli Məclisi açmağı əvvəlinci bir iqdam hesab edir. Onun təxirsiz olaraq əməli olmasını tələb edir.

Azərbaycan milləti öz vəkillərini mərkəzdəki Milli Şura Məclisinə göndərməklə bərabər, lazım görür ki, öz milli

muxtariyyətinin hifzi və arzularının əməli olması üçün özünəməxsus bir milli məclisi olsun. Bu bir haqqdır ki, Azərbaycan millətinin böyük konqrəsinin təsvibindən keçmişdir. Biz bu müqəddəs və məşru haqqımızı almaqdan ötrü var qüvvəmizlə fədakarlıq edəcəyik.

Məşrutiyyətin əsası tətil olmaz.

14-cü məclis 15-ci dövrənin intixabatının təhrimi ilə qanuni-əsasını ayaqları altına qoyub. Məşrutiyyət qarşısında böyük bir xəyanətə iqdam etmişdir. Ondan ötrü ki, qanuni-əsasının mətninin 7-ci əslində məşrutiyyət indi əslində (məşrutiyyətin əsası icra və küllən tətil olmaz).

Qanuni-əsasının 5-ci əslində aydın deyir: "İntixab olunanlar 2 il müddətə intixab olunurlar və bu müddətin əvvəli tamam vilayət və əyalətlərdən intixab olmuş vəkillərin Tehranda hazır olduğu gündən başlanaraq 2 il müddətindən sonra təzə vəkillər seçilir və camaat keçmişdə ki yaxşı vəkilləri təzədən intixab etməkdə muxtardırlar".

Intixabat qanunun 53-cü maddəsi mocibincə intixabatın qurtarmasına 5 ay qalmış təzə intixabatın müqəddəratı fərahəm edilməlidir. 3 ay intixabatın qurtarmasına qalmış təzə intixabat başlamalıdır. Bu tərtib ilə məşrutiyyət bir gün belə tətil olmamalıdır.

Qanuni-əsasının bu əsli müsəlləmi (vacib) üzrə məclisin (14-cü) xəyanətkar əksəriyyəti tərəfindən 15-ci dövrənin intixabatının təhlil edilməsi qanuni-əsasının kamilən müxalifidir (ziddidir). Ona görə Azərbaycan milləti milli məclisini mərkəzi və Milli Şura Məclisinin intixabatını icra etməyə mərdanəliklə qiyam edib, müvəffəq olacaqdır. Bu fədakarlıqdan dayanmayacaqdır. Azərbaycanlılar bu vasitə ilə məşrutiyyət inqilabının üsulunu və demokrasının paydarlığını nisbət öz inam və əqidələrini göstərib, təsmim tutmuşdular ki, azadlıq və demokrasi düşmənlərinə öz polad iradələri ilə diş sındırıcı cavab versinlər."

**Millət özü intixabat fərmanını sadir edir (hökmünü verir)**

“Qanuni-əsası mütəmminin (qoşma) 26-ci əsli mocibincə (məmləkətin qüvvəsi gücu millətdən ibarətdir) Bu maddəyə görə intixabat fərmanını sadir etməyə millətdən başqa yüksək və saleh məqam yoxdur.

Buna görə millətimiz ciddi tədbir görüb ki, öz rəşid oğlanlarının fədakarlıqlarının səmərəsi olan qanuni-əsasını hifz edib, və bu qanunun millətə mənzur olunan (xeyrinə) hüquqları difa edəcəkdir.

Bu gün Azərbaycan milləti rəşadətlə (cəsarətlə) və uca səslə milli məclis intixabatının fərmanın sadir edir.

Azadlıq qəhrəmanlıq istəyir.

Azadlıq qurban vermədən ələ gəlməz. Azərbaycan milləti öz milli məclisini qurmaq və milli muxtariyyətinin, ana dilini bir həqiqi demokrasi rejimini qurmaq yolunda bu qurbanlıqları verməyə səmimi-qəlbdən hazırdır.

Indiki Tehranın nalayiq və cinayətkar hökuməti bu yolda öz sərbazlarını mücəhhəz (hazır) edib, bizə elani-cəng verir. Vəzifəmizdir ki, vaxtı tələf etmədən öz mübariz və qəhrəman sərbazlarımızı yəni Azərbaycan millətinin iftixarlı və qeyrətli oğullarını azadlıq almaq və demokrası rejimini qurmaq yolunda mübarizə meydanına göndərək.

Azərbaycan milləti inanır ki, şərafətli əfsərlər, quruhbanlar, sərbazlar, jandarmlar və pasbanlar Azərbaycan millətinin düşmənlərinin dəsisələrinə (hiylələrinə) aldanmayıb, zəhmətkeş millətin yolu ilə alınmış silahdan qardaş qanı tökməyə istifadə etməyəcəklər. Heç vaxt öz Azərbaycanlı bacılar, analar, qardaşlar və atalarının üzünə bu Azərbaycanın (qeyrətli oğulları ki,) millətinin saadəti və azadlıqı uğrunda mübarizə edirlər, qılınc çəkməyəcəklər.

Biz inanırıq ki, bu müqəddəs nehzətin təqibində ayrı əyalət və vilayətlərdə azadlıq bayrağını qaldırıb və sair yerlər azadlığdan məhrum qalmış və zülm görmüş xalqları da

intixabatın baykotunu sındırıb, Tehran məclisinin mürtəce və nasaleh əksəriyətinin ziddinə Milli Şura Məclisinin intixabatını başlayıb, bununla da vilayəti əncümənlərin qurulmasına iqdam edəcəklər. Azərbaycan milləti iftixar edir ki, yenə də məşrutiyyət inqilabı kimi azadlıq və demokrası yolunda Iran millətlərinin rəhbərliyini öhdəsinə götürür. Buna görə Azərbaycan Milli Heyəti iftixarlı Azərbaycan milləti adından və Azərbaycan xalqının ümum təbəqələri adından Azərbaycan əfradına (əhali) dəstur verir ki, azadlıq düşmənlərinin cəbhəsini sındırmaq və millətin müqəddəs arzularını əməli etmək üçün axırıncı mərhələyə qədər irəli getsinlər.

**Yaşasın iftixarlı Azərbaycan milləti!**
**Yaşasın Azərbaycan Məclisi Millisi!**
**Yaşasın Azərbaycan milli muxtariyyəti!**
**Yaşasın Azərbaycan xalqının ana dili!**
**Yaşasın İranın istiqlalı!**

Hər halda gələcək nəsil mübarizəmizin keçirdiyi mərahili (mərhələni) tədqiq edərkən böyük milli konqrədə danışılan sözlərə və orada çıxarılan qərarlara artıq dərəcədə təvəccüh etməlidir."

**Milli Heyət və onun tarixi əhəmiyyəti**

Aban ayının 31-də (noyabrın 22-də) böyük xalq konqrəsi tərəfindən intihab olunub, 21 Azərə qədər Azərbaycan xalqının müqəddəratını əlinə alan Milli Heyət tam mənası ilə milli hərəkatdan doğan bir quruluş idi. Bu heyətdə daşıdığı vəzifəyə görə müvəqqəti hökumət namı da vermək olar. Çünkü 20 gün tamam Azərbaycanda xalqın əmniyyət və asayişi bu heyətin ixtiyarında idi.

Bəllidir ki, yerli hökumət məmurları öz nüfuz və etibarlarını itirib, heç bir iş görə bilmədikləri halda,

ustandarlıq, jandarmeri,ədliyyə və sair dövlət idarələri quru addan ibarət olub, qaldiği zaman xalqı öz başına buraxmaq olmazdı. Ona görə firqə 21 Azər inqilabı yaradarkən istər-istəməz xalq işlərinin idarə etməyini müəyyən bir müəssisəyə tapşırmalıdı. O isə ancaq xalq nümayəndələri tərəfindən intixab olunun bu heyət ola bilərdi.

Milli Hökumət zamanında və onun adına gördüyümüz işlərin başlıcası milli məclis intixabatı, Bəyat ilə aparılan danışıq, ərzaq və azuqənin möhtəkirləri tərəfindən Azərbaycandan çıxarılmasının qabağı alınmasından ibarət idi.

Milli Heyət zamanında görülən müfid işlərdən birisi də jandarm və polis idarələri tərəfindən zindanlara doldurulan günahsız kəndlilərin azad edilməsidi. Bu məsələ istər şəhər zəhmətkeşlər arasında dövlət idarələrinin zəifliyi və firqənin qüdrətini zahirə çıxartmaqdan xalq ruhiyyəsində dərin təsir buraxmışdır.

Azad olan məhbusların birisinin verdiyi izahatı buraya köçürmək məncə məsələnin nə məcrada (istiqamətdə) cərəyan etdiyini göstərməyə kifayətdir.

**Azərbaycan Milli Heyəti vasitəsi ilə zindandan xilas olmuş bilatəklif (vəziyyəti məlum olmayan) və təqsirsiz məhbuslar ilə“Azərbaycan” ruznaməsi müxbirinin müsahibəsi**

“Azərbaycan” ruznaməsinin müxbiri olaraq Milli Heyət vasitəsilə zindandan azad edilmiş bilatəklif məhbusların bir dəstəsi ilə ruznamə idarəsində müsahibə apardım. Onlardan biri Muxtar Haşım oğlu Şəbüstərli idi. Bu cavan şəbüstərdə Məşədi Məhəmməd oğlu ilə savaşdığına görə 2 ildir ki, bu cavan oğlanı bilatəklif zindanda saxlamışdılar. Onun fəqət bir qoca nənəsi vardır. Indi O, sevinirdi. O, anasının yanına getməyə can atırdı. O öz təşəkkürünü Milli Heyətə yetirirdi. Sonra mən ikinci azad olunmuş məhbus ilə söhbət etdim. O Təsuclu Xaliq

Əbütalib oğlu 25 yaşlı bir oğlan idi. O 18 aydır ki, həbsdədir. Təsusda Hacı Məhəmməd oğlu Məşədiqulu bir nəfəri öldürüb və əmniyyə rəisi Mirsəttar Haşimiyə 385 tümən pul verib, azad edilmiş qatili buraxıb, əvəzində Xaliq Əbütalibi həbs edib, ona dağ basıb, şallaq vurmaqla, zor nəticəsində bu yazıq boynuna alıb ki, bəli mən öldürmüşəm. Sonra Təsucun əmniyyə rəisi mir Səttar Haşimi Xaliqi qolu bağlı zindana təhvil vermişdi.

Baş xanəvədə başçısı olan Xaliq ədliyyə müstəndiqi ikinci şöbə rəisi Ağayi Müctəhidi təhqiqat etməyə başladı. Mən dedim ki, məni döyüblər. Dağ basıblar. Mən adam öldürməmişəm. Lakin ağayi Müştəhidi buna baxmayıb, məni ondan betər (pis) günə qoydular. Mənə yumurtanı isti-isti ............. və buyurdu ki, jandarmeridə nə deyibsən gərk elə boynuna alasan. 18 aydır ki, məni həbs etmişlər. Mən biçarə olmuşam. Gözlərim də görmür. Məni aparıb, sement üstündə yatırmışlar. Başıma batum ilə zərbə vurmuşlar.

Ümumiyyətlə azad edilmiş zindanilər zindanın əsəfavər (təəsüfedici) vəziyyətindən söhbət etdikcə insanın o irtica cəlladlarına nifrəti artırdı. Zindanda hər gün iki-üç nəfər tifusdan (xəstəlikdən) ölür. Bit divarlardan yeriyir. Hamam yox, aclıqdan məhbuslar sarılıq gətirmişlər və bir tərəfdən də zindanın cəllad məmurlarının vəhşiyanə hərəkətlə nəfəs və səs çıxaranı şallaq, batum və təpik ilə öldürürlər. Zindanın daxilində məhsus bir səhiyyə otağı düzəltmişlər ki, əgər bir vaxt təftiş gəldikdə oranı mərizxana nişan versinlər. 18 ay müddətində 300 nəfərdən artıq məhbus ölmüşdür.

Azad olmuş məhbusların sırasında: Əbdülrəşid Əli oğlu, Sarı Əzim oğlu, Yadulla Əbdül oğlu, Yusif Şirəli oğlu, Yusifəli Ramazan oğlu və başqaları da var idi. Bu biçarələr sevindiklərindən bilmirdilər nə etsinlər və Azərbaycanın Milli Heyətinə razılıq və təşəkkür edirdilər.

Bundan əlavə Milli Heyət bu az müddətdə bir mühüm elan və elamiyyə intişar vermişdilər ki, onlar tarix nöqteyi-

nəzərindən dəyərli vəsiqələr olduğu üçün burada qeyd edilməlidir.

**Azərbaycanın Milli Heyəti**
**Nömrə 25/01.09.1324**

***Azərbaycan Milli Məclis intixabatı dəsturu.***

**Bismilla-hirrəhman-irrəhim**!

Bütün Azərbaycan xalqının məmsəli (timsalı) və iradəsinin nümayənədəsi olan 30 aban 1324-ci il Təbriz şəhərində Şiri-Xurşid salonunda təşkil olunjmuş böyük müəssislər məclisinin qərarına görə bu gün Azər ayının 2-dən (noyabrın 23-də) başlanıb, həmin ayın 4-nə qədər bütün Azərbaycanda Milli Məclis intixabatının elanlarının təsdiqinə dəstur verilir.

Intixabat elanının intişarından 3 gün sonra bütün Azərbaycanda əxzi-ara (səs vermə) başlanmalı və 12 azərdə (1dekabrda) hər yerdə intixabat xatəmə tapmalıdır.

**Azərbaycan Milli Heyətinin rəisi Əli Şəbüstəri**

**Azərbaycan Milli Məclisinin intixabatı münasibəti ilə Milli Heyətin bəyanatı**.

*Azərbaycan milli müəssislər məclisi axır cələsəsində 39 nəfərdən mürəkkəb bir heyət (Azərbaycan Heyəti Millisi adı ilə) intixab edib, Azərbaycan xalqının əsas arzularının icrasını bu heyətə tapşırdı.*

*Milli Heyət işə başlayan saatdan milli müəssislər məclisinin dəsturatını ciddi və dəqiq bir surətdə icra etmək üçün fəaliyyətə keçib, və sabit qədəmlər götürməyə çalışdı.*

*Milli Heyət məmurdur Azərbaycanın milli muxtariyyətin təmin etmək üçün İranın tamamiyyət və istiqlalını riayət edərək, Azərbaycanda Milli Məclis qurub, və vilayət*

*əncümənələrini təşkil edib, Azərbaycanın külliyə ümüründə (bütün işlərində) nəzarət və bu təşkilatın sayəsində Azərbaycan xalqının şiune-siyasi ictimai, iqtisadi və maarifinin millətin arzusuna mütənasib bir surətdə tərəqqi vermək istəyir, lazımi tədbirlər görsün. Milli Heyət intixabatın müqəddəmatını fərahəm edib, aramiş və əmniyyətin bərqərarlığı üçün lazım olan tədbirləri alıb, öz şədid əlaqəsini əmniyyətin hifzinə ibraz etmişdir. (əmniyyətin qorunmasına şədid əlaqə göstərmişdir).*

*Milli Heyət ümumi səhiyyə vəziyyətini nəzərə alaraq, onun təmimi (ümumiləşdirmək) və maarifin tərəqqisi, ticarətin tosiyəsi və kəndli ilə maliklərin arasında olan ixtilafı həll və işsizlərə iş tapmaq üçün əsaslı bir proqram təhiyyə edib, və ümidvardır Milli Məclis nümayəndələrinin moridi-təvəccühi olub. Onların icrası ilə xalqımızın həyatında müxtəlif ictimai və iqtisadi təbəddülad məşhud olsun. (Dəyişikliklər hiss olsun). Və səadət qapıları bu fədakar millətin üzünə açılsın. Bu xüsusda ixtiyarımız var ki, milli məclis nümayəndələri geniş qədəmlər götürsünlər.*

*Azərbaycanın Milli Heyəti ayrı bir əllər vasitəsilə Azərbaycan millətinə hərcümərc (qarışıqlıq) icad etmək təşəbbüsündə olan nəqşələr ilə mübarizə etməyin lazım olduğunu təzəkkür vermir və daxili mübarizə dava çıxartmaq məqsədilə aparılan mərmuz siyasətlərə işarə etmişdir.*

*Azərbaycanın Milli Heyəti bilir ki, qoşunun islah tələb sərbazları və əskərləri və qeyrətli jandarm və şərəftli pasbanlar heç vaxt azadlıq düşmənlərinin və Azərbaycanın məhəlli muxtariyyəti (İranın tamamiyyət və istiqlal dairəsində təyin olunmalıdır) müxaliflərinə aldanmayıb, özlərini Azərbaycan xalqının səmimi qardaşları bilib və irticai ünsürlərin əllərində alət olmayacaqlar.*

*Azərbaycan Milli Heyəti öz mühüm vəzifəsini icra etmək üçün xalqımızın hər təbəqədən səmimi hüsni niyyət və himayətinə müstəhzərdir (Milli Heyət xalqımızın hər təbəqədən*

*olursa-olsun, onların hüsni-niyyət və himayəsini cəlb etmək üçün öz hazırlığını bəyan edir).*

*Intizarımız var Azərbaycanın qeyrətli və azaditələb (azadixah) xalqı bu müqəddəs məram yolunda yəni Azərbaycanın muxtariyyəti və Iranın tamamiyət və istiqlalını təzmin etməkdə fədakarlıq və mücahidətdən diriğ etməyib (boyun qaçırtmayıb). Milli Məclis nümayənədələrin intixabında çox diqqət edərək, azadixah millət və vətənpərəst əşxas intixab etsinlər.*

***Azərbaycanın Milli Heyəti rəisi Əli Şəbüstər***

**11 Azər 1324-cü il (1 dekabr 1945)**

## Elan

*"Əziz həmvətənlər! Bildiyimiz kimi Azərbaycan xalqı öz ehtiyacatının təmini üçün Azərbaycandan ərzaq, əğziyyə (buğda, yağ və sair xarbar) və məişət ehtiyacları südurinə mümaniət edir (məişət avadanlıqının ixracının qarşısını alır). Milli Heyətə verilən raportlara görə bəzi əşxas hətta malül-ticarə (ticarət malı) və xoşgibar (meyvə qurusu) və sair sadiratın, əcnasın südurunda da mümaneət edib (ixrac olunan malların qarşısını alıb), malül-ticarə sahiblərini zəhmətə salar. Buna görə Azərbaycan Milli Heyəti elan edir ki,*

*Felən (hələlik) Azərbaycanda aşağıda yazılan ərzaqdan savay hər cins və malül-ticarənin göndərilməsi azaddır və heç kəs onların getməsinə mane olmağa haqlı deyildir. Göndərilməsi məmnu (qadağan) olan ərzaq və əcnas felən bunlardır:*

***1.** Ğəllə (buğda, arpa, un), yağ, kərə, pəndir, yumurta, toyuq, ət, qaramal.*

***2.** Azərbaycanın daxilində ərzaq və xarbar və malül-ticarənin həml və nəqli küllən azaddır və həmlində (daşınmasında) mane olanlar təqib olunancaqlar.*

*3. Şəhərlərdə və kəndlərdə xalqın moridi ehtiyacı olan xarbar və əğziyə və əcnası ehtikar edənlər Azərbaycan xalqının qəddar düşməni sayılıb, şədidən təqib və mücazad olunancaqlar. Hər kəs hər ünvan ilə bu dəsturun xilafına iqdam edə, Milli Heyət tərəifndən təqib və şədidən tənbeh və mücazat olunacaqdır."*

***Azərbaycanın Milli Heyətinin***
***rəisi Hacı Mirzə Əli Şəbüstəri***

Bu vəsiqələr arasında Milli Məclis intixabatı barəsində verilən elamiyyə artıq dərəcədə əhəmiyyətlidir. Çünki bu vasitə ilə biz çürümüş İran seçki qanunu pozub, şahın xüsusi haqqı olan intixabat elanını xalq tərəfindən intixab olunmuş Milli Heyət rəisinə mühəvvəl etmişdik (tapşırmışdıq).

Beləliklə biz xalqa müstəbid və mürtəcelər tərəfindən düzəlmiş qanunların pozulması imkanını göstərib, anlatmağa müvəffəq olmuşduq.

Azuqə və yeyinti şeylərinin Azərbaycandan çıxarılmaması baxmayaraq ki, təzə bir məsələ deyildir, bunun nəziri Azərbaycanda və İranın başqa şəhərərində çox ittifaq düşmüşdür (üz vermişdir).

Amma o gün Azərbaycan üçün bu işin həyatı əhəmiyyəti var idi. Sözün doğrusu bu hökuməti ələ götürməyə çalışan bir firqə və cəmiyyət üçün böyük siyasi bir tədbir idi.

Biz əgər möhtəkirlərin qarşısını almasaydıq, onlar çox asan bir surətdə azuqəni aparmaqla daxildə süni aclıq və bahalıq yaradıb, xalqı bizə nisbət bədbin edə bilərdilər.

Biz çox gözəl bilirdik, siyasi məfkurə sahibi olmayan şəhərin törtöküntü və sinifi xasiyyəsini itirmiş xırda burjua qrupu fəqət çörək və yeyinti üzərində hərəkət edərək, sabahı heçdə nəzərə ala bilməyəcəkdir. Onun nəzərini cəlb etmək üçün birinci çörəyi bol və ucuz olaraq onun dəstrəsində (əl altında) qoymaq lazım idi. Ona görə də Milli Heyət təsis olan kimi onun ikinci cələsəsində ərzaq məsələsini müzakirə edib, Miyana, Zəncan və sair şəhərlərdə çalışan azadixahlar və fədai

dəstələrinin başçılarına Azərbaycanda ğəllə, ət, yağ, pendir kimi yeyintilərin çıxmasının qabağını alamağ tapşırdı.

Bu tədbir Milli Hokumət qurulduğu zaman çox xeyrli oldu. Xalq azuqənin ucuzlaşmasını hökumətin layiqli işi hesab etdi. Müxaliflərin intişar verdikləri qorxulu şayiələrə inanmamaq üçün artıq dəlil sübut qalmadı. Mill Heyət milli məclis intixabatının işində da artıq dərəcədə ləyaqət biruzə verdi. Bu seçki barəsində ayrı bölmədə geniş məlumat verildiyi üçün burada o xüsusda heç də uzun-uzadı bəhs etməyə ehtiyac yoxdur. Seçkilərin doğurdan-doğruya demokratik və milli bir tərzdə əncam tapması firqə rəhbərliyindən asılı olsa da Milli Heyətin tam mənasilə firqə rəhbərliyi altında çalışması özü özlüyündə qeyd edilməli bir məsələdir.

Milli Heyət nalayiq adamların əlində olsaydı, onda firqənin arzu etdiyi demokratik seçki əsla mümkün ola bilməzdi.

Bəyatın Tehrana göndərilməsi və onunla aparılan diplomatik danışıq da Heyəti-Milliyə aid olan işlərdəndir.

Milli Heyət milli mübarizə tariximizdə xüsusi surətdə qeyd edilməlidir. Bu heyət təşkilat etibarilə bir hökumət olmasa da vəzifə etibarilə dövləti bir müəssisə sayılmalıdır.

Ola bilərdi ki, biz konqrədən müstəqil surətdə intixab etdiyimiz bu heyətə hökumət adı verib, işləri onların üzvləri arasında təqsim etməklə (bölməklə) vizarət xanalara və idarələrə ayırardıq. Əsas etibarı ilə bu heç də yaxşı olmazdı. Lakin yaddan çıxarılmamalıdır ki, o gün biz hələ Azərbaycanın bütün şəhərlərində dövlət qüvvələrini ləğv edə bilməmişik Təbriz şəhərində sərtib Dirəxşanin fərmandehliyi (komandanlığı) altında saxlanılan dövlət qüvvəsi ilə jandarm həngi (alayı) bizim hökumət naminə fəaliyyətə girişdiyimizi görüb, ələrində olan qüdrətdən bizi boğmaq və firqəmizi tamamilə əzməyə müvəffəq olmasa da işimizin gedişinə maneə törədə bilərdi.

Bilaxirə qorumaq istədiyimiz milli dövlətin tam mənası ilə qanuni və xalqın haqq və ixtiyaratına dayanan bir dövlət

olmasını təyin etmək üçün var qüvvəmizlə demokratik qanunları müraat etməlidik (gözləməli idik). Xalq konqrəsi isə hökumət təşkil edə bilməz, çünki o bu məqsəd üçün toplanmamışdır. Həqiqətən milli demokratik hökumət fəqət xalq tərəfindən müəyyən ixtiyarat ilə intixab olunan məclis tərəfindən təyin olunub onun qarşısında məsul olmalı idi. Milli Heyətə hökumət namı verməkdən xuddarlıq etməyimizin əsas səbəbi əlbətdə bu idi. Hər halda, Milli Heyət dövrü milli hərəkatımızın keçirdiyi tarixi bir dövrdür ki, biz ona tam mənasilə ikihökumətliyin qəti mərhələsi adı verə bilərik.

**Milli Məclisimizin intixabatı**

Tehrana müntəzir olmadan milli konqrəmiz intixab etdiyi 39 nəfərlik Milli Heyətə Azərbaycanın muxtariyyətini kamalincə təmin edən məclis intixabatının başlamasını tapşırmışdı.

Milli Heyət isə konqrə xatəmə tapan kimi öz vəzifəsini firqəmizin rəhbərliyi sayəsində icra etməyə iqdam edərək, intixabat elanın sadir etdi. Bu elan Azər ayının 1-də (22 noyabrda) intişar tapdı. Intixabata başlamaq işi tamam ayın 2-nə təyin edilmişdir. 5 gün qanuni fasilədən sonra rəy verilməli idi. Milli Heyətin elanı münasibətilə vaxtın az olduğunu nəzərə alıb, bütün firqə təşkilatı və sair cəmiyyətlər ayağa qalxıb, fəaliyyətə başlamışdır. Təkcə Təbriz deyil, bütün Azərbaycanın kənd və şəhərlərində xalqın baş bilənləri və nehzət ilə əlaqədar olanları mitinqlər, yığıncaqlar, konfranslar və xüsusi müzakirələr vasitəsilə xalq müəssislər məclisinin danışıqlarını və milli məclisin əhəmiyyətini bildirmək yolunda gecə-gündüz çalışıb fəaliyyət göstərməkdə idilər.

Iş xalq üçün təzə bir iş olmasa da, onun icrası müşkül nəzərə gəlmirdi. Çünki işlərimizin çoxusu keçmiş Milli Şura Məclisi intixabatında iştirak etdikləri üçün seçki üsulunu çox təcrübəli bir surətdə gözləyib, işi daha səri surətdə əncam

verməyə imkan tapdılar. Camaatın göstərdiyi hərarəti, şədid (qızğın) və ibraz etdiyi fəaliyyət fövqüladə olduğu halda, onların arasında nizam-intizam və qayda-qanuna çox ciddi surətdə müraat olunurdu. Intixabat komesiyonları çox dəqiq surətdə intixabatın gedişinə nəzarət edir. Seçkilərdə seçki qanularının tamamilə gözləməsini istəyirdi.

Seçki komesiyon sədarəti özünün əmanət və dəyanəti ilə məruf olan ağayi Qiyamiyə tapşırılmışdı. Qiyaminin və sair heyət üzvlərinin dəqiq nəzəarəti nəticəsində Milli Şura Məclisi intixabatında nəzərə çarpan bütün haqsızlıqlar və xatalar bitərəfanə və biqərəzanə bir surətdə meydandan çıxarılmışdır.

Camaata ümumun bilib və tanıdığı adamlara azad bir surətdə rəy veirlməsini təmin etmək üçün lazımı şərait yaradılmış və lazımı vasitələr təhiyyə edilmişdi.

Iran intixabat nizamnaməsi mocibincə Milli Şura Məclis seçkilərində Təbriz və onun 11 məntəqədən ibarət olan ətrafı 9 nəfərdən ibarət olan bir iddə kandidə rəy verildi. Bu isə əməldə çox qeyri adilanə vəziyyət vücudə gətirirdi. Bəzən ittifaq düşürdü ki, şəhərdə və ayrı mənətəqələrdə məruf olmayan və xalq tərəfindən tanınmayan və böyük bir mülkədar öz məntəqəsindən kəndliləri zorlayıb, aldığı rəy vasitəsilə əksəriyyət qazanır, xalqın tanıyıb, rəy verdiyi adamlar isə məğlub olub, əqəliyyətdə qalmağa məcbur olurdular. Bu kimi qeyriadilanə halları nəzərə alaraq biz Təbriz və onun ətrafını müəyyən müstəqil məntəqələrə bölərək, hər məntəqə üçün xüsusi nəzarət əncüməni intixab etdik. Nəticədə fəqət Təbriz fərmandarlığı onun ətrafına əvvəlki 12 sandıq yerinə 50-dən artıq sandıq göndərildi. Təbrizin özündə isə bir sanduq əvəzinə 8 sandıq qoydurduq. Beləliklə xalqın seçkidə yaxından və müstəqim və mütənasib surətdə iştirakını təmin etdik.

Azərbaycanın ayrı fərmandarlıqlarında Azərbaycan xalqının həssas və doğruluq sevən bir xalq olduğunu yazıb, göstərmişdik. Həmin bu əslin üzərində bizim dövlət işində bu xalqın dəxaləti sadiqanə (düzgün) bir surətdə təmin etdiyimiz

üçün onu bizə yaxınlaşdırıb, ürəkdən əlaqəmən etməyə vadar etdi.

Etiraf etmək lazımdır ki, əvvəl günlərdə xalqın bu təzə işdə iştirak etməsinə çoxda ümüdvar deyildik.

Mən özüm şəxsən iki il qabaq 14-cü məclis intixabatında camaatın məxsusən şəhər camaatının seçkini artıq bir iş hesab etdiyini görmüşdüm. O günlər hətta bazarda elə adamlara təsadüf etmişdim ki, onlar seçkidə iştirak etməyi haram və günah hesab edirdilər. Onlar məclisin qoyduqları qanunları bidət (pis) sayıb qeyrimüstəqim bir surətdə də olsa onda dəxalət etməyi şərə (dinə) zidd bir əməl sayırdılar. Hamı bilirdi ki, həmin o dövrdə mürtəcelərin sərf etdikləri hənqoft (kalan) pullara baxmayaraq şəhərdə məxsusən bazarda rəy verənlərin sayı min nəfərə çatmamışdır. Tamam rəylər bizim təşkil etdiyimiz kargər və zəhmətkeşlərin verdiyi rəylərdən ibarət idi. O zaman kəndli isə zor ilə ərbablara rəy verdiklərinə görə ehtimal verilirdi ki, bizim seçkidə elə də ciddiyət göstərməsin. Lakin bizim intizarımızın xilafına (olaraq) həmin əvvəl gün xalqın bu işə iman və əqidə ilə yanaşdığı bəlli oldu. Fəqət Təbriz şəhərində birinci gün 2166 nəfər, ikinci gün 4939 rəy verildi. Nəhayət xalq həvəslənib 4 günün müddətində fəqət Təbrizdə 23840 nəfər rəy salmaqla özünü bizim şüarlarımıza ciddən tərəfdar olduğunu isbat etdi. Halbuki 14-cü dövr məclis intixabatında bizim gecə-gündüz çalışmağımızın nəticəsində 20 gün müddətində 11 min rəy toplanmışdır.

### Azərbaycan Milli Məclisinin birinci gün intixabatı necə keçdi

Bir həqiqi azərbaycanlı kimi səy etdim müəyyən etmiş vəzifəni ifa etmək üçün saat 8-də mərkəzi intixabat məclisində olum. Öz yanında fikir edirdim ki, əvvəlcə özümə tarifə götürüm, birinci dəfə sandığa salamaqla bu iftixara sahib olan mən olacağam.

Saat 8-də bütün üzvlər hazır olmadığı üçün sandıq möhürlənib, hazır olmadı. Saat 8-15 dəqiqədə 3 nəfər xanımın rəy vermək üçün gəlməsi hamını şad və mütəəssir etdi. Mütəəssir olmağa hamı haqqlı idi. Çünki illər boyu qəhrəmanlar tərbiyə edən xalqımızın böyük hissəsini ictimaiyyətdən məhrum etmək, onları fəqət zahiri azadlığa sövq etmək bir millətə xəyanətdən başqa bir şey deyildi.

Xanımlardan biri qara çarşabla, ikincisi isə çadraya bürünmüş idi. Vətəni və millətini düşünən xalqa fərq etməz hansı libasda olursa-olsun. Üstünün libasın dəyişməsi ilə vətən və millətin məfkurəsi dəyişilməz. Amma məfkurə dəyişildikdə əsr və mühitə uyğun libas da təbii olaraq dəyişilər. Rza xan dövrü buna canlı şahiddir. O, xanımların məcburi surətdə libasın dəyişməsinə iqdam etsə də əks nəticə aldı.

Xanımların gəlməsini yazmaq məni məqsəddən uzaqlaşdırdı. Bəli onların gəlməsi hamını şad elədi.

Kiçik-kiçik nöqsanlara ümum üçün ucuz bir nəqliyat vəsailinin olmamağına baxmayaraq sandıq saat 8-30 rəy salmaq üçün hazır idi. əvvəlinci iftixar zikr etdiyim 3 möhtərəm bacılarımıza verildi. Sandığın yarım saat gec hazır olmağı Tehranın 14-cü dövr intixabatın mənim yadıma saldı ki, nəzarət əncüməninin çoxu saat 9 – 10 gəlib ciddi surətdə rəy sandığlarını nəzarət etmək əvəzinə gecə oynadıqları pokerdən və ya xumarlıqdan söhbət edirdilər.

Saat 8-30-da fərl hozələrə baxmaq üçün ağayi Əbdüləli xan Müstəme tərəfində pulsuz mərkəzi nəzarət əncümənin ixtiyarına qoyulan maşın ilə yola düşdük.

Birinci növbədə Hökmabad axunı əhalisi üçün Istigah xiyabanında təyin olunmuş seçki mərkəzinə gəldik. Burada da bir iddə uşaqlı çarşablı xanımların rəy vermək üçün müntəzir olmaları nəzəri cəlb edirdi. Bir xanım müraciət edib, öz həmşirəsinin (bacısının) hamilə olduğu üçün gəlmədiyi və onun sicillisini (vəsiqəsini) göstərib, tarifə almağa israr etməsi Azərbaycan millətinin gələcəyinin nə qədər parlaq olmasını və

o millətin öz muxtariyyətini qurmağa qəti olduğu daha artıq isbat olunurdu.

Dəvəçi, Çüstduzan əhalisi üçün təyin olunan məhəllərin nöqsanlarına baxmayaraq əhalinin şirkəti məhsus idi. Şamqazan və Qaraməlik kəndçiləri yolun palçıqlı olmağına baxmayaraq rəqbətlə rəy salmağa gəlirdilər.

Bağmeşədə ağayi Kəlantəri, Çərəntabda ağayi Mirrəhim Noi intixabatın əsas zəhmətlərini öz boyunlarına götürmüşdülər. Yolun uzaqlığı və məhəllin şah küçədə olmamağına (mərkəzi küçədə) baxmayaraq rəy salan az deyildi.

Xiyaban və Maralan əhalisi üçün təyin olunmuş mərhum Nayib Qasımxan evlərində get-gəl daha artıq idi. Xiyaban və Maralan əhalisi bununla göstərmək istəyirdilər ki, Səttarxan sərdari-millinin yaxın arxadaşı Baqirxan salari-millinin başladığı işi qurtarmaq istəyirdilər. Onlar bütün Azərbaycan xalqı kimi yəqin ediblər Azərbaycanın nicatı milli məhəlli muxtariyyətdədir.

Azərbaycanın milli muxtariyyəti ilə İran da nicat tapıb, həqiqi demokratik hökuməti qurmağa müvəffəq olacaqdır.

Necə ki, yuxarıda dedik, bu rəylərdən min nəfər hüdudnda pullu kandidlər tərəfindən satın alınmış rəylər idi. Işin həqiqəti budur ki, şəhər camaatı keçmiş initxabatda pul gücü ilə vəkil olanların başına börk qoyub, pullarını alaraq rəy salmamış və ya rəylərini bizim nümayəndələrə vermişdilər.

Bizim milli intixabatımızda sədaqət və azadlıq hiss edən camaat doğrudan-doğruya təkan yeyib, sandıqlar olan məhəlləyə doğru axmağa başlamışdır. Məxsusən intixabatda iştirak etdiklərindən yadigar olmaq üzrə şinasnamələrinin (vəsiqələrinin) möhürlənməsi və tarifələrin ələ gətirilməsinə artıq dərəcə əhəmiyyət verirdilər. Bunları tarixi bir yadigar olaraq saxlamaqla gələcək nəsil üçün mayei-iftixar qazanmaq (fəxr etmək) fikrində idilər. Məxsusən seçkinin axırıncı günü bazar camaatı artıq hüsni-rəğbət nişan verərək, dəstə-dəstə

gəlib rəy saldılar. Əgər rəy salma müddətini iki gündə artırmış olsaydıq, həmin Təbriz şəhərində 50 mindən yuxarı rəy vermiş olardı.

"Azərbaycan" ruznaməsinin bu xüsusda yazdığı məqalələr bizim iddiamızı daha aydın göstərə bilər. Onları burada nəql etmək məncə daha artıq faydalı olar.

**Dünənki intixabatın vəziyyəti**

Dünən azər ayının 10-da şənbə günü Təbriz əhalisində bir ruh, bir conbeş (hərəkət) görünürdü. Hələ indiyə qədər Təbriz şəhərində görünməmiş milli məclisə öz vəkillərini intixab etmək üçün camaat hər təbəqədən tacir, əsnaf, roşənfikir, kargər və sənətkarlardan dəstə-dəstə piyada və avtomobil ilə Milli Heyətin qabağına gəlib, öz rəylərini vermək üçün mərkəzi sandığa doğru gedirdilər. Nüzzar (nəzarətçilər) otağı və həyət camaatla dolmuşdur. Camaat saatlarla növbəyə dayanıb, rəyini verməyə tələş edirdi.

Bu gün Azərbaycan Milli Məclisinə intixab gününün 5-ci yəni axırıncı günü idi. Havanın yağış olmağına baxmayaraq, Təbriz əhalisi möhkəm iradə ilə rəylərini verməyə can atırdılar. Bu təbriz əhalisini öz vətənlərinə və öz azadlıqlarına qarşı olan hüsni-əlaqələridir. Bütün xanım və kişilərin üzü gülürdü. Intixabat nəzarətçilərinin qabağı tamamilə izdiham ilə dolmuş və dəniz dalğası kimi xalq ağzına qədər ləpələnirdi.

Heyəti nüzzar (nəzarət heyəti) özü müəyyən etmiş qanunu pozmamaq üçün xalqın bu böyük iddialarını və rəylərini qəbul etmək üçün dünən saat 8-ə qədər camaatın rəylərini qəbul etmişdir. Təqribən 5 gün müddətində Təbriz əhalisi 23801 nəfərdən ibarət Azərbaycan Milli Məclis vəkillərinə rəy vermişlər. Bu indiyə qədər görünməyən və naziri olmayan bir canlı və həqiqi işlərdəndir. Əgər bu intixabat vaxtını bir neçə gün artırsaydıq, inanız ki, (Təbrizdə) 50 mindən artıq xalqımız rəy verəcəkidi. Lakin Azərbaycan Milli Heyətinin təsmimi 5 gün olduğuna görə fəqət 5 gün amüddətində xalqımız böyük

tarixi bir müvəffəqiyyətə nail oldu. Bununla da xalqımız öz firqəsinə, yəni milli məclisinə və öz milli muxtariyyətinə və azadlığa olan hərarətli eşq və əlaqəsini isbat etdi.

Arvadların intixabatda dəxaləti olduqca ciddi idi. Hətta ömründə küçəyə çadır və namazsız çıxmayan yaşlı arvadlar da rəylərini yandırmaq belə istəmirdilər.

Misal üçün, Təbriz şəhər xanımları barəsində “Azərbaycan” ruznaməsində yazılan xəbəri buraya nəql edirik. Onu da əlavə olaraq qeyd etməliyik ki, seçkilərdə xanımların iştirakı daha artıq olmuşdur. Çünki kəndli arvadlar üçün şəhərdə olan məhzurat (maneələr) təqribən yox kimi idi.

Azərbaycanın birinci milli məclis intixabatında Təbriz mərkəzi və fəri sandıqlara xanımlar tərəfindən verilmiş olan rəylər.

1. Mərəkəzi sandıq 500 rəy
2. Çərəndab vəkilabad 459 rəy.
3. Qaraməlik 14 rəy.
4. Dəvəçi, Sırxab 506 rəy
5. Əmirxizi, Çüstdüzan 754 rəy.
6. Xiyaban, Maralan 262 rəy.
7. Bağmeşə, Vilankur 156 rəy.
8. Hökmabad Axuni 521 rəy.

Ümumiyyətlə Təbriz şəhərində 3172 nəfər xanım rəy vermişdir. ətrafdan alınan xəbərlərə görə Azərbaycanda xanımlardan 50 mindən ziyada rəy verən olmuşdur. Xalqın o günükü ehsasatı və firqə mühütündə vücudə gələn böyük şövq və həvəsdən bir nümunə göstərmək üçün intixabatın xatəmə tapdığı günlərdə “Azərbaycan” ruznaməsində çap etdiyimiz məqaləni buraya köçürürük.

**“Iza caə nəsrulla vəlfəth vərəetən nas**
**yədxulunə fiddiniallah əfvaca.”**
**(Allahın koməyile qalib gəldin. Gör indi camat**
**dəstə-dəstə dinə üz gətirirlər.)**

Firqəmizin təzəzülnatəzir (basılmaz) əzm və iradəsi sayəsində el tərpəndi. Xalqın hər bir işə tərdid və sui-zənn ilə baxan təbəqəsi yəni bazar və idarə işçiləri də milli məclisdə şirkət üçün nizamnamə mocibincə və Milli Heyətin rəsmi elanı ilə təyin olunan müddətin axır günlərində intixabat sandıqlarına hücum edib, rəylərini verməyə başladı. əgər bu müddəti iki gün təmdid etmək mümkün olsaydı Təbriz şəhərində 100 mindən ziyadə rəy veriləcək idi.

Zarafat deyil fəqt şənbə günü xalq 8 minə yaxın rəy salmışdı. Bu Iranın məşrutə tarixində görülməmiş iş idi. Şənbə günü sandıqların qabağına toplananları gördükdə islamın fəth və zəfər günləri xatirə gəlir. (Iza caə nəsrullah ayei şərifənin həqiqi mənası nəzərdə mücəssəm olurdu). Xalq qələbəmizə inandığı üçün axın-axın, dəstə-dəstə gəlib, rəy salır və aldığı tarifəni birinci məclisimizdən yadigar olmaq üzrə böyük xoşhallıqla müraciət edirdi.

Bu müvəffəqiyyətə iki böyük səbəb göstərə bilərik. əvvəla firqə üzvlərində vücudə gələn iman və onun nəticəsində ibraz edilən qəhrəmanlıq, ikinci xalqın içərisində tolid olunan etimad və inamdan ibarətdir. Bu iş hənuz təşkil tapıb, gündən-günə möhkəmlənməkdə olan cavan firqə təşkili üçün böyük imtahan idi. Firqə bu imtahadan fəxr ilə çıxmağa müvəffəq oldu.

Tehran da böyük işimizi uzaqdan tamaşa edib, müxalif ruznamələrin hay-küy salması ilə mütəəssir olan azadixah dostlarımız hərdən bizə kömək etmək fikrinə düşüb, bu yəqin ayrı azadixahı təşviq edib, Təbrizə yola salır və elə fikir edirlər ki, onların rəhbərliyinə firqəmizin ehtiyacı vardır. Bu niyyətlə şəhərimizə varid olan azadixahlar işimizi yaxından gördükdə özlərinin zəəflərinə etiraf edib. Bu 3 ay içərisində firqənin mübarizə və atəş içində yaradıb, tərbiyə etdiyi fəal qüvvəni (kadr) alqışlamaq, onlardan iş öyrənməyə özlərini möhtac görürdülər.

Firqəmizin vücudə gətirdiyi fəal qüvvə (kadr) seçki işində öz qüdrət və istedadını büruzə verdi. Dünən mərkəzi sandıq məhəllində yaşlı bir demokratın 48 saat tamam öz postunda davam etdiyi aşkara çıxdı. Bu adam postunu təhvil verdikdə gülümsünüb, "Öz vəzifəmi əncam verdiyim üçün xoşbəxtəm"- deyib, istirahət üçün evinə qayıtdı.

Bizdə indi hamı çalışır, hamı fəaliyyət göstərir, hamı özünün ləyaqət və qeyrətini büruzə verməyə çalışır. Qoca-cavan, oğlan-qız, yaşlı xanım, beli bükülmüş, qocalmış köhnə mücahid, bilaxirə hər kəs öz varlığı ilə ümumxalq işini axıra yetirmək istəyir.

Firqəmizin içində əzim bir qüdrət, insanı heyrətə salan bir intizam vücudə gəlmişdi. Üzvlər artıq tərtib və tənəzzülə imkan verməyib, firqə rəhbərliyini canu-dili ilə mənimsəyib, sima və əqidə üzrə mərkəzi komitəmizin təsmimlərini icra edir. Islamiyyətin əvvəl günlərində görünmüş təəsüb ilə vəzifələrini əncam verir, firqədən fəqət sadə bir təbəssüm aldıqlarını icra edirlər.

Indi bizdə ölümə getmək əmri almağa israr edən cavanlar tapılmağa başlamışdır. Həqiqi fədailər ictimai həyatımızın hər bir qismətində öz ləyaqət və fədakarlıqlarını isbat edirlər.

Firqə artıq böyüyür. Mühkəmləşir. Bütün xalqı öz rəhbərliyi altına almağa imkan tapır. Bu qüdrəti, bu ləyaqət və istedadı görən məğrur başlar da əyilib. Xalq əzm və iradəsinə təslim olur. Millət yolunda ölməyə hazır olan fədailərin əllərini sıxır, gecə-gündüz firqə üçün çalışan və onun hədəf və məqsədini əldə etməyə hazırlaşırlar.

Işimiz xalq işi olduğu üçün xalqın göstərdiyi hünsü-təvəccüh bizim üçün böyük fəth və müvəzəriyyət (qələbə) hesab olunmalıdır. Ahənin (dəmir) qalalar yıxılmaz. Səngərlərin hamısından möhkəm xalqın ürəyidir. Ürəkləri fəth edən firqənin müqabilində heç bir qala müqavimət edə bilməz. Firqəmiz xalqın ürəyini fəth etmişdir.

Bunu milli məclis intixabatı isbat etdi. Onu yəni o cəlb edirmiş ürəyi saxlamaq, onun istədiklərini vermək zamanı gəlib çatmışdır.

Bu cəhətdən bu firqəmizin yolu müşkül və vəzifəsi ağırdır. Eşgi qazanmaq asan, onu saxlamaq müşküldür. Biz indi xalqın eşgini qazanmışıq, onu saxlamaq üçün daha böyük zəhmətləri təhəmmül etməliyik.

Bu ehsasat və bu ümüdlər xalqın, firqə və milli hərəkatımızın nisbət büruzə verdiyi hüsni-rəğbətdən tolid olduğu bəllidir. Bu hüsni-rəğbət əsərində idi ki, o gün doğurdan –doğruya xalq ayağa qalxıb, firqənin şüarlarını ciddi surətdə icra etməyə çalışırdı.

Xalqın bitməz, tükənməz ehsasatını müşahidə etdikdən sonra idi ki, o günə dək müxtariyyət adını belə çəkmək istəməyən Bəyat (Azərbaycanın keçmiş valisi) İran şura məclisində Azərbaycanda həqiqətən böyük bir nehzət başlandığını açıb, söyləməyə məcbur olmuş, Tehranın riyakar mətbuatı isə istər-istəməz ona etiraf etməyə məcbur qalmışdır.

Iş belə idi. Ayrı cürə də ola bilməzdi. Xalq firqəmizdən əməli fəaliyyət və səmimiyyət gördükdə, onu açıq ağuş ilə istiqbal etməyə bilməzdi. Çünki biz quru söz ilə deyil, işdə onun qeydinə qaldığımız və büruzə verdiyimiz fədakarlıqlar ilə onun səadətinin təmininə çalışdığımızı isbat etməyə müvəffəq olmuşduq.

Adı mövqedə Iran şəraitində aylarla uzanan nəhayət qeyri qanunni bir surətdə əncam tapan seçki işini xalq etimad və inamı üzərində idi ki, biz 10 gündə yüzdə-yüz demokratik tərzdə əncam verməyə müvəffəq olduq.

Elani-etiraz (etiraz etmək) üçün müəyyən edilən günləri çıxdıqda ümumiyyətlə rəy vermək işi bütün Azərbaycanda 4 gündə xatəmə tapmışdı. Məclisin açılmasının təxiri fəqət qanuni mərahimi gözləməkdən ötrü idi. Xalqın etirazını eşidib, ona rəsidəlik etmək (yetişmək) üçün biz məxsusən bir həftə

vaxt qoymuşduq. Xoşbəxtanə nümayəndələrin heç birinə etiraz edən də olmamışdır.

Işin bu əndazadə inkişafı firqəmiz üçün böyük bir azimayış və ciddi bir imtahan idi. Deyə bilərik ki, bu imtahandan iftixarla baş uca çıxmağa nail ola bilmişdik. Bu mənim indi dediyim söz deyil. O gün hələ xalqın xatirələri təzəikən bu xüsusda yazdığım aşağıdakı məqalə buna canlı bir şahiddir.

**Milli Məclisin təşkili münasibətilə**

Intixabat müvəffəqiyyətlə xatəmə tapıb, Milli Məclis nümayəndələri bir-birinin ardınca məclisdə toplanmaqdadırlar. Bu böyük iş firqəmiz üçün böyük bir azmayiş idi. Firqə intixanat təbliğatını çox böyük müvəffəqiyyətlə axıra çatdırdı. Əslən intixabatın özü xalqı cəlb etmək, camaata firqə və Milli Heyətin məqsəd və məramını andırmaq üçün geniş təbliğat vasitəsi oldu. Doğrudur millətimiz çox uzun müddətdən bəri öz milliyyətini hiss edib, aşkar və qeyri-aşkar, əmdi (biləәkdən) və qeyri-əmdi (bilməyəkdən) olmaq üzrə zaman və məkana görə özünün azadlıq və muxtariyyəti yolunda mübarizə aparmışdır. Vəli bunların hamısı bu üç ay müddətində aparılan mübarizəyə qətən bərabər tutula bilməz. Indi azərbaycanlı səri bir surətdə aparılan seçkilər və onlarda bəhs edilən məsələlər vasitəsilə həqiqi bir xalq və tam mənası ilə mədəni və həssas bir millət məqamına yetişmişdir.

Min illərlə tarixə malik olan Iran dövlətinin arxasında bu gün 10 min nəfər tapmaq olmaz. Cavan dövlətimiz isə başını ucaldıb, iftixar ilə deyə bilər ki, bu gün onun arxasında milyonlarla kişi və qadınlar qan töküb, ölüb və öldürməyə iftixar ilə hazırdırlar.

Bu iş millətin qəlbindən çıxmışsa da firqəmizin onu təşkil etməkdə böyük xidməti olmuşdur.

Xalqımızın böyük, haqşünas və saf ürəkli xalq olduğu üçün əmələn özünün mərdliyini göstərməyə firqənin şüarlarını

istiqbal etmək, onun göstərdiyi namizədələrə rəy vermək və onun istədiyi tədbirləri canu-dil ilə icra etmək yolunda böyük qədəmlər götürdü.

Bütün Azərbaycanda firqənin göstərdiyi kandidlərin olmasını xalq firqəyə olan etimadını və inamını sübut etməkdədir. Artıq xalq şəxsiyyət deyil. Firqəyə inanır və onun adına onun markasına və nişanına rəy verir. Bu isə yeni və cavan bir firqə üçün böyük müvəffəqiyyətdir. Çox yerdə kənldilər çox sadə bir surətdə "biz demokrat firqəsi göstərən kandidlərdən başqa kimsəyə rəy verə bilmərik. Firqə kandidləri imtahandan çıxmış adamlar olmaqla bərabər, firqə arşısında məsul olduqları üçün bizə xəyanət edə bilməzlər". Deyib öz rəylərini sandıqlara tökmüşlər.

Kəndlinin məntiqi tamamilə doğru və düşünülmüş bir məntiqdir. Millətə rəhbərlik etmək iddiasında olan bir firqə belə də olmalıdır.

Tək kəndli deyildir. Şəhərdən və bitərəf camaat məxsusən kəsəbə və tücarda sadə bir surətdə kənldilərin məntiqi üzrə rəftar edib, firqənin göstərdiyi kandidlərə rəy vermişlər. Bu vaxta qədər Iranda bu görülməmiş bir iş olduğu üçün biz millətin gələcəyi üçün bunu falinik (yaxşıya doğru) hesab edirik. Millət nə qədər münəzzəm hərəkət edərsə, nə qədər öz firqəsinə və başçılarına artıq inana bilərsə yüz o qədər tez bir surətdə öz azularına yetişməyə müvəffəq ola bilər.

Milli Məclisimiz təzə bir müəssisə olduğu üçün onda cürbəcür nöqsanlar ola bilər. Bunu biz heç vaxt unuda bilmərik. Lakin bu məclis ümumxalqa dayanıb, təzə bir dövlət yaratmaq və milli muxtariyyətimizin binasını qoyduğu üçün ağır və mühüm vəzifə daşıdığına görə olduqca calibi-təvəccüh (diqqətə layiq), olduqca böyük bir məclisdir. Orada danışılan sözlər və çıxarılan qərarların xalqa yetirilməsində artıq dərəcədə əhəmiyyət vermək lazım gəlir. Gərək roşənfikir və ziyalı cavanlarımız məxsusən yazı və mətbuat ilə məşğul olanlar bu yolda böyük fədakarlıq göstərsinlər.

Biz gərək özümüzü millətimizə və bütün dünya millətlərinə tanıtdırıb, ölkəmizi idarə etməyə layiq olduğumuzu isbat edək. Bunu da milli məclisimizdən gözləyirik.

Bu məqalə ilə intixabat məsələsini qurtarmaq lazımdır. Bu işi daha yaxşı öyrənmək üçün "Azərbaycan" ruznaməsinin azər (ay) şumarələrini diqqətlə mütaliə etməyi tosiyə edirik.

## Fədai dəstələrinin təşkili

Hər kəs nə deyir desin mükərrər surətdə gördüyüm acı təcrübələr mənə sabit etmişdir ki, sülh, səfa və təbliğat yolu ilə bir millət və ya bir cəmiyyət öz istədiyini ələ ala bilməz. Hakim təbəqə və ya hakim millət işi başlanğıcda dözsə də ciddi və qəti mərhələyə gəldikdə ixtiyarında olan bütün qüvvə və bütün vasitələrini işə salıb, azadlıq üçün qiyam edən təbəqə və ya milləti əzib ortadan çıxarar. Bu ictimai mübarizə və azadlıq məktəbinin sadə əlifbasıdır.

Iran xalqı məşrutə nehzətindən sonra bu həqiqəti mükərrər surrətdə imtahan etmişsə də axır imtahan Hizbi-Tudə idi və ondan aldığı təcrübə daha acı və daha ibrətavər idi. Halbuki, bu firqə işə girişəndə vəziyyət milli demokratik bir hərəkat yaradıb, ona rəhbərlik etmək üçün fövqüladə münasib idi. 20 il zülm və istibdad pəncəsi altında əzilən xalq da bu təşkilatdan çox yaxşı istiqbal etmişdilər. Bir iddə fədakar və imanlı cavanların fəaliyyəti sayəsində təbliğat və təşkilat sahəsində çox qüdrətli bir firqə halına da gəlib çıxa bilmişdi. Nə etməli ki, onun rəhbərləri sözdən əmələ keçmək və mübarizəni qəti tədbirlər ilə nəticələndirmək yoluna daxil ola bilmədiklərindən heç bir təşkilat və heçqunə təbliğat vəsailinə malik olmayan bir dəstə quldur, bədsabiqə, kəsif və xain adamlardan təşkil tapan dövlət başçıları bu əzim (böyük) təşkilata xalqın nəfinə olaraq islahat üçün bir qədəm belə götürməyə imkan vermirdilər. Bu və bu kimi göz qabağında olan həqiqətlər Azərbaycan

Demokrat Firqəsini təşkil edərkən bizi dərin düşündürüb, ciddi yol arayıb, həqiqi qüdrət kəsb etməyə vadar etdi. Biz çox gözəl bilirdik milli muxtariyət şüarı ilə meydana çıxmaq elə də sadə və asan iş deyildir. Anlayırdıq xalq bu işdə bizə yaru-yavər olsa belə onun əlindən bir iş gəlməz. Çünki, O özünü müdafiə edib, haqqını almaq üçün onun əlində silahı yoxdur. Ona görə firqənin təşkili günündən silah tapmaq, fədai təşkilatı yaratmaq məsələsi bizim fəaliyyətimizin ən əsaslı məsələlərindən olmuşdur.

Doğrudur biz bu məsələni mərkəzi komitədə rəsmən müdafiə etməmişdik. Lakin firqənin təşkilində pişqədəm olub, yüzdə-yüz ehtimal etdiyimiz firqə üzvləri isə düşünüb-daşınıb, götür-qoy etdiyimiz zaman bu fikir ilə onların şərik olduqlarını yəqin etmişdik. Həqiqətən təbii olaraq hər bir ciddi firqə üzvü istədiklərimizin həll edə bilməyəcəyini izhar edir və bu işi görmək üçün hər cür fədakarlığa hazır olduğunu daha isbat edirdi.

Fiqənin elamiyyəsinin intişarından daha əvvəl mən şəxsən bəzi firqə üzvlərini evimə dəvət etdim. Bu xüsusda onların rəylərini soruşub, nə vasitə ilə silah tapmaq və nə yol ilə silahlı fədai dəstələri təşkil etmək barəsində məsləhət etmişdim.

***Azərbadiqan, Biriya, Qulamyəhya, Badiqan, Çavuşi, Kaviyan, Vilayi və sair inanılmış azadixahların hələ tudə təşkilatında olduqlarına baxmayaraq, bu xüsusda mənimlə həmfikir olduqlarını söyləyir, hər biri müəyyən miqdarda fədai hazırlaya biləcəklərinə söz verirdilər.*** Məsələn Biriya söz verdi ki, mən ittihadiyə üzvlərindən 10 min, Badiqan Hizbi-Tudə təşkilatından 20 min və sairləri hər biri mənsub olduğu məhəldən böyük miqdarda qüvvə toplaya biləcəklərinə məni inandırdılar. Fədai barəsində deyə bilərəm ki, heç də nigarançılığımız yox idi. Həqiqətdə çətinlik silah üstündə idi. Biz kəndlilərdə silah olduğunu bilirdik. Vəli onun miqdarını və mövqeyində bizim əlimizə keçə bilməsi bizi artıq dərəcədə düşündürməkdə idi. Bəzi azadixah yoldaşlarımız da əvvələn

kiçik kəməri əsləhə (tapanca) ilə 10 minə yaxın cani, jandarm və polis qüvvələrini əzmək böyük çətinlik idi. Biz gözəl bilirdik iş başlanılarsa silah ələ keçirmək müşkül olmaz. Lakin iş başlanana qədər dayanmaq və işin başlanması zamanı xalqı boş əl ilə silah qarşısına göndərmək olmazdı. Ona görə mən inandığım yoldaşların hər biri ilə təklikdə danışıb, silahlı adamları cəlb etmək və yerlərdə xalq əlində olan silahların siyahısını tutmaq barəsində möhkəm tapşırıq verdim. Beləliklə fədai dəstələrinin təşkili uğrunda firqə təşkilindən daha ciddi qədəmlər götürməyə müvəffəq olduq. Biz bilirdik iş daha davasız getməyəcəkdir. Bununla belə çalışırdıq hələ o yerə gəlib, çıxsa da bizim özümüz silah işlətmədə pişqədəm olmayaq. Bizi gizli fədai dəstələrini təşkil etməyə vadar edən əlbətdə Tehran hökumətinin irticai ruhiyyəsinə bələd olduğumuz idi. Bunu heç də inkar etmirik. Şəhrivər günlərində mən xüsusi yığıncaqlarda inanılmış yoldaşlara bir gün silahdan istifadə etməyə məcbur olacağımızı dəfələrlə söyləmişdim. Firqə fəalları isə bu fikirdə tamamilə şərik idilər. Mən onların fikrini və ehsasatını yaxşı düşündüyüm üçün hər vaxt aralarında müxtəsər yumşaqlıq və ya məyusluq hiss etdikdə sözümü bu məsələnin üstünə çəkirdim. Beləliklə yeni ruhla ruhlanıb, təşkilat və təbliğat üçün verdiyim tapşırıqları daha ciddiyətlə və daha artıq səmimiyyətlə icra edirdilər.

Gizlədə bilmərəm hamı azadixahların hətta hozə üzvlərinin Hizbi-Tudə üzvlərinində ümid və arzuları bu hədəfə doğru dönməkdən ibarət idi. Hamının fikrində silah məsələsini fəqət silah həll edə bilərdi. Hər bir firqə üzvü belə düşünürdü. Bu arzu və bu müqəddəs hədəfə çatmaq üçün idi ki, biz rəsmi firqə təşkilatı ilə yanaşı çox gizli olaraq möhkəm bir hərbi təşkilat yaratmaq üçün düşündük. Bu işin idarəsini əməl追 mən öz öhdəmə götürdüm. Əlbətdə başqa yoldaşlarımızın fikrindən və əllərində olan vəsaildən də lazımı istifadə olunurdu. Lakin cuziyyatdan hər kəsin fəqət öz məntəqəsində xəbəri ola bilərdi.

Hərbi iş firqə işinə heç də bənzəyən bir iş deyildir. Burada firqə işində seçki, çıxış, danışmaq və yazıçılıq tələb olunurdu. Amma bu işi də hərbi tapşırdığımız adamlardan etimad, curət və fədakarlıq istənilirdi. Bir də nüfuz və qüdrət lazım idi. Firqə işində inanılmış və məlumatlı bir adamı bu yerdən başqa yerə göndərmək mümkün olduğu halda, fədai işlərini icra etmək üçün məhəlli adamlar tapılmalı idi. Ya əqəllən (ən azı) bu adamların uzun müddət o məhəldə işləyib, nüfuz və etibar qazanmış olmalıdılar.

Bu özü-özlüyündə çox çətin və xətərnak bir iş idi. Əgər dəstə başçılarından birisi xain çıxsaydı və ya tələsik özünü aşkara çıxarsaydı. Gördüyümz işlərin hamısı nəticəsiz qalardı. Bəlkə də mürtəce hökumətin əlinə bəhanə verdiyimizə görə bütün təşkilatımız tarumar olub (dağılıb), ortadan gedə bilərdi.

Ona görə hərbi işə məmur olan yoldaşların şəxsiyyətinə çox artıq dərəcə diqqət yetirirdik. Hətta çoxlarını 21 Azərə bir neçə gün qalana dək bu movzudan birxəbər saxlamışdıq. Fəqət özümüz bəlkə deyə bilərəm bir mən özüm bilirdim ki, vaxtında olan adamlardan bu iş üçün istifadə ediləcəkdir.

21 Azərdən neçə ay qabaq bu iş ilə məşğul olanların cümləsindən Qulamyəhya, Kəbiri, Məhəmmədivənd, Mirkazım, Nurulla Yekani, Qulu Sübhi. Aram Zadəgan və Cavidanı göstərə bilərəm. Hətta Aramla Qulu Sübhi də Kəbirinin Cavidanla və başqa sarab fədai başçıları Qulamyəhyanın başçılığı ilə işə cəlb edirmişdilər.

Qulamyəhya, Kəbiri, Məhəmmədivənd, Aram və Zadəgan həm silah təhiyyə etməli və həm də adam hazırlamalıdılar. Halbuki, başqalarına onların vasitəsilə təhiyyə edilən silahlar paylanmışdır. Silahları toplamaq üçün çoxda çətinlik çəkmədik. Çünki müharibə başlanıb, Qızıl Ordu Azərbaycana varid olduqda yerlərdə jandarm və qoşun hissələri öz silahlarını atıb qaçmış, nəticədə o silahların çoxu kəndli və şəhər camaatının əlinə keçmişdir. Bizim hərbi işlə məşğul olan

işçilərimizin vəzifəsi bu silahları adamların özlərini cəlb etmək ya bir yol ilə onların silahların ələ keçirtməkdən ibarət idi.

Yuxarıda adlarını yazdığımız işçilərin məhəlldə olan nüfuz və etibarından istifadə edərək, bu məsələni çox müvəffəqiyyətlə əncam verə bilmişdik.

Adlarını yazdığımız dəstə başçılarından əlavə ikinci dərəcəli fədai başçılarının hər biri öz qüvvəsinə görə bir neçə tüfənk ələ gətirə bilmişdi.

Fədai hərəkatı barəsində ətrafdan gələn xəbərlər məxsusən böyük xalq konqrəsi zamanı fövqulədə ümidbəxş idi. Fədai başçılarının verdikləri xəbərlər hər gün Azərbaycanın hər tərəfindən hərəkatın hər an ciddiləşdirməyi bildirilirdi. Marağa ilə Miyana fədai qüvvəsi gözlənilədən daha əvvəl özzünü hazırlamağa müvəffəq olduğu kimi Ərdəbil ilə Sarbda da iş intixabatdan daha artıq irəli getmişdir. Böyük bir yanğın kimi hərəkatın dairəsi get-gedə genişlənərək, böyük məntəqələrdən kiçik kəndlərə nüfuz etməklə evində silah olan hər bir kəndli silahını götürüb, firqə sıralarına və fədai başçılarına qoşulmağa çalışırdı. Hətta çox yerdə ov tüfəngi, bel, külung ilə mübarizə meydana atılmaqla daha nəzərə çarpmaqda idi.

Bunlardan həmin şəhrivər ayında yeni silahlı qüvvələrimizə yeni bir qüvvə də əlavə olmuşdur. O da Xorasan və Türkməsəhrada dövlət əleyhinə qiyam edən Arteş ofiserlərindən (İran ordusu ofiserləri) ibarət idi. Onlar orada şikəst yedikdən (məğlub olduqdan) sonra Azərbaycana gəlib, bizə mülhəq olmaqla çox faydalı və əhəmiyyətli bir iş görməyə müvəffəq olmuşdular. Biz bu əfsərləri müəttəl etməyərək, (yubandırmayaraq) çox səri bir surətdə fədai başçılarının yanına göndərib, onların hərbi məlumatından istifadə etmişdik. Təbiidir ki, əgər silahımız fəqət tək-tək şəxslərdən topladığımız müxtəsər bu tüfənglərdən ibarət olsaydı, işi qabağa aparmaq mümkün olmayacaqdır. Iş qabağa aparmaq mümkün olmayacaq idi. Burada iki mənbə bizim artıq dərəcədə dərdimizə

dəydi. Onların biri maliklərin ixtiyarında olan silahlar, ikincisi məhəllərdə saxlanılan jandarmların silahları idi.

Hələ qoşun qüvvəsi ilə üz-üzə olmadan əvvəl kəndlilər tədric ilə bu silahları əllərinə keçirtməyə müvəffəq olmuşdular.

Əlbətdə silah məsələsi firqə işçilərinin fikrini işğal edən ən mühüm məsələlərdən birisi idi. Lakin ondan daha əhəmiyyətli silahdan istifadə edən fədakar azadixahların münəzzəm təşkilat altına alınıb, mübarizəyə hazırlanmaları idi. Maliklər ilə jandarmlar yuxarıda yazıb, göstərdiyimiz cinayətləri ilə bu sahədə bizim üçün daha müsaib (əlverişli) zəminə hazırlayırdılar. Onların cinayətkar əllərilə dağılıb, bərbad edilən evlərdən qopan ah-nalələr bizim təbliğatımızdan daha qüvvətli olduğu bizə yaxşı fədakar və inamlı fədailər yetişdirdilər.

Yuxarıda yazmışdıq ki, Mərkəzi Komitə ümumi iclası aban ayının 30-na dək təşkil olub, şüarlarımızın sözdən işə keçirtmək qərarını qəbul edən günə dək biz kəndlini səbr və təhəmmülə və öz məzlumiyyətini isbat etməyə dəvət edirdik. O gündən sonra isə firqə müəyyən qərar üzrə hərəkət etdiyindən kəndliyə öz hüququnu almaq üçün öz gücündən istifadə etməli olduğunu bildirməyə başladı və ona: "Get zülmkarların şərini öz başından rəf et, çünki indiki hökumət və onun məhkəmələri sənin hüququnu ayaqlar altında tarumar etməkdən başqa bir şey görməyəcəksən. Ondan ümid gözləmə", - dedik. O gündən sonra "Azərbaycan" ruznaməsinin səhifələri kəndlərdə jandarm tərəfindən qurulan cinayət və faciələrin səhnələrinin qurbanlıqları dolmağa başladı.

Namus və heysiyyət (qeyrət) tapdalanıb, fəci bir surətdə öldürülən arvad, uşaq, qoca və cavan kəndlilərin vəziyyətini göstərən məqalələr və əkslər Azərbaycan xalqını çox dərindən düşündürüb və şüurlu bir surətdə ayağa qalxmağa dəvət edirdi.

"Azərbaycan" və "Xavərnov" (yeni şərt) ruznamələrinin De ayının 21-dən (1323) başlayıb, 21 Azərə (1324) qədər nəşr olunan nömrələrini bir daha nəzərdən keçirtdikdə cinayətkarların kəndliyə etdikləri vəhşiyanə rəftarları göz

önündə mücəssəm olaraq, onun fədai dəstələrinə qoşulmağa göstərdiyi rəğbət və eştiyaq (əlaqə) səbəbləri aşkara çıxar.

Məxsusən "Azərbaycan" ruznaməsində dərc edilən Azərbaycan Demokrat Fiqsəninin xarici dövlətlər nümayəndəsinə yazdığı məktublar və ondan əlavə həmin ruznamə 56 və 59-cu nömrəsində jandarm cinayətlərinin canlı şahidi olan zəcrdidələrin (zülmgörmüşlərin) və ölənlərin əksləri kənldilərin Azərbaycan Demokrat Firqəsi şüraını qəbul edərək, jandarmların silahlarını alıb, onları kəndlərdən qovub, çıxarmaqda olduqlarını isbat etməkdədir.

Biz dil məsələsi, Azəbaycanın bir xalq olaraq insanlıq və xalqların sadə, mədəni, haqq və ixtiyarata malik olması, irticai dövlət quruluşunun ifşası, qanuni-əsası və Azərbaycan xalqının maarif, səhiyyə və sair ehtiyatları haqqında vaxtilə ciddi təbliğat aparıb, firqə təşkilatı və onun bütün kənd və şəhərlərdə kök salması yolunda xariqüladə (fövqüladə) bir surətdə fəaliyyət göstərmişdik. Lakin mənim əqidəmcə kəndlinin etimadını cəlb edib, onu mübarizə meydanına çəkib, onun fədakar cavanlarından təşkil etdiyimiz fədakar qüvvələrinin nehzətimizin genişlənməsi uğrunda əhəmiyyəti daha aydın idi. Bu işdə deyə bilərəm cinayətkarların bizə az köməyi olmamışdır.

Dediyim kimi biz firqə təşkil olan gündən şüurlu və düşüncəli bir surətdə istədiklərimizi təmin etmək üçün möhkəm bir hərbi təşkilat yaratmaq yolunda çalışırdıq. Lakin təşkilatın əməli surətdə başlanması aban ayının əvvəlindən hesab olunmalıdır.

Demək olar ki, Mərkəzi Komitənin ümumi tarixi iclası qərar çıxartdıqda (20 aban) fədai təşkilatı 20 gün olardı ki, ümum mərkəzlərdə özünü göstərməyə başlamışdır. Hətta Kəbiri, Kəlantəri, Qulamyəhya, Usanlu, Cahanşahlu və başqalrı Təbrizə gizli surətdə varid olub, ümumi iclasda şirkət edirdilər. Kəbiri ümumi iclasda çıxış edərkən, onun təşkil etdiyi fədai dəstələri Marağa və Şişəvən, Miyandab və sair məntəqələrdə

jandarm saxlularını müvəffəqiyyətlə xəli-silah (tərki-silah) etməkdə idilər. Miyana, Sarab, Ərdəbil və sair yerlərdən gələn xəbərlər isə daha ciddi və şədid idi.

Buna baxmayaraq düşmənlərin bəhanəsini kəsmək üçün ümumi iclas bu işə çox üstüörtülü bir surətdə icazə verə bilmişdi. Iclas günlərində hələ dövlətin nizami təşkilatı qüvvəli idi. Fəqət Təbriz şəhərində jandarm, şəhrəbani və qoşun dəstələrində 2500 dək silahlı qüvvə var idi.

Tək Sərtib Dirəxşanin ixtiyarında 4 tank, 50-dən ziyadə müsəlsəl (avtomat) və neçə dəstgah top var idi. Halbuki, bizim silahımız ancaq tüfəng və jandarmlardan aldığımız yüngül müsəlsəllərdən ibarət idi.

Dövlətin Urmiyədə, Ərdəbildə və Saindejdə olan saxluları da özlərinə görə müasir silahlarla silahlanıb, fədailərin təərüzü (hücumu) qarşısında özlərini müdafiə edir və yeri gəldikdə hücuma hazırlaşırdılar.

Marağa şəhərində kiçik olsa da mühüm nizami qüvvə saxlanılmışdır. Urmiyyədə, Nizami çaxlusu kürdlərin qabağını almaq bəhanəsilə daha ciddi surətdə möhkəmləndirilib, Təbrizdən tamamilə ayrılaraq müstəqimən mərkəzi ərkani-hərbin (mərkəzi hərbi ordu) göstərişi ilə hərəkət edirdi. Urmiyyənin sabiq (əvvəlki) 4-cü ustan namilə adlandırılması münasibətilə orada Təbrizdə olan qədər, bəlkə də ondan daha artıq qüvvə saxlanılmasının sabiqəsi (ənənəsi) var idi. Bu saxlunun fərmandehi sərhəng Zəngənə daha ciddi surətdə bizim əleyhimizə hazırlıq aparırdı. Urmiyyə saxlusu kürdlərlə tamasda olduğuna görə hərbi cəhətdən daha təcrübəli olduğu kimi onun əsgərləri ruhiyyə cəhətdən Təbriz əsgərlərinə nisbət daha qüvvətli hesab olunurdu.

Ərdəbil və Saindej saxluları da özlərinə görə təcrübəli qüvvələrdən hesab olunrdular. Ümumiyyətlə Azərbaycanda saxlanılan hərbi və jandarm qüvvələri iranın ayrı məntəqələrində saxlanılan qüvvələrin hamısından yaxşı və hər cəhətdən yüksək sayılırdı. Çünki bu qüvvələr yerli əhali

məxsusən kəndlilərdən toplandığı üçün curət və sağlamlıq cəhətdən Iranın başqa yerlərindən toplanan sərbazlardan hərtərəfli üstün idilər.

Fədai dəstələri hərəkətə gəldiyi günlərdə Tehran və Təbrizdə olan hərbi və jandarm başçıları öz güclərinə güvənib, bizim milli hərəkatımızı silah gücü ilə basdırmalarına inanırdılar. Ona görə polis, jandarm və hərbi qüvvələr yeri gəldikdə özlərinin vəhşiyanə hərəktələrini daha şədid surətdə təkrar edərək, kəndliləri qorxudub, bizim ətrafımızdan qaçırmaq istəyirdilər. Kəndli isə öz axır sözünü deyib, bizə mülhəq olmuşdur.

Fədai cərəyanı bizim gözlədiyimzdən daha sürətli olaraq irəli gedirdi. Biz fikir edirdik ki, bu qüvvədən fəqət Milli Məclisi təşkil etdikdən sonra istifadə etmək lazım gələcəkdir. Məclis quruluşundan irəli silahla mübarizəyə girişmək taktika cəhətdən doğru deyildi. Silahlı qüvvələrin tamassı uzun müddət davam edə bilərdi. Onda seçki məsələsi demək olar ki, nəticəsiz və naqis (natamam) qalar və düşmən isə günahı bizim boynumuza yüklərdi. Biz gözəl bilirdik ki, irticai hökumət bizim ixtiyaratımızı əncümən əyalətimizi qurmağa icazə verməyəcək və məclisimizi qəbul etməyəcəkdir. Bununla belə istəyirdik ki, o (hökumət) bunu əməldə sübut etsin. Ona görə intixabat qurtarıb, Tehrandan qəti cavab alana dək ciddi bir surətdə fədai hərəkətinin qarşısını almağa çalışırdıq. Buna baxmayaraq çox yerdə məsələn Sarabda, Sarab ətrafında jandarmlarla fədailər arasında silahlı toqquşmalar xeyrimizə olaraq genişlənirdi. Bu toqquşmalarda bizim siyasətimiz düzgün olmasa da işin gedişində çox müfid vaqe olurdu.

Mürtəcelər və dövlət məmurları toqquşmalarda öz qüdrətini göstərən kəndlidən qorxuya düşüb, səslərini kəsmişdilər. Kənd və şəhər camaatı isə firqənin gücünə etimad edərək, intixabatda şirkət etməklə ciddi nehzətə tərəfdar olub və onun iftixarında şərik olduqlarını göstərməyə çalışırdılar. Bunu isbat etmək üçün aban ayının 27-də həmin şəhridari qarşısında təşkil olunan 30 min nəfərlik mitinqin tarixində

bizim fədai dəstələrimizin Miyana, Sarab və sair şəhərlərdə özlərini göstərdikləri günü bu hadisəni xalqın qulağına yetirmək üçün yazdığımız "Didi ke xune nahaqe pərvane şəmra çəndan aman nə dad ki, şəbra səhər konəd" ("Gördün ki, pərvanənin tökülən nahaq qanı şəmə gecəni səhərə çıxarmağa belə aman vermədi") ünvanlı məqalə çıxıb, intişar tapan zaman Azərbaycan müdəiyül-ümumun (prokuror) bizə yazdığı rəsmi məktubu göstərə bilərik

**"Azərbaycan" qəzetinin hörmətili müdirinə**

*"Bu qəzetin 56-cı nömrəsində dövlət məmurlarının və jandarm məmurların törətdiyi cinayətlərə dair yazını oxudum. Əlbətdə bu cinayətlərin bir qismi əvvəlcədən Azərbaycan Demokrat Firqəsi elan etmişdi. Onlara baxılır. Amma bu nömrədə dövlət məmurların törətdiyləri təzə cinayətlər haqqında onların əleyhinə yazılmışdır. Indiyə dək məhkəmədə belə cinayətlərin ənənəsi olmamışdır. Ona görə xahiş edirik ki, bu mövzunu müzakirə etmək üçün sənəd və faktları bir nümayəndə vasitəsilə məhkəməyə göndərməyi göstəriş verəsiniz. Son olaraq, qəzetin 56-cı nömrəsi təsadüfən mənim əlimə çatdı. Sizdən xahiş olunur qəzetin nömrələrini ardıcıl olaraq, bizə göndərəsiniz. Qeyd etmək lazımdır ki, məni öz qəzetinizə abunə edəsiniz.*

*Təbriz şəhərinin məhkəmə rəisi Müsavi.*

*Dadistanın (məhkəmə rəisnin) yazdığı məktubla bizim yazdığımız bu məqaləni tutuşdurduqda fədai təşkilatların əməliyyatı əfkarı-ümumidə (əhalinin nəzərində) nə qədər təsir etdiyi meydana çıxacaqdır.*

*"Didi ke xune nahaqe pərvane şəmra*
*Çəndan aman nə dad ki şəbra səhər konəd"*
*("Gördün ki, pərvanənin tökülən nahaq qanı*
*Şəmə gecəni səhərə çıxartmağa belə aman vermədi").*

*Biz dəfələrlə kəndlərdə görülən vəhşiliklərin qorxulu nəticəsini yazıb, dövlət məmurlarının kar qulaqlarına və kor gözlərinə soxmaq istədik. Lakin özlərini port Artur qalası Fatehi hesab edən jandarm rəisləri kor tutduğunu buraxmayan kimi əlsiz-ayaqsız kəndlilər ilə vəhşiyanə rəftarlarını daha da şiddətləndirib, mal, can və namusuna təcavüz etməkdən əl götürmədilər. Nəhayət pıçaq sümüyə dayanıb. Kəndlinin tab və tavanı kəsildi. Özünə çarə tapmaq fikrinə düşdü. Indi cəlladlar buyurub. Əkdikləri toxumun səmərisini dərsinlər. Kim bilir, bəlkə bunların hamısı qarətgərliyi şiddətləndirmək üçün təzə ünvandır. Bəlkə çalışırlar ki, bu adla kəndliləri xak ilə yeksan (məhv) edib, Azərbaycan kəndlisinin nəslini kəsib ortadan qaldırsınlar. Lakin iş bunu göstərmir.*

*Miyanadan, Sarabdan və Marağadan gələn xəbərlərdən məlumdur ki, cana doyub, vəhşətlərə təhəmmül edə bilməyən kəndli intiqam silahı ilə qiyam etmişdir. Qiyamçıların hədəfi jandarm cəlladlarını xəlli-silah edib, kəndlərdən uzaqlaşdırmaqdır. Bunlar var qüvvətləri ilə əmniyyəti hifz etdikləri halda, jandarm postlarını ortadan çıxarır. Onların silahı ilə özlərini difa etməyə çalışırlar.*

*Miyanadan və Sarabdan gələnlərin dediklərinə görə əmniyyələri xəli-silah etdikdən sonra fədailər çəkilib getmiş, şəhərin əmniyyətini polis məmurlarının ixtiyarına qoymuşlar.*

*Bundan əlavə kəndlilər dövlət məmurları vasitəsilə kəndlərdə paylanan silahlardan çox sadə bir surətdə müdafiə edə bilmişlər.*

*Müttəle (agah) adamların izharına görə şəhrivərdən sonra Azərbaycanı tərk edib, qaçan nizami qüvvələrin silahları tamamilə kəndlilərin əlinə düşmüşdür. Çox kəndlilər öz namuslarını hifz etmək üçün öküzünü satıb, tüfəng almışdır.*

*Bu silahların gücü elədir ki, dövlət məmurları apardıqları əhməqanə siyasətin mənasını düşünməyə məcbur olmuşlar.*

*Biz keçən nömrələrdə kənldini döyüb, öldürüb, namusuna əl atmağı atəş ilə oynamaq adlandırıb demişdik ki,*

*“Əgər Sədsal gəbr ataş füruzət*
*Əgər yekdəm dəru ofdəd*
*“Atəşpərəst yüz ilə od yandırsa*
*Özü bir an onun içinə düşdüyü təqdirdə yanacaqdır”.*

*İndi Sarabın və Miyananın jandarm və polisləri bu sözün mənasını anladılar əfsus ki, onlar üçün bu söz baha başa gəldi. Onlar bir daha bu təcrübədən istifadə etməyə qadir ola bilməzlər.*

*Keçən gün zəncir və şallaqla döyülüb, məcruh olmuş bir sarablı idarəmizə gəlib deyirdi: “İndi ölsəmdə arzum qalmadı. Ondan ötrü ki, qızımın namusuna əl atan xain cəzasını çəkdi”.*

*Biz Sarab əmniyyə rəisinin öldürülməsindən xoş hal deyilik. Qardaş qanı tökməyi hərgiz vicdanımız qəbul etmir. Lakin kəndlini də bu işdə qınamaq olmaz. Nə qədər ki, dadirəs (haraya çatan) yoxdur, madam ki, jandarm zülmündən mərkəzə şikayətə gələnləri trutub, zindanlara doldurmaqla xalqı boğmaq istəyrilər. Bizdə kəndli ilə həmsəda olub, deyirik:*
*“Dəmi abxordən pəse bədsqal*
*Behəz omre həftadu-həştad sal”.*
*“Pis xasiyyətlidən sonra bir an yaşamaq*
*Yetmiş, həştad il yaşamaqdan daha yaxşıdır. ”*

Bununla belə biz dövlət məmurlarına bu hadisələrdən ibrət alıb, rəftarlarını dəyişməyi tovsiyə edirik. Onlar millət qarşısında tökülən qanlara cavab verməlidirlər. Zindanlar günahsız kəndlilərlə doldurulduğu halda, əlinə silah keçirmiş, kəndli soyuqqanlılıqla rəftar edə bilməz. Get-gedə həriq (yanqın) artır, qabağına çıxan yaş və qurumun hamısını yandırıb, məhv edə bilər.

Yenə təkrar edirik:*“Yolunuzu dəyişin, dayanıb fikr edin, cinayət və qan tökməyin səmərəsi xətərnakdır (təhlükəlidir). Xalqın istədiyini verin. Cinayətkarları tutub cəzalandırın. Kəndlinin mal, can və namusuna təcavüz edən jandarmları*

*asın. Taki kəndli özü də intiqam üçün ayağa qalxmasın. Bundan başqa əlac yoxdur".*

***"Azərbaycan" qəzeti 28 aban 1324, 58-ci nömrə (19 noyabr 1945)***

Fəramüş olmasın (yaddan çıxmasın) ki, bizim böyük milli konqrəmizə həmin günlərdə yəni aban ayının axır günlərində (yerlərdən seçilən nümayəndələr) toplanmışdır. Məclis intixabatının elanı isə azər ayının 1-də müntəşir olub, həmin ayın 6-da rəy almaq şüru olmuş, demək intixabat fədai başçılarının yerlərdə fəaliyyətə keçdiyi zamanlara təsadüf etmiş. Firqə bu iki xətt ilə qüdrəti mürtəcelərin əlindən alıb, xalq əlinə tapşırmaq üçün irəli getmişdir.

Fədailərin Miyana, Sarab və sair şəhərlərdə özlərini göstər-göstərməz Tehranda olan mürtəcelər belə təşvişə düşüb, şəhəri tərk etməyə başlamışdılar.

Bu xüsusda "Azərbaycan" qəzetinin yazdığı məqalələr ilə (Azərbaycandan Tehranın mürtəceləri qorxmuşlar). Bu qorxu get-gedə daha qüvvətlənməyə başlayıb, hətta məclis üzvlərini belə başlarını itirməyə məcbur etmişdir.

Fətəli İpəkçiyan deyir: "Mən Miyanada fədailərin çıxışını eşitdikdən sonra qorxuya düşüb, qaçmaq istəyən nümayəndələri çox zəhmətlə sakitləşdirməyə çalışdığım günlərdə nagahani olaraq Zəncan hadisəsi baş qaldırdı. Onda mən məclisdə idim. Gecə nümayəndələrin əksəri oraya qaçıb, gəlib hökumətdən səhih (doğru) xəbər və təklif istəyirdilər. Hökumət isə başını itirib, qəti cavab verə bilmirdi. Səlahiyətli məqamlar çamadanlarını yığışdırmaqda idilər. Nümayəndələr qaçmaq üçün avtomobil tapa bilməyib, məndən xahiş etdilər, dəmir yoluna telefon edib, onlar üçün bir neçə vaqon təhiyyə edim ki, bəlkə ailələrini götürüb, cənub şəhərlərinə qaça bilsinlər".

"İttilaat" qəzeti Qəzvinin süqutunu elan etmişdir. Mən naçar Qəzvindən telefon vasitəsilə xəbər tutdum. Şayiəni təksib etdilər. Bununla belə nümayəndələri sakit etmək mümkün

olmadı. Onlardan bəzisi avtomobil vasitəsilə Isfəhana və sair şəhərlərə qaçmaqdan özlərini saxlaya bilmədilər.

Fədai hərəkatı təbii olaraq çox gözəl surətdə inkişaf etməkdə idi. Dövlət qüvvələri olduqları yerdə dəstə-dəstə fədailər tərəfindən mühasirəyə düşmüşdülər. Yerlərdə olan jandarm dəstələrinə bir-birinin köməyinə getməyə imkan vermirdi. Təbrizin onlara göndərdiyi köməkdən bir fayda aparmaq belə yox idi. Çünki bütün kəndlilər ayağa qalxıb, jandarmlardan aldıqları silahları özlərinin qabaqdan aldıqları silahlara əlavə edərək, möhkəm partizan fədai dəstələri meydana çıxarmışdır.

Sərtib Dirəxşani məxsusən sərhəng Vərəhram Tehrandan aldıqları əmr üzrə fədailərəi əzib, tarumar etməyə çalışırdılarsa, bir fayda əldə edə bilmirdilər. Çünki onların əmələn Tehranla əlaqələri kəsilmişdir. Vərəhram naçar təyyarə ilə Tehrana uçub oradan aldığı tapşırıqları əməli etməyə can atırdısa əli bir yerə çatmırdı. Axır vaxtlarda Tehran ümumi radio vasitəsilə öz nöqteyi-nəzərincə saxlulara və yerli mürtəcelərə əmr verməyə başlamışdır. Xalq isə radionun verdiyi gülünc rəmzləri təməsxür və rişqənd ilə qarşılayıb, fəaliyyəti azaltmaqda davam edirdi.

Tehran radiosunun cavabında "Azərbaycan" qəzetinin 71-ci nömrəsində "Ma ittixaze sənəd mikonim" ("Biz sənəd istəyirik") adlı məqalə xalq içərisində dərin təəsir bağışlamışdır. O günlərdə hərbi fərmandehlik başını itirdiyinə görə gördüyü işlər tamamilə dövlətin zərərinə nəticə verirdi. Misal üçün yekşənbə günü aban ayının 11-də (noyabrın 2-də) məhərrəm ayının yetişməsi münasibəti ilə təşkil olunmuş şah Hüseyn dəstəsi (əzadarlıq bir dəstə adı) şəhridari qabağında sümüklü bağda saxlanılan sərbazlar tərəfindən müsəlsələ bağlanmasını göstərə bilərik.

Bu təbii, sadə və məzhəbi nümayişi dağıtmaqla sərhəng Vərəhram xalqı xüsusən fədailəri qorxultmaq istədiyi halda, dövlətin xalq arasında daha artıq nifrət qazanmasına səbəb

olmuşdur. Bihudə (boş) yerə bir nəfərin ölüb, neçə nəfərin yaralanması ilə qurtaran bu hadisə bizim əlimizə dövlətin siyasətini pisləmək üçün bir qiymətli bəhanə vermişdir.

Məhərrəm əzadarlarını müsəlsələ bağlamaq azərbaycanlıların məxsusən ruhani təbəqəsinin xoşuna gəlməyən bir iş idi. Halbuki,biz milli mübarizədə ruhani təbəqəsi ilə həttül-imkan (imkan dairəsində) ehtiram ilə rəftar edib, məşrutə nehzətində qabağa çıxan işqalatdan (səhvlərdən) aldığımız təcrübədən dəqiq surətdə istifadə edə bilmişdik. Ona görə 20 azər günü onlar Tasuayə (məhərrəm ayının 9-cü günü) təsadüf etdiyinə baxmayaraq, xalq və ruhani təbəqəsi nehzəti çox ehtiramla qarşılayıb, hətta minbər və məsçidlərdə bizim nehzətimizə dua edərək, müvəffəqiyyətimizə arzu etdiklərini isbata çalışdılar.

Sərhəng Vərəhram və sərtib Dirəxşani isə bərəks təziyəni (əzadarlığı) hatta müsəlsələ bağlayıb, neçə günahsız azərbaycanlını ayaqdan salmaqla dövlətə nisbət ayı dostluğu göstərmişdilər.

Biz o gün bu hadisəni Tehran radiosunun verdiyi əmrlər ilə tutuşdurub, onlardan ciddi bir sənəd kimi istifadə etməyə imkan tapa bildik. Bu xüsusda “Azərbaycan” qəzetində yazılan məqalə zənnimcə əhəmiyyətsiz deyildir.

***Yara deyil, böyük xəyanətin kiçik təzahüratından biridir***

*“Yekşənbə günü axşam göy məsçid yanında qurulan qanlı səhnəni bəziləri “yara” hesab edib, deyirlər: “bu faciəni vücudə gətirənlər öz canlarının qorxusundan atəş açmağa əmr vermişlər. Bu doğru deyildir. Tehran radiosunun xəbərlərinə qulaq asanlar bilirlər ki, neçə dəfə sərləşkər Ərfənin işarəsi ilə mərmuz və xainanə fərmanlar verilmişdir. Həmin gün nahar çağı təkrar edilən səri və aşkar fərmanı da radio xəbərlərini eşidənlər qətən unutmamışlar. Bu xəbər müstəqimən atəş*

*fərmanı olduğu da bəllidir. Bu fərmanla axşam ittifaq düşən (törənən) hadisənin müstəqim əlaqəsi vardır. Nəticədə Azərbaycanın əmniyyət və asayişini xəlaldar etmək (pozmaq) üçün çəkilən xainanə nəqşəni də əməli bir başlanğıc hesab etmək olar.*

*Hadisə ittifaq düşən zaman şəxsi libas geyinib, Şah Hüseyn dəstəsini idarə edən əfsərlərdə xalqın nəzərindən məxfi qalmamışdır.*

*Vərəhram ilə Dirəxşani bu vasitə ilə şəhərə qarışıq salmaq və azadixahları təhdid etmək üçün bir ox ilə iki nişan vurmaq istəmişlər. Vəli onlar o qədər düşüncəsiz, o qədər cahil, o qədər nalayiq adamlardırlar ki, mühid və zaman və məkanı əbədən anlamağa nail ola bilmirdilər. Biz vaxtında sərhəng Hümayün və başqa jandarm rəislərinə şifahi və yazılı təzəkkür vermişdik ki, sizin başladığınız siyasət xətərnakdır. Kəndlini söyüb, əzib, dağıtmaq xeyrinizə tamam olmaz. Qardaş qanı tökmək zəminəsi hazırlamayın.*

*Onlar elə fikir edirdilər ki, biz qorxuluq ya onlarla ədavətimiz vardır. Ona görə kor tutduğunu buraxmaz məsəli mocibincə öz vəhşiyanə hərəkətlərini daha da şiddətləndirmək və xalqı fişar altına qoymağı bizim bitərəfanə nəsihətlərimizi qəbul etməməyə tərcih verirdilər. Bu səbəbə kəndli cana duyub, ayağa qalxdı və jandarm bəsatını (yayılmış dəstələrini) sadə bir təkan ilə bütün Azərbaycan kəndlərindən sürüyüb, eşiyə tökməyə, özünü onun zülmündən nicat verməyə müvəffəq oldu.*

*Vərəhram ilə sərtib Dirəxşani da zənn olunur sərhəng Hümayün yolu ilə getmək istəyirlər. Çün silahsız sadə əhalini müsəlsələ bağlamağın mənası yoxdur.*

*Əgər mərkəzi hökumət bu kimi alçaq və xainanə siyasətlərə xatəmə verməzsə iş çox pis yerə çəkə bilər. Bu surətdə tamam məsuliyyət onların öhdəsinədir.*

*ətrafdan aldığımız məlumata görə şəhər öz hüququnu almaq üçün qiyam edən fədai dəstələri tərəfindən şədid bir surətdə mühasirə halındadır. Sadə bir atəş böyük bir hadisə*

*vücudə gətirə bilər. Firqəmiz xalq ilə yaxından təmasda olduğu üçün onun ruhiyyəsinə kamilən aşnadır. Ona görə od ilə oynayanları xəbərdar edib, onlara başladıqları oyunun səbəbini anlatmağı özünə vəzifə bilir. Yekşənbə günün gecəsi bir nəfər biguhan azərbaycanlı öldürülüb, 11 bir nəfər yaralanmışdır. Vərəhram ilə Dirəxşani müstəqimən bu cinayətə xalq məhkəməsi qabağında cavab verəcəklər. Indi Azərbaycan xalqının düşünən başı da müqtədir (qüdrətli) milli hökuməti var. Onun qanın bu asanlıqla tökmək olmaz.*

*Radio vasitəsilə ataş fərmanı elan və onu Azərbaycanda icra edən yalançı pəhləvanlar öz təkliflərini anlasınlar. Xalq intiqam çəkməkdən sərfi-nəzər edə bilməz. Təbrizdə 17 azər hadisəsini yaratmaq olmaz. Indi Azərbaycan xalqı ayaq üstündədir. Onu dizə çökdürməyə vadar etmək istəyən oğlanların anaları ağlar qalar. Azərbaycanlı haqqını özünün əzm və iradəsi sayəsində almış, öz milli hökumətini vücudə gətirmişdir.*

*Tehran əgər bu rəşid və qəhrəman milləti Ərfələr, Dirəxşanilər və Vərəhramların hava və həvəslərinə qurban vermək istəyir, buyursun bu kuy, bu da meydan.*

*Fədai dəstələrinin fəaliyyət və fədakarlığı olduqca maraqlı və olduqca əhəmiyyətli bir məsələdir. Bəziləri bu işi çox sadə hadisə hesab edirlər. Hətta firqə içərisində və firqə rəhbərləri arasında da elə adamlar da var ki, (məsələn nehzəti özlərinin və ya 5-3 nəfər bazar adamların nüfuz və etibarları əsasında irəli getdiyinə qail idilər. Halbuki, nehzət sözdən əmələ və xəyaldan həqiqətə yetirən kəndli və kəndlini təşkil edən firqə kadrosu olmuşdur.*

*Rəbi Kəbiri, Qulamyəhya, Məhəmmədivənd, Mərəndli Kazım, Azadvətən, Qulamrza Cavidan, doktor Cahanşahlu, Aram Zadəgan, Qulu Sübhi və qeyrilərini kəndlini təşkil etmək, onu silahlandırmaq və onun vasitəsilə irticai silahlı qüvvələri əzib və tarumar etmələri olmasaydı, on qaranlıq günlərdə Şiri-Jiyanın (aslanın), bazar tülküləri həmin 21 Azər və ya 12*

*Şəhrivər günlərində özlərini nüfuzlu hesab edən bu adamların dərisini boğazından çıxarardılar.*

*Fədai qüvvəsinə mən şəxsən böyük əhəmiyyət qail olduğundan, onun quruluşunun (necə olduğunu və nə iş gördüyünün planını mən şəxsən öhdəmə götürdüm).*

*Sarabda jandarmların mühasirəsi Miyanada onların xəli-silah edilib, Təbrizə yola salınması, Zəncanda, Mərənddə, Marağada, Miyandab və Sufiyanda bilaxirə Meşkin və Urmiyyədə aparılan qanlı mübarizələr vasitəsilə Azərbaycan xalqının sərnevişti təyin olunurdu. Mən şəxsən bu hərəkatı idarə etmək və böyük iftixarlı vəzifənin məsuliyyətini hiss etdiyim üçün özümün təsəvürümə gələ bilməyən bir tərzdə çalışıb, ağlıma belə gələ bilməyən bir əndazə də ehtiyat və tədbir üzrə hərəkət edirdim.*

*Yuxarıda firqə rəhbərliyinin işi sülh və saziş ilə aparılıb, irticai ünsürlərin əlinə bəhanə verməmək üçün hər cür fədakarlığa hazır olduğunu qeyd etmişdik. Eyni zamanda mürtəcelərin mübarizəsiz, qəhr və qələbəsiz olaraq güzəştə gedib, bizə azadlıq və ixtiyar verməyəcəklərini bildiyimizi də yazmışdıq. Fəqət bu iki mühüm nöqtəni nəzərə aldıqda firqəmizin gördüyü və zahirən mübhən nəzərə gələn işlərin və xətti-hərəkətin həqiqəti ola bilər.*

Keçmiş bölmədə firqənin daxili təşkilatı və xalqın nehzətə qoşulması cərəyanını az-çox yazıb, göstərmişdir. Fədai dəstələrinin meydana çıxmasını həmin bölmədə müxtəsər məlumat vermişdik. Bu məlumatdan elə nəticə alınar ki, nehzətimizin əsasını təşkil edən fədai qüvvəsi və onun əməliyyatı təsadufi və ittifaqı olaraq irəli gəlmişdir. Bu həqiqət isə belə deyildir. Hadisələr təsadüflər, məxsusən mürtəcelər, jandarmların və xəyanətləri doğrudur ki, bu işdə çox dərin təsir buraxıb, onun inkişaf və müvəffəqiyyətinə səbəb olmuşdur. Lakin əsl həqiqətdə firqənin qabaqdan düşünüb, idraklı və şüurlu bir surətdə hazırlanması üzrə iş qabaqa aparılmışdır. Bunu həmişə nəzərdə tutmaq lazımdır. ***Bizim içərimizdə bəzi***

***içtimai kitablar oxuyub, onları anlamayanlar var idi ki, onlar ictimai hadisələrin qabağa gəlməsinə və tarixin gedişinin tasadüfi olmasına inanan adamlar kimi baxmaqla, insan iradəsinin və cəmiyyətlərin tədbir və düşüncələrinin əhəmiyyət və dərkini tamamilə inkar edirdilər. Bu yanlış və naxoş (xəstə)fikirlər məxsusən Hizbi-Tudə teorisiyənlərından bizə yadigar qalmışdır. Bunlar marksizmidən, dialektikadan az-çox söz eşidib, və ya oxuyub onu tədqiq etmiş adamlardan ibarət idi. Və onlar heç də düşünmürdülər ki, cəbri-tarixi ibarəti sufilər və məzhəbi adamlar kimi amiyanə mənada təbir edərkən (başa düşərkən), onlar lap qaba və zərərli yola düşüb, xalq mübarizə uğrunda göstərdikləri fədakarlıq və qəhrəmanlıqları heçə çıxarmaq kimi axmaq bir iş görməyə tənəzzül edirdilər.***

Firqə rəhbərliyi isə o gün Hizbi-Tudə təsiri ilə geniş bir surətdə yayılmış sufi düşüncəsi kimi amiyanə cəbirliyin xilafına olaraq insanın biliyi onun ətrafında düşünüb və daşınıb, onun mənfəət və zərərlərini anladıqdan sonra müəyyən plan üzrə başlamağına adət etmişdilər.

Işin həmişə iki bəlkə neçə tərəfi vardır. Mübarizə və siyasətlə məşğul olan adamlar və təşkilat gərək onun hər iki və bəlkə hər tərəflərini nəzərdə tutub, hər ehtimala qarşı tədbirlər görsün. Siz irad edə bilərsiniz ki, bəs nə üçün 1946-ci ildə 20 Azərdə (milli hökumətin məğlubiyyətiinə işarə olunur) bu cür rəftar olmadı. Irad tamamilə doğrudur. Vaxtı gəldikdə onun illət və səbəblərini izah etdikdə görəcəksiniz ki, bu iş bizim üçün gözlənilməz olaraq qabağa çıxmış, bizim iradəmizin onda elə mühüm təsiri ola bilməmişdir. Bu xüsusda yeri gəldikdə ayrıca bəhs ediləcəkdir. əsl mövzudan uzaqlaşmayaq.

Fədai dəstələri mütləq bizim firəqmizin qabaqdan düşündüyü nəqşə üzrə meydana çıxmışdır. Hətta firqə qurulan günlərdə onun adı barəsində elə bəzi inanılmış firqə başçıları arasında mübahisə aparılmışdır. Ona görə yerlərdə dəstələr meydana çıxan kimi, hamı özlərini fədai adlandırmışdır. Bu

müqəddəmədən məqsədimiz irticai qüvvələri təslimə vadar edərək, Tehranın vermək istəmədiyi azadlığı qorumaq yolunda aparılan xətti-hərəkət barəsində məlumat vermək idi. Xalq yığıncaqları, xalq konqrəsi və milli məclis qurulmadan əvvəl biz bəzi inanılmış firqə başçıları və səlahiyyətli fədai rəhbərləri ilə məsələni ortaya qoyduqda çoxlarının fikir və tədbiri tamamilə başqa idi. Onlardan bəzisi məsələni başqa cür yəni ortabab adamların fikrini və düşündüyü yolla həll etmək istəyirdilər.

Bunlar deyirdilər: “Biz kəndlərdə düzələn bu dəstələrdən fədailər bir qismini Təbrizə toplayıb, şəhər fədailərinin köməyi ilə birdəfəlik şəhərdə olan qoşun dairələrini və dövlət idarələrini işğal etdikdən sonra Təbrizdə təşkil olunan qüvvələr ilə Azərbaycanın ayrı şəhərlərini təsərrf etməliyik. Bu əvvəla bir növ (çevriliş), məhdud təbədulad (tədbirlər) idi.  Biz o fikirdə deyidik. Ikincisi o günkü şəraitdə biz ətrafdan fədailəri Təbrizə toplaya bilməzdik. Yerlərdə tamamilə müsəlləh olan jandarmlar bu işə imkan verməzdilər. Şəhərdə isə jandarm, qoşun və nəzmiyyə qüvvəsi işi başlamadan onun qabağını aldıqdan sonra bəhanə tapıb, firqə təşkilatını da ortadan apardılar. ən doğru, ən düzgün fikir ətrafdan başlayıb, tədric ilə şəhərə yaxınlaşmaqdan ibarət idi”.

Azərbaycanın ən mühüm hissələrində saxlanılan jandarm və qoşun hissələri bizə bu imkanı verməz, Tehran ilə müstəqim əlaqədə olan dövlət məmurları isə müstəqim və qeyrimüstəqim (dolayi) yollarla ilə öz qüdrətlərini artırıb, bizim tədric ilə toplamaqda olduğumuz qüvvəni ciddi qədəm götürməyə qoymazdılar.

Fəramüş edilməməlidir ki, bizim təşkil etdiyimiz fədai dəstələri və onların rəhbərləri hələ hərbi təcrübəyə malik adamlar deyildilər. Onların müharibə görmədən əvvəl münəzzəm qoşun ilə rubəru etmək olmazdı. Bundan əlavə şəhərin qoşun əlində olması özü-özlüyündə böyük qüdrət mənbəyi idi. Orada olan nəqliyyat, ərzaq, libas və sair

məlzumatdan (lazımı əşya) sərtib Dirəxşani ilə Vərəhram geniş dairədə istifadə edə bilərdi.

Bir də firqə təşkilatı məxsusən mərkəzi komitə şəhərdə olduğu halda, fədailərin şəhərə hücum edərək dövlət qüvvələri ilə vuruşmağı, onların tamamilə ortadan getməsinə səbəb ola bilərdi. Bu və başqa səbəbləri nəzərə alaraq biz o gün o yoldaşların təkliflərini rədd etdik. Bizim nəqşəmiz bu iş üçün fövqüladə sadə bir nəqşə idi. Yerlərdə olan dövlət qüvvələrini tək-tək xəli-silah edib, təmizləməklə Təbriz, Urmiyyə, Ərdəbil və Miyandab kimi mühüm (əskəri) məntəqələri bir-birindən ayırıb, mühasirəyə salmaq, sonra şədid bir zərbə ilə onları ləğv edib, ortadan çıxartmaq. Bu nəqşə olduqca əməli bir nəqşə idi. Biz onu icra edərkən, ictimai işlərimizi yaddan çıxarmamışdıq. Xalq konqrəsi, milli məclis seçkiləri kimi böyük siyasi və dövləti işləri hamısı istər mərkəz, istər isə ayrı şəhərlərdə bu nəqşə ilə uyğunlaşmış hər iki nəqşənin icrası üçün dəqiq gün və saatlar təyin olunmuşdur.

Məndən “fədai qüvvəsinin müvəfəqiyəti nədən irəli gəldi?” deyə, soruşan olsa- “fəqət firqə rəhbərliyinin tənzim etdiyi nəqəşənin dəqiq surətdə gözlənilməsi”- söz ilə cavab verərəm. Ayrı- ayrı fədai dəstələrinin fəaliyyətindən nümunə üçün sırhəng Məhəmmədivənd, sərhəng Aram, Məmiqulu Sadiqi, mayor Mirəbulfəzl Haşiminin öz dəstələri həqqində yazıb mənə göndərdikləri xatirələri buraya zəmimə edirəm.

### Sərhəng Aram Zadəganın xatirəsi

Müttəfiqlərin qoşunları İrana daxil olandan sonra İranın bütün qoşun təşkilatları dağıldı. Bu zamanda Iran xalqı mövqedən istifadə edib, öz atiyə (gələcək) azadlığı üçün düşünməyə başladı. Məxsusən kənd camaatı jandarmların və sərbazların töküb, getdiyi silahı ələ keçirtdik. Xalq gələcəyi düşünüb, bəzən İran ofiser və sərbazlarından pul ilə tüfəng və

sair silah da almaqdan geri durmurdu. Bu vasitə ilə camaatın əlinə çoxlu silah keçdi.

Kürdlər və azərbaycanlılar Təbrizdən aldıqları silahları şəkər, çay və sair ticarət malları olan sandıqların içərisində aparırdılar. Şəhrivər hadisəsindən bir neçə ay sonra Kürdüstan və Azərbaycanın kəndlərində silah adi bir şey oldu. Hər kəs hər qiymətə olur-olsun evində silah saxlamağa çalışdı. Bu günlərdə İran hökuməti müttəfiqlər ilə düzəlişib, yenidən fəaliyyətə girdi. Jandarmlar iş başına gəlib, maliklərin köməyi ilə kəndlilərə əziyyət verməyə başladılar. Maliyyat, cərimə, vergi və zülm çoxaldı. Ofiserlər öz satdıqları tüfəngləri əhalidən yığmağa başladılar. Bu mövqedə kəndlilərdən bəzi iddələr ayrılıb, dövlət əleyhinə bəzi yerlərdə mübarizəyə girişdilər. Məsələn Hüseynqulu xan bir iddə azadixah cavanlardan toplayıb, jandarmların cinayətkarlığının qarşısında mübarizəyə başladı. Neçə ay onun mübarizəsi davam etdi. Nəhayət dövlət məmurları namərdliklə aldadıb, onu tutaraq zindana saldı. Naçar onun ətrafinda olan azadixahlar dağılmağa başladı.......

Hüseynqulu xanın mübarizəsindən sonra Marağa ətrafında mücahir və şahsevən adlanan 300 ailəni jandarmlar xəli-silah etmək istədilər. Bir ay vuruşmadan sonra onları məğlub etməkdən məyus olub, Marağa maliklərindən, Cəmşid İsfəndiyari, Səməd İftixari, Əliəşrəf Səmsammüs-səltənə və qeyrilərindən kömək istədilər. Bu kömək vasitəsilə şiddətli vuruşmadan sonra şahsevənlər və mücahirlər dağılıb, ətrafa qaçmağa məcbur qaldılar. Dövlət məmurları və maliklər onların 100 min baş qoyun, dəvə, at və qara mallarını, həmçinin küllü miqdarda ev əşyalaırını talan etdilər. Kürdüstana pənahəndə olmuş mühacir və şahsevənlərin evlərini də bərbad etməkdən çəkinmədilər.

Hər yerdə bu kimi hərəkətlər baş verirdi. Maliklərin qüclənməsinə imkan yaradıldı. Onlar da bu qüdrətdən istifadə edib, kəndlilərin üzərində əziyyət və cəfalarını gündən-günə artırmaqda davam edirdilər. Kəndli isə bu zülmlərə davam edə

bilmirdi. Xalqın ürəyi qana dönmüş idi. Bu vaxtda Azərbaycanın Hizbi-Tudə təşkilatı güclənməyə başlayırdı. Kəndlilərin bu zülm altında yaşamağına görə Hizbi-Tudəyə yaxınlaşmaqda idilər. Bu təərüz edən malik və jandarmlar isə Hizbin dağılması üçün ona rəğbət göstərən kəndliyə daha artıq fişar gətirirdilər. Günü-gündən çox kəndli Hizbi-Tudə ətrafına cəm olub, özünü zülmdən qurtarmaq uğrunda mübarizə edirdi. Kəndlilərin Hizbi-Tudəyə daxil olması malikləri qorxuya salırdı. Maliklər çox böyük şiddətlə rəyyətləri həddən artıq fişar verməyə başladılar. Dövlət tərəfindən maliklərə kəndliləri (əziyyət etmək) barəsində tam ixtiyarat verilmişdir.

12 Şəhrivərdən sonra Hizbi-Tudənin sair üzvləri kimi mən də Azərbaycan Demokrat Firqəsinə keçmişdim. Iki təşkilat işi ilə məşğul olduqdan sonra Mərkəzi Komitənin əmrilə kəndlilərdən fədai dəstələri hazırlamağa başladım. Fədai dəstələri təşkil vermək aban ayında ağayi Kəbirinin Mağaradan Tağıabad kəndinə gəldi. Qulu Sübhi ilə ikimiz bu mövzunu müzakirə etdikdən sonra Kəbirinin Təbrizə gedib, Mərkəzi Komitədən lazımı göstəriş almasını lazım gördük. Aban ayının 12-də (noyabrın 3-də) Kəbiri Təbrizədən qayıdıb, məni (Xoşamöhrəyə) dəvət edib, Mərkəzi komitənin sifarişlərini söylədi. Beləliklə ciddi surətdə fəaliyyətə girişdik.

Miyandab məntəqəsi Bukan xəddindən Qaramusala qədər mənə tapşırıldı. Qəccələ və Marağa-Miyandab yolunu qət etmək Qulu Sübhinin öhdəsinə qoyuldu. Kəbiri az müddətdə yerli fədailərin köməyi ilə Şişəvan, Bünab, Marağa ətrafının jandarm postlarından 800 nəfəri tərki-silah etdikdən sonra Marağa padiqanını mühasirəyə aldı. Həmin jandarmlardan alınan tüfənglər ilə oranı təmizləyib təsərrüf etdik. Mən də Miyandab və Kürdüstan ətrafından və Tağıabad kəndindən 400 nəfər yerlilərin keçmişdə ələ keçirilən silahlarının vasitəsilə Bukan, Qaramusala, Çillicə, Rəhimxan, Keşvərdəki jandarm postlarını dağıdıb, onların silahlarını ələ gətirdim. Miyandab jandarmı işi belə gördükdə tab gətirməyib, Sayınqalaya doğru

qaçmağa məcbur oldu. Mən onları Məhmudciqa qədər təqib edib, bir iddəsinin silahını almağa müvəffəq oldum. Qulu Sübhi isə Marağa-Miyandab xəttlərində 200 nəfər mənim dəstəm ilə Kəbiri dəstəsinin arasında əlaqə saxlayırdı.

21 Azərdə Mərkəzi Komitənin qərarına görə Azərbaycanda olan nizami dəstələrini və jandarmlarını tərki-silah (etmək) əmri sadir olmuşdu. Kəbiri öz fədailəri ilə Təbrizə gedib, nehzətdə şirkət edirdi. Miyandab padiqanını mənim öhdəmə qoyulmuşdur. Fürsətdən istifadə edən Miyandab padiqanı Tağıabad kəndinə həmlə hazırlaşdı. Onlar Tağıabad kəndini vurub, dağıdan sonra Saqqıza fərar etmək istədilər. Mən bu xəbəri alan kimi camaatı erməni və azərbaycanlıların köməyi ilə onlara həmlə etdim. Camaat hətta ruhani, keşiş və qadınlardan çoxu ələ silah, alıb, vuruşmada şirkət etdi. Nəhayət düşməndən 25 nəfər sərbaz və 2 nəfər əfsəri təslim etdikdən sonra Miyandab padiqanını mühasirə etdik. Bir neçə gün vuruşma davam edirdi. Nəhayət Təbrizdə olan Tehran qüvvələri süqut etdi. Kəbiri Marağaya qayıtdı. Bu xəbəri eşitdikdən sonra Marağa padiqanı da silahı təhvil verməyə məcbur oldu.

22 azər (13 dekabr) axşam saat 12-də Miyandab padiqanın mühasirəsini şiddətləndirdik. Nəhayət səhər saat 8-də onların silahlarını təhvil aldım. Bu vuruşmada çoxlu silah və qənimət ələ keçirildi. Həmin gün Kəbiri, Azərbadiqan, Qulu Sübhi ətrafdan yəni öz postlarından Miyandaba gəldilər. Orada təsmim tutduq. Məhmudcıq, Sayınqala və Hulasunu düşməndən təmizləyib, ələ keçirtdik. 27 Azərdə 18 dekabr verilən postları təhvil aldıq. Qərar oldu Kəbiri Marağa ətrafında, Qulu Sübhi Miyandabda, mən Sayınqala və Hulasu ətrafında fədailəri münəzzəm edib, müdafiyəyə hazırlaşaq. Jandarm, nizami qüvvələri Tikabda (Tikantəpədə) cəm olub, Sayınqalanı almaq fikrində idilər. Əfşar malikləri öz səvarə (suvari), piyadalarını Tikab qüvvəsinə kömək verib, biz az müddətdə çoxlu qüvvə hazır etməyə müvəffəq olmuşdular.

Rixanleşgər və qardaşı Hacı Sərdar Caharoymaq mahalında neçə dəfə bizə həmlə etdilər. Fədailər isə onların həmləsinin dəf edib, öz yerlərinə qaytarmaqla onlar çoxlu tələfat verdilər.

Tikab xəttindən, Sursad dağından düşmən neçə dəfə sərbaz, jandarm və əşayirlə mənim postlarıma həmlə etdi. Nəticədə bunların həmləsini dəf edib və ən əsas postları ələ keçirtdik. Qızılı, Həmzə Qasım, Hisar Bağmeşə yüz para kənd təsərrüf edib, düşmənə ağır zərbə vurduq. Hətta Eyinbulağın 5 kilometrinə qədər irəli getdik.

Bir il müddətində neçə dəfə düşmən ilə vuruşmaq əmələ gəldi və neçə dəfə düşməni məğlub edib, geri oturtduq və bu müddətdə böyük miqdarda qənimət ələ keçirdik. Tüfəng, at, qatır və böyük miqdarda güllə və hərbi ləvazimata sahib olduq. Bütün cəbhənin idarə edilməsi üçün lazımı əmrləri Azərbaycan Demokrat Firqəsinin sədri Ağayi Pişəvəridən alırdım. Hətta müharibə göstərişinə də O bəzi vaxt özü şəxsən əmr verirdi. Mən isə sadir olan (verilən) əmrləri nöqtə bə nöqtə icra edib, yerinə yetirirdim.

Milli Hökumətin quruluşundan sonra nehzətdə fədakarlıq edən imanlı fədai başçılarına firqə sədri ağayi Pişəvəri tərəfindən hərbi dərəcə verildi. Fəaliyyətimiz təqdir olunaraq, Kəbiriyə generallıq, Qulu Sübhi ilə mənə Sərhənglik dərəcəsi verildi və bu dərəcəni ağayi Pişəvəri şəxsən öz xətti ilə yazıb mənə elan etdi.

Bizim təşkil etdiyimiz fədai qüvvələrinin sayı aşağıdakı qərar üzrə idi.

| | |
|---|---|
| General Kəbirinin dəstəsi, | suvari – 500, |
| | piyada – 500, |
| | Cəmi: 1000 nəfər. |
| Sərhəng Aram | suvari – 400 |
| | piyada – 400 |
| | Cəmi: 800 nəfər. |
| Sərhəng Qulu Sübhi | suvari -100 |
| | piyada – 200 |

Cəmi 300 nəfər.

21 Azər nehzətində ələ keçirilən silahın sayı:

Tüfəng-700 ədəd, Ağır müsəlsəl (avtomat) – 6 ədəd, yüngül müsəlsəl - 17, at – 17, qatır 12 baş, telefon 6 dəstgah, güllə – 100 min ədəd və çox pətu (adyal) və başqa şeylərdən ibarət idi.

Miyandab, Bukan, Qaramusalu, Rəhimxan, Cillicə, Kişvər, Maxmudcıq, Sayınqala, Hulasu, Qızılı, Sancud, Bağçameşə, Hisar vuruşmalarından son günə dək qəhrəmanlıq göstərən fədai başçılarının adlarını da qeyd etməyi lazım bilirəm.

Tağıabad kəndindən, Almas, Ağababa və Digəran və başqaları. Tarurdiyan (....... Elxanı), Soltəpədən Qulam Əkbəri, İşxan Zadəgan, Nəzər Davudyan, Soqrat Davudiyan və mütəfəriqə yerlərdən mühacir dəstəsi Polad Sərkari, Bulud Sərkari, Məhəmməd Sərkari, Abbasxan Paşa, Həsən Mehrabi – bu şəxslər 100 nəfər mühacir yoldaşlar ilə 21 Azərdən qabaq ən böyük fəaliyyət və qəhrəmanlıq göstərmiş son dəqiqəyə qədər öz əqidələrində möhkəm dayanmışlar.

Kürdlərdən Kərim Ənzari tamam vuruşmalarda qəhrəmancasına şirkət edib, şahsevən elindən öz dəstəsi ilə Əhədxan, Gülşad, kərbalayi Qədim, Hulasudan Süleyman Ziyayi, Mirzə Fərəc Qələndəri.

Miyandabdan: Əli Mütii, Zaman Kamal Qədim, Müzəffər Dirəxşan, Qara Vərandan qəhrəman Əfşari bu adam Bağçameşə müharibəsində böyük fəaliyyət göstərmişdir.

1325-ci (1946) il 13 azərdə (4 dekabr) Tikabda (Tikantəpə) olan İran qoşunu (Sursad dağından) mənim dəstəmin üzərinə həmlə etdi. Bu dağda 3 gün şədid surətdə vuruşduqdan sonra düşmənin tam qüvvəsini geri qaytarıb, onlara təlafat verdik. Neçə gün ondan sonra düşmənə böyük qüvvə yetişdi. Saqqızdan təyyarə, tank, qumbara, top və çoxlu kürd atlıları ilə bizə hücum etməyə başladılar. Biz onların böyük qüvvə və

qüdrətlərinə baxmayaraq azərin 20-nə qədər (11 dekabr) müdafiə edib, vuruşmanı davam etdirirdik.

20 azərdə Hulasu və Sayınqala postlarını boşaldıb, Mahmudcıq dağlarını işğal etdik. Bu zaman azər ayının 21-də tərki-müqavimat teleqrafı bizə yetişdi. Tamam hərbi dəstəsi və fədailəri öz məhəllərinə göndərib, Miyandab, Marağa padiqanlarına 20 azərdə səhər saat 5-də Təbrizə daxil oldum. Saat 8-də bizim evimizi mühasirə etdilər. 24 saat vuruşmadan sonra onlardan 7 nəfərini öldürdükdən sonra evi tərk etdim. Mən çıxan kimi mürtəcelərin təşkil etdiyi qara quruh (qara qüvvə) evimi qarət edib, dağıtmaqla özlərinə təsəlli verməyə başladılar. Bir azdan sonra orada bir dənə belə qapı və pəncərə sağlam qalmadı. Tağıabad və Miyandab kəndində olan həyətlərimi də od vurub, yandırmışlar. Iki qardaşımı tutub, həbs etmişlər. Beləliklə müxtəsər surətdə gördüyümü sərh verdim.

**Ərdəbil fədai dəstələrinin başçısı Əbdül Məcid Məhəmmədqulu oğlu Məhəmmədivənd**

Dehqan, Xələflu ətrafında, Sərdəşt Mücəddər, Zaviyədə Qulam Nikcə........ bu dəstələr təşkil tapandan sonra aban ayının 27-də (noyabrın 18-də) gecə saat 2-də bütün Ərdəbil jandarm postları fədailər tərəfindən işğal oldu. Işğal olunan postlar bu qərarı verdi: Nir, Mərcin, Nəmin, Qonaqqıran, Xəlfəludan alınan tüfənglər silahsız fədailər arasında bölündü. Iki gün bundan sonra da jandarm dəstələri mühasirə olunub, tərk-silah olundular. Bu mövqedə mübarizə nəticəsində yaralanan fədailərin müalicəsindən ötrü Ərdəbildə gizli bir surətdə xəstəxana təşkil verilib, doktor Murtaza bir neçə nəfər azadixah səhiyyə işçiləri ilə hazır oldu. Iftixarı olaraq (pulsuz) yaralanan fədailəri müalicə etsin.

Bu məsələdən sonra Ərdəbilin əlaqəsi ətraf padiqanlar ilə kəsilib, Caddələr (yollar) ümumiyyətlə fədailər əlinə keçdi. Iki

gün sonra qərara alındı ki, Ərdəbildə jandarm alayı tərki-silah olunsun. Bu barədə də lazımı tədbirlər icra olundu. Bilaxirə gecə saat 8-də şəhərdə jandarm idarəsinə fədailər həmlə etdi. Jandarmlar tərk-silah olunub, onların mövcud silah və sursatları fədailər tərəfindən təsərrüf olundu. Oradan ələ gələn silahları da şeyx (Polad) silahsız fədailərinə verib, əvvəl növbədə Ibrahim Zakiri oranın fədailərinə başçı təyin etdik. Jandarmların məğlubiyyətindən vəhşətə düşən sərbazların bir iddəsi nizamiyyəni buraxıb qaçmışdılar. Bu cərəyandan sonra jandarm qurhanın (alay) fərmandehi Firidun Əfşar gedib, sərbazxanada yatırdı. Ehtimal, ki o günlərdə sərkərdə olub, sərbazların hamısı sərbazxanada yatırdı.

Azadixahları döyüb, yersiz əziyyətlər edib və şallaq vurmaqla bütün Ərdəbil camaatına cəllad kəsilən məhbəs rəisi fədailərdən birinin vasitəsilə saat 9 günortadan qabaq bazar içində qeysəriyyədə (üstüörtülü bazar) terror edildi. Bu mürtəceləri artıq dərəcədə dəhşətə saldı. Heç cürət edib, onun meyitinə yaxın düşmürdülər. Cənazə günortadan iki saat sonraya dək yerdə qaldı. Bundan sonra səhərə xəbər yetişdi ki, tip (diviziya) başçısı sərhəng Zərif və Tikab rəisi sərhəng Mənzuri və Sərvan Firidun Əfşar bu fikirə düşüblər ki, fürsət əldə edib, Ərdəbildə olan silahlı qüvvəni ovçu mahalına çəkib, tüfəngləri sərbazlardan alıb, xan, bəylərə verdikdən sonra talış vasitəsilə Tehran ilə əlaqə saxlayıb, azadixahlar ilə vuruşsunlar. Bu nəqşənin qabağın almaqdan ötrü əmr verdim təqribən 12 min silahlı və silahsız fədailər tərəfindən Ərdəbil şəhəri bir kilometr şəhərə qalmış ətrtafı mühasirə oldu. Bu işin nəticəsində onların nəqşəsi pozuldu. Bu günlərdə Əhərin padiqanı əvəz olub, Meşkin şəhər yolu ilə Ərdəbilə gəlməyə çalışırdı. Onlar yolda şəhərin fədailərinə təsadüf edib, bir iddəsi tərk-silah və qalanı qaçıb, yenə də Meşkin şəhərinə getmişlər. Ərdəbil mühasirə halında idi. Lazım gəldi ki, Meşkin şəhər jandarm padiqanı alay və başqa isilahlı qüvvələri tərki-silah olunsunlar. Ərdəbil şofirlər ittihadiyyəsi adından İttihadiyyənin

Karajının müdürü Nüsrət Məcidini çağırıb, neçə dəstgah maşın istədim. Məcidi ittihadiyyədən şoferləri mənim yanıma göndərdi. Onlara dəstur verdim Tehran bəhanəsi ilə yola çıxsınlar və müəyyən yerlərdə adamlar qoyulmuşdu ki, onlar hər yerə baş çəkib, şoferlər orada ikinci əmrə müntəzir olsunlar. Bilaxirə axırıncı dəfə şəhərin, kəndin Caddəsinin (yol) ağzında durmuşdu. Yol göstərirdi 22 dəstgah maşın ora toplandı. Şeyx Əhməd kənd postunun, Təmrin, Təzəkənd və Nikcədən də bir neçə dəstə fədailər ehzar olub, 24 saat onlara lazımı təlimat keçildi. (Bu məmuriyyətdə Milaniyan da var idi). Bu zaman Məhəmməd Cəfər Məhəmmədqulu oğlu Məhəmmədivənd şofer Bəhrəm müşayiəti ilə maşınla qabaqcadan Meşkin şəhərinə yollandı ki, gedib şəhərin vəziyyətin bilib və onların nəqşələrindən xəbərdar olub, raport versinlər. Deyilən şəxslər də öz məmuriyyətlərini layiqincə icra edib düşmənin səngərlərinin vəziyyətini və postların yerlərin nəqşəsini götürüb getmişdilər. Bunların raportu yetişəndən sonra azər ayının 13 (4 dekabr) gecəsi kamiyon (yük maşını) vasitəsilə hərəkət olundu. Gecə şiddətli yağış yağdığına görə Docaq Gədiyi çox palçıq olmuşdu. Maşınlar bir neçə saat ləngidi. Təqribən saat 3 gecə yarsından sonra bir dəstə Fəxrabad kəndinə (şərqi Meşkin) daxil oldu. Burada əmr verdim Meşkin şəhəri ilə Ərdəbil və özgə mahalların əlaqəsini kəsdilər ki, qaçıb gedənləri saxlasınlar.

Bu mahaldan da Lahrud, Noqdi, Arçıb, Əliabad, Çiqan, Qaraqaya fədailərindən də bir dəstə intixab olunub, bizimlə birlikdə vuruşmağa hazır oldular. Azər ayının 14-cü (5 dekabr) gecəsi saat 10-da hərəkət etdik. Əmr verdim kamiyonların çıraqlarını qara parçalarla bağlasınlar ki, nəzəri cəlb etməsin. Nüsrət Məcidi öz maşınında qabaqda gedib, bizə bələdçilik edirdi. Şəhərin 9 kilometrliyinə qədər maşınla getdik. Orada maşınları dərədə qoyub, Fəxrabadda təşkil verdiyim dəstələr sütun halında hərəkət etdi. Təqribən saat 2 gecə yarsında Qara Dərviş kəndinin dərəsinə yetişdik. Orada bir iddəyə bələdçilər

qoşduq. Qabaqcadan onları Meşkin şəhərindən olan fəal və inamlı üzvlərdən Məhəmməd Cəfər Məhəmmədivənd dəstur üzərində gətirmişdi. Onlardan dəstələrə qoşulduq. Saat və nəqşə üzərində əvvəl sərbazxananın məmurları sonra bəxşidarlıq, nəzmiyyə, bank, bəxşidarın evi, əşair rəisinin evi və idarəsi, jandarm rəisinin evi, axırda jandarm idarəsi ki, şəhərin əvvəlində idi, hədəf qərar verilmişdi. Dəstə hərəkət etdi. Bir qism Qara Dərviş kəndinin ətrafında qoyuldu ki, əgər arxadan şahsevən bəylərindən köməyə gəlsə qarşısını alsınlar. Mən özüm şəxsən bir iddəyə başçılıq edirdim. General Miyaniyan da ciddi surətdə döyüşdə iştirak edirdi. Şəhərin əvvəlində xaraba hamamı mərkəz qərar verib, hər qismin əlaqəsi tanıdılmışdır. Təqribən gecə saat 3-dən 5-ə qədər atəş fərmanı verildi. Fədailər iki hərbi padiqanı (Əhər və Meşkin şəhər) bir qurhan jandarmdan əlavə ətraf jandarm məmurları sərvan Əsədulla Ədib Əminin ixtiyarında olan əşair dəstələri dururdu və pasibanlar ilə üz-üzə olub, şiddət ilə vuruşmağa başladılar. Birinci növbədə nəzmiyyə idarəsi təsərrüf olundu. Vəli sərbazxana və jandarm idarəsi özləri üçün müdafiə xətti, səngər hazırlayıb, şədid surətdə müqavimət göstərdilər. Bizim sitatımızla jandarm idarəsinin fasiləsi 25-30 metrdən artıq deyildi. Fədailər jandarmeri idarəsinin mühasirə edib, şiddətli surətdə atışdılar. Vuruşmanın uzanması ehtimal olunurdu. Evin içinə girmək müşkül idi. Bir nəfər fədai ora girmək istəyən zaman onu vurub, öldürmüşdülər. Onun cənazəsi idarənin qabağında qalmışdı. Ev iki mərtəbə idi. Jandarmlar hər iki mərtəbədə səngərlər hazırlamışdılar. Səhər açılan kimi jandarmların işi xatəmə tapmalı idi. Vəziyyəti belə gördükdə olduğum həyətdə balaxananın divarını dəlib, jandarm idarəsinin üzbə-üzündə təqribən 25 qədəmdən artıq olmayan dama yol açdım. Orada iki şəhərin fədailərindən götürüb, şəhərə özüm yüngül avtomatla atışmağa başladım. Təqribən bir saat şiddətli atışma getdikdən sonra fədailərə fərman verildi ki, idarənin qapısını sındırıb, içəri daxil olub, süngü və güllə ilə

orada olan jandarmları məhv və nabud etsinlər. Təqribən səhər saat 11-də jandarm idarəsi alındı. Baş leytenant Sədiqinin vasitəsilə sərbazlar şədid surətdə müqavimat göstərirdi. Atışma hər an şiddətlənirdi. Sərbazxananın mühasirə nəqşəsi bu cür götürülmüşdü ki, bir tərəfdən sərbazların qaçmağına imkan olsun ələ gələn məlumata görə sərbazlar ki, camaatla üz-üzə olub, mübarizə etmək istəmirdilər. Təqribən saat 2, günortadan sonra sərbazxana bütün gülləlari atıb, qurtardıqdan sonra təslim oldu. Lakin 14 nəfər onlardan öldürülmüşdür. Dəstur verildi tamam ölənlərin cənazələri yığılıb dəfn olunsun. Fədailərdən 4 nəfər şəhid olmuşdular ki, onlar da sabahkı gün dəfn edildi və 9 nəfərdən ibarət olan yaralıları jandarm idarəsi təslim olmadan əvvəl avtobus vasitəsilə Ərdəbilə yolladıq. Bu vuruşmadan sonra əvvəl növbədə bank rəisi Nəxçivani ehzar olub, bank sandığı möhrümum olub, surətməclis (protokol) üzrə təhvil verildi.

Amma jandarm rəisi Nəsrulla Ərdəbili qaçmışdı. Abbasqulu (bəxşidar) Ərbabzadə və əşair rəisi Əsədulla Ədib Əmini tutulmuşdular. (bu iki nəfərin vəziyyəti aşağıda izah veriləcəkdir). Tamam ətrafdakı fədailərə və kənd hozələrinə jandarm rəisinin qaçmasının xəbəri verilmişdi ki, onu görən kimi tutsunlar. 17 azərdə (8 dekabr) onun arvad paltarında kəndlilər tutub, gətirib Meşkin şəhərində fədailər sitadına təhvil verdilər. (Bu zaman Miyaniyan Təbrizə ehzar olunmuşdur).

Təqribən səhər saat 10-da Abbasqulu Ərbabzadə və sərvan Ədib Əmini və jandarm rəisi baş leytenant Nəsrulla Ərdəbili – hər üçü birlikdə fərmandehlik otağına çağırıldı. Hər üçünə sual verildi ki, Siz nə səbəbə öz ixtiyarınızda olan qüvvələrə əmr vermişdiz ki, axırıncı güllə qalana dək müqavimət etsinlər. Əlbətdə sizin əmriniz nəticəsindədir ki, hər iki tərəfdən bir neçə nəfər ölüb və yaralanıblar. Siz hansı əmrin əsasında bu əmələ iqdam edibsiniz. Baş leytenant bir yazılı kağız çıxartdı ki, sərvan Ədib Əmini ki, Ərdəbil hərbi qüvvəsinin fərmandehi sərhəng zərif tərəfindən Meşkin şəhərini müdafiə etmək üçün

sərkərdə təyin olub. Və həmçinin aramızda olan böyük dərəcəli əfsərdir ki, O, bu dəsturu veribdir. Bu məsələ sərvan Əsədulla Ədib Əminidən sual oldu. Cavabında O dedi: “Mənə də bəxşdar Abbasqulu Ərbabzadə dəstur verimşdi”. Bu haqda Ərbabzadədən sual olundu. Nəticədə o bu mövzunu inkar edib, dedi: “Bu məsələ təşkil verdiyimiz komesiyon iclasında qərara alınıb, mən belə dəstur verməmişəm”. Əlbətdə hər üçü etdikləri pis əmələ etiraf etdilər.

1. Nəsrulla Ərdəbili – baş leytenant, quruhan dəstə sərkərdəsi, Təbrizli idi. Neçə ildir ki, Meşkin şəhərdə məmur idi. O şəxs olduqca pis adam idi. Əmiraslan Xatəmbəy və başqa bəylər və bəy zadələr ilə əlbir olub, əlindən gəldiyi cinayəti azadixahlara nisbət əsirgəməmişdi. Onları dəstə-dəstə zindanlara təhvil vermiş və bir iddə kəndliləri döyməklə onları kəndi tərk etməyə məcbur etmişdi. Əmiraslan İsalu, Hatəmxan Küklü hər bir əmələ əl atırdılar. Bu leytenantın köməyi ilə olurdu. Mən özüm şəxsən 1323-cü (1944) ildə Meşkin şəhərə getmişdim. Orada bu adam tərəfindən Meşkin şəhərinin komitəsi və şərqi və qərbi hozə sədrlərinin məngənə (sıxılmasını) altına alındığını gözüm ilə görmüşdüm. O günlər mən Türkpur ilə jandarm idarəsinə gedib, bu adamla danışdıqda ona demişdim ki, xalqa əziyyət etməyin. Bilaxirə bir gün millət sizdən bu günlərin hesabını çəkər”. O gün O mənə cavab vermişdi ki, bu millətin altı min ildir başına vurulub, çörəyi əlindən alınıbdır. Ondan bir iş çıxmaz. Onun qeyrətini bilirik”. Bilaxirə fədailər və məhəlli azadixahlar bu şəxsin edamını istədilər. Səhərisi saat 2-nin yarsında azərin 17-də (8 dekabr) Nəsrulla Ərdəbiyə elan olundu ki, sizin əməlləriniz ölümlə nəticələnir. Saat iki günortadan sonra bu hökm əməli olacaqdır. Tədqiqat nəticəsində onun 700 tümənə qədər pulu olması aşkar oldu. Əvəzində O, bütün kasıblara və ev kirayəsi buxarı qayıran və özgələrə borclu idi. Tələbkar gəlib, onların tələbləri ödənildi. Saat 2 tamamda Meşkin şəhər xiyabanında çaharrahdan şərqə tərəf bir söyüd ağacı var idi.

Əmr verildi ki, onları ora bağlansınlar. Əlbətdə mitinqdə onun əməlləri bütünlüklə izah olundu. O leytenant söz istəyib dedi: “Düzdür mən bu millətin haqqında namərdlik etmişəm. icazə verin mən tək-tək bura yığılanların ayaqlarından öpüb, əfv diləyim. Və bir də Təbrizdən pul istəyim ki, hər kimsədən nə almışam ödəyim”. cavabında dedim: “Yadındadır ki, 1324-cü ildə (1945) sizə dedim bu millətin yaxasından əl götür. Dedin biz bu camaatın qeyrətini bilirik, əllərindən heç iş gəlməz. Bil bu millət bundan ötrü silah ələ almayıb ki, verdikləri pulları geri alsınlar. Siz ona görə edam olursunuz ki, millətin qeyrətini biləsiz və bir də sizin kimi xalq düşmənləri bilsinlər millətin müqəddəratı ilə oynayanların cəzası nədir. Istəyimiz budur ki, sizin edamınız tarix səhifələrində dərc olunsun. Gələcək dünya sizin kimi naxələf azərbaycanlılardan ibrət alsın”. Cavabında O dedi: “Arvad paltarın giyəni öldürməzlər. Dedim əgər sizim edamınıza yüz illət vardırsa biri də odur ki, bu vəziyyəti törədib, özünüz arvad paltarı geyib, qaçmısınız”. Bu danışıqdan sonra edam olundu. Cənazəsi ağacda qaldı.

2. Abbasqulu Ərbabzadə Ərdəbili idi ki, 1321-ci (1942) ildə Sarabda bəxşdar idi. Sarab vaqiəsində (hadisəsində) ki, sərhəng Canpolad ilə bərabər, orada çoxlu cinayətə əl atmışdı. Həmin cərəyan Abbasqulu Ərbabzadənin hazır edib, nəqşə hazırlanmışdır. Bu şəxs Meşkin şəhərində də bütün yuxarıda qeyd olunan cərəyanlarda iştirakı var idi. O birbaşa bu işlərdə müdaxilə etmişdir. Buna görə bu adam da ölümə məhkum oldu.

3. Sərvan Əsədulla Ədib Əmini ki, özü Ərdəbil əhli idi ki, xanəvadəsi (ailəsi) mürtəce təbəqədən olduğu kimi diplomat bir əfsər idi. Birbaşa Tehran ilə əlaqəsi var idi. Həmişə sirli bir şəxslər paltarlarını dəyişib, bu adamla görüşürdülər. Bu şəxsin əli ilə bütün şahsevən xan və bəylərinə tüfəng verilib və şahsevən içərisində azadlıq əleyhinə olan səbəblər onun əmrilə icra edilmişdir. Onun etirafına görə Yurdcudan Dutdusınana qədər müxtəlif şəxslərə və bəylərə yüz tüfəng vermişdir. O da

ölümə məhkum oldu. Qərbi Meşkinin nüxtəlif bölgələrin fədai dəstələrini təşkil verilib, onun sərkərdəsi o dəstələrin başçısı Kamran Əzizi təyin olmuş, Meşkin şəhərin əmniyyəti ona tapşırıldı. Azər ayının 18-də gecə saat 10-da bir iddə və bir dəstə avtobus vasitəsilə Ərdəbilə tərəf hərəkət etdi. Gecə Fəxrəabadda qalıb, 19-u gecə bu dəstə Təzəkənd, Məhəmmədiyədə, Ərdəbilin 18 kilometrliyində toplandı. Mən özüm Ərdəbilə getdim. Bu mövqedə Kərəmi və Ucarud kəndlərini ki, Əlixan Bəhramxan oğlu və Mollaqulu ki, orada təşkil tapan fədailərin başçısı idilər, mühasirə etdi. Kərəmidə olan jandarm və ordunu Seyidhüseyn Mirqulam və Hüseyn Vətəndust almaq istəyirdi. Oranın fərmandehinə xəbər verdim, 48 saata kimi təslim olsun. Əgər bir ədəd tüfənglərdən başqasının əlinə keçsə iki şaqqa olacaqdır. Bu xəbər ordu fərmandehi kiçik leytenant ...... qorxuya salıb, tüfəngi bəylərə verməkdən çəkindi. Bu mövqe Ərdəbil tipinin (ordusunun) süqutuna iqdam olunurdu ki, İyirmi biri gecə Məhəmməd Cəlil və Hacınağı Vahabzadə Təbrizdən gəlib, orada gedən hadisəni bizə xəbər verdilər. Hacınağı sərhəng Zərivi, Firidun Əfşari və sərhəng Mənzurini sərbazxanadan evinə əmr üzündən apardı ki, birdən onlar Təbrizə tabe olmayıb, müqavimət edərlər. Azər ayının 21-də şəxsən mən düruşgə (fayton) ilə sərbazxanaya getdim. Əfsər və sərbazlardan bir dəstəsi otaqlarda, bir dəstəsi isə səngərlərdə idilər. Uca səslə sərbazlara dedim ki, bütün Azərbaycanda silahlı qüvvə təslim oldu. Onlar Azərbaycan Demokrat Firqəsi tərəfindən buraxılıb. Siz sərkərdələr və ya fərmandehlər əmr verin ki, sərbazlarda olan silahları təhvil alıb, anbarlara qoyun. Eyni zamanda müəyyən yerlərdə müəyyən dəstələr olmuşdur. Sərbazlar bu sözü eşidən kimi sevinc ilə silahları təhvil verib, getdilər. Əfsərlər bu hadisədən sonra qorxuya düşüb, mənə müraciət etdilər. Onları bütün əminliklə, sakit etdim. Sonra sərhəng Zərivə və sərhəng Mənzuriyə elan olundu ki, sərbazxananın silah və bütün təchizatının siyahısını təhvil versinlər. Sərhəng Zəriv elə fikir edirdi ki, dəstgah hənuz

pozulmamışdır. Ona görə sərhəng mənzuriyə əmr etdi ki, onun tabeliyində olan dəstəni sıraya düzüb, təhvil versin. Sərhəng Mənzuri cavab verdi ki, dəstə qalmayıb. O soruşdu: "Nə olub?" onların hamısını ağayi Məhəmmədivənd buraxdı. Bu sözdən sonra sərhəng Zəriv qorxudan tərlədi. Deidm: "Tərləmə, ancaq bunu bil millət qadirdi ki, sizin bu kardon dəstgahınızı ani vahidə pozsun". Bilaxirə O, vəziyyəti belə gördükdə yazılı şəkildə sərhəng Mənzuriyə yazdı ki, sərbazxananı təhvil versin. Beləliklə siyahı üzrə sərbazxana təhvil alındı. Təqribən 1000 ədəd tüfəng, 72 ədəd yüngül avtomat, 15 ədəd ağır avtomat, 280 min güllə, 72 top, telefon və başqa əşya və təchizatı təhvil aldıq. Bununla da Ərdəbil və onun ətrafında olan xalqın mal, can və namusunu ayaqlar altına alan qəddar və mürtəce dövlət məmurlarından təmizlənib, qüdrəti demokrat firqəsinin rəhbərliyi ilə təşkil tapan Milli Hökumətin ixtiyarına keçdi.

**Miyana fədai başçılarından Məmiqulu Sadiqinin xatirəsi**

Mən Məmiqulu Sadiqi azər ayının 10-da 1324-cü ildə (1 dekabr 1945) Mərkəzi Komitə tərəfindən Təbrizə çağrılıb, orada tapşırıq aldıqdan sonra Qulamyəhya yoldaşa müraciət edərək, Ənsari və Məhəmmədəli Ramtin ilə birlikdə Miyanaya qayıtdım. Mərkəzi Komitənin tapşırığına görə Miyana, Gərmrud kəndlilərini toplayıb, onları fədai dəstələrinə yazılmağa dəvət etdik. Sonra fəal fədailəri çağırıb, onlara azərin 14-də (5 dekabr) silah payladıqdan sonra qiyam etdik. Mürtəce dövlətin jandarmlarını məğlub edib, Gərmrud mahalını öz əlimizə aldıq.

Yoldaş Qulamyəhyanın tapşırığına görə 120 nəfər götürüb, Qaflankuh körpüsünün şah Abbas karvansarasında məskən etdik. 28 gün orada qalıb, bütün oranın əmniyyətini təmin elədim. Yenidən yoldaş Qulamyəhyanın çağırışına əsasən Miyanaya gəldim.

Orada mənə 350 nəfər fədai verdilər. Sultan Mahmudxan ki, Kəlucə kəndində idi, onların qarşısına getməyə məmur oldum. Bu işlə məşğul olduğum günlərdə Cəbrailxanın Qızılı kəndində fədai dəstələri ilə vuruşmasından xəbər tutdum. Təcili öz dəstəm ilə onların köməyinə getdim. Oranı təsərrüf edib, onları tuduqdan sonra qayıdıb, öz postumuz Kəlucə kəndinə gəldim. Yenə bir neçə gündən sonra Qulamyəhyadan əmr alıb Əli Sərabi ilə birlikdə ...... kənd istehkamatına getdim. Bütün gecəni döyüşdən sonra oranı ələ gətirdik. Onları oradan qovduq. Qara Putambuşaniyə kəndlərindən keçib, Oriyad mahalı, Pərilər və Həsənabad, Qaradaş kəndlərində şədid surətdə vuruşduq. Sonra Oriyad mahalının əmniyyətin təmin etdik. Bütün cəngəllərdə xanlar və məmurxan elatlarına qalib gəldik. Zəncan alınandan sonra Qulamyəhya tərəfindən sonra zəncana çağırıldım. Qulamyəhyadan tapşırıq alıb, Məhəmmədqulu Ramtin ilə Oriyada qayıdıb, atlı suvarilər dəstəmizlə Ənkuran xanı Qulamhüseynxan Bəhadirinin üstünə getdik. Gecə ilə böyük vuruşma oldu. Ənkurani əlimizə keçirdik. Orada iki gün qaldıqdan sonra post təyin edib, özümüz Xəmsə mahalında olan Duz kəndinə hərəkət etdik. Düşmənin dəstəsi Çayırlıda olmağına görə qışın ağır qarlı vaxtlarında gecə ilə Çayırlıya tərəf getdik. O vaxt bütün qoşuna özüm başçılıq edirdim. Gecəni böyük atışmadan sonra düşməni məğlub edərək, Çayırlını da əlimizə keçirtdik. Orada bir neçə gün qalıb, o mahalın bütün əmniyyətin bərqərar etdik. Sonradan düşmənlər Qoltuq kəndində olduğuna görə ora hərəkət etdik. Onlar bizim ordunu almağımızı bilib, oradan Seyidabad kəndinə qaçmışdılar. Biz də bir başa onları təqib edərək, Seyidabada getdik. Orada iki gecə-gündüz vuruşub, axırda düşmən davam gətirməyib, Yayın kəndinə tərəf qaçdılar. Yayın kəndində olan Qızılözən Çayının körpüsü Həmədan-Bicar yolunun keçid körpüsü idi. Biz də yoldaş Qulamın əmrinə görə oraya getdik. Sultan Məmurxan və onun köməkçi xanları ilə qoşunları orada idi. Orada böyük

vuruşmadan sonra qəflətən gecə həmlə etdiyimiz Mahmudxan öz qalan dəstəsi ilə Bicar mahalına getdilər. Biz orada Mahmudxandan aldığımız anbarı açıb, yeşiklərlə dolu gülləri gördük. Güllərin qutularının üstü Ingilis dövlətinin nizanları ilə yazılmışdır. Tüfənglərdə 11 açılan və 5 açılan, 3 Tirbar və bir qədər avtomatlardan ibarət idi. Körpü çox əhəmiyyətli olduğundan yoldaş Qulamın əmrinə görə mən öz dəstəmdən bir qədərin Seyidabada göndərib, qalanları ilə orada 6 ay qaldım. Mahmudxan o körpüdən keçmək istəyirdi. Biz də qoymayırdıq. Daimi vuruşma var idi. Onlar əl çəkmədikdən yoldaş Qulamın əmrilə o körpünü gecə ilə dağıtdım. Mayor Məhəmmədəli Ramtin xəbər göndərmişdir ki, Məhmudxan və Ənkuran anbarı Qulamhüseynxan Bahadiri özlərinin və bir qədər də kürd atlıları ilə Ənkuran postunu mühasirəyə salıb, fori (təcili) xəbəri alan kimi bir neçə nəfəri götürüb, Ankurana getdim. Bir neçə gün vuruşmadan sonra onlar məğlub olub, qaçdılar. Mən ədə öz dəstəmi götürüb, Yayin kəndinə qayıtdım. Sonradan yoldaş Qulamdan əmr alıb, Zəncana qayıtdım. Qulamın Zəncanda olmadığı üçün Təbrizin verdiyi teleqraf xəbəri ilə mən və yoldaş Məhəmmədəli Ramtin təcili Kərəs mahalına hərəkət etdik. Bir neçə gün Kərəstdə (Kərsuf) qalandan sonra Zevinabada getdik. Bütün o dəstənin siyasi rəhəbərlik vəzifəsini icra etməyə görə ətrafda olan qoşunlarımızın vəziyyətini təftiş etməkdən ötrü gedirdik. Yolda təsadüfən maşın çevrildi. Mən, Məhəmmədəli Ramtin, Həsən Nəzəri və bir neçə fədai ağır surətdə yaralandıq. Ona görə bizi xəstəxana Miyanada olduğuna görə Miyanaya gətirdilər. Neçə müddət yatandan sonra sağaldıq və yoldaş Qulamın əmrinə görə Miyana və Qərmrud fədailərin başçılığına təyin oldum. Oranın əmin-amanlığı bizim əlimizdə oldu. Sonradan Zəncam dəstəsi Miyanaya gəlməyinə görə dilim gəlmir Zəncanı qoşunlar çəkdiyi zəhmətlərdən sonra verib, Miyanaya qayıdalar deyəm. Böyük zəhmətlər, yəni ağır işlər oldu. O dəstələrdən bir qədərini Yoldaş Qulam Yəhya Təbrizə göndərdi. Bir neçə

gündən sonra mürtəce qoşunların bizim üstümüzə hücumunu eşidib, Qulamyəhyanın əmrinə görə Qaflankuha hərəkət etdik. Mənim yadımda baş leytenant seyid Mustafa Hüseyni və Rəhim Bəxşi də var idi. Düşmən böyük basqınlar edirdi. Təyyarə, top, ağır avtomat və tank aman vermirdi. Biz də öz ətrafımızı bərk saxlamışdıq. Səhər tezdən Rəhim Bəxşi ilə Əmrabadın üstü Şeyxdərabadda olan fədai dəstələri gecə bizə vurduğu düşmən tərəfindən zərbəni yoxlamağa getdik. Miyana vağzalından Əmrabadın üstü Şeyxtərəabada kimi mənim fədai dəstələrim düzülmüşdür. O gecə düşmənlər böyük dəstələrlə gəlirdilər. Məndə iki leytenant köməkçi ki, yuxarıda göstərilib, yəni seyid Mustafa Hüseyni və Rəhim Bəxşinin zirəngliyi ilə bütün həmlələrin qarşısını aldıq. Heç bir yerdən xəbərimiz olmadı. Düşmən Miyana tərəfindən gəlib, bizim arxa tərəfimizi tutmuşdular. Nagahani olaraq bizə həmlə edib, və bizi Caharhalqa kimi mühasirəyə aldılar. O gün mənim 300 piyada fədaim var idi. 22 Azər 1325 (dekabrın 13 1946) gecəsi onlardan bir iddəsini qırub, şiddətli vuruşmadan sonra mühasirəni sındırıb, fədailərə nicat verdik. Miyananı düşmən tutmuşdur. Naçar Təbrizə tərəf qayıtdıq. Bostanabadda dedilər Təbriz alınıb və tutanı da öldürürlər. Ona görə biz 300-dən artıq atlı ilə Ərdəbil tərifnə getdik. Piyada dəstəsi Sarabda qaldı. Ərdəbil torpağında ..... xan atlıların toplanması bizi dinc qoymadı. Sarab və Ərdəbil arasında olan Manqutay əmniyyələrin böyük maşından düşmüş dəstəsi ilə qarşılaşdıq. Onların maşının üstündə avtomat qurğusu var idi. Böyük atışma oldu. Axırda oradan dağlar ilə Ərdəbilə aşdıq. O vuruşmada iki adamız qaldı və Ərdəbildə də xan atlı dəstələrinin hər birinə rast gələndə dağıtmayınca keçmirdik.

Onlar 3 Ərdəbil mahalında bizi təqib edib, vuruşurdular. Tainki gəlib, Ərdəbili keçdik. Bir yerdə düşə bilmədik. Gecənın külək və qüdrətli soyuğuna baxmayaraq məcbur idik yolumuza davam edək. Axır vuruşmamız Ərdəbil ilə Nəmin arasında oldu. Bütün xanlardan toplanmış dəstələr ilə atışmağa

məcbur olduq. Bu atışmada bizim əfsərlərdən usta Məhəmməd, Şəkur Qəffari, Rəhim Bəxşi, Qiyas Məqsudi, Şükrəvər, Isa böyük fəaliyyətlər göstərib, fədailəri düşmənə vermədilər. Oradan meşə ilə aşıb, üç gün ac qaldıqdan sonra çox zəhmət ilə ac və yorğun halda gəlib Astaraya çıxdıq.

### Sərdsəhra fədai başçılarından Mirəbülfəz Haşimi

Bu şərhi-halı yazan mən Mirəbülfəz Haşimi Mirağa oğlu Sərdsəhranın Sərdrud qəsəbəsində 1298-ci ildə (1916) anadan olmuşan. Bir neçə sinif kənd məktəbində təhsil etdikdən sonra əkinçilik işi ilə məşğul idim. 1318-ci ildə sərbazlıq xidmətinə çağırılmışam.

20 şəhrivər 1320 (11 sentyabr 1941) mən sərbaz idim. Müttıfiqin qoşunu Irana varid oldu. O cümlədən də Sovet qoşunlarının bir hissəsi Azərbaycana gəldi. Sərləşkər Mətbuii, Məhəmmədhüseyn Əmini üçüncü ləşkərin ordu rəisləri çox miqdarda pul götürüb, qaçdılar. Mirzə Hüseynxan mayor Mərənddə Şurəvi qoşunun qarşısını almaq üçün vuruşurdu. Sərləşkə qaçandan sonra O, öz qoşununa geri oturmaq əmrini verdi. Elə ki, qoşun bu vəziyyətə düçar oldu sərbazlar dəstə-dəstə silahların, hətta dağlarda olan toplarını da kəndlərdə və çöllərdə töküb, qaçdılar. Biz əfsərlərlə marağa Yolundan Tehrana qaçdıq. Öz əfsərimiz sərvan Xazim Nizam bəyləri ki, üçüncü ləşkərin silah anbarının rəisidir Rzapur ilə azərin birinci gecəsi Tehrana daxil olduq. Səhər Tehranda sərhəng Rzapurun sərbazların silahları atıb, qaçmış və sərbazxananı da sahibsiz qoyduqlarını gördük. Bir nəfərdən soruşduq bura nə üçün belə olub, cavab verdi ki, “Çox sərbazlar və alay suvariləri silahları ilə birlikdə Tehran ətrafını müdafiə edənlər həqiqətən sərbazxanaya gəlməyib, silahlari ilə gediblər.

Bilaxirə iki aydan sonra mən özüm vətənimə qayıtdıqdan sonra gördüm mənim kənd yoldaşlarım irtica və qara diktator zəncirlərin qırılmasından ruha gəlib, dil və qələm azadlığından söhbət edirlər. Təcili işə başlayıb, gizli təşkilat yaratdıq. Bir neçə aydan sonra bu təşkilat ustandar Fəhiminin nökəri Məhəmməd Adıbəy Sərdsəhrada Dehdarı (kəndxuda) tərəfindən kəşf olundu. Nəticədə neçə nəfər yoldaşlarımızdan zindana verildi. O cümlədən Ismayıl Fəhucçıbaşı və Əli Fəthi Zoheyri Sərdrudlu idi. Bir az müddətdən sonra Təbrizdə kanuni-demokrası (demokratiya ocağı) adında bir təşkilat yarandı. Müəssislərindən Xəlil Azər Badiqan, Xilal Nasiri və Məşədi Hüseyn Rizvan adları yadımdadır. 1321-də (1942) sərdrudda və üskü mahalında bu təşkilatın şöbəsi yaradıldı. Bu təşkilatı Sərdrudda Seyid Əhməd Ishəqi və sonra məhəmməd iftixari idarə edirdi. Bir müddətdən sonra onun idarə edilməsini mənə tapşırdılar. Bu tarixdə kəndlilər dəstə-dəstə gəlib, Hizbə üzv olurdular. Məhəmməd Adıbəy və onun qardaşları bizə qarşı mübarizə apardılar. Amma çox tez bir zamanda Hizbin imanlı üzvlərinin yumruğuna rast gəlib, geri oturdular. 1323-cü ilin 11-ci ayında (........) Kanuni-Demokrası Hizbi-Tudə ilə birləşdikdən sonra Sərdsəhrada və Üskü mahalı da Hizbi-Tudənin rəhbərliyi altına keçdi. Beləliklə kəndlilər böyük fəaliyyətə girişdilər. Onlar artıq jandarmların və ərbabların təhdidlərindən (şantajından) qorxmurdular. Vəli jandarmlar və irticanın satqın nökərləri kəndlilərə çox əziyyət edib, onlar Hizbin güclənməsində və kəndlilərin birləşməsindən narahat olmuşdular. Hər gün təzə bir hiyləyə əl atırdılar. Amma kəndlilər mübarizəni ciddi surətə davam etdirirdilər. 1324-ci ildə (1945) ildə ADF təşkil tapıb və Hizbi-Tudə o təşkilatla birləşdikdən sonra firqənin birinci konqrəsi təşkil tapdı. Bu konqrənin açılış günü kəndli dəstələri Təbrizə təbrik üçün gəlməyə başladılar. Sərdsəhradan 2 minə yaxın kəndli Təbrizə gəlib, böyük və yüksək bir nümayiş təşkil verdi. ADF-nin təşkili ilə siyasi mübarizədə iştirak edən kəndlilərin artmasına

səbəb oldu. Mürtəcelərdsən başqa xüsusi mülk sahibləri əsnaf və kəsəbə, kargərlərin əksəri bu firqənin üzviyyətini qəbul etdilər. Çox az müddətədə Sərdsəhrada 5 mindən çox üzv toplandı. Jandarmların qətl və qarətə başlaması və ərbabların irticaların jandarm qüvvəsinə təkiyyə etməkləri. Firqənin genişlənməsində və məramnaməmizin dil azadlığı və daxili muxtariyyət kimi süarlarından həmçinin əhalinin bizim tərəfimizə gəlməsindən qorxuya düşən mürtəce və dövlətin quldur məmurları kəndliləri qorxutmaq üçün onların əleyhinə şiddətli iqdam etməyə başladılar. Məxsusən jandarmlar dəstə-dəstə kəndliləri tutub, döyüb zindanlara saldılar. O cümlədən nazimül-dövlə kəndlərində Bağmofda, Lahicanda serjant Çavuşu 5 nəfər jandarm ilə kəndlilərin evlərini talan etdikdən sonra onları şallaqlatdırdı. Ərdəbldə neçə nəfər jandarm qovub, kəndlini əzməyə çalışırdılar. Vanevcanda Böyükağa Şalçı, Zəncanda Əskər Baqqar, Ləvəsan kəndində Hacı Əli sədəqyanlı o qədər faciə törətdilər ki, həddi yox idi. Döymək, qaər tetmək son həddə çatmışdı. Hər gün dəstə-dəstə kəndlilər firqəyə gəlib, jandarmların zülmündən şikayət edib, özlərindən müdafiyə etməyə icazə istəyirdilər. Mən və Ismayıl Pişnəmazı jandarm idarəsinə gedib, kəndlilərin şikayətlərini onlara yetirdikdə mənfi cavaba rast gəlirdi. Heç yadımdan çıxmaz ki, bir gün sərhəng Hümayuninin yanına getdik və jandarmların törətdiyi faciədən şikayət elədik. Cavabımızda dedi: “Biz heç bir jandarmın zülmünün qabağını almayacayıq. Get Şəbüstəriyə denən nə qədər ki, jandarmların öldürdüyü adamlarının şəklini ruznaməyə salırlar, cavabını kəndlilər özləri versinlər”. mən kor və peşman qayıtdım. Bu vaxtlar bütün Azərbaycan kəndlərini dəhşət bürümüşdü. ADF-nin Mərkəzi təşkilatı həmişə bizə səbr etməyi tapşırırdı. Vəli daha kəndlilərin səbr kasası dolmuşdur. Zülm və işgəncə onları bezdirmişdir. Onlar fürsət axtarırdılar. Elə ki, Miyana, Sarab və Şişəvan kəndlilərinin üsyanını eşitdilər. Artıq onların qarışsını almaq mümkün olmadı. Təbrizdə böyük xalq konqrəsi təşkil

olandan bir gün sonra gecə Sərdsəhra kəndliləri Mill Hökuməti qurmaq fikri ilə Üskü partizanları birlikdə Sərdrud jandarm idarəsinin dövrəsini mühasirə edərək, onların yanına ağsaqqlalar göndərdilər ki, təslim olsunlar. Jandarmlardan isə bir neçəsi qaçıb, və bir iddəsi silahların təhvil verib, təslim oldular. Sabahdan Sərdrud hökumət fədailərin əlin keçidi. Səhəri Ingilis konsulu Sərdruddan keçəndə bu hərəkətin səbəbini bizdən sual edib, biz jandarmların cinayətlərini və hökumət məmurlarının zülmlərini saymaqla ona cavab verdik. O, özü jandarmların faciəsini təsdiq etdi.

20 azər (11 dekabr) günü Marağa, Şişəvan, Üskü, İlxıçı və Xosrovşah fədailəri general Kəbirinin rəhbərliyi altında Sərdrudda cəm olduq. Bunların başçılarından Heydərqulu xan Afaqi, Səfərəli (Səfər Qəhrəmaniyan), Nuri, Yədulla Kəlantəri, Əli Miyari, Məhəmməd Hüseyn Təhmasibi, Mirzə Ələkbər Səyyadi, Məşədihüseyn Dunabi, Əli Şəmşiri, Məşədinəcəf İlxıcılı, Kərim Xosrovşahı, Yusif və Mirəli Mənafi Xosrovşahi öz dəstələrinin başında durdular. Adları aparılan fədai başçıları artıq dərəcədə öz fədailərini yaxşıca hazırlamışdılar. Sərdsəhra fədailərinin başçısı mən, İsmayıl Pişnəmazi, Məhəmməd Iftixari, İbrahim Xəbbazi, Məhəmməd Tağı Kərbasi, Hüseyn Əzimi, Kərbəlayi Tağı Kuhəng və Izzət Sarıxanı ilə bərabər, idarə edirdik.

20 azər günü laliyə tərəf hərəkət etdik və 21 Azər günü bütün fədailər Təbrizin 4 kilometrliyində toplaşdıq. 21 Azər gecəsi Yədulla Kələntəri, General Kəbiri və mən tənzim olunmuş nəqşə üzrə Sarıdağı tutmağa əhərəkət etdim və bizim şimal tərəfimizi Səmsamın başçılığı ilə hərəkət edən Basminc və mehranlı fədailəri tutacaqdılar. Gecə saat 4-də Sarıdağa yetişdik. (Səmsam Neymədabadının) öz yerini tutduğunu gördük.

Səhər saat 5-də biz sərbazxanaya həmləyə başlamışdıq. Təbrizin içində də güllə səsi eşidilirdi. Saat 7-də sərbazxanaya daxil olduq. Oranın gecə ilə təslim olmasın gördük. Dəstə-dəstə

fədailər hər 4 tərəfdən sərbazxanaya həmlə etməyə başlamışdı və bu mövqedə Cəbbar Zare və Mirqasım Çeşmazər dövləti ənvalı (ləvazimatı) mühafizə etməyə məsul idi. Xəlil Azərbadiqan, Bilal Azad, Əbdulla Sərangi,Kərim Hacızadə və bir neçə alayları silah anbarlarını mühafizə edirdilər.

Qapını (dərvaza) mühasirə etməyi Cabbar Zare mənə tapşırdı. Mən iki nəfər avtomatçı fədai ilə sərbazxana qapısını kəsdim və bəzi sui-istifadə edənlərin qarşısını alıb və dövləti ənvalı saxlamağla məşğul oldum. Fədailər irtica hökumətinin devrilməsinə sevinərək, havaya güllə atmağa başladılar. Amma bu iş tezliklə sakit oldu. Ona görə ki, bu iş şəhər əhalisinin qorxusuna səbəb olurdu.......

Bu vaxt ADF-nin rəhbəri Pişəvəri, general Danişiyan, Firidun İbrahimi və neçə nəfər sərbazxanaya gəldilər..... Ağayi Pişəvəri məni çağırıb, 30 nəfər mənim ixtiyarıma fədailərdən qoyduqdan sonra sərbazxananın dövlət ənval və silahlarınının saxlamasını mənə tapşırdı. Fədailərdən Bilal Azadın, Cəbbar Zarein və Xəlil Azərin fəaliyyətin, yəni qışın soyuğunda tüfəng ilə keşik çəkməsini unutmaq olmaz. Bir neçə gündən sonra Sarab fədai başçıları öz fədailəri ilə sərbazxanaya gəldilər ki, onların başçısı Qulamrza Cavidan və sərhən Agahi idi. Qulamrza Cavidanın və Agahinin fədakarlığı, onların fədailər arasında hüsni-rəğbəti diqqətə layiqdir. O nehzətdə iştirak edənlərdən və sərbazxanaya ətrafdan həmlə edənlərdən Mirkazım Mərənd fədailəri ilə Təbriz kolonellərindən idi. Sadiq Dadar, Qasım Qəzzaq, Abbas Şücai, İsmayıl Ribayi, Hüseyn Ciddi, Abdülla Sarangi, Əli Bağban, Əli Roşəngər, məşədi Ismayıl Müstəqilzaman, Hüseyn Sədiqpur və ayrıları da şəhər fədaisinin həmləsində və sərbazxananın və şəhərin mühasirəsində iştirak edirdilər. Sonra ağayi Pişəvəri tərəfindən mən yenə də sərbazxanadan Sərdsəhra fədailərin başçılığına təyin oldum. Çünki bu vəzifəni ifa edən İsmayıl Pişnəmazi Təbriz şəhər dejban rəisi təyin oldu. Fərvərdin ayının 16-da (5 apreldə) məni Təbriz fədailərin rəhbərliyinə təyin etdilər. Bu

gündən Təbrizdə fədailərin təşkilatını düzəltməylə məşğul oldum. Tehran irticai hökuməti bizə xaincəsinə həmlə etdikdə, Təbriz fədailərinin ruhiyyəsi çox yüksək idi. Sərdsəhra fədailəri və Hökmabad fədailəri, Qaraməlik fədailərini Urmiyyə şəhərinə yola saldım. ətrafdan fədailər toplanıb, Təbrizdə təlim alırdılar. Təbriz fədailərinin nəzəri-diqqətini cəlb edən bunların xoş dayanması və bir qəpik da olsun kimsədən rüşvət almaması idi. Fədaliər mənim tabeliyimdə xidmətlə məşğul idilər min nəfərdən artıq idi. Bunlar həmişə döyüşdə və düşmən təcavüz edən cəbhələrə getməyə ürəkdən hazrı olduqlarını bəyan edirdilər və həmişə arzu edildilər ki, azadlıqdan müdaxilə etsinlər. Bu fədailərin ruhiyyələrinin yüksəkliyi bəyan etmək çətindir. Təbrizin atlı səttarxan fədailəri və onların rəhbəri Qəhrəmani ilə keşik verirdilər. Mərənd, Xoy, Sufiyan fədailərinin göstərdiyi fədakarlıq unudulmazdır.

Mənimlə işləyən fədai başçılarının bir neçəsinin adlarını aşağıda qeyd etməliyəm:

Mərənd şəhərində - Mirqasım Əjdəri, Salmasda – Rəsuləmi və Arsin Şahuyan, Sufiyanda Mirxəlil Mir Ismayıli və Məhəmədyar, Basmincdə - Səmsam Meymətabadi, Üsküdə - Yədulla Kələntəri, Xoyda – Abbasqulu Sərkari və Çingiz Humapur, Mamağanda Əbülfəz Imani, Xosrovşahda Mirəli Mənafi və Yusif Saibi, Ilxıçıda Məşədi Nəcəf, Bostanabad və Tikmədaşda məşədi Hüseyn Tizfəhm, Təbriz şəhərinin fədai başçılarından məşədi Vəli əmi, Hüseyn Rizvan, Rza Hökmabadi, Rza Rzayi – Qaraməlikdən Həsən Naibi Qulamrza, Məhmud Ənvari, Nəib Sultani – bunlar nehzətdə iştirak etmişlər. Müharibə başladıqda Rza Rzai və Babaxan Şirzadın rəhbərliyi ilə bir iddə fədaini Miyandaba göndərdim.

Təbriz alayında xidmət edən fədai başçılarından Çingiz Humapur, Əhməd Əbdül Əlizadə və serjantlardan Qocaman Xəlil dayı, Rza Hökmabadi, Qulam Bəhmənyar, Mehti Himməti və başqaları var idi ki, gecə-gündüz yorulmadan

fədakarlıq edirdilər. Son zamanlarda Məhəmmədəli Ramtin 500 nəfər ilə fədai alayına gəlib, buradan Hulasu cəbhəsinə getdilər. Məhəmmədəli Ramtin çox layiq adam idi. Fədailər onu çox sevirdilər və eyni zamanda çox inamlı sərkərdə idi. Son gün ki, Mərkəzi Komitə tərəfindən tərki-müqavimət əmri verildi, fədailər divanə olmuşdular və onlar heç razı olmurdular ki, biz təslim olaq. Irtica qoşunlarına Azərbaycana gəlməyə icazə verək. Deyirdilər: “Biz ölərik lakin bir də jandarmları öz ana vətənimizdə görə bilmərik”. Mən fədai hərəkatında çalışdığım zaman gördüyüm işləri ixtisarla qeyd etdim. Həmçinin aşağıda Sərdsəhrada olan fədai başçıları Yədulla Kələntəri, İsmayıl Pişnəmazı, Məhəmməd Iftixari haqqında qısaca məlumat verirəm.

***Üskü fədailəri və onun başçısı Yədulla Kəlantəri haqqında***

Üskü mahalı bir mahaldır ki, orada əl dəzgahları, toxuculuq karxanaları çoxdur. Üskünün əhalisi nisbət ətrafına görə savadlıdır. Bu yerin əhalisinin çox hissəsi təbiətən azadixah və ziyalıdır və eyni zamanda orada böyük maliklər də vardır ki, bunların bəzisi çox şədid surətdə azadixahlığa müxalifət edən adamlar hesab olunurlar. Burada firqə işinin başında duran yədulla Kələntəri Üskünun nüfuzlu və mötəbər ailələrindən biri idi. Bu cavan rəşid qəhrəman, çox mübariz, çox təvazükar və ağıllı bir kəndli idi. Onun yaşı 28-dən çox olmadığı halda, Rzaxan hökumətinin qara və möhkəm zənciri altında əzilən məzlumlardan himayət edirdi. Üsküda Əliağa Pərvizilər kimi adamların mübarizəsindən qorxmayaraq, özü kimi inamlı azadixahlardan bir neçəsi, o cümlədən Əli Təhmasibi, Mirzə Əli Əkbər Səyyadi və Əli Miyari və Əli Şəmşiri kimi cəsarətli adamlardan toplayıb, təşkilat qurmuşdu. Bu cavan Üskü qəsəbəsində çox böyük xidmətlər edib, orada işıq, şosse yol, telefon xətti kimi xeyrli müəssisələr vücudə

gətirdi. Son günlərdə iki yüz Sərdsəhra və üç yüz Üskü, İlxıçı və Xosrovşah fədailəri ilə Hulasu cəbhəsindən getdi. Kələntərinin tabeliyində olan fədai başçılarından Mirzə Əli Əkbər Səyyadi və Əli Miyari, Hüseyn Rəngrəzi, Tağı Kuhəng, İzzət Sarıxanlı və məşədi Nəcatı göstərə bilərəm. Yədulanın Kələntərinin fədakarlığı azadlıq cəbhəsində çox böyük və təsirli olub. Onu heç də unutmaq olmaz. Onun rəftarı Üskü əhalisi və öz fədailəri ilə o mahalda məşhur idi.

***İsmayıl Pişnəmazi haqqında***

Sərdsəhra mahalının görkəmli azadixahlarından İsmayıl Piznəmazı isə Sərdrud qəsəbəsində doğulmuş və özü axund Molla Məhəmməd Əli Pişnəmazının oğludur. Sərdsəhranın əhalisi içində məşhur adamlardır. O, Sərdsəhradan Azərbaycan Milli Məclisinə nümayəndə intixab olmuşdur. Pişnəmazı Təbrizdə Qalabəyi (baş polisi) olduğu zaman Təbriz əhalisinə böyük xidməti olmuşdur. Onun rəftarı çox mülayim idi. O həmişə adi bir fədai kimi fədailərlə rəftar edirdi. Bir il nehzət müddətində yorulmadan Təbrizin əmniyyətini hifz etmək üçün unudulmaz fəaliyyət göstərmişdir.

***Məhəmməd İftixarinin haqqında***

Məhəmməd İftixari Sərdrud qəsəbəsində anadan olmuş və şəhrivərin 3-dən 1320 (sentyabrın 11 1941) bu tərəfə artıq dərəcədə fədakarlıq edib, bütün göstərdiyi fədakarlıq və natiqliyi ilə Sərdsəhra mahalında məşhur olmuşdur. Nehzətin əvvəllərində daima Qaradağ, Sərdsəhra, Rudqat, Miyandab və Muğanda yorulmadan çalışırdı. O, ömrünün çox çağları bir parça çörəyə möhtac qaldığına baxmayaraq, əbədən məsləkindən üz döndərmədi.

***21 Azər 1324-cü il. (1945) Milli Məclis***

Böyük xalq konqrəsinin təyin etdiyi 21 azər gününə dək bütün Azərbaycanda seçkilərə müvəffəqiyyətlə xatəmə verdik. Bu iş fövqüladə hərarət və səmimiyyət ilə əncam verildiyi üçün xalq tərəfindən böyük rəğbətlə istiqbal olundu.

Azərin 20-də nümayənədələrimizin əksəriyyəti Təbrizdə hazır ola bilmişdi. Fəqət Ərdəbil və Astara nümayəndələri şiddətli qar və borana düçar olduqlarına görə gecə saat 8-ə dək gəlib çıxa bilməmişdilər. Biz çalışırdıq 101 nəfər nümayəndədən biri də qeybət etməsin. Ona görə Ərdəbil və Astara nümayəndələrin gətirib, vaxtında yetirmək üçün əldə olan bütün vəsaildən istifadə etməyə məcbur olduq. Bununla nigaranlıq rəf olmurdu. Şəhərdə olan nümayəndələrdən yuxuya qalıb, vaxtında gələ bilməyən də ola bilərdi. Ona görə tapşırıq verdik, firqə üzvlərindən olan bütün nümayəndələr mərkəzi komitə binasında yatsınlar. O gecə fəaliyyətimizin ən yüksək vaxtlarından biri idi. ətrafdan hər an təzə xəbərlər gəlirdi. Ustandar (valilik) bir gün qabaq Tehrana göndərilmişdir. Şəhər əmniyyətini hifz etmək üçün nəzmiyyə idarəsi bizim kontrolumuza keçmişdir. Şəhər əhalisinin xəbəri olmadan fədailər tərəfindən mühasirəyə alınmışdır. Sərbazlar şəhərin müxtəlif məhəllələrini tərk edib, mərkəzi sərbazxanada təmərkküz tapmaq üçün şəhər içərisindən əl və ayaqlarını yığışdırmışdılar. Xalq çox şiddət və iztirab içində və vəhşət halında idi. Dövlət işçiləri əmniyyətin pozulmasından qorxurdular. Bizim tapşırığımız üzrə demokratlar bazarı və şəhərin müxtəlif yerlərini mühasirə etməkdə idilər. Xalqın hamısı gecənin vəzihəml (doğuş) halında olduğunu hiss edir və onun günəş ilə bərabər, bir növzat (körpə) doğmağını yəqin düşünürdü. Bu növzadın (doğulan) oğlan və ya qız, sağlam və ya əlil olacağını ancaq biz firqə siyasətini idarə edənlər bilirdik. Hələ biz gecənin daşıdığı növzadın həyata qədəm qoymadan əvvəl onun vəzifəsini öz beynimizdə müəyyən etmişdik. Bununla belə iş tariximizdə təzə bir iş olduğu üçün çox diqqət və ehtiyac tələb edirdi. Səhər saat 10-da hər qiymətə olur-olsun

məclisi açmağa qərar vermişdik. Bu o günkü şəraitdə elə də asan bir iş deyildir. Sadə bina məsələsi böyük zəhmətə tamam olmuşdur. Biz istəyirdik millət məclisi tam mənası ilə müstəqil və bitərəf şəraitdə iftitah açılsın olsun. Ona görə firqəmizin ixtiyarında olan binalardan onun təşkili üçün istifadə edə bilmirdik. Çox zəhmətdən sonra bilaxirə "Didəban" sinəmasının intizar salonunu bu iş üçün intixab, oranı abrumən bir hala salmağa müvəffəq olduq. Bu iş bir günün müddətində əncam verilmişdir. Məclis tam mənası ilə milli bir məclis halına salmaq üçün əldə olan və əldə olmayan insanların hamısından istifadə olunmuşdur.

Hətta Təbrizdə olan xarici konsulları da unutmayıb, cələsədə qonaq sifəti ilə şirkət etməyə çağırmışdıq. Şəhərin üləma (ruhani), tüccar, əəyan, maliklər və sair təbəqələrində də rəsmi surətdə dəvətnamə göndərmişdik. Tehran mətbuat nümayəndələri də teleqram vasitəsilə dəvət olunumuşdur ki, gəlib xalqımızın gördüyü tarixi işlərin şahidi olsunlar.

Işin əvvəli olduqca müşkül idi. Milli Məclisimizi təşkil edən nümayəndələrdən 5-3 nəfərdən başqa hamısı milli məclisi hətta tamaşaçı sifətilə də görməmişdilər.

Təcrübəli nümayəndələr isə fars dili ilə yazmağa adət etdiklərindən onların hazırladığı layihələrdən bir məna çıxmırdı. Ona görə hər bir işə özüm şəxsən yetişməyə məcbur olurdum. Məsələn məclisin daxili nizamnaməsi üçün təyin olunan heyətin təhiyyə etdiyi layihəni nəzərdən keçirtmək üçün 20 azər günün axşamı saat .... mənə göstərdilər. Milli Şura Məclisinin nizamnaməsindən iqtibaz etmişdilər. Cümlələr o qədər namərdburd (qarışıq) və qəliz idi ki, onlardan heç bir məna çıxartmaq olmurdu. Istər-istəməz onu kənara qoyub, 1 saatın ərzində məclisimizin vəziyyətinə uyğun və xalqın anlayacağı bir dildə nizamnamə layihəsi yazmağa məcbur oldum. Bundan əlavə məclisin bərnaməsi və orada müzakirə olunan məsələləri təhiyyə edilib, (dünya bəyənən) bir hala salınması üçün bir neçə saatdan artıq vaxt qalmamışdır.

Bununla belə mərkəzi komitə binasında hazır olan yoldaşların məşvərəti (məsləhət) ilə abrumənd bir halda tənzim etməyə müvəffəq oldum. Hərəkatin müvəffəqiyyətlə irəli getməsi bizdə belə qüdrət və bacarıq yaratmışdı ki, yorulmaq, yuxusuzluq (hiss etmədən), işləri bir neçə saatın ərzində əncam verib, qurtardıq.

Bilaxirə böyük fəaliyyət, şiddətli intizar gecəsi istədiyimiz halda xatəmə tapmaqla müəyyən saatda 101 nəfərdən ibarət olan nümayəndələrin hamısı məclisi salonunda oldular. Hətta Ərdəbil nümayəndələri də gəlib yetişə bilmişdilər.

Təbriz o gün çox əzəmətli bir hal almışdır. Xalq dəstə-dəstə Səttarxan xiyabanına axıb, gələrək, nümayəndələrini görmək, və məclisin qərarlarından xəbər tutmaq istəyirdilər.

Quşə kənarda silahlı fədai dəstələri nəzəri cəlb etməkdə idi. O gün mənim boynuma çox ağır vəzifə düşmüşdü. Məclisi təşkil etməklə bərabər, Təbrizdə olan dövlət qüvvəsinin vəzifəsini aydınlaşdırmalı idim. Bu axırıncı vəzifə məclis təşkilindən daha ağır, daha da məsuliyyətli idi. Kiçik bir xəta, sadə bir ehtiyatsızlıq 10 minlərlə gunahsız insanın qanının tökülməsinə səbəb ola bilərdi. Hətta deyə bilərəm nehzətin sərniveştini də diqqət, mətanət, eyni zamanda ciddi və möhkəm təsmim üzərində aparılması idi. Yeri gəldikdə bu xüsusda geniş məlumat vermək olduğundan burada cuziyyata daxil olmaq istəyirəm.

Nümayəndələr, qonaqlar və xarici nümatyəndələrin gəlib, çıxması saat 10-na çəkdi. Mən şəxsən məclisə nisbət öz ruhumda şədid bir ehtiram hiss edirdim. Əksəri tanıyıb, həmkarlıq etdiyim əşxasdan toplanan bu 100 neçə nəfərlik ictimaiyyətdə məxsus bir əzəmət və vüqar hiss olunurdu. Nümayəndələrin hamısı öz tarixi və məsuliyyətli işlərinin mənasını dərk edərək, çox ağır və rəsmi hərəkət edirdilər. Mən yaxın həmkarlarımın simasında belə bir növ rəsmiyyət və özümə qarşı ehtiram hiss edirdim. Gözlərin hamısı mənə

mütəvəccih idi (yönəlmişdi). Hər kəs öz vəzifəsini əncam verərkən mənə minnət qoyan kimi nəzərə gəlirdi.

Mən bunları özümü (göstərmək) üçün yazmıram. Tarixi işin xalqda tolid etdiyi ehsasat bu idi. Onu unutmaq insafdan uzaqdır. Məclisin təşkili, nehzətin aparılmasını yeni tarix mənə müxəvvəl etmişdi (tapşırmışdı). O gün mən şəxsən təkcə Azərbaycan (deyil) bəlkə bütün dünya üçün yeni bir iş görüldüyünün məsuliyyətini hiss etməyə biməzdim. Mən hiss edirdim ki, hər bir işə ehtiyatla yanaşıb, mətələkçi (atmaca atan) və şux (zarafatçıl) azərbaycanlı ilə bərabər, uzun danışan yalançı, ikiüzlü, qələbə vaxtında təməlüqü (yaltaqlığı) göylərə çıxarıb, məğlubiyyət zamanında sərzənişi (istehzani), xəyanəti və (alçaqlığı) ən əsfəl (aşağı) dərəcəsinə, aşağı səviyəyə endirən Tehran mətbuatı həmçinin müəyyən hadisələrdən siyasi diplomatik və beynəlxalq macəralar (hadisə) törədən İran mətbuatı hətta bizim firqəmizə və nəticə etibarı ilə onun başında durduğum üçün mənə baxır. Mən əgər gülünc, yüngül və yersiz iş görsəm, özümlə bərabər, bütün demokratları, bəlkə də bütün Azərbaycan xalqını dünya ictimaiyyəti nəzərində məsxərə və oyuncaq halına sala bilərəm. Əgər düzgün hərəkət edərəmsə firqə və xalqımız başı uca olub, istədiklərimizi daha asanlıqla ala bilərik. Ona görə öz hərəkətlərimi ölçüb, biçməklə bərabər, fikrimi izhar etməkdə daha artıq dərəcə ehtiyat (gözləyirdim).

Nəhayət saat 10 tamamda nümayəndələrin ən yaşlısı ağayi Nizamü-dövlə, Rəfii birinci tarixi cələsəni müxtəsər bir nitq ilə iftitah etdi. Sonra müvəqqəti bir riyasət heyəti intixab olundu. Bu heyətin riyasəti mənim öhdəmdə olduğundan iclasa idamə vermək üçün foriyyətlə işə başladım. Əvvəlcə müxtəsər bir surətdə məclisin əhəmiyyətini qeyd edərək, nizam-intizamın lüzumunu irəli çəkib, gələcəkdə təzahür və yersiz ehsasatın qarşısını almaq üçün çəpi (əl) çalmaq, yerdən danışmaq kimi işlərin qaydasızlığını qeyd etdim.

Günün bərnaməsini təsdiq etdikdən sonra bilavasitə məclisin daxili nizamnaməsini müzakirəyə qoydum. Onun hər bir maddəsi üçün əlahidə (ayrıca) rəy aldım. Adi mövqelərdə uzun vaxt tələb edən bu iş üçün 2 saatdan artıq vaxt sərf olunmadı. Kiçik bir tənəffüs verdim. Nümayəndələr və qonaqlar bir-birilə tanış olmağa imkan tapdılar. Qabaqdan hazırlanmış çay və şirnini sərf edərkən nümayəndələr ilə qonaqlar arasında məclisin gedişi və onun əzəməti haqqında səmimanə danışıq başlandı. Xaricilərdən Şuralar İttifaqı baş konsulu, Tas (agentlik) nümayəndəsi, Fransanın Təbrizdə olan Ajans (xəbər agentliyi) və qeyriləri dəvətimizi qəbul edərək, hazır olmuşdular. Mütəəssifanə Tehran azadixah mətbuat nümayəndələri hələ gəlib çıxa bilməmişdilər. Xaricilər də xalqın ehsasatından mütəəssir olmuşdular. Məsələn Fransa Ajansı məni təbrik edərkən çox bəşaşət ilə (sevinclə) "Mən özümü Fransa parlamentinin cələsəsində olduğu kimi hiss edirəm",-diyə əllərmi sıxdı. Sonra əlbətdə O, irticai mənbələrin işarəsi ilə özünün cələsədə hazır olduğunu ayrı cür təfsir etmişdir.............. Hər halda, Milli Məclisimizin birinci cələsəsi iş cəhətindən fövqüladə səmərəli olduğu kimi zahiri görünüş cəhətdən daha gözəl, daha yaraşıqlı idi.

Tənəffüsdən sonra cələsə təşkil tapdıqda məclis xaricində tüfəng və (avtomat) səsləri eşidilməyə başladı. Mərənd fədai başçılarından (.........) adlı bir adam fədailərdən bir dəstə götürüb, şəhərə soxularaq, polis nahiylərini işğal etməyə başlamışdır. Mən əvvəldən hər ehtimalın qabağını almaq üçün tədbir görüb, şəhərin əmniyyətini möhkəm əllərə tapşırdığıma görə hadisəni çox sadə tələqqi edərək (tutaraq), cələsəyə idamə verdim. Nümayəndə və qonaqlardan bəzisi təşvişə düşüb, kiçik məktublar vasitəsilə məndən məsləhətləşdilər. Mizimin üstünə toplanan yüzdən artıq məktuba fəqət təbəssümlə cavab verib, öz işimi görməkdə idim. Mənim sükutum nümayəndələri qane etmişdir. Sonra da özləri tüfəng və müsəlsəl səsinə alışıb, sakit oldular.

Bu cələsədə məclisin daimi riyasət heyətini intixab etdikdən sonra ağayi Şəbüstərini çağırıb, cələsənin idarəsini ona tapşırdım. Bərnamə mocibincə üçüncü məsələ milli dövlət təşkilindən ibarət idi. Ağayi Şəbüstəri məclisin rəyini soruşduqda nümayəndələrin hamısı bir rəy ilə bu işi mənə mühəvvəl etdilər (tapşırdılar).

Bu kimi sadə bir vasitə ilə milli nehzətimiz özünün yaranmasını meydana qoyaraq, hökumətin əsasını qoydu. Bir neçə saatdan artıq davam etməyən məclis Azərbaycan xalqının sərniveştini əlinə ala bilən, tam mənası ilə bir demokratik milli rejim bir dövlət quruluşu yaratdı. Beləliklə kiçik ölkələrdə həqiqi demokratik dövlət yaratmağın asanlığı bir daha meydana çıxdı.

Həmin 21 Azər günü Mərkəzi Komitə riyasət heyətinin tapşırığına istinadən (əsasən) aşağıdakı təfsil üzrə Milli Hökumətin vəzirlər heyətini məclisin günortadan sonra təşkil olunan ikinci cələsəsində müərriflik etdim (tanıtdırmaq).

1. Baş nazir Seyid Cəfər Pişəvəri.
2. Daxilə vəziri (daxili işlər naziri) Doktor Salamulla Cavid.
3. Xalq qoşunları vəziri Cəfər Kaviyan.
4. Fəlahət vəziri Doktor Məhtaş
5. Maarif vəziri Məhəmməd Biriya.
6. Səhiyyə vəziri Doktor Orəngi.
7. Maliyə vəziri Qulamrza Ilhami.
8. Ədliyyə vəziri Yusif Əzima.
9. Post, Teleqraf və Yol işləri vəziri Rəbi Kəbiri.
10. Ticarət və iqtisad vəziri Rza Rəsuli.
11. Iş və zəhmət vəziri təyin olunana dək bu vəzifə baş vəzirə mühəvvəl olunur.

Bu Heyəti Milli Məclis çox səmimiyyətlə qəbul etdi.

Milli dövlət təşkili ilə yeni və mühüm bir məsələ meydana çıxmışdı. O demokratik və xalq hakimiyyətinin əsasını təşkil edən mücriyyə (icra edici), müqənninə (qanunverici) və

qəzaiyyə (məhkəmə) qüvvələri bir-birlərindən ayrılmasından ibarət idi. Bu əsası məsələni təxirə salmaq olmazdı. Çünki məclisimiz firqənin ən fəal və ən yararlı üzvlərindən təşkil olduğu üçün onların vücuduna şəhər və kəndlərdə ehtiyac var idi. Düşmən hənuz tamamilə əzilib, ortadan çıxarılmamışdı. Onlar gərək müstəqil bir surətdə mübarizəni idama verəydilər. Ona görə mücriyyə qüvvəsindən ibarət olan Milli Hökumətin qurulduğu zaman müqənninə dəstgahının əsasını qoymağa başladıq. Necə ki, təkrarən yazmışam, iş bizim üçün təzə iş idi. Bir-birini təqib edən şiddətli və fövqüladə işlər bizə başqa demokratik dövlətlərin qanunlarını mütaliə etməyə imkan vermirdi. Ona görə gördüyümüz tədbir və yaratdığımız müəssisələri gündəlik ehtiyacımızı və əsas hədəfimizə uyğun olaraq yaratmağa çalışırdıq. Əlimizdə müəyyən bir ölçü var idi ki, o ölçü bizə yeni işləri düzgün həll etməyə imkan verirdi. Ölçüdə hədəf xalqın hökumətində doğrudan-doğruya şirkət etmək şəraitini yaratmaqdan ibarət idi. Bizə belə gəlir ki, həqiqi demokratiya o vaxt təmin ola bilər ki, qüdrət xalqın hamısının iştirakilə seçilən məclisin ixtiyarında olsun. Məclis isə bu qüdrətdən xalqın səadəti üçün istifadə etməli idi. Bu da ancaq möhkəm payə və əsas üzərində qurulan bir mücriyyə heyəti yəni hökumət vasitəsi ilə ola bilər. Hökumət isə əmələn xalqdan təşkil tapan qanunverici müəssisə yəni məclisin intixab etdiyi məmurlar heyəti (hökumət işçiləri) başqa bir qüvvə deyildir. Üçüncü qüvvə hesab olunan qəzaiyyə (məhkəmə) qüvvəsi də bizə elə gəlir ki, xalq nümayəndəsi tərəfindən intixab olsa yaxşıdır. Ona görə qəzavət (məhkəmə) qüvvəsinin ən ali məqamı məclis tərəfinin intixab olunmasını irəli sürüdk. Biz eləyə bilərdik bu işi məclisin intixab etdiyi ədliyyə vəzirinə tapşıraq. Bu işi bu surətdə qəzavət qüvvəsi ilə icraiyyə qüvvəsi bir-birinə qarışmış olardı. (Onda demək olardı ki,) vətəndaşlarin bir-biri ilə olan əlaqələrini təyin edən qüvvə kiçilərdi. Bu mülahizələr ilə heyəti Milli Məclisə müərriflik edərək, ən ali qəzai məqam hesab olan "divani-ali təmiz"

rəisimizi baş müəddəiyül-ümumi (baş prokuroru) da müərriflik etdi. Divani-alinin (kanstitusiya məhkəməsi) riyasət heyətinə ağayi Qiyami, baş müddəiyül-ümumiliyə ağayi Firidun İbrahimi kandid göstərmişdi.

Milli Şura Məclisnin daxili nizamnaməsindən iqtibas olan layihənin rədd etməyimizin səbəbi də onun bizim məclis şəraitimizə uyğun olmaması idi. O nizamnaməyə görə məclis həmişə iclas etməli və məclis nümayəndələri dövlət işlərindən bərkənar olmalıdır (çıxarılmalıdır). Bizim üçün bu təqribən qeyrimümkün olan şərt idi. Bizim işçilərimiz daimi olaraq işdən azad edib, Təbrizdə saxlaya bilməzdik. Onsuzda təcrübəli, savadlı iş bacaran adamlarımız kifayət etmirdi. 101 nəfər fəal üzvdən əl götürmək olmazdı. Bundan əlavə onların maaşını təmin etmək Azərbaycan üçün ağır və çətin idi. Əslən Iran məclisi boş boğazlar yığıncağı olub, heç bir müsbət iş görməyə qadir olmadığını biz əməldə görmüşdük. Ona görə nümayəndələrimizi dövlət işindən məhrum etməyib, məclis nümayəndəsinin, eyni zamanda dövlət işlərində çalışa bilməsinə icazə verdik. Fəqət kabinə üzvləri (vəzirlər) kabinə üzvlüyündə qaldıqları müddətdə nümayəndəlik ixtiyarından məhrum edildilər. Onlar da vizarətdən (vəzifədən) düşdükdən sonra məclisə gəlib nümayəndəlik Haqq və ixtiyarından istifadə edə bilərdilər.

Iran məclisinin düçar olduğu boşboğazlıq naxoşluğunun Azərbaycanda qarışısını almaq üçün bizim məclisimizin riyasət heyətinin təşrifatı bir müəssisə olmaqdan xilas edən əməli və ciddi bir fəaliyyət halına salaraq, milli məclisin ümumi iclasların tətil olduğu müddətdə (fasiləsiz zamanında) onun tapşırıqlarını icra etməyi bu heyətin öhdəsinə qoyduq. Bundan əlavə nizamnamə mocibincə riyasət heyəti dövlət tərəfindən təklif olunan bütün layihələri nəzərdən keçirib, təsdiq etdikdən sonra icra məqsədi ilə dövlətə qaytarmaq ixtiyarına malik idi. Əlbətdə ümumi bu layihələri nəzərdən keçirilb, qəbul və ya

rədd edilməsi məclisin ümumi iclasına mərbud olan (aid olan) məsələ idi.

Bu vasitə ilə biz müqənninə işini fövqüladə bir surətdə surətləndirməyə müvəffəq olmuşduq.

Necə ki, yuxarıda göstərdim. Biz istər məclisdə, istərsə məclis xaricində nizamnamə layihəsinin tənzimləməsinə bir neçə satdan artıq vaxt sərf edə bilməmişdik. Onda bəzi mühüm nöqsanlarda var idi. Məsələn məclisin riyasət üzvlərinin təcdidi (əvəzlənməsi) unudulmuşdur. Halbuki, əməldə böyük müşkülata səbəb olurdu. Bundan başqa kiçik nöqsanlar da var indi ki, biz fikir edirik. Müruri-zaman ilə onları islah edə bilərik. Milli Məclis istər qurulduğu günlərdə, istərsə sonralar bizim işlərimizin düzgün bir surətdə icra edilməsində fövqüladə müəssir kömək göstərirdi. Məxsusən Milli Hökumət zamanı məclisin riyasət heyəti çox şədid fəaliyyət göstərirdi.

Adətən biz gördüyümüz işləri başlamadan əvvəl ona qanuni şəkil verib, məclisdən keçirməli idik. Əgər məclis həmkarlıq fikrində olmasaydı, bizim verdiyimiz layihələri təxirə sala bilərdi. Ağayi Qiyami bu işləri təsvib etmək üçün heyəti rəisəyə lazım olduğunu bəyan edib, dedi: “Bu məsələyə görə mən ağayi Pişəvərini doktor Məhdaşı və Ilhamini müvəqqəti riyasət heyəti üçün pişnəhad edirəm”. Ağayi Qiyaminin təkilfi məclisdə əksəriyyətlə qəbul edilib, müvəqqəti heyəti-rəisə öz yerlərində hazır oldular. Ağayi Pişəvəri: “Əgər icazə versəniz məclisin nizamnaməsini ağayi Vilayi oxusunlar. Mən pişnəhad edirəm ki, nizamnaməni oxuyandan sonra tək-tək maddələrinə rəy alınsın. Nizamnamə barəsində hər kəsin təklifi olsa yazıb,riyasət heyətinə versin ki, gələcəkdə onu nəzərdə tutsunlar. Ağalardan xahişim vardır. Milli məclis mitinq deyildir. Əl vurmaq və ibrazi-ehsasat etmək məclisə yaramaz. Bu qism ibrazi-ehsasat məclis üçün münasib deyildir. Əgər biz istəsək işimizi qabağa aparaq, gərək məclisin daxili nizamnaməsini kamilən müraat edək”. Ağayi Vilayi nizamnaməni oxumağa başladı. Nizamnamə

oxunduqdan sonra ağayi Pişəvəri onun hər maddəsinin ətrafında geniş surətdə izahat verdilər. Bəzi maddələr barəsində aşağıda qeyd olunan şəkildə nümayəndələr tərəfindən təzəkürlər verildi.

Ağayi Haşimniya: "Vəzir və rəis qəziyəsi (məsələsi) nə cür olmalıdır? Aya vəzir həmin rəislərin işin görəcək ya ayrı işə məmurdur."

Ağayi Pişəvəri: "Xeyir! Icraedici hakimiyyət təşkil tapdıqdan sonra riyasət olmayacaq. Fəqət Azərbaycanın ətraf şəhərlərində və aşağı idarələrində rəis olacaqdır. Böyük işlərə vəzir yetişəcəkdir".

Ağayi Müəyyiri: "Ərz edirəm vizarəti xarici (xarici işlər nazirliyi) əgər Tehranda bir müahidə ya qərarlar bağlaya ki, bizim zərərimizə ola onda nə etməliyik?"

Ağayi Pişəvəri: "Ağayi Müəyyirinin dediyindən belə anlaşılır ki, biz gərək bu barədə çox dəqiq olaq. Hələ Tehran məlum deyil bizim muxtariyyətimizə nə cür baxır. Əgər o bu barədə aqilanə rəftar etsə o mövqedə bu qəziyəni də həll etmək olar. Əgər aqilanə rəftar etməsə onlar tehranın münasibəti bu məclisin öz əmrinə bağlıdır".

Babkin Qoruqçiyan: "Azərbaycanda vəzarəti xaricə də olmalıdır. Zira (ona görə) dövlət bu günə qədər Azərbaycanı hər cəhətdən xaraba qoyub, ona bir maşın karxanası təhiyyə etməyibdir. Ona görə də bizim gərək xarici vizərətimizdə olsun. Ta onun mocibincə xarici dövlətlərlə daxili müzakirə olub (müzakirəyə girək) karxana və sair sənəti şeylər varid edək".

Ağayi İlhami: "Ağayi Babkin gərək təvəccüh etsinlər ki, iqtisadiyyat ilə siyasəti xaricinin çox fərqi vardır. Vəzarəti xarici ölkələr ilə siyasi münasibət saxlamaq üçün nəinki ticarət etmək üçün. Buna görə bizim xarici siyasətimizi Iran dövləti özü idarə edəcəkdir. Sadiratımızı əlbətdə özümüz idarə edə bilərik".

11-ci maddə oxundu. Ağayi Şahin dedi: “Yüzdə 25 % vergi verməyə əqidəm yoxdur.

Bu mövzuya əsasən ölkənin aidatının 25 % mərkəzi dövlətə verilməlidir”.

Atəşxan Bəyat Maku: “Biz ağayi Pişəvərinin dediyi kimi İran dövlətinin istiqlalına (Azərbaycan) yüzdə 25 % aidatını gərək Tehrana göndərsin. Zira əlavə əz məxarici daxili (daxili xərclərdən əlavə) xaricdəki diplomatiyanı idarə etməyə çox büdcə lazımdır və yenə də bizim Tehrandakı nümayəndəmizə. Orada hüquq verəcəkdir”.

Məclisin daxili nizamnaməsi əksəriyyətlə təsdiq olduqdan sonra Ağayi Pişəvəri dedi: “Bu nizamnamənin ola bilər çox nöqsanları olsun. Buna görə də hər kəsin təklifi və ya iradı varsa riyasət heyətinə yazıb, versin. Ta onu oxuyub, nizamnaməni icra etsinlər. əlbətdə nizamnamə sonra bir də məclisə gətirəlicək. Ta dübarə təsvib olsun”.

Aağyi Müəyyir: “Ərzim yoxdur. Fəqət budur ki, onu (nizamnaməni) bir neçə dəfə yazıb, nümayəndələrə versinlər”.

Ağayi Pişəvəri: “Bu nizamnamədən bir nüsxə hər vəkilə veriləcəkdir. Indi biz nizamnamə mocibincə daimi riyasət heyəti seçməliyik. Ağalar hər kəsi məsləhət görsələr bu məqama namizəd etsinlər. Mənim əqidəncə ağayi Şəbüstərini ki, əziz və fəal dostumuzdur, bu məqama namizədliyə layiqdir. Ağalar yenə də öz əqidələrində azaddırlar”.

Ağayi Şəbüstəri 69 məxfi rəy ilə Azərbaycan Milli Məclisinin riyasətinə intixab oldular. Sonra ağalar Rəfii (68 rəy ilə), Badiqan (70 rəy ilə), Covdət (63 rəy ilə) müavinət riyasəti-məclisə intixab oldular (məclis rəisinin müavinləri seçildilər).

Ağayi Məhəmməd Əzima (59 rəy) və Mirrəhim Vilayi (54 rəy) məxfi rəy ilə münşiliyə (katibliyə) intixab oldular.

Ağalar Dilmuğani (56), Muradəli Teymuri (55), Əskər Dibaiyan (57) məxfi rəy ilə məclisin riyasət heyətinin üzvlyünə intixab oldular.

Ağayi Piəvəri: “Mən ağayi Şəbüstərinin riyasəti daimi məclisə (məclisin daimi sədrliyinə) intixab olmağını təbrik edirəm. Indi bizim vəzifəmiz qurtardı. Ağayi Şəbüstəri buyursunlar öz vəzifələrini əncam versinlər”.

Aağyi Şəbüstəri mizin arxasında qərar tutub dedilər: “Ağaların bəzisinə məlumdur ki, 29 abanda 700 nəfər nümayəndə məclisi müəssisani Azərbaycanda iştirak etmişdilər ki, 150 min nəfərdən mütəcaviz azərbaycanlı onları öz tərəfindən nümayəndə etmidir. (bəzi ağalara məlumdur ki, 29 abanda 150 min nəfər azərbaycanlı tərəfindən 700 nəfər müəssislər məclisinə intixab olmuşlar). Məclisi müəssisan nümayəndləri öz arasında 39 nəfərlik bir riyasət heyəti intixab etdilər ki, Azərbaycan Heyəti Millisi adlanırdı. (Azərbaycanın Milli Heyəti).

“Heyəti Milli Azərbaycana tapşırılmışdı ki, Azərbaycanın intixabatının vəsailini fərahəm etsinlər. Bu heyətdə 21 gün zərfində (ərzində) bütün Azərbaycanda intixabatı başlayıb, xatəmə verdi. Bu gün çox iftixar edirəm ki, Azərbaycan Məclisi Millisi rəsmən iftitah tapır. Bu məclisin iftitahı ilə Heyəti Milli Azərbaycanın vəzifəsi axıra çatır. Buna görə də Azərbaycanı gələcəkdə idarə etmək üçün bir dövlət lazımdır. Demokratik üsulunda qeyd olunduğu kimi bizdə məclisdə əksəriyyətə malik olan Hizbin sədrini dövləti təşkil etməyə dəvət edirik.

“Ağayi Pişəvərini ki, demokrat firqəsinin möhtərəm sədri ki, bizim fəal ciddi və səmimi dostlarındadır və Azərbaycanın azadlığı uğrunda böyük fədakarlıqlar edibdir. Azərbaycan dövlətini təşkil verməyə dəvət edirəm. Xahiş olunur böhrana tezliklə xatəmə verməkdən ötrü öz kabinəsini təcili surətdə günortadan sonra məclisə müərriflik etsinlər”.

Məclis saat 11-30 qurtarıb, ikinci cələsə günortadan sonra saat 3-ə mokul oldu (keçirildi).

**Azərbaycan Milli Məclisinin daxili nizamnaməsi**

1. Azərbaycan Məclisi Millisi (Milli Məclisi) nümayəndələrin yarıdan çoxu Təbrizdə hazır olduğu vaxt iftitah olunur.

2. Məclisi Millinin birinci cələsəsi nümayəndələrdən ən çox yaşlısının riyasət heyəti və iki nəfər ən cavan nümayəndələrin sabiqliyi ilə açılır.

3. Məclis iftitah edildikdən sonra ələni rəy ilə müvəqqəti surətdə 1 rəis və 2 katib intixab olunur

4. Bu müvəqqəti heyət forən nümayəndələrin etibarnamələri və intixabat carayanı haqqında qozariş vermək üçün heyəti nəzarətə (nəzarət heyətinə) danışmaq icazəsi verib.

5. Etibarnamələr nəzərdən keçirildikdən sonra məxfi rəy ilə aşağıdakı qərar ilə 9 nəfərdən ibarət 1 daimi heyət intixab olunur. Heyəti rəisə 1 nəfər rəis, 3 nəfər müavin, 2 nəfər katib, 3 nəfər üzvüdən ibarətdir.

**Heyəti-Rəisənin vəzifələri**

1. Məclisin cələsələrini idarə etmək.

2. Məclisin tətil vaxtında onun vəzifələrini öhdədar olub, dövlət tərəfindən verilən qanun layihələrini azmayiş üçün qəbul edib, ümumi iclasının təsvibinə yetirmək.

3. Heyəti-sriyasəti-Məclisi-Millinin mali (maliyyə) və idarə işlərini münəzzəm surətdə idarə edib, onun illik büdcəsini tənzim və onun gəlir və çıxarını müəyyən edir.

4. Heyəti-riyasət məclisin daxili və idarə işlərini dolandırmaqdan ötrü sadə bir idarə təşkil edir və onun işlərini müstəqimən öz təhti-idarəsində saxlayır.

5. Heyəti-rəisə Məclisi Millinin idarə işlərinə nəzarət etmək üçün məclisin bazirəslik idarəsini (nəzarət komitəsi) vücudə gətirir.

6. Məclisin açıq iclaslarında qonaq sifəti ilə hazır olmaq üçün xarici dimplomasi nümayəndələri, həmçinin məclis nümayəndələrinin zəmanəti ilə qonaqlara məxsus (xüsusi)

dəvətnamələr vasitəsilə icazə verilir. Lakin bu şəxslərin müzakiratda iştirak etməyə və izhari-əqidə və ehsasat eləməyə haqları yoxdur.

7. Məclisdə rəisinin icazəsi olmadan danışmaq omaz.

8. Növbədən xaric danışmaq üçün məclisin xüsusi qərarına ehtiyac vardır.

9. Dəsturdan əvvəl danışmaqdan ötrü də məclis xüsusi qərar qəbul etməlidir.

10. Nümayəndələr növbə ilə danışmalı, bu növbə katiblərin vasitəsilə qeyd və rəis vasitəsilə elan olunmalıdır.

**Mütəfərriqə (pərakəndə) maddələr**

1. Məclisin cələsələri iki növdür: ələni və məxfi (açıq və gizli).

2. Ələni cələsələrdə diplomasi nümayəndələr, ruznamə müxbirləri və tamaşaçılar şirkət edə bilər.

3. Məxfi cələsələrdə şirkət etmək üçün nümayəndələr, vəzirlər və onların müavinlərindən başqa kimsəyə icazə verilmir.

4. Məclisin danışıqlarında nümayəndələr və heyəti dövlət üzvlərindən və vəzirlərin müavinlərindən başqa kimsə şirkət edə bilməz.

5. Qonaqlardan və ruznamə müxbirlərindən intizamı pozmaq istəsələr rəis onları iclasdan ixrac edər. Hətta onu müvəqqətən saxlatdıra bilər. Əgər onun əməli şədid olursa saleh məhkəmə vasitəsilə mücazat olunar.

6. Məclis cələsələrinin vaxtını təyin etmək heyəti rəisənin vəzifələrindən olduğu halda, nümayəndələrin 99 nəfərin təqazası ilə da iclas çağrıla bilər.

7. Məclis binasına silah ilə daxil olmaq olmaz.

8. Məclisi Milli üzvlərindən iki əsası komesiyon təşkil olunur. Birinci maliyyə komesiyonu, ikinci xalq qoşunları işləri komesiyonu.

9. Müddəyül-ümum kül və rəisi təmiz (prokuror və kanstitusiya məhkəməsi sədri) təyin etmək məclis vəzifələrindədir.

***Dövlət təşkili Haqqında***

1. Azərbaycan muxtar dövləti məclis vasitəsilə təyin və təsvib olunur.
2. Məclisi Millidə əksəriyyət qazanan firqənin rəhbəri (lideri) məclis rəisinin dəvəti ilə heyəti dövləti intixab edib, təsvib üçün Məclisi Milliyə təqdim edir.
3. Dövlət yəni Quvayi (qüvvələr) mücriyyə, məclis yəni quvayi müqənninədən tamamilə ayrı olmalıdır.
4. Azərbaycan milli dövləti vizarət xanaları ibarətdir:

(1. Baş vəzir
2. Daxilə vəziri
3. Maliyyə vəziri
4. Xalq qoşunları vəziri
5. Ədliyyə vəziri
6. Fəlahət vəziri
7. Səhiyyə vəziri
8. Yol, post teleqraf və telefon vəziri
9. Ticarət və iqtisad vəziri
10.Iş və zəhmət vəziri
11.Maarif vəziri).

5. Məsul vəzirləri baş vəzir təyin edir. Lakin onun təsdiqi Məclisi Millinin vəzifələrindəndir.
6. Heyəti dövlət müştərək bir surətdə Məclisi Milli qabağında məsul olduğu kimi vəzirlərin tək-təkidə məsuldurlar.
7. Məclis heyəti dövlətdən və tək-tək vəzirlərdən sual və istizah edə bilər. Və bu halda, dövlət və vəzirlər cavab verməyə məcburdurlar.
8. Əgər dövlətin təqdim etdiyi layihələrdən biri rədd olunursa vəzir onu islah edib, təzədən məclisə təqdim edə bilər.

9. Rəisi dövlət vəzirləri müərriflik etdikdən sonra dövlətin proqramını məclisə təqdim edir. Məclis onun islah və ya rədd edilməsində muxtardır.

10.Hər il dey ayının əvvəlinə qədər dövlət ölkənin büdcəsini Məclisi Milliyə təqdim etməli və məclis Isfəndin ayının əvvəlinə dək onu təsdiq etməlidir.

11.Məclisi Milli müvəzzəfdir Azərbaycan dövlət aidatının yüzdə 75-ni Azərbaycanın öz daxili məsarifinə ixtisas verib, yüzdə 25-ni dövlət mərkəzi məsarifindən ötrü Tehrana göndərməyə icazə versin.

12.Azərbaycanın dəxli və xərci (gəlir və çıxarı) Azərbaycanda təmərküz toplanmalı, fəqət mərkəzi dövlətə təxsis olunan qismətlər isə tehrana göndərilməlidir

**Milli Hökumətin quruluşu**

Milli Hökumət 21 Azərdə Milli Məclisin qərarı üzrə birinci cələsəsi təşkil tapdı. Azərbaycanda sabiqəsi olmayan bu ağır vəzifəni yəni hökumət təşkilini məclis mənə mühəvvəl etmişdir. Işçilərimizin təcrübəsizliyinə, kadr azlığına baxmayaraq bir neçə saatın ərzində 10 nəfərdən ibarət olan kabinə üzvlərini təyin edib, məclisə gətirdim. Məclis vəzirlərin heç birinə etiraz etmədi.

O günlərdə vəzir sözü xalq üçün o qədər təzə idi ki, onu təəcüb ilə ağızlarına gətirirdilər. Lakin bu təzəlik çox tez fəramuş olub xalq onu həqiqət olaraq qəbul etdi. Hökumət təşkilindən daha əhəmiyyətli dövlətin bərnaməsi idi. İranda məmulən (ümumiyyətlə) bərnamələri fəqət zahirsazlıq və təbliğat məqsədilə küllüyat üzərində yazarlar. Ona görə burada heç bir dövlətin öz bərnaməsini həyata keçirdiyi görünməmişdir. Həqiqətdə dövlətlər yazıb, məclisə verdikləri bərnamələri özləridə iş cərəyanında nəzərə almazlar. Onların fikrincə bərnamə bir iş, hökumət və məmləkətdarlıq isə ayrı bir işdir. Bu cəhətdən onların gördükləri iş məqsədsiz, hədəfsiz

olaraq günün qabağa gətirdiyi hadisələrin çərçivəsinə məhdud olub qalar. Ondan məmləkətin gələcəyi üçün heç bir fayda hasil olmaz.

Biz təbiidir ki, bu adəti müraat edə bilməzdik. Bizim bərnaməmiz xalqın ehtiyacı üzərində qurulduğuna görə millətin gələcəyini və ölkənin səadətini təmin etmək üçün vasitə olmalı idi.

Bu iş nə qədər müşkül olsa da bizim üçün qeyri-mümkün deyildir. Çünki, xalqımızın ehtiyac və arzularını çox gözəl təşxis vermiş adamlar idik. İran azadixahlarının sənələrdən bəri icra etmək arzusunda olan islahat şüarları bizi həmişə düzüb, müzakirə etdiyimiz məsələlərdən idi. Bundan əlavə Milli Hökumət ölkədə böyük bir nehzət yaradan ciddi bir firqənin təşkil tapdığı üçün o firqənin məramnaməsini və gündəlik şüarlarını unuda bilməzdi. Biz iki ay yarımlıq şədid mübarizədə xalqımızı təşkil etmək onların irticai quruluşun əleyhinə qaldırmaq üçün müəyyən vədlərdə verrmişdik hökumət əlimizə düşdükdə o vədlərin hamısına əməl etməyə məcbur idik. Əgər bunun xilafinə rəftar etmiş olsaydıq. Xalq bizə etimad etməzdi. Bir də biz yeni bir rejim vücudə gətirməyə başlamışdıq. Bu rejimi küllü sözlər və müşəşə (çeşidli) cümlələr üstündə deyil, əməli tədbirlər, aydın və açıq nəqşə və proqram üzərində qurmaq mümkün ola bilərdi. Bunlar və burada qeyd olunan çoxlu səbəblərə görə mən dövlət bərnaməsini çox sadə və çox aydın bir surətdə yazıb, Məclisi Milliyə təqdim etdim.

Məclis nümayəndələri üçün o gün bir dövlət rəisi kimi təqdim etdiyim proqramın heç də təzəliyi yox idi. Çünki, onların sənərələrdən bəri təqib etdikləri arzu və fikirlər meydana qoyulmuşdu. Bu səbəbdən onu çox diqqət ilə eşidib, şədid həvəs və şövq ilə qəbul etdilər. Bərnaməni eynən burada dərc edirik.

***Azərbaycan Milli Hökümətinin proqramı***

“Azərbaycan Milli Nazirlər Kabineti, Azərbaycan xalqının illər boyu arzu etdiyi milli muxtariyyətini vücuda gətirmək və bu vasitə ilə Azərbaycan xalqının milli ehtiyaclarını həll edib onu inkişaf və təkamülə sövq etmək üçün aşağıdakı vəzifələri özünün yaxın hədəfi və proqramı təyin edir.

1- Milli muxtariyyətimizi dünyaya tanıtmaq, onun davam və bəqasını təmin etmək üçün ciddi tədbirlər gölrüb, səlahiyyətdar məqamat ilə müzakirəyə girişmək, İranin istiqlal və ərzi bütövlüyünə xələl gətirmədən milli dövlətimizi demokratik əsaslar üzrə qurmaq və bu yolda qabağa çıxa bilən çətinlikləri aradan qaldırmaq.

2- Milli muxtariyyətimizi möhkəm əsaslar üzrə qurub, onu xalqa yaxınlaşdırmaq məqsədi ilə çox tez bir surətdə vilayət əncümənlərinin seçgilərinə başlamaq və yerli idarələrin nəzarətini onların ixtiyarına vermək.

3- Şəhərlərimizin abadlığı üçün yubadılmadan şəhər əncümənlərini, demokratik əsaslar üzrə seçib, onların işlərini düzgün bir surətdə cərəyana salmaq.

4- Yerlərdə sağlam azadlıqsevər adamlardan rayon və qəsəbə başçıları seçib, onların vasitəsi ilə keçmiş zalimcəsinə hərəkətlər və xalqı təhqir edici əməllərin qarşısını alıb, bütün ölkədə təhlükəsizlik və asayişi təmin etmək.

5- Jandarm və polis idarələrini xain və xalqı əzib fəlakətə sövq edən şəxslərin əlindən çıxarıb, azadlıqsevər və vətənsevər şəxslərə tapşırmaq və onların işlərini xalqın arzu və ehtiyaclarına mütənasib bir hala salmaq.

6- Vergi qanunlarını nəzərdən keçirmək və maliyyə idarəsinin gəlir və xərclərini təftiş etdikdən sonra, çox tez bir surətdə milli büdcə layihəsini Milli Məclisə təqdim etmək. Ümumiyyətlə mali siyasətin gəlir və xərclərin əsasını məmləkətin inkişaf və təkamülü üzərində qurmaq.

7- Muxtariyyətimizi, Milli Məclisimizi və Milli Dövlətimizi qurmaq və onun gələcəyini təmin etmək üçün

kəndlərdə və şəhərlərdə yaranmış fədai dəstələrini bir mərkəz ətrafında mərkəzləşdirmək, milli xalq qoşunu yaratmaq və bu qoşunun silah və tənzimatını müasir hala salmaq məqsədi ilə ciddi tədbirlər görmək.

8- Mədəniyyət və maarif sahəsində dövlətimizin qabağında iki böyük məsələ durur. Birincisi öz milli dilimizi bütün məktəblərdə rəsmi olaraq qəbul və icra etmək, ikincisi isə ümumiyyətlə savadsızlığa qarşı mübarizə aparmaq, pulsuz və icbari təhsili milli yoluna qoymaq. Bunların hamısından çox, Milli Hökumətimizin ali təhsil məsələsinə əhəmmiyyət verib, milli universitet əsasını qurmağa çalışmalıdır.

9- Ticarət və iqtisad sahəsində Milli Hökumətimiz birinci növbədə milli sənayeimizə əhəmmiyyət verib, mövcud zavodları düzgün yoluna qoyacaq. İkinci növbədə də yeni zavodlar açmaqla, məmləkətin sənayeinə olan ehtiyaclarını təmin edəcəkdir. Ticarət sahəsində dövlətimiz Azərbaycanın ticarət mərkəzi ola bilməsi üçün tədbirlər görəcək və yollar arayacaqdır.

10- Yolların təmir və çəkilməsi də, poçt və teleqraf və telefon kimi əlaqə vəsaitinin genişləndirib, müasir hala salınması hökumətimizin əsasi vəzifələrindəndir.

11- Kəndli ilə ərbablar arasında yaranan münaqişələri aradan qaldırmaq üçün qarşılıqlı razılıq şərti ilə, ciddi qanun layihəsi tərtib edib, bu yol ilə kəndli və ərbab məsələsini həll və təsdiq etmək.

12- Kəndlərdə və şəhərlərdə gündən-günə artmaqda olan işsizliyin qarşısını almaq üçün dövlət torpaqlarını tezliklə əkinçilər arasında bölüşdürmək. Həmçinin Azərbaycanı tərk edib onun xaricində milli muxtariyyətimiz əleyhinə təbliğat aparanların da yerlərini zəbt edib kəndlilərin ixtiyarına qoymaq ilə torpaqsız kəndlilər ayaqlandırılmalıdır. Bundan əlavə xalqımızın əksəriyyətini kəndlilərin təşkil etdiyi üçün gələcəkdə Aqrar Bankı elə bir surətdə gücləndirmək lazımdır ki, eliyə bilsin kəndliyə kredit verməklə torpaq məsələsini həll

etsin və ərbablar öz istək və rəğbətləri ilə torpaqları kəndlilərə adilanə qiymətə sata bisinlər.

13- İşsizliklə ciddi mübarizə etmək üçün ciddi tədbirlər görmək, əlsənayisi, yol işləri, zavodlarin təsisi, əkinçilik və ticarətin artması vəsaitindən ciddi surətdə istifadə etməyi lazım görür.

14- Fəhlə və zəhmətkeşin məişətini düzgün yola qoymaq üçün iş və əmək qanun layihəsini hazırlayıb məclisə təqdim etməli və eyni zamanda işçilərin sığorta edilməsini icbari etmək üçün tədbirlər görməlidir.

15- Səhiyyə işinə diqqət yetirib birinci növbədə ümumi və keçici xəstəliklərin qarşısının alınmasi və xüsusilə kəndlərdə və aşağı sinfə mənsub əhaliyə həkim və dərman çatdırmaqla xalqın səhiyyəsini təmin etməlidir.

16- Milli Şura Məclisi tərəfindən bu ana qədər qərara alınmış qanunları, Azərbaycan xalqının həyatına və milli muxtariyyətinə münasib bir surətdə islah edib təzə faydalı layihələr təqdim etmək.

17- Xüsusi mülkiyyət haqında Azərbaycan Milli Hökuməti, məmləkətin bütün sahələri üçün xüsusi mülkiyyəti qəbul edib, məmləkətin və xalq iqtisadiyyatının inkişafına və xalqın vəziyyətinin yaxşılaşmasına səbəb olan hər növ xüsusi hərəkətlərə köməy edəcəkdir.

18- Azərbaycan Milli Hökuməti, ölkədə yaşayan ümum əhalinin vicdan və inam azadlığına ehtiram edəcəkdir.

19- Azərbaycan Milli Hökuməti, Azərbaycanlılarla birlikdə Azərbaycanda yaşayan bütün vətəndaşları xüsusi ilə kürdlər və başqalarını hüquq və qanun qarşısında eyni hesab edir.

20- Azərbaycan Milli Hökuməti, mərkəzi İran hakimiyyəini tanımaqla yanaşı bu hökumətin Azərbaycanın muxtariyyətinə müxalif olmayan, Azərbaycan xalqının təsisçilər məclisi və Azərbaycan məclisinin müraciətnamə və

qərarlarında qeyd olunan milli hüquq tələblərinə zidd olmayan tədbirləri həyata keçirəcəkdir.”

Bərnamənin ətrafında müfəssəl (mükəmməl) surətdə bəhs etdikdən sonra rəy alındı və Azərbaycan Milli Hökumətinin bərnaməsi ittifaqi arailə təsdiq olundu.

20 maddədən ibarət olan bu proqram əsasən 12 Şəhrivər elamiyyəsi və firqə məramnaməsi üzərində yazılmış olsada onda çox yeniliklər vardır. Əvvəla məramnamə və ya şüarlar xalqı təbliq edib, onu mübarizəyə çəkmək üçün yazınmışdır. Ona görə onların cümlələrində nisbətən küllüyata aid sözlərdən pərhiz olunmamışdır. Halbuki, bərnamə çox qısa cümlələrlə yazılıb, fikirlər aydın, əməli və tapşırıq üzərində meydana qoyulmuşdur.

Məramnamə və elamiyyədə milli muxtariyyətin hüdudu əyalət və vilayət əncümənlərindən təcavüz (kənara çıxmaq) etmədiyi halda, proqramda isə tam mənası ilə demokratik bir hökumət quruluşu irəli sürülmüş, milli muxtariyyətin davam və bəqasını (qalmasını) təmin etmək üçün ciddi tədbitr göstərilmişdir.

Dövlət bərnaməsində biz elamiyyə və firqə məramnaməsində verdiyimiz vədləri nəzərə alıb, muxtariyyətimizin Iran daxilində məhdud olmasını təmin etməyə çalışıb, onun birinci maddəsində səri və aydın surətdə bəyan etmişdik.

Bununla belə biz göstərmişdik ki, Iranı təcziyə edib (bölüb) dağıltmaq fiskrində deyilik. Əgər mürtəcelər imkan versələr, İran çərçivəsində qalmaq şərtilə öz xalqımızın səadətini təmin etməyə çalışıb, fəaliyətimizi fəqət milli muxtariyyət əsası üzərində əsaslandırmağa kifayət edə bilərik. Bunu isbat etmək üçün hərbi və xarici vizarətxanaların təşkilindən sərfi-nəzər etmişdik.

Beləliklə firqəmizin təsisindən başlayıb, intişar verdiyimiz mədrəklər, danışdığımız sözlər, meydana atdığımız şüarların

müəyyən bir hədəf, düşünülmüş bir məqsəd üzərində olduğunu daha, qəti surətdə isbat etməyə müvəffəq olmuşduq.

Biz bu vasitə ilə xalqa göstərmişdik ki, sözlərimiz təzahür və havavü-həvəs üçün ağızdan çıxan boş sözlərdən ibarət deyildir. Dediyimizin mənasını bilidiyimiz kimi, gördüyümüz işlərin əhəmiyyətini də görürük.

Milli Hökümət haqqında milli nehzətin yaratdığı təbii bir üsul idarəsinin başlanğıcı idi. Biz milli şüarlarımızı yazarkən bilirdik ki, muxtariyyət məsələsi əncuməni-əyaləti vasitəsilə təyin olunmaz. Bundan daha əsaslı bir quruluşa mübarizə (etməyə) ehtiyac vardır. Etiraf etməliyəm ki, o gün bu quruluşun Milli Hökumət namı ilə meydana çıxacağın biz iddia edə bilməzdik. Bu quruluşu təcrübə və Tehranın mürtəce qüvvələri ilə apardığımız mübarizə meydana çıxarmışdı.

Bizim bilib, düşünüb, anladığımız isə xalqımızın hədəfi Tehranın irticai dövlətinə ümüd bağlamadan öz məqəddəratına hakim olması idi. Bu mqsədə yetişmək üçün təcrübə Milli Höküməti meydana çıxartdı. Hökumət xalqa və əfkari-ümumiyə (əhalinin fikrinə dayandığı üçün) onun gördüyü birinci qədəm özünün təşkilini dünyaya və Azərbaycan xalqına bildirmək, eyni zamanda ölkənin daxili əmniyyətini təmin edərək, dövlət işçilərinin vəzifələrini göstərmək və dövlət əmvalını (vəsaitini) təərüzdən (dağılmaqdan) saxlamaq üçün intişar verdiyi aşağıdakı elamiyyədən ibarətdir.

**Azərbaycan Milli Hökumətinin Elamiyyəsi**

Azərbaycan Milli Məclisinin seçdiyi Azərbaycan Milli Dövləti, İranın müstəqilliyi və ərazi bütövlüyünü saxlamaqla yanaşı, işə başladığını bu vasitə ilə bütün xalqa elan edir.

Bu elamiyyə yayılan gündən (12 Dekabr 1945-ci il) etibarən, xüsusi mülkiyyət qorunmaq şərti ilə bütün Azərbaycanda olan dövlət idarələri yeni hakimiyyətin ixtiyarına keçdiyindən, bütün dövlət məmurlarına öz

vəzifələrini düzgünlük və sədaqətlə yerinə yetirməklərini tapşırılır.

Yeni dövlətin əmrlərinə tabe olub, onun göstərişi ilə hərəkət edən işçilər üçün münasib iş şərayiti yaradılacaq, işləməkdən imtina edənlər isə tam ehtiramla istədikləri yerə göndəriləcəklər.

Azərbaycan Milli Hökuməti xalqın səadət və xoşbəxtliyidən ötrü qurulduğu üçün, bütün xalqı fəaliyyətə, düzlüyə, asayiş və əmniyyəti qorumağa, bir- biri ilə qardacasına yaşamağa çağırır.

Əmniyyətə xələl gətirən və xalqın malı, canı, namüsu və şəxsiyyətinə toxunanlar, həmçinin dövlət malına xəyanət əli uzadıb dövlət idarələrindən sui-istifadə edənlər və ya dövlət idarələrində təxribatıq, boşluq və öz vəzifəsində nüqsana yol vermək kimi xəyanətlər büruzə vernlər isə xalq düşməni hesab olunub, xalq və dövlətin nifrətini qazanmaqdan əlavə, qanuni məhkəmə vasitəsi ilə cəzalandırılacaqlar.

Azərbaycanın gələcəyi yoluunda hamıdan xalqa və ölkəyə xidmət və ciddiyyət gözlənilir. Dövlət isə onun şərayitini yaratmağa çalışacaqdır.

Azərbaycan Milli Nazirlər heyət eyni zamanda Azərbaycanda ezamiyyətdə olan xarici dövlətlərin diplomatik nümayəndələrinə məlumat verir ki, əvvəlcə olduğu kimi onların beynəlxalq qanunlar şərayitində olan hüquq və ixtiyarlarına tam diqqət və ehtiramla riayət olunacaqdır. Eyni halda demokratik dövlətlərin vətəndaşlarının asayiş və təhlükəsizliyini qorumaq yolunda Milli Dövlət əlindən gələni əsirgəməyəcəkdir. Bu gündən etibarən dövlətə məxsus olan daşınar, daşınmaz əmləakın; həmçinin nağd və cins və etibar milli, dövlət ixtiyarına keçdiyindən, onların saxlamağına vəzifəli olan dövlət məmurları, keçmişdə verdikləri öhdəlik və qəbul etdikləri məsuliyyət üzrə, onları saxlamaq və qorumağa məcburdurlar. Bu əmlakı dağıdanlara ağır cəza tətbiq ediləcəkdir.

Artıq Azərbaycan Milli Hökuməti yaranmış, xalqın iradəsi ilə daxili və Milli Dövlətimiz qurulub, rəsmi surətdə xalqımızın arzu və amalını icra etməyə başlamışdır. Xalq isə var gücü ilə öz milli hökumətinə kömək göstərib onun fəaliyyəti üçün münasib şərayit yaratmalıdır.

Yuxarıda qeyd edildiyi kimi dövlət var gücü ilə əmniyyəti qorumağa çalışır. Ona görə də xalqın nigəran olmağına heç bir səbəb yoxdur. Hər kəs öz işinə məşğul olmalı, öz istədiyi kimi yaşamalıdır. Bazarı bağlamaq, məktəbləri buraxdırıb, qorxu və təşviş yaratmaq mənasızdır. Hökumət öz proqramını xalqın ehtiyacı üzərində qurmuşdur. Ona görə də xalqı rahatsız edən hadisələrə yol verməyəcəkdir. Təsadüfi hadisələrə isə çox tez bir zamanda son qoyulacaqdır. Avanturistlər, asayişə xələl gətirənlər səlahiyyətli məhkəmə tərəfindən mühakimə və kəskin surətdə cəzalandırılacaqlar. Heç bir pis hadisə baş verməyəcəkdir. Heç kimin hüququna toxunulmayacaqdır. Milli Hökumət hüquq mühafizə idarəsini təzə qüvvələr, geniş səlahiyyətlə gücləndirmişdir. Anarxiya və qeyri sabitliyə artıq meydan verilməyəcəkdir. Xüsusilə məktəblərimiz həmin keçmiş proqramlarını davam etməli şagirdlərimiz var gücləri ilə imtahanlara hazılaşmalıdırlar.

Kəndlər və rayonlarda isə ciddi surətdə işə başlanıb addi vəziyyət yaranacaq və dövlət işçiləri, fədayilərin və ya cavabdeh şəxslərin müdaxiləsi olmadan öz vəzifələrinə əmə etməyə qadir olacaqlar. Fədayi dəstələri intizama salınıb müəyyən mərkəzətabe olacaq və bu vasitə ilə hər bir hadisə ehtimalının qarşısı alınacaqdır.

Gedin çalışın, fikriniz rahat olsun ki, millətimizin gələcəyi və səadətini təmin etmək üçün qəbul etdiyimiz vəzifəni sədaqət və inamla yerinə yetirin. Dövlət bütün vətəndaşlardan bunu tələb edir.

**Azərbaycan şairi Haşim Tərlan**

***21 Azər – Pişəvəri***
***"poema"***

*Tutub qəddar ətəyindən mən zamanın*
*Çox yanmışam bir arzunun həsrətinə*
*Xalqım deyə, şam tək yanan bir insanın*
*Rəssam kimi cilvə verən surətinə*

*****

*Hər cəbhənin bayraqdarı o rəhbərin,*
*Yeri boşdur çox şairin dəftərində*
*Dar ayaqda Ilhamçısı, hər səngərin*
*Nəqş olunsun ədiblərin əsərində.*

*Cavan vaxtı qucağında meşələrin*
*Gəldim dedi Talışlara, Giləklərə.*
*Kəsmək üçün nahaqların rişələrin*
*əl uzatdı kömək uman diləklərə.*

*Həcər kimi igid ana doğdu onu,*
*Dedi: "Dərdin qoy qarışsın el dərdinə*

*Bilməsən də şadlığının nə olduğunu,*
*Rəhm eyləmə hər dövranın namərdinə".*

*Buludlardan çaxan zaman ildırımlar*
*O göz ucu baxıb, güldü zindanlara*
*Qışda tufan, yay çağında isti qumlar,*
*Məhəbbətin kəsəmmədi insanlara.*

*Vətən dedi o göz yumdu eyşi-nuşdan,*
*Qürbətdə də can söylədi dosta, yara,*
*Araz üstə ötüb keçən qaranquşdan*
*Dedi: "Məndən salam apar obalara,*
*Salam apar ana yurda bilsin ki, mən*
*Ayrılığın həsrətindən daş üstəyəm*
*Doğrudur ki, o tay vətən, bu tay vətən*
*Sənsiz yenə harda olsam qəfəsdəyəm".*

*Salam apar, söylə məndən qoç Təbrizə,*
*Eşidirəm qolunda ki, zəncir səsin*
*Araz necə dərin olsa üzə-üzə,*
*Gələcəyəm heç də düşmən sevinməsin...*

*Sən öləndə təəsüflər kölgə saldı*
*Qaldı elin baxşıları yolarına*
*Son nəfəsdə yana-yana gözün qaldı,*
*Bu tayların xəzən vurmuş baharında.*

*Bağban oldun, girdin bağa gülə-gülə*
*Bir gül əkdin, qunçələndi gül açmadı.*
*Saz götürüb, nəğmə dedin bizim elə*
*Əfsus ola sarı simlər dil açmadı.*

*****

*Sən anadan olan gündən,*

*Inqilabçı yarandın sən.*
*Üsyan etdin qaranlığa,*
*Düşmən oldun fironluğa.*
*Hər tərəfdə sitəm gördün,*
*Zülm əlindən matəm gördün,*
*Getdin xalqın köməyinə,*
*Çarə etdin diləyinə.*
*Qələm çaldın sola-sağa,*
*Şahlar düşdü əl-ayağa.*
*Süngü oldun dar gözlərə*
*Salam dedin gündüzlərə*
*Ellər gəldi sorağına*
*Göz tikdilər bayrağına.*
*Baıxıb sənə can dedilər,*
*Günəş kimi yan dedilər.*
*Haray saldın, car eylədin.*
*Azadlığı var eylədin.*
*Qından çəkib, qılıncını*
*Nişan aldın şah tacını.*
*Ingilislər hürüşdülər,*
*Amerikayla görüşdülər.*
*Boylandılar bizim yurda,*
*Var dedilər xətər burda,*
*Sən atını çapa-çapa,*
*Heç baxmadın bu hap-gopa.*

*****

*Azər ayı gəlib çatdı,*
*Fədailər at oynatdı,*
*Vətən oldu qəmdən uzaq,*
*Dastanımın ardına bax.....*

*Azər ayı! Nə gözəldir adın sənin,*
*Mən verərəm səni ömrün anlarına.*

*Gəlişinlə çiçəkləndi bu vətənim,*
*Şührət oldun bizim odlar diyarına.*

*Azər ayı! Sən ox oldun yad gözünə*
*Şəfəqlərin gedib çıxdı Vaşinqtona.*
*Duman çökdü ac lordların gündüzünə,*
*Çaqqal kimi ulaşdılar yana-yana.*

*Rəhbərimiz qələm çəkdi 11 aya*
*Dedi: "Azər körpü olsun al səhərə.*
*Iyirmi bir Azər günün saya-saya,*
*Qızıl səslə yazdı səni təqvimlərə.*
*Çaxdı şişmşək, buludlardan yağdı yağış,*
*Çoşdu sellər, şaqqıldadı gen dərələr.*
*Baş qovzadı göy çəmənlər qarış-qarış,*
*Açdı qoynun bizə bağlı pencərələr.*

*Səhənd baxdı ağbirçəkli Savalana",*
*Gördü gülür, həna yaxıb əllərinə.*
*Al günəşdə kənarında yana-yana,*
*Sığal verir onun qara tellərinə.*

*Nəzər saldı dadlı, duzlu göy Xəzərə,*
*"Urmu gölün" gördü gəlib muşduluğa*
*Asimandan izn verib, şux qəmərə,*
*Salam desin, bu bayrama, bu dostluğa.*

*Şadlığından xan Araz da baxıb yurda,*
*Göz yaşını nisar etdi bu taylara.*
*Insaf deyil, solum azad, sağım darda,*
*Alqış olsun məhəbbətə yüz ilqara.*

*Həyat güldü, çiçəkləndi Azərbaycan,*
*Firqə açdı düyünlənmiş bu hikməti.*

*Rəhbərimiz Pişəvəri oldu bağban,*
*Budur bizə firqəmizin əzəməti.*

*Sona yetdi başımızdan qaxıntılar,*
*Paslı qıfil parçalandı dodaqlardan.*
*Nəğmə dedi saz əlində "Hüseyn cavan"*
*Tüstü çıxdı sönük qalmış ocaqlardan.*

*Vəcdə gəldi şairlərin batan səsi.*
*Şerləri ayna oldu firqəmizə.*
*Ilmə çalan gözəllərin təranəsi,*
*Fərah verdi qatarlanmış cərgəmizə.*
*Dar çəkildi şəhərlərə, obalara,*
*Səs verildi elin sevən vəkillərə.*
*Milli məclis şəfəq saçdı bu diyara,*
*Arxalandı Azər adlı nəsillərə.*

*Qədəm qoydu igid olan bu məclisə,*
*Vətən deyə and içdilər bu torpağa;*
*Koroğlu tək əclafları kəsə-kəsə*
*Loğman kimi girəcəyik hər otağa.*

*Nitqə gəldi bu məclisdə Pişəvəri,*
*El dərdiylə alovlana fərzanəmiz.*
*Mən də gördüm danışan da O rəhbəri,*
*Dedim: "Təzə Babək doğub zəmanəmiz"*

*Dedi: Dostlar! Qulaq verin sözüm çoxdur*
*Yurdumuzun köz bağlayıb, yaraları.*
*Bundən artıq xalqımızda dözüm yoxdur,*
*Adam saysın Fironları, Baraları.*

*Nəsil-nəsil sürülmüşük bu ölkədə,*
*Haq sözümüz xoş gəlməyib, hakimlərə.*

*Cəllad kimi addımlayan hər kölgədə*
*Rast gəlmişik fərmanlara, təhkimlərə.*

*Hər kim yalan uydurmalar yaxsa bizə*
*Iran ilə qırılmazdır ilqarımız.*
*Əgər Tehran bir qul kimi baxsa bizə*
*Bu məclisin qüdrəti şüarımız.*

*Nur saçıldı bu məclisin şöləsindən,*
*Muxtariyyət eşqilə yananlara,*
*Qoy ar olsun!!! Uca səslə deyir vətən*
*Bu tarixi, bu varlığı dananlara.*
*Böhtan demək bir nehzətə asan deyir,*
*Səsimizə səs veribdir xalqın səsi.*
*Qoy eşidsin bütün aləm: şayan deyir,*
*Firqəmizə təcziyəlik əfsanəsi.*

*El yapışdı bu məclisin ətəyindən,*
*Güldü solan qəlbində ki, muradları.*
*Üfüqlərdən əsən bahar küləyindən*
*Ilham aldı könüllərin qanadları.*

*Bu baharın keşikçisi, milli qoşun,*
*Ələ aldı Səttarxanın tüfəngini.*
*Səngər etdi ana yurdun dağın-daşın,*
*Ədalət də tapdı burda öz rəngini.*

*Əvəz oldu təməlindən qədim nizam,*
*Çırmalandı yeni dünya yaradanlar.*
*Ana vətən öz qoynunu açıb, tamam*
*Dedi: gəlin ürəyimdə çox yaram var.*

*Səttarxanda baş qovzayıb, məzarından*
*Gileyləndi bu ellərin şan, şəfəri.*

*Dedi: mənim adım ilə bir Xiyaban*
*Yaraşarmı tozlu qala hər tərəfi?*

*Təbriz açdı gözlərini bir gün səhər*
*Gördü gülür ayna kimi xiyabanlar.*
*Dan yeri tək parıldayır gen küçələr,*
*Göydən baxır yer üzünə asimanlar.*

*Qara asfalt töküldükcə hər meydana*
*Qoca təbriz cavanlaşdı bir anlıqda.*
*Xəbər çatdı qəlbi sınıq Tehrana*
*Kor vicdanı yanıb, batdı qaranlıqda.*
*Nazlandıqca gəlin kimi doğma şəhər,*
*Daraq dəydi min tərəfdən saçlarına.*
*Çıxdı yaddan xumarlandı gülən gözlər.*
*Baxdı ərkə, qoynundakı öz yarına.*

*Lotulardan nə iz qaldı nə də əsər*
*Gözdən itdi əli qəmə çomaqlılar.*
*Təngələrdə bac alanlar, bac verənlər.*
*Kor Rəhim tək fəramilər yox oldular.*

*Qarnı yırtıq Kazım getdi dar başına,*
*Ibrət oldu əli əyri gəzənlərə.*
*Açıq-aydın xalqı soyan öz xoşuna*
*Sona bitdi ürək sıxan bu mənzərə.*

*Yerin verdi qaranlıqlar ağ gündüzə*
*Ənn-amandan nəfəs  çəkdi bütün yollar.*
*Bir məsəl də babalardan qalıb bizə,*
*"Başa qızıl alıb dolan diyar-diyar".*

*Demokratizm qanad verdi qanunlara*
*Düzgün yola düşdü bütün idarələr.*

*Haq verildi haq danışan insanlara*
*Parçalandı sərnizələr, qəddarələr.*

*Firqəmizin qüdrətindən, keçmişlərin,*
*Pas bağlamış çərxi gəldi hərəkətə.*
*Kəndli xışın vurdu yerə dərin-dərin,*
*Gəldi taxıl, çörəyimiz bərəkətə.*

*Əkinçilər uzun zaman qəlbində dağ,*
*Yer şumladı bəy, xanlara iqbal deyə.*
*Milyon illik bir qanunu sındıraraq*
*Milli dövlət torpaq verdi əkinçiyə.*
*Dünya elm, sənət diyə uçan dəmdə*
*Boğulurdu cəhalətdə Azərbaycan*
*Firqə açdı ali məktəb öz ölkəmdə*
*Qoca təbriz bir gül asdı yaxasından.*

*O zamanlar məktəblilər ilkin dəfə*
*Nan yerinə, çörək yazdı dəftərinə*
*Sevincindən baxa-baxa hər tərəfə*
*Gözün dikdi sabahın al səhərinə.*

*Dedim: ana sən də oxu.*
*Dedi: Bala! Dilim yatmır dilimə yad olan dilə*
*Hansı dildir çox sevdyin! Gəldi hala,*
*Mən aşiqəm sənə layla çalan dilə.*

*Ana dildə mən kitabın nişan verib,*
*-buyur ana bu da sənin doğma dilin.*
*Nəmli gözlər baxdı mənə,*
*O kövrəlib, gülə-gülə saçlarıma çəkdi əlin............*

*Şər yaradan tüfeylilər daraqlandı.*
*Hər quşədə hökm eylədi bir intiqam.*

*Köhnə qanun, köhnə nizam varaqlandı.*
*Müjdə verdi, gələckdir yeni əyyam.*

*Kargərlər birləşdilər şuralarda*
*Əmək, qayğı cavanlaşdı biləklərdə.*
*Şəfa tapdı köz bağlayan yaralar da,*
*Həyat eşgi təzələndi diləklərə.*

*Toy paltarın geyib bizim Meşkin şəhər*
*Fədailər küçələrdə dəstə-dəstə*
*Qaradağın şux gəlini nazlı Əhər*
*Sanki səhər damcısıdır yarpaq üstə.*
*Ulduz kimi o sayrışan səhəndə bax,*
*Vəsmə çəkir Marağanın qaşlarına*
*Urmiyyənin gözlərində yanır çıraq*
*"Azad Vətən" keşik çəkir el varına.*

*Diqqətlə bax!!! O bəxtəvər Mərəndə sən*
*Gündüz salıb gecələrə öz rəngini.*
*Yolun düşər o diyara gələndə sən*
*Eşidərsən səadətin ahəngini.*

*Xoyda açıb, yaşmağını gülür bizə,*
*Deyir baxın nə xan qalıb, nə əmniyə.*
*Xar yerinə bənövşələr çıxıb, düzə*
*Qurdla qoyun bəham gəzir ülfət deyə.*

*Bir gün səhər dan yerinə düşəndə lək*
*Könülləri salamladı el nəğməsi.*
*Ilkin dəfə koroğlunun nərəsi tək.*
*Dalğalandı radiomuzun mğrur səsi.*

*Qurban olum şux dilinə danış Təbriz*
*Deyilməmiş sözün çoxdur bilir hamı.*

*Dünya olsun şokətinlə tanış Təbriz*
*Alğışlasın səndəki, bu ehtşamı.*

*Zinət verdi cəlalına Azər ayı,*
*yirmibir qələm çəkdi rizarətə*
*Yirmi dördün ulduzlara bənəzər ayı*
*Tarix oldu, şöhrət oldu bir millətə.*

*Bəxtim kimi gülümsədi incəsənət*
*Susən qəmli sənətkarlar dilə gəldi.*
*Açdı qoynun sənətkara milli dövlət,*
*Koyugundən çıxan sazlar dilə gəldi.*
*Arzulara qanad verdi filarmonu,*
*"Sazçı qızlar" süzüb, gəldi dəstə-dəstə*
*Vətən atdı əynindəki köhnə donu,*
*Göyərçinlər mahını dedi dağlar üstə.*

*Lalə baxdı boynu bükük bənövşəyə*
*Dedi səndə bu davranış hardan belə*
*Nəzər eylə bağçadakı hər quşəyə*
*Sarı bülbül nəğmə deyir güldən-gülə.*

*Ay qız "Məryam" az baxginən o güzgüyə*
*Filarmonu bayram edib, şeyriyəti.*
*Baxdı Məryam gördü "Rizvan" " Sənsiz" deyə,*
*Xoş səsilə heyran edib, təbiəti.*

*****

*Duman gəldi günəş batdı,*
*Şər doğuldu.*
*Ana yurdun gözəlləri yasa doldu.*
*Öləndə də vətən sözü şüar oldu.*
*"Cavidan" tək hər şəhidin dodağında*

*"Ibrahimi" Eynalıya baxa-baxa*
*Dedi: ölləm anam mənim birdə doğa.*
*Varlığıma buludlardan şimşək çaxa,*
*Baş əymərəm firounların qabağında.*

*Şəhidlərin cərgəsinə canan gəlir*
*"Xəlil" dayı çün Babəki- zaman gəlir*
*El dərdinə yammaq üçün insan gəlir*
*Xalqımızın yandırdığı ocağında*

*"Yekanini" son nəfəsdə boğduqca kin,*
*Dedi: xələf övladıyam mən Babəkin.*
*Ölsəmdə mən parlayacaq günəş təkin,*
*Əməllərim azadlığın çırağında.*

*O dad çəkdi: mən general Əzimiyəm,*
*And içmişəm məsləkimdə Nəsimiyəm,*
*Tufanların qarşısında dağ kimiyəm*
*Dayanmışam firqəmizin dayağında.*

*"Tağızadə" dar ağacın həqir sandı,*
*Geniş qəlbi qəzəblənmiş bir ümmandır.*
*O son dəmdə vətən dedi vətən andı,*
*Gözün yumdu ana yurdun qucağında.*

*Nəərə çəkdi bizim "Səriyə" ulduzu,*
*Dedi: mənəm şahsevənin Həcər qızı*
*Igid ellər alacaqdır qanımızı,*
*Sabah doğan ingilabın ayağında.*

*Mən "Sübhiyəm" qoy yaşasın bizim diyar,*
*Döyüşlərdə eniş də var, yoqquş da var,*
*Mən ölsəm də övladlarım sabah yaşar.*
*Əsib gələn al səhərin sazağında.*

*Mən şairəm "Niknamdır" adım,*
*Cəllad!!! Vətən eşgi ürəyimdə açıb qanad.*
*Ölüm nədir! Oda mənə başqa həyat,*
*Fəqət könlüm sızıldar el sorağında.*

*****

*Ərk qalası indi söylə nədir sözün?*
*O dövranı, o günləri gördün özün*
*Car eylərəm bu dünyada sözün düzün:*
*Vətən yanır şəhidlərin fərağında...*

*****

*Şair nə çün dayanmısan? Yaz! Qələmin.*
*Carçı olsun öz gördüyün şad günlərə.*
*Şah əli ilə pərdələnmiş o aləmin,*
*Həqiqətin, tarix diyə yazar dəftərə*

*Yaz sözlərin dönsün durna qatarına,*
*Əlin sıxsın hicrandakı könüllərin*
*Qədəm qoysun Pişəvəri məzarına*
*Alqış desin, haq sayına o rəhbərin.*

*İllər ötüb, calandıqca əsillərə*
*Yaşamışam öz evimdə qonaq kimi*
*Məğlub təkin bənzəmişəm əmirlərə*
*Dar gözlərə görünmüşəm yamaq kimi.*

*Qoy sanmasın dünya məni lal olmuşam;*
*Yaxud Əli Şəmşirliyə baş əymişəm.*
*Mən tufanlar qucağında doğulmuşam.*
*Mən üsyünüm ,mən vulakanam, budur peşəm.*

***1358-ci (1980) il Tehran***

***Haşim Tərlan***

***<u>Firqəmiz</u>***

*Məşrutə tək inqilab, əridikcə şam kimi*
*Yenə böhtan, yenə daş qalağıdır Firqəmiz*
*Enişlərdə bərkimiş, yoxuşlarda vüqarlı*
*Bir qocaman çinarın budaqıdır Firqəmiz*

***

*Mən aşıqam səslənən,əlimdəki bu rübab*
*Səadıtin marşidir.nə röyadır nə də xab*
*Bir qəhrəman millətin övladıdır inqilab*
*İnqilabın bükülməz  dayağidir Firqəmiz*

***

*İnqilabın hüsnünə toxunmasin şər dedim*
*Əlvan qanadlarindan ayrilmasin pər dedim*
*Ürəyimin başinda balam kimi bəslədim*
*Ona işıq,nur verən çırağıdır Firqəmiz*

***

*Belin bükər şübhəsiz səslənəndə hər Kaman*
*Bükülməsə bəllidir ox ayrilmaz kamandan*
*Sədaqətim ucundan məm olsam da bağri qan*
*Bağrimdaki lalənin yanağidir Firqəmiz*

***

*Duman kimi firqələr gəlib-gedib,mən varam*
*Pərvazlanib küləkdən,səmən kimi mən varam*
*Ruyin-təni  dövran  kimi mən varam*
*Demə beş gün ömrün qonağıdır Firqəmiz*

***

*Sağ qolum qət olsada,qürrələnmmə solum var*
*Solum varsa bədəndə.bəs deməli qolum var*
*Mən al günəşdən duru,cəhanşumul yolum var*
*Bu yollarin sönməyən ocağıdır Firqəmiz*

***

*İldırımlar dəm bə dəm,başım üstə çaxsa da*
*Varlığıma iftira,böhtan daşi yağsa da*
*Son nəfisim dodaqdan qətrə-qətrə axsada*
*Yurdumuzun nəgməkar dodağıdır Firqəmiz*

***

*Mən aşiqəm.şührətim bu ellərə bəllidir*
*Sədaqətim gün kimi nəsillərə bəllidir*
*Sədaqətim gün kimi nəsillərə bəllidir*
*Bu ellərin haqq deyən dodağıdır Firqəmiz*

***

*Bu səngərdən döyüşdə, o səngərə süründüm*
*Şahların addımından qopan toza büründüm*
*İnqilab sınaqdan çıxıb, başda göründü*
*Bu yollarin dalğalı bayrağıdır Firqəmiz*

***

*İndi məqam başında,sağlar qolu çomaqlı*
*Şuarlari inqilab,üzü qərbə adaxli*
*Zahirdə təmtəraqlı, batində min yamaqlı*
*Niqablı vicdanlarin dustağıdır Firqəmiz*

***

*Mən inqilab sırdaşı,ömrüm şəkdə,gümanda*
*"Sağlar"qərbin oynaşı,gəzir əmn-amanda*
*Ulduzlar qatarlarindan,sabah şən asimanda*

**MÜNDƏRICAT.**

**Tərtibatçı** ........................................................... 3
**Ön söz** ................................................................ 5
**S.C. Pişəvərinin tərcümeyi-halı** ......................... 9
**Milli Nehzətdən qabaq Azərbaycanda siyasi Firqə və ictimai təşkilatlar** ........................................ 21
**Hizbi-Tudeyi-İranın Azərbaycan təşkilatı Niyə irəli getmirdi**..................................................... 24
**Azərbaycan Zəhmətkeşlər Təşkilatı** ........... 25
**Azərbaycan Cəmiyyəti**
**Hizbi-Tudeyi-Azərbaycan faşist** .................. 29
**Irani-Bidar** ............................................ 30
**Zidd-Faşist Cəmiyyəti** ............................... 31
**Həmkarlar İttifaqı**................................... 32
**Cəbhəi – Azadi (Azadlıq Cəbhəsi)** ............... 47
**Nəticə** ..................................................... 50
**12 Şəhrivər Müraciətnaməsinin məzmunu** ........ 58
**Bizim şüarlarımız bunlardır** .......................... 71

**Firqə quruluşu yolunda şüarlar və fəaliyyətimizin təsiri** ........................................................ 86
**Firqənin birinci konqrəsi və onun qərarları** …….. 113
**Azərbaycan Demokrat Firqəsi** …………………… 136
**Irtica Cəbhəsində Fəaliyyət** ………………………. 147
**Tehran Ajir nömrə 171 əvvəl mordad 1323** ……… 156
**21 Azərdən qabaq aparılan diploması mübarizə** …. 180
**Ağayi Siqətül-Islamın mənzilində olan xüsusi müzakirənin cərəyanı** ………………………………… 185
**Mərkəzi hökumət nümayəndəsi ilə aparılan danışıqlar haqqında** ……………………………. 188
**Bu qismətdə çox müfəssəl olaraq, Izah edilməlidir** 191
**Azərbaycan nümayəndə heyətinin ağayi Bəyat ilə apardıqları danışıqlar** ………………………….. 192
**Kəndli 21 Azər günlərində** ……………………….. 198
**"Azərbaycan" ruznaməsinin 56-cı şumarəsində** …. 216
**21 Azər yolunda** ……………………………………. 221
**Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsinin ümumi iclasının çıxartdığı qərarlar** …………………. 228
**Ikinci dövrənin şüarları** …………………………….. 238
**Pratik (əməl) mərhələsində** ........................................ 239
**Böyük xalq konqrəsi necə təşkil tapdı** ...................... 240
**Xalq konqrəsinin gedişi və ondan çıxarılan qətnamələr** 248
**Azərbaycan xalq konqrəsinin birinci cələsinin qozarişi (raportu)**..........................................................................249
**Xalq konqrəsini ikinci cələsəsı**......................................... 251
**Xalq konqrəsinin üçüncü cələsəsı**......................................257

**Azərbaycan Məclisi - Millisinin qərarları ........................**265
**Azərbaycan Demokrat Firqəsinin həyata keçirtdiyi tədbirlərin dünya ictimaiyyətində təsiri............................**273
**Istemarcların təhdibi bizi tutuduğumuz haqq yolundan qaytara bilməz. Ya ölüm, ya azadlıq, üçüncü yol yoxdur**............................................................ 278
**Azərbaycan millətinə və ümum Iran xalqına Azərbaycan Milli Müəssislər Məclisinin bəyanniyyəsi. (Bəyanatı)**........................................... 281
**Millət özü intixabat fərmanını sadir edir. (hökmünü verir)** ........................................................ 285
**Milli Heyət və onun tarixi əhəmiyyəti**....................... 287
**Milli Məclisimizin intixabatı**..................................... 295
**Azərbaycan Milli Məclisinin birinci gün intixabatı necə keçdi**............................................. 297
**Dünənki intixabatın vəziyyəti**.................................... 300
**Milli Məclisin təşkili münasibətilə**............................. 305
**Fədai dəstələrinin təşkili**.............................................. 307
**Sərhəng Aram Zadəganın xatirəsi**............................. 327
**Ərdəbil fədai dəstələrinin başçısı Əbdül Məcid Məhəmmədqulu oğlu Məhəmmədivənd**..................... 333
**Miyana fədai başçılarından Məmiqulu Sadiqinin xatirəsi.........................................................................** 341
**Sərdsəhra fədai başçılarından Mirəbülfəz Haşmi** .......345
**21 Azər 1324-cü il. (1945) Milli Məclis** ........................ 352
**Azərbaycan Milli Məclisinin daxili nizamnaməs .........**364
**Dövlət təşkili haqqında**................................................... 366

**Milli Hökumətin quruluşu**…………………………….. 368
**Azərbaycan Milli Dövlətinin elamiyyəsi** ...................... 374
**Azərbaycan Milli Hökümətinin proqramı**.................... 369
**Azərbaycanın böyuk Haşim Tərlan**
**21 Azər – Pişəvəri (poema)**.......................................... 377

